**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ**

*Azərbaycan xalqının Ümummilli Lideri*
*Heydər Əliyevin anadan olmasının*
*95-ci ildönümünə həsr olunur*

# HEYDƏR ƏLİYEV
## AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN MEMARIDIR

## RESPUBLİKA ELMİ KONFRANSININ

# MATERİALLARI

***04 may 2018-ci il***

**SUMQAYIT-2018**

# TƏŞKİLAT KOMİTƏSİ

| | |
|---|---|
| **Elxan Hüseynov** *(sədr)* | Sumqayıt Dövlət Universitetinin rektoru, professor |
| **Ramazan Məmmədov** *(sədr müavini)* | Sumqayıt Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru, professor |
| **Natiq Talıbov** | Sumqayıt Dövlət Universitetinin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru, dosent |
| **Qafar Atayev** | Sumqayıt Dövlət Universitetinin Qiyabi, distant və əlavə təhsil üzrə prorektoru, dosent |
| **Ramiz Hüseynov** | Sumqayıt Dövlət Universitetinin Humanitar məsələlər üzrə prorektoru, dosent |
| **Naib Hacıyev** | Sumqayıt Dövlət Universitetinin İqtisadi məsələlər üzrə prorektoru |
| **Həsən Sadıqov** | Sumqayıt Dövlət Universitetinin Fəlsəfə, sosiologiya və politologiya kafedrası, professor- məsləhətçi |
| **Adil Baxşəliyev** | Sumqayıt Dövlət Universitetinin Tarix və coğrafiya fakültəsinin dekanı, professor |
| **Şirxan Səlimov** | Sumqayıt Dövlət Universitetinin Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasının müdiri, professor |
| **Tahir Ağayev** | Sumqayıt Dövlət Universitetinin Coğrafiya və onun tədrisi metodikası kafedrasının müdiri, professor |
| **Səvvarə Rzaquliyeva** | Sumqayıt Dövlət Universitetinin Fəlsəfə, sosiologiya və politologiya kafedrasının müdiri, dosent |
| **Sona Məhərrəmova** | Sumqayıt Dövlət Universitetinin Tarix və onun tədrisi metodikası kafedrasının müdiri, baş müəllim, t.f.d. |
| **Bəhram Məmmədli** | Sumqayıt Dövlət Universitetinin Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasının dosenti |
| **Günay Şükürova** *(məsul katib)* | Sumqayıt Dövlət Universitetinin Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasının müəllimi |

# PLENAR İCLAS

## HEYDƏR ƏLİYEV AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN MEMARIDIR

***Baxşəliyev A.B.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan tarixinin ən böyük tarixi şəxsiyyətlərinin zirvəsində dayanan Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini aşağıdakı 6 böyük və mənalı dövrə bölmək olar.

1. 1923-1939-cu illər - uşaqlıq, gənclik və orta təhsil dövrü.
2. 1939-1969-cu illər - Dövlət təhlükəsizlik orqanlarında xidmət və ali təhsil illəri
3. 1969-1982-ci illər - Sovet Azərbaycanına rəhbərlik
4. 1982 - oktyabr 1987-ci illər - SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini
5. 1990-1993-cü illər - Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə rəhbərlik. Heydər Əliyev 1990-cı ilin iyul ayında Naxçıvana gəldi və payızda keçirilən parlament seçkilərində parlamentə deputat seçildi.1990-cı il 17 noyabr Naxçıvan MR parlamentinin ilk sessiyası keçirildi və sədrliyi H.Əliyev etdi. Üçrəngli Bayraq salona gətirildi və Azərbaycanın bayrağı kimi qəbul olundu. Naxçıvan MSSR adından “Sovet Sosialist” sözləri çıxarıldı.
6. 1993-2003-cü illər - Azərbaycan Respublikasına Prazidentliyi. Xalqın tələbi ilə 1993-cü il iyunun 09-da saat $15^{00}$ – da H.Əliyev Bakıya gəldi. İyunun 11-də Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyətinin binasında Azərbaycanın elm xadimləri ilə görüşdü. İyunun 13-də Milli Məclisin iclası keçirildi. Milli Məclisin sədri İsa Qənbərin istefası qəbul olundu. 1993-cü il iyunun 15-də Azərbaycan Respublikasının Milli Məclisində H.Əliyev Respublika Ali Sovetinin sədri seçildi.

27 iyun 1997-ci ildə Milli Məclisin qərarı ilə 15 iyun 1993-cü il “Qurtuluş” günü kimi tarixə düşdü.

- Xalqımızın milli varlığını dünyaya tanıtdırmaq, müstəqil dövləti yaradıb, dünya dövlətləri səviyyəsinə çatdırmaq kimi şərəfli vəzifəni həyata keçirən şəxsiyyətin – Heydər Əliyevin dövlətçilik xidmətlərinin qısa xülasəsinə nəzər yetirək.
- 1969-cu ilin iyul plenumu, Azərbaycan KP MK-nın I katibi seçilir.
- 5 avqust plenumu – Respublika yeni dövrün başlandığı tarixi plenumu
- İdarəetmədə bacarıq, sətiştə, işgüzarlıq, mənəvi-əxlaqi yetkinlik, yüksək səviyyədə təşkilatçılğı ilə seçilən şəxsiyyət
- 1969-1982-ci illərdə maddi istehsalın artımı və əhalinin sosial müdafiəsi- daxili siyasətin vacib sahəsidir – dövlətçilik üçün ən vacib qəbul olunan şərt

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin sovetlər dövründə inkişafının dinamikasına qısa nəzər yetirək:

- 1969-cu ildə 233 ili sənaye müəssisəsi var idisə, 1982-ci ildə 350-ə yaxın iri və orta sənaye müəssisəsi fəaliyyət göstərirdi. Təkcə bir il ərzində yəni, 1969-1970-ci illərdə Azərbaycanda ümumi məhsul istehsalı 1965-ci ilə nisbətən 34%, milli

gəlir 33%, sənaye istehsalı 37%, kənd təsərrüfatı 27%, əsaslı vəsait qoyuluşu 43%, əsas istehsal fondları 34% artmışdır.

- Ümumtəhsil məktəblərinin sayı 3 dəfə artaraq 765-dən 2117-ə çatmışdır.
- 1969-1982-ci illərdə 350 min şagird yeri olan 849 məktəb tikilmişdir.
- Məktəbəqədər tərbiyə müəssisələrin sayı 1600-dən 1875-ə çatdı.
- Bu dövrdə 5 yeni ali məktəb açılmışdır. Ali təhsil müəssisəsində tələbələrin sayı artaraq 70 mindən 100 minə çatmışdır.
- 1969-1982-ci illərdə 8718 təhsil işçisi SSRİ-nin orden medallarına, 3 nəfər Sosialist Əməyi Qəhrəmanı adına, 817 müəllim Azərbaycan SSRİ-nin əməkdar müəllimi kimi yüksək fəxri adlara layiq görülmüşdür.
- 1969-1982-ci illərdə SSRİ-nin 50 şəhərinin 170 ali məktəbinə 250 ixtisas üzrə 15 min gənc göndərildi.
- 1973-cü ildə uzaqgörənliklə Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəbi çox çətinliklə olsa da açmağa nail oldu. Vaxtilə bu hərbi məktəbi bitirən kadrlarımız bu günkü ordu quruculuğunda güclü kadr potensialıdırlar.

Ümummilli liderin milli siyasəti də diqqət yetirilməli sahələrdən biridir. Heydər Əliyev istər sovet, istərsə də Respublikanın müstəqilliyi dövründə erməni separatizminə qarşı prinsipial fəaliyyət göstərmişdir. Xalqın özünüdərk, milli dirçəliş prosesində 1969-cu ildən nəşr olunan “Qobustan” incəsənət almanaxı və “Ulduz” jurnalları mühüm rol oynayırdı. 1970-ci ildən isə Bakıda “Sovet Türkologiyası” jurnalı çap olunmağa başlamışdı ki, bu nəşrlər də xalqın milli kimliyinin öyrənilməsində tarixi əhəmiyyətə malik idi.

İstər Azərbaycan SSR-in rəhbəri, istərsə də SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini olduğu illərdə (22 noyabr 1982 – 21 oktyabr 1987) Heydər Əliyev ermənilərə əl – qol açmağa imkan verməmişdi. Eermənilər məhz onun 1987-ci ildə istefa verməsindən sonra fəallaşdılar və 1988-ci ildən etibarən Dağlıq Qarabağda erməni separatizmi yenidən qızışdı. Bu isə Azərbaycanın torpaqlarının 20%-nin işğalı ilə nəticələndi.

15 iyun – Qurtuluş günü Azərbaycanın salnaməsinə əbədi daxil olmuşdur. Həmin gün dünya şöhrətli siyasətçi, müdrik dövlət xadimi H.Əliyevin bütün xalqın arzu və təkidi ilə böyük siyasətə qayıdışı günüdür. Bu qayıdış Azərbaycanın bir xalq və dövlət kimi dünya dövlətləri və xalqları sırasından silinmək təhlükəsinin az qala reallaşdığı bir dövrdə xalq kütlələrinin və onun qabaqcıl, uzaqgörən ziyalılarının etdiyi ən düzgün seçiminin nəticəsi oldu.

Hələ 1993-cü ilin oktyabrında Prezident seçilən Heydər Əliyev 10 oktyabr 1993-cü ildə andiçmə mərasimində demişdir: “Azərbaycanın daxilində demokratik prinsipləri bərqərar edərək Respublikanın xarici siyasətində Azərbaycanın müstəqilliyini daim qorucağıq”.

1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlətçilik üçün yaranan təhkükənin uzaqgörən bir siyasətçi olaraq aradan qaldıra bildi. H.Əliyevin dövlətçiliyimizin yaranmasında aşağıdakı xidmətlərini xüsusilə qeyd etməliyik:

- **1994, 4 may** Azərbaycanın NATO-nun “Sülh naminə tərəfdaşlıq” proqramına qoşulması
- **1994-cü ilin mayın 08-də** “Bişkek” protokolu, yəni Atəşkəsin imzalanması

- **1994, 12 may** Qarabağ münaqişəsi ilə bağlı atəşkəsin qüvvəyə minməsi
- **1994, 24 iyul** "Əhalinin sosial müdafiəsi haqqında" Qanunun qəbul edilməsi
- **1994 - 20 sentyabr** atəşkəsin 4 ay sonra "Əsrin Müqaviləsi". İqtisadi, sonra siyasi dəstək
- **1994, 21 noyabr** "Əhalinin Sosial Müdafiəsi Fondu"nun təsis olunması
- **1995-ci ilin martında** "Dövlət Aqrar islahatı" komissiyasının yaradılması
- **1995, 29 sentyabr** "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətiin özəlləşdirilməsi Dövlət Proqramı"nın qəbul edilməsi
- **1995-ci ilin 12 noyabr Konstitusiyasının** hazırlanması və qəbulu
- **1996-cı ildə** YUNESKO ilə əməkdaşlıq haqqında memerandumun imzalanması
- **1996-cı ildə** "Hüquqi islahat komissiyası"nın yaradılması
- **1996 – cı ildə** "Torpaq islahatı haqqında" Qanunun qəbul edilməsi
- **1996, 2-3 dekabr** ATƏT-in Lissabon zirvə toplasında ATƏT-in üzvü olan 54 ölkədən 53-ünün Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul edilmiş Bəyanatda Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi
- **1997-ci ildə** "Məhkəmələr və hakimlər haqqında" qanunun qəbul edilməsi
- **1997-ci ildə** "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın hazırlanması
- **1997-ci ildə "**Kitabi Dədə Qorqud" dastanının 1300 illiyinin geniş qeyd edilməsi
- **1997-ci ildə** "Konstitusiya Məhkəməsi haqqında" Qanunun qəbul edilməsi
- **1997-ci ilin noyabrında** "Mədəniyyət haqqında" qanun qəbul olunması
- **1997-ci il 18 dekabr.** "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Prezident fərmanının verilməsi
- **1998-ci il 30 yanvar.** Azərbaycan Respublikasının Prezidentinin Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 80 illiyinin keçirilməsi haqqında sərəncamı
- **1998-ci il 26 mart.** Azərbaycanlıların soyqrımı haqqında fərmanın verilməsi
- **1998-ci il 13 aprel.** "Azərbaycan Respublikası dövlət atributlarının təbliği işini gücləndirmək haqqında" Prezident Fərmanı
- **1998-ci il 18 iyun.**"İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edilməsi
- **1998-ci ildə** Prezident yanında Məhkəmə Hüquq Şurasının təsis edilməsi
- **1998-ci il 7-8 sentyabr.** Bakıda tarixi İpək Yolunun bərpası üzrə Beynəlxalq konfrans keçirilmiş, "Avropa-Qafqaz-Asiya" dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş və "Bakı Bəyannaməsi"nin imzalanması
- **1999-cu il 18 noyabr.** ATƏT-in İstanbul sammitində Prezident H.Əliyevin "Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı"nın təsis edilməsi təşəbbüsü ilə çıxış etməsi
- **1999-cu il 12 dekabr.** Azərbaycan Respublikasında ilk bələdiyyə seçkilərinin keçirilməsi
- **2001-ci ilin yanvarında** Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması

- **2001-ci il 18 iyun.** "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı
- **2001-ci il 9 avqust.** "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təhsis edilməsi haqqında" sərəncam.
- **2001-ci il 9-10 noyabr.** Bakıda Dünya Azərbaycanlıların I qurultayının keçirilməsi
- **2001-ci il dekabr.** "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun qəbul olunması
- **2002-ci il 5 iyul.** Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması
- **2002-ci il 30 sentyabr.** "Azərbaycan Respublikasıında Dövlət dili haqqında Qanunun qəbul edilməsi Heydər Əliyevin dövlətçilik memarlığının bariz nümunəsidir.

1993-2001-ci illər arasında Heydər Əliyev ATƏT rəhbərliyi və Minsk qrupunun təmsilçilərilə 150-yə yaxın görüş keçirilmişdir. 1993-2001-ci illərdə Heydər Əliyev 68 ölkənin prezidenti və dövlət başçıları ilə 485 görüş keçirmişdir ki, bu görüşlərin hamısında Dağlıq Qarabağ münaqişəsi müzakirə edilmişdir.

Bütün görülmüş bu işlərin nəticəsi olaraq bu gün də Azərbaycanın BMT, ATƏT, AŞ kimi nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığının dayanıqlı xarakter kəsb etməsi, NATO ilə tərəfdaşlıq əlaqələrinin yaradılması və getdikcə güclənməsi kimi həyata keçirilən işlər vaxtı ilə Heydər Əliyev tərəfindən əsası qoyulan uğurlu xarici siyasətin real nəticələridir.

Heydər Əliyevin hakimiyyətdə olduğu bütün dövrlərdə həyata keçirdiyi daxili və xarici siyasət kursu zəmanəmizin tələblərinə uyğunlaşdırılaraq bu gün Prezident İlham Əliyev tərəfindən uğurla yerinə yetirilir. İlham Əliyevin ilk dəfə Prezident seçilməsindən keçən 15 il ərzində gördüyü işlər sübut etdi ki, hələ 2003-cü ilin oktyabrında Heydər Əliyevin İlham Əliyev haqqında dediyi fikirlər tamamilə öz əksini tapdı.

**"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İ.Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyə böyük ümidlər bəsləyirəm"**

## HEYDƏR ƏLİYEVİN 1990-1993-cü İLLƏRDƏ NAXÇIVANDA HƏYATA KEÇİRDİYİ MÜHÜM TƏDBİRLƏR

***Seyidov A.Q.***
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Ümummilli Lider Heydər Əliyevin 1990-cı il iyul ayının 22-də Naxçıvana olan tarixi səfəri əsrlər boyu şüurlarda yaşayacaq, vətənimizin, xalqımızın ictimai-siyasi həyatına qızıl hərflərlə yazılan bu "səfər" və bununla başlayan milli dövlətçiliyimizin, müstəqilliyimizin əsasının qoyulması daima xatırlanacaqdır. Bu səfərdən sonra hadisələr tam başqa axarda cərəyan etməyə başladı. O çətin günlərdə ümummilli lider doğulduğu Naxçıvan şəhərində xalq ilə birlikdə yaşadı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin

söylədiyi kimi: "...Naxçıvanın çox böyük siyasi və strateji əhəmiyyəti vardır. Azərbaycanın müstəqilliyinin əldə edilməsində Naxçıvanın və naxçıvanlıların çox böyük əməyi olmuşdur. Ulu öndər Heydər Əliyevin vətəni, bizim hamımızın doğma diyarı olan Naxçıvan möhkəmlənməli, güclənməlidir. Bu, bizim borcumuzdur, vəzifəmizdir... ".

Heydər Əliyevin Naxçıvana gəldiyi gün şəhərin Azadlıq meydanında 80 min nəfərdən çox adamın iştirakı ilə keçirilən mitinqdə ümummilli lider çıxış etdi. Bu, sadə bir çıxış deyildi. Heydər Əliyevin hər bir cümləsi Azərbaycanı müstəqilliyə doğru aparan çox çətin, lakin şərəfli bir yolun qısa, mükəmməl tezisləri idi.

Heydər Əliyev 1990-cı il sentyabrın 30-da Azərbaycan SSR-in və Naxçıvan MSSR-in xalq deputatı seçildi. Onun sədrliyi ilə keçirilən muxtar respublika Ali Sovetinin 17 noyabr tarixli ilk sessiyasında qəbul edilən qərarlar təkcə Azərbaycanın ayrılmaz guşəsi olan Naxçıvanın yox, bütövlükdə Azərbaycanın ictimai-siyasi həyatında tarixi dönüş yaradan bir hadisə oldu. İclasda "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında", "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" tarixi qərarlar qəbul edildi. Naxçıvan MSSR adından "Sovet Sosialist" sözləri çıxarıldı, Ali Sovetin adı dəyişdirilərək "Naxçıvan Muxtar Respublikasının Ali Məclisi" adlandırıldı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan MR-in dövlət bayrağı kimi qəbul edildi və bu bayrağın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qanunvericilik təşəbbüsü ilə çıxış edildi. Bütün bunlar Azərbaycanın müstəqilliyinin məhz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvandan başlamasının göstəriciləridir.

Heydər Əliyev 02 sentyabr 1991-ci il tarixdə Naxçıvan MR Ali Məclisinin sədri seçildikdən sonra demokratik dəyişikliklər, milli dövlətçiliklə bağlı mühüm qərarlar və daha böyük tədbirlər həyata keçirilməyə başladı. Söylənildiyi kimi: "...bu ağır vəziyyətdə bizə elə bir rəhbər lazımdır ki, o, öz müdrikliyi, nüfuzu, yüksək təşkilatçılıq qabiliyyəti ilə xalqı birləşdirə bilsin, muxtar respublikaya bacarıqla, səriştəli rəhbərlik etsin. Belə bir adam Azərbaycan xalqının yaxşı tanıdığı, sevdiyi, təkcə ölkəmizdə deyil, bütün dünyada böyük nüfuza malik olan Heydər Əlirza oğlu Əliyevdir".

Baxmayaraq ki, Naxçıvan blokada şəraitində yaşayırdı, sərhəd kəndləri erməni separatçılarının hərbi təcavüzünə qarşı təkbaşına döyüşürdü, bölgədə demokratik proseslər genişlənməkdə idi. Heydər Əliyevin rəhbərliyi ilə yuxarıda göstərilənlərdən başqa, Naxçıvan MR Ali Məclisi tərəfindən "Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən silahlı qüvvələrin statusu haqqında", "Naxçıvan MR-in müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında", "Keçid dövründə SSR İttifaqının dövlət hakimiyyət və idarəetmə orqanları haqqında SSRİ Qanunu barədə" qərarlar qəbul edildi. 07 sentyabr 1991-ci il tarixli qərarla Naxçıvan MR Dövlət Milli Müdafiə Komitəsi yaradıldı. Sovet qoşun hissələrinin Naxçıvan ərazisindən çıxarılmasına başlanıldı ki, sonuncu rus əsgəri 29 sentyabr 1992-ci ildə ərazini tərk etdi. Elə həmin ilin 28 mayında Naxçıvanla Türkiyə arasında Araz çayı üzərində tikilən "Ümid körpüsü" açıldı. Heydər Əliyevin 22-26 avqust tarixlərində İran İslam Respublikasına səfəri və orada imzalanan sənədlər qonşu dövlətlə gələcək münasibətlərin inkişafında böyük rol oynadı. Dekabrın 3-də İran İR ilə Naxçıvan MR arasında Araz çayı üzərində Şahtaxtı-Poldəşt üzən körpüsü istifadəyə verildi.

Hələ bir qədər əvvəl 1989-cu ilin noyabr ayından genişlənməyə başlayan "Sərhəd hərəkatı" həmin ilin dekabr ayının 31-də 137 km uzunluğu olan Sovet-İran sərhədinin tikanlı məftillərinin dağıdılması ilə başa çatmışdı. 1991-ci il dekabr ayının 16-da keçirilən Ali Məclisinin sessiyasında "Sərhəd hərəkatı"na Heydər Əliyev tərəfindən siyasi və tarixi qiymət verildi. Elə həmin gün 31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü elan edilməklə, hər il bayram edilməsi və həmin günün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməməsi haqqında tarixi qərar qəbul edildi.

1992-ci ilin noyabrın 21-də Naxçıvanda keçirilən YAP-n təsis Konfransında partiyanın yaranması haqqında qərar qəbul edildi və Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi.

1993-cü ilin iyununda Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan bugünkü hərtərəfli inkişafının əsası qoyuldu.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA ORDU QURUCULUĞU

***Qasımov Ə.Q.***

*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

Hər bir dövlətin mövcudluğu onun müstəqilliyinin dönməzliyi, güclü iqtisadiyyatı ilə yanaşı, həm də yenilməz ordusu ilə səciyyələnir. Müstəqilliyini yenicə qazanmış, lakin müdafiə və təhlükəsizlik sistemi zəif olan Azərbaycan dövləti qarşısında duran mühüm vəzifələr sırasında silahlı qüvvələrin yaradılması və inkişafı xüsusi yer tuturdu. Fəqət müstəqilliyimizin ilk illərində ölkədə yaranmış mürəkkəb ictimai-siyasi və hərbi vəziyyət ordu quruculuğuna da öz mənfi təsirini göstərmişdir. 1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması barədə qərar və həmin il oktyabrın 9-da Azərbaycan Respublikası Ali Soveti tərəfindən silahlı qüvvələrin yaradılması haqqında qanun qəbul edilməsinə baxmayaraq, o zamanki respublika rəhbərliyi bu qərarların həyata keçirilməsi üçün lazımi səy göstərməmişdir. Torpaqların müdafiəsi yalnız pərakəndə fəaliyyət göstərən könüllü dəstələrin ümidinə qalmışdı. Azərbaycan ordusu bərbad vəziyyətdə idi, parçalanmışdı, hərbi hissələr ayrı-ayrı siyasi qrupların təsiri altına düşmüşdü. Silah, sürsat, geyim və ərzaqla təminat yarıtmaz halda idi. Korrupsiya geniş yayılmışdı. Xalq orduya özgələşir, fərrarilər artırdı. 1991-1992-ci illərdə ordunu 30 min döyüşçü özbaşına tərk etmişdi.

1993-cü ildə Ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra, onun başçılığı altında ölkədə həyata keçirilən köklü islahatlar qısa müddət ərzində bütün sahələrdə olduğu kimi ordu quruculuğu sahəsində də mühüm irəliləyişlərə səbəb oldu. Ulu öndər çox yaxşı bilirdi ki, güclü ordusu olmayan dövlət öz müstəqilliyini qoruya, vətəndaşların və cəmiyyətin təhlükəsizliyini təmin edə bilməz. Ona görə də, ordu quruculuğu məsələləri Heydər Əliyevin dövlətçilik siyasətinin əsas prioritetlərindən birini təşkil etmişdir. Heydər Əliyevin ordu quruculuğu siyasətinin məqsədi bir neçə istiqamətə yönəlmişdi: güclü ordu, güclü dövlət deməkdir, güclü ordu xalqın inkişafının təmin olunması deməkdir, güclü ordu dünya dövlətləri arasında xüsusi çəkiyə və nüfuza malik olmaq deməkdir.

Heydər Əliyevin gərgin və məqsədyönlü səyləri sayəsində 1994-cü ildə atəşkəsin elan olunması ölkədə ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara start verildi. Qısa müddət ərzində Heydər Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı, "Silahlı Qüvvələr haqqında", "Hərbi xidmət haqqında", "Müdafiə haqqında", "Hərbi vəziyyət haqqında", "Hərbi qulluqçuların statusu haqqında" və s. qanunlar qəbul edilmiş və təkmilləşdirilmişdir.

Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə ordunun mərkəzləşdirilmiş maddi-texniki təchizatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan vəsaitin dəfələrlə artması ordunun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına imkan verdi. Qeyd edilən dövrdə dünya hərbi təhsil standartlarına cavab verən Milli Hərbi təhsil sisteminin formalaşmasına xüsusi diqqət yetirilmişdir. 1997-ci ildə Azərbaycan Ali Hərbi məktəbinin yaradılması ilə ölkəmiz ordu quruculuğunda, milli zabit kadrlarının hazırlanması tarixində keyfiyyətcə yeni bir mərhələyə qədəm qoydu.

1999-cu il yanvarın 20-də Heydər Əliyevin Hərbi Akademiyanın yaradılması haqqında imzaladığı fərman, hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsində əsaslı dönüş yaratdı. Qeyd edilən dövrdə, bilavasitə Heydər Əliyevin göstərişi ilə Azərbaycan Respublikası hərbçiləri bir sıra zəruri və mühüm ixtasaslar üzrə təhsil almaq üçün Türkiyə Cümhuriyyəti, Rusiya Federasiyası, Ukrayna, Pakistan, Çin və digər ölkələrə göndərildi.

Göstərilən dövrdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin beynəlxalq əlaqələri də xeyli genişlənmiş, NATO, MDB çərçivəsində, habelə bir sıra dövlətlərlə ikitərəfli hərbi əməkdaşlığın əsasları qoyulmuşdur.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində həyata keçirilən hərtərəfli və genişmiqyaslı tədbirlər ölkəmizin regionda ən güclü orduya malik olan dövlətə çevrilməsinə imkan vermişdir.

# I BÖLMƏ

# AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏ SİYASİ İNKİŞAFI

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ MİLLİ İDEOLOGİYANIN TƏMƏLİ KİMİ İNKİŞAFI

**_Abbasov V.D._**
*Gəncə Dövlət Universiteti*

Milli ideologiyamızın bütövləşməsində, formalaşmasında, inkişafında və zənginləşməsində Azərbaycançılıq ideologiyası aparıcı bir xətt təşkil edir. Milli ideologiya millətin xarakterini, tarixi-ənənəvi və mənəvi dəyərlərini, milli psixologiyasını özündə ümumiləşdirməklə bərabər dövlətçiliyimizin də ideoloji bazasını təşkil edir. Azərbaycançılıq ideologiyası xalqın milli-mənəvi və psixoloji varlığın təcəssüm etdirən bir bazadır. Milli ideologiya bu baza üzərində bərqərar olunmuş fəaliyyətidir. Milli ideologiyanın bütün funksiyaları Azərbaycançılıq ideyalarına əsaslanır, ondan güc alır, onun bazasında reallaşır.

Yeni Azərbaycan Partiyasının Nizamnaməsi və Proqramında Azərbaycançılıq anlayışı vətənçilik prinsipi ilə bir vəhdətdə götürülür. Həmin prinsiplərin bütün Azərbaycan xalqına şamil olunmasının aparıcı istiqamətləri göstərilir. Burada deyildiyi kimi, “Yeni Azərbaycan Partiyası dilindən, dinindən, etnik və sosial mənşəyindən asılı olmayaraq Azərbaycan dövlətinə və onun qanunlarına tabe olan, ölkəmizdə və onun hüdudlarından kənarda yaşayan bütün Azərbaycan vətəndaşlarını Azərbaycan xalqı, Azərbaycanı isə onların ümumi, bölünməz vətəni, doğma yurdu hesab edir.

Partiyamız Azərbaycan xalqının milli-mənəvi dəyərlərini, adət-ənənələrinin, milli əxlaqi mentalitetinin, dilinin, dinin qorunmasına hamı üçün ümumi Vətən hesab olunan və xalqımızın dövlətçilik hissini, dövlət rəmzini yaşadan vahid Azərbaycan dövləti ilə bağlıdır. Azərbaycan dövləti bizim milli varlığımızın, birliyimizin, dinc və firavan həyatımızın təmin edilməsinin, hər kəsin hüquq və azadlıqlarının qorunmasının yeganə, etibarlı vasitəsidir. Odur ki, partiyanın üçüncü əsas prinsipi özündə milli, mənəvi və ümumbəşəri dəyərləri əks etdirən azərbaycançılıq və vətənçilikdir”.

Heydər Əliyev Yeni Azərbaycan Partiyası yaradılmasının altıncı ildönümünə həsr olunmuş təntənəli yığıncaqdakı nitqində azərbaycançılığın milli ideologiya üçün baza təşkil etməsi barədə fikrini qısa, aydın, tutarlı, məntiqli və lokanik şəkildə belə ifadə edir: “Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər – bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir” (“Xalq qəzeti”, 21 noyabr 1998.).

Azərbaycançılıq və bu anlayışa daxil olan bütün elementlər, öz xarakterinə görə tarixi bir kateqoriyadır. Yeni azərbaycançılıqla bağlı milli-mənəvi və psixoloji keyfiyyətlər Azərbaycan cəmiyyətində həmişə aparıcı mövzu olmuşdur. Lakin bu kateqoriya müəyyən məişət problemləri səviyyəsində dərk olunmuşdur. Onun ümummilli xarakteri isə millətin

özünün bütövlüyü, suverenliyi, azadlığı şəraitində meydana çıxır. Milli azadlıq milli mənafelərin reallaşmasının münbit zəminidir. Bu mənada, Azərbaycanda müstəqil Dövlət yarandıqdan sonra azərbaycançılıq ideyalarının ümummilli xarakteri meydana çıxmış və bu ümummilli azərbaycançılıq ideyaları özünün hərəkətverici qüvvəsi olan milli ideologiyanı formalaşdırmışdır. Azərbaycançılıq ideyaları ümummilli xarakter almadan, azadlığın yaratdığı münbit şəraitdən qidalanmadan milli ideologiya kimi formalaşmaq imkanına malik deyildir. Təbliğatçı üçün yaddaqalan başlıca arqument bu olmalıdır ki, milli ideologiya azərbaycançılıq ideyalarının hərəkətverici qüvvəsidir. Azərbaycançılıq ideyaları hələ, Azərbaycanın Sovet İmperiyası tərkibində nəfəs aldığı vaxtlarda Heydər Əliyev tərəfindən canladırılırdı, müstəqillik mərhələsində isə onun ümummilli xarakter alması məhz Heydər Əliyev tərəfindən istiqamətləndirildi. Heydər Əliyevin yaratdığı münbit şərait azərbaycançılıq bazasının hərəkətverici qüvvəsi olan milli ideologiyanı – dövlətçiliyin aparıcı ideologiyasını yetişdirdi.

Milli və müstəqil dövlətçiliyimiz zəminində Azərbaycançılıq ideologiyası bazasında milli ideologiyamız formalaşmışdır. Milli ideologiyamızın formalaşması dövlətçilik ənənələrinin yaranmasından sonrakı prosesdə meydana gəlmişdir. Dövlətçilik ənənələrinin yaranması, hər şeydən əvvəl, ictimai-siyasi sabitliyin təmin olunmasında, iqtisadiyyatda mühüm irəliləyişlərin təməlinin qoyulmasında, sosial, siyasi, elmi və mədəni sahələr üzrə nailiyyətlərin əldə edilməsində, milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə inteqrasiya edilməsində, müstəqil dövlətçilik zəminində əldə edilmiş ənənələrin varisliyinin təmin olunmasında öz təcəssümünü tapır. Dövlətçilik ənənələrinin yaranması müstəqillik əldə etmiş bütün dövlətlərdə belə bir qısa zamanda əldə edilə bilmir. Azərbaycan dövlətçiliyində belə ənənələrin yaranması Heydər Əliyevin zəngin ictimai-siyasi fəaliyyət təcrübəsi, vətənpərvərliyi, əzmkarlığı, siyasi uzaqgörənliyi, mətinliyi, qətiyyətliliyi, səfərbəredici təşkilatçılıq qabiliyyəti, eləcə də xalqın etimadına inamı sayəsində əldə edilmişdir. Milli ideologiyamızın doğru, düzgün istiqamətləri, ümumxalq və ümummilli xarakteri Heydər Əliyev tərəfindən sistemləşdirilmiş və ideoloji konsepsiya kimi işlənib hazırlanmışdır. Milli ideologiya Azərbaycanda milli bir vahid kimi mövcud olan və azərbaycanlı adında bütövləşən, sabitləşən, mütəşəkkilləşən bütün sosial qrupların, təbəqələrin və etnik birliklərin hamısına xas olan mənəvi dəyərlər sistemidir. Milli ideologiya, həmçinin, dünyada məskun olan bütün azərbaycanlıların milli-mənəvi və tarixi sərvətidir.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI

***Abbasova A.A.***
*Almaniya*

Cəmiyyətin milli birliyinin və ümumxalq münasibətlərinin qorunması və dövlətin ətrafında sıx birləşməsi baxımından ideologiya vacib bir faktordur. Hər bir xalqın, millətin və dövlətin tarixi varlığının əsas atributları onun dili, ərazisi, dini və ideoloji birliyidir. Bu baxımdan Azərbaycan da qədim tarixə və dövlətçilik ənənələrinə malik bir ərazi olaraq bu atributlara malik olmuşdur. Azərbaycançılıq ideyası ta qədim dövrlərdən müasir dövrümüzə qədər Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini,

dini tolerantlığını özündə yaşadan və birləşdirən baxışlar sistemi kimi təşəkkül tapmışdır. Tarixən çoxmillətli ölkə, milli-dini xoşgörülüyün bərqərar olması azərbaycançılıq məfkurəsinin əsasını təşkil etmişdir.

Azərbaycanın milli identifikasiya kodunun böyük tarixi-mədəni ənənələrə, dərin etnik və polietnik köklərə, fərqli konfessiyalara dayanması onun milli ideologiyasının sabit vəziyyətini təmin edir. Hələ XIX əsrdə və XX ərin əvvəllərində azərbaycançılıq ideyasının ətrafında gedən ideya və fikir mübarizələrinə nəzər saldıqda aydın olur ki, azərbaycançılıq ideyasının təkamül prosesi çoxşaxəli və ziddiyyətli olmuşdur. Azərbaycançılıq ideologiyasının məzmunca tamamlanaraq və zənginləşərək yeni konfiqurasiyada rəsmi dövlət siyasəti səviyyəsinə gətirilməsi, ölkə vətəndaşlarının və bütün dünya azərbaycanlılarının birləşdirici və səfərbəredici Milli ideya statusuna qaldırılması kimi çətin bir vəzifəni isə Ulu öndər Heydər Əliyev həyata keçirmişdi. Ulu Öndər azərbaycançılığın tarixən formalaşmış ayrı-ayrı komponentlərini vahid konsepsiyada birləşdirərək onu dövlət idarəçiliyinin elmi-nəzəri bazasına çevirmiş və praktikada tətbiq etmişdir.

Qloballaşan dünyada ölkələrin milli səddlərini, milli-mənəvi dəyərlərini, vətəndaşlarının milli maraqlarını qorumaq asan deyil. Məhz Heydər Əliyev dühası düzgün aparılan ideoloji siyasət nəticəsində fərqli dini-etnik əhalisi olan Azərbaycanda bu çətin işin öhdəsindən layiqincə gəldi. Bu gün də bu siyasət Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Ölkədə reallaşdırılmasına səy göstərilən hər hansı bir ideya təkcə milliyətcə azərbaycanlıların deyil., bütün etnosların maraqlarını özündə tam ehtiva edir.

Prezidentin güclü iqtisadi təməl üzərində müasir siyasi sistemin formalaşdırılması, dövlətçilik əsaslarının möhkəmləndirilməsi, azərbaycançılıq ideologiyasının gücləndirilməsi məsələləri subyektin zərər görmədən və mənafeyinə toxunmadan Vahid Vətən və Vahid dövlət anlayışına yiyələnməsini təmin etmək asan iş deyildi. Bu çətin işi məhz Heydər Əliyev zəkası, düşüncə gücü həll etdi. Dövlətin siyasi ideologiyası onun ərazisində yaşayan və ya bu ərazidən köçüb getsə də kökləri ilə bu torpağa bağlı olan bütün konfessiya və etnosları öz ətrafında birləşdirən amillərlə əlaqəlidir. Bu amillər nə qədər demokratik, tolerant və humanist olarsa xalqı öz ətrafında bir o qədər sıx və yekdil birləşdirə bilər. Uzun illər ərzində Azərbaycanın gökəmli xadimlərinin bir neçə nəslinin həyata keçirmək uğrunda mübarizə apardığı milli ideya özünün həqiqi təcəssümünü məhz müstəqil Azərbaycanın qurucusu olan Heydər Əliyevin yürütdüyü siyasət nəticəsində tapdı. Azərbaycanın bir çox tarixi şəxsiyyətlərindən fərqli olaraq Heydər Əliyev azərbaycançılıq ideyasını dövlət ideologiyasına çevirdi. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır, hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir. Heydər Əliyevin yaratdığı Azərbaycançılıq ideologiyasının əsas məqsədi Azərbaycan və azərbaycanılılar haqqında geniş və düzgün təsəvvür yaratmaq və onun dünyadakı universal mövqeyini müəyyən etməkdən ibarətdir. Bu ideologiya birləşdirici məfhum olmaqla dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq ölkə ərazisində və ya onun sərhədlərindən kənarda yaşayan bütün vətəndaşları öz ətrafında birləşdirdi, bütün azərbaycanlıların istinad nöqtəsinə çevrildi. Hələ 1989-cu ildə Naxçıvan Muxtar Respublikası ərazisində İranla Azərbaycan arasındakı sərhəd dirəklərinin hər iki tərəfdən yerli əhalisi tərəfindən dağıdılması beynəlxalq aləmdə böyü əks-səda yaratdı və dünya ictimaiyyətinə hər iki taylı

azərbaycanlıların əslində bir millət olduğunu göstərdi. 1991-ci il 16 dekabr tarixində o zaman hələ Naxçıvanda olan Heydər Əliyev Dünya Azərbaycanlıları günü elan etdi. Dünya azərbaycanlılarının konkret milli ideya ətrafında sıx birləşdirilməsi ideyasını irəli sürən Ulu Öndər xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması məsələsini daima diqqət mərkəzində tutmuş, onların tarixi Vətənlə əlaqələrinin genişlənməsinə çalışmışdır. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onların arasında birliyin və həmrəyliyin təmin olunması ilə bağlı məsələlərin birgə müzakirəsi məqsədilə 2001-ci il noyabrın 9-10-da Bakıda tarixi bir toplantı – Dünya Azərbaycanlılarının I Qurultayı keçirilmişdir. Bu azərbaycançılıq ideologiyasının Heydər Əliyev siyasətindəki rolu və əhəmiyyətinin ən bariz göstəricidisir. 2002-ci ildə Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında Azərbaycan Respublikası qanununun qəbulu diasporumuzun təşkilatlanması, dünya azərbaycanlılarının birliyinin yaranması və dövlətin bu sahədə apardığı məqsədyönlü siyasətin həyata keçirilməsinə nail olmaq üçün geniş imkanlar açmışdır.

Heydər Əliyev cəmiyyətin bütünləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı əsaslarının möhkələndirilməsi, azərbaycançılıq ideologiyasının gücləndirilməsi məsələləri bizim üçün prioritet məsələdir sözləri bu ideologiyanın layiqincə davam etdirildiyini sübut edir.

## ÜMUMMİİLLİ LİDER HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK SİYASƏTİNDƏ MİLLİ DƏYƏRLƏR

***Abbasov O.A.***
*Azərbaycan Dillər Universiteti*

Xalqımızın Ümummilli lideri H.Əliyev hakimiyyətdə olduğu hər iki dövrdə milli dəyərlərə qayğı ilə yanaşmış, onların qorunmasını, öyrənilməsini diqqət mərkəzində saxlamış, təbliğini dövlət siyasəti səviyyəsinə yüksəltmişdir. Bunun səbəbi nədir? Nə üçün dövlət rəhbəri həm Sovet imperiyası şəraitində, həm də ölkənin yenicə müstəqillik qazandığı bir dövrdə, erməni faşist siyasəti nəticəsində başlanmış və bütöv sistemə ağrılar gətirmiş müharibənin tüğyan etdiyi zamanda milli dəyərlərə belə həssaslıqla yanaşırdı? Fikrimizcə, bunun başlıca səbəbləri aşağıdakılardır:

1.Milli dəyərlər xalqın millət kimi formalaşdığı tarixi dövrdə yaratdığı elə zənginlikdir ki, orada insanlıq üçün vacib olan hər bir amil yüksək şəkildə, ümumiləşdirilmiş formada öz əksini tapır.

2.Milli dəyərlər tarixi obyektiv şəkildə əks etdirir və xalqın keçdiyi sivilizasiya barədə ən qərəzsiz informasiyanın daşıyıcısıdır.

3.Milli dəyərlər, adətən, mənəvi olanların cəmi kimi qiymətləndirilir. Bu, yanlışdır. Milli dəyərlərin maddi olanları da vardır. Lakin madii-milli dəyərlərə çevirilmiş dəyərlər istisnasız olaraq mənəvi dəyərlərin təsiri ilə yaranmışdır. Bu da milli dəyərlərə qayğının zəruriliyini əsaslandıran cəhətlərdəndir.

4. Milli dəyərlər birləşdirici, səfərbəredici təsirə malikdir. Milli təhlükə yarananda dəyərlər həmişə insanları səfərbəredən qüvvə kimi çıxış edir.

5.Hər bir milli dəyərin canında,qanında, nüvəsində bir bəşərilik, humanistlik, müasir məfhumla ifadə etsək, tolerantlıq, multikultural məzmun var.

Amillərin sayını artırmaq olar. Amma elə yazılanlar da deməyə əsas verir ki, bəşər tarixini, o cümlədən Azərbaycan tarixini, onun dəyərlərini, bu dəyərlərin nəzərə alınmasının dövlətçiliyin, azərbaycançılığın formalaşdırılmasında rolunu yaxşı bilən Ümummilli lider H.Əliyev həmişə onları diqqət mərkəzində saxlamışdır.

Ümummilli liderin dövlətçilik siyasətində milli dəyərlərə münasibətin hansı səciyyəvi xüsusiyyətlərini fərqləndirmək olar? Araşdırmalar bu xüsusiyyətləri belə qruplaşdırmağa əsas verir:

a) Milli dəyərlərə münasibətdə balanslığın gözlənilməsi, "qızıl orta"ya istinad olunması. Ümummilli liderin hakimiyyətdə olduğu dövrlərdə dəyərlərimizlə bağlı verdiyi sərəncamların nəzərdən keçirilməsi, bu dəyərlərin qorunması, təbliği ilə bağlı görülən işlərin yada salınması açıq- aydın sübut edir ki, həmin dövrün dövlət siyasətində milli dəyərlərimizin heç bir sahəsi unudulmamış, bunların daha da inkişaf etdirilməsi, qorunması, gələcək nəsillərə çatdırılması üçün zəruri tədbirlər həyata keçirilmişdir. Ən zəngin milli dəyərimiz olan Dədə Qorqud dastanları ilə bağlı geniş miqyaslı fəaliyyət və paralel şəkildə milli dəyərə çevirilməkdə olan yazılı ədəbiyyatımıza, onları yaradanlara münasibət deyilənləri sübut etmirmi? Birmənalı şəkildə demək olar ki, edir, özü də çox sanballı şəkildə edir.

b) Milli dəyərlərin hər iki sahəsi, həm mənəvi, həm də madii olanlar H.Əliyevin diqqətindən kənarda qalmamış, onların öyrənilməsi, gənc nəsillərə çatdırılması üçün ciddi tədbirlər həyata keçirilmişdir. Mənəvi dəyərlərimiz diqqət mərkəzində olduğu kimi, artıq milli dəyərə çevirilmiş maddi dəyərlərimiz, tarixi abidələrimiz, məsçidlərimiz, xalçalarımız və s. bərpa olunmuş, daha da inkişaf etdirmək üçün kompleks işlər görülmüşdür.

c) Ümummilli lider dəyərlərdən- tarixən formalaşmış səciyyəvi adət-ənələrdən, millətin maraqlarını, meyllərini ifadə edən və milli dəyərə çevirilmiş xüsusiyyətlərdən xalqın səfərbər olunmasında, vahid məqsədə doğru istiqamətləndirilməsində məharətlə istifadə etmişdir. Bəzən dəyərə çevirilmiş xüsusiyyət H.Əliyevin hansısa bir ifadəsində aforizm gücü alaraq qat-qat artıq təsir gücünə malik olmuşdur. "Mən fəxr edirəm ki, azərbaycanlıyam", "Bir millət, iki dövlət" kimi ifadələri misal kimi göstərmək olar. Birinci ifadə ("Mən fəxr edirəm ki, azərbaycanlıyam") millətin vətənsevərlik hissləri ilə, ikinci ifadə ("Bir millət, iki dövlət") böyük Turançılığın, türkçülüyün qəlblərdə kök salmasının nəzərə alınması və bunun daha da möhkəmlənməsi istəyi ilə bağlıdır.

d) Azərbaycanda yaşayan bütün xalqların eyni dərəcədə təhlükəsiz, multikultural şəraitdə, həmrəy olmaları, bəşərilik, humanizm milli dəyərlərimizin məzmununda mühüm yer tutur. Heç bir dövrdə milli mənsubiyyətinə, dini inancına görə insanların fərqləndirilməməsi milli dəyərlərimizin əsas xüsusiyyəti kimi diqqət mərkəzində olmuşdur. Ümummilli liderin idarəetmədə bunları diqqət mərkəzində saxlanması onun milli dəyərlərə münasibətinin səciyyəvi cəhəti kimi qiymətləndirilməlidir.

# İSTEHSAL VASİTƏLƏRİNIN SƏMƏRƏLİ BÖLÜŞDÜRÜLMƏSİ SİSTEMİNİN FORMALAŞDIRILMASI

***Abdinov R.M.***
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

İstehsal vasitələri yeridilişinin səmərələşdirilməsi əlverişli bölgü kanallarının seçilməsindən, potensial olaraq xərclərə böyük miqdarda qənaət olunmasından və qabaqcıl müştəri məmnunluğunun təmin olunmasından ibarətdir. Satışın təkmilləşdirilməsi alətlərindən əksər təşkilatlar, o cümlədən istehsalçılar, distribyutorlar, pərakəndə satıcılar, ticarət assosiasiyaları və mənfəət güdməyən institutlar istifadə edirlər. Onlar son alıcılara, pərakəndə və toptan satıcılara, biznes müştərilərin və satış qüvvəsinin üzvlərinə hədəflənir. Bazarın sıçrayışlı inkişafına uyğunlaşan pərakəndə və topdan satış mənzərəsi sürətlə dəyişir.

Qeyd edək ki, internet və digər texnologiyalar indi şirkətə daha sürətli, dəqiq və geniş vaxt, məkan çərçivəsində biznes həyata keçirmək imkanı verir. İnternet şəbəkəsi genişləndikcə elektron bazarlar haqqında yeni informasiyalara tələbat artırır. Elektron bazarlar deyərkən fiziki bazarlar deyil, «bazar fəzası» başa düşülür. Satıcı öz məhsul və xidmətlərini online-da satmaq üçün elektron bazarlarından istifadə edir. Alıcılar isə elektron bazarlardan məlumat axtarmaq, nə istədiklərini müəyyən etəmək, kredit və ya digər elektron ödəniş vasitələrindən istifadə edərək sifariş vermək məqsədilə istifadə edir. Qloballaşan dünyada elektron ticarətin əhəmiyyəti getdikcə artmaqdadır. Burada elektron ticarətin əhəmiyyəti xüsusi ilə qeyd edilməlidir. Elektron ticarətə başda internet olmaqla elektron vasitələr ilə satınalma və satmaq proseslərinin dəstəklənməsi daxildir.

Azərbaycanın sürətli iqtisadi inkişafında mühüm rol Ümümi Liderimiz Heydər Əliyevin adiyla baglıdır. Heydər Əliyevin səyləri nəticəsində Azərbaycan iqtisadiyyatında bütün imkanlar yaradılmışdır. Bunun nəticəsi olaraq siyasi və makroiqtisadi sabitliyə, bazar iqtisadiyyatına xas olan əsas institutlar və qurumlara, zəngin təbii ehtiyyatlara və iqtisadi artımda getdikcə daha böyük rol oynayan formalaşmış və möhkəmlənmiş özəl sektor öz inkişaf mərhələsini möhkəmləşdirmişdir. Hazırda daxili bazarda başlıca vəzifə istehsal vasitələri bazarının mövcud vəziyyətinə uyğun inkişafı əsasında bu imkanlardan səmərəli istifadə etməkdən, daxili bazarda öncül istiqamətləri müəyyənləşdirməkdən və bu öncüllüyə uyğun ardıcıl tədbirlər sistemini həyata keçirməklə bazarın təşəkkülünə nail olmaqdan ibarətdir. Əsas məqsəd məhz bu vəzifələrin yerinə yetirilməsinin magistral istiqamətlərinin təyin olunmasından ibarətdir.

Fikrimizcə, bu inkişafın fundamental prinsipləri aşağıdakılardan ibarətdir:

1. iqtisadi tərəqqinin başlıca sütunları olan azad rəqabət, sahibkarlıq və investisiya mühitinin daha da yaxşılaşdırılması, əsassız məhdudiyyətlərin, bürokratik əngəllərin aradan götürülməsi, istehsal vasitələri bazarının inkişaf etdirilməsi, 2. bazarın dövlət tənzimləmə mexanizmlərinin liberallaşdırılması iqtisadi qanunvericilik sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq hüquqi mühitə, dünya təcrübəsinə uyğunlaşdırılması, 3. investisiyaların və sahibkarlığın inkişafının təşviqi üsullarından geniş istifadə edilməsi,

4. ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının dərinləşməsi, 5. ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi, onun daxili bazarının xarici dövlətlərin təsir və maraqlarından qorunması, 6. istehsal vasitələrinin yeridilişinin səmərələşdirilməsi, 7.bazarın inkişafı üçün icrası davamlı və konkret olan qısa və orta müddətli sahəvi və regional proqramların hazırlanması və həyata keçirilməsi. Bu proqramlara uyğun olaraq sahə və regionlarda istehsal vasitələri bazarının inkişafı ilə bağlı kompleks tədbirlər və onların həyata keçirilmə ardıcıllığı müəyyənləşdirilməlidir. Sahəvi və regional proqramlarda nəzərdə tutulmuş bütün tədbirlər beynəlxalq təşkilatlar, ilk növbədə Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və digər maliyyə institutları ilə sıx əməkdaşlıq şəraitində həyata keçirilməsi daha məqsədəuyğundur. Respublikamızın regionları üzrə istehsal vasitələri bazarının daha yüksək inkişaf sürətinin müəyyənləşdirilməsi və ona nail olunması mühüm məsələdir. Haliyədə bunun üçün geniş imkanlar mövcuddur. Sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması üçün müvafiq qanunvericilik bazası daha da təkmilləşdirilməli, regionların problemlərinin həlli imkanları xeyli genişləndirilməlidir.

Regionlarda investisiya mühitinin yaxşılaşdırılması istehsal vasitələri yeridilişinin səmərələşdirilməsinə əhəmiyyətli təsir göstərə bilər. Bunun üçün regionlarda investisiya mühitinin yaxşılaşdırılmasına kömək edən bütün faktorları təhlil etməliyik. Dünya təcrübəsi göstərir ki, bir çox ölkələrdə geri qalmış regionların inkişafını sürətləndirmək üçün güzəştli iqtisadi mexanizmlərdən istifadə edilir. Bu sahədə də araşdırmalar aparmaqla milli mənafelərə xidmət edən təkliflərə uyğun güzəştli vergi dərəcələrindən istifadə etməklə investisiyaların regionların iqtisadiyyatına axınını sürətləndirə bilərik. İnvestisiyaları regionlarda yeni istehsal sahələrinə cəlb etməklə istehsal vasitələrinin səmərəli hərəkətini tənzimləyə bilərik.

## MÜASİR İQTİSADİYYATIMIZ UZAQGÖRƏN SİYASƏTİN VƏ GƏRGİN FƏALİYYƏTİN NƏTİCƏSİDİR

***Abdullayeva Z.H.***
*Sumqayıt Dövlət Universiteti*

Tarixi təcrübə göstərir ki, zəngin təbii və iqtisadi sərvətlərə malik olan ölkələrdə müstəqilliyin qorunub saxlanılması bəzən onun əldə edilməsindən daha çətin və mürəkkəbdir. Düşmən təcavüzünə məruz qalmış ölkəmizdə bu daha çətin idi. Belə ki, ölkəmiz yalnız dövlət müstəqilliyini itirmək təhlükəsi ilə deyil, eyni zamanda, daxilən də parçalanmaq təhlükəsi ilə qarşı-qarşıya qalmışdı.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın istəyi ilə yenidən hakimiyyətə gəlməsi ölkəni bu ağır vəziyyətdən xilas etdi. Yeni iqtisadi yüksəliş başlanıldı, Azərbaycan iqtisadiyyatına xarici investisiyalar yatırıldı, köklü dəyişikliklərin aparılması üçün yeni imkanlar əldə edildi. Müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir.

Aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmə proseslərin qarşısının alınması və digər tədbirlərdən sonra mahiyyətcə yeni mərhələnin təməli qoyuldu. Makroiqtisadi sabitliyin əldə edilməsi, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən geniş miqyaslı iqtisadi islahatların ilkin nəticələri aparılan siyasətin düzgünlüyünü və Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq edirdi.

Ümumilli liderin uzqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində, ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfatı sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olundu.Bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modeli- Azərbaycan modeli yaradıldı.

Respublikada görülən təxirəsalınmaz tədbirlər nəticəsində iqtisadiyyatda tənəzzülün qarşısı alındı. İqtisadi islahatların mühüm istiqaməti olan özəlləşdirmə prosesi uğurla həyata keçirildi. Bugünkü nailiyyətlərin əldə olunmasının təməli 1994-1995-ci illərdə qoyulmuşdu.1997-ci ildən sənaye məhsullarının buraxılışında artım müşahidə edilmiş, bu sıradan neft emalı, metallurgiya, ağac emalı, şüşə və çini-saxsı məhsullar istehsalında artım daha yüksək olmuşdur. Hasilat sənayesi ilə yanaşı, qeyri neft sektoru da inkişaf etdirilmişdir.

Heydər Əliyev respublikada kənd təsərrüfatının inkişaf etdirilməsinə də xüsusi diqqət yetirirdi. Məhz bu diqqətin nəticəsində respublikada 40-dan çox normativ-hüquqi akt qəbul edilmiş, kənd təsərrüfatı məhsullarının satışında qiymətlər tam sabitləşmiş, idxal-ixrac əməliyyatlarında bütün maneələr aradan qaldırılmışdır.

Yaxın keçmişdə əsas kənd təsərrüfatı məhsullarını müxtəlif xarici ölkələrdən alan Azərbaycan indi əksinə, xaricə məhsul ixrac edir. Bu da sözsüz ki, məhsul istehsalının intensiv artımı nəticəsində mümkün olmuşdur. İdxal-ixrac əməliyyatlarının bazar iqtisadiyyatının tələblərinə uyğun qurulması nəticəsində ölkəmizin beynəlxalq əlaqələri ilbəil genişlənir, möhkəmlənir və inkilşaf edir. Həyata keçirilən qətiyyətli iqtisadi islahatlar az bir zamanda geniş beynəlxalq dəstək aldı. Beynəxalq Valyuta Fondu və Dünya bankı tərəfindən Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırlanıldı və ölkəmizə maliyyə yardımının göstərilməsinə başlanıldı. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə keçirilə bilməz və Azərbaycan region üçün mərkəzə çevrilibdir. Bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək. Bütün bunlar Heydər Əliyevin xidmətləridir”. Azərbaycan Respublikasının iqtisadi siyasətinin öncül istiqamətlərindən biri müstəqil dövlətin neft strategiyasının hazırlanması olmuşdur.

Müəllifi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev olan bu stratgiyanın həyata keçirilməsinə 1994-cü il sentyarbrın 20-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın aparıcı ölkələrinin (ABŞ,Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistan) ən məşhur neft şirkətləri (Amoko, BP, DakDermott, Yunokal, LUKoyl, Statoyl, Ekson, Türkiyə petrolları, Penzoyl, İtoçu, Remko, Delta) arasında Xəzər dənizinin Azərbaycan bölməsindəki “Azəri, “Çıraq” və “Günəşli”

yataqlarının birgə işlənməsi və neft hsailatının pay gölgüsü haqqında fəaliyyət müddəti 30 il olan müqavilənin imzalanması ilə başlanılmışdır.

Azərbaycan üçün həyati əhəmiyyəti olan bu nüqavilə həm respublikanın daxilində bərqərar olunması, həm də xarici siyasətdə uğurların əldə edilməsində müstəsna rol oynadı.Heydər Əliyevin özünün də vurğuladığı kimi, "Əsrin müqavilsəi"nin imzalanması ilə Azərbaycan Xəzər dənizi və onun enerji ehtiyyatlarını bütün dünyanın üzünə açdı və bu hadisənin ölkənin gələcəyi üçün nə dərəcədə əhəmiyyətli olduğu tarixçilər yazacaqlar". "Əsrin müqaviləsi" adı ilə indi bütün dünyada tanınmış bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycan Respublikasının iqtisadi inkişaf konsepsiyasını təşkil edən və Heydər Əliyev tərəfindən işlənilib hazırlanmış yeni neft strategiyasının həyata keiçirilməsinin parlaq təzahürüdür.

Azəri, Çıraq və Günəşli yataqlarının istismarı nəzərdə tutulan əsrin müqaviləsinin imzalanması ölkəyə külli miqdarda xarici investisiyanın axınına səbəb olmuşdur. Bu sovet dövründən başlanan danışıqların, Heydər Əliyev tərəfindən atılan konkret addımlarla həyata keçirilməsi idi. "Əsrin müqaviləsi"nin imzalanması ilə yanaşı hasil olunacaq neftin dünya bazarına çıxarılması üçün əlverişli marsrutun axtarıb tapılması da mühüm əhəmiyyə kəsb edirdi. Heydər Əliyev Azərbaycan neft kəmərinin çoxvariantlılığı ideyası ilə çıxış edərək Bakı-Supsa kəməri işə salınmasına, eyni zamanda "Əsrin müqaviləsi" çərşivəsində hasil olunacaq əsas neftin nəqli üçün "Bakı-Tblisi_Ceyhan" neft kəmərinin inşa edilməsi üzrə danışıqlar intensivləşdirilməsinə nail olur. 1999-cu ilin noyabrında Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri ABŞ-ın dövlət başçısının iştirakı ilə Bakı-Tblisi-Ceyhan əsas ixrac neft boru kəmərinin inşa edilməsinə dair hökumətlərarası saziş imzalamış, bu kəmərin çəkilməsi yolunda yaradılan çoxsaylı əngəllərə baxmayaraq Ulu öndərimizin siyasi iradəsi və uzaqgörənliyi sayəsində maneələrin hamısı dəf edilərək bu layihənin gerçəkləşməsi reallığa çevrilmiş, 2003-cü ildə kəmərin tikintisinə başlanılmışdır. Çox çətinliklərə baxmayaraq Heydər Əliyevin seçdiyi yol uğurlu olmuş, Azərbaycan neftinin bazarına çıxarılması reallığa çevrilmişdir.

Bununla yanaşı, ölkəmizin iqtisadi həyatında Heydər Əliyev həm də, Azərbaycan qazının dünya bazarlarına çıxarılması, üçün nəzərdə tutulan və regionun kifayət qədər əhəmiyyətli layihəsi hesab olunan Bakı-Tblisi-Ərzurum qaz kəmərinin də təməlini qoymuşdur. Azərbaycan iqtisadiyyatı böhran və tənəzzül məngənəsindən çıxaraq, iqtisadi inkişaf və yüksəliş yoluna qədəm qoymuşdur. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən təmli qoyulmuş və Prezident İlham Əliyevin başçılığı altında uğurla davam etdirilən sosial-iqtisadi inkişaf strategiyası nəticəsində əldə olunan nailiyyətlər Azərbaycanın bu sahədə gələcəkdə də daha böyük uğurlar qazanacağına zəmin yaradır.

# AZƏRBAYCAN RESPUBLİKASINDA YOXSULLUQ VƏ İŞSİZLİK PROBLEMLƏRİNİN HƏLLİ İSTİQAMƏTİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN UĞURLU SOSİAL-İQTİSADİ SİYASƏTİ

***Adıgözəlova G.R.***
*Sumqayıt Dövlət Universiteti*

90-cı illərdə vətəndaş müharibəsi vəziyyətinə düşmüş, parçalanmaq, hətta öz müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə dayanmış ölkə onun həyatına müdaxilə etmək və onu özündən asılı hala salmaq istəyən böyük dövlətlərin də maraq obyektinə çevrilmişdir. Respublikanın əlverişli coğrafi mövqeyi, kifayət qədər elmi-texniki və kadr potensialı, zəngin təbii ehtiyatları və əlverişli iqlim şəraiti, xalqı arxasınca apara biləcək dahi rəhbəri bütün bu şətinliklərdən çıxmağa kömək etdi. Heydər Əliyevin hakimiyyətdə olduğu ilk on il ərzində apardığı sosial-iqtisadi inkişaf konsepsiyasını əsasən üç mərhələyə bölmək olar: 1) 1993-1995-ci illər-ölkədə ilk öncə siyasi sabitlik yaratmaq, hərcmərcliyin qarşısını almaq, yeni bazar iqtisadiyyatının əsaslarını yaratmaq, yeni xarici investisiyaları bura cəlb etmək. 2)1995-2000-cü illər-yeni iqtisadi layihələr qəbul etmək, bütün sahələrin inkişafına nail olmaq, dünya iqtisadiyyatına inteqrasiyanı sürətləndirmək 3)2000-2003-cü illər- beynəlxalq iqtisadiyyatın tərkib hissəsi olmaq, qeyri –neft sahələrinin inkişafına nail olmaq, yeni sosial proqramlar hazırlamaq, yoxsulluğun və işsizliyin ləğvi problemləri.

Xalqın qabaqcıl ziyalılarının təkidi ilə hakimiyyətə gələn Heydər Əliyev ilk iki ildə (1993-1994-cü illər) dövlətçiliyin qorunub saxlanılması, möhkəmləndirilməsi, iqtisadiyyatın sabit vəziyyətə düşməsi, yeni bazar iqtisadiyyatına keçməsi üçün yeni prioritet istiqamətlər müəyyənləşdirdi. 1993-cü ilin ortalarından başlayaraq, ümummilli lider həm ölkə miqyasında, həm də ölkəxarici miqyasda çevik və məqsədyönlü siyasət yeridərək qarşıya çıxan çətinlikləri mərhələ-mərhələ aradan qaldırmışdır. Ulu öndərin sosial –iqtisadi konsepsiyasının əsas pioritet istiqamətləri aşağıdakılardır;

1. Ölkədə syasi sabitliyi bərpa etmək, dağılmaqda və parçalanmaaqda olan dövlətçiliyimizi qoruyub saxlamaq, hüquqi dövlət qurmaq;
2. Bazar iqtisadiyyatına keçmək və onu davamlı, sürətli formada inkişaf etdirmək;
3. Nəhəng iqtisadi layihələr planı hazırlamaq, təhsil, mədəniyyət, elmi-texnoloji məsələlərə xüsusi diqqət və qayğı yaratmaq, xarici investorlarda maraq oyatmaq.

Hər üç istiqamətdə qarşıya çıxan problemlər və onların həlli sahəsində əldə etdiyimiz uğurlar, iqtisadiyyatın stabilləşməsi kimi məsələlər Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin Dünya Azərbaycanlılarının birinci qurultayındakı çıxışında, əsasını qoyduğu və sədrlik etdiyi Yeni Azərbaycan Partiyasının II Qurultayında, Yoxsulluğun və İşsizliyin azaldılmasına həsr olunmuş Ümumrespublika konfransındakı proqram xarakterli nitqində, milli sahibkarlarla görüşlərindəki məsləhət xarakterli çıxışlarında öz əksini tapmışdır.

Heydər Əliyev 1993-1995-ci illərdə, birinci növbədə, ölkə daxilində siyasi sabitliyi bərpa etmək, ölkəni hər yerini bürümüş vətəndaş müharibəsi dalğasına son qoymaq, milli dövlətçiliyi qoruyub saxlamaq və möhkəmləndirmək, vətəndaş həmrəyliyini təmin etmək üçün çox ciddi və məsuliyyətli tədbirlər gördü. Azərbaycanın müstəqilliyinə, ərazi

bütövlüyünə, hakimiyyətlə xalqın birliyinə qarşı yönələn separatçı qüvvələr zərərsizləşdirildi. 1993-cü ilin iyul ayında Gəncə şəhərindəki gərginlik və vətəndaş müharibəsinin davam etməsi təhlükəsi, Lənkəran-Astara zonasında separatçı Talış-Muğan respublikası yaratmaq cəhdlərinin qarşısı xalqın birbaşa dəstəyi ilə alındı. Bu baxımdan 1993-cü ilin avqust ayının 23-də Heydər Əliyevin xalqa müraciəti müstəsna rol oynadı.

1994–cü ilin may ayının 12-də Ermənistanla bağlanmış müqavilə ilə Qarabağda atəşkəsə nail olunması, birinci növbədə insan qırğınına, daha sonra milyonlarla manata başa gələn müharibə xərclərinə son qoydu. Daha sonra, Azərbaycanda demokratik cəmiyyət quruculuğu və qanunvericiliyin inkişafında müstəsna rol oynayan Konstitiusiyamız qəbul olundu, 1995–ci il 12 noyabr (1995-ci il 27 noyabrda qüvvəyə mindi). Bu o demək idi ki, artıq siyasi sabitliyi təmin olunmuş, milli müstəqilliyi və dövlətçiliyi möhkəmlənmiş, demokratik, dünyəvi, hüquqi dövlətə çevrilmiş Azərbaycan möhkəm siyasi təməl üzərində iqtisadiyyatını dirçəldə, dünya iqtisadiyyatına inteqrasiya edə bilərdi. Bu baxımdan 1994-cü ildən başlayaraq ölkənin intensiv bazar iqtisadiyyatına keçməsi üçün tədbirlər və proqramlar hazırlanmağa başladı.

Ölkənin maliyyə imkanlarının tamamilə tükəndiyi, xarici investorların ölkə iqtisadiyyatına vəsait qoymaq istəmədiyi və kəskin ərzaq qıtlığı təhlükəsi yarandığı bir vaxtda kənddə elə bir siyasət yeritmək lazım idi ki, məhdud imkanlara malik yerli investisiya hesabına kənd təsərrüfatını dirçəltmək mümkün olsun və kəndli, xırda ticarət-xidmət işçiləri bazar münasibətləri şəraitində yaşaya və işləyə bilsinlər. Bunun üçün əsas birinci addım torpağın, kiçik və orta müəssisələrin özəlləşdirilməsi, torpağın öz sahiblərinə-kəndlilərə qayatarılması oldu. İlk növbədə, torpağın özəlləşdirilməsi üçün nomativ–hüquqi baza yaradıldı.

1991-1995–ci illərdə Milli Məclis tərəfindən bilavasitə aqrar sahə ilə, torpağın özəlləşdirilməsi ilə bağlı olan qanunlar: "Torpaq Məcəlləsi", "Mülkiyyət haqqında", "İcarə haqqında", "Aqrar islahatların əsas istiqamətıləri haqqında", "Kəndli-fermer təsərrüfatları haqqında", "Torpaq vergisi haqqında", "Kolxoz və sovxozların islahatı haqqında" qanunlar qəbul edildi. Torpağın kəndlilərə verilməsi onların özünün vəsaitləri hesabına əhalinin tələbatını ödəyən kənd təsərrüfatının və xidmət sektorunun müəyyən sahələrinin inkişafına şərait yaratdı. İlk növbədə yerli tələbatı ödəyən məhsullar (taxıl, ət, süd, yumurta, meyvə, tərəvəz və.s) istehsal etməklə ərzaq qıtlığı təhlükəsini aradan qaldırmış oldu.

Azərbaycan Respublikasında yoxsulluq və işsizlik səviyyəsini nəzərə alaraq, bir sira fərman, sərəncam və konsepsiyalar, dövlət proqramları qəbul olunmuşdur. Bildiyimiz kimi, 2000-ci ilin sentyabrında 147 ölkənin iştirak etdiyi minilliyin sammitində onun inkişaf məqsədlərini əks etdirən birgə bəyannamə imzalanmışdır. İmzalanan bəyannamədə 8 qlobal məqsəd müəyyənləşdirilmişdir. Bu məqsədlərdən ən birinci yerdə duran dünyada yoxsulluğun və səfalətin yarıyadək azaldılması prinsipi dururdu. Bu bəyannaməni sammitdə dövlətimizi təmsil edən ümummilli lider Heydər Əliyev imzalamışdır. Bu bəyannaməni imzalayan bir dövlət olaraq, ölkəmizdə də bununla bağlı, bir sıra işlər görülmüşdür. Bu baxımdan Azərbaycan Respublikasının Prezidentinin 2003-cü il 20 fevral 854 nömrəli fərmanı ilə "2003-2005-ci illər üçün "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" qəbul olunmuşdur. Bu baxımdan ölkədə mövcud

olan sosial problemlərin, xüsusilə də, yoxsulluq probleminin həlli istiqamətində aparılan işlərin nəticəsində sonrakı illərdə də makroiqtisadi sabitlik qorunub saxlanılmış, inflyasiya və valyuta məzənnəsinin səviyyəsi qorunub saxlanılmış, dinamik iqtisadi artıma təkan verilmişdir.

## SİNTETİK KAUÇUK ZAVODU XX ƏSRİN 70-ci İLLƏRİNDƏ

***Alıyev R.A.***
*Sumqayıt Dövlət Universiteti*

Kimya texniki tərəqqinin, əmək məhsuldarlığını yüksəltməyin və xalqın güzəranını yaxşılaşdırmağın əsas amilidir. Xalq təsərrüfatının elə bir sahəsi yoxdur ki, orada kimyanın yeni nailiyyətləri tətbiq edilməsin. Sumqayıt ölkəmizin kimya mərkəzidir. Sintetik kauçuk Sumqayıtın kimya sənayesinin ümumi məhsul istehsalı 1950-ci ildəkinə nisbətən 1966-cı ildə 82 dəfə çoxalmışdır.

1971-ci ildə respublikada kimya sənayesinin qarşısında duran həlli vacib məsələləri diqqətlə araşdıran Heydər Əliyev, ilk növbədə, bu sahənin bütün texniki-iqtisadi və sosial baxımdan yeniləşdirilməsi proqramının yaradılması işini təşkil etməklə kimya sənayesinin inkişaf konsepsiyasının əsasını qoydu. Heydər Əliyev ittifaq rəhbərliyindən təkidlə Azərbaycanın kimya və neft-kimya strukturlarının təkmilləşdirilməsini, mənəvi və fiziki baxımdan köhnəlmiş, aşınmış istehsalat sahələrinin ləğv edilib, əvəzində müasir, iri tonnajlı tullantısız texnologiaya malik müəssisələrin yaradılmasını, eyni zamanda texniki və təbiəti mühafizə obyektlərinin tikintisini həyata kecirməyə imkan verən həlledici qərarların qəbulunu tələb edirdi. Ulu öndər müəllifi olduğu konsepsiyanın, kimyanın yüksəliş proqramının tam həyata keçirilməsi üçün məhz özünün şəxsi təklifi və təkidi ilə o zaman keçmiş ümumittifaq fondundan böyük həcmi də kapital qoyuluşu ayrıldı. 1971-ci ildə sintetik kauçuk zavodunda illik gücü 15 min ton olan butilkauçuk istehsalı işə salındı və müəssisə keçmiş SSRİ-də butikauçuk xüsusi markalarını istehsal edən yeganə müəssisəyə çevrildi. Nəticədə, həmin kauçuk növünün xaricdən alınmasına son qoyuldu və Bakı şin zavodunu yerli xammalla təchiz etmək və hazırlanan şinlərin keyfiyyətini yüksəltmək mümkün oldu. 1976-cı ildə həmin müəssisədə butadien sexi işə salındı. Bir ildən sonra isə butadien-stirol, 1980-ci ildə butadien- nitril lateksləri, sonrakı ildə isə butadien-nitril kaucuku istehsal edən sex və qurğular istismara verildi. Sumqayıt Sintetik kauçuk zavodunun kollektivi 1975-ilin və bütövlükdə doqquzuncu beşilliyin dövlət planını və sosialist öhdəliklərini müvəffəqiyyətlə yerinə yetirmişlər. Bu illər ərzində istehsalın həcmi xeyli artmış, əmək məhsuldarlığı yüksəlmiş, mənfəət 4 dəfədən çox olmuşdur.

Zavodun kollektivi 1976-cı il üşün aşağıdakı sosialist öhdəliklərini qəbul etmişdir:

-istehsalı daha da intensivləşdirmək, onun səmərəliliyini artırmaq hesabına 1976-cı ilin dövlət planını istehsalın həcmi və məhsul satışı üzrə dekabrın 27-dək yerinə yetirmək, əmək məhsuldarlığını 0,5 faiz artırmaq;

-satlıq məhsulun maya dəyərini planda nəzərdə tutulduğundan 500 min manatlıq aşağı salmalı, plandan əlavə, 500 min manat məbləğində mənfəət götürülməsini təmin etməli;

-divinil və dvinil-stirol kauçukunun keyfiyyətini xeyli yüksəltməli;

-elektrik enerjisi məsrəfinin 5 milyon kilovat-saat, istilik enerjisinin 35 min hekakalori azaldılmasına nail olmalı, ixtisasçıların və səmərəlişdiricilərin təkliflərinin tətbiq edilməsi nəticəsində ildə 1 milyon manatlıq iqtisadi səmərə əldə etməli, il ərzində 250 yeni fəhlə hazırlamalı, 1.185 işçinin ixtisasını yüksəltməli, bütün sahələrdə 900 nəfəri təhsillə əhatə etməli;

-texnoloji sxemləri təkmilləşdirmək hesabına kimyəvi cəhətdən çirklənmiş tullantıları və şərti təmiz axarları 10-15 faiz azaltmalı;

-zavodun ərazisini yaşıllaşdırmaq üçün 10 min kol və çiçək, 500 ağac əkməli.

Sovet Azərbaycanının 40 illiyi adına Sintetik kauçuk zavodu səneye müəssisələri arasında mühüm yer tutur doqquzuncu beşillik müəssisə ücün yüksəliş dövrü olmuşdur. Kimyaçılar Ümumittifaq sosializm yarışında daim fəal iştirak etmişlər. Kimyaçılar tapşırıqdan əlavə on milyonlarla manatlıq məhsul satmış, divinilin, stirolun, kauçukun maya dəyərini 25 faiz, butil kauçukun maya dəyərini isə 6 dəfə aşağı salmış, 10 milyon manatlıq əlavə gəlir qazanmışlar. Zavodun əməkçiləri öhdəlik olaraq bir milyon manat iqtisadi səmərə verən 1.100 səmərələşdirici təklif həyata keçirmək, illik plandan əlavə, üç milyon manatlıq məhsul istehsal etmək, 500 min dekalitr etil spirti, 3 min ton divinil təhvil vermək, əmtəəlik məhsulun maya dəyərini aşağı salmaq, izopropil spirtini dövlət keyfiyyət nişanına təqdim etmək nəzərdə tutulmuşdur.

Divinil istehsalçıları sexinin kimyacıları beşillik plana və öhdəliklərə sentyabr ayında əməl etmişlər. Müəssisədə istehsal olunan 7 növ kimyəvi məhsullar ölkəmizin 122 ünvanına və 8 xarici ölkəyə göndərilmişdir. İzopropil spirtinin dölət keyfiyyət nişanı alması kimyaçıların beşillik qələbəsinin zirvəsi hesab edilmişdir.

Onuncu beşillik ərzində doqquzuncu beşilliyə nisbətən 20,7 milyon manat cox əlavə gəlir götürmək planlaşdırılmışdır. Sumqayıt Sintetk-kauçuk zavodunun kollektivi 1977-ci ilin plan tapşırıqlarını və sosialist öhdəliklərini uğurla yerinə yetirmişlər. İllik məhsul satışı planı 101,4 faiz yerinə yetirilmiş, əmək məhsuldarlığı 1,8 faiz yüksəldilmişdir.

Kollektiv onuncu beşilliyin üçüncü ilini zərbəçi əmək ili elan edərək aşağıdakı öhdəlikləri götürmüşdür.

- Dövlət planını dekabrın 28-də yerinə yetirmək, plandan əlavə, yüz minlərlə manatlıq məhsul istehsal etmək;
- əmək məhsuldarlığını planda nəzərdə tutulduğuna nisbətən 1,2 faiz yüksəltmək;

- təşkilat-texniki tədbirlər həyata keçirilməsi, qənaət rejiminə əməl olunması və daxili ehtiyatlardan səmərəli istifadə edilməsi hesabına əmtəəlik məhsulun maya dəyərini planda nəzərdə tutulduğuna nisbətən 0,2 faiz aşağı salmaq, 35 ton müxtəlif metala, 2 milyon kilovat-saat elektrik enerjisinə, 150 ton dvinilə, 100 ton propilenə, qənaət etmək və plandan əlavə, yüz minlərlə manat məbləğində mənfəət götürmək;

## AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ İNKIŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Alməmmədli M.G.***
*Sumqayıt Dövlət Universiteti*

Fəlsəfi fikir sahiblərindən biri yazır ki, "siyasət dünyasında daimi heç nə olmadığı kimi, heç bir universal resept də yoxdur. Yalnız uğur qazanmaq üçün daimi qaydalar var. Siyasətdə başlıcası adekvat metod və vasitələr axtarıb tapmaqdır." Bu metod və vasitələri tapmaqda çətinlik çəkməyən Heydər Əliyevin fenomenal siyasi istedadı ən çətin məqamda belə ona uğur gətirən qızıl qaydaya çevrilmişdi.

Tarixi təcrübə göstərir ki, zəngin təbii və iqtisadi sərvətlərə malik olan ölkələrdə müstəqilliyin qorunub saxlanılması bəzən onun əldə edilməsindən daha çətin və mürəkkəbdir. Düşmən təcavüzünə məruz qalan və təcrübəsiz dövlət rəhbərləri tərəfindən idarə olunan Azərbaycanda bu daha da çətin idi. Ölkəmiz yalnız dövlət müstəqilliyini itirmək təhlükəsi ilə deyil, eyni zamanda, daxildən də parçalanmaq təhlükəsi ilə qarşı-qarşıya qalmışdı. Ölkəni bu ağır vəziyyətdən 1993-cü ildə xalqın istəyi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev çıxardı. Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin qeyd etdiyi kimi "Belə bir çətin anda, çətin dövrdə xalqımızın müdrikliyi bir daha özünü göstərdi. Xalqın təkidi və tələbi ilə ümummilli liderimiz Heydər Əliyev Azərbaycana qayıtdı, xalq onu Prezident seçdi və ondan sonra ölkəmizin inkişaf dövrü başlandı. Bütün xoşagəlməz meyllərə son qoyuldu, sabitlik, ictimai asayiş bərqərar olundu, qeyri-qanuni silahlı dəstələr tərksilah edildi. Bir sözlə, müstəqil Azərbaycan Respublikası yeni inkişaf yoluna qədəm qoydu və sabitlik təmin edildi". Prezident kimi fəaliyyətinin əsas istiqamətlərindən bəhs edərək Heydər Əliyev iki halı xüsusi qeyd etmişdir: "Respublika iqtisadiyyatı, demək olar ki, tamamilə dağıdılıb, xalqın rifah halı aşağı düşüb. Lakin respublikanın böyük sosial-iqtisadi, elmi-texniki potensialı var. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Digər tərəfdən yeni islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik".

Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə yeni iqtisadi yüksəliş başlanıldı, Azərbaycan iqtisadiyyatına xarici investisiyalar yatırıldı, ulu öndər digər sahələrdə olduğu kimi bu sahədə də köklü dəyişikliklərin aparılması üçün yeni imkanlar yaratdı. Bu mərhələdə ilk növbədə gələcək müstəqil və güclü iqtisadi siyasətin zəminləri yaradıldı. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir. 1993-cü ilin yarısından başlayaraq, aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmə proseslərinin qarşısının alınması və digər tədbirlərdən sonra iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı və bununla da Azərbaycanın iqtisadi inkişafına mahiyyətcə yeni mərhələnin təməli qoyuldu. Əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən geniş miqyaslı iqtisadi islahatların ilkin nəticələri

aparılan siyasətin düzgünlüyünü və Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq edirdi.

İlham Əliyevin apardığı həm xarici, həm də daxili siyasət Heydər Əliyev əməllərinin davamıdır. Bu siyasətin məğzində Azərbaycanın iqtisadiyyatının inkişafı və əhalisinin yaxşı yaşaması əsas meyarlardan biridir. Azərbaycan və Azərbaycan xalqı var olduqca, Heydər Əliyev əməlləri və ideyaları daim yaşayacaq və qorunub saxlanacaq.

## GƏNCLƏRDƏ HƏRBİ BACARIQ VƏ VƏRDİŞLƏRİN FORMALAŞMASINDA HƏRBİ-İDMAN OYUNLARININ ROLU

***Aslanlı G.M.***
*AMEA, A.A.Bakıxanov adına Tarix İnsitutu*

Ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafı sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən biri də gəncləri əməyə, ölkənin müdafiəsinə hazırlamaq, onlarda mərdlik, çeviklik, intizam və kollektivçilik, vətənpərvərlik kimi qiymətli mənəvi keyfiyyətləri tərbiyə etməkdir. Gənc nəslin məhz belə bir ruhda tərbiyə edilməsində, onlara ilkin hərbi bilik və vərdişlərin aşılanmasında hərbi-idman oyunları mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, məktəbliləri hərbi-idman oyunlarına cəlb etməkdə əsas məqsəd onlarda vətənpərvərlik hissini tərbiyə etmək, ordu sıralarına hazırlamaqdan ibarətdir. Azərbaycanda hərbi-idman oyunlarının keçirilməsinin tarixi sovet dövrü ilə bilavasitə bağlıdır. Respublikamızda hərbi-idman oyunları keçirildiyi vaxtdan bugünədək böyük yol keçmişdir. Ölkəmizdə "Üfüqdə yarış" idmanı üzrə birinci hərbi-idman oyunu 1967-ci ildə keçirilmişdir. Azərbaycan hökumətinin diqqət və qayğısı nəticəsində 1970-ci illərdə hərbi-idman oyunları respublikada geniş vüsət almışdı. Təkcə 1972-ci ildə bu yarışlarda respublikanın 59 şəhər və rayon məktəbliləri iştirak etmişdir. Respublikada 5452 gənc hərbçi dəstəsi, 1700 batalyon hərbi-idman oyunlarında iştirak etmişdir. Ümumiyyətlə, 1990-cı ilə qədər Azərbaycan ümumtəhsil məktəblərində "Üfüqdə parıltı", "Qartal balası" hərbi-idman oyunları keçirilmişdir.

1996-cı ildən başlayaraq ölkəmizdə Gənclər, İdman və Turizm Nazirliyi, Dövlət Sərhəd Xidməti, Könüllü Hərbi Vətənpərvərlik Texniki İdman Cəmiyyəti, Respublika Veteranlar Şurası və Gənclər Təşkilatları Milli Şurası ilə birgə orta məktəblərin IX-XI sinif şagirdləri arasında, "Şahin" hərbi-idman və 1998-ci ildən VI-VIII sinif şagirdləri arasında "Cəsurlar" və "Sərhəd" hərbi-idman oyunları təşkil edilir. Müstəqillik illərində, xüsusilə müharibə gedən bir ölkədə gənclərin hərbi vətənpərvərlik tərbiyəsinə böyük təsirə malik həmin oyunların bərpası və yenidən qurulması üçün mühüm tədbirlər həyata keçirilmişdir.

Yuxarıda göstərilmiş strukturların birgə qərarı ilə (11 iyun 2000-ci il) həmin oyunların Əsasnamələri təsdiq olunmuş və qərara alınmışdır ki, oyunlar 4 mərhələdə: məktəbdaxili yarışlar, rayon (şəhər) birincilikləri, 8 zona (Bakı, Naxçıvan, Tovuz, Qusar, Şirvan, Oğuz, Bərdə, Biləsuvar) üzrə birincilik və respublikadaxili yarışlar keçirilsin. Bu oyunların respublika final yarışları ənənəvi olaraq C.Naxçıvanski adına hərbi liseydə keçirilirdi. Göstərilən dövrdə hərbi-idman oyunları, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi sahəsində görülən tədbirlər nəticəsində bu istiqamətdə nəzərə çarpacaq irəliləyişlər baş vermişdir.

1997-ci ildə "Şahin" hərbi-idman oyunlarını yüksək səviyyədə təşkil olunub keçirilməsi təmin olunmuş bu oyunlarda respublikanın 75 rayon, şəhər, qəsəbə, kənd orta məktəbləri, liseylər, gimnaziyalar iştirak etmişdir. Oyunların keçirilməsində 20.949 məktəblinin iştirakı təmin edilmişdir.

Sonrakı illərdə ölkədə ənənəvi olaraq hər il "Cəsurlar", "Şahin", "Marş irəli" və digər hərbi-idman oyunları üç mərhələdə keçirilmişdir.

Beləliklə, göstərilən dövrdə respublikada hərbi-idman oyunlarının yüksək səviyyədə təşkili, məktəblilərin bu oyunlara geniş şəkildə cəlb edilməsi onlarda vətənpərvərlik hissinin yüksəlməsinə, hərbi işinə maraq  və həvəsin artmasına səbəb olmuşdur. Bu isə son nəticədə onlarla gəncin həyatlarını bütünlüklə Silahlı Qüvvələrə bağlamasına gətirib çıxarmışdır.

## AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Babaşova Ə.A.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Respublikasının bugünkü sosial-iqtisadi inkişafının əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndər ötən əsrin 70-80-ci illərində sovet dövlətinin iqtisadi potensialından Azərbaycanda iqtisadiyyatın və mədəniyyətin inkişafı üçün bacarıqla istifadə etmişdir. Onun sayəsində xalqın rifahının yüksəldilməsi təmin olunmuş və bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmişdir. Ümummilli lider iqtisadi müstəqilliyimizi və əhalinin məşğulluğunu təmin etmək üçün yeni müəssisələrin yaradılmasını əsas məqsəd kimi qarşıya qoymuşdu. Heydər Əliyevin rəhbərliyi ilə 1969-1982-ci illərdə respublikada 250-dən çox istehsal müəssisəsi istifadəyə verilmişdir. Yüzlərlə məktəb, klub, xəstəxana, istirahət evləri tikilmişdir. Bakının ətrafında yeni mikrorayonlar, sosial infrastrukturla təmin olunmuş yeni yaşayış massivləri salınmışdır. 1983-cü ildə Bakı-Qroznı neft kəmərinin, 1985-ci ildə Dərin Dəniz Özülləri Zavodunun, Bakıda "Ulduz" Elektrik Cihazqayırma, Sumqayıtda Məişət Kompressorları zavodlarının, 1981-1984-cü illərdə Şəmkir Su Elektrik Stansiyasının və digər sənaye obyektlərinin tikilib istifadəyə verilməsi əhalinin rifahının yaxşılaşmasına ciddi təsir göstərmişdir. Sənayedə əmək məhsuldarlığı yüksəlmiş, 581 adda yenitipli maşın, avadanlıq və cihaz nümunələri yaradılmışdır. Beləliklə, Azərbaycan aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrilmişdir. XX əsrin 70-80-ci illəri xalqımızın tarixində yalnız iqtisadiyyatın bütün sahələrinin inkişafı dövrü kimi deyil, həm də elmin, təhsilin, mədəniyyətin misilsiz tərəqqisi illəri kimi ayrıca mərhələ təşkil edir. Həmin dövrdə gələcək müstəqilliyimizin təməli qoyulmuş, iqtisadi, sosial və mədəni potensial formalaşdırılmışdır. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın iqtisadi-mədəni inkişafı, sənayenin, kənd təsərrüfatının, mədəniyyət, elm, təhsil və digər prioritet sahələrin idarə edilməsi üçün bacarıqlı və yüksəkixtisaslı kadrların hazırlanmasının vacibliyini mühüm vəzifə kimi qarşıya qoyaraq təhsilin inkişafına xüsusi qayğı göstərmişdir.

Ümummilli liderin ölkəyə rəhbərliyinin ikinci dövründə yüzlərlə müəssisə bərpa edilmiş, yeni sənaye obyektləri işə salınmışdır. Qərblə Şərq arasında olduqca əlverişli

geosiyasi və strateji mövqeyə malik olan Azərbaycan qədim İpək Yolunun üzərində – dünya nəqliyyat sisteminin kəsişmə nöqtəsində yerləşir və bu olduqca mühüm əhəmiyyətə malikdir. Görkəmli dövlət xadimi, Heydər Əliyevin uzaqgörənliklə irəli sürdüyü qədim İpək Yolunun bərpası ideyası, 1993-cü ilin mayında Traseka Proqramının qəbulu Azərbaycanın Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinə cəlb edilməsində, nəticə etibarilə, onun iqtisadi potensialının artmasında mühüm rol oynamışdır. 1994-cü ildə Əsrin müqaviləsinin imzalanması gənc Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyasında, onun tranzit potensialının artmasında mühüm addım idi. Bu müqavilə Şərqlə Qərb arasında əməkdaşlıqda Azərbaycanın regiondakı liderliyini təmin etmişdir.

Dövlətimizin müstəqilliyi, iqtisadi potensialının gücləndirilməsi, gənc nəslin yetişdirilməsi, tarixin, ədəbiyyatın, mədəniyyətin, incəsənətin inkişafı sahəsində dünya şöhrətli dahi şəxsiyyət Heydər Əliyevin qayğısı, tələbkarlığı, xeyirxahlığı, müdrikliyi çox böyük və şərəflidir. O, uşaqların və gənclərin ali təhsil almasına, elm öyrənməsinə, Azərbaycan tarixinə, ədəbiyyatına, mədəniyyətinə məhəbbət ruhunda tərbiyə olunmasına atalıq qayğısı göstərmiş, həmişə səmərəli köməyini əsirgəməmişdir.

Dahi rəhbər Heydər Əliyev Azərbaycanın mədəni yüksəlişi üçün də mühüm tədbirlər həyata keçirmişdir. Milli müstəqillik məfkurəsinin milli şüur və dil faktorlarından asılı olduğunu nəzərə alan ümummilli lider hakimiyyətinin ilk illərindən dil məsələsinə ciddi diqqət yetirmişdir. Heydər Əliyevin Azərbaycan mədəniyyətinin qorunub saxlanmasında və inkişafında da rolu əvəzsizdir. 2001-ci il avqustun 9-da Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi, 2002-ci ildə Şirvanşahlar Sarayında, Möminə xatın məqbərəsində, Qarabağlar türbəsində və Şəki Xan Sarayında təmir-bərpa işlərinin aparılması, Qız qalasının və İçərişəhərin YUNESKO-nun "Dünya mədəniyyəti irsi" siyahısına daxil edilməsi ölkə mədəniyyətinin inkişafına əvəzsiz töhfələr vermişdir.

Ümummilli lider müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi nəticəsində milli dövlətçilik ideyasının reallaşdırılmasına, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzularının həyata keçirilməsinə nail oldu. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Qərb və Şərq arasında etibarlı körpü rolunu oynamağa başladı. Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən yaradılmış siyasi və iqtisadi baza Azərbaycan Respublikasının gələcək inkişaf strategiyasının əsasını təşkil edir.

## MİLLİ İQTİSADİYYAT VƏ İQTİSADİYYATIN ƏSAS SEKTORLARI ÜZRƏ STRATEJİ YOL XƏRİTƏSİNİN BAŞLICA İSTİQAMƏTLƏRİ

***Babayeva T.P.***
*Sumqayıt Dövlət Universiteti*

Prezident İlham Əliyevin 2016-cı il 16 mart tarixli Sərəncamı ilə təsdiq edilən "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" ölkəmizdə qeyri-neft sektorunun inkişafında çox böyük əhəmiyyət daşıyan strateji sənəddir

Hazırda qeyri-neft sektorunun inkişaf etdirilməsi üzrə bir qrup dövlət dəstəyi mexanizmləri işlənib hazırlanıb və reallaşdırılıb. Belə ki, regionların inkişafı, kənd təsərrüfatı məhsulları istehsalçılarının dəstəklənməsi məqsədilə iri infrastruktur layihələri həyata keçirilib, lizinq yolu ilə texniki təminat təşkil edilib, gübrələrlə təchizat sistemi yaradılıb, inşaat, turizm, informasiya texnologiyaları, anbarlar istifadəyə verilib, yollar çəkilib, modern müəssisələr istismara verilib, biznes layihələri üzrə güzəştli kreditlər ayrılıb və s. stimullaşdırıcı tədbirlər görülüb.Bütün bunlar artıq öz bəhrəsini verməkdədir.

Belə ki, 2017-ci ilin 11 ayında Iqtisadiyyatın qeyri neft sektoru 3,6%, qeyri-neft sənayesinin 2%, kənd təsərrüfatı 4,1 % ,valyuta ehtiyatları 4,5 milyard dollar səviyyəsində artıb. Bu dövlətin xarici borcundan 5 dəfəyə qədər çoxdur. Hazırda valyuta ehtiyatları 43 mild. dollar səviyyəsindədir. Bu dövr ərzində ixrac 19 %, qeyri neft məhsulları üzrə ixrac 24% artmışdır.

Hazırda ölkəmizdə qeyri-neft sektorunda istehsal edilən bəzi məhsullar dünyanın bir sıra ölkələrinə ixrac edilir. Respublikamızdan ixrac edilən məhsullar alıcıların geniş marağına səbəb olub. Belə ki, artıq gələcəkdə "Made in Azerbaijan" adı altında istehsal və ixrac olunan məhsullar dünya bazarında layiqli yerini tutacaq. Məhz buna görə də respublikada ayrı-ayrı qeyri neft sektoru sahələrinin ciddi potensiala malik ixracyönümlü məhsulların istehsalının təşkili və xarici bazarlara çıxarılması məsələləri diqqətlə öyrənilir, dünya təcrübəsinin tətbiqinə geniş yer verilir, milli iqtisadiyyatın inkişaf xüsusiyyətləri nəzərə alınır, ölkənin xarici ticarət konsepsiyasının daha işlək, səmərəli fəaliyyət mexanizmləri hazırlır və həyata keçirilməlidir.

Bu məqsədlə xarici ölkələrdən ixrac ediləcək məhsullara sifarişlərin qəbul edilməsi ilə bağlı "Azeksport" portalı fəaliyyət göstərir. Bu isə Azərbaycan məhsullarını dünya ölkələrinə tanıtdırmaqda mühüm rol oynayır. Onu da qeyd edim ki,bu günə qədər 200 mln.manatlıq məhsul sifarişi qəbul olunmuşdur.

Hazırda Azərbaycan məhsullarının xarici ölkə bazarlarına çıxarılması üçün reklam, marketinq məsələlərinə xüsusi diqqət yetirilir. "Made in Azerbaijan" brendinin xarici bazarlarda təbliğinə, yeni məhsuların ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlər olmasına, sərgilərin təşkili, ixracla əlaqəli çəkilən xərclərin dövlət büdcəsindən ödənilməsi nəzərdə tutulur. Bu işlər Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fonduna (AzPROMO) həvalə edilib. Bu işdə məhsulların beynəlxalq sərgi və yarmarkalarının təşkili, KİV-lərdə reklamların aparılması olduqca vacibdir.

Logistika və ticarət sürətlə qloballaşan dünyaya iqtisadi inkişafın əsas təkanverici qüvvələrindən biri hesab olunur. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin təsdiq etdiyi strateji yol xəritələrindən biri Azərbaycanda logistika və ticarətin inkişafı ilə bağlıdır. Çünki Azərbaycan bu sahədə əlverişli coğrafi mövqeyə malikdir.

Bu mənada logistika imkanlarının genişləndirilməsi inkişafa xidmət etməklə yanaşı, ölkəmizin regional və beynəlxalq ticarətdə rolunun artmasına da səbəb olacaq.

Bu sənəddə qarşıya qoyulmuş məqsədlər və prioritetlər isə həm də beynəlxalq əməkdaşlığı əhatə edir. Lakin Azərbaycan bu sahədə artıq layihələrin həyata keçirilməsinə başlayıb. Azərbaycanın xarici ticarətinin strukturunda isə kənd təsərrüfatı məhsulları

üstünlük təşkil edir və bu sahədə logistik mərkəzlərin yaradılması mühüm əhəmiyyət kəsb edir.

Bundan irəli gələrək Azərbaycanın ixrac imkanlarının genişləndirilməsi məqsədilə ölkədaxilində olmaqla, xaricdə də logistik mərkəzlərin yaradılması nəzərdə tutulur. Artıq Qazaxıstanın Aktau şəhərində Azərbaycanın İstehsal və Logistika Mərkəzi yaradılıb.Bu, 25 faizi dövlətə məxsus olmaqla, Azərbaycanın xarici ölkələrdə ilk logistika mərkəzidir. Mərkəz Azərbaycanda istehsal olunan sənaye, kənd təsərrüfatı və ərzaq məhsullarının Qazaxıstan və digər Mərkəzi Asiya ölkələrinə, həmçinin Qazaxıstan mallarının ölkəmizə ixracı üçün əlverişli şərait yaradır.

Strateji yol xəritəsinin əsas istiqamətlərindən biri Turizm sektorunun inkişafıdır. Bu sahədə görülən işlərlə bərabər "Asan viza" sisteminin yaradılması sahəsinin inkişafında önəmli rol oynamışdır. Belə ki, ötən ilə ölkəyə dələn xarici ölkə vətəndaşlarının sayında əhəmiyyətli artım olmuşdur. Bütün bu işlər Strateji yol xəritəsinin qəbul olunduğu qısa dövr müddətində görülən işlərdir ki, öz bəhrəsini verməkdədir.

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ ƏSASINDA AZƏRBAYCAN DÜNYADA TOLERANTLIĞIN TƏCƏSSÜMÜ KİMİ

***Bayramova N.İ.***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Quba filialı)*

Tarixən İpək yolunun üzərində yerləşərək Azərbaycan dövləti müxtəlif sivilizasiyaların qovuşduğu bir məkan olmuşdur. Azərbaycan müstəqilliyini bərpa etdikdən və Ümummilli Lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra milli-dini dəyərlərimizin qorunmasında, islam dininə ehtiram göstərilməsində, xalqımızın dini əqidəsinin daha da möhkəmləndirilməsində öz əməli fəaliyyəti ilə böyük rol oynamışdır. Azərbaycan tarixən tolerantlıq və dini dözümlülük ənənələri ilə fərqlənsə də, tam qətiyyətlə demək olar ki, beynəlxalq standartlara cavab verən tolerantlıq ölkəmizdə məhz Heydər Əliyevin xidmətləri sayəsində qurulmuşdur. Heydər Əliyev öz müdrik siyasəti ilə əsrlər boyu formalaşmış çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək keyfiyyətcə yeni müstəviyə keçirmişdir. Azərbaycançılığın əsas tərkib hissəsi olan multikulturalizm siyasətini ölkənin demokratik və etnomədəni inkişafının mühüm elementlərindən biri hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan bütün etnosların hüquq və azadlıqlarının, o cümlədən etnik və mədəni dəyərlərinin qorunmasının demokratiyanın mühüm prinsipi olan insanların hüquq və azadlıqlarının qorunmasından irəli gəldiyini göstərirdi. Ümummilli liderimizin ən böyük uğurlarından biri xalqımızın ən dəyərli keyfiyyətlərindən olan digər millətlərin hüquq və mədəniyyətlərinə hörmət etmə xüsusiyyətini milli – ideologiya azərbaycançılıq səviyyəsinə qədər yüksəltdi və rəsmiləşdirdi. Bununla da Azərbaycanı separatizm və parçalanma bəlasından xilas edərək tarixən bu torpaqlarda yaşayan xalqların təmsilçilərini də vahid bir məqsəd ətrafında səfərbər etdi və hamını Azərbaycan bayrağı altında birləşdirdi. Bu gün tam əminliklə demək olar ki, dünyanın böyük maraqla öyrəndiyi

Azərbaycan Multikulturalizmi və Tolerantlığı modelinin banisi məhz elə Ulu Öndərimiz Heydər Əliyev olmuşdur.

Mətbuat və televiziyalarda qonşu dövlətlərimizdən yaxın Şərqə və Avropaya uzanan siyasi xaosu, səfaləti və miqrant axınını görəndə biz Ümummilli liderimizin uzaqgörən fəaliyyətinin bəhrəsinin əhəmiyyətini bir daha əminliklə başa düşürük. Axı 1988 – 1993 – cü illərdə Azərbaycan dövləti də eyni aqibəti, ölkənin parçalanması kimi ağrılı prosesləri, tüğyan edən böhran və separatizm dalğasını məhz Heydər Əliyev şəxsiyyəti fədakarlıq və mübarizlik sayəsində aradan qaldıra bildi. Bu gün dünyada onlarla dövlətin yaşadığı faciələri, baş verən terror dalğalarını televiziya ekranlarında, qəzet və internet səhifələrində ürək ağrısıyla izləyərkən onların sırasında olmadığımıza görə bu dahi xilaskarımızın əbədiyaşar ruhu qarşısında baş əyərək minnətdarlıq bildirir və dahi şəxsiyyətin şah əsəri olan Müstəqil Azərbaycan ideyası ətrafında daha da sıx birləşirik. Hal-hazırda dünyada çoxmədəniyyətli bir ölkə imici qazanmış Azərbaycanda müxtəlif xalqlar arasında dostluq, qardaşlıq və tolerantlığın hökm sürməsi, öz milli – mənəvi dəyərlərinin, dini etiqadlarının, adət - ənənələrinin qorunub saxlanması, dil və mədəniyyətlərinin inkişaf etdirilməsi üçün demokratik şəraitin yaradılması Azərbaycan dövlətinin siyasətinin dünyada uğuru hesab edilməlidir. Bu baxımdan dövlətimiz bütün dünyaya örnək göstərilə bilər. Ona görə də sürətli inkişaf yolunda olan respublikamızın həm də müxtəlif mədəniyyət və dəyərlərə malik olan xalqların, dinlərin nümayəndələrinin mehriban şəraitdə yaşadığı multikultural və tolerant bir məkan olmuşdur. Ulu Öndər qeyd edirdi ki, dinindən, irqindən, dilindən asılı olmayaraq bütün ölkə vətəndaşları eyni hüquqlara malikdirlər. Təsadüfi deyildir ki, 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikası Konstitutsiyasının 25-ci maddəsi ilə - mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarına hörmət qanuni müstəvidə təmin olundu. Eyni zamanda Ulu Öndərin hakimiyyətinin ilk illərindən başlayaraq qəbul edilən bir çox qanunlarla azərbaycan ərazisində yaşayan bütün xalqların mədəni kimlikləri tanındı. Onların ədəbiyyatları, mədəniyyətləri, dili, tarixi, adət - ənənələri və tarixi abidələri də qorunub saxlanmağa və inkişaf etdirilməyə başladı. Heydər Əliyev dəfələrlə qeyd edirdi: “ *Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir. Üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirirsə bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir.*”

Bu gün ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri öz ana dillərində təhsil ala bilir, dini inanclarına ibadət edə bilir, heç bir ögey münasibət görmədən azad və təhlükəsiz şəraitdə yaşayırlar. Müxtəlif dövrlərdə ölkəmizdə qeyri – islam dinindən olan insanlar üçün ibadət yerləri, kilsələr, sineqoqlar fəaliyyət göstərir və hazırda da onlar öz fəaliyyətlərini davam etdirirlər. Heç kimə sirr deyil ki, Azərbaycanda dini konfessiyalar arasındakı münasibətin kökündə bir-birinin dini inancı və mənəvi dəyərlərinə hörmət dayanır.

Azərbaycanda yaşayan bütün xalqlar, milli azlıqlar, müxtəlif etnoslar, dilindən, dinindən, irqindən asılı olmayaraq hamı özünü tam əminliklə Azərbaycan vətəndaşı hesab edir, onların arasında heç bir fərq qoyulmur. Azərbaycan dünyada alternativi olmayan dövlətlərdəndir ki, burada dilindən, dinindən, irqindən asılı olmayaraq bütün millətlər eyni

cür siyasi fəallıq göstərə bilirlər. Biz bunu Milli Məclisin Millət vəkillərinin tərkibinə baxsaq şahidi olarıq. Azərbaycanda xristian, müsəlman və yaxud yəhudi yox yalnız və yalnız özünü tamamilə azərbaycanlı kimi hiss edən vətəndaşlar vardır. Bütün bunlara dahi öndərimizin azərbaycançılıq ideologiyasının uğurlu siyasəti sayəsində nail olmuşuq. Onun rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət hazırda Prezident Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hal-hazırda Azərbaycan dünyada multikulturalizm və tolerantlıq modeli kimi qəbul olunmuşdur. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev 15 may 2014-cü ildə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) yaradılması haqında fərman imzaladı. Fərmanda qeyd olunduğu kimi sivilizasiyaların qovşağında yerləşən Azərbaycanın zəngin mədəni və mənəvi irsi və tolerantlıq ənənələrinə malik olması beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. BBMM- nın fəaliyyəti, həyata keçirdiyi layihələr Azərbaycan Respublikasını dünyada mulutikulturalizmin məbədi olduğunu bir daha sübut edir. Eyni zamanda Azərbaycanda Multikulturalizm və dini məsələlər üzrə Dövlət Müşaviri vəzifəsi də mövcuddur. BBMM-nin fəaliyyətinin əsas istiqamətlərindən biri də Ulu Öndərimizin Azərbaycançılıq ideologiyasının bariz nümunəsi olan “Azərbaycan multukulturalizmi anlayışını” dünya ictimaiyyətinə çatdırmaqdır. Prezident Cənab İlham Əliyevin “Azərbaycanı dünyada multukulturalizm və tolerantlıq mərkəzi kimi tanıdaq” təşəbbüsünün öz real həllini tapması məqsədilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin apardığı ardıcıl və məqsədyönlü işin nəticəsində azərbaycanın 40-a yaxın universitetlərində və dünyanın 17 aparıcı universitetlərində “Azərbaycan Multikulturallizmi ” fənni tədris olunur. Həmçinin , daha bir uğur Azərbaycan Respublikası prezidenti cənab ilham Əliyevin 10 yanvar 2016-cı il tarixli “ 2016-cı ilin Azərbaycan Respublikasında multikulturalizm ili ” elan edilməsi haqqında sərəncamına müvafiq olaraq azərbaycan və rus dillərində çap edilən ədəbi –bədii, elmi – publisistik “ Multikultiralizm ” jurnalıdır.

Ümummilli Lider Heydər Əliyevin müxtəlif din və mədəniyyətlərə tolerant münasibəti, şəxsən özünün xarakterсə tolerant olması onun həyat və fəaliyyətində həmişə özünü biruzə vermişdir. Ulu Öndər 1993-cü ildə prezident seçildikdən sonra, oktyabrın 10-da öz andiçmə mərasimindəki nitqində Azərbaycanda mövcud olan dinlərin bərabər hüquqa malik olduğunu vurğulamış, dinlər və mədəniyyətlər arasındakı bu münasibətləri daim qoruyacağına and içmişdir. Heydər Əlliyev bu mərasimdəki nitqində demişdir: “*Azərbaycan çoxmillətli respublikadır. Bu respublikanın səciyyəvi cəhətidir. Bunun böyük tarixi var və bu tarixlə, dini və milli mənsubiyyətindən asılı olmayaraq eyni hüquqa malikdirlər və bundan sonra da bütün vətəndaşların bərabər hüquqla Azərbaycan Respublikasının ictimai – siyasi həyatında iştirak etməsi üçün şərait yaradılacaqdır.* ”

# AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Behbudova T.G.***
*Gəncə Dövlət Universiteti*

Sovet hakimiyyəti illərində XX əsr tarixinin bir sıra problemlərinin öyrənilməsi qadağan edilmişdir. Azərbaycan Respublikasının müstəqilliyinin bərpa etməsi ölkə tarixçilərinə müstəqillik və obyektivlilik bəxş etmiş oldu. Müstəqil Azərbaycan Respublikasının müasir dövrdə həm siyasi, həm iqtisadi və həm də mədəni sahədə əldə etdiyi böyük uğurlar, ölkəmizdə tarix elmin inkişafına təkan vermiş oldu.Həmçinin Ümummilli liderimiz H.Ə.Əliyevin tarix elminin inkişaf etdirilməsi üçün verdiyi tövsiyələr uğurla həyata keçirilməkdədir.

XX əsrin əvvəllərində başlanan siyasi proseslər respublikanın iqtisadiyatına, ictimai-siyasi vəziyyətinə ağır zərbələr vurmuşdu. Böhran işsizliyin sürətlə artmasına,hakim və məzlum təbəqələr arasında ziddiyyətlərin kəskinləşməsinə və tətillərin yaranmasına gətirib çıxarmışdı.İnqilabi hərakatın güclənməsindən qorxuya düşən çar höküməti fəhlə və kəndliləri mübarizədən yayındırmaq üçün 1905-1920-ci illərdə Bakıda, Şuşada Gəncədə, Naxçıvanda, İrəvanda erməni – müsəlman qırğını törətdi. Şimali Azərbaycanda özlərinə yer eləyən ermənilər həmin ildən başlayaraq azərbaycanlıları öz doğma torpaqlarından Qərbi Azərbaycandan qovub çıxarmaq niyyətlərini həyata keçirməyə başladılar. 1918-ci ildə martın 31-də Rusiyada yaranmış gərgin vəziyyətdən istifadə edən ermənilər azərbaycanlılara qarşı cinayətkar planlarını həyata keçirməyə başladılar. XX əsrin 20-30-cu illərində Şimali Azərbaycanda iqtisadi siyasət olduqca mürəkkəb və təzadlı idi. Həmin dövrdə yeni iqtisadi siyasət nəticəsində ərzaq vergisi tətbiq edildi,ticarət azadlığına yol verildi, bank və kredit şəbəkəsi yaradıldı. Lakin Azərbaycanın öz büdcəsini, vergi yığımı həcmini, ştat vahidlərini müəyyənləşdirməyə, hətta milli pulun işlətməsinə ixtiyarı yox idi, həmçinin kargüzarlığın Azərbaycan dilində aparılmasına icazə verilmirdi.DQMV-də isə kargüzarlıq, məhkəmə işləri ancaq erməni dilində aparılır, Ermənistan Respublikasının inkişafı üçün hərtərəfli yardımlar göstərilirdi.1948-1953-cü illərdə 150 min azərbaycanlı öz doğma torpaqlarından Qərbi Azərbaycandan deportasiya edildi.

Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. 1969-cu ildə Heydər Əliyev Azərbaycan SSR-yə rəhbər seçildi.Həmin il avqustun 5-də H.Ə.Əliyev Azərbaycan KP MK Plenumunda çıxış edərək, respublikanın iqtisadiyyatını dərin və hərtərəfli təhlil etdi, təsərrüfata rəhbərlikdə, mədəni quruculuqda, ideoloji işdə ciddi nöqsanlar olduğunu qeyd etdi və onları aradan qaldırmaq yollarını göstərdi. Bu illərdə iqtisadi-siyasi, mədəni sahədə quruculuq proqramı həyata keçirildi.Rüşvətxorluğa, korrupsiya qarşı ciddi mübarizə başladı. 1976-cı ildə Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçilən Heydər Əliyev bu vəzifənin verdiyi imkanlardan Azərbaycanın inkişafı naminə məharətlə istifadə etdi. Heydər Əliyev böyük uzaqgörənliklə bütün dövlət hakimiyyəti orqanlarının işini xalqın iqtisadi, sosial-mədəni tərəqqisi və milli oyanış siyasətinin reallaşmasına yönəltdi. [144]. 70-ci illərdə və 80-ci illərin əvvəllərində Azərbaycanın mülki, mülki-prosessual, cinayət-prosessual məcəllələrinə əlavələr və

dəyişikliklər edildi. Heydər Əliyevin rəhbərliyi altında fəaliyyət göstərən respublika Konstitusiya Komissiyasının hazırladığı yeni "Azərbaycan SSR Konstitusiyası" 1978-ci il aprelin 21-də qəbul edildi. Ölkə rəhbərliyinin etirazına baxmayaraq, H.Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan dili respublikada dövlət dili statusunu saxladı. [144]. 70-80-ci illərdə SSRİ-nin hərbi məktəblərində müxtəlif hərbi ixtisaslar üzrə 2000-dən çox azərbaycanlı zabit hazırlandı. "Gəncə" sözü yasaq edildiyi vaxt "Yeni Gəncə" rayonu yaradılmışdı. 1973-cü ildə Stepanakertdə Azərbaycan Pedaqoji İnstitutunun filialı əsasında Pedaqoji İnstitut açıldı. Heydər Əliyevin ağıllı və uzaqgörən siyasəti sayəsində partiya, sovet orqanları, ictimai təşkilatlar öz işini elə qurmuşdu ki, erməni separatçıları açıq çıxışlardan çəkinirdilər. 1977-ci ildə Dağlıq Qarabağ məsələsi növbəti dəfə qaldırılsa da, qarşısı qətiyyətlə alınmışdı. 70-80-ci illərdə Azərbaycanda 218 yeni sənaye müəssisəsi istifadəyə verildi ki, bu da Sovet hakimiyyətinin əvvəlki  50 ilində istifadəyə verilən yeni sənaye müəssisələrinin 70 faizə qədərini təşkil edirdi. Ulu öndər Heydər Əliyev demək olar ki, 22 il Azərbaycan SSR-ə rəhbərlik etdi, bu müddət ərzində o, Azərbaycanın milli dirçəlişi üçün XX əsrdə hamıdan daha çox xidmət göstərdi. Bu illərdə H.Əliyev suveren Azərbaycan Respublikasının əsasını qoydu.1969-1982-ci illərdə Azərbaycanda 250 iri müəssə tikildi,630 min iş yeri açıldı.

80-ci illərin ikinci yarısında başlanan siyasi proseslər respublikanın iqtisadiyatına ağır zərbələr vurmuşdu.İstehsal sürətlə azalır,iqtisadi tənəzzül dərinləşirdi.Sovet imperiyası dağılmış,respublikanın köhnə iqtisadi əlaqələri,demək olar ki, pozulmuşdur.Müəssisələrin istehsal vasitələri mənəvi və fiziki cəhətdən köhnəlmişdi.Müəssisələrin istehsal vasitələri mənəvi və fiziki cəhətdən köhnəlmişdi.Respublika sənayesinin aparıcı sahəsi olan neft sənayesində vəziyyət ağır idi. 1985-ci ildən başlayaraq "yenidənqurma", "aşkarlıq və demokratiya" bütün respublikanın hər yerində mürəkkəb sosial-iqtisadi və ictimai-siyasi vəziyyət yaratmışdı. Eyni zamanda erməni terror təşkilatları 1986-1990-cı illərdə də Azərbaycan vətəndaşlarına qarşı çoxlu terror əməli törətmişdilər. 1989-1990-cı illərdə həyata keçirilən iqtisadi islahatlar SSR-nin və Azərbaycanın iqtisadiyyatına və sənayesinə heç bir təsir göstərmədi,əksinə dövlət büdcəsinin azalmasına və işsizlik səviyyəsinin artmasına gətirib çıxardı. 1991-ci ildə yerli Sovetlər ləğv edilmiş, Azərbaycan Respublikası özünün dövlət müstəqilliyini elan etmişdi. Lakin Ermənistanın Azərbaycana qarşı elan olunmamış müharibəsi, daxildə hakimiyyət uğrunda nəhayətsiz çəkişmələr, ciddi siyasi qarşıdurmalar bu müstəqilliyi reallaşdırmağa imkan vermirdi. 1991- 1993-cü illərdə Azərbaycanın daxili və xarici siyasətində böyük səhvlərə yol verilmişdi. Respublikanın sərvətləri talanırdı. Ölkədə baş vermiş böhrandan istifadə edərək Azərbaycan torpaqlarını ələ keçirmək niyyətlərini reallaşdırmağa çalışan ermənilər 1991- 1993-cü illərdə azərbaycanlılara qarşı bir neçə dəfə işğalçılıq və soyqırım siyasəti həyata keçirdilər. Ölkənin qabaqcıl adamları, ziyalılar, sadə əməkçilər böyük fəlakətin yaxınlaşdığını hiss edirdilər. Respublikanın müstəqilliyini əlindən almaq istəyən nüfuzlu imperiyapərəst qüvvələr, onların yerli əlaltıları iqtidarın fərasətsizliyindən məharətlə istifadə edib ölkəni parçalanmağa, vətəndaş müharibəsi törətməyə çalışdıqları vaxt xalqın sağlam qüvvələrinə arxalanan Qurtuluş hərəkatı meydana gəlir və sürətlə genişlənirdi. Bu hərəkat zamanın böyük siyasətçisi Heydər Əliyevin ətrafında formalaşırdı.Xalqın nümayəndələri, qabaqcıl

ziyalılar dəfələrlə Naxçıvana, onun yanına gedib, yenidən böyük siyasətə qayıtmasını xahiş etmişdilər. 1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər ən nüfuzlu ziyalısı-alimlər, müəllimlər, jurnalistlər, hüquqşünaslar, həkimlər, əmək adamları, siyasətçilər "Səs" qəzeti vasitəsilə H.Əliyevə bu xahişlə rəsmi müraciət etdilər. Yeni Azərbaycan uğrunda siyasi hərəkat genişləndi. Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci il noyabrın 21-də Naxçıvanda "Yeni Azərbaycan Partiyası" (YAP) təşkil edildi.Yeni Azərbaycan Partiyasının bəyanatında (21 noyabr 1992-ci il) qeyd olunurdu ki, bu partiyanın başlıca proqram məqsədi dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, sivilizasiyalı demokratik hüquqi dövlət, möhkəm əmin-amanlıq və ictimai həmrəylik, sabit və sosial istiqaməti iqtisadiyyat yaratmaqdan, geniş demokratik islahatlar həyata keçirmək uğrunda mübarizə aparmaqdan ibarətdir.

Azərbaycanın görkəmli oğlu, alovlu vətənpərvər Heydər Əliyev xalqın bu ağır günündə, şübhəsiz, kənardan baxa bilməzdi. O, xalqın və respublika hakim dairələrinin dəfələrlə təkidli dəvətini qəbul edib iyunun 9-da Bakıya gəldi. Bütün Azərbaycan xalqı bu gəlişi böyük ümid və sevinclə qarşıladı.Heydər Əliyev Azərbaycanda vətəndaş müharibəsini dayandırmaq üçün ağıllı, düşünülmüş siyasi manevrlər etdi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu gün tarixə "Milli Qurtuluş günü" kimi daxil oldu. Xalqın tələbi ilə Milli Məclis 1997-ci ilin iyununda bu günü bayram elan etdi.Uğurlu daxili və xarici siyasət Azərbaycanın müstəqilliyinin ardıcıl və dönməz olduğunu bir daha nümayiş etdirdi. Bundan daxili və xarici düşmənlər çox narahat olurdular. Onlar paytaxtda və respublikada siyasi sabitliyi pozmaq üçün terror aktlarına əl atrıdılar. 1993-cü ildən başlayaraq Prezident Heydər Əliyevin həyata keçirdiyi düzgün daxili və xarici siyasət Azərbaycanın iqtisadiyyatının dirçəlməsinə səbəb olmuş, Azərbaycan xalqının qurtuluşuna nail olmuşdur.Məhz Heydər Əliyevin göstərişi ilə ölkədə siyasi,iqtisadi,mədəni prosesləri nizamlayan yüzlərlə qanun hazırlandı və tətbiq edildi Milli Ordunu formalaşdırılması ilə Ermənistan- Azərbaycan müharibəsində mühüm əhəmiyyət kəsb edən atəşkəs imzalandı.Əsrin müqaviləsinin imzalanması Azərbaycan qarşısında yeni perspektivlər açmış,Bakı-Tbilisi-Ceyhan neft ixracı kəməri,Bakı- Tbilisi-Ərzurum qaz ixracı kəməri və digər əhəmiyyətli lahiyələrin həyata keçirilməsinə imkan vermişdir.Qonşu dölətlərlə münasibətlər nizama salındı. GUAM təşkilatı yaradıldı.Azərbaycan Prezident 68 ölkənin hökümət baçşçıları ilə görüşlər keçirmiş, Azərbaycanın üzv olduğu beynəlxalq təşkilatların sessiyasında,zirvə toplantılarında iştirak etmişdi.1993-2000-ci illərdə amnistiya aktları imzalandı.1994-cü ildə maliyyə islahatı keçirildi,xarici ticarət liberallaşdırıldı. Regionların sosial-iqtisadi inkişafı maraqlanan ümummilli lider Heydər Əliyev 1998-2000-ci illərdə Gəncəlilərlə görüşündən sonra əhalinin rifah halının daha da yaxşılaşdırılması ilə bağlı bir sıra ciddi tapşırıqlar verdi. Ümummilli lider Heydər Əliyevin siyasi varisi cənab İlham Əliyev 2003-cü ildə ölkə prezidenti seçildikdən sonra "Yoxsulluğun Azaldılması və İqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər)", 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" və 11 fevral 2004-cü il tarixli "(2004-2008-ci illər) Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında fərmanları ölkədə iqtisadiyyatın inkişafını daha da sürətləndirdi. Bu ildən başlayaraq Azərbaycan

Respublikasının Prezidenti cənab İlham Əliyev diqqət və qayğısı, YUNESKO və İSESKO xoşməramlı səfiri, Heydər Əliyev Fondunun Prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın köməyi və dəstəyi,şəhər rəhbərliyinin təşkilatçılıgı ilə şəhərimizdə çoxşaxəli qlobal abadlıq,quruculuq,tikinti işlərinə başlanıldı. Sosial-iqtisadi sahədə mövcud olan bu fərqləri aradan götürmək üçün Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) üzrə Gəncə şəhərində eləcə də bir çox rayonlarda tədbirlər həyata keçirildi. Azərbaycan Respublikasının regionlarının "2009-2013-cü illərdə sosial- iqtisadi inkişaf Dövlət Proqramı" respublikanın bütün regionlarında yeni inkişaf mərhələsinin əsasını qoydu.Xüsusilə də Sahibkarlığa Dəstək Fondu və Prezident tərəfindən sahibkarların dəstəklənməsi özəl sektorun daha da inkişaf etməsinə səbəb oldu. Böyük iqtisadi və sosial yüksəlişi qeyd edən Azərbaycan da iqtisadi inkişafın nəticəsində "Azərbaycan modelini" yaratmağa nail olmuşdur.

## ÇAĞDAŞ SUMQAYIT ŞƏHƏRİ VƏ MİQRASİYA PROSESLƏRİNİN TARİXİNDƏN

***Bəşirova G.H.***
*Azərbaycan Hərb Tarixi Muzeyi*

Məlumdur ki, miqrasiya bir fenomen kimi bəşər tarixinin bütün dövrlərində mövcud olan ictimai reallıq və mühüm prosesdir. Miqrasiya - dini, iqtisadi, siyasi, sosial və digər səbəblərə görə insan qruplarının daimi və ya müvəqqəti yaşamaq məqsədi ilə bir yaşayış məkanından bir başqasına yerləşməsi ilə əlaqədar olan coğrafi yer dəyişdirmə hərəkətidir. Miqrasiya proseslərinin öyrənilməsi hər zaman diqqəti cəlb etmiş və bu gün də aktuallığını saxlayır. Miqrasiya və onu doğuran səbəblərin araşdırılması, dünya dövlətləri tərəfindən miqrasiya proseslərinin tənzimlənməsi sahəsində ümumi qaydaların müəyyənləşdirilməsi müasir qloballaşma əsrində həlli vacib, aktual məsələlərdən birinə çevrilmişdir. Miqrasiya proseslərinə nəzarət edilməsi dünya ölkələrinin ictimai-siyasi sabitliyinin qorunmasında böyük rol oynayır. Miqrant axınlarının cəmiyyətin sosial infrastrukturuna və vəziyyətinə təzyiqi nəticəsində yaranan təhlükələr müasir Avropanın ən mürəkkəb problemləri sırasındadır.

Dünya üzrə əhali yerdəyişmələri hər zaman olduğu kimi indiki dövrdə də təbii olan, bu baxımdan forma və məzmun etibarilə zəruri, eləcə də iradələrdən asılı olmayan bir prosesə çevrilmişdir. Tarixdə olduğu kimi bu gün də əhali köçləri davam etməkdədir. Köç prosesləri tarixi mahiyyətini bir qədər saxlamış və xüsusilə, əhalisi az olan və əmək resurslarına ehtiyac duyulan məskənlərə köç etmək xüsusiyyətlərini özündə qorumuşdur. İnsanlar xoşbəxt həyatlarını təmin etmək üçün dünyanın ayrı-ayrı ölkələrini, cəmiyyətlərini özləri üçün seçim obyektinə və məkanına çevirirlər. Asiyadan Avropa və Amerikaya, Rusiya və neft ölkələrinə, Avstraliyaya böyük axınlar müşahidə olunmaqdadır. Qloballıqdan və iqtisadi inkişafdan meydana gələn bu seçim imkanları, köç etmək istəkləri və istəklərin təmin olunması məqsədilə atılan müvafiq addımlar proseslərin sistemli və ardıcıl şəkildə müxtəlif mərkəzlər arasında axın xarakteri almasına gətirib çıxarır. Dünyada axın istiqamətləri miqrasiya mərkəzləri şəbəkəsini formalaşdırır. Miqrasiya proseslərinin zaman

ardıcıllığı ilə sistemli axını ümumən dünyada insanların yaşayış yerləri üzrə dəyişən hərəkətlərinin əsaslarını ortaya qoyur. Könüllü, eləcə də istəklərdən irəli gələn zəruri miqrasiya ideallığın axtarılmasını və rahat həyatın təmin olunmasını qarşısına məqsəd kimi qoyur.

Məlumdur ki, Sumqayıt həmişə əsl beynəlmiləl şəhər olmuşdur.Buraya keçmiş İttifaqın bütün guşələrindən gənc işçi qüvvəsi gətirilmişdir. Haqlı olaraq deyirlər ki, sumqayıtlı bərkə-boşa düşmüş, "odda yanmaz, suda batmaz, ələ keçməz partizan kimi" hər sınaqdan üzüağ çıxmış, həyat mübarizəsində özünün yaşamaq qabiliyyətini sübut etmiş əsl zəhmət adamıdır. Sumqayıta SSRİ-nin müxtəlif guşələrindən axışıb gələn insanlar burada hər şeyə özləri nail olmuş, hər şeyi "sıfırdan" başlamışlar. Sumqayıt özünü sübut etmiş inadkar, iradəli, dözümlü və döyüşkən insanların şəhəri kimi yaranmışdır. Onun sakinləri eli-obanı qədir-qiymətə, şan-şöhrətə mindirən insanlardır.

Qısa müddətdə SSRİ-nin yeni sosialist şəhərləri içərisində ərazisinin böyüklüyünə və əhalisinin illk artımına görə aparıcı yerlərdən birini tutmuş Sumqayıtda 1939-cu ildə cəmisi 6 min 400 nəfər yaşayırdı. Müharibə illərində və ondan sonrakı dövrdə burada respublikadan və ölkənin digər yerlərindən işləməyə gələn insanların hesabına Sumqayıtda əhali xeyli artdı. Sumqayıtın şəhər statusu aldığı 1949-cu ildə əhalisi 17 min 200 nəfərə catmışdı.

SSRİ əhalisinin siyahıyaalınmasına dair 1959, 1970, 1979 və 1989-cu illərin statistik materiallarına nəzər yetirdikdə məlum olur ki, Sumqayıtın əhalisi ildən-ilə daha çoxmillətli xarakter daşımağa başlamışdır. Belə ki, əgər 1959-cu ildə şəhərdə 10-dan artıq millətin nümayəndələri yaşayır və işləyirdisə, 1970-ci ildə onların sayı 15-ə, 1979-cu ildə 77-yə, 1989-cu ildə 81-ə çatmışdı.

Ötən əsrin sonlarında erməni işğalçıları tərəfindən zəbt edilmiş Dağlıq Qarabağ və Azərbaycan Respublikasının digər rayonlarından Sumqayıtda müvəqqəti sığınacaq tapmış 15714 ailə, (62838) əlavə edilərsə, şəhərdə 1994-cü il yanvarın 1-nə Azərbaycan Respublikasının Qaçqınlar Cəmiyyətinin (Qaçqınlar Komitəsinin - C.B.) məlumatına görə 337 min nəfərə yaxın əhali yaşayırdı. Vaxtilə buraya İttifaqın müxtəlif bölgələrindən gələn gənclər müxtəlif təbəqələrə və sosial qruplara, millətlərə və xalqlara aid idi. Sumqayıta gələnə qədər bu insanlar eyni adət-ənənələrə, xarakterə və psixologiyaya malik deyildilər. Yeni adamlarla rastlaşan, çoxmillətli istehsal kollektivlərinə düşən, şəhər həyat tərzi və ritminə öyrəşən, yeni birgə yaşayış qaydaları ilə, müxtəlif adət və ənənələrlə rastlaşan adamlar – miqrantlar bütün bu amillərin təsirini öz üzərlərində hiss etməyə başlayırdılar.

Sumqayıt şəhəri azərbaycanlıların milli və mənəvi simasını özündə əks etdirən, çətin və ağır vəziyyətlərdə ləyaqət və şərəfini qoruyub saxlayan insanların şəhəridir. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, "Sumqayıt bütün Azərbaycanı təmsil edir. Azərbaycanın hər bir yerindən bu şəhərdə yaşayanlar var. Sumqayıt kiçik bir Azərbaycan kimidir. O, Azərbaycan xalqının birlik, həmrəylik şəhəridir, ölkəmizin dayağıdır, gözəl bir guşəsidir". Heydər Əliyev tərəfindən Sumqayıta verilən bu yüksək qiymət əlbəttə ki, ilk növbədə onun ləyaqətli zəhmətkeş əhalisinə verilən qiymətdir. Çünki, şəhərin ilk bünövrəsini də onlar qoymuşlar.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİ

***Bünyadov Z.V.***
*Sumqayıt Dövlət Universiteti*

XX əsrin sonunda müstəqillik əldə etməsi Azərbaycanın həm dövlət quruluşunda əsaslı dəyişikliklərin həyata keçirilməsini, yeni sosial-iqtisadi və ictimai-siyasi münasibətlərin formalaşmasını şərtləndirdi, həm də ona davamlı olaraq öz təhlükəsizliyinin qayğısına qalmaq kimi daimi bir məsuliyyət bəxş etdi. Müstəqil dövlətçilik maraqlarının təmin edilməsi tələbləri, yeni geosiyasi aktorlarla birbaşa ünsiyyətin yaranması, tamamilə fərqli bir təhlükəsizlik mühitinə daxil olması, iqtisadi, ictimai, siyasi münasibətlərin demokratiya, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı yoluna çıxması və s. yeniliklər Azərbaycanda şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinə dair yeni-yeni yanaşmaların, proqram və konsepsiyaların yaradılması zərurətini ortaya çıxardı. Bütün bunlar Azərbaycan hökumətini və onun müvafiq məsul şəxslərini ölkənin milli maraqlarının və təhlükəsizliyinin əsas vəzifə və tələblərinə uyğun gələn Milli Təhlükəsizlik Konsepsiyasını formalaşdırmağa məcbur etdi. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin nəzəri əsaslarını müəyyən edən təhlükəsizlik konsepsiyasının ərsəyə gəlməsi və təhlükəsizlik siyasətinin tam formalaşdırılması üçün ölkənin müvafiq qurumlarına düz 15 il lazım gəldi. Milli Təhlükəsizlik Konsepsiyasının qəbul olunmasından əvvəl Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 2004-cü ildə "Milli təhlükəsizlik haqqında" qanun qəbul olunmuş və respublika Prezidentinin 2004-cü il 29 iyun tarixli sərəncamı ilə təsdiq olunmuşdur. Bu qanun özündə Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin milli təhlükəsizlk təliminin və siyasətinin əsas prinsiplərini, məqsəd və vəzifələrini əks etdirmiş və gələcək MTK-nın yaradılmasını şərtləndirmişdir.

Milli Təhlükəsizlik Konsepsiyası ölkənin milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində uzunmüddətli strateji vəzifə və prioritetləri özündə əks etdirən konseptual sənəd hesab olunur. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası Azərbaycan Prezidentinin 2007-ci il 23 may tarixli sərəncamı ilə təsdiq olunmuş və fəaliyyət üçün əsas götürülmüşdür. Azərbaycan Prezidenti İlham Əliyev ölkənin milli maraqlarla bağlı dövlət siyasətini formalaşdırarkən bir çox iqtisadi, siyasi, ideoloji, coğrafi, mədəni və digər amilləri, daxili siyasi maraqları, müxtəlif milli, etnik, sosial-siyasi və s. qüvvələrin mənafelərini, beynəlxalq aləmin mümkün reaksiyalarını, ulu öndər Heydər Əliyevin təhlükəsizliklə bağlı zəngin nəzəri irsini nəzərə alaraq, ölkə vətəndaşlarının milli iradəsini və dövlətin ali təhlükəsizlik maraqlarını rəhbər tutmuşdur. Milli Təhlükəsizlik Konsepsiyasını XXI əsrdə ölkənin milli maraqlarının təmin olunması ilə bağlı hakimiyyət strukturlarının bəzi fəaliyyət istiqamətlərini müəyyən edir və milli təhlükəsizlik sahəsində dövlət siyasətinin normativ-hüquqi bazasını təkmilləşdirir. Azərbaycan Respublikasının müstəqilliyə qovuşduqdan sonra-1991-ci ildən başlayaraq milli təhlükəsizliyinin əsas məqsədləri, milli maraq çərçivəsinin müəyyən edilməsi və təmin olunması, milli təhlükəsizlik siyasətinin vəzifələrinin, mexanizmlərinin, metod və vasitələrinin tapılması və

s. haqqında müxtəlif dövlət qurumları səviyyəsində, akademik dairələrdə və ictimai-siyasi institutlarda rəsmi və qeyri-rəsmi müzakirələr başlandı. Əlbəttə, milli inkişaf strategiyasının, milli maraq dairəsinin, ölkənin təhlükəsizliyinin əsaslarının müəyyən olunması və lazımi səviyyədə təşkili, onun təhlükəsizlk çərçivəsinin, geosiyasi kodunun yaradılması və milli təhlükəsizlik siyasətinin həyata keçirilməsi və s. mühüm dövləti vəzifələrin həlli - yenicə müstəqillik qazanmış və milli təhlükəsizlik sistemi hələ kifayət qədər möhkəmlənməmiş bir dövlət üçün düşünüldüyü qədər də asan iş deyildi. Qeyd edək ki, keçmiş Sovetlər Birliyinin dağılması bir çox nəzəri-hüquqi anlayışlarda olduğu kimi, "təhlükəsizliyin təmin olunması" ifadəsinə də əsaslı düzəlişlər etdi. Məlum oldu ki, ümumiyyətlə "təhlükəsizlik" anlayışı mürəkkəb sosial hadisə kimi konkret-tarixi xarakter daşıyır və "təbiət-insan-cəmiyyət" sistemində qarşılıqlı təsirin digər formaları və istiqamətləri ilə sıx bağlıdır.

Dövlətin təhlükəsizlik siyasətinin əsas məqsədi xarici aləmlə təmas zamanı ölkənin həyati əhəmiyyətli milli maraqlarını qorumaq və yüksək səviyyədə təmin etməkdən ibarətdir. Dövlətin milli maraqları, milli təhlükəsizliyi və planetar nüfuzu həm beynəlxalq hüququn subyekti kimi dünyada nəzərə alınır, beynəlxalq qurumlar tərəfindən qorunur, həm də dövlətin özünün daxili və xarici resurslarının köməyi ilə təmin olunur. Azərbaycan dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, vətəndaşlarının hüquqlarının, cəmiyyətinin milli və vətəndaş birliyinin, ölkənin sabit inkişafının tələb etdiyi ən ümdə dövləti vəzifələr və onların təminatı yolları, mövcud milli resursların bu işə səfərbər edilməsi proqramı və bəhs olunan sahədə məsuliyyətli dövlət idarəçiliyinin yaradılması onun milli təhlükəsizlik siyasətinin ən ali məqsədini təşkil edir.

Hər bir dövlət kimi Azərbaycan da xaricdən müdaxilə olmadan öz dövlət idarəçiliyini yaratmaq, onun strateji inkişaf yolunu seçmək, ölkənin konstitusiya quruluşunun, daxili həyatının, cəmiyyətin və hər bir vətəndaşın təhlükəsizliyini, əhalinin firavan həyatını təmin etmək, milli- vətəndaş birliyini və ictimai-siyasi sabitliyi qorumaq və s. kimi strateji vəzifələr həyata keçirir. Bu vəzifələrin reallaşdırılması onun milli təhlükəsizliyinin ikinci əsas məqsəd və vəzifəsini təşkil edir. Milli təhlükəsizlik siyasəti beynəlxalq hüquq normalarına, ölkə konstitusiyasına, daxili qanunlara və prinsiplərə, insanların, cəmiyyətin və dövlətin maraqları arasında tarazlığın gözlənməsinə, həmin tərəflərin qarşılıqlı məsuliyyətinə əsaslanmalıdır. Milli təhlükəsizlik siyasəti təkcə ölkənin məxsusi maraqları və onların təmin edilməsi ilə deyil, həm də yerləşdiyi regionda və dünyada təhlükəsizlik mühitinin yaxşılaşmasına xidmət göstərməlidir.

## HEYDƏR ƏLİYEVİN MİLLİ HƏRBİ KADRLARIN HAZIRLANMASI SAHƏSİNDƏ FƏALİYYƏTİ (XX əsrin 70-ci illəri)

***Cabbarlı Y.N.***
*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

Xalqımızın Ümumilli Lideri Heydər Əliyevin kadr siyasətində milli hərbi kadrların hazırlanması xüsusi önəm daşıyırdı.

Qeyd etmək lazımdır ki, Heydər Əliyevin hakimiyyətə gəlməsinə qədər hərbi kadrların hazırlanması sahəsində ciddi nöqsanlar var idi. Belə ki, 1960-cı illərdə Azərbaycan sovet

ordusuna ildə təxminən 60 min əsgər vermәsinə baxmayaraq, onların yalnız 15%-i döyüş hissələrində, qalan 85%-i isə tikinti və digər hərbi hissələrdə xidmət edirdilər. Döyüş hissələrində xidmət edən 15%-in də yarıdan çoxu həmin hissələrin yeməkxanalarında, bərbərxanalarında, ümumiyyətlə, xidmət sahələrində işləyirdi. Yaranmış bu vəziyyətin düzəldilməsinə, milli hərbçi kadrların hazırlanması üçün baza yaradılmasına, dövlətin hərb sistemində azərbaycanlıların irəli çəkilməsinə, yüksək rütbələr verilməsinə və rəhbər vəzifələrə irəli çəkilməsinə ehtiyac duyulurdu. Belə şəraitdə H.Əliyevi düşündürən başlıca məsələlərdən biri azərbaycanlılar arasından hərbçi kadrların yetişdirilməsi idi.

Göstərilən dövrdə Bakıda iki ali hərbi məktəb (Ali Ümumqoşun Komandirləri Məktəbi və Hərbi Dəniz Donanmasının Ali Hərbi Dənizçilik məktəbi) fəaliyyət göstərirdi. Bu ali hərbi məktəblərin hər birinə ildə 300 nəfər gənc qəbul edilməsinə baxmayaraq, burada Azərbaycandan təhsil alanların sayı çox aşağı idi. Belə ki, Ümumqoşun Komandirləri Məktəbində azərbaycanlıların sayı 5-6 nəfər, Dənizçilik Məktəbində isə 2-3 nəfər təşkil edirdi.

1970-ci illərdə Heydər Əliyevin Azərbaycan SSR-də hərbi məktəbin yaradılması istiqamətində gərgin və məqsədə uyğun fəaliyyəti öz nəticəsini verdi. Bakıda 1971-ci ilin noyabr ayında gəncləri ali hərbi məktəblərə hazırlayan ilk ümumtəhsil məktəbi olan ixtisaslaşdırılmış internat məktəbi açıldı. Yeddinci sinfi bitirən gənclər burada təhsillərini davam etdirməklə yanaşı, hərbi təhsil alır, fiziki cəhətdən mətinləşir, rus dilini öyrənir, ali hərbi məktəblərə daxil olmaq üçün imkan qazanırdılar. 1981-ci ildə bu hərbi məktəbdə 500-dən artıq şagird oxuyurdu. Bununla da, Azərbaycan və azərbaycanlılar üçün tarixi əhəmiyyət daşıyan hərbi məktəb yaradılmış oldu. 1971-1981-ci illərdə həmin məktəbin 540 nəfər yetirməsi akademiyalara, məktəblərə və ya hərbi məktəblərə daxil olmuşdu. Onlar 47 ali məktəbdə təhsil alırdılar. Bu gənclərin 130 nəfəri zabit olmuşdur.

Tədqiq edilən dövrdə Heydər Əliyev bununla yanaşı, azərbaycanlı gənclərin SSRİ-nin ali hərbi məktəblərində oxumasına böyük əhəmiyyət verirdi. Məhs onun təşəbbüsü ilə 1972-ci ildən etibarən hər il 300-400 gənc, 1970-ci illərin sonu və 80-ci illərin əvvəllərindən isə ildə 800-900 nəfər gənc Azərbaycandan kənara , keçmiş SSRİ-nin ali hərbi məktəblərinə təhsil almağa göndərilirdi. Məsələn, əgər 1971-ci ildə SSRİ hərbi məktəblərinə 71 azərbaycanlı daxil olmuşdusa, 1974-cü ildə onların sayı 149 nəfərə çatırdı. Artıq 1982-ci ildə ölkənin hərbi məktəblərinə Azərbaycandan 1000 nəfər daxil olmuşdur ki, onların da 550 nəfərini azərbaycanlı gənclər təşkil edirdi.

1970-ci illərdə Heydər Əliyevin kosmonavtlar içərisində azərbaycanlıların az olması faktının aradan qaldırılmasına yönəlmiş uğurlu fəaliyyəti nəticəsində ölkənin aviasiya məktəblərinə azərbaycanlı gənclərin təhsil almağa göndərilməsinə başlandı. Belə ki, H.Əliyevin göstərişi əsasında Kiyev Mülki Aviasiya institutuna 42 nəfər azərbaycanlı gənc oxumağa göndərildi. 1981-ci ildə ilk dəfə təyyarəçilik məktəblərinə gənclərin böyük bir qrupu göndərilmişdir

Göstərilən dövrdə qısa müddət ərzində Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda gənclərin hərb elminə olan marağı artdı, hərbi məktəblərə daxil olmaq istəyənlərin sayı çoxaldı. Belə ki, 1981-ci ildə

C.Naxçıvanski adına hərbi məktəbə planda nəzərdə tutulan 300 yerə 650 nəfər qəbul üçün ərizə verilmişdi.

H.Əliyevin rəhbərliyi altında öyrənilən dövrdə gənclərin ordu sıralarından yayınmasının qarşısını almaq və hərbi komissarlıqların işini yaxşılaşdırılması sahəsində də geniş tədbirlər həyata keçirilmişdir. Onun bilavasitə təşəbbüsü ilə Biləcəri çağırış məntəqəsi yenidən tikilmiş və işi yaxşılaşdırılmışdır.

Beləliklə, 1970-ci illərdə Heydər Əliyevin peşəkar hərbçilərin hazırlanması istiqamətində tarixi əhəmiyyət daşıyan fəaliyyəti öz bəhrəsini uğurla verdi. Azərbaycanlılardan olan yüksək rütbəli gənclərin sayı sovet ordusunun döyüş hissələrində artmağa başlamışdı.

## CÜMHURİYYƏTDƏN MÜSTƏQİLLİYƏ GEDƏN YOL

***Cəbrayılova G.Ə.***

*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*

Siyasət, mədəniyyət, cəmiyyət quruculuğu istiqamətində, milli müstəqillik hərəkatının təməlində, suveren dövlətçilik atributlarının yaradılmasında, Azərbaycan dilinin dövlət dili statusunda qəbul edilməsində, mədəniyyətin, maarif işinin, milli ideologiyanın inkişafı istiqamətində uğurlar qazanan Cümhuriyyət milli fikrin intibahı üçün yeni yol açmışdı. Mədəniyyət quruculuğu sahəsində bir çox işlər görülmüşdü. Dövlət teatrı, "İstiqlal" muzeyi, emalatxanalar fəaliyyətə başlamışdı. Cümhuriyyət suveren, müstəqil dövlət qurmaq, milli siyasət və mədəniyyət siyasətinin bünövrəsini qoydu.

Azərbaycan Respublikası XX əsrin sonlarında öz müstəqilliyini bərpa etdikdən sonra insan hüquqlarının müdafiəsi sahəsində geniş iş aparmış, məqsədyönlü siyasət yürüdərək bir çox beynəlxalq sənədə tərəfdar çıxmış və beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir. 1991-ci il 30 avqustda Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" bəyannamə qəbul edildi. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan öz müstəqilliyinə qovuşdu, ölkədə insan hüquqlarının təmin olunması, inkişaf etdirilməsi sahəsində bir çox nailiyyətlər əldə edildi. Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiya ölkədə əsas insan hüquq və azadlıqlarının həyata keçirilməsinə əsaslanan yeni dövlət quruculuğunun başlanğıcını qoymuşdur. Qəbul olunan Konstitusiyada cəmiyyətdə dini, milli, etnik münasibətlərin tənzimlənməsi, vicdan azadlığının bərqərar olması istiqamətində maddələr təsbit olundu. Ümummilli lider Heydər Əliyevin siyasət xəttinin əsasını Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu, insan hüquq və azadlıqlarının prinsipləri üçün zəmin yaradan məqsədyönlü tədbirlərin həyata keçirilməsində aparılan islahatlar təşkil edirdi. 1998-ci il 22 fevral tarixində "İnsan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalandı. 1998-ci il 18 iyun tarixli sərəncam ilə "İnsan hüquqlarının müdafiəsi sahəsində Dövlət Proqramı təsdiqləndi. Qeyd olunan dövlət proqramı əsasında 2002-ci ildə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) institutu təsis edildi, bir sıra qanunvericilik və institusional islahatlar həyata

keçirildi. 2006-cı il 28 dekabr tarixində isə Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı qəbul edildi. 2007-2008-ci illər ərzində Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının İcrası və İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, qanunun aliliyinin təmin edilməsi, eyni zamanda vətəndaş cəmiyyətinin inkişafı sahəsində bir sıra tədbirlər görüldü. Demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni məhkəmə sistemi, konstitusiya nəzarəti, insan hüquqları üzrə müvəkkil kimi yeni təsisatlar yaradılmış, hüquq-mühafizə fəaliyyəti təkmilləşdirilmiş, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyəti genişlənmiş, insan hüquqlarının təmini sahəsində effektiv müdafiə mexanizmləri formalaşdırılmışdır. 27 dekabr 2011-ci il tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı təsdiq edilmişdir. Konseptual və miqyaslı xarakter daşıyan həmin Proqramda Azərbaycanın insan hüquqları sahəsində beynəlxalq müqavilələrə qoşulması prosesinin davam etdirilməsi, yeni qanunvericilik aktlarının qəbul edilməsi, insan hüquqları sahəsində beynəlxalq təşkilatlarla, o cümlədən BMT-nin insan hüquqları sahəsində ixtisaslaşan qurumlar, Qaçqınlar üzrə Ali Komissarlıq, YUNESKO, YUNİSEF, Dünya Bankı, habelə Avropa Şurası, Avropa İttifaqı, ATƏT və digər regional təşkilatlar ilə birgə əməkdaşlıq proqramlarının həyata keçirilməsi, habelə korrupsiya ilə mübarizənin gücləndirilməsi, şəffaflığın artırılması, əhaliyə göstərilən elektron xidmətlərin inkişaf etdirilməsi sahəsində fəaliyyətin vətəndaş cəmiyyəti ilə sıx əməkdaşlıqda davam etdirilməsi nəzərdə tutulmuşdur.

Tarixi kökləri Azərbaycan Xalq Cümhuriyyətinə dayanan Müstəqil Azərbaycan Respublikası bu gün öz siyasi, iqtisadi və mədəni fəaliyyətini davam etdirməkdədir. O, dünyanın qüdrətli dövlətlərindən, beynəlxalq həyatın ən aparıcı iştirakçılarından birinə çevrilmişdir. Bu ölkə müstəqil yaşamaq şansını əldə etmişdir.

## AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ YARANMASINDA HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

***Cəlilov A.M.***

*Gəncə Dövlət Universiteti*

Xalqımızın müdrik oğlu, tarixə böyük azərbaycanlı möhürünü vurmuş Heydər Əliyev fenomenal şəxsiyyətdir. Heydər Əliyev şəxsiyyətində müdriklik, uzaqgörənlik, analitik düşüncə, əzəmətlilik, yenilməzlik, əzmkarlıq, təşəbbüskarlıq, dönməzlik, cəsurluq, təmkinlik, vətənpərvəlik və bütövlükdə mənəvi kamillik kimi keyfiyyətlər bir vəhdət təşkil edir. XXI əsrin ən kamil azərbaycanlı obrazı Heydər Əliyev şəxsiyyətində təcəssüm olunur. Heydər Əliyev dünyanın bütün azərbaycanlıları üçün müdriklik məktəbidir. Heydər Əliyevin həyatı və fəaliyyəti insanlar üçün əzmkarlıq, yenilməzlik, vətənpərvərlik, qalibiyyət məktəbidir. Heydər Əliyev şəxsiyyəti həqiqi azərbaycançılıq timsalıdır. Heydər Əliyevin böyük siyasət aləmindəki uğurlu qələbələri onun analitik təfəkkürünün məhsuludur. Heydər Əliyev elə bir məktəbdir ki, ondan bütün nəsillər bəhrələnəcəkdir. Heydər Əliyev məktəbinin mənimsənilməsi indiki nəsillərə dövlətçiliyimizi yaşatmaq üçün

lazımdırsa, gələcək nəsillərə onu necə inkişaf etdirib xalqın rifahını təmin etdirmək üçün gərəklidir. Heydər Əliyev məktəbi şəxsiyyətin kamilləşdirilməsi və mənəvi cəhətdən tərbiyə olunub zənginləşdirilməsi mənbəyidir. Heydər Əliyev məktəbinin bünövrəsini azərbaycançılıq, ideyasını vətənpərvərlik, məqsədini milli birlik, bütövlük və mütəşəkkillik təşkil edir. Azərbaycançılıq obrazı dedikdə Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev şəxsiyyəti dedikdə azərbaycançılıq ideyaları təsəvvür olunur. Təsadüfi deyildir ki, 2001-ci il noyabrın 9 – 10- da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayındakı nitqində Heydər Əliyev demişdir: "Əziz həmvətənlər! Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı : Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini adət-ənənələrini yaşatmalıyıq" ("Azərbaycan" qəzeti, 10 noyabr 2001).

Heydər Əliyev ilk mərhələdə Azərbaycançılıq ideyalarını azadlıq, sərbəstlik, müstəqillik atributları ilə canlandırmaqla müstəqil dövlətçiliyin bünövrəsini yaratmağa nail oldu. Müstəqil dövlətçilik zəminində isə artıq azərbaycançılıq ideyaları bazasında azərbaycançılıq ideologiyasını formalaşdırdı.

Müstəqil dövlətçilik mərhələsində dövlətçilik ənənələrinin yaradılması ilə milli ideologiyamızın formalaşdırılmasına nail oldu. Heydər Əliyevin azərbaycançılıq sahəsində fəaliyyəti budur. Heydər Əliyev azərbaycançılıq fəaliyyətində ən mühüm cəhətlərdən biri də budur ki, dövlətçilik ənənələrinin uzun dövrlər boyu yaşamasını təmin etmək üçün cəmiyyətin aparıcı qüvvəsi və avanqardı olan siyasi elitanın formalaşdırdı. Azərbaycançılıq ideologiyasının zənginləşməsində varisliyin bərqərar olması da dövlətçilik ənənələrimizin davam və inkişaf etməsi üçün zəruri şərtlərdən biridir.

Heydər Əliyev azərbaycançılıq ideyalarını ideologiya kimi formalaşdırıb müstəqil dövlətimizin ideoloji konsepsiyasını hazırlamaqla böyük bir məktəb yaratmışdır. Bu məktəb azərbaycançılıq ideyalarının həyata real tətbiqi yollarını öyrədir. Bu məktəbin dərsliyi və vəsaiti Heydər Əliyevin həyatı və yaradıcı fəaliyyəti, dinləyici isə dünyanın bütün azərbaycanlılarıdır. Gənc nəsil bu məktəbdən bəhrələnərək onun bütün ənənələrini gələcəyimizə çatdırmaq üçün öz əzmkarlığını, təşəbbüskarlığını, vətənpərvərlik amalını nümayiş etdirəcəkdir.

Əgər ali məktəbdə təhsil alan hər bir gənc dünya elminin ən yaxşı ənənələrini və nailiyyətlərini qazana bilirsə, biliklərini daim artırıb onu istehsalatın ayrı-ayrı sahələrinə tətbiq etmək yollarını öyrənirsə bu onun vətəninə göstərdiyi xidmətinin nümunəsidir, azərbaycançılıq ideyalarına yiyələnməsinin təzahürüdür. Bu gün görkəmli alimlərimiz yeni nəyi isə kəşf edib onu həyata tətbiq edirsə, elmi tədqiqatın nəticələrini istehsalatda səmərəliliyə tətbiq edə bilirsə, sosial, iqtisadi, mədəni sahədəki inkişafımızda yenilik yarada bilirsə bu onun vətənə xidmətidir. Bu onun xidmətində Azərbaycançılığın təzahürüdür.

Bu gün hər bir rəhbər işçi özünün təşkilatçılığı, təşəbbüskarlığı, işgüzarlığı ilə cəmiyyətin mütəşəkkilliyini yarada bilirsə, xalqımızın milli-mənəvi keyfiyyətlərini cəmiyyətin sosial həyatına tətbiq edə bilsə, bu onun fəaliyyətində vətənə xidmətin nümunəsi sayılmalıdır. Mahmud Kərimov və Rövşən Mustafayevin azərbaycançılıq təliminə dair

yazdıqları bir məqalədə deyildiyi kimi: "Azərbaycançılıq cəmiyyət və dövlət mənafeyinə xidmət edən rasional işlər barədə təlimdir" ("Azərbaycan"qəzeti, 22 dekabr 2001).

Azərbaycançılıq xalqın milli-mənəvi keyfiyyətlərinin təcəssümü kimi formalaşmış tarixi bir kateqoriyadır. Azərbaycanda müstəqil dövlətçilik olmayan dövrlərdə milli-mənəvi keyfiyyətlərimizin ümumiləşdiricilik prinsipləri mövcud olmamışdı. Başqa sözlə, bu keyfiyyətlər bütövləşib milli ideologiyamızın bazasına çevrilməmişdi. Ona görə də azərbaycançılıq anlayışının özü dərk olunmuş həqiqətə çevrilə bilməmişdi. Bunun nəticəsində azərbaycanlılara məxsus xarakter əlamətlər – qonaqpərvərlik, comərdlik, abır-həya, ismət, dönməzlik, sözünə bütövlülük, dostluğa sədaqətlilik, torpağa bağlılıq və s. kimi mənəvi keyfiyyətlər ancaq xalqın fərqləndirici və özünəməxsus mənəvi psixoloji keyfiyyətləri kimi dərk edilmişdi. Bu xarakter əlamətlər ancaq müstəqillik bazasında özünə münbit şərait qazanıb ümumiləşə bilərdi, bütövləşə bilərdi və millətin ideologiyasına çevrilə bilərdi. Müstəqil olmadığımız tarixi dövrlərdə Azərbaycançılıq ideyaları daim yad ideologiyaların təsiri altına düşdüyündən o sərbəstləşə bilməmiş və milli mütəşəkkilliyin bazasına çevrilə bilməmişdir. Müstəqillik əldə olunduqda isə milli-mənəvi keyfiyyətlərimiz bütövləşib milli ideologiyamızın təməlinə çevrilə bilmişdir. Azərbaycançılıq ideologiyası bütövlükdə milli-mənəvi bütövlüyümüz, birliyimiz və mütəşəkkilliyimiz deməkdir.

Azərbaycançılıq ideyalarının bərqərar olunmasında Heydər Əliyevin fəaliyyəti dövrü xüsusi bir mərhələdir. Çünki bu mərhələdə Azərbaycan özünün sosial, mədəni, iqtisadi sahədəki inkişaf perspektivləri ilə, habelə elm və texnika sahələrindəki nailiyyətləri ilə ziyalı mövqeyinin genişlənməsi ilə, milli-mənəvi tərbiyə və təhsil sahəsindəki uğurları ilə yeni bir təkamül dövrü keçdi. Sənayenin, kənd təsərrüfatının və sosial həyatın digər sahələrindəki inkişaf perspektivləri o zamankı müttəfiq respublikalar içərisində daha da artmağa başladı. Bütün bunlar Heydər Əliyevin xalqa xidmətinin təzahürü idi. Azərbaycançılıq ideologiyasının ölkədəki inkişafla həmahəng olaraq dirçəldilməsindən ibarət idi.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ İDEYASI

**_Dadaşov X.H._**
*Azərbaycan Texniki Universiteti*

Müasir dövrün ən səciyyəvi xüsusiyyətlərindən biri cəmiyyətin və dövlətin inkişafında ideoloji amilin ön plana keçməsidir. Çünki bu amil millətin inkişafı üçün uzun müddətə yönəlmiş olan strateji plandır.

İyirminci yüzilliyin sonunda dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında müstəqilliyin ilk günlərindən başlayaraq xalqımız suveren, demokratik inkişaf yoluna qədəm qoymuşdur. Ölkənin sosial-siyasi və mənəvi inkişafı üçün mühüm əhəmiyyət kəsb edən milli ideologiyanın yaradıcısı da ümummilli lider Heydər Əliyev oldu.

Azərbaycanda yaşayan müxtəlif xalqları bir amal uğrunda müstəqil Azərbaycan dövləti ətrafında sıx birləşdirmək üçün ən uğurlu milli ideya Heydər Əliyevin müəyyən etdiyi azərbaycançılıq ideyası olmuşdur. Ulu öndər Heydər Əliyev deyirdi: «Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli

mənsubiyyəti ilə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq».

Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq milli ideyası dövlət müstəqilliyinin qorunub saxlanılması, inkişafı və dünyaya inteqrasiyanı təmin edəcək iki əsas inkişafı və istiqaməti özündə birləşdirirdi: dövlətçilik və milli-mənəvi dəyərlərə sadiqlik. Ulu öndər hər bir Azərbaycan vətəndaşını siyasi mövqeyindən, sosial statusundan, tutduğu vəzifədən asılı olmayaraq, vətənpərvər olmağa, milli maraqları şəxsi mənafedən üstün tutmağa, dövlətin möhkəmlənməsinə və qanunçuluğun təntənəsinə xidmət etməyə çağırırdı. Heydər Əliyevin təbliğ etdiyi azərbaycançılıq ideyası hər bir vətəndaşı bu dövlətin idarə olunmasında və inkişafında məsuliyyətə dəvət edir, hər bir azərbaycanlıda ictimai-siyasi özünüdərk duyğusunu, vətəndaşlıq hissinin yüksək olmasını tələb edirdi. Dünya azərbaycanlılarının 2001-ci ildə keçirilən I qurultayında ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideyasına yüksək qiymət verərək demişdi: «Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlər sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir».

Bu gün azərbaycançılıq ideyası ictimai həyatın bütün sahələrində, dövlət siyasətində, vətəndaşların davranışlarında, ölkəyə, xalqa, vətənə münasibətdə təzahür edir.

Ümummilli Lider Heydər Əliyev azərbaycançılıq ideyasının xalqın təfəkküründə çoxdan formalaşdığını qeyd edərək vurğulayırdı ki, Azərbaycan Demokratik Respublikası ilk dəfə milli azadlıq, müstəqillik toxumlarını bütün Azərbaycana səpdi. Bu toxumlar uzun müddətdən sonra cücərdi və 1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini əldə etdi. Möhkəm iradəsi, siyasi uzaqgörənliyi, idarəçilik istedadı, dövlətə rəhbərlik bacarığı kimi keyfiyyətləri onun həyatının mühüm bir mərhələsini təşkil edən 1990-1993-cü illərdə Azərbaycanın müstəqilliyi və milli dövlətçiliyi uğrunda apardığı mübarizə dövründə daha qabarıq şəkildə üzə çıxmışdı. Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin sədri işlədiyi dövrdə Azərbaycan Demokratik Respublikasının ənənələrini bərpa edən Heydər Əliyev üçrəngli bayrağı ilk dəfə olaraq Naxçıvanda rəsmi olaraq dövlət bayrağı kimi qəbul etməklə bütün respublika miqyasında Azərbaycanın müstəqillik atributlarının bərpası üçün böyük addımlar atdı. Bir müddət sonra Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi. Bütövlükdə Heydər Əliyevin təməlini qoyduğu, formalaşdırdığı və yürütdüyü daxili və xarici siyasət sonrakı dövrdə Azərbaycanın milli inkişaf prioritetlərinin əsasını təşkil etmişdir. Heydər Əliyevin 1993-2003-cü illərdə irəli sürdüyü ideya və fikirlər, iqtisadi, siyasi və sosial-mənəvi sahədə reallaşdırdığı kurs və praktiki tədbirlər ölkəmizdə yeni demokratik cəmiyyətin və ictimai həyat normalarının əsaslarını yaratmışdır.

# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK SİSTEMİNDƏ MİQRASİYA SİYASƏTİNİN ROLU

***Əhmədov A.P.***
*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

Müasir dövrdə milli təhlükəsizlik və miqrasiya dünya siyasətinin aktual problemləri sırasında yer almışdır. Hər iki sahə qlobal mahiyyət daşımaqla, demokratik dövlətlərin daxili və xarici siyasətində mühüm rola malikdir. Demokratik və hüquqi dövlət quruculuğu yolunda addımlayan Azərbaycan Respublikası müasir beynəlxalq münasibətlərə inteqrasiya edərkən, milli təhlükəsizliyinin qorunması və mövcud sahənin inkişafına təhdidlərin qarşısının alınmasında beynəlxalq əməkdaşlığa diqqət yetirir. Dövlət müstəqilliyinin ilk illərində Ermənistanın Azərbaycana qarşı davam etdirdiyi təcavüzkar siyasət və bunun nəticəsində ölkədədaxili miqrasiyanın yüksəlməsi və qaçqın probleminin yaranması milli təhlükəsizliyə qarşı yönəlmiş mürəkkəb ictimai-siyasi hadisələrə rəvac vermişdi. Lakin belə böhranlı vəziyyət uzun sürmür və 1993-cü ildə xalqın iradəsi ilə ölkə rəhbərliyinə qayıdan Heydər Əliyev Azərbaycanın milli maraqlarının müdafiəsi, təhlükəsizlik və miqrasiya siyasətinin inkişafına ciddi əhəmiyyət verir.

XXI əsrdə dövlətlərin milli təhlükəsizliyinə təhdid yaradan bir çox problemlər var. Belə arzuolunmaz hallardan biri qeyri-leqal miqrasiya ilə bağlıdır. Bu baxımdan Azərbaycanda siyasi və hüquqi vəziyyət stabildir. Ölkədə formalaşan miqrasiya qanunvericiliyi bilavasitə insan hüquq və azadlıqlarının müdafiəsinə əhəmiyyətli təsir göstərməklə milli təhlükəsizliyin qorunmasına dəstək ifadə edir.

2010-cu il oktyabrın 5-6-da Soçidə keçirilmiş "Təhlükəsizlik Məsələlərinə məsul yüksək vəzifəli şəxslərin Birinci Beynəlxalq Görüşü"ndə akademik R.Mehdiyev çıxışının geniş hissəsini miqrasiya təhlükəsizliyi məsələləri üzərində quraraq demişdir: "Transmilli mütəşəkkil cinayətkarlığın təzahür formaları Azərbaycandan da yan keçməyib. Buna görə də Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasında və Hərbi Doktrinasında Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğalı ilə yanaşı, qeyri-leqal miqrasiya və insan ticarətinin ölkənin milli təhlükəsizliyinə qarşı təhdid qismində qeyd olunması tam qanunauyğundur. Ermənistan Silahlı Qüvvələrinin işğal etdiyi Dağlıq Qarabağ ərazisində, o cümlədən Azərbaycan-İran sərhədinin faktiki olaraq Ermənistan tərəfindən nəzarət edilən 132 kilometrlik hissəsi aktiv şəkildə narkotik maddələrin istehsalı, tranziti və ticarəti, silah və insan alveri, qeyri-leqal miqrasiya, terrorçular üçün sığınacaq, çirkli pulların yuyulması və transmilli cinayətkarlığın digər təhlükəli növləri üçün istifadə olunur". Göründüyü kimi, müasir dünyada demokratik dövlətlərin təhlükəsizliyinə ciddi təhdid yaradan problemlər sırasında insan alveri, qaçaqmalçılıqla yanaşı, qeyri-qanuni yollarla ölkəyə daxil olmaq istəyən əməkçi miqrantların ölkə qanunlarına tabe olmaması, qeydiyyatdan kənarda qalması belə şəxslərin gələcəkdə ölkə daxilində hansı əməllər törədə biləcəyini də sual altında saxlayır.

Dövlətlərdə milli və beynəlxalq təhlükəsizlik kimi mühüm sahələrin inkişaf etdirilməsi bütün dövrlərdə aktual olmuş və buna səbəb yaradan məqamlardan biri, qanunsuz miqrasiyanın qarşısının alınması və miqrasiya proseslərinin tənzimlənməsində beynəlxalq

əməkdaşlığın əhəmiyyətini göstərir. Burada siyasi dialoqa diqqət yetirmək hər iki sahənin: milli təhlükəsizlik və miqrasiya proseslərinin tənzimlənməsinin və təmin olunmasının nə qədər vacib olduğunu göstərir. Məsələyə münasibət bildirərkən miqrasiya sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların (BMqT, BƏT, BMT, Aİ) həyata keçirdiyi sülhməramlı siyasətinin genişləndirilməsi zəruri məsələlərdəndir. Bu baxımdan Azərbaycan Respublikası şanslı dövlətlərdəndir. Prezident İlham Əliyevin ölkədə miqrasiya siyasətinin inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində milli qanunvericilik möhkəmləndirilmiş, davamlı sosial-iqtisadi inkişaf ölkəyə əməkçi miqrantların marağını artırmışdır. Məhz dövlət başçısının müdrik siyasətini təsdiq edən addımlardan biri respublikada Dövlət Miqrasiya Xidmətinin (DMX) yaradılması ilə bağlı idi. Ölkədə miqrasiya proseslərinin stabil inkişafına dəstək verən DMX-nin mövcud sahədə beynəlxalq əməkdaşlıq münasibətlərinə diqqət yetirməsi bir daha onu göstərir ki, Azərbaycanda milli təhlükəsizliyin qorunması kompleks tədbirlər nticəsində qanunvericilik ilə yüksək səviyyədə tənzimlənir. Respublikanın hər iki sahədə əldə etdiyi müsbət inkişaf və təcrübə, həmçinin regional təhlükəsizliyin qorunmasına əhəmiyyətli təsir göstərir.

## DÖVLƏT MÜSTƏQİLLİYİNİN İLK İLLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA MİQRASİYA SİYASƏTİ VƏ HEYDƏR ƏLİYEV

***Əhmədov A.P.***

*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

XX əsrin sonunda dünyada baş verən ictimai-siyasi hadisələr, SSRİ-nin süqutu, həyatın müxtəlif sahələri ilə yanaşı, müstəqil dövlətlərdə miqrasiya proseslərinin aktuallaşmasına şərait yaratdı. Proseslər regionda olduğu kimi, dövlət müstəqilliyinin ilk illərində Azərbaycan Respublikasında da hiss olunmağa başladı. Dövrün mürəkkəb hadisələri: Ermənistanın Azərbaycan Respublikasına qarşı davam etdirdiyi işğal siyasəti, sosial-iqtisadi böhran suverenliyini yeni bərpa etmiş Azərbaycandan emiqrasiya edənlərin sayını artırmışdı. Müharibə şəraiti, Ermənistanın Dağlıq Qarabağ ətrafında yaratmış olduğu sünii münaqişə ocağı, ölkədə daxili miqrasiyanın bir anda yüksəlməsinə və qaçqın probleminin yaranmasına rəvac verdi. Dövrün iqtidarda olan idarəçilərinin səriştəsizliyi də ölkədə miqrasiya proseslərinin tənzimlənməsinə ciddi maneə yaradan siyasi səbəblərdən olmuşdur. Azərbaycandan emiqrasiya edənlər arasında etnik azərbaycanlılarla yanaşı ruslar, yəhudilər və digərləri də olmuşdur. Emiqrantlar əsasən Rusiya, ABŞ, İsrail, Almaniya kimi ölkələrə köçməyə üstünlük vermişlər. Bununla bağlı Prezident Heydər Əliyev 8 sentyabr 2000-ci ildə ABŞ-a rəsmi səfəri çərçivəsində nüfuzlu yəhudi təşkilatlarının rəhbərləri ilə görüşündə ölkədəki miqrasiya proseslərinə toxunaraq demişdir: "Bilirsiniz, təxminən 1988, 1989-cu illərdən başlayaraq Sovetlər İttifaqından Qərb ölkələrinə, Amerikaya, İsrailə yəhudilərin axını güclü olmuşdur. Azərbaycandakı bu proses, eyni zamanda Azərbaycanda gedən ictimai-siyasi proseslər Ermənistan-Azərbaycan müharibəsinə görə və daxildə vəziyyət çox gərgin olduğuna görə daha da çətin olmuşdur. Ancaq 1993-cü ildən biz Azərbaycanda daxili ictimai-siyasi sabitliyi təmin edə bildik və insanların miqrasiyası çox

kəskin şəkildə dayandı. Hətta sizə deyə bilərəm ki, vaxtilə Azərbaycandan İsrailə köçmüş insanlar – yəhudilər indi artıq Azərbaycana dönürlər. Son zamanlar Azərbaycana 40 belə ailə dönübdür". Göründüyü kimi 1993-cü ildə xalqın haqlı iradı ilə ölkə rəhbərliyinə qayıdan Heydər Əliyevin qısa vaxt ərzində həyata keçirdiyi quruculuq və davamlı inkişaf siyasəti respublikanın sosial-iqtisadi inkişafına əhəmiyyətli təsir göstərir. 1994-cü ildə Beynəlxalq Neft Şirkətləri ilə bağlanan "Əsrin müqaviləsi" Azərbaycanın dünya birliyinə inteqrasiyasına mühüm töhfə verdi. Ümumilikdə Azərbaycan ilə yanaşı region üçün siyasi və iqtisadi səmərə verən beynəlxalq sazişin ardınca digər nəhəng layihələr işlənib hazırlanmağa başladı. Qısa vaxt ərzində ölkənin iqtisadi qüdrətinin güclənməsi əməkçi miqrantların nəzərlərini müstəqil Azərbaycan Respublikasına yönəltməyə başladı. Ölkədə açılan yeni neft şirkətlərində çalışamq üçün dəvət olunan xarici mütəxəssislər, həmçinin müxtəlif özəl sektorlarda işləmək üçün Azərbaycana gələn miqrantlar illər ötdükcə yeni əməkçi miqrantların diqqətini çəkmişdir. Respublikada həyata keçirilən quruculuq işləri, sosial-iqtisadi tərəqqi daxili miqrasiya proseslərinin idarə olunması üçün yeni beynəlxalq əməkdaşlıq perspektivlərinin yaranmasına əlverişli şərait yaratdı.

Qeyd etmək lazımdır ki, Prezident Heydər Əliyev Azərbaycanın beynəlxalq təşkilatlarla münasibətlərinin inkişafına ciddi əhəmiyyət verərərk, nüfuzlu qurumların rəhbərləri və səlahiyyətli nümayəndələri ilə rəsmi görüşlər keçirmişdir. Belə nüfuzlu beynəlxalq qurumlardan biri qlobal miqrasiya proseslərinin tənzimlənməsi və qaçqın problemlərinin aradan qaldırılmasında tanınan Beynəlxalq Miqrasiya Təşkilatıdır (BMqT). Bu təşkilat Azərbaycan ilə dövlət müstəqilliyinin ilk illərindən əməkdaşlığa başlamış və Heydər Əliyevin yüksək diqqəti nəticəsində münasibətlər səmərəli əməkdaşlıq mərhələsinə keçmişdir. Heydər Əliyevin 31 oktyabr 2000-ci ildə Azərbaycana rəsmi səfəri çərçivəsində BMqT baş katibi Brunson Mak Kinli ilə görüşü ikitərəfli münasibətlərin aktiv fazaya keçməsinə təkan vermiş və respublikada miqrasiya siyasətinin genişlənməsinə müsbət təsir göstərmişdir. BMqT baş katibnin Azərbaycana ilk rəsmi səfəri məhz Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə baş tutmuşdur. Dövlət başçısı və təşkilatın Bakı, Naxçıvan ofislərində keçirilən görüşlər hər iki tərəfin bir-biri ilə münasibətlər qurmaqda maraqlı tərəf kimi çıxış etdiyini göstərmiş oldu. 21 may 1999-cu ildə qəbul olunan "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının qanunu məcburi miqrasiyanın tənzimlənməsi sahəsində tarixi sənədlərdən biri oldu. Qanunun "Ümumi müddəalar" hissəsində əsas anlayışlar kimi qaçqın və məcburi köçkün kateqoriyalarının mənası, hüquqi statusu məsələləri öz əksini tapmışdır. Prezidentin imzaladığı "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunu da miqrasiya siyasətinin formalaşmasında irəliyə doğru atılmış ən mühüm addımlardan idi.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında miqrasiya siyasətinin inkişafı sahəsində mühüm dövlət sənədlərinin imzalanması Heydər Əliyevin müdrük siyasəti nəticəsində həlledici rol oynadı və beləliklə də ölkədə miqrasiya qanunvericiliyi formalaşmağa başladı. Dövlət qanunları ölkədə qeyri-qanuni miqrasiya, insan alverinə qarşı mübarizə, qaçaqmalçılıq kimi həssas problemlərin həllində səmərə təşkil etmişdir. Sadalanan məsələlərlə bağlı həyata keçirilən siyasət dövlət müstəqilliyinin bərpasından ötən

dövr ərzində Azərbaycanda yüksək səviyyədə tənzimlənmiş və hazırda Prezident İlham Əliyevin həyata keçirdiyi praqmatik siyasət ilə uğurla davam etdirilir. Dövlət başçısının imzaladığı sərəncam ilə 2007-ci ildə Dövlət Miqrasiya Xidmətinin (DMX) təsis edilməsi Azərbaycan Respublikasının miqrasiya siyasətinin genişlənməsinə və region dövlətləri tərəfindən müsbət təcrübə kimi dəyərləndirilməsinə səbəb yaratmışdır. Heydər Əliyevin miqrasiya siyasəti sahəsində qəbul etdiyi qanun və qərarlar bu gün öz bəhrəsini verir və respublikada qeyri-leqal miqrasiyanın qarşısının alınması, əməkçi miqrantların hüquqlarının müdafiəsində böyük əhəmiyyət daşıyır.

## MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK ORQANLARININ FƏALİYYƏTİNİN TƏŞKİLİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

***Əhmədov M.Ə.***
*Sumqayıt Dövlət Universiteti*

Xalqın iradəsi ilə 1993-cü ildə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev ictimai həyatın digər sahələrində olduğu kimi iqtisadiyyatda da əsaslı dəyişikliklərə start verdi. H. Əliyev Azərbaycan iqtisadiyyatında liberalizmdən imtina etməklə, mövcud şəraitin tələblərinə uyğun olaraq iqtisadiyyatın fəal dövlət tənzimlənməsi siyasətinə, o cümlədən fəal gömrük siasətinə üstünlük verdi. Yaranmış yeni tarixi-iqtisadi şəraitdə Ümummilli Liderimiz H.Əliyev dünya iqtisadiyyatında xarici iqtisadi fəaliyyətin rolunu uzaqgörənliklə hiss etmiş və respublikanın gömrük orqanlarının fəaliyyətinə xüsusi qayğıkeşliklə yanaşmışdır. O, gömrük orqanlarının fəaliyyətinə dövlətçiliyin bir atributu kimi baxırdı.

Müstəqillik illərində Azərbaycan Respublikasında gömrük işinin təşkili və inkişafı prosesini isə aşağıdakı üç əsas mərhələyə ayırmaq olar: I mərhələ 1991-1994-cü illər, II mərhələ 1995-2000-ci illər, III mərhələ 2001-ci ildən sonrakı dövr.

Birinci mərhələdə, əsasən, xarici iqtisadi fəaliyytin gömrük tənzimlənməsini həyata keçirən gömrük orqanları (DGK, gömrükxana və gömrük posları) yaradılmış, digər təşkilati və texniki məsələlər həyata keirilmişdir. Lakin, bu dövrdə gömrük orqanları öz funksiyalarını demək olar ki, yerin yetirə bilmədi. Bu bir tərəfdən həyata keirilən səhv iqtisadi siyasət, digər tərəfdən isə xarici iqtisadi fəaliyyətin hüquqi tənzimlənməsi sahəsində mövcud boşluqların olması ilə bağlı idi. Bu dövrdə hakimiyyət orqanları iqtisadiyyatın digər sahələrində olduğu kimi xarici iqtisadi fəaliyyət sahəsində də liberal iqtisadiyata üstünlük vermişlər ki, bu da mövcud iqtisadi reallıqlarla, inzibati amirlik iqtisadiyyatından bazar iqtisadiyyatına kecid dövrünün tələbləri ilə uzlaşmırdı. Nəticədə iqtisadiyyatımız dərin böhran prosesləri ilə üzləşdi, makroiqtisadi qeyri sabitlik prosesləri gücləndi, işsizlik və inflyasiyanın səviyyəsi artdı.

Azərbaycan Respublikasında gömrük xidmətinin təşkilində, xarici iqtisadi fəaliyyətin gömrük təmzimlənməsinin səmərəliliyinin yüksəldilməsində müstəqillik illərimizin ikinci mərhələsi (1995-2000-ci illər) mühüm rol oynamışdır. Bu dövrdə gömrük işi yenidən təşkil olunmuş, onun maddi-texniki və hüquqi- normativ bazası möhkəmləndirilmiş, səmərəli gömrük fəaliyyəti hesabına büdcə gəlirləri artırılmış, gömrük orqanlarının kadr potensialı

gücləndirilmiş, gömrük orqanlarında xidmət mədəniyyətinin səviyyəsi yüksəldilmiş, beynəlxalq təşkilatlarla əlaqələr genişləndirilmişdir.

Bu mərhələ faktiki olaraq 1995-ci ilin yanvarın 9-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yanında gömrük işinin təşkilinə həsr olunmuş müşavirədən başlayır. Müşavirədə respublika gömrük xidmətinin yenidən qurulmasının, onun inkişafının əsas istiqamətləri və prinsipləri müəyyən edildi.

Müşavirədəki proqram məzmunlu cıxışında Heydər Əliyev Dövlət Gömrük Komitəsinin fəaliyyətini təhlil etmiş və əsas diqqəti mövcud nöqsanlara yönəltmişdir. O, demişdir: "Gömrük orqanları Azərbaycan öz müstəqilliyini əldə edəndən sonra yaranmışdır. Onlar fəaliyyət göstərir, ancaq mən ümumən deyə bilərəm ki, müstəqillik dövründə əldə etdiyimiz nailiyətlərlə yanaşı böyük nöqsanarımız, çatışmamazlıqlar da var. Bunların başlıcası iqtisadiyyatın belə vəziyyətə düşməsi, xarici ölkələrlə iqtisadi əlaqələrin sağlam, düzgün əsasda qurulmamasıdır. Bu çatışmamazlıqların mövcud olmasının əsas səbəblərindən biri gömrük orqanlarının işindəki nöqsanlardır".

Müşavirədən sonrakı dövrdə xarici-iqtisadi faliyyətin gömrük tənzimlənməsi ilə əlaqədar bir sıra qanun və normativ aktar qəbul edilmişdir. Belə normativ-hüquqi aktlardan aşagıdakıları göstərmək olar:

- Azərbaycan Respublikasının Gömrük Məcəlləsi (1997);
- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturunun və əsasnaməsinin təsdiq edilməsi (1998);
- "Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi qaydaları"nın qəbul edilməsi (1998);
- Gömrük orqanlarında xidmət haqqında əsasnamənin təsdiq edilməsi (1999).

Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi ilə əlaqədar göstərilən normativ- hüquqi aktların qəbul edilməsi Azərbaycan Respublikasında gömrük işinin təşkilinin səmərəliliyinin yüksəldilməsində mühüm rol oynadı. Gömrük Məcəlləsinin qəbul edilməsi isə gömrük işinin hüquqi bazasını daha da möhkəmləndirdi.

## TARİXİ YARADAN ŞƏXSİYYƏTDİR

***Əhmədov Y.P.***
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

Tarixdə şəxsiyyətin rolunun açıq-aşkar qiymətləndirilməməsi ölçü hissinin pozulmasının nəticəsidir. Azərbaycan cəmiyyətində baş verən dəyişikliklər nəzərə alınaraq həmin ifratçılıq halları barədə bu gün danışmaq xüsusilə vacibdir. Məsələ bundadır ki, bir çox amillərlə yanaşı, cəmiyyətimizdə böhranın təzahürlərindən biri də konkret şəxsiyyətin əhəmiyyətinin açıq-aşkar qiymətləndirilməməsi olmuşdur. Halbuki hər bir şəxsiyyətin həqiqətən dünyəvi dövlətin, vətəndaş cəmiyyətinin, demokratik cəmiyyətin əsl yaradıcısı olmasına imkan verən şərait ölkədə gedən dəyişikliklərin təməli olmalıdır. Şəxsiyyətin və tarixdə onun rolunun düzgün dəyərləndirilməsində sosial fəlsəfənin ayrı-ayrı nümayəndələrini təqsirləndirmək ədalətsizlik olardı. Onilliklər ərzində bir çox filosoflar şəxsiyyətdə, insanda ancaq sinfi tipin təcəssümünü, xalqın bir zərrəsini, kollektivin üzvünü

görmüşlər və onun rolu yalnız bu mövqelərdən başa düşülmüş və tədqiq edilmişdir. Eyni zamanda onun fərdi keyfiyyətləri, şəxsi maraqları, onun bənzərsizliyi, özünəməxsus fəallığı nəzərə alınmırdı. Üstəlik, fərdi başlanğıcın xüsusi rolunu elmi surətdə dərk etmək üçün göstərilən ehtiyatlı cəhdlərə də şübhə ilə yanaşırdılar. XX əsr ümumən fəlsəfədə bir növ antropoloji canlanma əlaməti altında keçdiyindən bu problemə xüsusi diqqət ayrılmışdır. Qərb fəlsəfəsində formalaşan şəxsiyyət, siyasi lider ideyası ilə Sovet sistemində yaranmış şəxsiyyət obrazı arasında kəskin təzad onilliklər boyu yazılmış əsərlərin əhəmiyyətini heçə endirərək bu ideyaların qeyri həyatiliyini sübut etdi. Şəxsiyyət nəzəriyyəsinin kifayət qədər geniş çərçivələrində şəxsiyyətə politoloji cəhətdən yanaşma xüsusi yer tutur və o, şəxsiyyətə siyasi liderlik prizmasından yanaşır. Liderliyə çalışan şəxsiyyətin vəzifəsi, ümumən, onun cəmiyyətdəki mövqeyi və rolu ilə, onun təmasda olduğu proseslərin mahiyyəti ilə müəyyən edilir. Problemin bütün cəhətlərini bir məqalə çərçivəsində əhatə etmək mümkün olmadığından milli, siyasi lider olmaq etibarilə tarixdə şəxsiyyətin mövqeyi və rolunun konkret məsələlər baxımından izahı daha vacib sayılır.

"Şəxsiyyət" termininin bir neçə mənası var. Şəxsiyyət haqqında elm-personologiya insan fərdiyyətini daha yaxşı dərk etmək problemindən bəhs edir. İngilis dilindəki "rersona" sözü latınca "persona-rersona" sözündən əmələ gəlmişdir. Vaxtilə bu söz qədim yunan teatrında teatr tamaşaları zamanı aktyorların taxdıqları maskanı bildirirdi. Beləliklə, həmin termin ilk çağlarda teatr tamaşasında komik və ya tragik obrazın olduğunu bildirirdi. Lakin lap əvvəldən "şəxsiyyət" anlayışında müəyyən rol oynayarkən fərdin qəbul etdiyi zahiri sosial obrazı ehtiva edirdi. Başqa sözlə desək, şəxsiyyət ətrafdakılara çevrilmiş fərdi simadır. Hazırda siyasi texnologiyalar siyasətçi imici yaradarkən "sizi şəxsiyyət edəcəyik" vədlərindən geniş istifadə edirlər. Psixoloqlar və politoloqlar "şəxsiyyət" anlayışının müxtəlif mənalarından geniş istifadə edirlər. Bir çox alimlər şəxsiyyət nəzəriyyəsinin şəxsiyyətin strukturu, şəxsiyyətin əsaslandırılması, şəxsiyyətin inkişafı və s. kimi komponentlərindən istifadə edirlər. Elm indiyədək şəxsiyyətin vahid və hamı tərəfindən qəbul edilən tərifini işləyib hazırlamamışdır, lakin tədqiqat əsərlərinin əksəriyyətində şəxsiyyət fərdi xüsusiyyətlərin ümumi ideyası, hipotetik struktur, bütün ömrü boyu inkişaf prosesi, davranış xəttini izah edən mahiyyət kimi qəbul edilir. Şəxsiyyətin nəzəriyyəsi əsasən XX əsrdə daha geniş öyrənilsə də, ötən müddət ərzində toplanılmış məlumatlarda fəlsəfənin və psixologiyanın, təbabətin və s. nailiyyətlərindən bəhrələnməsi ona mühüm uğurlar qazanmağa imkan vermişdir. Həmin dövr ərzində işlənib hazırlanmış nəzəriyyələr insanı bütövlükdə öyrənməyə imkan verir. Bu nəzəriyyələr insan "mən"inin mahiyyətini dərk etməyə kompleks yanaşmanı bu və ya digər dərəcədə uğurla tətbiq edirlər. Tarixi inkişafın hərəkətverici qüvvəsi olmaq, ümumiyyətlə, insanın mühüm immanent keyfiyyətidir. Əgər insan fərddirsə, o, tarixin mahiyyəti, hərəkətverici qüvvəsidir, tarixi prosesin fəal iştirakçısıdır. İctimai həyatın mürəkkəb mexanizmini, tarixin hərəkətverici qüvvələrini bütün dolğunluğu ilə və hərtərəfli başa düşmək üçün tarixdə şəxsiyyətin həlledici rolunu axıradək dərk etmək lazımdır. Bunsuz ictimai proseslərin mahiyyətinə obyektiv qiymət verilməsi, cəmiyyətin qanunlarının elmi surətdə dərk edilməsi natamam olacaqdır. Şəxsiyyətin tarixin hərəkətverici qüvvəsi kimi qəbul edilməsi onun mahiyyət xarakteristikasını təsbit edir. Həmin mahiyyət heç də şəxsiyyət "oyununun" eyniliyini,

standartlığını, tarixi, inkişaf etmiş və başqa modifikasiyaların mövcud olmadığını göstərmir. Biz yalnız XX əsrdə bu qənaətə gəlmişik ki, siyasətin ilkin subyekti, onun "atomu" fərddir, şəxsiyyətdir, vətəndaşdır. Vətəndaşların hakimiyyət maraqları, siyasi liderlərin, onların ardıcıllarının və əleyhdarlarının mübarizəsini və ya əməkdaşlığının mexanizmləri məhz liderlikdə cəmləşir. Böyük şəxsiyyətlərə, liderliyə marağın, bu mürəkkəb sosial fenomeni dərk etmək cəhdlərinin tarixi çox qədimdir. Hələ antik tarixçilər Herodot, Fukidid, Tatsit, Plutarx və başqaları görkəmli şəxsiyyətlərin-monarxların, başçıların, sərkərdələrin fəaliyyətini tarix əsərlərinin mərkəzi mövzusu etmişlər. Platonun, Aristotelin, Polibinin, Lokkun, Makiavellinin əsərlərində siyasi davranışın qaydaları işlənib hazırlanmış, liderlik texnologiyasının mühüm elementləri əksini tapmışdır. Antik tarixçilərdən başlayaraq bir çox müasir sosioloqlara qədər, dünya tarixi böyük dövlət xadimlərinin və siyasətçilərin fəaliyyətinin nəticəsi kimi nəzərdən keçirilir. Ayrı-ayrı şəxsiyyətlərin, bəşəriyyətin bütün digər hissəsinin taleyini həll etmək səlahiyyəti verilmiş bu cür "fövqəlinsanların" rolunu mədh edən nəzəriyyələr az deyildir. Tarixdə, sosial praktikada bu fikri təsdiq edən çoxlu misal var. Böyük islahatçılar olmadan cəmiyyətin tərəqqisi, yeniləşməsi neçə-neçə illər uzana bilər, eyni zamanda ardıcıllarsız böyük şəxsiyyətlər yoxdur. Hər halda belə şəxsiyyətlər tarixdə qalmayıblar. Adları çəkilən müəlliflərin söylədikləri bir çox müddəalarla razılaşmaqla yanaşı, onu da deyək ki, bütün cəlbediciliyinə baxmayaraq, bu müddəaların bir zəif cəhəti var. Tarixi inkişafda şəxsiyyət amilini mütləqləşdirməyin qüsurlu cəhəti odur ki, bu sosioloji nəzəriyyələr tarixi prosesdə xalq kütlələrinin rolunu tamamilə inkar edir Belə nəzəriyyələrin müəllifləri xalqa öz tarixi vəzifəsini yalnız onun başında görkəmli siyasi xadim dayandıqda yerinə yetirə bilən süst, amorf kütlə kimi baxırlar. Belə mövqe tarixi prosesdə xalq kütlələrinin rolunun bütünlüklə inkar edilməsinə gətirib çıxarır ki, bu da sosiologiyada açıq-aşkar ifratçılıqdır. Dünya təcrübəsi sübut edir ki, xalq kütlələri olmadan böyük şəxsiyyət ordusuz sərkərdədən savayı bir şey deyildir. Sovet dövründə belə nəzəriyyələr antimarksist baxışlar kimi pislənirdi. Lakin postsovet məkanındakı bütün ölkələrin yaşadığı mürəkkəb keçid dövrü göstərdi ki, güclü lider, təcrübəli dövlət xadimi və siyasi xadim olmadan ölkəni ümumi böhrandan çıxarmaq, iqtisadi və siyasi sistemi əsaslı surətdə dəyişdirmək mümkün deyildir. Beləliklə, əgər biz xalq kütlələrinin tarixin hərəkətverici qüvvəsi olduğunu etiraf ediriksə, onda böyük şəxsiyyətlərin tarixin yaradıcıları olması fikri ilə də razılaşmalıyıq. Bu məsələ barəsində müxtəlif tədqiqat əsərlərində real şəkildə mövcud olan iki qütb var və bunlar tarixdə şəxsiyyətin rolunun qavranılmasının ayrıca bir şəxsiyyətin birbaşa inkar edilməsindən onun mədh edilməsinə və ilahiləşdirilməsinə qədər bütün çalarlarını əhatə edir. Həmişə olduğu kimi, həqiqət aralıq mövqedədir. Onu aşkar etmək üçün bu və ya digər şəxsiyyətin liderə çevrildiyi tarixi proseslərin bəzi xüsusiyyətlərini nəzərdən keçirmək lazımdır.

Şəxsiyyətin roluna qiymət verərkən belə bir faktı da nəzərdən qaçırmaq olmaz: sosial şərtlərlə liderin fərdi qabiliyyəti arasında mütləq uyğunluq yoxdur. Elə hallar da yaranır ki, tarixi şəxsiyyətin fərdi keyfiyyətləri sosial dəyişikliklərin miqyasına heç də cavab vermir, bu keyfiyyətlər həmin dəyişikliklərin hüdudlarını aşa da bilər, sosial tələbatdan aşağı da ola bilər. Tarixdə şəxsiyyətin rolu daha çox tarixi proseslərin gedişinin xüsusiyyətləri ilə bağlıdır. Azərbaycan da bu hallardan kənarda qala bilmədi. "Yeni biçimli demokratlar"

dalğası dəbdə olan ibarələrlə danışan və ictimai şüurla cəsarətlə manipulyasiya edən populist meylli yalançı liderləri ortaya çıxardı. Baxmayaraq ki, şərait ekstremal idi, lakin o, əslində, sosial-siyasi ziddiyyətlərin son dərəcə mürəkkəb kompleksini həll etməyə və ölkənin gələcək inkişaf mərhələlərini müəyyənləşdirməyə qadir olan bir şəxsiyyət ortaya çıxarmadı. Həmin dövrdə Azərbaycanda gedən tarixi proseslərin xarakterinin özü obyektiv olaraq üstüörtülü şəkildə qeyri-adi şəxsiyyətə olan ehtiyaca yönəlmişdi, ancaq bu ehtiyac ödənilməmiş qaldı. Xalq, əslində başsız idi, bir tərəfdən onun arzu və istəklərinə adekvat cavab verməyə, digər tərəfdən isə ölkəni siyasi və iqtisadi böhrandan çıxarmaq strategiyasını hazırlamağa qadir şəxsiyyət tapılmadı. Azərbaycanın ötən əsrin 80-ci illərinin sonu-90-cı illərinin əvvəlindəki təcrübəsi belə bir həqiqəti bir daha təsdiq edir ki, böhran dərinləşdikcə və tarixdə mühüm, əlamətdar hadisələr toplandıqca siyasi liderə, qeyri-adi şəxsiyyətə ehtiyac xeyli artır. Bu şəxsiyyət siyasi səhnədə görünə də bilər, görünməyə də. Tarixi inkişafın sonrakı gedişi məhz bundan asılıdır.

## HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK İDEOLOGİYASI

***Əhmədov Y. P., Babayev Ş.B.***
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

Ümummilli Lider Heydər Əliyevin dövlətçilik ideyalarının elmi-nəzəri əsasları təkcə bugün üçün deyil, gələcək üçün də çox əhəmiyyətlidir onun idarəçilik məharəti zəngin təcrübə məktəbi, tükənməz bir xəzinədir. Ulu Öndər Heydər Əliyev özünün çox böyük təşkilatçılıq məharəti və çoxcəhətli səmərəli fəaliyyəti ilə idarəçilik elmini təkcə əməli cəhətdən deyil, həmçinin nəzəri baxımdan da zənginləşdirmişdir - bu dünya təcrübəsi üçün də faydalı olduğundan beynəlxalq əhəmiyyətə malik çox zəngin bir sərvətdir. Bu gün Azərbaycanda demokratik ölkələrin zəngin təcrübəsinə əsaslanan dövlət idarəçilik sistemi yaradılıb formalaşdırılmışdır-dövlət idarəçilik sistemi üçün xeyli qabiliyyətli və həm də milli ruhlu kadrlarımız hazırlanmışdır-buna ulu öndərin parlaq və aydın zəkası, zəngin bilik və təcrübəsi, çoxcəhətli fəaliyyəti və zəhməti hesabına nail olunmuşdur. Ümummilli liderin bizə irs qoyduğu zəngin təcrübəyə əsaslanaraq, eləcə də beynəlxalq təcrübəyə istinad edərək idarəçilik mədəniyyətini daim artırmağa, onu zənginləşdirərək yüksəltməyə, yeniləşən dünyamızın tələblərinə cavab verən kadr potensialını çoxaltmağa borcluyuq. Ölkənin bugünü və gələcəyi bu kadrların peşəkarlıq səviyyəsindən çox asılıdır-Heydər Əliyevin dövlət idarəçilik ideyaları, onun zəngin idarəçilik məktəbi bizə bunu tövsiyə edir, bunları öyrədir.

Dövlətin mənafeyi yalnız ali rəhbərlərin deyil, həm də bütün dövlət idarəetmə sistemindəki vəzifəli şəxslərin yüksək təhsil və peşəkarlıq səviyyəsinə malik olmasını tələb edir-dövlət qulluğu üçün mütəxəssislərin hazırlanması dövlətin yüksək peşəkarlığa malik idarəetmə kadrları korpusunun formalaşmasına yönəlmiş kadr siyasətinin mühüm tərkib hissəsinə çevrilir və dövlət qulluğu üçün kadr hazırlığı sisteminin, bütövlükdə ölkənin təhsil sisteminin qarşısında idarəetmə sahəsində yüksək ixtisaslı və peşəkar kadrların yetişdirilməsini aktual problem kimi qoyur. İdarəçilik işinin səmərəliliyini yüksəltməyə nail olmaq idarəetmə kadrlarının nəzəri və praktiki hazırlığı məsələlərinə olan tələbi artır-

indi hazırlanan kadrlar dəyişilən vəziyyətdən baş çıxarmağı, konkret şəraitə uyğun vəzifələri müəyyən etməyi, müstəqil qərarlar qəbul edərək onları həyata keçirməyi bacarmalıdır-bu vəzifələrə uyğun kadrlar hazırlanması, onların səriştəliliyi, peşəkarlığının artırılması işi də daim təkmilləşməli, kadrların elmi nəzəri səviyyəsi yüksəldilməli və praktiki iş təcrübələri artırılmalıdır. Sürətli dəyişikliklərin baş verdiyi hazırkı vaxtda cəmiyyətin sosial-iqtisadi tərəqqisində, rəqabətə davamlı insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan bilik iqtisadiyyatının qurulmasında ali təhsilin müstəsna rolu var. Qloballaşmanın geniş vüsət aldığı müasir dövrdə hər bir ölkənin iqtisadiyyatının dinamik inkişafı, onun uğurlu gələcəyi, inkişaf etmiş ölkələr sırasına daxil olması həmin ölkədə təhsilin səviyyəsi ilə müəyyən olunur. Bu cəhətdən ölkənin malik olduğu təbii sərvətlərin cəmiyyətin hərəkətverici qüvvəsi olan insan kapitalına çevrilməsi ali təhsil qarşısında duran müstəsna əhəmiyyətə malik əsas vəzifədir. Heydər Əliyev Azərbaycana rəhbərliyi illərində özünün idarəçilik prinsiplərinə sadiq qalmış fəaliyyətini bütünlüklə millətə, xalqa, dövlətə xidmət amalı üzərində quraraq milli xilaskar və qurucu rəhbər kimi ümummilli liderlik zirvəsinə yüksəldi. Siyasi liderin gücü və qüdrəti onun elan etdiyi məqsəd və vəzifələrin, ideoloji prinsiplərin cəlbediciliyi ilə deyil, ilk növbədə qarşıya qoyduğu vəzifələri real həyatda tətbiq imkanları ilə ölçülür. Bu mənada əminliklə demək olar ki, Azərbaycan xalqının milli kimliyinin və özünəməxsusluğunun bariz təcəssümünə çevrilmiş mütərəqqi ənənələrin təkmil ideoloji konsepsiya halına gətirilməsi və konkret dövlət modelində reallaşdırılması məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu siyasi kurs bütün istiqamətlərdə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsipinə söykənir.

Ümummilli liderin dövlətçilik fəlsəfəsinin qayəsini təşkil edən mühüm məqamlardan biri qanunun aliliyinin idarəetmə sisteminin əsas prinsiplərindən biri kimi təsbit edilməsi idi. Heydər Əliyev müdrik rəhbər olaraq hər bir fərdin azad, təhlükəsiz şəraitdə yaşaması naminə, ilk növbədə, respublikada qanunçuluğun və hüquq qaydalarının bərpasına nail oldu. Paralel olaraq Azərbaycanda qanunçuluğun inkişafına baza yaradan addımların atılması isə yeni, müasir və möhkəm dövlətçilik modelinin təkmil hüquqi mexanizmlərinin formalaşdırılması məqsədindən irəli gəlirdi. Azərbaycan müstəqil dövlətə çevrilmişdir və mükəmməl hüquqi bazaya söykənən idarəetmə sisteminin formalaşdırılması zəruri idi. Bu baxımdan 1993-cü ildən sonra Azərbaycanda aparılmış hüquqi islahatlar respublikada sabitliyin və inkişafın təməl prinsiplərinin müəyyənləşdirilməsini, ölkədə qanunçuluğun doğma kimi qəbul olunmasını təmin etdi. Tarixi təcrübə göstərir ki, siyasi liderin məharəti eyni zamanda ictimai inkişafın mövcud mərhələlərinə uyğun olaraq insanların idarəçilikdə iştirakı formalarını müəyyənləşdirmək bacarığında müəyyən olunur. Bu mənada siyasi liderliyin ən əhəmiyyətli cəhətlərindən biri də idarəetmə aparatına səriştəli, xalqına vicdanla xidmət edən, savadı ilə fərqlənən kadrların cəlb olunmasıdır. Ədalət və humanizm, qanunçuluq, həqiqətən də hər bir cəmiyyətin inkişafının başlıca şərti, əsas qayəsidir. Ulu öndər Heydər Əliyev hələ 1981-ci ildə "Literaturnaya qazeta"ya verdiyi məşhur müsahibədə "Qoy ədalət zəfər çalsın!"- deyə cəmiyyəti yüksək demokratizm, humanizm ruhunda kökləməyə çalışırdı. Ədalət meyarı Heydər Əliyev ideyalarına tapınan cənab İlham Əliyev üçün də daim prioritet məsələdir-dövlət başçısının yeritdiyi siyasət də bütün çalarları ilə məhz insan və şəxsiyyət amilinin yüksəlişinə hesablanmışdır.

# HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ

***Əhmədov Y.P., Qasımova N.V.***
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

Tarix ya böyük hadisələrlə, ya da böyük şəxsiyyətlərlə yadda qalır, çünki tarixi böyük şəxsiyyətlər və böyük hadisələr yaradır. Böyük şəxsiyyətlər tarixin təkcə qurucuları deyil, həm də dayaqlarıdır. İllər keçdikdən, öz missiyasını şərəf və ləyaqətlə yerinə yetirdikdən, əzmlə tarixə daxil olduqdan sonra liderin tarixdə rolu daha da aydın görünür. Dünyada tarix yaratmaq hər şəxsə nəsib olmur, bunun üçün dərin zəka və ilahi vergisi olan istedad, şəxsiyyət və ləyaqət, tarixi həqiqət duyğusu və dönməz iradə, siyasi uzaqgörənlik və hadisələri qabaqlamaq bacarığı, insanlığa, millətə və dövlətə məhəbbət bəsləmək kimi ali xüsusiyyətlər tələb olunur. Dövlətə kimin rəhbərlik etməsindən bir çox məsələlər - iqtisadiyyatın inkişafı, tikinti-quruculuq işləri, xalqın güzəranının yaxşılaşdırılması, mədəniyyət sahəsində tərəqqi və s. asılıdır. Çünki qarşıda duran vəzifələrin uğurlu həlli həm də rəhbərin şəxsi keyfiyyətlərindən, bacarıq və qabiliyyətindən də qaynaqlanır. Odur ki, xalq həmişə dövlət başçısının kimliyi ilə yaxından maraqlanır, xüsusən onun fəaliyyətinin ilk dövrlərində atdığı addımlara diqqətlə yanaşır.

Hər bir xalqın tarixən formalaşmış dövlətçilik ənənələrinin konkret dövlət modelində gerçəkləşməsi üçün əlverişli siyasi mühit və iradə ilə yanaşı, güclü liderin də olması mühüm şərtlərdəndir. Tarix göstərir ki, daxilən güclü, vətənpərvər və xarizmatik lideri olmayan xalqın yaranmış real şansdan düzgün yararlanması, milli iradəsini ortaya qoyaraq həqiqi müstəqillik istəyinə qovuşması mümkün deyildir. Xalqların həqiqi azadlığına zəmin yaradan iqtisadi müstəqillik də məhz fenomen şəxsiyyətlərin milli resursları nəzərə almaqla müəyyənləşdirdiyi inkişaf strategiyasına əsaslanır. Belə liderlər milli dövlətçilik ideyalarının praktik surətdə gerçəkləşməsində, davamlı və sabit tərəqqi üçün dayanıqlı əsasların müəllifinə çevrilirlər.

Dünyada bütün bu cəhətləri özündə birləşdirən dahiyanə şəxsiyyətlərdən biri fenomenal lider Heydər Əliyev idi. O, XX əsrin son qərinəsində qədim bir dövlətə, ulu bir xalqa rəhbərlik etdi, xalqına güvənib yüksəldi və özü ilə bərabər xalqını da tarixin qızaran üfüqlərinə ucaltdı. Heydər Əliyevin siyasi taleyinin mahiyyətini dərk etmək üçün müxtəlif hadisələrin fəlsəfi məğzini araşdırmaq və onun həyata keçirdiyi möhtəşəm planların izahı üçün açar olan ideyalarını başa düşmək lazımdır. Doğruluğu tarixlə təsdiq olunan bu nəzəri - metodoloji mülahizə Heydər Əliyevin tarixi-siyasi roluna, artıq çoxdan Azərbaycan xalqının milli sərvətinə çevrilmiş irsinə münasibət üçün bir açardır. Heydər Əliyevin siyasi taleyinin mahiyyətini dərk etmək, fikrimizcə, əliyevşünaslığın ilk və əsas problemlərindən biridir, bu barədə əli qələm tutan cızmaqaraçılar yox, peşəkar siyasətçilər, siyasi-publisistlər, filosof alimlər - bir sözlə elmi-nəzəri səviyyəsi, mənəvi səlahiyyəti olan mütəfəkkirlər yazmalıdır.

Tarix özü əlaqəli vahid tam olduğundan, hadisələrin təcrid olunmuş izahı proseslərin mahiyyətinə varmaq imkanını məhdudlaşdırır. Tarix və siyasət bir-birini tamamlayan, eyni zamanda nisbi müstəqilliyini saxlayan elm sahələridir. Bu gün siyasət sayılan, sabah tarixə çevrilir. Əgər bu gün fəaliyyət göstərən siyasətçini və onun işini qiymətləndirmək müasirləri

üçün çətindirsə, vaxt ötdükcə bu və ya digər şəxsiyyətin tarixdə yerini obyektiv şəkildə müəyyən etmək üçün imkan yaranır. Bəzən buna bir neçə il, bəzən isə onilliklər lazım olur. Həm də bu zaman unudulmamalıdır ki, söhbət şəxsiyyət iddiasında olan cılız insanlardan getmir. Çünki onların hafizələrdə qorunub saxlanmaq haqqı artıq öz dövrlərində tükənir. Söhbət cəmiyyətdə mövcud norma və standartlarla razılaşmayaraq onları dağıtmaq və daha mütərəqqilərini yaratmaq iqtidarında olan insanlardan Nitsşenin ideallaşdırdığı "fövqəlinsandan" gedir. Bir qayda olaraq, tarixdə yalnız o şəxsiyyətlər qalır ki, zaman onların izini itirməyə və silməyə qadir deyildir. Zamanla əbədi mübarizədə qalib gələn bu insanlar "Zaman və mən" deyərək, konkret tarixi mərhələni dəf edir. Bu şəxsiyyətləri hakimiyyət yolundan azdırmır, sərməst etmir, onlar hakimiyyət hərisi deyillər və riskə, təhlükələrə daim hazırdırlar. Görkəmli tarixi şəxsiyyətlər hər xalqın və bir dövlətin tarixinin fəal yaradıcılarıdır. Həmin şəxsiyyətlər hətta dünyalarını dəyişdikdən sonra da onların xatirəsi milyonların ürəyində, müstəqillik və azadlıq uğrunda mücadilənin qalibləri kimi xalqın qəlbində yaşayır. Təbiidir ki, bu deyilənlər böyük milli ideyalarla yaşayan liderlərə, şəxsiyyətlərə aiddir. Orta əsrlərin böyük Azərbaycan mütəfəkkiri və şairi Nizami dünya tarixinin gedişini dəyişən Makedoniyalı İsgəndərin timsalında şəxsiyyət probleminə və tarixdə onun roluna toxunaraq deyirdi ki, reallığı dərk edən, böhranlı vəziyyətdən çıxış yolu tapmağı bacaran hər hansı dövlət xadimi, istedadlı, fəlsəfəyə və incəsənətə bələd olan insan dəyişdirici ola bilər, belə insan dövlətin idarə olunmasını reallığa çevirə bilər.

Tarixi şəxsiyyətin liderliyi çox incə məsələdir. Bu məsələdə ölçü hissini çox asanlıqla itirmək və müvəffəqiyyətsizliyə uğramaq, hətta ifrata varmaq mümkündür. Burada bilavasitə ətrafda olanlardan da çox şey asılıdır. Hər kəs öz rolunu oynamalı və siyasət, hakimiyyət onu şirnikləndirməməlidir. Liderin rolunu həddindən artıq şişirtmək lazım deyil, eyni zamanda lideri qiymətləndirməmək də yolverilməzdir, onun istedadından və qabiliyyətindən istifadə etməmək isə, ümumiyyətlə, cinayətdir. Tarixi gözlənilməz hadisələrlə zənginləşdirən yetkin siyasətçilərin fəaliyyətidir. Ümumdünya tarixində bu proseslərin ardıcıl tədqiqi ilə məşğul olan politologiya öz başlanğıcını Qədim Şərqin siyasi fikrindən, Konfutsinin, Platonun, Aristotelin zamanından götürmüş, öz inkişafı boyunca olduqca zəngin nəzəri və faktiki material toplamış, ümumiləşdirmiş, hər yeni əsrdə yeni xüsusiyyətlər əxz edərək bu gün dövrün tələbinə cavab verən dolğun təlimə çevrilmişdir. Siyasi inkişafın meylləri və xüsusiyyətləri, siyasi fəaliyyətin xarakteri, məqsədləri, maraqları, mənası və üsulları siyasi ideyaların və siyasətdə insan düşüncələrinin, əməllərinin və səhvlərinin mahiyyəti insanları həmişə maraqlandırmışdır.

Müəyyən instusional, sosial-mədəni və sivil mühitdə formalaşan və reallaşan siyasət cürbəcür amillərin təsirinə məruz qalır. İnsan özü istəsə də, istəməsə də siyasi sistemin müəyyən tipindən kənarda ola bilməz. Bu mənada insan fəaliyyətinin özünəməxsus sahəsi kimi siyasət labüddür. Hakimiyyət və insan, şəxsiyyət və siyasət bir-birindən ayrılmazdır və tədqiqatçıların diqqətini daim eyni dərəcədə cəlb etmişdir. Bizim ölkəmizdə bu elmi marağı reallaşdırmaq yalnız Azərbaycan müstəqillik əldə etdikdən sonra mümkün olmuşdur, çünki sovet rəhbərlərinin "fövqəlbəşəriliyi" barədə Sov.İKP tərəfindən uzun illər yaradılmış süni fenomen milli respublikaların liderlərinin öz vətənlərinin tarixindəki rolunu obyektiv qiymətləndirməyə mane olurdu.

Şəxsiyyət haqqında, onun cəmiyyət, siniflər, millətlər və sosial qruplar ilə əlaqələri haqqında, şəxsiyyətin formalaşması və inkişafının qanunauyğunluqları haqqında çox yazılmışdır. Bu tədqiqatlarda qiymətli və müsbət məqamlar çoxdur. Lakin şəxsiyyətin, həm də konkret şəxsiyyətin tarixin yaradıcısı, onun hərəkətverici qüvvəsi olması haqqında son dərəcə anlaşılmaz və yayğın şəkildə bəhs edilir. Keçmiş SSRİ-də, o cümlədən Azərbaycanda on illər boyu formalaşdırılan sinfi şüur şəxsiyyətə deyil, cəmiyyətə üstünlük verirdi. Bir nöqtəyə yönəldilmiş bu elmi-ideoloji iş tədricən onunla nəticələndi ki, şəxsiyyətə, ümumiyyətlə, cəmiyyətin ötəri ünsürü kimi baxmağa başladılar, yəni ümumi mənafelər naminə onunla hesablaşmamaq olar. İctimai inkişafda siniflərin rolunun mütləqləşdirilməsi ayrıca şəxsiyyətin, fərdin cəmiyyətdəki yerini qiymətdən saldı. Nəticədə, ictimai tərəqqidə, tarixdə şəxsiyyətin rolu heçə endirildi. Biz cəmiyyətin obyektiv qanunlarını öyrənmək zərurətini şübhə altına almaq fikrindən uzağıq, sosial birliklərin ilkinliyini, onların tarixi inkişafdakı rolunu, tarixi şəxsiyyətlərin rolunu öyrənməyin vacibliyini inkar etmirik. Məsələnin mahiyyəti bunda deyil, ölçü hissinin nə dərəcədə pozulmasındadır. Bir qisim həqiqətləri müdafiə edərkən yeni səhvlərə yol verməmək olduqca vacibdir.

## AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Əhmədova N.M.***
*Sumqayıt Dövlət Universiteti*

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin siyasi və iqtisadi əsaslarını yaradan tarixi şəxsiyyət, nüfuzlu rəhbər kimi hər bir kəsin yaddaşına həkk olunmuşdur. Ulu öndərin ölkəmizə rəhbərlik etdiyi dövrü dövlətçiliyimizin şanlı səhifəsi hesab etmək olar. Heydər Əliyevin rəhbərliyi dövründə ölkəmizin bütün sahələrində güclü inkişafın getdiyini heç bir şəkildə inkar etmək olmaz.

1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə ölkəmizdə iqtisadi yüksəliş başladı, Azərbaycan iqtisadiyyatına xarici investisiyalar yatırıldı, digər sahələrdə olduğu kimi o, bu sahədə də köklü dəyişikliklər etdi. Onun uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfatı sisteminə inteqrasiyası sahəsində çox böyük nəaliyyətlər əldə olundu.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabr 20-də Azərbaycanın XX əsr tarixində siyasi, iqtisadi və stateji əhəmiyyətinə görə ən mühüm müqavilələrdən biri Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatının birgə pay bölgüsü haqda saziş imzalanmışdır. Dəyəri 7,4 milyard dollar olan “Əsrin Müqaviləsi”ndə dünyanın 7 ölkəsini (Azərbaycan, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Rusiya,Türkiyə, Norveç, Səudiyyə Ərəbistanı) təmsil edən 11 beynəlxalq neft şirkəti iştirak etmişdir. “Əsrin Müqaviləsi”ndən sonra 19 ölkəni təmsil edən 49 neft şirkəti ilə daha 26 saziş imzalanmışdır. Bununla da Azərbaycanın xarici ticarətində böyük irəliləyiş dövrü başlamışdır.

1997-ci ilin sonlarında Azərbaycan nefti Bakı-Novorossiysk kəməri ilə Qara dənizə ixrac edilməyə başlandı. 1999-cu ildə isə Bakı-Subsa neft kəməri çəkildi və həmin ilin dekabrda Azərbaycan nefti ilə dolu ilk tanker dünya bazarına çıxdı. 2002-ci ildə Heydər Əliyevin səyi nəticəsində çoxlarına əfsanə kimi görünən və yerinə yetirilməsi mümkünsüz hesab edilən Bakı-Tibilisi-Ceyhan kəmərinin təməli qoyuldu. Mühim stateji əhəmiyyət kəsb edən bu kəmər Azərbaycanın enerji dəhlizinə çevrilməsi istiqamətində mühüm addım idi.

Heydər Əliyevin neft sənayesi sahəsində gördüyü ən mühüm addımlardan biri də 1999-cu il, 29 dekabrda imzaladığı sərəncama əsasən Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması idi. Qısa müddət ərzində dünyanın ən şəffaf fondlarından birinə çevrilən Dövlət Neft Fondu vəsaitlərin səmərəli və şəffaf idarə olunması sahəsində hazırki və gələcək nəsillər üçün uzunmüddətli maliyyə gəlirlərini təmin edir.

Heydər Əliyev təkcə neft sektorunun deyil, qeyri-neft sektorunun inkişafına da böyük diqqət yetirmişdir. Belə ki, kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi üçün bir çox sərəncamlar imzalamışdır.

Azərbaycan iqtisadiyyatının bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirilməsi Heyədr Əliyevin daim diqqət mərkəzində idi. 1993-cü ildə təsdiq edilmiş “Azərbaycan Sahibkarlığının İnkişafı” adlı Dövlət proqramı Azərbaycanda kiçik və orta sahibkarların sayının artmasına, xarici ölkələrlə iqtisadi əlaqələrin formalaşmasına müsbət təsir göstərmişdir. Heydər Əliyev kənd təsərrüfatı sahəsində olan problemlərin həlli üçün 9 dəfə müşavirə keçirmiş, bu sahədəki problemlərlə şəxsən özü yaxından tanış olmuşdur və bundan sonra aqraq islahatlar həyata keçirmək üçün hüquqi baza yaratmışdır. 1995-ci ilin fevral ayının 15-də “Aqrar islahatların əsasları haqqında” və “Sovxoz və kolxozların islahatları haqqında” qanun qəbul olundu. Bütün bunlan sahibkarlığın inkişafında əvəzsiz rol oynamışdır.

1996-cı il, iyulun 16-da “Torpaq islahatları haqqında” mühüm qanunlar qəbul edilmişdir. Ümumilikdə, 1995-2004-cü illər ərzində aqrar sahə ilə əlaqədar olan 100-dən çox normativ-hüquqi akt qəbul olunmuşdur. “Azərbaycan Respublikasında aqrar bölmələrin inkişafının Dövlət Proqramı (2002-2006-cı illər)”nın həyata keçirilməsi aqrar sahədə uğurlar qazanılmasına imkan yaratmışdır.

Heydər Əliyevin rəhbərliyi altında respublikanın iqtisadi inkişafının nəticələri hər il müzakirə edilir, yekunlaşdırılır və qarşıdakı təsərrüfat ili üçün vəzifələr və perspektivli inkişaf istiqamətləri müəyyən edilir. Təsərrüfata dinamik rəhbərlik fasiləsiz pozitiv dəyişiklikləri təmin edirdi. Heydər Əliyev gördüyü işlər əsasında uzaqgörənliklə deyirdi: “Azərbaycan 1990-cı illərin əvvəlindəki ağır vəziyyətdən çıxaraq ardıcıl sürətdə inkişaf etmiş və artıq 2000-ci ildən sonra bu daha da sürətli olmuşdur, ölkəmiz irəli gedir. Respublikamızın həm iqtisadiyyatını, həm də xalqın rifah halını çox yaxşı gələcək gözləyir. Biz bunu indiyə qədər gördüyümüz işlərin əsasında təmin etmişik və gələcəkdə görəcəyimiz işlər bunların hamısını tamamlayacaqdır”.

Həqiqətən də, Heydər Əliyev Azərbaycanı çətin vəziyyətdən iqtisadi inkişaf və işıqlı sabaha çıxartmaq üçün əlindən gələn hər şeyi etdi. Bu gün onun əməlləri və ideyaları prezidentimiz İlham Əliyev fəaliyyəti və gərgin əməyi sayəsində yaşayır və inkişaf etdirilir.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ

***Əhmədova Ş.M.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycanda dövlətçilik ənənələrinin qədim tarixi vardır. Lakin bu tarix dəfələrlə qırılmış və yenidən bərpa olunmuşdur. Bu gün onun vahid, bütöv proses kimi təsəvvür olunması çox çətindir. Lakin Azərbaycan ərazisindəki qədim dövlətlər də, orta əsrlərdəki böyük imperiyalar da, müstəqil dövlət qurumları olan xanlıqlar da və nəhayət, Azərbaycan Xalq Cümhuriyyəti və hətta Azərbaycan Sovet Sosialist Respublikası da milli dövlətçiliyin ayrı-ayrı müstəqil məqamları və təzahürləri olmaqla yanaşı, həm də vahid, böyük bir tarixi prosesin hissələridir.

Həlledici məqamda dövlətin sükanı arxasında böyük siyasi təcrübəyə və milli dövlətçilik təfəkkürünə malik olan şəxsin dayanması, əlbəttə, çox önəmlidir.

Təsadüfi deyildir ki, belə bir məqamda Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi, müstəqilliyin dönməzliyinin təmin olunması, dövlətçilik tariximizin müasir mərhələsinin kəsilməzliyinin təmin edilməsi kimi şərəfli bir vəzifəni yerinə yetirməklə məhdudlaşmayıb, həm də tarixi şüurumuzun bərpa olunması, dövlətçilik ənənələrinin qədim köklərinin üzə çıxarılması və müasir tariximizə qatılması sahəsində də məqsədyönlü iş apardı. Onun tərəfindən dəfələrlə nümayiş etdirilən tariximizə xüsusi diqqət və həssas münasibət sadəcə olaraq tarixin bir milli-mənəvi sərvət kimi qorunması təşəbbüsü deyildir. Bu xüsusi diqqət daha çox dərəcədə bugünkü milli dövlət quruculuğu işində, vətəndaşlıq duyğusunun, millətə, dövlətə, vətənə sevgi hissinin gücləndirilməsində tarixə söykənmək və gələcəyə gedən yolu daha möhkəm, daha dərin əsaslar üzərində salmaq istəyinin təzahürü idi.

Ulu Öndər Heydər Əliyev deyirdi: "Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, vətənin bütövlüyü xalqın birliyinin təcəssümü olmuşdur. Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirmişdir".

1993-cü ildən sonra bu istiqamətdə hadisələrin axarına diqqət yetirəndə onun məqsədyönlü surətdə başqa bir məcraya yönəldildiyinin şahidi oluruq. Əsas kurs insanlarda etnik-milli duyğularla yanaşı, ictimai-siyasi özünüdərk duyğusunun, vətəndaşlıq duyğusunun formalaşdırılmasına yönəldilmişdi. Heydər Əliyevin rəhbərliyi altında aparılmış son dərəcə gərgin fəaliyyət nəticəsində Azərbaycan xalqının taleyi ilə oynanılan pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyulmuş, ölkədə cinayətkarlığın qarşısı tam alınmış, bütün qanunsuz silahlı dəstələr ləğv olunmuşdur. Bu da bütövlükdə Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaratmışdır.

Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1993 cü il iyun və avqust hadisələri, 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alınmış, dövlət müstəqilliyi qorunub saxlanmışdır.

Məhz buna görə də ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi böyük vüsət almışdı ki, bunun da əsasını müstəqil Azərbaycanın qəbul etdiyi ilk konstitusiya təşkil edirdi. Ondan sonrakı dövrdə də Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi şəxsən Heydər Əliyevin adı ilə bağlıdır. Onun "Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir" - ideyası bu sahədəki fəaliyyətin istiqamətini müəyyən edirdi.

Heydər Əliyevi dinləyərkən, Onun əsərlərini oxuyub dərindən təhlil edərkən, bir daha əmin olursan ki, müstəqilliyin ali məqsədi milli-mədəni və mənəvi dəyərlərin bərpa olunması, xalqın özünü dərk etməsi, öz mənliyinin sahibi olmasıdır. Heydər Əliyev nədən başlayıb nəyə doğru getmək lazım olduğunu çox gözəl bilirdi. Onun yolu təkcə siyasi müstəvidə deyil, həm də iqtisadi və mədəni-mənəvi müstəvidə istiqlal yoludur.

"Tarix heç nəyi silmir", "tariximiz bizim üçün dərs olmalıdır", - deyir Heydər Əliyev. Lakin O, bununla heç də yalnız tarixi öyrənməyi və hafizələrdə yaşatmağı nəzərdə tutmur, o, tarixin həm də məhz çağdaş proseslərin iştrakçısı kimi nəzərə alınmasını tövsiyə edir, yeni dövrün tarixini yaradarkən də onu həmişə böyük tarixin kontekstinə uyğunlaşdırmağa çalışırdı.

Bu ideologiyanın əsas prinsip və xüsusiyyətləri ən azı aşağıdakılardan ibarətdir: 1. Milli dövlətçilik və qanunçuluq; 2. İslahatçılıq; 3. Azərbaycançılıq və milli-mənəvi dəyərlərə bağlılıq; 4. Sosial ədalət və humanizm; 5. Beynəlmiləlçilik və bəşərilik.

Artıq dövlət müstəqilliyinin bərpasının 27-ci ilini yaşayan Azərbaycanın bu dövrdə əldə etdiyi dövlət müstəqilliyinin möhkəmlənməsi, beynəlxalq nüfuzunun artması, respublika iqtisadiyyatının dayanıqlı inkişafının təmin olunması, xalqın rifah halının mütəmadi olaraq yüksəlməsi və digər tarixi nailiyyətlər silsiləsi məhz ümummilli lider Heydər Əliyevin xalqın çağırışı ilə Azərbaycana rəhbərliyə qayıdışından başlanır.

Bəli, Ulu öndərin rəhbərliyi ilə Azərbaycan 1993-cü ildən sonrakı on il ərzində böyük və şərəfli yol keçdi. 1993-2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi yaddaşlarda və tarixdə qaldı. Bu illər ərzində dövlətçiliyin əsasları qoyuldu. Azərbaycan dünya birliyinə özünü təqdim etdi. Beynəlxalq əlaqələr inkişaf etdi. Dünya xəritəsində Azərbaycan özünə layiq yer tutdu. Nəhəng sosial və iqtisadi islahatlar uğurla aparıldı. Azərbaycan bir neçə beynəlxalq təşkilata üzv oldu. Ölkəmizə böyük həcmdə investisiyalar cəlb edildi.

Ümummilli liderin xidmətləri sayəsində Azərbaycan milli dövlətçilik tarixində möhtəşəm yer tutan bugünkü üçüncü respublikanın – Azərbaycan Respublikasının fərqli cəhəti onun milli dövlət olmasıdır.

Azərbaycan belə bir möhkəm zəmin əsasında bu gün də inkişaf edir.

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ZƏNGİN SİYASİ TƏCRÜBƏSİ GƏNCLƏRİMİZİN DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞMASINDA MÜHÜM AMİLDİR

***Əhmədova Y.M.***
*Gəncə Dövlət Universiteti*

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci mərhələdə də ana dilimizin qorunub saxlanılması, onun inkişaf etdirilməsi haqqında müstəsna xidmətləri var. 1978-ci ildə Konstitusiyamız qəbul olunarkən oraya "Azərbaycan SSR-də dövlət dili azərbaycan dilidir" cümləsini yazmaq kimi cəsarətli bir addım atmışdır. Doğrudur, o vaxt bu maddəyə görə güclü təzyiqlər oldu, hətta keçmiş SSR-də milli mənafelər baxımından da buna münasibət bildirərək milli zəmində törədəcəyi mənfilikləri də göstərməklə bu maddənin götürülməsinə çalışdılar, amma nail ola bilmədilər.

1991-ci ildə Azərbaycan öz müstəqilliyini elan etdi. Azərbaycan dövlətinin qarşısında dayanan ən mühüm vəzifələrdən biri olan dil və əlifba məsələsi öz təsdiqini yetərincə tapmadı, dilimizin adı ətrafinda gərəksiz diskussiya baş alıb getdi, milli varlığımıza sırf bağlı olan və onu şərtləndirən bütün dəyərlər etnokulturoloji və etnopsixoloji sərvətlər arxa plana keçdi. Bu dövrlərdə latın əlifbasına keçid ətrafında keçən diskussiyalar da tezliklə bu əlifbaya keçidin zəruriliyindən xəbər verirdi. Doğrudan da buna münasibət müsbət çalar almışdı. Latın əlifbasına keçidin Azərbaycan üçün mütərəqqi bir hadisə olacağını alimlər, dövlət rəhbərləri elmi cəhətdən əsaslandıra bilirdilər. Amma, həm dilimizin təkmilləşdirilməsi, həm də latın qrafikasına keçid də yenə məhz Ulu öndərimizin qətiyyəti və iradəsi altında həyata keçirildi. Hələ XIX əsrdə Mirzə Fətəli Axundov tərəfindən irəli sürülən bu ideya, nəhayət, Heydər Əliyev tərəfindən gerçəkləşdi, həyatda öz təsdiqini tapdı.

Heydər Əliyevin 2001-ci il iyunun 18-də imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanı ana dilinə münasibəti kökündən dəyişdi. 9 avqust 2001-ci il tarixli başqa bir fərmanı isə avqustun 1-nin "Əlifba və Dil günü" kimi qeyd olunmasını təsbit etdi.

2001-ci ilin noyabrın 9-10-da Bakıda Dünya azərbaycanlıarının I Qurultayı keçirildikdən sonra dünyanın ayrı-ayrı ölkələrindəki azərbaycanlılar diasporumuzun təşkilatlanması, onun formalaşması istiqamətində çox böyük işlər görmüş, uğurlu nəticələr əldə etmişdilər. Ulu öndər 2002-ci ilin aprel ayının 8-də Rusiya Federasiyasındakı Azərbaycan diasporunun nümayəndə heyətini qəbul edərkən onlara bu canlanmanı xatırladaraq Rusiyadakı Azərbaycan diasporunun təmsilçilərinə bir daha harada yaşamasından asılı olmayaraq azərbaycanlı olaraq qalmağı, öz milli kimliyini, öz xalqının adət-ənənələrini, ilk öncə ana dilini unutmamağı tövsiyə etmişdi.

Heydər Əliyev hələ XX əsrin 70-80-ci illərində təhsilin inkişafına çox diqqət yetirirdi. O illərdə respublikadan kənarda, keçmiş SSR-nin aparıcı məktəblərində, bura hərbi məktəbləri də şamil etmək lazımdır, gənc nəslin yetişdirilməsinə böyük əmək sərf etmişdir. İstər Azərbaycandan kənarda, istərsə də respublika daxilində kadr potensialının təşkilində onun xidmətləri əvəzsizdir.

Sabahın qurucuları olan gənclərdə milli mənəvi dəyərlərimizə münasibətdə sağlam sevgi hissini yaratmaq istiqamətində Ulu öndər çox geniş məqsədyönlü işlər aparmışdı. Onun bu sahədə keçirdiyi tədbirlər gənclərdə milli-mənəvi dəyərlərimizə böyük hörmət hissi aşılayır, hər bir gəncin Vətənə, torpağa bağlılığını daha da artırır və möhkəmləndirir.

Təhsil həyatımızın ən gərəkli və ən mühüm sahəsidir. Təhsil sistemində islahatın ugurla həyata keçməsi üçün, ilk növbədə, təhsil sahəsində dövlət siyasətinin əsas istiqamətləri, fəaliyyət prinsipləri özünü əks etdirməlidir. O, milli məqsəddir və milli mənafelər əsasında qurulmalıdır. Təhsilin inkişafı üçün hər bir Azərbaycan vətəndaşı öz imkanı çatanı etməlidir. Bu onun vətəndaşlıq borcudur, çünki hər bir vətəndaş dövlətin milli mənafelərinə xidmət edən sahələrə öz töhfəsini verməyə borcludur. Ulu öndər XX əsrdə əldə etdiyimiz ən böyük nailiyyətlər sırasında məhz milli təhsilimizin yaradılmasını qeyd edirdi: "Əgər xalqımız təhsillənməsəydi, savadlanmasaydı, nəhayət, Azərbaycanın özünün milli ali təhsil müəssisələri, institutları, universitetləri yaranmasaydı, indi biz müstəqil olaraq bu cür böyük imkanlara malik ola bilməzdik".

XXI əsr Azərbaycanın milli təhsil tarixindən islahatlar əsri kimi də tarixi yaddaşımızda qalacaqdır. Ulu öndər təhsilin cəmiyyətdə inkişafındakı rolu barəsində söhbət acarkən aşağıdakı fikirləri söyləmişdir: "Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik olan insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycan iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycan elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz naliyyəti heç vaxt unutmamalıyıq".

Dünya azərbaycanlılarının ümummilli lideri, milli iftixarımız Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə üzərinə götüldüyü bütün vəzifələri layiqincə yerinə yetirmişdir. Gələcək nəsil həm də onunla qürurlanmalı, fəxrlənməlidir ki, onun xoş sabahının təminatcısı, siyasi lideri və rəhbəri İlham Əliyevdir.

Yaxın və uzaq keçmişdə yaranan müstəqil dövlətlərin, bu dövlətlərin təşəkkül tapmasında, onun qorunub saxlanmasında böyük şəxsiyyətlərin rolu həmişə olub. Azərbaycanın da yaxın keçmişində demokratik ideyaların daşıyıcısı olan şəxsiyyətləri çox olub. Belə şəxsiyyətlərdən biri də 34 il məmləkətimizin çiçəklənməsi naminə ömrünü sərf edən məhz ümummilli liderimiz, ölməz şəxsiyyət Heydər Əliyev olmuşdur.

## HEYDƏR ƏLİYEV DÜHASI VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI

***Əliyeva D.V.***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

*Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi*

*keçirməlidir və biz azərbaycançılığı-Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq.*

***Heydər Əliyev***

Azərbaycançılıq-Azərbaycanda yaşayan azəri türklərinin eləcə də digər aborigen xalqların bu coğrafi-məkana məxsusluğunu və aidliyini ifadə edən ideya və məfkurə məsələsidir, ideologiyadır. İdeologiya ideyalar toplusudur. İdeyalar toplusu yaxud ideya müəyyən vaxt keçərək ideoloji görüşə çevrilir. İdeologiya olaraq azərbaycançılıq mühüm funksional elementlərlə zəngindir. Azərbaycançılıq ideologiyasının mahiyyəti ölkəni mənəvi və fiziki baxımdan zəiflətmək cəhdlərindən qorumaqdır. Azərbaycançılıq ideyasının tarixi çox qədimdir. Azərbaycançılıq müsətqil Azərbaycanı sivilizasiyalı dövlətlər sırasına çıxaran bir yoldur.

Azərbaycançılıq ideologiyası XX əsrin ikinci yarısından başlayaraq özünün daha yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur. Ölkəmizdə azərbaycançılığın mətbuatdan və ədəbiyyatdan ictimai-siyasi müstəviyə çıxarılması kimi çətin bir vəzifənin yerinə yetirilməsi Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev hakimiyyətdə olduğu dövrlərdə Azərbaycan xalqının və millətinin şanını, şöhrətini, qürurunu və iftixarını bütün dünyaya tanıtmış və dünyanın ən böyük azərbaycanlısı və dünya azərbaycanlılarının ümummilli lideri adını qazanmışdır.Çoxmillətli Azərbaycan xalqını birləşdirən azərbaycançılıq ideyası müstəqilliyin qorunmasına, demokratik inkişafa və hüquqi, sosial dövlətin qurulmasına xidmət edir. Ümummilli lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan parlamentindəki çıxışında demişdir: “Azərbaycan ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır. Əgər biz bunu əməli surətdə həyata keçirə bilsək, Azərbaycan Respublikasında olan bütün xalqların, bütün millətlərin tam birləşməsini təmin edə bilərik”. Bununla ulu öndər Azərbaycanda hakimiyyətin mövqeyini əks etdirən azərbaycançılıq ideyasının əsaslarını bəyan etmişdir.

Azərbaycan SSR-in Dövlət Təhlükəsizlik Komitəsinin rəhbərliyindəki fəaliyyətini də nəzərə alsaq, Heydər Əliyev qırx ildən artıq böyük bir dövrdə azərbaycançılıq ideyası ilə dövlət işi səviyyəsində məşğul olmuşdur. 1978-ci ildə Azərbaycan dilinin ölkəmizin konstitusiyasına dövlət dili kimi daxil etdirməyə nail olması buna bariz nümunədir. Azərbaycan dili kimi Azərbaycan xalqı anlayışının da ölkəmizdə bərqərar olması milli mövqeyin qorunub saxlanılması ilə yanaşı, müstəqil dövlətin daxili sabitliyinin təmin edilməsinə, ölkədə yaşayan xalqlar və etnik qruplar arasında tolerantlıq mühitinin formalaşdırılmasına xidmət edir. Dünya azərbaycanlıları anlayışı da Azərbaycanın dövlət siyasətində Heydər Əliyevin adı ilə bağlıdır. Sovet hakimiyyəti illərində yaranan çətinliklərə baxmayaraq, dünya azərbaycanlılarının həmrəyliyinə və birliyinə doğru böyük addımlar atılmışdır. Həmçinin, Azərbaycan ədəbiyyatı və incəsənətinə böyük qayğı göstərilmişdir. Belə ki, Azərbaycan ədəbiyyatının klassiklərinin və görkəmli şəxslərinin dövlət səviyyəsində yubileylərinin keçirilməsi, əsərlərinin nəşri, dünya dillərinə tərcümə olunması və tamaşaya qoyulması azərbaycançılıq anlayışının daha da möhkəmləndirilməsinə xidmət etmişdir. Ulu öndərin Azərbaycan rəssamlarından Mikayıl Abdullayev, Tahir Salahov, Toğrul Nərimanbəyov, Maral Rəhmanzadə, Oqtay Sadıqzadə, heykəltaraşlardan Tokay

Məmmədov, Ömər Eldarov, Mirəli Mirqasımov, xalçaçı sənətkarlardan Kamil Əliyev, Lətif Kərimov və digər yaradıcılıq fəaliyyətlərinə bəslədiyi münasibət tarixi hadisələrə çevrilmişdir. Azərbaycan incəsənətində Tahir Salahov, Oqtay Sadıqzadə, Ömər Eldarov, Kamil Əliyev, Eldar Mikayılzadə, Natiq Əliyev, Akif Əsgərov, İlham Mirzəyev, Həmzə Sadıqov, Eldar Zeynalov, Ülviyyə Həmzəyeva və bir çoxları Heydər Əliyevin obrazını yaratmışlar. Azərbaycanın musiqi sənətinin inkişafında da ulu öndərin böyük xidmətləri olmuşdur. Heydər Əliyev dünya şöhrətli bəstəkarlar Fikrət Əmirov, Qara Qarayev, Arif Məlikov, məşhur müğənnilər Rəşid Behbudov, Müslüm Maqomayev, Lütfiyar İmanov, Şövkət Ələkbərova, Zeynəb Xanlarova və başqalarının sənətinə yüksək qiymət vermişdir. Heydər Əliyevin diqqəti Azərbaycan incəsənətinin məşhur rejissorlarını və aktyorlarını meydana çıxarmışdır. O, teatr sənəti haqqında deyirdi: "Teatr müqəddəs yerdir, tərbiyə ocağıdır. Orada çalışanlar fədakardırlar, fədaidirlər... Teatra məhəbbət mənim içimdədir. İncənəsətin, o cümlədən kino və teatrın təsiri və tərbiyə qüvvəsi çox böyükdür."

Hazırda Azərbaycan Respublikasında Heydər Əliyevin müstəqil dövlətçilik təlimi, azərbaycançılıq ideologiyası Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

Zaman keçdikcə ümummilli lider Heydər Əliyevin şəxsiyyəti daha möhtəşəm görünür, tarix onun əməllərini, dövlətçilik ideallarını və azərbaycançılıq nəzəriyyəsini təsbit edir.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA HƏRBİ TƏHSİL SİSTEMİNİN FORMALAŞDIRILMASI

***Əlləzova V.Z.***

*AMEA, A.A. Bakıxanov adına Tarix İnstitutu*

Heydər Əliyevin dövlətçilik fəaliyyətinin ən mühüm istiqamətlərindən biri də beynəlxalq hərbi təhsil standartlarına cavab verən milli hərbi təhsil sisteminin formalaşdırılması məsələsi idi. Ölkəmizin nə zamansa müstəqillik yoluna qədəm qoyacağını, milli ordumuzun yaranacağını öncədən görən Heydər Əliyev Azərbaycanda hərb sənətini yenidən dirçəltmək və müstəqil dövlətin Silahlı Qüvvələri üçün yüksək ixtisaslı milli zabit kadrlarının hazırlanmasına xüsusi diqqət yetirirdi.

Bu işin əsası Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə 1971-ci ildə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış internat məktəbinin yaradılması ilə qoyuldu. Sonra bu məktəb hərbi liseyə çevrildi. Məktəbə yarandığı gündən 1992-ci ilədək 4000-dən artıq kursant daxil olmuş, onlardan 3500 nəfəri ali hərbi məktəblərə qəbul olunmuşdur. Bu gün Azərbaycan ordusunda xidmət edən zabitlərin 85 faizindən çoxu bu məktəbin yetirmələridir.

Heydər Əliyev eyni zamanda azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində və eləcə də SSRİ-nin digər məktəblərində oxuması üçün tədbirlər görürdü.

Heydər Əliyevin ordu quruculuğu siyasəti müstəqillik qazandıqdan sonra da öz bəhrəsini verdi. 1993-cü ildə xalqın təkidli tələbindən sonra hakimiyyətə qayıdan Heydər Əliyev səfərbərliyin təşkili, döyüş hazırlığının, şəxsi heyətin təlim tərbiyəsinin təkmilləşdirilməsi istiqamətində mühüm qərarlar verdi.

Heydər Əliyevin təşəbbüsü ilə 1997-ci ildə Azərbaycan Ali Hərbi Məktəbinin yaradılmasının hərbi-təhsil sisteminin formalaşmasında, milli zabit kadrlarının hazırlanmasında mühüm rolu olmuşdur. Bu məktəbin yaradılması və fəaliyyəti böyük imkanlar, resurslar və təcrübə tələb edirdi. Qeyd etmək lazımdır ki, qardaş Türkiyə Cümhuriyyətinin köməyi sayəsində Azərbaycan Ali Hərbi Məktəbi qısa müddət ərzində dünya standartlarına cavab verən təhsil ocağına çevrildi. 2001-ci ildən bu məktəb Azərbaycan Respublikası Milli Ordusunu müasir hərbi peşə standartlarına uyğun təhsil proqramı əsasında hazırlanmış zabitlərlə təmin etməyə başladı. Hazırda Azərbaycan Ali Hərbi Məktəbinin 4 fakültəsinin 21 kafedrasında 23 hərbi ixtisas üzrə zabitlər hazırlanır.

1999-cu il yanvarın 20-də Heydər Əliyev ölkədə hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə fərman imzaladı. 2001-ci ildə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzi yaradıldı. Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin, Tibb Universitetində hərbi tibb fakültəsinin yaradılması hərbi təhsil sisteminin formalaşmasında əhəmiyyətli rol oynadı. Bu hərbi təlim-təhsil ocaqları Azərbaycanın Silahlı Qüvvələrinin tərkibinə daxil olan müxtəlif qoşun növlərini ən müasir hərbi biliklərə yiyələnən peşəkar zabitlərlə təmin etməklə yanaşı, bir sıra ölkələr üçün də kadrlar hazırlayırdı.

Bu dövrdə Azərbaycan Silahlı Qüvvələrinin təhsil sistemi öz beynəlxalq əlaqələrini qurmuş və milli ordu üçün xarici ölkə təhsil ocaqlarında yüksək səviyyəli milli zabit kadrların və hərbi mütəxəsislərin hazırlanması işini təşkil etmişdir. Türkiyə, Rusiya, Ukrayna və digər ölkələrə göndərilən Azərbaycan Silahlı Qüvvələrinin bir çox zabitləri dinləmə kurslarında iştirak etmiş, öz professional səviyyələrini artırmışlar.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanda milli hərbi təhsil sisteminin formalaşması, milli zabit kadrların hazırlanması sahəsində çox böyük uğurlar əldə olunmasına imkan verdi.

## HEYDƏR ƏLİYEVİN UĞURLU İQTİSADİ İNKİŞAF STRATEGİYASI

***Əsədova A.V.***
*Sumqayıt Dövlət Universiteti*

SSRİ-nin süqutundan sonra müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında çox ciddi problemlər vardır. Bir çox müəssisələrin fəaliyyəti dayandırılmışdır. Təkcə neft istehsalında 4 min neft quyusunda hasilat dayandırılmışdır. Hətta, kənd təsərrüfatında bütün texnika köhnəlmiş, suvarma kanalları sıradan çıxmış, torpaqlar şoranlaşaraq əkinə yararsız hala düşmüşdür. Azərbaycan iqtisadiyyatına ən böyük ziyanı isə Ermənistanla müharibə vurmuşdur. Ölkə gəlirinin üçdə bir hissəsi müharibəyə xərclənirdi.

1991-1993-cü illərdə respublikanın mövcud iqtisadi və mədəni potensialından, zavod və fabriklərdən, kommunikasiya vasitələrdən, yüksək ixtisaslı mütəxəssislərdən də səmərəli istifadə olunmurdu. 1993-cü ilin iyununa kimi Azərbaycanda iqtidarda olan hökumət xarici şirkətlərlə imzalamağa hazırlaşdığı neft müqaviləsi ölkənin milli mənafelərinə zidd idi. Heydər Əliyev rəhbərliyə gəldikdən sonra Azərbaycan xalqının milli mənafeyinə xidmət

edən yeni layihə hazırladı. Heydər Əliyev yenidən hakimiyyətə gəldiyi dövrdə xarici investisiyalara mane olmaq üçün Rusiyanın təşəbbüsü ilə Xəzər dənizinin statusu məsələsi ortaya atılmışdı. Halbuki hələ SSRİ zamanında bu dənizin müttəfiq respublikalara aid hissələri müəyyən olunmuşdu. Bu dövrdə ölkənin maliyyə sistemi də bərbad vəziyyətdə idi.

Prezident Heydər Əliyev tez bir zamanda iqtisadi tənəzzülün qarşısını almaq üçün ciddi tədbirlər görməyə başladı. Bazar iqtisadiyyatının formalaşmasına münasib şərait yaratmaq məqsədilə qanun, fərman və qərarlar qəbul edildi. Prezident 1994-cü il aprelin 5-də xarici ticarəti sərbəstləşdirmək haqqında fərman verdi. 1994-cü ilin əvvəllərindən milli valyuta-manat respublika ərazisində yeganə ödəniş vasitəsi elan olundu. Prezidentin 14 may 1994-cü il Fərmanı ilə kredit siyasəti ciddiləşdirildi. Beynəlxalq Valyuta Fondu və Ümumdünya Bankı ilə müqavilələr bağlandı. 1996-cı ilin ortalarında Prezident daha bir yeni ciddi iqtisadi addım atdı- vergi sistemi təkmilləşdirildi. Ölkə iqtisadiyyatının dirçəlməsi və inkişaf etdirilməsi üçün xarici investisiyaların cəlb edilməsi zəruri idi. Heydər Əliyevin iştirakı ilə 1997-1998-ci illərdə ABŞ –da Amerika-Azərbaycan Ticarət Palatası tərəfindən keçirilən beynəlxalq konfranslarda respublikamızın iqtisadi imkanları geniş müzakirə edildi. H.Əliyevin apardığı uğurlu xarici siyasət nəticəsində 2000-ci ildə Azərbaycanda 1300-dən çox xarici şirkət və firmanın nümayəndəliyi fəaliyyət göstərirdi. Neft sənayesində investisiyanın və yeni texnologiyaların cəlb edilməsi ölkə iqtisadiyyatının əsasını təşkil edirdi. 1994-cü il sentyabrın 20-də Bakının “Gülüstan” sarayında ADNŞ ilə ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı, Yunanıstanın iri neft şirkətləri daxil olan konsersium arasında Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının bir hissəsinin birgə işlədilməsi və hasil olunan pay şəklində bölüşdürülməsi haqqında 30 illik saziş imzalandı.

Ümumiyyətlə, 1994-2001-ci illərdə ADNŞ 14 ölkənin 32 neft şirkəti ilə 21 müqavilə imzaladı. 2001-ci ildə hasilat və servis şirkətlərində 10 mindən çox Azərbaycan vətəndaşı işləyirdi. Bu əhalinin sosial vəziyyətinə müsbət təsir edirdi. Heydər Əliyevin böyük, uzaqgörən iqtisadi siyasəti nəticəsində 1997-ci il noyabrın 12-də “Əsrin müqaviləsi” üzrə neftin hasilatına başlanıldı. 2001-ci il avqustun 30-da “əsrin müqaviləsi” üzrə əsas işlərin birinci, mühüm fazasına başlanıldı. Bu dövrdə neft sahəsinin inkişafı iqtisadiyyatın başqa sahəsinə də xarici sərmayə qoyuluşunu artırdı. 1996-2002-ci illərdə 9 milyard dollar xarici investisiya qoyulmuşdur. Bu sərmayənin 3 milyonunu isə qeyri-neft sektoru təşkil edir. Dünyanın 32 ölkəsinin və beynəlxalq təşkilatının təmsil olunduğu bu konfransda “Bakı Bəyannaməsi” qəbul edildi, Böyük İpək Yolunun mənzil qərargahı yaradıldı və onun Bakıda yerləşməsi qərara alındı.

Bakı Beynəlxalq Dəniz Limanı Yeni İpək Yolunda baş körpüyə çevrildi. Heydər Əliyevin təşəbbüsü ilə kənd təsərrüfatında aqrar islahatlar keçirildi. 1995-ci ildə Kolxoz və Sovxozlar ləğv edildi, kənddə kənd təsərrüfatı, koperativlər və kiçik müəssisələr yaradıldı. Kənd təsərrüfatında icarə xidməti formalaşdı və qrandlar hesabına yeni texnikalar alındı. Prezident Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər mövcud iqtisadi böhranı aradan qaldırmağa, iqtisadi sabitlik yaratmağa və tərəqqiyə yol açmağa imkan verdi. Respublikada iqtisadi tənəzzülün qarşısı 1995-ci ildə alındı. Dirçəliş başladı.

Beləliklə, Prezident Heydər Əliyevin müdrik daxili və xarici siyasəti sayəsində Azərbaycan Respublikasının iqtisadiyyatı dərin böhrandan, tənəzzüldən qurtardı, ölkə iqtisadiyyatı sürətlə inkişaf etməyə başladı.

## AZƏRBAYCANIN SOSİAL – İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAFINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

***Əsgərov H.M., Rzayev V.R.***
*Lənkəran Dövlət Universiteti*

Azərbaycanın 30 ildən artıq tarixi dövrü, o cümlədən xalqın ictimai-siyasi, sosial - iqtisadi və mədəni həyatının bütün sahələridə dirçəliş Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu, doğma yurdu Azərbaycanı özünün uzaqgörən siyasəti və idarəçilik qabiliyyətləri ilə zamanın ağır və sərt sınaqlarından məharətlə çıxarmışdır.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının formalaşmasında misilsiz xidmətləri tarixə qızıl hərflərlə yazılmış və gələcək nəsillər üçün qoyulan ən qiymətli mirasdır. Ulu öndərin qayğısı sayəsində Azərbaycanda XX əsrin 70-80-ci illərində milli özünüdərkin yüksəlişi başlamış, yazıçı və şairlərin əsərlərində milli ruha, millət və xalq anlayışlarına, Azərbaycan dili ilə bağlı məsələlərə önəm verilmiş, dünya azərbaycanlarının təşkilatlanması, soydaşlarımızla Azərbaycan arasında əlaqələrin qurulmasında çoxsaylı işlər görülmüşdür. Respublikamız dövlət müstəqilliyini bərpa etdikdən sonra isə milli birliyin təminatı, dünya azərbaycanlılarının vahid milli mənafe ətrafında birləşməsi, dövlət quruculuğunun əsas vəzifələrindən biri kimi ortaya çıxmışdır. Azərbaycanın dinindən, irqindən, milli mənsubiyyətindən asılı olmayaraq, ortaq Azərbaycançılıq ideologiyası ilə bütün azərbaycanlarının birləşdirilməsi məhz Ulu öndərin uzaqgörən siyasətinin nəticəsi idi.

Ulu öndərin dərin düşünülümüş siyasəti sayəsində Azərbaycançılıq təkcə milli ideologiya yox, həm də çox qüvvətli dövlətçilik təlimi kimi nüfuz qazandı. Ümummilli lider Heydər Əliyevin təhsil, mədəniyyət, səhiyyə, demokratiya və insan hüquqları, hərbi quruculuq, sosial - iqtisadi inkişaf sahələrində həyata keçirtdiyi idarəetmə siyasəti Azərbaycanın müstəqilliyinin sarsılmaz dayaqlarının möhkəmlənməsinə səbəb oldu.

1969-cu ildə Azərbaycan rəhbərliyinə irəli çəkilən Heydər Əliyev milli mənafelərə xidmət göstərmək məqsədi ilə mövcud rejimin sərt qanunları çərçivəsində Azərbaycanın intibahı və tərəqqisi, onun iqtisadiyyatının, elm və təhsilinin yüksəldilməsi üçün düşünülmüş siyasət yeritməyə nail olmuşdur. 1969-1982-ci illər də Heydər Əliyevin rəhbərliyi altında təhsil sahəsində aparılan uzaqgörən və məqsədyönlü siyasət nəticəsində regionlarda müxtəlif profilli texniki peşə məktəbi açılmış, ali təhsil müəssisələrinin sayı 17 –yə çatdırılmış, ümumilikdə burada təhsil alanların sayı yüz min nəfərə yüksəldilmişdir. Eyni zamanda 1970-1980-ci illərdə SSRİ -nin 50 -dən artıq böyük şəhərinə, 170 -dən çox ali məktəbdə 80-dən artıq sahəni əhatə edən, 250 ixtisas üzrə 15 minə yaxın azərbaycanlı gənc ali təhsil almağa göndərmişdir. Bu da hazırda müstəqil Azərbaycanın diasporasının formalaşmasında strateji olaraq düşünülmüş ən böyük addımlardan biri olmuşdur.

Müstəqillik qazandıqdan sonra da Ulu öndərin Azərbaycan təhsilinə davamlı qayğısı olmuş, təhsilin bütün pillələri üzrə naliyyətlər əldə olunmuşdur. Ümummilli liderin 1998 -ci ildə, "Azərbaycan Respublikasında təhsil sahəsində islatahlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" və 15 iyun 1999-cu ildə "Azərbaycan Respublikasnın təhsil sahəsində islahatlar haqqında Dövlət Proqramı"nın qəbul olunması haqqında qərarları, dünya təhsil sisteminə inteqrasiya baxımından inkişafa səbəb olmuşdur.

Ulu öndər Azərbaycan xalqının özünün tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə həmişə fəxr etmiş və inkişaf etdirilməsinə böyük önəm vermişdir. Ümummili Lider Heydər Əliyevin milli təəssübkeşliyi sayəsində Azərbaycan Qafqazın mədəniyyət mərkəzinə çevrilmişdir. 1993-2003-cü illərdə "Mədəniyyət haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Turizm haqqında", "Nəşriyyat işi haqqında", "Muzeylər haqqında", "Arxiv fondu haqqında", "Memarlıq fəaliyyəti haqqında" qanun və sərəncamları bu sahəyə nə qədər əhəmiyyət verdiyinin bariz nümunəsidir.

Müstəqillik illərində Ulu öndərin bilavasitə rəhbərliyi, diqqəti və dəstəyi ilə səhiyyə sistemində ardıcıl və məqsədyönlü iş görülmüş, islahatlar aparılmışdır. Bu dövrlərdə ilk əvvəl səhiyyənin hüquqi-normativ bazasının təkmilləşdirilməsi və dünya standartları səviyyəsinə qaldırılması daim diqqət mərkəzində olmuşdur. Həmin məqsədlə bir sıra qanunlar, o cümlədən "Əczaçılıq fəaliyyəti haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Tibbi sığorta haqqında" qanunlar işlənib hazırlanmış və həyata keçirilməyə başlanmışdır.

Zəmanəmizin böyük azərbaycanlısı Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə ölkədə sosial – iqtisadi yüksəliş başladı. Ulu öndər 1994 –cü il sentyabrın 20 –də dünyanın inkişaf etmiş ölkələrinin, böyük neft şirkətləri ilə, Azərbaycanın mənafeyini qoruyan "Əsrin müqaviləsi"ni imzalamağa müvəffəq oldu. Neftin dünya bazarlarına çıxarılması istiqamətində "Bakı – Novorossiysk", "Bakı – Supsa" kəmərləri işə salındı. Hazırda Ulu öndərin adını daşıyan və dünya bazarlarına neftin çıxarılmasında əsas ixrac boru kəməri olan "Bakı – Tbilisi – Ceyhan" xəttinin təməli qoyuldu.

İqtisadiyyata hərtərəfli dirçəlişə nail olunması, qeyri – neft sektorunun formalaşmasına xüsusi əhəmiyyət verilərək, kənd təsərrüfatı, sənaye, turizm və digər sahələrin inkişaf etdirilməsi istiqamətində bir çox tədbirlər həyata keçirildi. Bunun nəticəsi idi ki, 2002 –ci ildə dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1993 –cü ilə nisbətən 85 dəfə artaraq 4,6 trilyon manata çatmış, xərcləri isə 72 dəfə artaraq 4,7 trilyon manat olmuşdur. Tam əminliklə demək olar ki, 1993 – 2003 –cü illərdə Azərbaycan iqtisadiyyatı böhran və tənəzzül məngənəsindən çıxaraq, iqtisadi inkişaf və yüksəliş yoluna qədəm qoymuşdur.

Hazırda müstəqil Azərbaycanı uğurla idarə edən Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev və Azərbaycan Respublikasının 1-ci vitse-prezdenti Mehriban xanım Əliyeva Ulu öndərin idarəçilik məktəbinin ən nümunəvi məzunları və onun layiqli davamçılarıdır.

# AZƏRBAYCANIN SOSİAL– İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Əsgərova X.İ.***
*Gəncə Dövlət Universiteti*

*İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsədə onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız sizə bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur.*

*Heydər Əliyev*

Dövlət qurmaq, müstəqil yaşamaq bəşər tarixində heç də bütün xalqlara nəsib olmur. Milli quruculuğun lideri kimi xalqın böyük əzm və etimadına layiq olmaq siyasətçinin, dövlət xadiminin fədakar əməyini, böyük dühasını tələb edir. Tarixdə adı dövlətçiliyin simvoluna çevrilən və onunla qoşa çəkilən çox az siyasi liderə rast gəlmək olar. Tanrının və taleyin hökmü ilə müstəqil dövlətimizin ən müasir tarixi də məhz belə liderin adı ilə bağlıdır və dövlətçilik səlnaməsinə şanlı səhifələr məhz onun siyasi xətti ilə, rəhbərliyi ilə yazılıb. XX əsrin tarixində, dünya siyasətində etiraf edilən fenomen şəxsiyyət Heydər Əliyevin yaratdığı milli dövlətçilik tarixin bizə bəxş etdiyi milli sərvətdir və onun dəyərini dərk etməliyik.

İqtisadiyyat bütün dövlətlərin inkişafının özəyini təşkil edir. İqtisadiyyatı zəif olan bir dövləti heç zaman güclü hesab etmək olmaz. Onda demək olar ki, dövlətin inkişafı onun iqtisadi inkişafından bilavasitə asılıdır. Azərbaycanda iqtisadi inkişaf üçün bütün imkanlar mövcuddur. Azərbaycanda iqtisadi inkişaf özünəməxsus inkişaf metodu ilə fərqlənir. Müasir Azərbaycanın bugünkü sosial-iqtisadi inkişafının əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndərimiz ötən əsrin 70-80-ci illərində sovet dövlətinin iqtisadi potensialından Azərbaycanda iqtisadiyyatın və mədəniyyətin inkişafı üçün bacarıqla istifadə etmişdir. Xalqımızın böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə 1969-1982-ci illərdə respublikada 250-dən çox zavod, fabrik və digər istehsal müəssisələri istifadəyə verilmişdir. 20 milyon kvadratmetr mənzil sahəsi, yüzlərlə məktəb, klub, xəstəxana, istirahət evləri tikilmişdir. Bakının ətrafında yeni mikrorayonlar, Badamdar, Əhmədli, Günəşli, Hövsan və sair kimi yeni yaşayış massivləri salınmışdır. 1983-cü ildə Bakı-Qroznı neft kəmərinin, 1985-ci ildə Dərin Dəniz Özülləri Zavodunun, Bakıda “Ulduz” Elektrik Cihazqayırma, Sumqayıtda Məişət Kompressorları zavodunun, 1981-1984-cü illərdə Şəmkir Su Elektrik Stansiyasının və digər sənaye obyektlərinin tikilib istifadəyə verilməsi sürətlə inkişaf edən Azərbaycanda əhalinin rifahının yaxşılaşmasına ciddi təsir göstərmişdir. XX əsrin 70-80-ci illəri xalqımızın tarixində yalnız iqtisadiyyatın bütün sahələrinin inkişafı dövrü kimi deyil, həm də elmin, təhsilin, mədəniyyətin misilsiz tərəqqisi illəri kimi ayrıca mərhələ təşkil edir. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın iqtisadi-mədəni inkişafı, sənayenin, kənd təsərrüfatının, mədəniyyət, elm, təhsil və digər prioritet sahələrin idarə edilməsi üçün bacarıqlı və yüksəkixtisaslı kadrların hazırlanmasının vacibliyini mühüm vəzifə kimi qarşıya qoyaraq təhsilin inkişafına xüsusi qayğı göstərmişdir. 1969-1978-ci illərdə orta ümumtəhsil məktəblərinin sayı 77 faiz artmışdır. 1994-cü ildə Əsrin müqaviləsinin imzalanması gənc Azərbaycan Respublikasının

dünya iqtisadiyyatına inteqrasiyasında, onun tranzit potensialının artmasında mühüm addımdır. İqtisadi, sosial və siyasi islahatların həyata keçirilməsi qanunvericilik bazası olmadan mümkün deyil. Odur ki, ulu öndərimiz dövlət quruculuğuna hüquqi bazanın yaradılmasından başladı. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu. 1998-ci ilin 22 fevralında ümummilli lider Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman imzalamış, həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin proqramı müəyyənləşdirilmişdir. 28 dekabr 2001-ci il tarixdə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilmişdir .Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin ikinci dövründə yüzlərlə müəssisə bərpa edilmiş,yeni sənaye obyektləri işə salınmışdır.

Dahi rəhbər Heydər Əliyev Azərbaycanın mədəni yüksəlişi üçün də mühüm tədbirlər həyata keçirmişdir. 2001-ci il avqustun 9-da Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi, 2002-ci ildə Şirvanşahlar Sarayında, Möminə xatın məqbərəsində, Qarabağlar türbəsində və Şəki Xan Sarayında təmir-bərpa işlərinin aparılması, Qız qalasının və İçərişəhərin YUNESKO-nun "Dünya mədəniyyəti irsi" siyahısına daxil edilməsi ölkə mədəniyyətinin inkişafına əvəsiz töhfələr vermişdir. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük naliyyətlərimizdən biridir. Bu təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir. İstər Azərbaycan tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyev müstəqil və suveren dövlətin simvolu, xarizmatik siyasət dahisi, cəsur insan və ən böyük vətəndaş kimi qalmışdır və qalacaq. O, Azərbaycanın ən yeni tarixində bütöv bir epoxanı özündə təcəssüm etdirən, müstəqil dövlətin siyasi, iqtisadi, hüquqi, sosial-mədəni, elmi əsaslarını yaradan, onların ardıcıl inkişafını təmin edən siyasi kursun və milli inkişaf strategiyasının müəllifidir.

## SİYASI SABİTLİK VƏ MİLLİ DÖVLƏTÇİLİYİ MÖHKƏMLƏNDİRMƏK UĞRUNDA MÜBARİZƏ

***Əzizova R.Y.***
*Sumqayıt Dövlət Universiteti*

H.Əliyev 1993-cü il oktyabrın 3-də keçirilən seçkilərdə səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. Andiçmə mərasimini oktyabrında keçirən H.Əliyev ölkənin ərazi bütövlüyünü, tam suverenliyini təmin edəcəyini,əhalinin rifahını yaxşılaşdıracağını xalqa bəyan etdi. 1993-cü il noyabrın 2-də prezident H.Əliyev xalqı Vətənin müdafiəsinə çağırdı. Könüllülərdəibarət ordu cəbhəyə göndərildi. H.Əliyevin uğurlu daxili və xarici siyasətindən narazı qalan əleyhdarlarının dövlət çevrilişlərinə cəhdləri boşa çıxdı. Respublikada sabitliyin pozulmasına imkan verilmədi. Bəzi çətinliklərə baxmayaraq respublikada demokratik dövlət quruculuğu prosesi davam etdirildi.

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ümumxalq səsverməsi ilə qəbul olundu.

Konstitusiyada dövlət müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, cəmiyyətin demokratikləşdirilməsi, dünyəvi dövlət qurulması, bazar iqtisadiyya- lına xas olan münasibətlərin formalaşdırılması kimi amillər təsbit olundu.

1995-ci il noyabrın 12-də ölkəmizdə ilk demokratik parlament seçkiləri keçirildi.

1995-ci ildə Azərbaycan Gənclər Təşkilatı Milli Şurası, Respublika Uşaq Təşkilatı yaradıldı.

1996-cı ilin fevralında Azərbaycan Respublikası Prezidenti yanında Xüsusi İslahatlar Komissiyası yaradıldı.

1996-cı aprelin 2-də gənclərin I respublika forumu keçirildi. Həmin gün tarixə Gənclər günü kimi daxil oldu.

1998-ci ilin fevralında "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi haqqında" Prezident fərmanı verildi.

1998-ci ilin avqustunda "Azərbaycan Respublikasında söz, fikir ve mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Prezident fərmanı ilə senzura ləğv edildi. 1998-ci ildə respublikada ölüm cəzası tamamilə ləğv edildi. Bununla da Azərbaycan Şərqdə ölüm cəzasının ləğv edildiyi ilk ölkə oldu.

1998-ci ildə Konstitusiya Məhkəməsi yaradıldı.

1998- ci il oktyabrın 11-də Heydər Əliyev yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

1999-cu il dekabrın 12-də Azərbaycan Respublikasında ilk bələdiyyə seçkiləri keçirildi. 2001-ci il dekabrın 28-də Milli Məclis "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya qanununu qəbul etdi. Beləliklə, demokratik dövlətdə insan hüquq və azadlıqlarının müdafiəçisi olan Ombudsman təsisatı yaradıldı.

2000-ci ildə hakimlərin xüsusi imtahandan keçməsi təcrübəsi tətbiq olundu.

2000-ci ildə respublikada rəsmi qeydə alınmış 34 siyasi partiya, 1000- dən çox ictimai birlik mövcud idi ki, bu da demokratik dəyərləri göstərən mühüm faktorlardandır.

2002-ci il avqustun 24-də Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsinə dair referendum keçirildi.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev tərəfindən 2003-cü il fevralın 17-də "Azərbaycan Respublikasının inkişafı namine informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" təsdiq edildi.

2003-cü il avqustun 4-də İlham Əliyev Azərbaycan Respublikasının Baş naziri təyin olundu.

2003-cü il oktyabrın 15-də Heydər Əliyev siyasi məktəbinin yetirməsi və davamçısı olan İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.

2003-cü il dekabrın 12-də Ümummilli Lider Heydər Əliyev vəfat etdi çoxəsrlik dövlətçilik tariximizin son 30 illik dövrü görkəmli dövlət xadimi Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Onun respublikaya rəhbərlik etdiyi dövrdə iqtisadiyyatın, elmin və mədəniyyətin inkişafında böyük nailiyyətlər qazanılmışdır. Azərbaycanın siyasi tarixində, dövlət müstəqilliyinin qorunub-saxlanılmasında, dünya iqtisadiyyatı ilə sıx inteqrasiya prosesində Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur.

Hazırkı mürəkkəb şəraitdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyevin siyasi xəttini və ideyalarını uğurla davam etdirir.

# HEYDƏR ƏLİYEV VƏ DÖVLƏTÇİLİK FƏLSƏFƏSİ

***Fərhadova J.F.***
*Sumqayıt Dövlət Universiteti*

Milli dövlətçilik tariximizin əsas hissəsi Ümumilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ən yaxın dövlətçilik ənənələrinə söykənərək xalqında dövlətçilik duyğusunu inkişaf etdirmiş, vətəndaşların siyasi təfəkkürünün azərbaycançılıq ideologiyasının kökləri əsasında təşəkkül tapmasına çalışmışdır. Tarix bir daha sübut etdi ki, müasir milli dövlətin qurulması, əsl milli istiqlal, siyasi təcrübə ilə milli şüurun üzvi surətdə birləşməsi milli dövlətçilik məfkurəsinin daşıyıcısı olan Ulu öndərimizin hakimiyyətə gəlməsi sayəsində mümkün oldu. Məhz buna görə də belə hesab etmək olar ki, müasir milli dövlət quruculuğumuz 1993-cü ilin iyunundan-Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlanmışdır.

Həlledici məqamda dövlətin sükanı arxasından böyük siyasi təcrübəyə və milli dövlətçilik təfəkkürünə malik olan şəxsin dayanması, əlbəttə çox önəmlidir. Lakin xalqın milli dövlətçilik yaddaşı silinmiş olsaydı, biz hər şeyi sıfırdan başlamaq məcburiyyətində qalsaydıq, qısa bir müddətdə milli dövlət quruculuğu sahəsində belə böyük uğurlar əldə etmək mümkün olmazdı. Məhz ulu öndərin xidmətləri sayəsində milli dövlətçilik ənənələrimiz bərpa olunaraq inkişaf etmişdir. Müasir dövlətçilik quruculuğunda həyata keçirilməsi zəruri olan başlıca tələb cəmiyyət miqyasında qanunun aliliyini həyata keçirilməsinə maddi, siyasi və mənəvi təminat verməkdir.

Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin əsas müddəalarından biri də dövlətin təhlükəsizliyinin təmin olunmasından ibarətdir. Təəssüf ki, sovet imperiyasının süqutu prosesindən bizə Dağlıq Qarabağ münaqişəsi kimi ağrılı bir problem miras qalmışdır. Biz ərazinin 20 faizində hələ ki, öz suverenliyimizi təmin edə bilməmişik. Amma dünyanın bütün ölkələri, beynəlxalq təşkilatlar Azərbaycan Respublikasının ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını tanıyırlar. Buradan belə nəticəyə gəlmək olar ki, liderimizin dövlətçilik fəlsəfəsinə fiziki mənada təhlükəsizliyin təmin olunması yox, həm də onların hüquq və azadlıqlarının qorunması, ilk növbədə ana dilimizin, soydaşlarımızın milli mənlik şüurunun yaşadılması kimi məsələlər daxildir.

Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin mayında Ermənistanla atəşkəs barədə razılıq əldə edildi. 1994-cü ilin sentyabr ayının 20-də isə xarici ölkələrin neft şirkətləri ilə Xəzərin neft və qazla zəngin sturukturlarının işlədilməsi barədə "Əsrin müqaviləsi" adlı tarixi sənəd imzalandı. Bununla da Azərbaycanın iqtisadi cəhətdən daha da inkişaf etdirilməsinə və onun təhlükəsizliyinin təmini üçün daha uğurlu tədbirlərin həyata keçirilməsinə şərait yaradıldı. Xəzər neftinin dünya bazarına nəqlinə imkan verən Bakı-Tiblisi-Ceyhan neft, həmçinin Bakı-Tiblisi-Ərzurum qaz kəmərlərinin işə düşməsi Azərbaycanın dövlət müstəqilliyinə verilən daha bir töhfə oldu. Bir sıra proqramların həyata keçirilməsində maddi-texniki təminat, icra mexanizmiləri, demək olar ki, hər tərəfli inkişaf üçün bütün şərait təmin edilmişdir.

Prezidentimizin ölkəmizdə yaratdığı siyasi sabitlik nəticəsində Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə kimi maraq doğurur. Azərbaycan xalqının ümummilli lideri

Heydər Əliyevin dövlətçilik təcrübəsi Azərbaycanın müstəqilliyinin əbədiliyi və dönməzliyini təmin etmiş, ölkənin bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan iqtisadi inkişaf strategiyasını həyata keçirmişdir.

Ümümmilli lidermizin əsas məqsədi bölgədə sülh və sabitlik yaratmaq, iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi olmuşdur. Buna görə də ordu qurulucuğuna xüsusi diqqət yetirmiş, orduda maddi-texniki bazanın möhkəmləndirilməsində, hazırlıq və peşəkarlıq səviyyəsinin artırılmasında böyük işlər görmüşdür. Ölkəmizdə ümummilli liderimizin iqtisadi islahatların və siyasətin paralel aparılması yolunda apardığı işlər böyük iqtisadi proqramların bütün sahələrdə həyata keçirilməsinə zəmin yaratmışdır.

Məhz Heydər Əliyev siyasətinin məntiqi davamı olaraq həyata keçirilən məqsədyönlü islahatlar nəticəsində Azərbaycanda idarəedici, qanunverici və məhkəmə hakimiyyətinin strukturları daha da gücləndirilmiş, müvafiq dövlət qurumlarının fəaliyyəti səmərəliləşdirilmişdir. Heydər Əliyev fəlsəfəsinə bələd olduqca, görürsən ki, onun tarixi gerçəklərinin ana xəttini bütün zamanlarda vətən sevgisi və milli qeyrət tamamlayır. Ulu öndərin apardığı dövlətçilik siyasəti nəticəsində Azərbaycanın mövqeyi daha da möhkəmlənmiş, iqtisadi-siyasi demokratlaşma uğurla aparılmış, nəticədə Azərbaycan güclənmiş və gələcəyə doğru uğurla inkişaf edən bir ölkəyə çevrilmişdir.

Heydər Əliyevin dövlət quruculuğu fəaliyyətinin dəyəri və böyüklüyü ondadır ki, o, bu missiyaya, sadəcə olaraq, praktik siyasətçi kimi yanaşmamış, bir mütəfəkkir kimi bu işin fəlsəfəsinə, ideya əsaslarına varmağı, dünya xalqlarının, o cümlədən, öz xalqının tarixi-təcrübəsini öyrənərək həyata tətbiq etməyi, zamanın və siyasi-ictimai reallıqların xarakterinə uyğun addımlar atmağı bacarmışdır. Heydər Əliyevin dövlətçilik fəlsəfəsi nəzəri cəhətdən bitkin bir təlim olsa da, praktik olaraq zaman etibarı ilə daim inkişaf etmək, təkmilləşmək, reallığa uyğunlaşmaq qüdrətinə malikdir.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN İQTİSADİYYATI

*Fərzəliyeva M.Ç., Süleymanov S.E., Cəfərov F.T.*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ağcabədi filialı)*

**Heydər Əliyev** ***demişdir: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir".***

Azərbaycan xalqının ümummilli lideri, Ulu öndər Heydər Əliyev nəinki ictimai, siyasi, həm də iqtisadi sahədə kifayət qədər həlledici addımlar atmışdır. Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə yeni iqtisadi yüksəliş başlandı, Azərbaycan iqtisadiyyatına xarici investisiyalar yatırıldı, Ulu öndər digər sahələrdə olduğu kimi, bu sahədə də köklü dəyişikliklərin aparılması üçün yeni imkanlar yaratdı. Bu mərhələdə, ilk növbədə, gələcək müstəqil və güclü iqtisadi siyasətin zəminləri yaradıldı. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir.

1993-cü ilin yarısından başlayaraq, aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmə proseslərinin qarşısının alınması və digər tədbirlərdən sonra iqtisadiyyatda tənəzzül tədricən aradan

qaldırıldı və bununla da Azərbaycanın iqtisadi inkişafında mahiyyətcə yeni mərhələnin təməli qoyuldu.

Sənayenin inkişafı ilə yanaşı Heydər Əliyev respublikada kənd təsərrüfatının inkişaf etdirilməsinə də xüsusi diqqət yetirirdi. 1996-cı ildə ümummilli lider Heydər Əliyevin birbaşa təşəbbüsü ilə torpaq islahatı proqramı hazırlandı və bu proqram əsasında torpaq islahatlarının həyata keçirilməsini təmin edən hüquqi baza yaradıldı. Azərbaycan MDB-də torpaq islahatlarına start verən ilk ölkə oldu. Ulu öndərin müəyyənləşdirdiyi strategiyaya əsasən digər ölkələrdən fərqli olaraq, respublikamızda torpaqlar vətəndaşlara pulsuz olaraq əvəzsiz verildi. MDB-nin digər ölkələrindən fərqli olaraq, Azərbaycan vətəndaşları yararsız və ya az yararlı torpaqlarla deyil, keçmiş kolxoz və sovxozların ən yararlı və münbit torpaqları ilə təmin olundular. Nəticədə, 3 milyon 500 minə qədər insan torpaq mülkiyyətçisinə çevrildi.

Yaxın keçmişdə əsas kənd təsərrüfatı məhsullarını müxtəlif xarici ölkələrdən alan Azərbaycan indi, əksinə, xaricə məhsul ixrac edir. Bu da, sözsüz ki, məhsul istehsalının intensiv artımı nəticəsində mümkün olmuşdur.

İdxal-ixrac əməliyyatlarının bazar iqtisadiyyatının tələblərinə uyğun qurulması nəticəsində ölkəmizin beynəlxalq əlaqələri ilbəil genişlənir, möhkəmlənir və inkişaf edir. Bütün bunlar Heydər Əliyevin xidmətləridir". Azərbaycan Respublikasının iqtisadi siyasətinin istiqamətlərindən biri müstəqil dövlətin neft strategiyasının hazırlanması olmuşdur. Azərbaycan üçün həyati əhəmiyyəti olan bu müqavilə həm respublikanın daxilində sabitliyin bərqərar olunması, həm də xarici siyasətdə uğurların əldə edilməsində müstəsna rol oynadı.

Heydər Əliyevin özünün də vurğuladığı kimi, "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan Xəzər dənizi və onun enerji ehtiyatlarını bütün dünyanın üzünə açdı və bu hadisənin ölkənin gələcəyi üçün nə dərəcədə əhəmiyyətli olduğunu tarixçilər yazacaqlar". "Əsrin müqaviləsi" adı ilə indi bütün dünyada tanınmış bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycan Respublikasının iqtisadi inkişaf konsepsiyasını təşkil edən və Heydər Əliyev tərəfindən işlənilib hazırlanmış yeni neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Azəri, Çıraq və Günəşli yataqlarının istismarını nəzərdə tutan əsrin müqaviləsinin imzalanması ölkəyə külli miqdarda xarici investisiyanın axınına səbəb olmuşdur. Heydər Əliyev Azərbaycan neft kəmərinin çoxvariantlılığı ideyası ilə çıxış edərək Bakı-Supsa kəmərinin işə salınmasına, eyni zamanda "Əsrin müqaviləsi" çərçivəsində hasil olunacaq əsas neftin nəqli üçün "Bakı-Tbilisi-Ceyhan" neft kəmərinin inşa edilməsi üzrə danışıqların intensivləşdirilməsinə nail olur. 1999-cu ilin noyabrında Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri ABŞ-ın dövlət başçısının iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin inşa edilməsinə dair hökumətlərarası saziş imzalamış, bu kəmərin çəkilməsi yolunda yaradılan çoxsaylı əngəllərə baxmayaraq Ulu öndərimizin siyasi iradəsi və uzaqgörənliyi sayəsində maneələrin hamısı dəf edilərək bu layihənin gerçəkləşməsi reallığa çevrilmiş, 2003-cü ildə kəmərin tikintisinə başlanılmışdır. Çox çətinliklərə baxmayaraq Heydər Əliyevin seçdiyi yol uğurlu olmuş, Azərbaycan neftinin dünya bazarına çıxarılması reallığa çevrilmişdir.

Ulu Öndər Heydər Əliyevin müdrik qərarı əsasında Neft Fondundan ilk vəsait Azərbaycan xalqının ən ağır şəraitdə yaşayan və ən həssas sosial təbəqəsi olan qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə istiqamətləndirilmişdir.

Bu gün ulu öndərin layiqli siyasi varisi Prezident İlham Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycanda regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı həyata keçirilir. Dünyanın bir çox ölkələri ilə iqtisadi əməkdaşlıq qurulmuşdur. Ölkəmiz mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bütün bunlar dünyanın Azərbaycana olan etibarının artması ilə şərtləndirilir. Bütün bu uğurlar ulu öndər Heydər Əliyev və onun siyasətinin dönməz davamçısı olan Prezident İlham Əliyevin fəaliyyətinin bəhrəsidir.

Ümumiyyətlə, yeni şəraitdə ölkənin iqtisadi inkişafının ardıcıllığını təmin etmək məqsədilə həyata keşirilən islahatların dairəsi kifayət qədər genişdir. İslahatlara bütün səviyyələrdə güclü dəstək nümayiş etdirilməsi, əldə olunan ilkin nəticələr onu deməyə əsas verir ki, başlanan yeni iqtisadi kurs postneft dövründə ölkəmizin uğurlu inkişafını təmin edəcək. Prezident cənab İlham Əliyevin bildirdiyi kimi, iqtisadiyyat və dayanıqlı şəkildə inkişaf edəcəkdir, qeyri-neft sektorumuz inkişaf edəcəkdir.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV TARİXİ AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN VƏ MÜASİR AZƏRBAYCAN DÖVLƏTİNİN XİLASKARI KİMİ

***Hacıyev O.Y.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan xalqının tarix boyu yetişdirdiyi böyük şəxsiyyətlər içərisində öz fenomenliyi ilə fərqlənib öndə dayananı ümummilli lider Heydər Əliyevdir. Ümummilli lider adını daşımaq hər kəsə nəsib olmur. Ən azından bu adı doğrultmaq üçün Allahın öz sevimli bəndələrinə göndərdiyi fenomen şəxsiyyətə, fitri istedada, digər liderlərdə təsadüf olunmayan ülvi vətən, xalq sevgisinə malik olmalısan. Bütün bu özünəməxsusluqlar görkəmli ictimai siyasi xadim olmaqla yanaşı, beynəlxalq aləmdə nüfuzlu diplomat, müdrik dövlət başçısı kimi tanınan Ulu öndər Heydər Əliyevdə təcəssüm etmişdi. Bu dövrdə Heydər Əliyevin fəaliyyətinin müxtəlif istiqamətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

I. Yaxın tarixi keçmişmizə nəzər salarkən 1991-ci ilin 18 oktyabr tarixində qəbul edilmiş Konstitusiya aktına əsasən Azərbaycanın sovet rejimindən qurtulmasını siyasi müstəqillik yolunda irəliyə doğru atılmış ilk addım kimi qiymətləndirə bilərik. Tarixən zəngin sərvətləri, əlverişli starteji mövqedə yerləşməsi ilə böyük dövlətlərin diqqətin cəlb edən Azərbaycanın başı üzərində onun siyasi müstəqilliyi ilə barışmaq istəməyən qüvvələr qara bulud topalarına dönərək hələ də asılıb qalmışdılar.

II. Müstəqil Respublika rəhbərliyində təmsil olunanların yürütdüyü naşı və yarıtmaz siyasət ölkəni dibi görünməyən bir uçuruma sürükləməkdə idi. Tarixi Azərbaycan torpağı Qarabağın əksər ərazilərinin qatı düşmənlərimiz olan ermənilərin tapdağı altında inləməsi azmış kimi, digər vətən torpağının bölünməz parçası Naxçıvanın hansı ölkəyə məxsusluğu məsələsinə Moskva və Qars müqavilələri(1921) əsas olmaqla baxılmasına belə cəhdlər göstərilməkdə idi. Belə bir çətin tarixi situasiyada öz xalqını bir yumruq kimi birləşdirib

Azərbaycanın yenicə bərpa olunmuş dövlətçilik ənənələrini qoruyub saxlayacaq, onu müasir tələblərə cavab verəcək səviyyədə demokratik təsisatlar üzərində quracaq fenomen bir siyasi liderə etiyac duyulmaqda idi. O yalnız Ümummilli lider Heydər Əliyev ola bilərdi.

III. Naxçıvana döndükdən sonra ümummilli lider bir çox həlli vacib məsələləri bacarıqla yerinə yetirmişdi. İlk növbədə, Naxçıvana aramsız olaraq yönələn erməni hücumlarının qarşısını almaqla regionda sülhü və əmin-amanlığı təmin etmişdi. Türkiyə, İran və Gürcüstanla diplomatik danışıqlara gedib muxtar respublikanı sosial-iqtisadi blokada məngənəsindən xilas etmiş, Naxçıvan diyarı daxilində siyasi mövqeləri üst-üstə düşməyən qüvvələri vahid bir mərkəzdə cəmləşdirməkə ictimai asayişin sabitliyinə nail olmuşdu. Naxçıvanın MSSR adı üzərindən “sovet sosilist sözlərini” götürməklə və Azər baycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını diyarın əsas atributu olaraq qəbul etdirməklə, onun Azərbaycan üzrə ilk dəfə SSRİ-nin tərkibindən çıxdığını sübuta yetirmişdi. Qısa müddət ərzində Naxçıvan əhalisinin sosial-rifah halının yaxşılaşdırmaqla qədirbilən insanların böyük etimadını qazanmışdı.

IV. Ulu öndərin Naxçıvanda misilsiz işlərə imza atması Azərbaycanın döyünən qəlbi Bakıda da mütərəqqipərvər qüvvələr arasında böyük əks-səda doğurmaqda idi. Elə bunun nəticəsi idi ki, bir qrup ziyalı -91 nəfər olmaqla onu ölkənin xilası naminə israrla hakimiyyətə qaydışa dəvət etmişdilər. Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışını hər vasitə ilə ləngidən mövcud iqtidar isə artıq eyforiya dövründən siyasi tənəzzül dövrünə doğru sürətlə irəliləməkdə idi.

V. 1993-cü ilin iyun ayının 4-də tərəflər arasında baş vermiş silahlı qarşıdurma qardaş qanının axıdılması, günahsız insanların qətlə yetirilməsi ilə nəticələnmişdi. Bu hərbi-siyasi toqquşmada strateji üstünlüyü ələ alan S.Hüseynov öz silahdaşlarını Bakını ələ keçirmək uğurunda savaşa belə səfərbər etmiş, hətta bir çox rayonlarda icra başçılarını devirməklə öz kadrlaranı hakimiyyətə gətirmişdi. Ölkədə vətəndaş müharibəsinin qaçılmaz olmasından son dərəcə narahat olan ümummilli lider həyatını təhlükə qarşısında qoymaqla, mövcud iqtidarın və xalqın Bakıya dönmək barədə israrlı çağırışlarını əsas götürərək paytaxta gəlmişdi. Buradan isə vətəndaş müharibəsinin qarşısını almaq üçün yenidən həyatı üçün böyük riskə getməklə Gəncəyə getmişdi.

Ulu öndər risklə dolu Gəncə səfərinin nəticəsi olaraq fenomen qabiliyyəti, diplomatik səriştəsi hesabına Azərbaycan xalqını vətəndaş müharibəsindən xilas edəcək bir barışığa imza atmışdı. Eyni zamanda qədim Azərbaycan dövləçiliyinin və müasir Azərbaycan dövlətinin xilaskarı, milli qurtuluşun banisi kimi öz adını Vətən tarixinə qızıl hərflərlə həkk etdirmişdir.

## HEYDƏR ƏLİYEV VƏ MÜSTƏQİLLİYƏ DOĞRU BÖYÜK DÖNÜŞ

***Hacıyeva M.C.***

*Sumqayit Dövlət Universiteti*

1969-cu ildə Azərbaycanda hakimiyyətə cavan, təbiətcə enerjili, yaradıcı, islahatçı, zamanın tələbinə uyğun bir şəxsiyyət Heydər Əliyev gəldi. Bununla da, respublikamızda dirçəlişin, tərəqqinin əsası qoyuldu. Elə ilk günlərdən Heydər Əliyev qarşısına qoyduğu

məqsədin əsas istiqamətini müəyyənləşdirdi. Bu istiqamətdə olduqca vacib işlər görmüşdür. Belə ki, Heydər Əliyevin rəhbər kimi fəaliyyəti nəticəsində Azərbaycanın sənaye profili dəyişdi,infrastrukturda islahatlar keçirildi, kənd təsərrüfatı tam modernləşdi. Bakıda, Gəncədə, Sumqayıtda yeni universitetlər açıldı. O dövrdə C.Naxçıvanski adına hərbi məktəbin açılması isə Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğu aydınlaşır və faktın özü elə Heydər Əliyevin nə qədər uzaq görən siyasətçi olduğu insanları heyrətə gətirir. Heydər Əliyev eyni zamanda sənətə, sənətçiyə böyük qayğı göstərmişdi. Bunun nəticəsi idi ki, Qara Qarayev, Fikrət Əmirov, Səttar Bəhlulzadə, Rəsul Rza , Müslüm Maqomayev kimi dünya şöhrətli sənətkarlar yetişdi və onlar Heydər Əliyev siyasəti nəticəsində dünya ictimaiyyəti tərəfindən tanındı.

Milli, mənəvi dəyərlərə sayğı, tarixi abidələrin bərpası və təkmilləşdirilməsi istiqamətində də vacib addımlar atılmışdır. Bu isə milli şüurun formalaşmasında özünüdərk və inamın qaytarılmasında vacib rol oynadı. Belə ki, Heydər Əliyevin rəhbərliyi dövründə Stalin repressiyası nəticəsində adlarının çəkilməsi belə qadağan edilən Hüseyn Cavid, Mikayıl Müşfiq, N.Nərimanov kimi tarixi şəxsiyyətlərin adları xalqın düşüncəsinə qaytardı.

1982-ci ildə Heydər Əliyevin həyatında yeni mərhələ başladı. O SSRİ - nin siyasi rəhbərliyinin ən yüksək pilləsinə yüksəldi. Siyasi büronun üzvü SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək vəzifələr tutdu. Bundan başqa ona bu nəhəng dövlətdə maşınqayırma, yüngül sənaye, nəqliyyat təhsil və incəsənət sahələri tapşırılmışdı. Heydər Əliyev Baykal – Amur Magistralı kimi əsrin nəhəng tikintisinə başçılıq edirdi. Bütün bunlara baxmayaraq, o vətəni bir an olsa da unutmurdu.

1987-ci ildə Heydər Əliyev vəzifədən getmə haqqında istefa ərizəsini yazdıqdan sonra Ermənistanın əl qolu açılmış, Dağlıq Qarabağın Azərbaycandan qoparılıb Ermənistana birləşdirilməsi üçün fəaliyyətlərini gücləndirmişdilər.

Heydər Əliyevin siyasi hakimiyyətdə olmamağından istifadə edən SSRİ rəhbərliyi Azərbaycan xalqına qarşı dəhşətli 20 yanvar faciəsini törətdi. Bu zaman heç kəsin cürət edə bilməyəcəyi addımı Heydər Əliyev atdı. O təzyiq altında olmasına baxmayaraq, Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəldi SSRİ siyasi rəhbərliyini, şəxsən M.S.Qorbaçovun bu siyasətini kəskin tənqid etdi. O, bu kəskin addımı ilə dünya ictimaiyyətinin diqqətini Azərbaycana cəlb edə bildi. Bu çətin, ağır günlərdə xalqına dayaq oldu.

1990-1993-cü illərdə Naxçıvanda siyasi fəaliyyət göstərdiyi müddətdə Azərbaycanın müstəqil bir dövlət kimi sonrakı fəaliyyətinin bir sıra konseptual istiqamətləri məhz bu dövrdə işlənib hazırlnmışdır. İlk dəfə Naxçıvan Muxtar Respublikasının adından “Sovet Sosialist” sözləri çıxarıldı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı, dövlət bayrağı kimi tanındı. 20 yanvar faciəsinə siyasi qiymət verildi. Eyni zamanda 31 Dekabr Dünya Azəbaycanlılarının həmrəylik günü elan edildi.

1993-cü ilin iyun günlərində isə cürbəcür siyasət dəllalarının əməllərindən cana doymuş Azərbaycan xalqı xilaskar ümidi ilə özünün böyük oğlu , mahir siyasətçi Heydər Əliyevə üz tutdu. Çünki 1969-1982-ci illərdə respublikaya rəhbərlik etmiş Heydər Əliyev xalqın etimadını qazanmışdı.

Beləliklə, yenidən müstəqilliyini qazanmış Azərbaycan xalqının həyatında yeni mərhələ başlandı.

# MİLLİ DÖVLƏTÇİLİK KONSEPSİYASI

***Həsənov R.R.***
*AMEA, Fəlsəfə İnistitu*

Keçmiş çar Rusiyasının milli ucqarlarından olan Azərbaycanda müsəlman və türk dünyasının ilk demokratik respublikası yaradıldıqdan sonra bu dövlət az bir zamanda dünyanın bir çox ölkələri, o cümlədən qabaqcıl ölkələr tərəfindən tanınaraq, dünya birliyinin tam hüquqlu üzvü olduğunu sübut etdi. Lakin, bütün bunlar vəhşi iradəli rus bolşeviklərinin və erməni daşnaklarının siyasətinə zidd olan bir siyasət idi. Çünki, bunlar türklərin Qafqazda möhkəm bir mövqe tutmasına heç cür razı olmazdılar. Azərbaycan xalqı istiqlalının itirilməsi ilə heç cür barışa bilmirdi. Çünki xalq dili, dini, adət-ənənələrinin, milli-mənəvi dəyərlərin məhv olması kimi böyük bir təhlükə qarşısında qalmışdı.

Əgər biz dünya tarixinə diqqətlə nəzər yetirmiş olsaq demək olar ki, bütün xalqların milli dövlətə sahib olmaq üçün mübarizə apardıqlarının şahidi olarıq. Şübhəsiz ki bu mübarizədə hər bir xalq özününün nəyə qadir olduğunu nümayiş etdirərək dünya xalqları sırasında öz imzasını qoymağı bacarmışdır. Hər bir xalqın milli dövlət kimi öz varlığını qorumasında, dövlətçilik ənənələrinin inkişaf etdirilməsində, milli-etnik soy kökünə qayıdışında şəxsiyyətin oynadığı əvəzsiz rolu inkar etmək qeyri-mümkündür.

XIX əsrin əvvəllərində Şimali Azərbaycanı işğal etməyə nail olan rusların 1828-ci ildən bu əraziyə ermənilərin köçürülməsi nəticəsində bu xəyanətkar qonşularımız mifik bir anlayış olan "Böyük Ermənistan" xülyasına qapılmağa başladı. Bu mifik ideyanı həyata keçirmək istəyən bu mənfur qonşularımız 1905-1906-cı illərdə və 1918-ci ilin martında xalqımıza qarşı Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və Azərbaycanın başqa regionlarında dəhşətli qırğınlar, kütləvi genosid aktı və soyqırım törətdilər.

İstiqlalımızı əldə etdikdən sonra onun möhkəmləndirilməsi yolunda atılan ən mühüm addımlardan biri də müstəqil Azərbaycan dövlətinin ilk demokratik konstitusiyasının qəbul edilməsi oldu. Demokratik, müstəqil Azərbaycan dövlətinin bərqərar olması xalqımızın həm iqtisadi, həm də mənəvi qələbəsi olmuşdur. Bu gün Azərbaycanın təhsili, mədəniyyəti, ümumiyyətlə, iqtisadi, sosial, mədəni, mənəvi və siyasi həyatının bütün sahələri dünya sivilizasiyasına tam cavab verən bir səviyyədədir. Söykökə qayıdış, millətimizin özünü dərk etməsi, xalqımızın və dövlətimizin sivil bəşəriyyətin birgə yaşayış qaydalırını mənimsəmək prosesi gücləndikcə Azərbaycan xalqının malik olduğu ümumbəşəri mədəniyyətin təntənəsi daha aydın nəzərə çarpır.

Dünyanın ən qədim və mədəni xalqlarından sayılan Azərbaycan xalqının çoxəsrlik mübarizə və qəhrəmanlıqla dolu şərəfli tarixində bir sıra dövlətlər öz qüdrəti, əzəməti ilə nəzərə çarpır. Onlardan bir neçəsi güclü və mədəni dövlətlərdən biri kimi tarixə düşmüşdür. Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində dövlət yaratmağa nail olublar. Lakin, müstəqillik tariximizdə iki dövlət bir çox cəhətlərinə görə əvvəlki dövlətlərdən fərqlənir. Bu dövlətlər nə quldar, nə feodal, nə də müstəmləkə bir dövlətdir. Bu iki dövlət 1918-ci il 28 may tarixində qurulan Azərbaycan Demokratik Cümhuriyyəti və 1991-ci il 18 oktyabr tarixində qurulan Azərbaycan Respublikasıdır.

Əlbəttə, müstəqil dövlət qurmaq, onu daha da möhkəmləndirib inkişaf etdirmək üçün hərtərəfli, savadlı, mədəni şəxsiyyətin yetişdirilib tərbiyə edilməsi də mühüm amillərdəndir. Çünki şəxsiyyətin hərtərəfli inkişafı, cəmiyyətdə insanlar arasında onun rolu, tutduğu mövqe onun dünyagörüşünü formalaşdırır, siyasi, mədəni, əxlaqi və mənəvi, bədii və estetik inkişafı bütün dövrlərdə, zamanlarda olduğu kimi, müasir şəraitdə, müstəqilik illərində də aktuallıq kəsb edir

Demokratik, müstəqil Azərbaycan dövlətinin bərqərar olması xalqımızın həm iqtisadi, həm də mənəvi qələbəsi olmuşdur. Bu gün Azərbaycanın təhsili, mədəniyyəti, ümumiyyətlə, iqtisadi, sosial, mədəni, mənəvi və siyasi həyatının bütün sahələri dünya sivilizasiyasına tam cavab verən bir səviyyədədir. Söykökə qayıdış, millətimizin özünü dərk etməsi, xalqımızın və dövlətimizin sivil bəşəriyyətin birgə yaşayış qaydalırını mənimsəmək prosesi gücləndikcə Azərbaycan xalqının malik olduğu ümumbəşəri mədəniyyətin təntənəsi daha aydın nəzərə çarpır.

Hər bir milli respublikanın suverenliyi və tam müstəqilliyi iqtisadi-sosial sahələrlə yanaşı, onun milli mədəniyyətinin də hər vasitə ilə inkişaf etdirilməsini, bu mədəniyyətin özünəməxsusluğunun qorunub saxlanmasını, xalq ənənələrinin, mərasim və adətlərinin, mənəvi dəyərlərinin dirçəldilməsini və eyni zamanda xarici ölkələrlə mədəni əməkdaşlığı genişləndirməklə bədii və qarşılıqlı yaradıcılıq əlaqələrinin bir daha möhkəmləndirilməsini tələb edir.

Həmçinin onu da qeyd edək ki, milli siyasət hər bir millətin dünya tarixindəki ictimai mövqeyini əks etdirən başlıca sahədir. O, milli məhdudluğa, milli özünəqapılmaya deyil, bir millətin digər millətlərlə qarşılıqlı əlaqələrinin tənzimlənməsinə xidmət edir. Milli siyasət milli hegemonluğu məqbul saya bilməz, eyni zamanda o, hər bir millətin (etnosun, milli azlığın) tarixi mövqeyini, milli-mənəvi hüquqlarını tam şəkildə qorumağa yönəldilir. Milli mədəniyyət milli siyasətin əsaslandığı, istinad etdiyi başlıca istiqamətlərdən biridir. Çünki o, digər sahələrə nisbətən milli psixologiyanı daha dolğun, dürüst və obyektiv əks etdirir. Demokratik cəmiyyət quruculuğunda, milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsində, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsində Ulu öndərin irəli sürdüyü ölməz ideyalar, prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edir.

## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ NÜFUZUNUN YÜKSƏLMƏSİNDƏ ROLU

***Həsənov V.S.***
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Sovet cəmiyyətində ən kütləvi təşkilat olan həmkarlar ittifaqlarının fəaliyyətinin zənginləşməsində ulu öndər Heydər Əliyevin diqqət və qayğısı əhəmiyyətli rola malik olmuşdur. Umummilli liderin 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə Azərbaycan həmkarlar ittifaqlarının 3 qurultayı olmuşdur. 1972-ci il fevralın 8-9-da Azərbaycan həmkarlar ittifaqlarının XIV qurultayı keçirilmişdir. Qurultayın işində əbədiyaşar lider Heydər Əliyev və hökumət üzvləri iştirak etmişlər.

1977-ci il martın 3-4-də Azərbaycan həmkarlar ittifaqlarının XV qurultayı keçirilmişdir. Qurultayın işində Heydər Əliyev başda olmaqla hökumət nümayəndələri iştirak etmişlər. Əbədiyaşar lider "Respublika həmkarlar ittifaqlarının mübariz vəzifələri" mövzusunda geniş nitq söyləmişdir. 1980-ci il oktyabrın 4-də Azərbaycanda sovet həmkarlar ittifaqlarının yaranmasının 60 illiyi münasibətilə təntənəli yığıncaq keçirilmişdir. İclasda Heydər Əliyev çıxış etmiş, Azərbaycan həmkarlar ittifaqlarına Azərbaycan KP MK–nın təbrikini oxumuşdu. 1982-ci il fevralın 5-6-da Azərbaycan həmkarlar ittifaqlarının XVI qurultayı keçirilib. Umummilli lider Heydər Əliyev qurultayda iştirak etmiş "İdarəetmə məktəbi, təsərrüfatçılıq məktəbi" mövzusunda geniş nitq söyləmişdi.Azərbaycan müstəqilliyə nail olduqdan sonra həmkarlar ittifaqlarının işində də əsaslı dəyişikliklər baş verdi. Müstəqillik dövründə həmkarlar ittifaqlarının əməli fəaliyyətində ulu öndər Heydər Əliyevin diqqət və qayğısı mühüm rol oynamışdır.

1993-cü ilin yayında respublikada vəziyyət gərgin olaraq qalırdı. 1993-cü ilin 4 iyun hadisələri vəziyyəti daha da pisləşdirmişdi. Azərbaycan parçalanmaq, bir ölkə kimi, bir dövlət kimi məhv olmaq təhlükəsi qarşısında idi. Azərbaycanda vətəndaş müharibəsi başlamışdı. Əbədiyaşar lider Heydər Əliyevin 1993-cü ilin 15 iyununda Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı ölkəmizi parçalanmaqdan, müstəqilliyimiz, dövlətçiliyimizi itirmək təhlükəsindən xilas etdi. Azərbaycanda başlamış və çox təhlükəli xarakter alan separatçılıq hərəkatlarının qarşısı alındı, Azərbaycan tarixinin milli qurtuluş və həqiqi müstəqillik mərhələsi başlandı.

1991-1992-cü illərdə respublikada baş verən proseslər həmkarlar ittifaqlarının işinə də mənfi təsir göstərmiş, bu təşkilatları da parçalamağa meyillər artmışdı. Belə bir vaxtda, 1993-cü il iyulun 17-də AHİK-in İcraiyyə Komitəsinin "Həmkarlar ittifaqı üzvlərinə, bütün zəhmətkeşlərə" müraciəti olundu. Çoxsaylı üzvlərə malik həmkarlar ittifaqları respublikada yaranmış vəziyyətlə bağlı öz narahatlığını bildirmişdi.1993-cü ildə Azərbaycanın cənub bölgəsində gərgin vəziyyət yaranmış, hakimiyyətə tabe olmamaq fəaliyyəti genişlənmişdi. Heydər Əliyevin respublikanın bütövlüyünü, dövlətçiliyi qorumaq sahəsində yeritdiyi siyasəti müdafiə edən AHİK "Azərbaycan Respublikasının cənub regionunda yaranmış ictimai-siyasi vəziyyətlə əlaqədar bəyanat" qəbul etmişdi. 1993-cü ildə Heydər Əliyevin AR-in prezidentliyinə namizədliyini AHİK də dəstəkləmişdi. 1993-cü ilin sentyabrında AHİK-in İcraiyyə Komitəsinin iclasında respublikamızda prezident seçkiləri haqda məsələ müzakirə olunmuş, AHİK prezident seçkiləri ilə əlaqədar olaraq AR prezidentliyinə Heydər Əliyevin namizədliyinin müdafiə olunması barədə həmkarlar ittifaqları orqanlarının təkliflərini bəyənmiş və sahə həmkarlar ittifaqı respublika komitələrinə müvafiq tədbirlərin həyata keçirilməsini tövsiyə etmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi 1994-cü il fevralın 24-də "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etmişdir. Bu qanun Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən təsdiq edilmişdir. 1994-cü ildə "Həmkarlar ittifaqları haqqında" Qanunun qəbul edilməsi bu təşkilatların səmərəli fəaliyyət göstərməsi üçün hüquqi baza yaradılmasını təmin etdi. 1994-cü il 5 oktyabr dövlət çevrilişi ilə bağlı AHİK Prezident Heydər Əliyevin xalqa müraciətinə həmrəyliklə cavab vermişdir. Bu hadisələrlə bağlı AHİK aparatının işçiləri "Dövlətçiliyimizi qorumaq naminə"

adlı müraciət qəbul etmişdi. Müraciətdə respublikanın paytaxtında baş vermiş hadisələr dövlətçiliyimizə, müstəqilliyimizə zərər vuran hadisə kimi qiymətləndirilmişdi.Heydər Əliyev Azərbaycan həmkarlar ittifaqlarının daimi zəhmətkeşlərin əmək və sosial mənafelərini müdafiə etmək sahəsində fəaliyyətlərini yüksək qiymətləndirmişdir. AHİK-in 1998-ci ilin fevralında keçirilmiş birinci qurultayında həmkarlar ittifaqlarının işinə yüksək qiymət verərək Heydər Əliyev qurultay iştirakçılarına müraciətində əmin olduğunu bildirmişdi ki, "Həmkarlar təşkilatları öz işini yeniləşən cəmiyyətimizin tələblərinə uyğun quracaq, Azərbaycanda müstəqil, demokratik, dünyəvi dövlət quruculuğunda yaxından iştirak edəcəkdir."

1998-ci il prezident seçkilərində AHİK Heydər Əliyevin namizədliyini müdafiə etmişdir. 1998-ci il iyulun 8-də AHİK-də seçicilərin 105 nəfərdən ibarət təşəbbüs qrupu yaradılmışdı. 2003-cü il fevralın 5-6-da AHİK-in II qurultayı keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qurultay iştirakçılarına təbrik məktubu göndərmişdi. Məktubda deyilirdi: "Vətəndaşlarımızın ən böyük ictimai təşkilatı olan həmkarlar ittifaqları yeni cəmiyyət quruculuğunda yaxından iştirak etməli, sosial siyasətin həyata keçirilməsində önəmli rol oynamalıdırlar". Heydər Əliyev əminliklə bildirirdi ki, həmkarlar ittifaqları dövrün tələblərinə uyğun olaraq öz fəaliyyətini yenidən təşkil edəcək. Fevralın 6-da Heydər Əliyev Prezident sarayında AHİK-in II qurultayında iştirak edən xarici həmkarlar ittifaqları təşkilatlarının nümayəndələrini qəbul etmiş və görüşdə "Azərbaycan həmkarlar ittifaqlarının qurultayını ölkənin ictimai-siyasi həyatında mühüm hadisə adlandırmışdı".

Heydər Əliyevin həmkarlar ittifaqlarının işini yüksək qiymətləndirilməsi və onların səmərəli fəaliyyətinə qayğı və diqqətlə yanaşması bu təşkilatların indi də müstəqil Azərbaycanın inkişafına öz sanballı töhfələrini verməsində əhəmiyyətli rol oynayır.

## HEYDƏR ƏLİYEV İRSİNDƏ GƏNCLƏRİN HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ

***Hüseynova L.Ə.***

*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

Heydər Əliyev hakimiyyətdə olduğu hər iki dövrdə azərbaycanlı gənclərin hərbi vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirmişdir. Nəzərə alsaq ki, çar Rusiyası dövründə türk xalqlarının hərbi vətənpərvərlik hissini məhv etmək üçün azərbaycanlı gənclərin hərbi xidmətə çağırılmasını rüsum ödəməklə əvəz etmiş və xalqımızın hərb tarixini unutdurmağa çalışmışdılar. Bu baxımdan gələcəyə köklənmiş uzaqgörən işlər sırasında C. Naxçıvanski adına hərbi məktəbin açılması mühüm əhəmiyyətə malikdir. Maarif Nazirliyi və respublika hərbi komissarlığı Azərbaycan KP MK bürosunun 1971-ci il 29 aprel qərarını əsas götürərək, hərbi təmayüllü internat məktəbinin açılması üçün 1971-ci il iyunun 16-da müraciət hazırlayır. Bu müraciət dərhal müzakirə olunur və 1971-ci il iyulun 20-də "İxtisaslaşdırılmış internat məktəbinin yaradılması haqqında" Azərbaycan KP MK bürosu qərar qəbul edir.

1971-ci ilin noyabr ayında məktəbin açılışı olmuşdur. Heydər Əliyev bu təntənəli mərasimdə iştirak etmiş və bildirmişdir ki, yeni məktəbə diviziya komandiri general Cəmşid Naxçıvanskinin adını veririk. Arxiv materialları içərisində C. Naxçıvanskinin adının əbədiləşdirilməsi haqqında Mərkəzi büronun qərarı bu faktı təsdiq edir. Heydər Əliyev hələ 3 il idi ki, respublikaya rəhbərlik edirdi. Azərbaycanlı gənclərin hərbi təhsil alması məsələsinin vacibliyi onu təxirəsalmaz işlər görməyə vadar etmişdi. Bu, onu göstərir ki, Heydər Əliyev Azərbaycan tarixini gözəl bilirdi və müstəmləkə dövründə xalqımızın hərb sənətinin unutdurulması məsələsinin hansı nəticələr verəcəyini görürdü. Əsası 70-ci illərin əvvəlində qoyulmuş hərbi məktəbin səmərəli nəticələri 30-40 il sonra Azərbaycan ordusunun tam formalaşması ilə özünü göstərdi.

Hərbi vətənpərvərlik tərbiyəsini gücləndirməyin bir istiqaməti də Azərbaycan tarixinin öyrədilməsidir. 70-ci illərdə müttəfiq respublikaların elmlər akademiyaları tarix institutlarının əksəriyyəti öz xalqlarının çoxcildlik tarixini hazırlamağı planlaşdırmışdılar, o cümlədən Azərbaycan EA Rəyasət Heyəti də "Azərbaycan tarixi"nin (9 cilddə) yazılması qərarı ilə Baş redaksiya şurası yaratmış, cildlərin redaksiyaları, müəllifləri artıq fəaliyyətə başlamışdılar. Bu təşəbbüs "ideoloji rəhbərliyi" (ələlxüsus, MK-nın katibi M.A.Suslovu) çox narahat etmişdi. Hətta Sov.İKP Mərkəzi Komitəsində bu məsələ respublika rəhbərlərinin və tarixçilərinin iştirakı ilə müzakirə olunmuşdu. Müzakirədə hər respublikanın fərdi "çoxcildlik" tarixinin əvəzinə regionlar (zonalar) üzrə birgə kitabın yazılması məsləhət görülmüşdü. Bu səbəbdən bir müddət respublikalar üzrə çoxcildlik tarixin yazılması ləngidildi. Ancaq Azərbaycan KP MK birinci katibi Heydər Əliyevin və Qazaxıstan KP MK birinci katibi D.Ə.Kunayevin Moskvaya məktubları sayəsində işə yenidən başlanıldı.

Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu ikinci dövrdə də hərbi vətənpərvərlik işinin gücləndirilməsi məsələlərinə xüsusi diqqət yetirmişdir. O, dəfələrlə hərbi hissələrdə, ön cəbhədə Silahlı Qüvvələrin heyəti ilə görüşmüş, problemlərlə yerində tanış olmuşdur. Heydər Əliyev hərbi sahənin gücləndirilməsi işi ilə yanaşı, şəhid ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması məsələlərini də əsas vəzifə hesab etmişdir. Heydər Əliyev çıxışların birində Vətən təəssübkeşliyinin müqəddəsləyini vurğulayaraq demişdir: “Hamımızın ümumı vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhıdliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir”. •

1994-cü ildə Azərbaycan ərazisinə Ermənistan silahlı qüvvələrinin yeni hücumları ilə əlaqədar güclü ordu yaratmaq üçün bütün qüvvələrin səfərbərliyə alınması vəzifələrinə həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev özəl universitetlərdə təhsil alan gənclərin hərbi xidmətə cəlb olunması məsələsini qaldırdı. Çox keçmədən gənclərin hərbi təhsili zənginləşdirildi, maddi-texniki baza gücləndirildi.

Azərbaycan Milli Ordusunun yaradılmasının 80 və 85 illiyinə həsr olunmuş təntənəli yubiley tədbirləri keçirildi. Bu tədbirlərin keçirilməsi milli qürur, milli qeyrət hissinin aşılanması baxımından əhəmiyyətə malikdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ilin noyabr ayında respublikamızda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilmişdir. Konseptual çıxış

edən Ulu öndər Azərbaycanın hərb tarixindən də bəhs etmiş və dünya azərbaycanlılarının ümumi amal üçün səfərbər edilməsi, xaricdə yaşayan gənclərin də Qarabağ uğrunda fəaliyyət göstərməsinin vacibliyi qeyd olunmuşdur.

## AZƏRBAYCANDA SİYASİ MÜSTƏQİLLİYİN YENİDƏN BƏRPASINDA ÜMUMMİLLI LİDER HEYDƏR ƏLİYEVİN HƏLLEDİCİ ROLU

***Xasayev N.N.***
*Sumqayıt Dövlət Universiteti*

Fərmansız, qılıncsız və qalxansız hökmran olan tarix daim yetişdirib ərsəyə gətirdiyi böyük şəxsiyyətləri ilə özünü cəmiyyətə təqdim edir. Onun siyasi səhnədə görmək istədiyi qaları, əbədiyaşar böyük şəxsiyyətlər isə heç də hər beş ildən, on ildən bir deyil, ən azından yüz ildən bir ilahinin izni ilə dünyaya gəlirlər. Dünyaya gələrkən isə bu fenomen şəxsiyyətlərin qarşısına böyük missiyalar qoyulur. Onlar cahanda çəki-düzən yaratmaq, öz xalqını, dövlətçiliyini yaşatmaqla onları bütün dünyaya tanıtmaq və vətəninin siyasi istiqlaliyyəti yolundakı ən çətin keçilən sədləri sıradan çıxarmaq üçün bu dünyaya göndərilirlər. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də bu qəbildən olub, dünya çapında böyük şəxsiyyətlərin yer aldığı ön sırada təmsil olunmaqdadır.

I. Heydər Əliyev kimi böyük şəxsiyyətlər hər zaman digər liderlərə nümunə, örnək olaraq fərqlənmələri ilə yaddaşlara həkk olunurlar. Əgər biz Ulu öndərin sovet partnomenkulaturası dövründəki siyasi, diplomatik fəaliyyətini izləsək, onun Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə (1969-1982) sosial-siyasi, ticari-iqtisadi, milli-ideoloji və mədəni sferalarda ağlasığmaz uğurlara imza atdığının şahidi olarıq. O, fenomen bir şəxsiyyət olaraq SSRİ-nin süqutu ərəfəsində yeni cəmiyyətə adaptasiya olunmaqla kifayətlənməmiş, hətta xalqının və vətənin azadlığı, siyasi müstəqilliyi naminə demokratik dəyərləri əldə rəhbər tutaraq öndə getməyi özünə mənəvi borc bilmişdi.

II. Ulu Öndər bədxah qonşularımızın şər və böhtanlarını əsas götürən Kremlin siyasi-mənəvi təzyiqlərinə məruz qalanda belə, öz xalqını və vətənini gözləyən təhlükəni daim diqqət mərkəsində saxlamış, onları aradan qaldırmaq üçün yeganə çıxış yolu kimi hamını bir araya gətirməyi məqsədəuyğun hesab etmişdi. Bu məqsədlə 1988-ci ildən başlanğıcını götürmüş "Meydan" hərəkatının təşkilatçısı və tənzimləyicisi rolunda şıxış etmişdi. "Meydan" hərəkatının yüksələrək, milli oyanış hərəkatı xarakteri almaqla bütün bölgələri bürüməsi də bir ictimi-siyasi proses kimi onun tənzimləyici rolundan qaynaqlanmışdı. Milli oyanış hərəkatının bütövləşməsində, hərəkatda daxili münaqişələrin aradan qaldırılmasında, vətəndaş qarşıdurmalarının milli sülhlə əvəz olunmasında da H.Əliyev öz layiqli sözünü deməyi bacarmışdı.

III. Bu dövrdə ümummilli lider Moskvanın Azərbaycanı əldən buraxmamaq üçün hər cür məkrli oyuna getməsini və bu işdə ona "Qarabağ" kartını yenidən gündəmə gətirməklə kömək edən ermənilərin xaricdən yetərincə dəstək alıb1988-ci ilin 27-29 fevral tarixində "Sumqayıt" və 1990-cı ilin "13 yanvar" təqvim günündə isə Bakı hadisələrini qəsdən törətmələrini diqqət və həyəcanla izləməkdə idi. Ə.Vəzirov iqtidarının yürütdüyü plansız, başıpozuq siyasətin ölkədə müxalifətlə i qtidar arasındakı siyasi gərginliyin durmadan

artması ilə müşayiət olunması, bunun isə Moskvanın əvəlcədən planlaşdırdığı kimi, Azərbaycan xalqının bir neçə yerə bölünməsinə gətirib çıxaracağı amillərinin reallaşmağa doğru inkişaf etməsi də bu böyük siyasətçini hər saat, hər an narahat etməkdə idi. 1990-ci ilin yanvar ayının 15-16-da təqvim günlərində Azərbaycan iqtidarının başçısı Ə.Vəzirovun Moskvaya ünvanladığı teleqramlarda Mərkəzin ölkədə sovet üsul-idarəsini devirmək istəyən silahlı qüvvələrə qarşıköməyə çağırması da nəzər-diqqətindən yayınmır, onu xalqını və vətənini gözləyən dəhşətli faciədən xilas etmək üçün yorulmadan mübarizə aparmağa sövq edirdi. Lakin Moskva yanvar ayının 19-u saat 21: 00-da sovet silahlı qüvvələrinə Bakını tutmaq əmrini verib, 131 nəfər günahsız insanın faciəvi ölmünə səbəb olan qanlı yanvar qırğınınına imza atmaqla Azərbaycan xalqını susdurmaqda, SSRİ-nin tərkibindən qopub ayırılmsının qarşısını almaqda israrlı olduğunu bir daha sübuta yetirmişdi. Eyni zamanda özü də bilmədən 1918-ci ilin mart soyqırımını törətməklə Azərbaycan xalqını AXC-ni qurmağa sövq etdirdiyi kimi, 20 yanvar qırğınını törətməklə də yenə də sonunu düşünmədən və istəmədən başsız qalmış xalqı Ümumilli liderin ətrafında birləşdirib, müstəqil Azərbaycan Respublikasını qurmaq üçün son savaşa səfərbər etmişdi.

IV. Ümummilli lider öz müqəddəs planını reallaşdırmaq üçün Azərbaycanın ayrılmaz tərkib hissəsi olan doğma eli Naxçıvana gəlməyə üstünlük verdi. Tezliklə yerli əhalinin istəyi və tələbi ilə Naxçıvan iqtidarının başında dayanan Heydər Əliyev fenomeni qısa bir zamanda həm muxtar respublikanı iqtisadi blokadadan çıxardı, həm diplomatik gedişlər etməklə ermənilərin Naxçıvana olan hücumlarına qəti şəkildə son qoydu, həm də Azərbaycanda siyasi müstəqilliyi möhkəmləndirəcək indiki hakim siyasi partiyanın –Yeni Azərbaycan Partiyasının əsasını qoydu. Fenomen şəxsiyyət bununla kifayətlənməyərək canından əziz bildiyi qədim Naxçıvanın müstəmləkəçi sovetlər birliyini qəbul etmədiyini bütün dünyaya bəyan etmək üçün onun rəsmi adından “sovet sosialist” anlayışlarını çıxarmaqla diyarın Naxçıvan Muxtar Respublikası kimi tanınmasına nail oldu.

Bu mühüm tarixi hadisə Azərbaycanın siyasi müstəqilliyinin Ulu öndərin yürütdüyü diplomatik siyasət nəticəsində ilk dəfə Naxçıvanda elan olunması kimi qiymətləndiriliməlidir. Bununla da o, Azərbaycanın bütövlükdə siyasi müstəqilliyə gedən yolunda örnək və pioner olmaqla, bu çətin yola işıq salıb Azərbaycanın suverenliyinin yenidən bərpasını təsdiq edəcək 1991 il Konstitusiya aktının qəbul edilməsini də sürətləndirmişdi.

## HEYDƏR ƏLİYEV DAİM XALQIMIZIN QƏLBİNDƏDİR

***Xəlilov E.Ş.***
*Sumqayit Dövlət Universiteti*

Tarix yalnız dahi şəxsiyyətlərin nurlu əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunur. Azərbaycan xalqı dünya tarixinə neçə-neçə böyük mütəfəkkirlərlə yanaşı, Cavanşir, Babək, Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Xətai, Nadir şah kimi qüdrətli dövlət xadimləri də bəxş etmişdir.

Əsrlər keçdikdən sonra – XX yüzillikdə xalqımız daha bir dahi şəxsiyyət yetirdi. Dünyanın Atatürk, Vaşinqton, Nehru, De Qoll kimi nadir tarixi simaların sırasında Heydər Əliyev şəxsiyyəti öz layiqli yerini tutdu.

Dünya tarixinin başqa tarixi şəxsiyyətləri kimi, Heydər Əliyev də öz xalqının, doğma Vətəninin müqəddəratının həll olunduğu çox çətin mübarizələrlə, kəskin ziddiyyətlərlə və ağır sınaq məqamları ilə dolu olan bir dövrdə - XX yüzilliyin doğurduğu tarixi şəraitdə yetişmişdir.

Heydər Əliyev XX yüzilliyin son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitində fəaliyyət göstərmiş dahi şəxsiyyətdir. Azərbaycan xalqının yarım əsrdən çox bir dövrü Heydər Əliyev şəxsiyyəti ilə, onun mübarizə yolu ilə, böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. Heydər Əliyev yeni Azərbaycanın qurucusudur. O öz xalqının bağrından qopub gələn Azərbaycanlıdır, öz yurdunun, doğma torpağının misilsiz təəssübkeşidir. Heydər Əliyev öz xalqının dahi oğlu olmaqla yanaşı, həm də dünyanın ən qüdrətli tarixi simaları sırasına yüksəlmiş nadir şəxsiyyətdir, ümumdünya tarixinin azərbaycanlı dahisidir.

Heydər Əliyev fenomeninə, tarixi xidmətlərinə, xilaskarlıq və quruculuq missiyasına müasir dünyanın görkəmli dövlət xadimləri, siyasətçiləri çox yüksək qiymət veriblər. Azərbaycan tarixinin 34 illik dövrü yaddaşlarda məhz Heydər Əliyev epoxası, böyük quruculuq illəri kimi qalıb.

Tarix ulu öndərimiz Heydər Əliyev kimi dahi insanları yüz ildən, bəlkə də min ildən bir yetirir. Onun ölkəmizə rəhbərliyinin bütün dövrlərində Azərbaycanın iqtisadi dirçəlişi, tərəqqisi təmin edilib. Heydər Əliyev olduqca uzaqgörən, iti zəkaya, sağlam və məntiqi düşüncəyə malik bir insan idi. Ulu öndər Azərbaycan tarixində yeni parlaq səhifə açmış nadir şəxsiyyətdir. Bu müdrik insan xalqımızın əsrlərin sınağından çıxmış milli-mənəvi dəyərlərlə yanaşı, bəşəri dəyərlərin də daşıyıcısı idi. Dünyanın məşhur ictimai, siyasi xadimlərinin, dövlət adamlarının Heydər Əliyev haqqında söylədikləri fikirlər xalqımızın bu dahi oğlunun şəxsiyyətinə yüksək qiymətin, göstərilən ehtiram və heyranlğın ifadəsidir. Moskvanın keçmiş meri Yuri Lujkov "Biz Heydər Əliyevin həm öz xalqı üçün, həm də başqa xalqlar üçün gördüyü bütün işləri heç vaxt unutmayacağıq". Amerika tarixçisi O. Aldstad "Bütün güclü şəxsiyyətlər kimi Heydər Əliyev hamını öz arxasınca apara bilir", Türkiyəli professor Yəhya Taşdələn "Heydər bəy bizim başqanımızdır. O, bizim Atatürkümüzdür" – demişlər. Ulu öndərimizin parlaq, təkrarsız şəxsiyyətini səciyyələndirən bu sözlərdən hər bir azərbaycanlı haqlı olaraq hədsiz qürur hissi duyur.

Heydər Əliyev dünyanın nadir, unikal, seçilən siyasət adamı idi. O, dünya siyasətinə təsir etmək gücündə olan lider idi. Liderlər var ki, siaysi fəaliyyət, dövlət idarəetməsi sahəsində uzun illər çalışıb püxtələşdikdən sonra tanınırlar. Elə adamlar da vardır ki, bu, onlarda fitrən mövcuddur, genlərində kodlaşdırılıb, bir sözlə, ilahi vergidir. Buna Allahdan lider deyirlər. Heydər Əliyev məhz ikincilərdəndir. Digər vacib məqam səlahiyyət məsələsidir. Heydər Əliyev tək Azərbaycan səviyyəsində deyil, keçmiş ittifaq səviyyəsində, hətta Qərb miqyasında sözünün keçəri, urvatı olan lider idi. O, beynəlxalq səviyyədə düşünməyi və təhlillər aparmağı bacarırdı. Bu iki məqam onu həmkarlarından əhəmiyyətli dərəcədə fərqləndirən professional cizgilərdəndir.

Heydər Əliyev mahir psixoloq, insan qəlbinin dərin bilicisi idi. Buna görə də onun gələcəyi görmək qabiliyyəti başqalarına, həmkarlarına nisbətən daha güclü idi. Tarixi bəsirət, irəlini görmək nadir bir hissdir. Siyasi xadimlərin heç də hamısında bu hiss olmur. Təbiət bu keyfiyyəti yalnız seçilmiş adamlara- zəmanəsini çox-çox qabaqlayan görkəmli mütəfəkkirlərə verir. Nəhəng siyasətçi Heydər Əliyev kimi. O, analitik düşüncə tərzi ilə, çətin vəziyyətlərdə soyuqqanlılığını saxlamaq məharəti ilə, yüksək intelekti, dünya mədəniyyətinə bələdliyi ilə ətrafdakıları heyrətləndirirdi.

Heydər Əliyev böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətli sözünü deyə bilən nadir siyasətçi idi. Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişatını öncə görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü biruzə vermişdi.

Təsadüfi deyildir ki, onun atdığı addımlar, irəli sürdüyü problemlər, qəbul etdiyi qərarlar, söylədiyi fikirlər öz aktuallığı, düzgünlüyü və obyektivliyi, hər cəhətdən ölçülüb biçildiyindən ətrafdakıları heyrətləndirmiş, siyasət aləminin patriarxı adını qazandırmışdır. Hətta dünyanın ən görkəmli siyasət və dövlət xadimləri Heydər Əliyevlə məsləhətləşdiklərini, ondan öyrəndiklərini dönə-dönə etiraf etmişlər. Siyasətçilər bu dahi insanı "liderlərin lideri" adlandırırdılar. Onun siyasətinin gücü – siyasi uzaqgörənliyində, fitri istedadında, müdrikliyində, ölçüb-biçilmiş qərarlarında, qətiyətliliyində, siyasi iradəsində, dərin zəkasında, ensiklopedik biliyə malik olmasında, geniş dünyagörüşündə, milli maraqlara əsaslanmasında, tarixi şəraitdən düzgün baş çıxartmasında, zaman və məkan amilini qiymətləndirməsində, dözüm və fenomenal şəxsi keyfiyyətlərində idi.

Heydər Əliyev idarəetmənin ustadı, siyasətin kamil bilicisi kimi bütün dünyada məşhur idi. Bu dahi insanın təliminə görə siyasət və uzaqgörənlik qarşılıqlı vəhdətdədir. Ulu öndər deyirdi ki, reallığı düzgün qiymətləndirən, keçmiş təcrübədən yaradıcılıqla istifadə edən sosial-siyasi və iqtisadi problemlərin bütün spektrini, mürəkkəbliyini nəzərə alan, qəbul olunan qərarların mümkün nəticəsini əvvəlcədən görməyə imkan verən siyasi xətt hökmən uğur qazanmalıdır. Belə siyasət cəmiyyətin sabitliyinə, irəliyə doğru hərəkətinə və tərəqqisinə xidmət edir. Heydər Əliyev uzaqgörən və ağıllı siyasətçi kimi nəyi və nə zaman deməyi, hansı addımı nə vaxt atmağı zərgər dəqiqliyi ilə bacarırdı. Ulu öndər qeyd edirdi ki, "biz nazik sapın üstü ilə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun". Onun siyasəti milli maraqlar üzərində qurulmuşdu.

Heydər Əliyev qlobal düşüncəli, geniş dünyagörüşlü nəhəng bir siyasətçi idi. O, realist bir insan olaraq hadisələrə praqmatik yanaşırdı, tarixi şəraitdən düzgün baş çıxarırdı, ölkənin taleyi üçün uğurlu qərarlar qəbul edirdi. Onun ağıllı və uzaqgörən siyasətində hər şeyin öz yeri və vaxtı var idi. O, beynəlxalq aləmdə tarazlaşdırılmış siyasətin , ölçüb-biçilmiş fəaliyyətin ustadı idi. Bu dahi siyasət adamı bütün fəaliyyəti boyu müdrik insan, qətiyyətli rəhbər, xalq məhəbbətini qazanan uzaqgörən siyasətçi və ağıllı dövlət xadimi olduğunu təsdiq etmişdir. İnanmaq çətindir ki, dünyada xalqa bu qədər yaxın ikinci bir siyasətçi olar.

Adətən insanlar zamanın ardınca gedir. Yalnız dahilər zamanı qabaqlayırlar. O, zamanı qabaqlamağa qadir şəxsiyyət idi. Qısa zaman kəsiyində dünyanın nəhəng

dövlətlərinin mənafeyini Azərbaycanda birləşdirdi. Dövlət qurdu, dövlətçiliyi möhkəmləndirdi, vətəndaş cəmiyyətini formalaşdırdı.

Ulu yaradan ona çox şey vermişdi; fenomen yadaşı, dərin təhlil qabiliyyətini, öz xalqına, vətəninə bağlılığı, sadəliyi, dözümü, bəlağətli nitqi, hətta yaraşıqlı boy-buxunu. Və nəhayət tarix yaratmaq bacarığını...

Bu gün ölkəmiz bu siyiasətin uğurlarını hiss edir, onunla yaşayır və faydalanır. Bu siyasətin icraçısı ulu öndərimizin layiqli siyasi varisi cənab İlham Əliyevdir. Onun rəhbərliyi ilə Heydər Əliyev siyasəti yaşayır və uğurla davam etdirilir. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır, gələcəyə istiqamətlənmişdir. Onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqiyə nail olması kimi ağır və taleyüklü məsələlərdə sınaqdan çıxmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırmış, Heydər Əliyev yolunun layiqincə davam etdirildiyinə, memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır. Ulu öndər Heydər Əliyev siyasətinin prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirir və onun ətrafında daha sıx birləşirlər. Cənab İlham Əliyev ulu öndərin siyasi kursunu layiqincə davam etdirməklə, xalqımızın və dövlətçiliyimizin bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin edir. Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsi müstəqilliyimizi möhkəmləndirir, dövlətçiliyimizi qüdrətləndirir və nəticədə beynəlxalq aləmdə Azərbaycan Respublikasının rolunu və nüfuzunu artırır.

## HEYDƏR ƏLİYEVİN HÜQUQİ DÖVLƏT QURMAQ AMALI

***İbrahimov İ.A.***

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

Azərbaycanın müasir tarixini ümummilli liderin fəaliyyətindən kənar təsəvvür etməyin mümkünsüzlüyü ictimai fikirdə qəbul edilən real həyat həqiqətidir-bu həqiqət nəinki Azərbaycanın müasir mövcudluğunda, həm də ona aparan yollarda qarşıya çıxan saysız-hesabsız maneələrin aradan qaldırılmasında Heydər Əliyevin nümayiş etdirdiyi uzaqgörənlikdə, iradə və qətiyyətdə, müdriklik və dərin zəkada təzahür edir. Azərbaycan dövlətçiliyinin müqəddəratı həll edildiyi 1993-cü ildə dünya miqyaslı siyasi dövlət xadimi Heydər Əliyevi yenidən hakimiyyətə dəvət edən Azərbaycan parçalanıb dağılmaq və müstəqilliyini itirmək kimi dəhşətli fəlakətdən xilas oldu-qısa bir müddət ərzində dövlət və hakimiyyət böhranına son qoyuldu, cəbhədə atəşkəs elan edildi və vətəndaş müharibəsinin qarşısı alındı. İqtisadiyyatdakı tənəzzül proseslərinin qarşısını alaraq inkişafa nail olmaq üçün mühüm qanunların qəbul edilməsi, inflyasiyanın uğurlu makroiqtisadi sabitləşdirmə siyasəti nəticəsində cilovlanması, Azərbaycanın misilsiz sərvəti olan neft məsələlərinə böyük əhəmiyyət verərək zəngin neft yataqlarımızın işlənilməsində dünyanın ən qabaqcıl şirkətlərinin bilavasitə iştirakına şərait yaradılması, genişmiqyaslı özəlləşdirmə proqramının

həyata keçirilməsi, investisiyaların həcminin ən yüksək həddə çatması kimi amillər Heydər Əliyevin bazar iqtisadiyyatının bərqərar olmasına və sabit tərəqqisinə yönəlmiş iqtisadi strategiyasının real bəhrələri idi. Ulu öndərin dövlətçilik fəaliyyəti miqyas etibarilə çox geniş olduğundan, əslində, bu fəaliyyəti istənilən halda tam əhatə etmək qeyri-mümkündür. Bu baxımdan konkret olaraq "Heydər Əliyev Azərbaycanda insan hüquq və azadlıqlarının ən böyük təminatçısıdır" fikrini əsaslandırmaq məqsədilə tarixi əhəmiyyət kəsb edən bəzi mühüm faktları bir daha sadalamaq və təhlil etmək yerinə düşərdi. Ölkədə insan hüquq və azadlıqlarının müdafiəsi ümummilli liderin fəaliyyətinin əsas qayəsini təşkil etmişdir. Demokratiya və insan hüquqlarına sadiq olduğunu daim bəyan edən ümummilli lider Heydər Əliyevin Azərbaycan vətəndaşlarının hüquqlarının bərpa edilməsi sahəsindəki siyasəti gələcək nəsillərin yaddaşına ədalətin bərpası kimi həkk olunacaqdır. Müstəqillik əldə etdikdən sonra insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə həyata keçirilən hüquqi islahatların ən mühümü məhz yaşamaq hüququnun təmini istiqamətində həyata keçirilən tədbirlər planı olmuşdur.

Ümummilli liderin həyata keçirdiyi siyasət sayəsində dövlətçiliyimiz möhkəmləndirildi, ictimai-siyasi sabitlik bərqərar oldu, qanunsuzluqlara, zorakılığa, cəzasızlıq əhvali-ruhiyyəsinə son qoyuldu. Vətəndaşlarımız təhlükəsiz yaşamaq hüququ qazandılar. Bütün bunlar demokratik cəmiyyətin qurulmasına, insanların hüquq və azadlıqlarının müdafiəsinə təminat verdi. Çoxəsrlik dövlətçilik ənənələrimizə, milli və ümumbəşəri dəyərlərə söykənərək yaradılan Konstitusiyamız hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu.

Heydər Əliyev hər kəsin hüquqlarına hörmətlə yanaşılmasını, şəxsiyyətin alçaldılması, zorakılıq, işgəncə və bu kimi qeyri-qanuni üsul və vasitələrə yol verilməsi hallarının aradan qaldırılmasını hüquq-mühafizə orqanları qarşısında vacib vəzifə kimi qoymuşdur. Ölkəmizdə demokratiyanın daha da inkişaf etdirilməsi sahəsində görülən tədbirlərin genişləndirilməsi məqsədilə 1998-ci il fevralın 22-də "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzaladı. İnsan hüquqları sahəsində həyata keçiriləcək tədbirlərin istiqaməti və konsepsiyası həmin sənədlə müəyyən edildi və ümumdövlət səviyyəsinə qaldırıldı. Bunun ardınca təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nda Azərbaycanın konkret inkişaf mərhələsinə uyğun olaraq insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması, elmi- tədqiqat institutunun yaradılması, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, mütəxəssislərin hazırlanması, öhdəliklərə əməl edilməsi və digər vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu fundamental sənədlərin fəlsəfəsi ondan ibarətdir ki, hər bir şəxs Konstitusiyada təsbit edilmiş hüquqlarının həyata keçirilməsi üçün bütün imkanlara malik olsun-belə ki, Konstitusiyada bəyan edilmiş hüquqların həyata keçirilməsi üçün bir sıra mühüm qanunlar qəbul olunmuş və çevik hüquqi mexanizmlər müəyyənləşdirilmişdir. Ölkəmizdə insan hüquqlarının qorunması üzrə yeni sistemin yaranmasının parlaq təzahürlərindən biri də "İnsan hüquqları üzrə müvəkkil (ombudsman) haqqında" qanunun qəbul edilməsi oldu. Belə bir hüquqi təsisatın yaradılması qabaqcıl dövlətlərdə tətbiq edilən səmərəli institutların ölkəmizdə fəaliyyət göstərməsinə şərait

yaratdı.

Ümummilli liderin gərgin diplomatik səyləri və şəxsi nüfuzu sayəsində müstəqil respublikamız bir sıra nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən Avropa Şurasına tamhüquqlu üzv qəbul edilmiş və öz beynəlxalq mövqeyini möhkəmləndirmişdir. Heydər Əliyevin xarici siyasəti dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu əsaslar üzərində faydalı əlaqələr qurmağa yönəlmişdir. Bu gün insan hüquq və azadlıqlarına, qanunların aliliyinə hörmət prinsiplərinə prioritet istiqamət kimi müstəsna dəyər verən Azərbaycanın dünyəvi və demokratik dövlət imicinin formalaşmasında ümummilli liderin xidmətləri əvəzsizdir. Ulu öndərin rəhbərliyi dövründə dövlət quruculuğunda, insan hüquq və azadlıqlarının təmin edilməsi yolunda mühüm işlər görülməsi ilə yanaşı, digər istiqamətlərdə də möhtəşəm nailiyyətlər qazanılmışdır. Ən müxtəlif zümrələri əhatə edən, eyni zamanda siyasi müstəvidə baxışlarına görə həmfikir olan vətəndaşların vahid ideologiya ətrafında və mükəmməl konsepsiya əsasında təsisatlanaraq birgə fəaliyyətinin təmin edilməsi ümummilli liderin siyasi qüdrətini özündə ehtiva edən ən mühüm keyfiyyətlərdən biri sayılır. Elə bu səbəbdən də nəticə etibarilə Heydər Əliyevin dövlət idarəetmə səriştəsini daim yüksək qiymətləndirən Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının müəyyənləşdirdiyi siyasi xəttin düzgünlüyünə bir daha şahid oldu. Bu siyasətə fəal dəstəyini sonrakı proseslərdə də əsirgəmədi.

Bu gün Heydər Əliyev siyasi məktəbinin ən layiqli davamçısı cənab İlham Əliyevin həyata keçirdiyi genişmiqyaslı işlərin siyasi aspektdə tədqiqi aşağıdakı nəticələrə gətirib çıxarır: ölkə daxilində düşünülmüş siyasət yürütməklə bütün vətəndaşların, siyasi, ictimai və digər resursların Azərbaycanın müstəqil dövlətçiliyi və ərazi bütövlüyünün qorunması ətrafında səfərbər edilməsi; diplomatik və siyasi imkanlardan istifadə etməklə Azərbaycanın müstəqil dövlətçiliyinə qarşı yönəlmiş təhlükələrin aradan qaldırılması, milli təhlükəsizliyin təmin edilməsi, bölgədə və dünyada müttəfiqlərin qazanılması; beynəlxalq həyatın bir çox probleminin həllinə münasibət bildirmək və özünün iştirak etdiyi regional münaqişəni dünya siyasəti səviyyəsinə qaldırmaq məqsədilə dünyanın aparıcı dövlətləri ilə, beynəlxalq və regional təşkilatlarla, xarici ölkələrdə Azərbaycanın qlobal maraqlarını müdafiə edə biləcək institutlarla, diaspor mərkəzləri və başqa qurumlarla hərtərəfli işin aparılması və s. Müstəqil Azərbaycan dövlətçiliyinin yaradılmasının və inkişafının haqlı olaraq Heydər Əliyev epoxası adlandırıla bilən bu dövrü tarixi sərvət və olduqca qiymətli bir irsdir. Xalqımız bu sərvəti, bu irsi qoruyub saxlamalı, inkişaf etdirməli və nəsildən nəslə çatdırmalıdır.

## DEMOKRATİK DÖVLƏTİMİZİN YARADICISI

***İmamova S.Q.***

*Azərbaycan Texniki Universiteti*

Müasir Azərbaycan tarixi dedikdə, öncə gözümüzün önündə ulu öndər, bütün varlığı ilə bağlanmış Heydər Əliyevin siması canlanır. Ulu öndər də özünün dediyi kimi, azərbaycanlı olması ilə daim fəxr etmiş, ən yüksək kürsülərdə belə bu məhəbbətini etiraf etmişdir.

40 ildən artıq bir dövrdə xalqımızın taleyi Heydər Əliyev şəxsiyyəti ilə, onun quruculuq fəaliyyəti ilə, ölkənin müstəqilliyi və tərəqqisi naminə mübarizəsi ilə bağlıdır.

Azərbaycan xalqı 1991-ci il 18 oktyabrda müstəqilliyini yenidən elan etdi. Azərbaycanda müstəqilliyin elan edilməsi, əslində onun tarixi kökləri üzərində bərqərar olunması demək idi. Müstəqillik elan olunduqdan sonra başlıca və ən vacib vəzifə onu qoruyub saxlamaqdan ibarət idi. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesi heç də asan olmamışdır. 1993-cü ilin may-iyun aylarında Azərbaycanda yaranmış kəskin ictimai-siyasi vəziyyət və mürəkkəb kriminal problemlər ölkəni iflic hala saldı. Ciddi və dərin sosial-iqtisadi və hərbi-siyasi böhran yarandı. Əslində ölkədə vətəndaş müharibəsi başlamış, vətən parçalanma təhlükəsi qarşısında qalmışdı. Belə çətin və məsuliyyətli bir zamanda Azərbaycan xalqının və Azərbaycan ziyalılarının diqqəti görkəmli dövlət xadimi, xalqımızın milli lideri Heydər Əliyevə yönəldi. Azərbaycanı təhlükəli uçurum kənarından yalnız və yalnız dahi şəxsiyyət qurtara bilərdi. Dövləti idarə etməkdə zəngin təcrübəsi olan Heydər Əliyev düşünülmüş siyasi və uzaqgörən diplomatiya ilə çıxış yolları müəyyənləşdirə, Azərbaycan xalqını bu ağır və mürəkkəb vəziyyətdən xilas edə bilərdi.

Heydər Əliyevin Azərbaycana qayıdışı və yenidən hakimiyyətə gəlməsi xalqımızın şərəfli tarixində Milli Qurtuluş günü kimi mühüm rol oynadı.

Heydər Əliyev hakimiyyətə gələn kimi özünün bütün potensial imkanlarından maksimum istifadə edərək, Azərbaycanın başı üstünü almış bütün fəlakətlərdən, vətəndaş müharibəsi və qardaş qırğını təhlükələrindən qısa zamanda xilas edə bildi. Xalq nicatını yalnız Heydər Əliyev diplomatiyasında görməkdə yanılmamışdır.

Tarix boyu elə dühalar yetişib ki, onlara nəinki təmsil etdikləri xalqın taleyində, eləcə də dünya siyasətində olduqca böyük missiyanı həyata keçirmək səadəti nəsib olub. Ümummilli liderimiz Heydər Əliyev də məhz belə tarixi şəxsiyyət, dünya siyasətinin mahir bilicisi olmuşdur. Azərbaycanın müasir tarixinin böyük bir mərhələsi, eləcə də müstəqil dövlətimizin dinamik inkişafı və dünyaya inteqrasiya prosesi onun adı və fəaliyyəti ilə bağlıdır.

Türkiyənin prezidenti Süleyman Dəmirəlin sözləri ilə desək, "Heydər Əliyev Azərbaycanı israrla və demokratik yollarla müstəqil olaraq məqsədinə çatdırmaq üçün canını sipər edib qeyrət göstərən oğuldur". Başqa bir misal: Heydər Əliyevin portretini çəkən dünya şöhrətli rəssam N. Sofronov ulu öndərimizlə tanış olduqdan sonra demişdi ki, belə şəxsiyyət min ildə bir dəfə dünyaya gəlir.

Hələ 1969-cu ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişi milli tariximizdə əsaslı dönüş mərhələsi olmuşdu. Respublikaya rəhbərliyinin ilk günlərindən xalqın sabahını düşünən H.Əliyev Azərbaycanın gələcək inkişafı və müstəqilliyi üçün mühüm təminatlar yaratmışdır. Məhz həmin illərdən etibarən xalqımızın milli mənlik şüuru yüksəlmiş, xalqın həyat səviyyəsinin yaxşılaşması üçün bir sıra mühüm sosial-iqtisadi islahatlar həyata keçirilmiş, Azərbaycan keçmiş Sovetlər Birliyinin ən qabaqcıl respublikaları sırasına daxil olmuşdu. Totalitar rejimin sərt təzyiqlərinə baxmayaraq, ən qlobal problemləri belə məharətlə həll edərək, dahi Heydər Əliyev ölkəmizin siyasi və iqtisadi müstəqilliyi üçün münbit şərait yaratmağa nail olmuşdu. Hələ o vaxtlardan ümummilli liderimizin beynəlxalq aləmdəki, dünya siyasətindəki ad-sanı, şan-şöhrəti həmin dövrün tanınmış siyasətçilərini, bir

sıra təhlilçilərini və politoloqlarını məhz Heydər Əliyevi sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi vəzifəsinə ən layiqli namizəd kimi görmələrinə səbəb olmuşdu.

Sovetlər İttifaqının süqutundan sonra ölkədə xaos, özbaşınalıq kulminasiya həddinə çatdığı bir zamanda yenicə müstəqillik qazanmış respublikamızı parçalamaq, milli dövlətçiliyimizi məhv olmaq təhlükəsindən qurtarmaq üçün Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə ölkəyə rəhbərliyi ikinci dəfə öz üzərinə götürən Heydər Əliyev tarixi xilaskarlıq missiyasını yerinə yetirdi. Böyük öndərin yenidən hakimiyyətə gəlməsi Azərbaycanın tarixinə qızıl hərflərlə yazıldı.

Əgər biz tarixə nəzər salsaq, onun hər hansı bir ömür kitabını diqqətlə vərəqləsək, onda görərik ki, Heydər Əliyev sözün əsl mənasında, ümumxalq məhəbbəti qazanan müdrik el ağsaqqalı, görkəmli dövlət xadimi, böyük diplomatik məharətə malik təcrübəli siyasətçi, Azərbaycan xalqının xilaskarı və müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinin banisi olmuşdur.

## HEYDƏR ƏLİYEV AZƏRBAYCAN DÖVLƏTÇİLİK TARİXİNDƏ QURUCU VƏ YARADICI BİR ŞƏXSİYYƏTDİR

***İsayeva Z.M.***
*Sumqayıt Dövlət Universiteti*

Xalqımızın Ümumimilli Lideri Heydər Əliyev müasir dövlətçiliyin siyasi və iqtisadi əsasını yaradan tarixi şəxsiyyət olmuşdur. Heydər Əliyev nüfuzlu rəhbər kimi çağdaş tariximizdə əbədi yaşarlıq qazanmış bir yaradıcı şəxsiyyətdir. Məhz dünya miqyaslı ictimai -siyasi xadim Heydər Əliyevin fəaliyyəti qətiyyəti möhkəm siyasi iradəsi nəticəsində müasir Azərbaycan dövləti qurulmuşdur .Onu quruculuğu və yaradıcılığı sayəsində ölkə dünya məkanında öz layiqli yerini tutmuşdur. Hələ 1969-cu ildə Azərbaycan Kommunist Partiyasi Mərkəzi Komitəsinin birinci katibi olmuş Heydər Əliyev qısa zamanda öz gərgin əməyi sayəsində Azərbaycanı digər SSRİ respulikaları arasında önə çıxarmışdır.

Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövr minilliklər boyu davam edən dövlətçilik tarixində bir şəxsiyyət kimi əvəzsiz rol oynamışdır. Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter olması dövlətçiliyin möhkəmləndirilməsi milli mənəvi yüksəliş dövrü kimi müasir tariximizə əbədi həkk olunmuşdur. Bu gün Azərbaycanın sosial – iqtisadi, ictimai-mədəni həyatının elə bir sahəsi yoxdur ki, orada Ulu öndərin yaradıcı fəailiyyətinin zərrəsi hiss olunmasın. Heydər Əliyev təkrar olunmaz özünə məxsus keyfiyyətlərə malik dahi şəxsiyyət olmaqla Azərbaycan dövlətciliyinin tarixi-yaradıcısı və qurucusudur. Respublikamızda neft strategiyasının yaradılması və həyata keçirilməsi Heydər Əliyev quruculuğunun və yaradıcılığının bariz nümunəsidir. Xalqımızın əsrlər boyu qazandığı nailiyyətləri ali keyfiyyətləri Heydər Əliyev dövründə təkmilləşdirərək sistem halına saldı. Bunun sayəsində Azərbaycan xalqı dünya xalqları içərisində inkişaf etmiş və tanınmış bir xalq kimi mövcud olmuşdur. Heydər Əliyev nəinki respublikamızın həm də Qafqazın sosial iqtisadi-siyasi həyatında böyük rol oynamışdır. Heydər Əliyev

Azərbaycan Respublikasının müstəqilliyi dövründə bir şəxsiyyət kimi onun sosial -iqtisadi və mədəni həyatına öz siyasi təsirini göstərmişdir.

Heydər Əliyev böyük qüdrət sahibi idi. Qədim yunan filosofları o kəsləri dahi hesab edirdilər ki, onlar heç kəsin görə bilmədiklərini görə bilsinlər. Məhz Heydər Əliyev öz quruculuğu və yaradıcılığı ilə fərqlənən belə dahilərdən idi. Ömrünü xalqımızın firavanlığına həsr edən Heydər Əliyev hakimiyyəti dövründə Azərbaycan dünyada tanınmış nüfuzlu bir dövlətə çevrildi. 1993-ci ildən Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndirilməsi uğrunda mübarizə aparan Heydər Əliyev Azərbaycanın daxili və xarici siyasətini bir şəxsiyyət olaraq inkişaf etdirmiş dünya siyasi arenasında Azərbaycanı müstəqil dövlət kimi tanıtdırmağa can atmışdı. Heydər Əliyev siyasəti müasir dünyamızda inkişaf etmiş dövlətlərlə sosial –iqtisadi, siyas-mədəni həyatımızda böyük rol oynamışdır . 1993-cü ildən 2003-ci ilədək Azərbaycanı dünyanın siyasi arenasında tanıtmağa çalışan Ulu öndərin bu siyasi kursunu prezidentimiz İlham Əliyev cənabları bu gün davam etdirir və gələcəkdə də davam etdirəcək. Biz - Azərbaycan xalqı buna əminik .

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ İNKİŞAFI

***İsmayılzadə S.C.***

*Cəncə Dövlət Universiteti*

Milli dövlətə sahib olmaq əsrlər boyu hər bir xalqın nəyə qadir olduğunu, şərəfli mübarizə yolunu, dünya xalqları sırasında layiqli yer tutmaq əzmını nümayiş etdirmişdir. Bu mənada xalqların qarşıya qoyduğu konkret hədəflərə doğru irəliləməsi prosesində milli dövlətin mövcudluğu vacib şərtlərdən biridir. Yalnız özünü milli etnos kimi dərk edən xalqlar milli dövlət quraraq onun mövcudluğunu qoruyub saxlaya bilmişlər. XX əsrdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət olan Heydər Əliyev də Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında, azərbaycanlıların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini XX əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarında müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurmuşdur. Ümummilli lider məhz həmin illərdə milli-mənəvi dəyərlərin, milli ruhun qorunması, milli kadrların yetişdirilməsi, azərbaycançılıq ideologiyasının sistem halına salınması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirmişdir. Əgər ulu öndər Heydər Əliyevin hələ respublikamıza birinci rəhbərliyi dövründə Azərbaycanın sosial-iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı istiqamətində istər açıq, istərsə də gizli şəraitdə görülən işlər olmasaydı, bu gün Azərbaycanın müstəqil xəttə malik suveren dövlət kimi mövcudluğundan danışmaq çətin olardı. Ötən əsrin sonlarına doğru çoxəsrlik tarixi mücadilənin yekunu kimi dövlətçiliyini bərpa edən, azadlığa qovuşan Azərbaycan xalqının milli inkişaf yolunun və ideologiyasının formalaşması da məhz ulu öndər Heydər Əliyevin müstəqil respublikamıza rəhbərliyi dövrünə təsadüf edir. Bütün ruhu, qanı, canı ilə özünü azərbayanlı sayan umummilli lider cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlər görərək ümümxalq birliyinin dərin politoloji və nəzəri əsaslarını irəli sürdü. Böyük strateq azərbaycançılığın

tarixən formalaşmış ayrı-ayrı komponentlərini vahid sistem və konsepsiya halına gətirərək onu dövlət idarəçiliyinin elmi-nəzəri əsasına çevirdi. Məhz Heydər Əliyev dühasının səyi ilə azərbaycançılıq mahiyyətcə real məzmun daşıyaraq praktikada realizə imkanları qazandı. Ulu öndər daim vurğulayırdı ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Heydər Əliyevin fəlsəfi baxışlarına görə, azərbaycançılıq milli mənsubiyyəti, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Xalqımızın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi və vahid sosium üçün uğurlu təməldir. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" - deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə, cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur. Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində dövlətin qarşısında duran vəzifələri, onların Azərbaycana münasibətdə üzərlərinə düşən mənəvi öhdəlikləri, habelə azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiyadır. Azərbaycançılıq millətindən asılı olmayaraq özünü azərbaycanlı sayan vətəndaşların həmrəyliyi üçün möhkəm istinad mənbəyi, ideoloji bünövrədir. Bu ideologiyanın pozitiv xarakteri həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur. Milli-mənəvi, islami-əxlaqi, dünyəvi-humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyillərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi, ünsiyyət birliyini ahəngdar şəkildə ehtiva edən azərbaycançılıq ideologiyası məhz buna görə də çox müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış diasporumuz üçün də cəlbedicidir.Azərbaycançılığı şərtləndirən ən mühüm amillərdən biri də milli ənənədir. Milli düşüncə sisteminin genetik qaynağı olan azərbaycançılığın inkişaf stimulyatoru da məhz ənənədir. Ənənə uzun əsrlərin sınağından keçərək tarixi təcrübəni yığır, xalqın müdrikliyi, onun mədəniyyəti və s. amillər bu anlayışda ifadə olunur. O, keçmişlə gələcəyi əlaqələndirir, etnokulturoloji mövcudluğu qoruyur. Bu ənənələr xalqın keçdiyi zəngin tarixi yolun mütərəqqi yaşam təcrübəsini özündə qoruyub saxlayır. Deməli, azərbaycançılıq ideologiyası həm də xalqın tarixən tapındığı mütərəqqi ənənələri gələcək nəsillərə ötürən mənəvi körpüdür. Azərbaycançılığın gücü, eyni zamanda fərdi maraq və meyilləri dövlət siyasəti ilə birləşdirmək, xalqın milli-mədəni eyniyyətini qoruyub saxlamaq imkanları ilə ölçülür. Dövlətçilik hisslərinə malik olmayan xalq milli dövlətini inkişaf etdirə bilməz. Bu mənada azərbaycançılıq ideologiyası milləti, xalqı, dövləti qəlbən sevməyi, onun naminə yorulmadan çalışmağı bütün mahiyyəti ilə təşviq edir. Xalqın milli varlığını ifadə edən rəmzlərə, adət-ənənələrə, ali mənəvi dəyərlərə yüksək sədaqət, ana dilinə məhəbbət, bəşəri

ideallara hörmət azərbaycançılığın milli mahiyyətini açmaqla yanaşı, onun humanist səciyyə daşıdığını göstərir. Azərbaycançılığın əsasında yer alan ünsiyyət birliyi isə vahid ana dilimiz vasitəsilə həyata keçirilir. Azərbaycan dili milliliyin ifadə vasitəsi olduğu üçün azərbaycançılıq ideologiyasının komponenti kimi çıxış edir.

## SOVET İMPERİYASININ SÜQUTU DÖVRÜNDƏ HEYDƏR ƏLİYEVİN XALQ HƏRƏKATINA MİLLİ - MƏNƏVİ CƏHƏTDƏN DAYAQ DURMASI

***Kazımov B.Q.***
*Gəncə Dövlət Universiteti*

1969- ildən başlayaraq ümummilli lider Heydər Əliyevin iqtisadi və sosial sahədə apardığı islahatların eyni zamanda Azərbaycan xalqının yarım əsr ərzində məhvə və təqiblərə məruz qalmış zəngin milli mənəvi dəyərlərinində dirçəlişinin və inkişafının əsasını qoyması, ümummilli liderimizin yaratdığı uzunömürlü siyasi ab-havanın sayəsində 1970-80-ci illərdə Azərbaycanda incəsənətin inkişafının böyük vüsət alması, incəsənət xadimlərinin diqqət və qayğı ilə əhatə olunması, elm və maarif sahələrinin inkişafı istiqamətində onun yürütdüyü məqsədyönlü siyasətin çox faydalı nəticələri, imperiya usul-idarəsi ilə gərgin siyasi mübarizələrinin sayəsində Azərbaycanda dini dəyərlərin dirçəlişi və inkişafının həyata keçirməsi, Sovet imperiyasının süqutu dövründə milli azadlıq hərəkatına qalxmış Azərbaycan xalqının 1970-80-ci illərdə həyata keçirilən bir sıra islahatlar nəticəsində qazanmış olduğu, öz mənəvi ruhunun yüksəkliyini və dirçəlişini nümayiş etdirərək baş verən xoşagəlməz hadisələrdən üzüağ çıxmışdır.

Tarix boyu Azərbaycan xalqının mənəvi həyatında misilsiz rol oynaymış, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra isə bərbad hala salınmış məscid, mədrəsə, məktəb-məscid, xanəgah, ribat, pir və sair kimi dini abidələr 1970-ci illərdən başlayaraq əsaslı surətdə təmir edilmiş və Mədəniyyət Nazirliyinin balansına erilərək dövlət tərəfindən mühafizə olunmuşdur.

Heydər Əliyevin xüsusi diqqəti nəticəsində ZMRİ-nin nəzdində Elmi Şura yaradılaraq İslam dini elmi baxımdan araşdırılmağa başlanır. Dini dəyərlərin dirçəlişi prosesində mühüm rol oynamış və Azərbaycan müstəqillik əldə etdikdən sonra respublikanın ən çətin günlərində xalqa sədaqət nümayiş etdirmiş və dayaq durmuş Qafqaz Müsəlman İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadənin 1980-ci ildə ZMRİ-yə sədr seçilməsi Heydər Əliyevin milli mənəvi dəyərlərin dirçəlişi sahəsində apardığı siyasətinin ən parlaq səhifələrindən biri hesab olunmuşdur.

Bakıda həyata keçirilmiş Qanlı Yanvar hadisələrindən dərhal sonra öz alovlu vətəndaşlıq yanğısını daxilində gəzdirən Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib burada keçirilən yığıncaqda çıxış edərək 20 Yanvar faciəsinə siyasi qiymət verməsi artıq artıq sönməkdə olan xalq hərəkatına yeni mənəvi güc gətirmişdir.

Heydər Əliyev o qədər böyük siyasi nüfuza malik bir şəxsiyyət idi ki, M. Qorbaçov SSRI-yə rəhbərlik etməsinə baxmayaraq, onu heç bir sərəncamla tutduğu vəzifələrdən azad

etməyə cəsarət etməmişdir. Yalnız ona və yaxınlarına qarşı aparılan amansız və təhlükəli təqiblərdən sonra Heydər Əliyev 1987-ci ilin yayında öz ərizəsi ilə istefa vermək məcburiyyətində qalmışdır. Heydər Əliyev istefaya getdikdən sonra respublikada ağırlaşan və mürəkkəbləşən siyasi vəziyyət bütün sahələrdə olduğu kimi, mədəni və mənəvi sahəyə də öz mənfi və dağıdıcı təsirini göstərməyə başladı. Heydər Əliyevin istefaya getməsindən istifadə edən ermənilər Azərbaycan xalqının milli mənəvi dəyəri hesab olunan vətəninə və torpaqlarına təcavüz etməyə başladılar. Həmin dövr xalq Heydər Əliyevin 1970-80-ci illərdə apardığı bir sıra islahatlar nəticəsində qazanmış olduğu mənəvi yüksəkliyini və dirçəlişini nümayiş etdirərək, bu xoşagəlməz hadisəni böyük narahatçılıqla qarşıladı. Artıq 1988-ci ildən etibarən mitinq və nümayişlərdə insanların əlində Heydər Əliyevin portretləri görünməyə başlandı. Bu, təbii hal idi və heç bir qüvvə Heydər Əliyevin şöhrət və məhəbbətini xalqın ürəyindən silib ata bilməzdi. Heydər Əliyevin yenidən respublikaya qayıtması üçün üzləşdiyi problemlərdən qurtarması tələbi ilə respublikanın əksər bölgələrində mitinqlər keçirilməyə başlandı.

1987-ci ildən Azərbaycan xalqının başına gətirilən faciələrə qarşı öz alovlu vətəndaşlıq yanğısını daxilində gəzdirən Heydər Əliyev 20 Yanvar faciəsindən dərhal sonra, yəni yanvarın 21-də ona qarşı gözlənilən bütün təzyiqlərə və təqiblərə məhəl qoymayaraq böyük bir mənəvi cəsarət və hünərlə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib burada keçirilən yığıncaqda çıxış edərək bu ağır günlərdə öz xalqı ilə olduğunu bildirdi. O, öz çıxışında bütün dünya ictimaiyyəti qarşısında 20 Yanvar faciəsinə siyasi qiymət verdi, Moskvanın demokratik prinsipləri kobudcasına pozduğunu, respublika rəhbərliyinin faciədə bilavasitə gunahkar olduğunu bəyan etdi. Heydər Əliyevin tarixi əhəmiyyət kəsb edən bu çıxışı mənəvi cəhətdən sarsılmaqda olan xalq hərəkatına yeni, daha güclü bir mənəvi ruh bəxş etdi.

## AZƏRBAYCANDA KİMYA SƏNAYESİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN TARİXİ ROLU

***Kərmili A.S., Əliyev Ş.T.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan iqtisadiyyatının inkişaf tarixinin təhlili göstərir ki, kimya sənayesinin formalaşması və inkişafı bilavasitə neft sənayesi ilə bağlı olmuşdur. Hələ XIX əsrin sonlarında və XX əsrin əvvəllərində Bakıda neft bumu ilə əlaqədar olaraq neftemalı müəssisələrinin yaradılması, kimya məhsullarının istehsalı ilə bağlı sexlərin təşkili sürətlənmişdi. XX əsrin 30-cu illərində keçmiş SSRİ-də ilk dəfə olaraq, Azərbaycanda yod istehsal edən kimya müəssisəsi istifadəyə verilmişdir və bu əsasən hərbi sənaye üçün vacib məhsullardan hesab olunurdu. 1950-ci illərdən başlayaraq, kimya sənayesinin inkişafı ilə əlaqədar olaraq Sumqayıt şəhərində kimya sənaye mərkəzinin formalaşdırılması prosesləri intensivləşmişdir. Lakin, həmin dövrdə istismara verilən müəssisələrin demək olar ki, əksəriyyəti xammalyönlü müəssisələr idi və Azərbaycanın payına xammal istehsal etmək düşürdü, bu xammallar əsasında isə SSRİ-in digər şəhərlərində hazır məhsul alırdılar və emal müəssisələri fəaliyyət göstərirdi.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana başçılıq etdiyi dövrdə, xüsusilə 1970-1980-ci illərdə kimya sənayesinin yenidən qurulması, o dövrün texnologiyalarına uyğun olaraq modernizasiya edilməsi və yeni emal təyinatlı kimya zavodlarının və kombinatlarının yaradılması, inkişaf etdiriməsi təmin edilmişdir. Həmin illərdə Sumqayıt kimya kompleksində bir-birinin ardınca emal sahələrinin yaradılması tədbirləri görülmüşdür və nəticədə əksər kimya məhsullarının istehsalı üzrə məhsuldarlıq və istehsalın həcmi 2-3 dəfə artırılmışdır. Ulu öndər özü şəxsən kimya müəssisələrini gəzir, mərkəzi dövlət orqanlarının məsul şəxslərini – Moskvadan dəvət edərək bu müəssisələrə aparır və onların yenidən qurulmasının vacibliyini, daha yüksək standartlara malik istehsal və emal sahələrinin yaradılmasını əsaslandırıdı. Heydər Əliyevin tarixi xidmətlərindən biri də Sumqayıt sənaye mərkəzində unikal "EP-300" qurğusunun tikintisinə nail olmasıdır. Əvvəlcədən qeyd edək ki, bu nəhəng və çoxfunksiyalı kimya kompleksi-qurğusu hazırda ölkəmizin kimya sənayesinin əsasını təşkil edir. Bu qurğunun ərsəyə gətirilməsi üçün dahi zəkaya malik olan Heydər Əliyev Moskvadan SSRİ hökumətinin bir sıra rəhbər şəxslərini Azərbaycana dəvət edərək, onları Sumqayıta aparmış və belə bir nəhəng kompleksin burada tikintisinin planlaşdırılmasına, bunun üçün iri kapital qoyuluşunun ayrılmasına nail olmuşdur. Hətta sonralar SSRİ Nazirlər Soveti Sədrinin I müavini vəzifəsində işlədiyi dövrlərdə belə, Heydər Əliyev "EP-300" qurğusunun tikintisi ilə bağlı məsələləri öz nəzarətində saxlamış və bu qurğunun tikintisinin başa çatdırılmasına mane olan quvvələrin qarşısında canlı sipər kimi dayanmış və həmin qurğunun istismara verilməsini pozmaq, ləngitmək istəyən dairələrin planlarını pozmuşdur. Nəhayət, 1988-ci ildə "EP-300" qurğusu istismara verilmiş və bu vaxta kimi də uğurla səmərəli şəkidlə fəaliyyət göstərməkdədir.

1993-cü illərin ortalarında ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra, ölkədə illərlə üst-üstə yığılmış siyasi və sosial-iqtisadi problemləri bir-birinin ardınca qətiyyətlə və kompleks şəkildə həll etməyə başlayan Heydər Əliyev kimya sənayesinin dözülməz vəziyyətə düşməsinə də biganə qalmamışdır. Həmin dövrdə bu sənaye sahəsinin müəssisələrinin əksəriyyəti öz potensiallarının cuzi bir hissəsinindən istifadə edirdilər, bir çox iri qurğular xammal olmaması səbəbindən dayanmışdılar, həmçinin enerjidaşıyıcılarla təminat problemləri ortaya çıxmışdı. Ölkədə çoxsaylı problemlərin olmasına baxmayaraq, ulu öndər Sumqayıt kimya kompleksinin fəaliyyətinin gücləndirilməsi üçün geniş həcmli tədbirlər görməyə müvəffəq olmuşdur. Məhz ulu öndərin təşəbbüsü və dəstəyi nəticəsində Yaponiyadan "Buxar-Generator Qurğusu"nun alınması və "EP-300" qurğusunun və digər iri kimya qurğularının sabit fəaliyyəti təmin edilmişdir. Həmin qurğu üçün xarici banklardan alınmış iri məbləğli kreditə Azərbaycan dövləti tərəfindən xüsusi zəmanət verilmişdir. Bütün bunların nəticəsində, kimya kompleksinin yenidən qurulması və modernizasiya edilməsi tədbirlərinə başlamaq üçün əsaslı zəmin yaradılmışdır.

Ulu öndər Heydər Əliyevin strateji baxışları və təşəbbüsləri nəticəsində istehsal və inkişaf potensialını qoruyub saxlaya bilmiş kimya sənayesi hazırda ölkəmizin ən güclü istehsal və ixrac imkanlarına malik olan qeyri-neft sənayesi sahəsidir. Bu müdrik iqtisadi siyasətin uğurlu davamçısı İlham Əliyevin dəstəyi və qayğısı nəticəsində ölkədə kimya sənayesinin müasir texnologiyalar əsasında inkişaf etdirilməsi, əlavə dəyər yaratmaq qabiliyyətinə malik olan emal sahələrinin yaradılması istiqamətində kompleks tədbirlər

görülməkdədir. Ölkə Prezidenti İlham Əliyev ulu öndərin yolu ilə gedərək, dəfələrlə kimya müəssisələrində olmuş, bu müəssisələrin yenidən qurulması problemləri ilə yerində tanış olmuş, sahənin mütəxəssisələri ilə görüşmüş, bu sahənin inkiaşfına dair müvafiq fərmanlar və sərəncamlar vermiş, maliyyə vəsaitlərinin ayrılmasını tapşırmışdır. Bu sistemli və ardıcıl tədbirlər nəticəsində çoxfunksiyalı fəaliyyət prinsiplərinə və mexanizmlərinə malik olan Sumqayıt Kimya Sənaye Parkı yaradılmışdır. Hazırda bu nəhəng Parkda rezidentlərin sayı 10-u keçmişdir və yatırılan investisiyaların ümumi məbləği iki milyard manatdan çoxdur. Güclü ixrac potensialına malik olan və üzvi kənd təsərrüfatı gübrələri istehsal edəcək Karbamid zavodu istismara verilmək ərəfəsindədir. Tikilməkdə olan digər iri kimya kompleksində - SOCAR Polimerdə isə geniş çeşiddə polimer məhsulları istehsal olunacaqdır. Bütün bunlar, ulu öndər Heydər Əliyevin uzaqgörən iqtisadi siyasətinin nəticəsində mümkün olmuşdur.

## AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI VƏ GƏNCLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ

***Kərimli A.T.***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ağcabədi filialı)*

Vətən amalı və azərbaycançılıq ideologiyası vətənpərvərlik anlayışı ilə əlaqədardır. Mütəfəkkirlərə görə vətənpərvərlik bir-biri ilə vəhdətdə olan üç komponentdən ibarətdir: "Vətənpərvər münasibət, vətənpərvərlik şüuru və vətənpərvərlik fəaliyyəti. Vətənpərvər münasibət insanın vətənin faydası üçün lazım olan fəaliyyəti həyata keçirmək niyyəti, həmçinin, ölkəsinin maddi-mənəvi sərvətlərinə daxili pozitiv münasibətidir. Vətənpərvərlik şüuru vətənpərvərlik obyekti ilə vətənpərvərin qarşılıqlı təsirinin bütün növlərinin mənəvi tənzimləyicisi, onun şüurunun daxili determinantıdır. Vətənpərvərlik fəaliyyəti isə vətənpərvərliyin real hiss olunan və görünən tərəfləridir."

Azərbaycançılıq ideyası Azərbaycanın müstəqilliyini qorumaq, demokratik inkişafı təmin etməklə bərabər, davakar millətçilik və şovinizmə qarşı təşəkkül tapmış ideologiyadır. Azərbaycançılıq ideyasının kökündə millətçilik yox, vətəndaşlıq dəyəri dayanıb. Bu ideyanın məqsədi çoxmillətli Azərbaycan xalqının birləşməsi və demokratik yolla inkişaf etməsinə zəmin yaradan dəyərlər sistemini formalaşdırmaqdır.

Vətən təəssübkeşliyi, vətənçilik əxlaqı, vətənpərvərlik milli qürur və milli ləyaqət hissilə vəhdətdə azərbaycançılığın özəyini təşkil edir.

Çoxmillətli Azərbaycan xalqını birləşdirən azərbaycançılıq ideyası müstəqilliyin qorunmasına, demokratik inkişafa və hüquqi, sosial dövlətin qurulmasına xidmət edir. Ümumilli lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan parlamentindəki çıxışında demişdir: "Azərbaycan ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır. Əgər biz bunu əməli surətdə həyata keçirə bilsək, Azərbaycan Respublikasında olan bütün xalqların, bütün millətlərin tam birləşməsini təmin edə bilərik". Bununla Ulu öndər Azərbaycanda hakimiyyətin mövqeyini əks etdirən azərbaycançılıq ideyasının əsaslarını bəyan etmişdir.

Lakin azərbaycançılıq Azərbaycanın ərazisində yaşayan xalqın həmrəyliyi ilə məhdudlaşmır. Bu ideologiya davakar millətçiliyi inkar etməklə bərabər, Azərbaycanın müstəqilliyini arzulayan, onun güclənməsini istəyən insanları birləşdirir. Azərbaycançılıq ideologiyası Azərbaycan cəmiyyətində milli birliyi və ümumxalq münasibətlərini qorumaq, millətin və onun dövlətinin mövqeyini izah, təsdiq və inkişaf etdirmək məqsədini daşıyır.

Azərbaycançılıq milli-mənəvi varlığının ilkin əlamətlərini, xalqın kimliyini əks etdirən, milli təfəkkürünü birləşdirən dəyərlər sistemidir. Bu dəyərləri cəmləşdirən dil, ərazi, vətəndaşlıq, adət-ənənə və ideoloji birlik azərbaycançılıq ideologiyasının əhatə dairəsini sərhədsiz edir. Azərbaycandan kənarda yaşayan soydaşlarımızla yanaşı, milliyyətindən asılı olmayaraq Azərbaycanın müstəqilliyini, birliyini və hüquqi, demokratik dövlət kimi inkişafını arzulayan hər bir kəs azərbaycançılıq ideologiyasının daşıyıcısıdır.

Azərbaycançılıq milli dövlət ideologiyası kimi Konstitusiya əsaslarına söykənən, insanlarda vətəndaşlıq, vətənpərvərlik, loyallıq və vətəndaş məsuliyyətini formalaşdıran, Azərbaycanın müstəqilliyinə, onun hüquqi və demokratik dövlət kimi inkişafına və milli təhlükəsizliyinin qorunmasına xidmət edən dəyərlər sistemidir.

Ulu Öndər Heydər Əliyev milli vətənpərvərlik haqqında müdrik sözlər demişdir: "Milli vətənpərvərlik prinsipi gərək körpəlikdən başlayaraq hər bir vətəndaşın həyat prinsipi, həyat "qanunu, nizamnaməsi olsun."

Ulu Öndər vətənpərvərliyi, vətəndaşlıq duyğusunu xalqın, vətənin taleyinin tərkib hissəsi hesab edirdi. Dahi şəxsiyyətin azərbaycançılıq ideyasının güclənməsində, onun etnik-milli müstəvidən dövlətçilik və vətənpərvərlik müstəvisinə keçirilməsində müstəsna rolu oldu.

Heydər Əliyev vətənpərvərliyə və dövlətçiliyə əsaslanan azərbaycançılığı qurdu, yaratdı, təşkil etdi, eyni zamanda, "əməli surətdə həyata keçirdi".

Ulu Öndər respublika rəhbərliyinə gəldiyi ilk dövrlərdən gənclərin himayədarı kimi çıxış edərək sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində misilsiz işlər görmüşdür. Hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq gənclər siyasəti ilə bağlı bir cox fərman və sərəncamlar imzalayan ulu öndər gənclərin milli və vətənpərvər ruhda tərbiyəsinə həmişə önəm vermişdir. Heydər Əliyev nitqlərinin birində bu barədə demişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik".

## HEYDƏR ƏLİYEV AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ BANİSİDİR

***Kərimli T.M.***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ağcabədi filialı)*

Milli ideologiyadan, azərbaycançılıq ideologiyasından danışarkən, Ulu Öndər Heydər Əliyev hər bir azərbaycanlının vətənpərvərlik hissləri ilə yaşamasını daim önə çəkirdi. O, hər zaman xalqını düşünərək qeyd edirdi: "Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o

qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından - hər şeydən üstün tutsun."

Müasirlik meyarlarından yanaşılsa, vətənpərvərlik Heydər Əliyevin ictimai görüşlərində, hər şeydən əvvəl real gerçəkliyin fərqli cəhətlərini özündə ehtiva edən anlayış kimi açılır, vətənpərvərlik vətən anlayışının mahiyyəti ilə vəhdətdə götürülür. Vətənpərvərlik vətənə məhəbbət, əcdadların ənənələrinə hörmət deməkdir. Bu mənada, bölünməz vətənpərvərlik hissi ilə vətənpərvərlik şüuru bir-birilə dialektik vəhdətdə çıxış edir. Vətənpərvərlik şüuru özündə keyfiyyətcə yeni cəhətləri daşıyan fenomendir, belə ki, onun məzmununda coğrafi, sosial və mədəni mühitlə bərabər yeni keyfiyyətli dövlət quruluşunu, idarəetmə formalarını, demokratiyanın inkişaf səviyyəsini, real siyasəti ehtiva edən siyasi mühit anlayışını daşıyır. Özündə bu komponentləri daşıyan vətənpərvərlik anlayışı, bütövlükdə, yüksək mənəvi-əxlaqi dəyər kimi Heydər Əliyevin fəlsəfi görüşlərində milli ideyanın tərkib elementi kimi təqdim olunur. Şəxsiyyətin şüurunda vətən anlayışı tədricən siyasi çalarlar kəsb etmiş, vətən haqqında bilikləri, onun tarixi, ovqatı, ənənələri, hissləri, emosiyaları, vətənpərvərlik davranış normalarını və mülahizələri əks etdirmişdir. Məhz bu keyfiyyətlər sayəsində vətənpərvərlik şüuru inteqral mənəvi fenomen kimi çıxış edir, vətənin müdafiəsi kimi anlayışın məzmununu müəyyənləşdirir. Vətənpərvərlik şüuru özü müstəqil siyasi-əxlaqi dəyər olmaqla vətənin sosial dəyərlərinə münasibətdə müəyyən meyar rolunu oynayır, şəxsiyyətin ətraf hadisələrə dəyər yönümlərini formalaşdırır.

Heydər Əliyev vətənpərvərlik fəaliyyəti deyərkən, onu vətənin, milli varlığın, mütərəqqi inkişafın, xarici və daxili təkmilləşmə prosesi zamanın uzun sosiomədəni keyfiyyətlərinə məruz qalaraq bu gün azərbaycanlıların bir millət kimi dünya sivilizasiyasında özünəlayiq yer tutması barədə düşüncəsini əsaslandırmağa obyektiv əsas vermişdir.

Vətənpərvərliyə və dövlətçiliyə söykənən azərbaycançılıq məhz Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin bərpası zamanı ölkəyə ikinci dəfə rəhbərliyə qayıdışından sonra milli bütövlüyümüzün təcəssümü olan milli ideologiya kimi formalaşdı, gerçəkləşdi və səfərbəredici fenomenə çevrildi.

2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi milli həmrəyliyimizin nümayişinin parlaq təzahürü oldu. Ümummilli lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı Sərəncama əsasən, keçirilmiş bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi üçün şərait yaratmışdır.

Heydər Əliyevin azərbaycançılıq nəzəriyyəsinin mühüm metodoloji əhəmiyyəti bundadır ki, o, tarixi varisilik prinsipindən yaradıcıqla istifadə edir, bunun milli məfkurəmizin, düşüncə tərzinin, millətin irsində vətənçilik ideologiyasının formalaşmasının mənbəyi hesab edir. Demokratik, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu yolu ilə gedən Azərbaycan və bütün azərbaycanlılar Ulu Öndərin layiqli siyasi varisi ölkə Prezidenti İlham Əliyevin ətrafında birləşərək, milli azərbaycançılıq və vətənpərvərliyin vəhdəti şəraitində müstəqilliyini daha da möhkəmləndirir. Bu gün cənab İlham Əliyevin rəhbərlik

etdiyi suveren Azərbaycan sülhsevər daxili və xarici siyasət strategiyasını həyata keçirir. Hazırda bu müdrik siyasət sayəsində Azərbaycan 140-dan çox ölkə ilə diplomatik əlaqə yaratmışdır. Azərbaycanlıları artıq dünya miqyasında öz sivilizasiyasını və mədəniyyətini yaradan xalq kimi tanıyırlar. Sülhsevər xalqımız öz Prezidenti ətrafında birləşərək, əzmlə müstəqilliyini möhkəmlətmək arzusu ilə yaşayıb-yaradır, çünki ölkəmizdə demokratik inkişaf üçün zəruri olan təsisatlar və hüquqi baza yaradılmışdır.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ İNKİŞAFI

***Qasımova N.N.***
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

Azərbaycan xalqının tarixi müqəddəratının müəyyənləşməsində Azərbaycanın geosiyasi mövqeyi, milli ideologiyası mühüm rol oynayıb. Azərbaycanda tarix boyu müxtəlif xalqlar və mədəniyyətlər arasında qarşılıqlı əlaqələr mövcud olub, Azərbaycanın və Azərbaycan xalqının təbii-tarixi təşəkkülünün tərkib hissəsi olan bu prosesdə onun hər bir iştirakçısı nadir mədəniyyətin sahibinə çevrilib: "Azərbaycanlılar" və "Azərbaycançılıq", milli ideyalar altında qəbul etdiyimiz vahid birliyin özülü qoyulub və onun tərkibinə aparıcı türk amili ilə yanaşı, ölkəmizdə məskunlaşmış bütün millətlər də daxil olub. Qeyd olunmalıdır ki, etnosların tərkib hissələri, onların maddi və mənəvi mədəniyyət sahəsindəki özünə xas milli ideyaları itmir, sadəcə müəyyən dəyişikliyə məruz qalır, inkişaf edir, inteqrasiyaya uğrayır.

Sovet dövrünün sonrakı illərində də milli ideologiya sahəsində kobud əyintilərə yol verildi. 60-cı illərin sonu, 80-ci illərin əvvəllərində Sovet rejiminin hökm sürməsinə baxmayaraq, Azərbaycan xalqının etnik inkişafı və azərbaycançılıq ideyası üçün geniş perspektivlər açıldı. 1978-ci ildə qəbul edilən Azərbaycan Sovet Konstitusiyasına görə Azərbaycan dilinə "dövlət dili" statusunun verilməsi haqqında ayrıca maddənin olması milli dəyərlərin qorunub saxlanmasına və inkişafına böyük imkanlar açdı. Bəlkə də bu milli ideologiyanın, Azərbaycançılıq ideyasının başlanğıc nöqtəsi kimi bütün azərbaycanlıların uğuru idi.

1991-ci il oktyabrın 18-də Azərbaycanda dövlət müstəqilliyi qəbul olunduqdan sonra xalqın taleyində özünəqayıdış və özünüdərk meylləri gücləndi. Milli mənlik, milli ideologiya şüurunun inkişafında yeni dövr başlandı. Milli dəyərlərin inkişafı üçün geniş şərait yarandı. Stereotip baxışlara, yeksənəq fikirlərə son qoyuldu. Bu sahədə fikir müxtəlifliyi olsa da, vətəndaş cəmiyyətinə, hüquqi dövlətin prinsiplərinə zidd deyildi. Məhz hüquqi və demokratik dövlət kimi Azərbaycanda milli ideologiyanın və dövlətçiliyin inkişafı üçün mühüm addımlar atıldı. Xalqın milli mədəniyyətinə, tarixinə, adət-ənənələrinə dövlət qayğısı artdı. Milli ideologiyanın inkişafına mane olan hallara, milli qarşıdurma cəhdlərinə son qoyuldu. İnsanpərvərlik ideyalarına yad olan ünsürlərin qarşısının alınması və cəmiyyətin mənəvi əsaslarının qorunması dayaqları dövlətin əsas vəzifələrindən biri kimi möhkəmləndi.

Ümummilli Lider Heydər Əliyevin müvafiq sərəncamı ilə Bakı şəhərində keçirilmiş Dünya Azərbaycanlılarının I qurultayı birliyə nail olunmasında mühüm əhəmiyyət kəsb

etdi. Qurultay xaricdə yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında birləşərək təşkilatlanması istiqamətində yeni mərhələnin başlanğıcını qoydu. Vaxtilə "Bizim üçün bir tarixi amil-azərbaycançılıq ideologiyası var" deyən Ulu Öndər Heydər Əliyevin qənaətincə, bu, Azərbaycan insanının dövlətçilik düşüncəsinin əsasını təşkil edən milli, mənəvi, mədəni, ədəbi, tarixi, siyasi, iqtisadi dəyərlər sisteminin ümumiləşdirilmiş məcmusudur. Ulu Öndər Heydər Əliyev bildirmişdir ki, "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq... Azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq, daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olmalıdırlar. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olub. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

Heydər Əliyevdən sonra azərbaycançılıq ideologiyasının Heydər Əliyev dövrü davam edir. Azərbaycan prezidenti, Azərbaycan xalqının yeni lideri İlham Əliyev azərbaycançılıq metafizikasının inkişafı üçün üç məqama, fikrimizcə, daha çox önəm verməkdədir:

1. Azərbaycanı iqtisadi, ictimai və mədəni inkişafına görə dünyanın nüfuzlu ölkələri səviyyəsinə qaldırmaqla Azərbaycan insanına zaman- zaman təlqin edilmiş ikinci, üçüncü... dərəcəlilik kompleksini aradan qaldırmaq.

2. Vətənpərvərlik hisslərini gücləndirməklə xalqın tarixi ideallarının tam miyqasda həyata keçirilməsi üçün mənəvi potensiya hazırlamaq.

3. Və nəhayət, azərbaycançılığı müdafiə olunan hadisədən hücum edən hadisəyə çevirmək.

Prezident İlham Əliyevin milli dövlət quruculuğu, Azərbaycanın demokratik inkişafı məsələləri barədə mövqeyi tarixi məntiqə, dünya təcrübəsinə, səmərəli siyasətə, ən başlıcası isə Azərbaycanın milli maraqlarına söykənən milli ideyanın gerçəkləşməsinin nəzərə alınmasına əsaslanır. Cəmiyyətin bu dərk edilmiş obyektiv tələbatı onun milli dəyərlərindən irəli gəlir və dövlətin qorunub saxlanmasına, onun mövcudluğu və mütərəqqi inkişafı üçün əlverişli şərait yaradılmasına yönəlmişdir. Milli maraqlara və inkişaf strategiyasının mahiyyətinə xalqın əksəriyyətinin həmrəy münasibətinə əsaslanan demokratiya daha səmərəlidir və hər bir yeni müstəqil dövlət üçün nümunə ola bilər.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA ORDU QURUCULUĞU

***Qasımov Ə.Q.***
*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

Hər bir dövlətin mövcudluğu onun müstəqilliyinin dönməzliyi, güclü iqtisadiyyatı ilə yanaşı, həm də yenilməz ordusu ilə səciyyələnir. Müstəqilliyini yenicə qazanmış, lakin müdafiə və təhlükəsizlik sistemi zəif olan Azərbaycan dövləti qarşısında duran mühüm

vəzifələr sırasında silahlı qüvvələrin yaradılması və inkişafı xüsusi yer tuturdu. Fəqət müstəqilliyimizin ilk illərində ölkədə yaranmış mürəkkəb ictimai-siyasi və hərbi vəziyyət ordu quruculuğuna da öz mənfi təsirini göstərmişdir. 1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması barədə qərar və həmin il oktyabrın 9-da Azərbaycan Respublikası Ali Soveti tərəfindən silahlı qüvvələrin yaradılması haqqında qanun qəbul edilməsinə baxmayaraq, o zamanki respublika rəhbərliyi bu qərarların həyata keçirilməsi üçün lazımi səy göstərməmişdir. Torpaqların müdafiəsi yalnız pərakəndə fəaliyyət göstərən könüllü dəstələrin ümidinə qalmışdı. Azərbaycan ordusu bərbad vəziyyətdə idi, parçalanmışdı, hərbi hissələr ayrı-ayrı siyasi qrupların təsiri altına düşmüşdü. Silah, sürsat, geyim və ərzaqla təminat yarıtmaz halda idi. Korrupsiya geniş yayılmışdı. Xalq orduya özgələşir, fərrarilər artırdı. 1991-1992-ci illərdə ordunu 30 min döyüşçü özbaşına tərk etmişdi.

1993-cü ildə Ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra, onun başçılığı altında ölkədə həyata keçirilən köklü islahatlar qısa müddət ərzində bütün sahələrdə olduğu kimi ordu quruculuğu sahəsində də mühüm irəliləyişlərə səbəb oldu. Ulu öndər çox yaxşı bilirdi ki, güclü ordusu olmayan dövlət öz müstəqilliyini qoruya, vətəndaşların və cəmiyyətin təhlükəsizliyini təmin edə bilməz. Ona görə də, ordu quruculuğu məsələləri Heydər Əliyevin dövlətçilik siyasətinin əsas prioritetlərindən birini təşkil etmişdir. Heydər Əliyevin ordu quruculuğu siyasətinin məqsədi bir neçə istiqamətə yönəlmişdi: güclü ordu, güclü dövlət deməkdir, güclü ordu xalqın inkişafının təmin olunması deməkdir, güclü ordu dünya dövlətləri arasında xüsusi çəkiyə və nüfuza malik olmaq deməkdir.

Heydər Əliyevin gərgin və məqsədyönlü səyləri sayəsində 1994-cü ildə atəşkəsin elan olunması ölkədə ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara start verildi. Qısa müddət ərzində Heydər Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı, “Silahlı Qüvvələr haqqında”, “Hərbi xidmət haqqında”, “Müdafiə haqqında”, “Hərbi vəziyyət haqqında”, “Hərbi qulluqçuların statusu haqqında” və s. qanunlar qəbul edilmiş və təkmilləşdirilmişdir.

Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə ordunun mərkəzləşdirilmiş maddi-texniki təchizatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan vəsaitin dəfələrlə artması ordunun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına imkan verdi. Qeyd edilən dövrdə dünya hərbi təhsil standartlarına cavab verən Milli Hərbi təhsil sisteminin formalaşmasına xüsusi diqqət yetirilmişdir. 1997-ci ildə Azərbaycan Ali Hərbi məktəbinin yaradılması ilə ölkəmiz ordu quruculuğunda, milli zabit kadrlarının hazırlanması tarixində keyfiyyətcə yeni bir mərhələyə qədəm qoydu.

1999-cu il yanvarın 20-də Heydər Əliyevin Hərbi Akademiyanın yaradılması haqqında imzaladığı fərman, hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsində əsaslı dönüş yaratdı. Qeyd edilən dövrdə, bilavasitə Heydər Əliyevin göstərişi ilə Azərbaycan Respublikası hərbçiləri bir sıra zəruri və mühüm ixtasaslar üzrə təhsil almaq üçün Türkiyə Cümhuriyyəti, Rusiya Federasiyası, Ukrayna, Pakistan, Çin və digər ölkələrə göndərildi.

Göstərilən dövrdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin beynəlxalq əlaqələri də xeyli genişlənmiş, NATO, MDB çərçivəsində, habelə bir sıra dövlətlərlə ikitərəfli hərbi əməkdaşlığın əsasları qoyulmuşdur.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində həyata keçirilən hərətərəfli və genişmiqyaslı tədbirlər ölkəmizin regionda ən güclü orduya malik olan dövlətə çevrilməsinə imkan vermişdir.

# KOMMERSİYA BANKLARININ TRAST ƏMƏLLİYYATLARI VƏ ONUN İQTİSADİ XARAKTERİSTİKASI

***Quliyev Z.Q.***
*Bakı Biznes Universiteti*

Kommersiya banklarının apardığı vasitəçilik əməliyyatlarından biri də trast əməliyyatlarıdır. Trast əməliyyatları – müştərinin tapşırığına əsasən əmlakın idarə olunması və digər xidmətlərin onun maraq dairəsində, onun xeyrinə kommersiya bankları və xüsusi maliyyə institutları tərəfindən aparılan əməliyyatlardır.

Trast əməliyyatlarının mahiyyəti ondan ibarətdir ki, əmlak sahibi onun idarə olunması hüququnu mövcud qanunvericiliyə riayət etməklə müqavilə əsasında digərinə– ya banka, ya da ki, xüsusi maliyyə institutuna verir. Trast əməliyyatlarının həyata keçirilməsində müştərinin müxtəlif növəmlakı iştirak edə bilər. Trast əməliyyatlarının obyekti kimi aşağıdakıəmlak növləri iştirak edirlər:

– istehsal və qeyri – istehsal xarakterli daşınmaz əmlak;
– nəqliyyat və rabitə vasitələrindən ibarət daşınan əmlak;
–əmlak hüququ;
– pul vəsaitləri;
– qiymətli kağızlar. Əmlakın növündən, həmçinin mülkiyyətinin arzu və məqsədlərindən asılı olaraq trast əməliyyatlarının məzmunu və həmçinin onu yerinə yetirən bankın funksiyaları dəyişir. Trast əməliyyatlarını icra edərkən banklar iki mühüm rolda çıxış edə bilərlər.

**Birincisi,** banklar müqavilə çərçivəsində müştərinin əmlakıüzrə müstəqil sərəncamlar verərək müştərinin tam hüquqlu nümayəndəsi ola bilərlər**. İkincisi,** banklar müştərinin tapşırığına əsasən onun əmlakı ilə ciddi konkret əməliyyatları icra edə bilərlər.

Bazar iqtisadiyyatışəraitində trast əməliyyatları banklar üçün xüsusi maraq kəsb edir. Çünki bazara keçid və bazar şəraitində yeni yaranmışçoxlu müxtəlif mülkiyyət formalı müəssisələrin çoxu heç dəəmlakın müxtəlif növləri iləəməliyyatlar aparmaqda səriştəyə malik olmurlar. Ona görə də trast əməliyyatlarının aparılmasında marağı olan müəssisə, təşkilat və fiziki şəxslərin sayı artır. Banklar və digər xüsusi institutlar trast əməliyyatlarına artan tələbatdan istifadə edərək bazarda öz mövqeyini möhkəmlətmək üçün bir çox vacib məsələləri həll edirlər. İnkişaf etmişölkələrin təcrübəsi göstərir ki, trast əməliyyatlarının təsnifatı trast əməliyyatlarının formasından, tipindən, aparılan əməliyyatların xarakterindən asılıdır. Bu xüsusiyyətlərindən asılı olaraq trast əməliyyatlarının bir neçə növünü fərqləndirirlər.

Trast əməliyyatlarının aşağıdakı növləri vardır:
– etibarlı idarəetmə;
– agent xidmətləri.

**Etibarlı idarəetmə** trast əməliyyatlarında əmlak mülkiyyətçisi ilə etibarlı idarəedən arasında yaranan münasibətlərin formasıdır. Onlar arasında bağlanmış müqaviləyəəsasən mülkiyyət sahibi öz mülkiyyətinin idarəetmə hüququnu etibarlı idarəedənə verir. Bu hüquq əsasında etibarlı idarə edən müxtəlif sövdələşmələr bağlaya və icra edə bilər. O, eyni

zamanda mülkiyyətçidən müəyyən göstəriş və tapşırıqlar alarkən müqaviləəsasında digər hüquqi hərəkətlər edə bilər. İcra etdiyi əməliyyatlara görə o, komisyon mükafatı alır. Etibarlı idarəedən öz fəaliyyəti zamanı müqavilədə nəzərdə tutulduğu kimiöz adından, lakin mülkiyyət sahibinin əmlakı hesabına və onun tapşırığına əsasən çıxış edir.

Eyni zamanda fəaliyyətinin nəticələrinə görə maddi məsuliyyət daşıyır. Əməliyyatın etibarlı idarəetmə formasında həm fiziki, həm də hüquqi şəxslər üçün əməliyyatlar yerinə yetirilir.

Trast əməliyyatlarının bir növü də **agent** xidmətləridir, Əməliyyatların bu növünün iştirakçıları aşağıdakılardır:

- prinsipal (etibar edən) – digər bir şəxsə hər hansı bir işi icra etmək tapşırığını vəöz səlahiyyətlərini ona verən şəxsdir;

-agent –prinsipalın adından fəaliyyət göstərən və onun göstərişlərini dəqiqliklə yerinə yetirən şəxsdir.

Dünya təcrübəsi göstərir ki, agent xidmətlərinin bu formasıçox tətbiq olunan və xüsusi əhəmiyyətli bir formadır. Bu formadan əsasən çox baha qiymətli daşınmaz əmlakın alqı - satqısı zamanı istifadə olunur. Bu halda bu əməliyyat alqı - satqının təminatı kimi çıxış edir.

Alqı-satqıda iştirak edən tərəflər bankla müqavilə bağlayaraq sövdələşmənin tam dəyərini (nağd pul vəsaitlərini) bankda icarəyə götürülmüş seyfə yerləşdirirlər. Alqı-satqı baştutduqdan sonra, yəni mülkiyyətin sahibi dəyişdikdən sonra, banka bu barədə sənəd təqdim olunur. Yalnız bu halda bank pul vəsaitlərini əmlakı satana verir. Beləliklə də bu əməliyyat nəticəsində vəsaitlərin itməsinin, oğurlanmasının, tərəflərin bir-birini aldatmasının, dələduzluq faktlarının, risklərinin qarşısı tam alınmış olur.

## AQRAR İSLAHATLAR, PERSPEKTİVLƏR VƏ NƏTİCƏLƏR

***Quliyev İ.Ə.***

*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Respublikasında siyasi müstəqillik illərində aparılmış iqtisadi islahatlar konteksində aqrar islahatlar nəticə baxımından mühüm əhəmiyyət kəsb edir. Əhalisinin təbii artımı yüksək olan və torpaq fondu əhaliyə nisbətdə zəif olan ölkələrdə həmişə aqrar islahatlar digər sahələrə nisbətən önə çəkilir. Bu baxımdan Respublikamızda da ilk aparılan islahatlardan biri də torpaqla bağlı islahat olmuşdur. Torpaq üzərində mülkiyyət münasibətləri dəyişdi. Torpaqlar dövlət, bələdiyyə və xüsusi mülkiyyətarasında bölüşdürüldü. Bu proses çətin olduğuüçün ilk illər ləng inkişaf etsə də,dövlətin bu sahəyə xüsusi diqqəti və qayğısı sayəsində artıq kənd təsərrüfatı sahəsi surətlə inkişaf etməkdədir.

Azərbaycan Respublikasının coğrafi baxımdan subtropik iqlim qurşağında yerləşməsi, ərazisinin çox hissəsinin arid və semiarid iqlimə malik olması, ölkə daxilində torpaqlardan düzgün və səmərəli istifadə edilməsini, böyük layihələrin həyata keçirilməsinitələb edir. Bu baxımdan son illər kənd təsərrüfatının intensiv inkişaf etdirilməsi ilə əlaqədar maliyyə baxımından böyük layihələr həyata keçirilmişdir. Belə iri layihələrdən biri Şəmkirçay üzərində iri su anbarının tikilməsi və müasir suvarma sisteminin yaradılmasıdır. Su sərfi il

müddətində çox kəskin dəyişən bu çayın suyundan zəif istifadə olunurdu. Çay üzərində su anbarı tikildikdən sonra min hektarlarla boz-qəhvəyi (şabalıdı) torpaqlardan daha düzgün və səmərəli istifadə olunur ki, bu da ölkənin kənd təsərrüfatı məhsullarına olan tələbatının azalması istiqamətində mühüm əhəmiyyət kəsb edir.

Gəncə-Qazax iqtisadi rayonu ərazisində böyük dövlət əhəmiyyətli layihələrdən biri də Tovuzçay üzərində inşa olunmuş su anbarıdır. Tovuzçay hövzəsində Respublikanın münbit torpaq sahələri yerləşir. Bu torpaqlarda suvarmanın tətbiq olunması kənd təsərrüfatı məhsullarının illik istehsalının ən azı iki dəfə artırmağa şərait yaradır. Artıq bu layihə də həyata keçirilmişdir.

Aqrar sahəni inkişaf etdirmək məqsədi ilə ən uğurlu layihələrdən biri də Taxtakörpü su anbarının tikilib istifadəyə verilməsi oldu. Hal-hazırda Respublikanın bu bölgələrdə uzun illər istifadəsiz qalan Xəzərsahili boz-qonur, boz-qəhvəyi (şabalıdı), boz-çəmən torpaqlar suvarılmaya cəlb olunmuşdur. Bu torpaqlardan suvarılma şəraitində düzgün və səmərəli istifadə etməklə Bakı, Sumqayıt şəhərləri əhalisinin kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsində mühüm rol oynaya bilir.

Respublika prezidenti cənab İ.H.Əliyevin neft amilindən asılılığı aradan qaldırmaq və aqrar sahəni inkişaf etdirmək məqsədi ilə bu sahəyə diqqət yetirməsi bir qədər də kənd təsərrüfatının inkişafına təkan vermişdir. Respublikamız üçün birinci növbədə ənənəvi sahələr inkişaf etdirməklə yanaşı, uzun illər ekstensiv heyvandarlıq əhəmiyyəti kəsb edən Ceyrançöl və Acınohur öndağlıq

ərazilərinin torpaqlarından səmərəli istifadə üçün mühüm əhəmiyyət kəsb edən təbirlər həyata keçirilməkdədir.

Azərbaycan Dövlətinin uzun illər apardığı daxili və xarici siyasətin əsas hədəflərindən biri və başlıcası işğal olunmuş torpaqların azad olunmasıdır. Azərbaycanın ərazi bütövlüyü təmin olunduqdan sonra ölkə demək olar ki, kənd təsərrüfatı asılılığından tam xilas ola bilər və eyni zamanda kənd təsərrüfatı məhsulu ixrac edən ölkəyə çevrilə bilər.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ İDEYASININ YENİ MƏRHƏLƏSİ

***Qurbanov A.C.***
*AMEA, Fəlsəfə İnstitutu*

Azərbaycançılıq ideyasının əsasında xalqın milli azadlıq uğrunda mübarizəsi durur. Bu mübarizənin tarixi azərbaycançılıq ideyasının formalaşması prosesi ilə bağlıdır.

XX əsrin əvvəllərində özünün müstəqil dövlətini yaratmağa müvəffəq olmuş Azərbaycan böyük dövlətlərin təzyiqinə məruz qalmış, öz müstəqilliyini itirmişdir.

Azərbaycançılıq ideyasının əsas ideyaya çevrilməsi məhz Azərbaycanın ikinci dəfə müstəqillik əldə etməsi ilə bağlıdır və azərbaycançılığın Müstəqil Azərbaycan dövlətinin ideyasına çevrilməsi, ümumimilli ideya olması Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətlərinin nəticəsidir.

Ümummilli Lider Heydər Əliyev sovet Azərbaycanına rəhbərliyə başladığı (1969) dövrdən Azərbaycanın sosial-iqtisadi, mədəni yüksəlişi, milli şüurun oyanışı istiqamətində

bu gün də öz əksini tapan mühim siyasi fəaliyyət göstərmişdir. Həmin illərdə Heydər Əliyevin milli mənəvi dəyərlərin, milli ruhun qorunması, azərbaycançılıq ideologiyasının sistem halına salınması istiqamətində həyata keçirdiyi tədbirlər bugünkü müstəqil Azərbaycan dövlətinin əsasıdır.

1980-ci ilin sonlarında Azərbaycanda milli azadlıq hərəkatının oyanışı üçün əlverişli şərait yarandı. Təbii ki, bu şəraitin yaranmasına sovet totalitar sisteminin çökməsi prosesinin başlanması və Ermənistanın ərazi iddiaları səbəb oldu. Ermənistan-Azərbaycan münaqişəsinin başlaması Azərbaycan xalqının milli azadlıq hərəkatını kütləviləşdirdi. Belə şəraitdə Azərbaycanın ərazi bütövlüyünü qorumaq, milli azadlıq hərəkatını lazımı istiqamətə yönəltmək və Azərbaycanın dövlət müstəqilliyini bərpa etmək üçün siyasi qüvvə tələb olunurdu. 1988-1991-ci illərin xalq hərəkatı nəticəsində Azərbaycan öz müstəqilliyini (18 oktyabr 1991) elan etdi. Bu tarixi şəraitdə - 1988-ci ilin sonlarında yaranan Azərbaycan Xalq Cəbhəsi (AXC) öz tarixi missiyasını yerinə yetirə bilmədi. Belə ki, “güclü dövlət strukturlarını formalaşdırmadan müstəqilliyi qoruyub saxlamaq mümkün deyildi”. Bunun üçün isə strateji düşüncəli, uzaqgörən, soyuqqanlı və qətiyyətli siyasətçi-lider lazım idi.

Bildiyimiz kimi, 90-cı ilin əvvəlləri çox ziddiyyətli tendensiyalarla dolu idi. Müstəqilliyini yeni əldə etmiş ölkələrə, dünyada cərəyan edən siyasi, iqtisadi, mədəni, ideoloji proseslər güclü təsir göstərirdi. İctimai-siyasi xadim Novruz Məmmədovun qeyd etdiyi kimi, Qərbin nəhəng geosiyasi konsepsiyalar yaradan siyasətşünasları yetişmişdi. Sosialist düşərgəsi dağıldığından yeni müstəqil ölkələr taleyin hökmü ilə güclülərin təsir sahəsinə atılmışdır. Belə bir mürəkkəb vəziyyətdə Azərbaycanı müstəqil, suveren və demokratik dövlət quruculuğu kursuna çıxara biləcək böyük şəxsiyyətə ümummilli lider Heydər Əliyevə ehtiyac var idi.

Azərbaycançılıq ideyası tarixində ən yeni mərhələ Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə başlandı. Azərbaycançılıq ideyasının tarixi inkişafının zirvəsini təşkil edən bu mərhələdə dövlətçiliyimizin əsasları qoyuldu, milli ideologiya-azərbaycançılıq ideologiyası xalq tərəfindən dəstəkləndi. Heydər Əliyev bütün fəaliyyəti boyu Azərbaycan mədəniyyəti və tarixinin əhəmiyyətini xüsusi qeyd edirdi. Bütövlükdə Azərbaycanın müstəqil dövlətçilik kursu bu məqam üzərində quruldu. Faktiki olaraq, ümummilli lider qısa müddət ərzində xalqın quruculuq enerjisini dövlətin maraqlarının təmin olunması istiqamətində səfərbər edə bildi. Heydər Əliyev cəmiyyətin mədəni-intellektual potensialını və mənəvi dəyərlərini milli ideyanın reallaşdırılmasına yönəltdi.

Ümummilli Lider Heydər Əliyev öz müdrik siyasəti, tarixi uzaqgörənliyi sayəsində milli birliyin əldə olunmasına, milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına nail olmuşdur.

Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə yenidən qayıdışı Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinə, azərbaycançılıq ideyasının inkişafına güclü təsir göstərdi. Ulu öndər azərbaycançılıq ideyasını əsas tutaraq onun bütün sahələrdə inkişafını təmin etdi.

# HEYDƏR ƏLİYEVİN MİLLI TƏHLÜKƏSİZLİK STRATEGİYASI: HƏRBİ VƏ XARİCİ SİYASİ ASPEKTLƏRİN QARŞILIQLI ƏLAQƏSİ

***Qurbanova S.A.***
*AMEA, Tarix İnstitutu*

Heydər Əliyevin Azərbaycanda ali siyasi hakimiyyətə gəlişi ərəfəsində ölkənin milli təhlükəsizliyi sahəsində ciddi problemlər yaranmışdı. Sovet İttifaqının varlığının son illərində Dağlıq Qarabağda erməni separatizminin baş qaldırması respublikada əsl siyasi və mənəvi böhran yaratmışdı. Sovet rəhbərliyinin qətiyyətsizliyi, Azərbaycana ərazi iddiaları ilə çıxış edən Ermənistanı himayə etməsi son nəticədə, müharibə ocağının alovlanmasına gətirib çıxardı. Müstəqillik əldə edildikdən sonra hakimiyyətdə bir birlərini əvəz etmiş Mütəllibov və Elçibəy iqtidarlarının ardıcıl xarici siyasət kursunun olmaması antiazərbaycan koalisiyasının yaranması, ölkənin beynəlxalq təcridi ilə nəticələndi. Müstəqilliyin əsas atributu olan milli ordunun olmaması isə Azərbaycanın 20% ərazisinin itirilməsinə səbəb oldu.

Şəxsiyyət və liderin fəaliyyəti xarici siyasət strategiyasının həyata keçirilməsinə böyük və səmərəli təsir göstərir. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin xarici siyasətində, beynəlxalq əlaqələrində dönüş baş verdi. Elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun olaraq, müstəqil dövlət quruculuğuna başlanıldı. İlk növbədə müstəqil Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri, ölkənin xarici siyasətinin əsas istiqamətləri, prioritetləri, resursları müəyyənləşdirildi. Avropa ölkələri, ABŞ, Rusiya, postsovet respublikaları, İslam dünyası və İran, türkdilli dövlətlər və Türkiyə, Asiya dövlətləri ilə qarşılıqlı əlaqələr sivil məcraya salındı. Bu ölkələr qrupuna daxil olan hər bir ölkə ilə düşünülmüş, qarşılıqlı mənafeləri nəzərə alan ikitərəfli və çoxtərəfli münasibətlər sistemi yaradıldı.

Heydər Əliyevin zəngin siyasi təcrübəsi, regionda və bütün dünyada cərəyan edən proseslərin düzgün dəyərləndirilməsi hətta Azərbaycana soyuq münasibət bəsləyən ölkələrlə belə əlaqələrin normallaşdırılmasına və inkişafına gətirib çıxardı. Heydər Əliyevin xarici dövlətlərin liderləri ilə fəal təmasları ölkəmizi düşdüyü informasiya blokadasından, diplomatik təcriddən çıxmasını təmin etdi, dünya siyasətini müəyyənləşdirən dövlətlərlə simmetrik dialoq qurmağa imkan verdi.

Azərbaycanın milli təhlükəsizliyinin və xarici siyasətininin başlıca problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, ölkənin ərazi bütövlüyünün bərpa edilməsidir. Münaqişənin beynəlxalq normalar əsasında ədalətli həlli Heydər Əliyevin daim diqqət mərkəzində olmuş, onun bütün beynəlxalq təmaslarında, ikitərəfli və çoxtərəfli görüşlərində müzakirə edilmişdir. 2003-201-ci illər ərzində o, 68 ölkənin dövlət və hökumət başçısı ilə 485 dəfə görüşərək münaqişənin həlli ilə bağlı məsələləri müzakirə etmişdir. Ölkə prezidenti kimi Heydər Əliyev beynəlxalq təşkilatlarda, o cümlədən problemin nizamlanması ilə məşğul olan ATƏT-in Mins qrupu çərçivəsində, ardıcıl, məqsədyönlü iş aparmışdır. Nəticədə BMT TŞ-nın ümumən Azərbaycanın maraqlarına cavab verən, lakin Ermənistan tərəfindən indiyədək yerinə yetirilməyən dörd qətnaməsi qəbul edilmişdir. Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü il may ayının 12-də atəşkəs haqqında

saziş imzalanmışdır. Heydər Əliyev müasir tələblərə cavab verən, ölkənin milli maraqlarını təmin edə biləcək ordunun yaradılması, silahlı qüvvələrdə köklü keyfiyyət dəyişiklərinin həyata keçirilməsi üçün atəşkəs rejimindən səmərəli istifadə edərək ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsi üçün səmərəli addımlar atmışdır.

Münaqişənin başlanmasından bu günə qədər Ermənistan öz işğalçılıq siyasətindən əl çəkmək istəmir. Digər tərəfdən də dünya birliyi, BMT və ATƏT kimi beynəlxalq təşkilatlar ikili standartlardan çıxış edərək öz qətnamə və təkliflərinin yerinə yetirilməsi üçün konstruktiv addımlar atmaqdan çəkinməklə, danışıqlar prosesinin irəli getməsinə kömək göstərmir. Bununla da onlar Ermənistana Azərbaycan torpaqlarını işğal altında saxlamağa şərait yaratmış olurlar. Belə şəraitdə Azərbaycan xalqı və dövləti yalnız özünə və öz silahlı qüvvələrinə güvənir.

Azərbaycan ordusu bu gün regionun ən güclü ordusudur. Ordumuzun daha da gücləndirilməsi, ən müasir silahlarla təmin edilməsi üçün ardıcıl iş aparılır. Qüdrətli ordunun mövcudluğu danışıqlar prosesinə də müsbət təsir göstərməklə yanaşı, torpaqlarımızın istənilən yolla işğaldan azad etmək inamını daha da möhkəmləndirir.

## MÜSTƏQİL DÖVLƏTÇİLİK ZƏMİNİNDƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ FORMALAŞMASI

***Mehdiyev E.M.***
*Gəncə Dövlət Universiteti*

Dövlətin müstəqil, azad yaşaması üçün bir çox amillər vacibdir. Bu amillərin ən başlıcası, dövlətçiliyin ideoloji bazasının yaradılmasından və formalaşdırılmasından ibarətdir. Həmin baza, hər şeydən əvvəl, uzun tarixi dövrlər ərzində xalqın psixologiyasında yetişən və cilalanan milli-mənəvi dəyərlərə əsaslanır. Nə qədər ki, xalq öz dövlətçiliyinə malik deyil, həmin dəyərlər dərk edilməmiş qalır, milli psixologiyanın alt qatını təşkil edir. Müstəqil dövlətçilik isə milli psixologiya zəminində yetişmiş milli ideologiyanın mənimsənilməsini zəruriləşdirir. Milli ideologiya dövlətin və dövlətçiliyin yaşamasını, inkişafını və güclənməsini təmin edir. Azərbaycanda tarixən müstəqil dövlətçilik mərhələləri mövcud olsa da müyyən səbəblər üzündən milli ənənələr ideologiya səviyyəsinə yüksələ bilməmişdir. Nəticədə müstəqil dövlətçiliyi uzun müddət qoruyub saxlamaq mümkün olmamışdır.

Azərbaycanın milli ideologiyası müstəqil dövlətçilik zəminində ilk dəfə zəmanəmizin ən böyük siyasətçisi və dövlət xadimi Heydər Əliyev tərəfindən irəli sürülmüşdür. Möhtərəm prezidentimiz müstəqil dövlətçilik və milli ideologiya barədə fikirlərini belə ifadə etmişdir: "... müstəqilliyi elan etmək hər bir xalq üçün, hər bir ölkə üçün tarixi hadisədir, böyük xoşbəxtlikdir. Amma müstəqilliyi yaşatmaq və onu dönməz etmək, sarsılmaz etmək bundan da böyük vəzifədir, bundan da böyük xoşbəxtlikdir" ("Xalq qəzeti", 24 noyabr 1998).

Heydər Əliyev milli ideologiyamızın formalaşmasında Azərbaycançılıq ideyalarına yiyələnməyi zəruri amillərdən biri sayır. Beləliklə, azərbaycançılığın başlıca parametrləri aşağıdakılardan ibarətdir; dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər,

Azərbaycançılıq ilkin bir anlayış olmaqla dövlətçiliyin sabitləşməsinə, möhkəmlənməsinə və çiçəklənməsinə, dilimizin qorunub saxlanmasına və s. zənginləşməsinə, milli-mənəvi dəyərlərimizin mənimsənilməsinə və dünya sivilizasiyası ilə inteqrasiyasına, eləcə də insanlarda milli vətənpərvərlik hissələrinin formalaşmasına xidmət edən zəruri şərtlər kompleksidir.

Azərbaycançılıq ideologiyası haqqında bəhs edərkən azərbaycançılıq, azərbaycanlı və Azərbaycan vətəndaşı terminlərinə də münasibət bildirmək lazımdır.

Azərbaycançılıq termini ilə xalqın və millətin ideoloji bazasını təşkil edən bütöv bir sistem başa düşülür. Xalq öz milli mənliyini bu ideologiyanın mənimsənilməsində tapır.

Azərbaycanlı anlayışında xalqın milli mənsubiyyəti əks olunur. Azərbaycanlılar tarixən yaşadıqları ərazidə məskunlaşmış insan qruplarının sintezi əsasında min illər bundan əvvəl etnik bir vahid kimi formalaşmışlar. Bu gün Azərbaycanın ümumbəşəri dəyərlərini, dilini, milli və mənəvi mədəniyyətini mənimsəyən, onun dövlətçiliyinə ehtiram göstərən, şüurunda vətənpərvərlik hissləri yaşadan insanlar azərbaycanlılar adlanırlar. Azərbaycanlılar həm indiki Azərbaycan ərazisində, həm də dünyanın müxtəlif yerlərində məskunlaşmışlar. Azərbaycançılıq ideyalarına ehtiramla yanaşmaq, onu mənimsəmək və qəlbində pozulmaz bir ehkam kimi yaşatmaq dünyadakı hər bir azərbaycanlının müqəddəs borcudur. Azərbaycançılıq ideyaları dünya azərbaycanlılarının mütəşəkkilliyidir, vəhdətidir və birliyidir.

Azərbaycan vətəndaşı anlayışı konstitusiyamızda təsbit olunmuşdur. Azərbaycan vətəndaşları Azərbaycan Respublikasının hüdudlarında yaşayan, dilindən, dinindən, irqindən asılı olmayaraq bərabər hüquqlar daşıyan insanlardan ibarətdir. Bütün Azərbaycan vətəndaşları Azərbaycanın dövlət mənafeyinə xidmət etməyə, dövlət atributlarına və milli mənafelərinə ehtiram göstərməyə, ərazi bütövlüyünün qorunması yolundakı vətəndaşlıq mükəlləfiyyətlərinin yerinə yetirilməsinə borcludurlar.

Milli-mənəvi keyfiyyətlərimiz azərbaycançılığın daxili atributlarından biridir. Azərbaycançılıq ideologiyasının Heydər Əliyev təlimində milli-mənəvi keyfiyyətlərimiz barədə deyilir: "Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz ("Xalq qəzeti", 24 noyabr 1998.). Azərbaycan xalqı cürbəcür hökmdarların əlində olubdur, tarix boyu nə qədər əziyyətlər çəkibdir. Ancaq dilini də, öz mənəvi-əxlaqi mentalitetini də saxlayıbdır, bütün əxlaqi normalarının hamısını saxlayıbdır. Bu, xalqımızın nə qədər dərin kökləri olduğunu göstərir. Bizim borcumuz bu ideologiyanı təbliğ etmək, bu ideologiyanı genişləndirmək, bu ideologiyanı inkişaf etdirmək, insanları başa salmaqdır" ("Xalq qəzeti", 24 noyabr 1998).

# AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Mehdiyeva G.F.***
*Sumqayıt Dövlət Universiteti*

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan xalqının zəngin tarixinin bir hissəsini təşkil edən Sovet dövründə dünyaya gəlib, boya başa çatmasına baxmayaraq, xarakterinə görə praqmatik, dərin bilikli, məntiqli, döyüşkən, cəsarətli, inadcıl prinsiplərin uğrunda mübarizə aparan beynəlmilçiliyi həyata keçirən partiya rəhbəri olmaqla yanaşı, milli ruhlu, millətsevər bir azərbaycanlı siyasi xadim, tarix yaradan böyük dövlət xadimi, milli liderdir. Müstəqil dövlətçilik şəraitində millətsevərlik nə qədər asan idisə, ağır Sovet rejimi şəraitində onları yoluna qoymaq bundan qat-qat ağır idi. Ancaq görkəmli siyasi xadim Heydər Əliyev millətinə olan sevgisindən bu ağır işin öhdəsindən məharətlə gələ bilmişdi. Hakimiyyətdə olduğu müddətdə xalqını praqmatik siyasi xətlə inkişaf etdirmiş, milli-mənəvi dəyərlərimizi qoruyaraq zənginləşdirmişdir.

Onun çıxışlarında rast gəldiyimiz "Azadlıq və istiqaliyyət hər bir xalqın milli sərvətidir" və "Biz bu çətin günləri keçib gedəcəyik, müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaq, hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qürur hissi ilə bəyan edəcəkdir." kimi fikirləri onun siyasi kursunun əsasını təşkil etməklə, azərbaycançılıq ideologiyasının inkişafı üçün göstərdiyi xidmətləri bir daha təsdiqləyir. Müstəqillik əldə etmiş, öz xarici və daxili siyasətini milli maraqlara, ümumixalq, ümumdövlət mənafeyinə uyğun olaraq qurmaq imkanı qazanmış xalq heç şübhəsiz birinci növbədə bayraqdara ehtiyac duyur. Lakin bu işi görməyə budaqdan deyil, kökdən, gövdədən başlamaq lazımdır. Ümummilli liderimiz Heydər Əliyev bu işin öhdəsindən çox böyük məharətlə gəlməklə yanaşı dövlətçiliyi möhkəmləndirmə ənənəsinin əsasını qoymuş oldu. Xarici ölkələrlə münasibətləri ümumbəşəri dəyərlər və beynəlxalq normalar əsasında quraraq, dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmaq, yeni iqtisadi münasibətlərə keçid strategiyasını müəyyənləşdirmək və inkişaf etdirmək mövqeyi real ictimai tərəqqi üçün Ulu öndərimizin xalqına göstərdiyi xidmətlərindəndir.

Heydər Əliyevin hakimiyyəti dövründə ölkənin daxili siyasətindən doğan, öz vətəndaşlarına yönəldilmiş ideoloji kursla ölkənin xarici siyasətinə, digər ölkələrlə qarşılıqlı əlaqəsinə istiqamət verən ideoloji kurs arasında bir uyğunluq, qarşılıqlı tamamlanma olmuşdur. Əsas məsələ sosial idealın və inkişaf strategiyasının məlum olması və onlardan irəli gələn xarici siyasət kursunun düzgün seçilməsidir. Beynəlxalq vəziyyətin dəyişməsi ilə əlaqədar xarici siyasətdə hər dəfə dəyişiklik edilərkən ideoloji kursa uyğunluq şərtlərinin də həmişə nəzərə alındığı məlum olur. Beləliklə Heydər Əliyevə görə milli ideologiyanın üzərinə düşən əsas vəzifə daxili və xarici siyasətin ortaq məxrəcə gətirilməsi, dövlətin hər iki istiqamətdə ahəngdar fəaliyyəti üçün zəminin hazırlanmasıdır.

Ümumiyyətlə, ideologiyanı xalqın kimliyini əks etdirən təfəkkür, adət və ideoloji birlik olmaqla, xalqın və dövlətin tarixi varlığının əsas atributu kimi xarakterizə edə bilərik. Azərbaycançılıq ideologiyası isə özünəməxsus milli xüsusiyyətlərə malik, Şərq və Qərb

dəyərlərinin sintezindən ibarət olmaqla, azərbaycanlıların tarixi birgəyaşayışından və ictimai fəaliyyətindən yaranan idealların və onların maraqlarının vəhdəti zəminində formalaşmışdır. Planetin bugünki mənzərəsinə diqqət yetirdikdə dünya siyasəti meydanında yalnız siyasi və iqtisadi maraqların kəsişməsinin deyil, həm də milli ideyaların qarşılaşdığınınn şahidi oluruq. O dövr üçün ən böyük qabiliyyət də siyasi, iqtisadi maraqlarla yanaşı, milli maraqların da qorunub saxlanmasına nail olmaq və millətlər birliyinə öz simasını itirmədən daxil olmaq idi. Azərbaycan Respublikasının prezidenti kimi ulu öndərimizin siyasət kursunun əsasını da bu prinsiplər təşkil edir. Düzdür bunu əngəlləyən qüvvələr çox olmuşdur. Lakin şaxsiyyətin böyüklüyü də özünü məhz belə çətin vəzifələrin həllində göstərir. Heydər Əliyev ilk dəfə azərbaycançılıq ideyasını dövlətin strateji xətti kimi irəli sürəndə, bu ideyanın həqiqi,böyük mənası çxları üçün anlaşılmaz idi. Bu gün də qismən belədir. Çünki bu ideya adi şüur səviyyəsində üzə çıxmayıb, çox dərin köklərə malik olan mükəmməl bir fəlsəfi konseptual sistemin ifadəsidir. Heydər Əliyev milli-mənəvi dəyərlərin qorunması və nisbi müstəqil inkişafının təmin olunması məqsədini qarşısına qoymuşdu. Heç bir dövlət başçısı, hətta ziyalısı belə dövlət quruculuğu və idarəçiliyi ilə yanaşı, milli ideologiyanın əsas istiqamətlərinin müəyyənləşdiriilməsi, bu sahədə yeni mükəmməl elmi konsepsiyasının yaradılması və onun həyata keçirilməsi sahəsində Heydər Əliyev qədər şəxsi əzmkarlıq göstərməmişdir.

Beləliklə, Heydər Əliyev milli ideologiyamızın əsas prinsiplərini müəyyənləşdirməklə bərabər, onların həyata keçirilməsinə şəxsən özü nəzarət edirdi ki,bu da onun dövlət başçısı olmaqdan əlavə bir milli lider kimi üzərinə götürdüyü missiyaya böyük məsuliyyətlə yanaşmasından irəli gəlirdi. Siyasi liderliklə milli liderlik keyfiyyətlərinin bir şəxsdə birləşməsi, əlbəttə, unikal haldır. Məhz bu cəhətdən keçid dövrləri üçün bir qayda olaraq səciyyəvi olan siyasi və iqtisadi islahatlarla milli ənənəçilik arasında uyğunsuzluqlar və qarşıdurmalardan xilas olmağa, milli və ümumbəşəri dəyərlərin vəhdətinə nail olmağa imkan vermişdir. Məhz bunun sayəsində ümummilli liderimiz, eyni zamanda milli məfkurənin ən böyük daşıyıcısı və istiqamətləndiricisi kimi çıxış edən azərbaycançılıq ideyasını mükəmməl konsepsiya səviyyəsinə qaldırmışdır.

## AZƏRBAYCAN RESPUBLİKASININ QLOBAL İQTİSADİ LAYİHƏLƏRDƏ İŞTİRAKININ MİLLİ TƏHLÜKƏSİZLİYİMİZİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ ROLU (XX əsrin 90-cı illəri)

***Mehdizadə G.Z.***

*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

Milli təhlükəsizlik konsepsiyası keçən əsrin əvvəllərində ABŞ politoloqları tərəfindən işlənilmişdir. ABŞ siyasi realizm məktəbinin nümayəndəsi olan H.Morgentau ilk dəfə milli mənafe və milli təhlükəsizlik konsepsiyasını nəzəri cəhətdən işləmiş və ölkənin milli təhlükəsizliyinin təmin olunmasında güc amilini ön plana çəkmişdir: Hər bir ölkənin gücü onun iqtisadi və hərbi gücündən, həmin ölkənin böyüklüyü və əhalisinin sayından, geosiyasi mövqeyindən, təbii ehtiyatlarından və onlardan səmərəli istifadədən və başqa amillərdən asılıdır. Müstəqil dövlət kimi bu gün Azərbaycan daxili və xarici siyasət vasitələrindən

istifadə edərək, müasir dünyanın mövcud beynəlxalq siyasi və iqtisadi münasibətlər sistemində balanslı siyasət apararaq bütövlükdə ölkənin milli təhlükəsizliyinin qorunmasına çalışır. Şərqlə Qərb, Şimalla Cənub arasında təbii körpü rolunu oynaması və əlverişli geosiyasi məkanda yerləşməsi, eyni zamanda zəngin təbii sərvətlərə malik olması dünyanın bir çox dövlətlərinin Azərbaycana marağını daha da artırır.

"Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununun 17-ci maddəsində ("Azərbaycan Respublikasının iqtisadi sahədə milli təhlükəsizliyinin təmin olunması") Azərbaycan Respublikasının iqtisadi sahədə milli təhlükəsizliyinin təmin olunması üçün aşağıdakı tədbirlər görülür:

"17.2.2. ölkə iqtisadiyyatının inkişafını təmin edən təbii ehtiyatların, energetika əsaslarının və tranzit imkanlarının qorunması və möhkəmləndirilməsi;

17.2.10. enerji ehtiyatlarının istehsalı, nəqli, nəqliyyat dəhlizinin istismarı ilə bağlı layihələrin həyata keçirilməsi vasitəsi ilə Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyası;

Bəhs edilən dövrdə, yəni XX əsrin 90-cı illərin əvvəllərində Azərbaycan Respublikası keçmiş Sovet imperiyasının tərkibindən çıxaraq digər keçmiş müttəfiq respublikalar kimi yenicə müstəqillik qazanmış, iqtisadiyyatın demək olar bütün sahələri, sənaye, nəqliyyat və sairə 70 illik təsərrüfat əlaqələri qırıldığından, yeni əlaqələrin yaradılması üçün maddi və digər imkanların olmaması səbəbindən tənəzzül keçirirdi. Ölkədəki siyasi vəziyyətin gərginliyi, erməni təcavüzünün genişlənməsi, gənc respublikanın müharibəyə cəlb olunması böhranlı vəziyyət yaratmışdı. Bütün bunlardan çıxış yolu, iqtisadi və siyasi dirçəliş Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra ölkənin milli, siyasi və iqtisadi təhlükəsizliyinin təmin edilməsi istiqamətində dövlət siyasəti həyata keçirilməyə başlandı. Azərbaycan Respublikası xarici iqtisadi və siyasi əlaqələrinin, həmçinin ölkənin milli təhlükəsizliyinin təmin edilməsində əhəmiyyəti rol oynayan bir sıra beynəlxaq, qlobal transmilli layihələrə qoşuldu. Xüsusən də neft-qaz və nəqliyyat kommunikasiya layihələrinin işlənib hazırlanmasına və praktik olaraq həyata keçirilməsinə xüsusi əhəmiyyət verilməyə başlandı. İlk növbədə ölkəyə xarici investisiyaların cəlb olunması istiqamətində lazımi işlərin görüldü. Burada respublikada siyasi stabilliyin yaradılmasını xüsusi qeyd etmək lazımdır. 1994-cü ildə çox böyük maneə və çətinliklərə baxmayaraq, "Əsrin müqaviləsi" adlanan böyük neft müqaviləsi bağlandı. Uğurlu neft strategiyası ölkəmizin iqtisadi inkişafı ilə bərabər onun beynəlxalq imicinin və nüfuzunun artmasına və təhlükəsizliyinin möhkəmlənməsinə də səbəb olmuşdur. Azərbaycan hidrogen ehtiyatlarının dünya bazarlarına daşınmasında diversifikasiyaya nail olmuş, bir neft boru kəmərindən asılı qalmayaraq, Azərbaycan neftini "Bakı-Novorossiysk", "Bakı-Supsa" və Əsas İxrac Boru Kəməri "Bakı-Tbilisi-Ceyhan" neft-boru kəməri, Azərbaycan qazını Bakı-Tbilisi-Ərzurum qaz kəməri vasitəsilə dünya bazarlarına çatdırmaq siyasətini uğurla həyata keçirmişdir.

Hazırda Azərbaycan Respublikası Şimal-Cənub nəqliyyat-kommunikasiya dəhlizinin tam mərkəzində yerləşərək bu dəhlizin tam gücü ilə işləməsində maraqlı ölkə olaraq qalmaqdadır. Burada həm Şimal, həm də Cənub qonşu ilə sıx ticari, iqtisadi, kommunikasiya əlaqələri saxlayaraq, tranzit imkanlarından istifadə etməklə bu ölkələrin burada sabitlik və stabilliyin hökm sürməsində maraqlı tərəf olmalarını təmin etmişdir.

Transmilli nəqliyyat-kommunikasiya layihələrinin reallaşmasına da böyük önəm verilmiş, Avropa ilə Asiyanı birləşdirən hələ qədim zamanlardan mövcud olan "Qədim İpək yolu" marşrutunun yeni layihəsi olan TRASEKA layihəsi inkişaf etdirilmişdir. 1998-ci ilin sentyabr ayında Bakıda Şərq-Qərb nəqliyyat dəhlizi layihəsinin reallaşması istiqamətində beynəlxalq konfrans keçirilmiş, həmin beynəlxalq konfransda 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndələri iştirakı ilə "Avropa-Qafqaz-Asiya" nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında Çoxtərəfli Əsas Saziş imzalanmışdır. Məhz Avropa İttifaqının və bir sıra beynəlxalq təşkilatların maliyyə dəstəyi ilə həyata keçirilən TRASEKA layihəsinin əsas marşrutu Azərbaycan üzərindən keçməklə ölkəmizi əsas tranzit ölkəyə çevirir və bu yolla beynəlxalq əhəmiyyətli yüklər daşınıldığından bu layihənin ölkənin milli təhlükəsiziliyinin möhkəmləndirilməsində çox böyük rolu vardır. Bu günlərdə istifadəyə verilmiş TRASEKA layihəsinin ayrılmaz tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmiryolu layihəsi də "Böyük İpək Yolu"nun inkişaf etdirilməsi siyasətinin səmərəli nəticəsidir.

## HEYDƏR ƏLİYEVİN SİYASİ İRSİNDƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNƏ MÜNASİBƏT

***Mədətli E.Y.***
*AMEA, Fəlsəfə İnstitutu*

Heydər Əliyevin Azərbaycan Xalq Cumhuriyyətinə münasibətinin ilk bariz nümunəsi 17 noyabr 1990-cı ildə Naxçıvan MR Ali Məclisinin birinci sessiyasına sədrlik edən deputat kimi onun Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağına göstərdiyi ehtiramdır. Dövlət bayrağının qəbulu ilə əlaqədar müxtəlif təklifləri səsləndirən Heydər Əliyev aşağıdakı təklifi formalaşdırıb səsə qoydu: "Azərbaycan Demokratik Respublikasının üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunsun". Bu sətirlərin müəllifinin də səs verdiyi həmin tarixi qərarın təsdiqindən sonra ikinci bəndlə Azərbaycan Respublikasının ali qanunverici orqanından xahiş edilirdi ki, Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında məsələyə baxılsın və Azərbaycan Respublikasının milli-tarixi ənənələrinə uyğun olaraq, yeni dövlət rəmzləri – bayrağı, gerbi və himni qəbul olunsun.

Qeyd edilməlidir ki, Naxçıvan MR Ali Məclisinin 14 yanvar1991-ci il tarixli sessiyasında deputat Heydər Əliyevin qaldırdığı bir mühüm məsələ də o zaman Heydər Əliyevin Azərbaycan Xalq Cumhuriyyətinin fəaliyyətinə necə böyük önəm verdiyini nümayiş etdirir. Ulu öndər deyirdi: "Əgər 1918-ci ildə yaranmış Azərbaycan Demokratik Respublikası Azərbaycan xalqının həyatında əlamətdar və tarixi bir hadisədirsə, biz bunu açıq deməliyik və bu Azərbaycan dövləti tərəfindən müəyyən qədər qanuniləşdirilməlidir. Əgər biz bunu qəbul ediriksə, 1920-ci ildə Azərbaycan Demokratik Respublikasının devrilməsi pislənməlidir, qeyri-qanuni hal kimi qəbul olunmalıdır".

Qeyd edilməlidir ki, ulu öndərin Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ilə bağlı bütün fikirləri və çıxışları həmişə birmənalı olmuş və bir-birini məntiqi şəkildə tamamlamışdır. Eyni zamanda bunu da vurğulamaq lazımdır ki, 27 may 1998-ci il tarixində Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki

nitqində Ulu ondərin ən yeni tariximizin bu şərəfli mərhələsinə verdiyi qiymət öz konseptual istiqaməti və dəyəri ilə bütün qarşıdakı müstəqillik yollarımıza işıq salır.

Ulu öndər Heydər Əliyev 2003-cü ilin mayın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 85 illiyi ilə əlaqədar Azərbaycan xalqına müraciətində demişdir: "Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi".

Heydər Əliyev deyirdi ki, cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması və sair işlər Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını əyani şəkildə səciyyələndirir.

XX əsrin əvvəllərində, xüsusilə də Birinci dünya müharibəsinin və Rusiyada 1917-ci il fevral inqilabı və oktyabr çevrilişinin mahiyyətini və nəticələrini müdrik siyasətçi mühakiməsi ilə dəyərləndirən Ulu öndər qeyd edirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, İstiqlal Bəyannaməsinin elan olunması böyük zəka, uzaqgörənlik, cəsarət, iradə, qəhrəmanlıq tələb edirdi. Ulu öndər deyirdi: "Azərbaycanın istiqlaliyyətini elan edənlər, Xalq Cumhriyyətini qurub-yaradanlar və ona sona qədər sadiq olan insalar Azərbaycanın ən mötəbər, ən görkəmli insanlarıdır. Xalq Cumhuriyyətinin rəhbərləri Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, onların silahdaşları və o illərdə müstəqillik uğrunda mübarizə aparan və hakimiyyət orqanlarında fəaliyyət göstərən insanlar Azərbaycan xalqı tərəfindən heç vaxt unudulmayacaqlar. Onlar Azərbaycan xalqının tarixinə böyük və dəyərli şəxsiyyətlər kimi daxil olmuşlar."Heydər Əliyevin nəzərincə, mövcud çətinliklərə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi dövrdə böyük işlər görmüşdür. Ən əsası ondan ibarətdir ki, dünyanın bütün Şərq, müsəlman aləmində ilk dəfə Azərbaycanda demokratik üsul-idarə prinsiplərinə əsaslanan dövlət, hökumət yaranmış, beləliklə də, Azərbaycanda həm müstəqilliyin,, həm də demokratiyanın, demokratik dövlət üsul-idarəsinin əsasını qoymuşlar.

## DÖVLƏT İDARƏÇİLİYİ VƏ ONUN UĞURLU DAVAMI

***Mədədzadə K.M.***
*Sumqayıt Dövlət Universiteti*

Sosial–iqtisadi inkişafda ən böyük uğurlar Ümumilli Lider Heydər Əliyev cənablarının adı ilə bağlıdır və o, ölkəmizin inkişaf etdirməyin ən mötəbər inkişaf modelini hələ sovet

dönəmində müəyyən etmişdir. Onun məqsədyönümlü siyasəti sayəsində Azərbaycan bütün sahələrdə inkişaf etmişdir.

Onun 1993-cü ilin iyun ayında yenidən respublika rəhbərliyinə qayıdışı və təşkilatçılıq qabiliyyəti, uzaqgörən daxili və xarici siyasəti nəticəsində bütün sahələrdə köklü islahatların aparılması üçün əvvəlcə ictimai –siyasi sabitlik təmin edildi, Azərbaycan Avropa Şurasında qəbul olundu. "Əsrin müqaviləsi" adlanan neft müqavilələri imzalandı və müvafiq neft strategiyası işlənib hazırlandı, dünyanın bir çox ölkələri ilə əlaqələr genişləndirildi.

Ümummilli Lider Heydər Əliyev cənablarının apardığı məqsədyönlü siyasət və onun rəhbərliyi ilə həyata keçirilən kompleks tədbirlər nəticəsində Azərbaycanda dinamik inkişaf təmin edilmişdir.

Müstəqilliyimizin ilk dövründə xarici iqtisadi əlaqələrin qurulması, "açıq qapı" siyasətinin həyata keçirilməsi nəticəsində xarici iqtisadi əlaqələrin inkişafının təməli qoyuldu.

Azərbaycan iqtisadiyyatının dinamik inkişafında və yüksək uğurlar qazanmasında regionların inkişafına dair dövlət proqramlarının rolu böyükdür.

Ümummilli lider Heydər Əliyev cənablarının uzaqgörən müdrik siyasəti nəticəsində müstəqil Azərbaycan dünya xalqları içərisində, inkişaf etmiş dövlətlər birliyində öz layiqli yerini tutmaqla, tərəqqi etmiş ölkələr sırasına qoşulmaq yolunda böyük inam və qətiyyətlə irəliləmişdir. Qısa müddətlə Azərbaycanın beynəlxalq imici dəyişmiş, ölkəmiz dünyanın siyasi və iqtisadi arenasının fəal subyektlərindən birinə çevrilmişdir. Regional, coğrafi–siyasi maneələrə baxmayaraq, Azərbaycan dövlət quruculuğu və iqtisadi inkişaf sahəsində böyük nailiyyətlər əldə etmişdir. Bu dövrdə ölkədə siyasi plüralizm yaranmış, cəmiyyət əsl demokratiya yolu ilə inkişaf edir.

Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial–iqtisadi inkişafı Dövlət Proqramının əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası, regionların sürətli inkişafı ilə əlaqədar olaraq tədbirlərin davam etdirilməsi, kənd təsərrüfatının inkişafı ilə bağlı infrastruktur və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarətdir. Aparılan tədqiqatlar onu göstərir ki, Azərbaycanın sosial–iqtisadi inkişaf strategiyasında prioritet kimi müəyyən edilmiş və neft–qaz gəlirlərindən səmərəli istifadə etməklə, ölkəmizdə regional tarazlığın təmin edilməsi istiqamətində xüsusi əhəmiyyət kəsb edən Dövlət proqramları əhalinin işgüzar fəallığının artmasına, ayrı-ayrı regionlarda kiçik və orta sahibkarlığın daha da genişlənməsinə, infrastruktur lahiyələrinin vaxtında həyata keçirilməsinə, beynəlxalq standartlara cavab verən məhsullar istehsal edən yeni və müasir tipli sənaye xarakterli müəssisələrin yaradılmasına imkan vermiş və bununla da əhalinin yaşayış səviyyəsini xarakterizə edən göstəricilərin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına gətirib çıxarmışdır. Ulu Öndərin müəyyənləşdirdiyi strategiyanı Azərbaycan Prezidenti İlham Əliyev 2003-cu ildən bəri böyük uğurla müasir dövrün tələblərinə uyğun həyata keçirir. Dövlət siyasətinin əsasında beynəlxalq siyasi və iqtisadi proseslərin təhlili, bir-biri ilə bağlılıq, həmin zəmində milli mənafelərin nəzərə alınması, dünya dövlətləri ilə əməkdaşlığın genişlənməsi, qarşılıqlı anlaşma, bir–birinin işinə qarışmamaq, qarşılıqlı etibar, şəffaflıq durur.

Qloballaşan dünyada Azərbaycan dövləti öz mövqelərini möhkəmlədir və layiqli yerini tutur. Prezident İlham Əliyev cənablarının yürütdüyü davamlı inkişafın "Azərbaycan modeli bir sıra vacib amilləri – stabilliyi, davamlı sosial tərəqqini, iqtisadi inkişafı, ədalətliliyi, insan kapitalının inkişafını, innovativliyi və digər amilləri özündə birləşdirən modeldir. "

2014-cü ildə "Çallup" araşdırma şirkətinin 65 ölkədə 64 min nəfər arasında apardığı sorğuya görə, ölkəmiz xoşbəxt ölkələr siyahısında Fici, Kolumbiya, Nigeriya və Səudiyyə Ərəbistanından sonra 5-ci sırada qərarlaşdırmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla reallaşdırdığı inkişaf strategiyası artıq özünün növbəti inkişaf mərhələsindədir. 2025-ci ilədək olan bu mərhələdə Azərbaycan dövlətinin inkişaf etmiş ölkələr sırasına çıxarılması və əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması, özəl bölmələrin, qeyri–neft sektorunun inkişafı ən müasir texnologiyaları tətbiq etməklə, modernləşdirmə, elmi və innovasiyalara əsaslanan cəmiyyət quruculuğu, hüquqi dövlətcilik prinsiplərinin, insan hüquq və azadlıqlarının tam bərqərar edilməsi əsas başlıca məsələlərdəndir.

## AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Məhərrəmov S.Q.***
*Sumqayıt Dövlət Universiteti*

Ulu Öndər Heydər Əliyev Azərbaycan iqtisadiyyatının inkişafında böyük və müstəsna rolu olan əvəzsiz şəxsiyyətdir. Heydər Əliyevin hakimiyyətə yenidən qayıtması ilə yeni iqtisadi yüksəliş başlandı, Azərbaycan iqtisadiyyatina xarici investisiyalar yatırıldı, Ulu öndər digər sahələrdə olduğu kimi, bu sahədə də köklü dəyişikliklərin aparılması üçün yeni imkanlar yaratdı. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir. 1993-cü ildən başlayaraq aparılan məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmə proseslərinin qarşısının alınması Azərbaycanın iqtisadi inkişafına mahiyətcə yeni mərhələnin təməlini qoydu. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafi və dünya təsərrüfatı sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olundu. Ən əsası isə, bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modeli – Azərbaycan modeli yaradıldı.

Müəllifi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev olan bu strategiyanın həyata keçirilməsinə 1994-cü il sentyabrın 20-də Dövlət Neft Şirkəti ilə dünyanın aparcı ölkələrinin (ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistan) ən məhşur neft şirkətləri (Amoko, BP, MakDermott, Yunokal, Lukoyl, Statoyl, Ekson, Türkiyə petrolları, Penzoyl, İtoçu, Remko, Delta) arasında Xəzər dənizinin Azərbaycan bölməsindəki "Azəri", "Çıraq", "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında fəaliiyət müddəti 30 il olan müqavilənin imzalanması ilə başlanmışdır. Heydər Əliyevin özünün də vurğuladığı kimi: "Əsrin müqaviləsi"nin

imzalanması ilə Azərbaycan Xəzər dənizi və onun enerji ehtiyatlarını bütün dünyanın üzünə açdı bu hadisənin ölkənin gələcəyi üçün nə dərəcədə əhəmiyyətli olduğunu tarixçilər yazacaqlar". "Əsrin müqaviləsi" adı ilə indi bütün dünyada tanınmış bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycan Respublikasının iqtisadi inkişaf konsepsiyasını təşkil edən və Heydər Əliyev tərəfindən işlənilib hazırlanmış yeni neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Sənayenin inkişafı ilə yanaşı, Heydər Əliyev respublikada kənd təsərrüfatının inkişaf etdirilməsinə də xüsusi diqqət yetirirdi. Azərbaycan Respublikasının iqtisadi siyasətinin qabaqcıl istiqamətlərindən biri müstəqil dövlətin neft strategiyasının hazırlanması olmuşdur. Ölkəmizin iqtisadi artım sürəti 1995-ci ildən başlayaraq MDB üzrə orta göstəricidən xeyli yüksək olmuşdur. Heydər Əliyev Azərbaycan neft kəmərinin çoxvariantlılığı ideyası ilə çıxış edərək Bakı-Supsa kəmərinin işə salınmasına, eyni zamanda "Əsrin müqaviləsi" çərçivəsində hasil olunacaq əsas neftin nəqli üçün "Bakı-Tblisi-Ceyhan neft kəmərinin inşa edilməsi üzrə danışıqların intensivləşdirilməsinə nail olur. 1999-cu ilin noyabrında Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri ABŞ-ın dövlət başçısının ıştirakı ilə Bakı-Tblisi-Ceyhan əsas ixrac boru kəmərinin inşa edilməsinə dair hökumtlərarası saziş imzalamış, 2003-cü ildə kəmərin tikintisinə başlanılmışdır. Bununla yanaşı, ölkəmizin iqtisadi həyatında Heydər Əliyev həm də Azərbaycan qazının dünya bazarına çıxarılması üçün nəzərdə tutulan və regionun kifayət qədər əhəmiyyətli layihəsi hesab olunan Bakı-Tblisi-Ərzurum qaz kəmərinin də təməlini qoymuşdur. Bununla yanaşı, dövlət büdcəsinin gəlirlər hissəsində önəmli xüsusi çəkiyə malik olan vergi daxilolmalarının artırılması, vergi siyasətinin təkmilləşdirilməsi istiqamətində də Ulu öndərin rolu danılmaz olmuşdur. 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatı böhran və tənəzzül məngənəsindən çıxaraq iqtisadi yüksəliş yoluna qədəm qoymuşdur. Ümummilli Lider  Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilən strateji kurs Azərbaycanı zirvələrə gedən ölkələr qrupunda qabqcıl mövqeyə çıxarmışdır. Ümumilli liderimiz Heydər Əliyev tərəfindən təməli qoyulmuş və Prezident İlham Əliyevin başçılığı altında uğurla davam etdirilən sosial-iqtisadi inkişaf strategiyası nəticəsində əldə olunan nailiyyətlər Azərbaycanın bu sahədə gələcəkdə də daha böyük uğurlar qazanacağına zəmin yaradır.

## AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Məmiyev C.M.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi, Azərbaycanda milli özünüdərk prosesinin banisi və idarəedicisi Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının dövlətçilik tarixində o qədər böyük yeniliklərə, o qədər böyük işlərə imza atıb ki, yuxarıda sadaladığımız titulların heç biri onun titanik fəaliyyətini tam əhatə etmir. Biz bu gün Azərbaycan tarixində Heydər Əliyev erasını yaratmış Ulu öndər haqqında danışarkən, adətən, onu bir ümummilli lider kimi səciyyələndiririk. Əlbəttə, bu, mübahisəsiz

olaraq belədir. Ona görə də, hesab edirik ki, bu gün Ulu öndəri hörmətlə anarkən Heydər Əliyevşünasların və Heydər Əliyevsevərlərin, tədqiqatçıların araşdırmalı olduğu elmi istiqamətlərdən biri də, məhz bu olmalıdır. Ancaq biz hesab edirik ki, Ulu öndər Heydər Əliyev azərbaycançılıq ideologiyasının əsaslarını, rüşeymlərini hələ Sovet dövründə Azərbaycanın Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərliyi dövründə başlatmışdır. Biz bilirik ki, Dövlət Təhlükəsizlik Komitəsi Sovet dövrünün ideoloji və siyasi əsaslarını formalaşdıran, onu idarə edən və yönləndirən əsas orqan idi.

Sovet quruculuğu prosesində, 1937-ci il repressiyasında, həmçinin, ondan sonrakı dövrlərdə Azərbaycan xalqının ziyalılarına qarşı törətdiyi repressiyanın mərkəzi, məhz təhlükəsizlik orqanları idi. Bu təhlükəsizlik orqanları sanki Azərbaycanın daxilində antiazərbaycançı qüvvələrin mərkəzini, konsentrasiyasını təşkil edirdi. Bu yanaşma Ulu öndər Heydər Əliyev milli təhlükəsizlik orqanlarına rəhbərlik edən günə qədər davam etdi. Onun rəhbərliyi dövründə isə respublikanın təhlükəsizlik orqanlarından antiazərbaycançı qüvvələr, Azərbaycanı sevməyən müxtəlif xalqların nümayəndələri təmizlənməyə başlandı. Həmin dövrdə artıq azərbaycançılıq ideyası bir ideya şəklindən, yəni bir fərdin, bir siyasətçinin, bir öndərin ideyasından ideologiyaya çevrilməyə başladı.

Biz Ulu öndərin fəaliyyətinə, Azərbaycan xalqı qarşısında xidmətlərinə nəzər saldıqda görəcəyik ki, dediyimiz bu era ayrı-ayrı qatlardan və mərhələlərdən ibarətdir. Bu qatların və mərhələlərin hər biri Azərbaycan xalqının tarixində ayrıca səhifədir. Əlbəttə ki, Ulu öndərin hakimiyyətinin ikinci dövrü onun SSRİ rəhbərliyinə aparılması ilə bağlıdır. Bu dövrdə də, yenə Azərbaycan daima Ulu öndərin diqqətində olmaqla, respublikamızın inkişafı başlıca məsələ kimi SSRİ rəhbərliyinin diqqət mərkəzində tutulurdu. Genetik olaraq, liderlik keyfiyyətlərinə və yüksək xarizmaya sahib olan Heydər Əliyev heç kəsin proqnozlaşdıra bilməyəcəyi proseslər baş verərkən, XX əsrin sonlarında bunları proqnozlaşdırmağı, həmçinin, öz yeri və mövqeyini bu proseslərin içində müəyyənləşdirməyi dəqiqliklə bacarırdı. Eyni zamanda onun qəbul etdiyi şəxsi qərarlar bir növ Azərbaycan xalqının siyasi qərarlarına çevrilirdi.

20 Yanvar faciəsindən sonra Moskvada Azərbaycanın Daimi nümayəndəliyinə gələrək, xalqının ağır günündə onun yanında olduğunu nümayiş etdirən Ulu öndərin bu addımı bütün dünyaya səs saldı. Əslində, bu, Azərbaycanın milli dövlətçilik prinsiplərinin elan olunması və hədəflərinin göstərilməsi idi. Əlbəttə ki, Azərbaycan xalqının milli özünüdərkinin bərpası və müstəqillik mübarizəmizin uğurla sona çatması üçün Ulu öndər Heydər Əliyev böyük xidmətlər göstərdi. Baxmayaraq ki, o dövrdə, istər siyasi baxımdan, istər iqtisadi baxımdan, istərsə də mənəvi-psixoloji baxımdan daim məhdudiyyətlər və təzyiqlər altında fəaliyyət göstərirdi.

Ulu öndərin başqa böyük keyfiyyətlərindən biri də onun böyük müəllim, dahi təbliğatçı və mükəmməl natiq olması idi. Heydər Əliyev “ideya, ideologiya və təbliğat” - universal üçlük formulundan çox məharətlə istifadə etməyi bacarırdı. O, ideyanı verir, onu ideologiyaya çevirir və həmin ideologiyanın kütlə tərəfindən mənimsənilməsini təmin edirdi. Elə Azərbaycanı birləşdirəcək universal formul olan azərbaycançılıq ideologiyasının da müəllifi, təbliğatçısı və icraedicisi, məhz Ulu öndərimiz olub. Əslində, bir xalqın vahid ideologiya ətrafında təşkilatlanması üçün illər keçir.

Heydər Əliyev üçün biz çoxlu titullar deyə bilərik: Ümummilli lider, Ulu öndər, Azərbaycan Respublikasının siyasi rəhbəri, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü, müstəqil Azərbaycan Respublikasının Prezidenti və s. Bunlar, əlbəttə ki, hamısı bir titul, bir vəzifədir. Amma Heydər Əliyev şəxsiyyəti bütün bunların hamısının fövqündə duran bir nümunədir. Yəni bu bir həqiqətdir ki, bütün bu vəzifələrdən və titullardan Heydər Əliyev Azərbaycan xalqının milli və dövlətçilik maraqlarının təmin olunması üçün istifadə etdi. O bir millət mücahidi idi, Azərbaycan xalqının böyük mücahidi idi, Azərbaycan xalqını beynəlxalq münasibətlərdə böyük arenaya çıxarmağı qarşısına məqsəd qoymuşdu. Prezidentlikdən tutmuş digər titul və vəzifələr isə onun üçün, məhz bu məqsədləri həyata keçirmək üçün bir mexanizm və vasitə idi. Ona görə də Ulu öndər Heydər Əliyev Azərbaycan xalqı tərəfindən daima hörmətlə anılacaq.

## HEYDƏR ƏLİYEVİN SİYASİ SABİTLİK VƏ İQTİSADİ İNKİŞAF STRATEGİYASI

***Məmmədli B.İ.***
*Sumqayıt Dövlət Universiteti*

Ölkəmizdə dövlət müstəqilliyimizin qorunub saxlaması və möhkəmləndirilməsində, ictimai-siyasi sabitliyin yaranmasında, torpaqlarımızın düşmənlərdən azad edilməsində, iqtisadi inkişafın Azərbaycan modelinin qurulmasında, görkəmli dövlət xadimi Heydər Əliyevin misilsiz tarixi xidmətləri olmuşdur.

Ulu öndərin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ərəfəsində Azərbaycada ictimai-siyasi sabitlik pozulmuş, hərbi-siyasi müxalif qüvvələr vətəndaş müharibəsi təhlükəsi yaratmış, başıpozuq silahlı dəstələr Azərbaycan torpaqlarını parçalanmağa cəhdlər göstərmiş, sosial-iqtisadi böhran ölkəni bürümüşdü.

Ümummilli Lider Heydər əliyevin siyasi hakimiyyətə qayıdışı ərəfəsində dövlət aparatı, idarçilik sistemi iflic olmuşdu. Xalqımız iqtisadi, siyasi və hərbi böhranla bərabər, mənəvi böhranla da üzləşmişdi. İnsanlarda ümidsizlik, inamsızlıq əhval-ruhiyyəsi yaranmışdı.

Azərbaycanda yaranmış bu vəziyyətdən istifadə edən ermənilər daha da azğınlaşaraq, torpaqlarımızı – şəhər və kəndlərimizi dağıdırdılar.

Belə bir çətin şəraitdə, xalqımızın ağır günlərində Heydər Əliyev xalqın səsini – təkidli tələbini eşidərək, tarixi bir qayıdış etdi – siyasi hakimiyyətə gəldi.

Heydər Əliyev siyasi hakimiyyətə gəldiyi ilk gündən (15 iyun 1993-cü il) bütün varlığı ilə ölkədə siyasi və iqtisadi sabitliyin yaranmasına çalışırdı.

Heydər Əliyev ölkəni böhran şəraitindən çıxarmaq üçün qəti addımlar atdı. Qanunsuz silahlı dəstələr, Azərbaycanı parçalamaq istəyən qüvvələr qısa müddət ərzində zərərsizləşdirildi. Azərbaycan Respublikasının daxili və xarici siyasət konsepsiyası işlənib hazırlandı. Heydər Əliyev milli ordumuzun yenidən qurulması işini daim diqqət mərkəzində saxlayırdı. Ali baş komandan kimi cəbhə bölgələrində əsgər və zabitlərizimizlə görüşməsi onları daha da ruhlandırdı.

Məhz bunun nəticəsi idi ki, 1994-cü il yanvarın 4-5-də milli ordumuzun Beyləqan-Füzuli (Horadiz) Cəbrayıl (Cocuq Mərcanlı) istiqamətlərində apardığı uğurlu döyüşlər zamanı düşmənlər itki verərək Füzulinin arazboyu ərazisini tərk etdilər, silah və hərbi texnikalarını qoyub qaçdılar. Nəticədə Füzulinin 22 yaşayış məntəqəsi düşməndən azad edildi.

Düşmənlər üzərində bu qələbənin əldə edilməsi 1994-cü il mayın 12-də erməniləri atəşkəs sazişini imzalamağa məcbur etdi.

Ümummilli Lider Heydər Əliyev, hakimiyyətinin ilk illərində (1993-1995) ölkədə iqtisadi islahatların keçirilməsi, atəşkəsə nail olunması, dövlət çevrilişinə cəhdlərin qarşısının alınması, siyasi və iqtisadi sabitliyi şərtləndirən əsas amillər idi.

1994-cü il sentyabrın 20-də dünyanın iri neft şirkətləri ilə neft müqaviləsinin imzalanması Ulu Öndərin təşəbüsü və təşkilatçılığı ilə həyata keçirildi. Bununla da Azərbaycan iqtisadiyyatının bünövrəsi qoyulmuş oldu.

Heydər Əliyevin neft strategiyası Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi nüfuzunu artırdı, dünya iqtisadiyyatına inteqrasiyasını təmin etdi. Neft strategiyası Azərbaycan dövlətinin və xalqının maraqları üzərində qurulmuş və əsas etibarı ilə xalqımızın sosial rifah halının yaxşılaşmasına yönəlmişdi.

Neft strateqiyası ilə bağlı mühüm bir məsələni də qeyd etməyə bilmərik. Neft kəmərinin Ermənistan ərazisindən keçməməsi onun "Əsrin müqaviləsi" layihəsindən kənarda qalması, Azər- baycan dövlətinin Ermənistana vurduğu ən ağır ölümcül zərbə idi.

Neft strateqiyası müstəqil Azərbaycan respublikasının yeni iqtisadi siyasət xətti, bu siyasətin uğurla həyata keçirilməsi Azəbaycanı regionda aparıcı güclü dövlətə çevirmiş, dünyada nüfuzunu artırmışdır. Digər vacib bir məsələni də qeyd edək ki, neft strategiyası Azərbaycan ərazilərinin düşmənlərdən azad edilməsində mühüm rol oynaya bilər.

Ulu öndərin keçdiyi həyat yoluna nəzər salarkən bir daha yəqin edirsən ki, onun vətən sevgisi, xalqına, millətinə bağlılığı, ölkəmizdə iqtisadiyyatın elmin, maarifin və mədəniyyətin inkişafı sahəsində həyata keçirdiyi misilsiz işlər həqiqətən dərindən öyrənilməli və gələcək nəsillərə çatdırılmalıdır. Heydər Əliyevin zəngin irsinə söykənən inkişaf strateqiyasının təhlili onun üç fundamental başlanğıca istinad etdiyini söyləməyə imkan verir. Bunlar güclü dövlət, səmərəli və güclü iqtisadiyyat və insan azadlığıdır. Azərbaycanın müşahidə olunan təcrübəsi hər üç başlanğıcın qarşılıqlı ahəngdar fəaliyyətinin, ölkənin yüksək sürətlə inkisafına, hərtərəfli tərəqqi etməsinə xidmət edən əzəmətli vasitəyə çevrilmək gücündə olduğunu təsdiqləyir. Ölkənin və onun əhalisinin təhlükəsiz, əmin-amanlıq şəraitində yaşaması Heydər Əliyev dühasının dövlət quruculuğu sahəsində həyata keçirdiyi tədbirlərinin nəticəsi idi.

XX əsrin 90-cı illərində Azərbaycanın dəf etdiyi çətin, lakin şərəfli yol yalnız Heydər Əliyevin fəaliyyəti sayəsində tarixi həqiqətə çevrilmiєdir. Ulu öndərin dövlətçilik konsepsiyası mahiyyət etibarilə Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini özündə birləşdirən yeni bir inkişaf modeli kimi özünü doğrultdu. Azərbaycani hərtərəfli inkişaf yoluna çıxaran Heydər Əliyev əməllər, xalqa əvəzsiz xidmətləri ilə tariximizdə əbədiyaşarlıq qazandı. Zəmanəmizin ən görkəmli siyasi xadimi siyasi uzaqgörənliyi qətiyyəti və əzmkarlığı ilə Azərbaycanın yeni tarixində dövlətçiliyimizin

möhkəmlənməsinə, müstəqilliyimizin əbədi olmasəna verdiyi töhfələrə görə xalqımızın sevimlisinə, ümummilli liderinə çevrildi.

Heydər Əliyevin xilaskarlıq missiyasının gerçəkləşməsi, dayanıqlı siyasi sabitliyin bərqərar olması, ardınca iqtisadiyyatda geriləmə və tənəzzülün dayandırılması, aqrar islahatların həyata keçirilməsi, yeni iqtisadi sistemə keçidin təmin edilməsi Azərbaycanın gələcək inkişafının əsaslarının yaradılması demək idi. Heydər Əliyevin bünövrəsini qoyduğu davamlı və dayanıqlı siyasi və iqtisadi sabitlik strategiyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

## MÜASİR DÖVRDƏ LİDERLİK MİSSİYASI

***Məmmədova K.N.***
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

Əsrlər boyu liderlik institutu siyasətşünas və filosofların əsas müzakirə mövzularından olmuşdur-fikir müxtəlifliyinə baxmayaraq, ümumi qənaət bundan ibarətdir ki, iqtisadi potensialından asılı olmayaraq, hər bir dövlətin hərtərəfli inkişafı milli lider amili ilə bilavasitə bağlıdır. Tarixən liderlik missiyasını yalnız yüksək nüfuzu, ictimai-siyasi fəallığı, təşəbbüskarlığı, enerjisi ilə fərqlənən, fitri idarəçilik keyfiyyətlərinə malik olan seçilmiş insanlar əzmlə yerinə yetirə, təmsil etdikləri xalqın tarixinə öz möhürlərini vura bilərlər. Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasətçi Heydər Əliyev də böyük siyasətdə qarşıya qoyduğu hədəflərə doğru irəliləyərkən təkcə daxili inamına, iti fəhminə, yüksək intellektinə, parlaq zəkasına deyil, həm də ictimai etimada əsaslanmış, ən böyük dəstəyi xalqdan almışdır. Şəxsiyyət və lider kimi miqyasının böyüklüyü ona hələ sağlığında ümummilli liderlik zirvəsini fəth etmək imkanı yaratmışdır. Məhz bu qeyri-adi xüsusiyyəti sayəsində ulu öndər həm də idarəçilikdə böyük uğurlara imza atmış, cəmiyyətin həlledici hissəsini arxasınca apara bilmişdir. Heydər Əliyev dühası, özünəməxsus liderlik keyfiyyətləri, siyasi prosesləri yönəltmək məharəti, cəmiyyətin maraq və mənafelərini ümumi nöqtədə birləşdirmək bacarığı ilə dövlətə rəhbərlik fəaliyyətinin bütün mərhələlərində xalqın sonsuz rəğbət və etimadını, inamını qazanmışdır.

Böyük siyasi liderlər üçün səciyyəvi cəhətlərdən biri də siyasi intuisiya və uzaqgörənlik, hadisələrin gedişinə təsir göstərmək və ya onu qabaqlamaq bacarığıdır. Tarixən bir çox nüfuzlu liderlərin siyasətdə qarşıya qoyduğu məqsədlərə yetişərək uğur qazanması, rəhbərlik etdiyi kütləni, xalqı böyük fəlakət və faciələrdən qoruması da məhz onların iti fəhminin, intuisiya və uzaqgörənliyi sayəsində mümkün olmuşdur. Azərbaycan xalqının ümummilli lideri də çağdaş tariximizdə məhz uzaqgörən, siyasi proseslərin inkişaf trayektoriyasını duyan, çoxgedişli kombinasiyalar qurmağı bacaran, hadisələrə pozitiv təsir göstərən fenomenal şəxsiyyət kimi xatırlanır. Ulu öndər Heydər Əliyevin hələ sağlığında xarizmatik liderə çevrilməsində həyatı üçün heç bir riskdən çəkinməməsi, sözünü məqamında deməyi bacarması, milli ideallar uğrunda mübarizədə yüksək qətiyyət göstərməsi kimi xarakterik xüsusiyyətləri mühüm rol oynamışdır. Ulu öndər harada olursa-olsun, hadisələrin fövqünə qalxmış, idarəçilik qabiliyyətini reallaşdırmış, fenomen lider imicini qorumuşdur. Liderlik onun xarakterindən, fitrətindən, dünyagörüşündən, yaradıcılıq

enerjisindən, qurub-yaratmaq həvəsindən mayalanmışdır. Siyasi lideri səciyyələndirən əxlaqi keyfiyyətlərin idarəetmə üçün zəruriliyini filosoflar öz nəzəriyyələrində xüsusi önə çəkmişlər. Bütün bunların fonunda ulu öndər Heydər Əliyevin mənəvi-əxlaqi cəhətdən nə qədər zəngin və kamil insan olduğu bir daha aydın görünür. Ümummilli lider istər ailədə, istərsə də dövlət idarəçiliyində və cəmiyyətdə daim milli-mənəvi, əxlaqi dəyərlərə sadiq qalmış, əsl azərbaycanlı-türk dünyagörüşünə malik olmuşdur. Böyük strateq siyasətdə mənəvi əxlaq-sadəlik, düzgünlük, təmizlik, vicdanlılıq, ləyaqətlilik, yurdsevərlik, məğrurluq, mərdlik, qorxmazlıq kimi keyfiyyətləri daim uca tutmuş, irəli çəkdiyi, etimad göstərdiyi kadrların da bu məziyyətlərə malik olmasına ciddi fikir vermişdir. Ulu öndər prinsipial, sərt, məsuliyyətli olduğu qədər də, humanist, tolerant, haqqa, ədalətə böyük önəm verən, mərhəmətli, nəcib və xeyirxah şəxsiyyət kimi milyonlarla azərbaycanlının qəlbində yaşayır, ehtiramla anılır. Dövlət idarəçiliyində, ümumilikdə, siyasi arenada uğuru təmin edən cəhətlər sırasında novatorluq və praqmatizm xüsusi yer tutur. Xaraktercə yenilikçi, təşəbbüskar liderlər həm də praqmatik keyfiyyətləri özlərində daşıyırlar. Ümummilli lider xalqın milli xüsusiyyətlərinin, özünəməxsusluğunun saxlanılması və gələcək nəsillərə çatdırılması məsələsində nə qədər mühafizəkar idisə, elmi-texniki tərəqqiyə, inkişafa, sosial-mədəni tərəqqiyə xidmət edən proqram və konsepsiyaların həyata keçirilməsində, informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqində bir o qədər yenilikçi, islahatçı, novator olmuşdur. Yenilikçilik, təşəbbüskarlıq keyfiyyətləri ilk növbədə onun qurucu və yaradıcı, eyni zamanda maarifçi insan olmasından irəli gəlmişdir. Heydər Əliyev yüksək siyasi fəhmi və uzaqgörənliyi onun reallığa adekvat qərar və proqramlar qəbul etməklə davamlı inkişaf üçün dayanıqlı əsaslar yaratmaq, qonşu dövlətlərlə münasibətləri qarşılıqlı faydalılıq prinsipi əsasında qurmaq, gələcək naminə optimal qərarlar qəbul etmək məharətində təsdiqini tapmışdır. Heydər Əliyev fenomeninin siyasi iradəsi, düşüncəsinin dinamizmi, dünyada gedən prosesləri anlamaq, təhlil edib modelləşdirmək və siyasi davranışın ən əlverişli sxemlərini reallaşdırmaq qabiliyyəti Azərbaycanı xaos və anarxiya mühitindən, vətəndaş müharibəsi təhlükəsindən xilas edərək sabit inkişaf yoluna çıxarmışdır. İctimai-siyasi sabitliyi tam təmin edərək sonrakı mərhələdə həyata keçirdiyi çoxşaxəli islahatlarla bir daha sübuta yetirmişdir ki, güclü iqtisadiyyata, müstəqil xarici siyasətə, demokratik imicə, mənəvi yüksəlişə malik olmayan xalq güclü dövlət qura bilməz.

Hər bir liderin dövlət idarəçiliyində qazandığı uğur və nailiyyətləri şərtləndirən başlıca amillərdən biri də ciddi təmələ söykənən siyasi varislik ənənələrinin qorunmasıdır. Söhbət ölkənin və dövlətin sabit, dinamik inkişafının təkamül yolu ilə davam etdirilməsi xəttinin etibarlı şəkildə qorunmasından gedir. Bu baxımdan ulu öndərin nəhəngliyi həm də ondadır ki, güclü dövlət yaratmaqla yanaşı, onu özündən sonra inamla idarə edəcək, çoxşaxəli mütərəqqi islahatların varisliyini uğurla təmin edəcək peşəkar lider, layiqli davamçı yetişdirmişdir. Xalqın sosial sifarişi əsasında Heydər Əliyev siyasi kursunu davam etdirmək kimi çətin və məsuliyyətli bir missiyanı 2003-cü ilin oktyabrından üzərinə götürmüş cənab İlham Əliyev də öz siyasətini həmin ənənələr çərçivəsində qurur. Ümummilli liderin müəyyən etdiyi strategiyanı uğurla həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə, onun xalqına, dövlətinə necə

bağlı lider olduğu bir daha təsdiqini tapır. Dövlət başçısının idarəçilik keyfiyyətlərindən ən mühümü, şübhəsiz, uzun illər boyu zərrə-zərrə formalaşaraq sabitləşmiş milli dövlətçilik ənənələrinə sadiqlikdir.

Siyasi liderlik, şübhəsiz, kütləlləri ətrafında birləşdirmək bacarığında ifadə olunur. Bu nöqteyi-nəzərdən Azərbaycan Prezidenti İlham Əliyevin şəxsiyyət və lider kimi böyüklüyü onun ideyalarının inteqrativ- birləşdirici mahiyyətindən, ilk növbədə hər bir vətəndaşın maraqlarına hesablanmasından irəli gəlir. Dövlət başçısının milli birlik və həmrəylik konsepsiyası dərin məzmun yükü ilə cəmiyyətin mənəvi bütövlüyündə və monolitliyində aparıcı amilə çevrilməkdən savayı, həm də ona xalqı öz ətrafında birləşdirmək, milli ideallar ətrafında səfərbər etmək imkanı vermişdir. Cənab İlham Əliyev cəmiyyətin bütün siyasi qüvvələrinin, sosial qruplarının, dini-etnik konfessiyalarının birliyini təmin etmək istiqamətində ardıcıl siyasət aparır.

## DÜNYA MİQYASLI SİYASƏTÇİ

***Mərdanov İ.İ.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan tarixi şəxsiyyətlər, görkəmli siyasət və dövlət adamları çox olmuşdur. Bunlar zaman-zaman gördükləri böyük işləri və əməlləri ilə yadda qalmış və unudulmamışlar.

Belə tarixi şəxsiyyətlər içərisində Azərbaycan xalqının ümummilli lideri adını qazanmış görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi Heydər Əliyevin xüsusi rolu vardır. Çünki dövlət xadimlərindən ancaq bu dahi şəxsiyyət milli lider səviyyəsinə yüksəlmişdir. Milli liderliklə siyasi liderlik keyfiyyətlərinin bir dövlət adamında birləşməsi bəşər tarixində nadir rast gəlinən unikal haldır. Ulu öndər bu iki keyfiyyəti ehtiva etməklə bərabər, fəaliyyət göstərdiyi bütün digər sahələrdə də özünü məhz birinci şəxs kimi, lider kimi təsdiq etmişdir.

Bu dahi insan Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi qalmışdır. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyildir. Bu mənada o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan milli liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz böyük Azərbaycanlı idi.

Heydər Əliyev dünyanın nadir, unikal, seçilən siyasət adamı idi. O, dünya siyasətinə təsir etmək gücündə olan lider idi. Liderlər var ki, siyasi fəaliyyət, dövlət idarəetməsi sahəsində uzun illər çalışıb püxtələşdikdən sonra tanınırlar. Elə adamlar da var ki, bu, onlarda fitrən mövcuddur, genlərində kodlaşdırılıb, bir sözlə, ilahi vergidir. Buna “Allahdan lider” deyirlər. Heydər Əliyev məhz ikincilərdəndir. Digər vacib məqam səlahiyyət məsələsidir. Heydər Əliyev tək Azərbaycan səviyyəsində deyil, keçmiş ittifaq səviyyəsində, hətta Qərb miqyasında sözünün keçəri, urvatı olan lider idi. O, beynəlxalq səviyyədə düşünməyi və təhlillər aparmağı bacarırdı. Bu iki məqam onu həmkarlarından əhəmiyyətli dərəcədə fərqləndirən professional cizgilərdəndir.

Bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elminin müntəxəbatını öz fəaliyyəti ilə diktə edən nadir şəxsiyyətlərdən biri idi. O təkcə güclü təsərrüfatçı deyil, həm də sözlərinin çəkisi və sanbalı olan, kütləni arxasınca aparmağı, auditoriyanı inandırmağı bacaran bir siyasi xadim idi. Heydər Əliyev mahir psixoloq, insan qəlbinin dərin bilicisi idi. Buna görə də onun gələcəyi görmək qabiliyyəti başqalarına, həmkarlarına nisbətən daha güclü idi.

Tarixi bəsirət, irəlini görmək nadir bir hissdir. Siyasi xadimlərin heç də hamısında bu hiss olmur. Təbiət bu keyfiyyəti yalnız seçilmiş adamlara – zəmanəsini çox-çox qabaqlayan görkəmli mütəfəkkirlərə verir. Nəhəng siyasətçi Heydər Əliyev kimi. O, analitik düşüncə tərzi ilə, çətin vəziyyətlərdə soyuqqanlılığını saxlamaq məharəti ilə, yüksək intellekti, dünya mədəniyyətinə bələdliyi ilə ətrafdakıları heyrətləndirirdi.

Ulu öndəri xarizmatik lider, fenomenal şəxsiyyət adlandırırlar. Müasir siyasi texnologiyalarda lider üçün xarizma məsələsi çox vacib şərt hesab edilir. Heydər Əliyev məhz güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimi idi. Onun ən böyük gücü dərin, həm də universal biliyində, qətiyyətində, işgüzarlığında, hökmündə, qeyri-adi yaddaşında, tükənməz səbrində, müsahibini təmkinlə dinləmək bacarığında, uzaqgörənliyində, qarşısına qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, ən böyük siyasətçi keyfiyyətlərində, mahir diplomat olmasında, həmsöhbətinə təsir etmək gücünə malik olmasında idi. Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, səbat, diqqət və başqa cəhətlər Heydər Əliyevin fərdi naturasının özgün çalarları idi.

Heydər Əliyev böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətli sözünü deyə bilən nadir siyasətçi idi. Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişatını öncə görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdi.

Təsadüfi deyildir ki, onun atdığı addımlar, irəli sürdüyü problemlər, qəbul etdiyi qərarlar, söylədiyi fikirlər öz aktuallığı, düzgünlüyü və obyektivliyi və hər cəhətdən ölçülüb biçildiyindən ətraflardakıları heyrətləndirmiş, "siyasət aləminin patriarxı" adını qazandırmışdır. Hətta dünyanın ən görkəmli siyasət və dövlət xadimləri Heydər Əliyevlə məsləhətləşdiklərini, ondan öyrəndiklərini dönə-dönə etiraf etmişlər. Siyasətçilər bu dahi insanı "liderlərin lideri" adlandırırdılar. Onun siyasətinin gücü nədə idi?!

– Siyasi uzaqgörənliyində, fitri istedadında, müdrikliyində, ölçülüb-biçilmiş qərarlarında, qətiyyətliliyində, siyasi iradəsində, dərin zəkasında, ensiklopedik biliyə malik olmasında, geniş dünyagörüşündə, milli maraqlara əsaslanmasında, tarixi şəraitdən düzgün baş çıxarmasında, zaman və məkan amilini qiymətləndirməsində, dözüm və səbirliliyində, nəzəriyyəyə istinad etməsində və praktik həyatdan baş çıxarmasında – bir sözlə, fenomenal şəxsi keyfiyyətlərində idi. Bu dahi siyasətçi zərgər dəqiqliyi ilə, ölçülüb-biçilmiş qərarlar qəbul edirdi. Onun fəaliyyəti haqsız yerə "təftiş" ediləndə belə irad tutulması, "nöqsan deyiləsi" olan bir fakt belə tapa bilməmişlər. Yarım əsrlik siyasi fəaliyyətin qızıl qaydası çoxları üçün təəccüblü idi. Təəccüb və möcüzələr, başqalarını şok vəziyyətinə salan faktlar yüzlərlədir. Elə bu keyfiyyətlər onu başqalarından fərqləndirirdi.

# HEYDƏR ƏLİYEV SİYASƏTİNDƏ DİNAMİK İNKİŞAF STRATEGİYASI

***Mikayılov Ş.S.***
*Azəbaycan Dövlət Pedaqoji Universiteti (Şamaxı filialı)*

Azərbaycanın müstəqil bir ölkə kimi ayağa qalxmasına, özünü dərk etməsinə, özünəməxsus inkişaf modeli hazırlayıb həyata keçirməsinə mane olan, iqtisadi, mədəni-mənəvi həyatın müstəqillik şəraitində öz məcrasına düşməsini ləngidən səbəblərdən biri müharibə idisə, digər tərəfdən qarşıdurma, hər iki qütbü təmsil edən qüvvələrin hakimiyyət iddiaları idi. Bu iddialar müstəqilliyin ilk illərində ölkəmizə böyük ziyanlar vurdu. O vaxt rəhbərlikdə olan qüvvələrlə xalq hərəkatını təmsil edən milli, qeyrət və vətəndaşlıq mövqeyində olan qüvvələr qarşı-qarşıya dururdu. Birincilərdə vətəndaşlıq mövqeyi, ikincilərdə isə dövlətçilik təcrübəsi çatışmırdı. Həm böyük dünyagörüşü və rəhbərlik təcrübəsi olan, həm də xalqın həqiqi milli mənafeyini müdafiə etmək əzmində olan yeganə qüvvə nə iqtidar, nə də müxalifət tərəfindən yaxına buraxılmırdı. Xoşbəxtlikdən belə taleyüklü yol ayrıcında, xalq öz sözünü deyə bildi. O vaxt ölkəmizə keçmiş SSRİ-nin dövlət quruculuğu təcrübəsinə hamıdan yaxşı bələd olan, onun üstünlüklərini və çatışmazlıqlarını ən yüksək pillədən görmüş və regional spesifikasını, potensial ilmkanlarını və onların realizə yollarını hamıdan yaxşı bilən bir liderin, heydər Əliyevin rəhbərlik etməsi keçid dövrünün əsasən başa çatmasına şərait yaratdı.

Məlumdur ki, müstəqilliyin taleyi 3 əsas amildən asılıdır: dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadiyyatın dirçəlməsi, mədəni-mənəvi dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsi. Bu amillərin üçü də əsasdır. Lakin onları necə sıraya düzməkdən, onların yerini və rolunu düzgün qiymətləndirməkdən çox şey asılıdır. Bu amillərdən hansının məqsəd, hansının vasitə, hansının təməl olduğunu aydınlaşdırmadan düzgün strateji fəaliyyət proqramı müəyyənləşdirmək mümkün deyil.

Dövlət quruculuğu Heydər Əliyevin fəaliyyət strategiyasında özlüyündə son məqsəd deyildi. Dövlətin möhkəmləndirilməsi ona görə bir nömrəli vəzifədir ki, o bizim iqtisadi siyasətimizn və milli mənəviyyatımızın təminatçısı olsun.

Bəli, o, milli-iqtisadi potensialın yaradılmasına və ondan isdifadə olunması yollarını Ümumillilider Heydər Əliyev belə şərh etmişdir: Bizim iqtisadi siysətimiz məlumdur və o, Azərbaycanda bazar iqtisadiyyatı yolu ilə getmək və bu yol ilə Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatına sıx surətdə bağlamaq məqsədi daşıyır. Lakin bütün bu əlaqələr zamanı heç vaxt unudulmur ki, bizim bütün təbii sərvətlərimiz xalqa məxsusdur. Bu sərvətlər "Azərbaycanın tam sərbəst, heç bir dövlətdən asılı olmayaraq yaşamasına imkan verir. Güman edirəm ki, müstəqilliyimiz tam bərqərar etdikdən və qarşıda duran vəzifələri həyata keçirildikdən sonra ölkəmizin bu iqtisadi potensialının bəhrələrini Azərbaycanın hər bir vətəndaşı görəcək və bunun sayəsində şən, firavan yaşayacaqdır" (Heydər Əliyev).

Ölkə rəhbərliyi tərəfindən həyata keçirilən son dərəcə dəqiqliklə düşünülmüş siyasətin nəticəsidir ki, əksər dünya ölkələrində hələ də davam edən qlobal maliyyə böhranı Azərbacan iqtisadiyyatı üçün demək olar ki, təsrisiz ötüşmüş və böhran dövründə iqtisadi inkişaf tempini qoruyub saxlaya bilən, son illərdə ümumi daxili məhsulun əhəmiyyətli həcmdə artımını təmin edən, əhalinin maddi gəlirlərinin artımına və beləliklədə ümumi rifah

halının yüksəlməsinə nail olmuş ölkələrdən biri olan Azərbaycan Respublikası hazırda iqtisadi inkişaf tempinə görə dünyada qabaqcıl ölkələri sırasındadır. Bu da ölkəmizdə sosial-iqtisadi sahədə həyata keçirilən siyasətin kifayət qədər praqmatik olması və reallıqlara əsaslanması, ən xırda detallarına qədər uzaqgörənliklə düşünülməsi ilə səciyyələnir.

Əlbəttə ki, elm və təhsil sahəsində də müvafiq strategiyalar üzrə aparılan islahatlar və həyata keçirilən dövlət tədbirləri ölkəmizin dinamik iqtisadi inkişafı və geniş maliyyə imkanlarına malik olamsı ilə sıx bağlıdır. Hazırda təhsil sahəsində ümumilikdə sayı 16-dan çox olan dövlət proqramları və xüsusi əhəmiyyətli tədbirlər həyta keçirilir. Belə ki, təhsil sahəsi ölkədə digər sahələrdən fərqli olaraq ən çox dövlət proqramları ilə əhatə olunan yeganə sahədir. Bu da bir daha Ümummillilidərimizin sözləri ilə desək millətimizin gələcəyi olan təhsilə dövlətimizin son dərəcə diqqət və qayğı ilə yanaşmasına bariz nümunədir. Qeyd olunan dövlət proqramları və xüsusi əhəmiyyəli tədbirlər hazrıda çox böyük uğurla həyata keçirilir, nəticədə ildən ilə təhsilin məzmununda bütün səviyyələrdə müsbət irəliləyişlər əldə edilir və təhsil müəssisələrnin maddi texniki bazası möhkəmləndirilir.

Heydər Əliyevin çıxışları və əsərləri ilə diqqətlə tanış olsaq görərik ki, onun ən böyük nailiyyət saydığı hadisə Azərbaycanın müstəqilliyi, ən çox vurğuladığı və diqqət verdiyi vəzifə isə müstəqilliyin dönməzliyinin təmin edilməsidir.

Lakin nə iqtisadiyyat, adamların güzəranının rifah halı, nə də dövlət quruculuğu müstəqillik yolunun son məqsədi ola bilməz. Əgər xalq dövlət qurursa, iqtisadiyyatı inkişaf etdirirsə, sərhədləri möhkəmləndirirsə və bu sərhəd daxilində özündə milli mədəniyyət yaşadırsa, özünün milli mənəvi ideologiyasını dərk edirsə, o xalq daim azad ola bilər.

Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində, ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olundu. Ən böyük nailiyyət ondan ibarət idi ki, bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modeli- Azərbaycan modeli yarandı. Azərbaycan neftini dünya bazarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu idə isə Bakı-Supsa ixrac neft kəmərlərinin inşası ilə bağlı sazişlərin imzalanmasına, yəni neft ixracının difersifikasiyasına nail olurdu.

## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MARAQLARININ TƏMİN OLUNMASINDA ROLU

***Muradova K.V.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Respublikasının əsas inkişaf prioritetləri ilk növbədə onun milli maraqlarının formalaşması və təmin olunması ilə bağlıdır. Müasir dövrdə ölkələrin milli inkişaf tələbləri onların daxili və xarici siyasətini - sosial-iqtisadi və siyasi-hüquqi inkişafının vəzifələrini və səviyyəsini, respublikanın coğrafi və geosiyasi mövqeyini, milli-tarixi ənənələrinin qorunmasını və inkişaf etdirilməsini, dövlətin suverenliyinin və milli təhlükəsizliyinin təmin olunmasını və s. çoxsaylı vəzifələrin həyata keçirilməsini tələb edir. Bütün bunlar öz əksini geosiyasət elminin "milli maraq" kateqoriyasında tapır. Milli

maraqlar öz məzmununa görə ictimai maraqlardan bir qədər fərqlənir. Belə ki, ictimai maraqlar dövlətin daxili siyasətini müəyyənləşdirən qanunlar sistemi ilə bağlıdır və onunla tənzimlənir. Milli maraqlar isə əsasən dövlətin xarici siyasət sahəsinə aiddir və beynəlxalq aləmlə təmasda onun rəsmi fəaliyyətinin əsasını təşkil edir. Lakin bu fərqlərə baxmayaraq hər bir ölkənin ictimai və milli maraqları bir-birini tamamlayır. Çünki həm beynəlxalq aləmin və ölkələrarası münasibətlərin təsiri ictimai maraqlardan yan keçmir, həm də milli maraqlar ölkədəki sosial-iqtisadi vəziyyətdən, ictimai-siyasi sabitlikdən və mənəvi-əxlaqi mühitin sağlamlığından bilavasitə asılı olur. Keçid dövrünü yaşayan ölkələrdə isə ictimai və milli maraqlar arasındakı qarşılıqlı təsir və birbaşa bağlılıq özünü daha qabarıq şəkildə büruzə verir. Butün bu formulaları Azərbaycan Respublikasına da şamil etmək olar.

Azərbaycanın daxili siyasətində vətəndaşların əsas maraqlarını hakimiyyət qurumları, ictimai-siyasi təşkilatlar və digər yerli strukturlar ifadə edirsə, milli maraqları beynəlxalq aləmdə və ölkə daxilində əsasən Azərbaycan dövləti və onun müvəkkil etdiyi qurumlar həyata keçirir. Azərbaycan Respublikasının milli maraq çərçivəsi dünya ölkələrinin yuxarıda sadalanan universal təhlükəsizlik ölçülərini nəzərə almaqla yanaşı, həm də məxsusi təhlükəsizlik təhdidlərinə əsaslanan bəzi xarakterik xüsusiyyətləri ilə şeçilir. Azərbaycanın milli təhlükəsizliyinin bu gün üçün ən əsas problemi və hərbi-geostrateji vəzifəsi illərdir uzanan və sonu görünməyən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq, ölkənin pozulmuş ərazi bütövlüyünü və suveren dövlət hüquqlarını bərpa etmək və bu fonda regionda sülhü və dinc əməkdaşlıq mühitini təmin etməkdən ibarətdir. Ölkənin xarici aləmlə bütün təmaslarında, ikitərəfli və çoxtərəfli münasibətlərində bu problemin müzakirəsi və beynəlxalq hüquq normaları çərçivəsində həlli məsələsi daim diqqət mərkəzində saxlanılır. Bu problem həm də nəinki təkcə Azərbaycana, onun müstəqil dövlət quruculuğu prosesinə, vətəndaşlarının sabit həyat şəraitinə ciddi zərbə vurmuş, eyni zamanda həm də 15 ildən artıq bir dövrdə regionda (Qafqaz, Xəzər-Qara dəniz hövzəsində) dövlətlərarası iqtisadi, siyasi və mədəni əlaqələri pozmuş, ölkələri və xalqları qarşıdurmaya sürükləmiş, onların bir-biri ilə və beynəlxalq aləmlə münasibətlərinə, regional və beynəlxalq inteqrasiya proseslərinə çox ciddi mənfi təsir göstərmişdir. Hazırda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi həm Cənubi Qafqazda, Avrasiya və Avropada, həm də bütövlükdə qlobal dünyada həllini gözləyən ən çətin və mürəkkəb problemlərdən biri hesab olunur.

Azərbaycanın milli təhlükəsizliyinin həyati əhəmiyyət kəsb edən ikinci əsas məsələsi malik olduğu təbii sərvətləri, respublikanın karbohidrogen və enerji ehtiyatlarını (xüsusən Xəzər dənizinin Azərbaycana aid olan milli sektorunda istehsal olunan nefti və təbii qazı) xarici müdaxilə olmadan, özünün müəyyən etdiyi xarici tərəfdaşlarla birgə işləmək, heç kimdən asılı olmayan, təhlükəsiz və əlverişli yollarla dünya bazarlarına çıxarmaq və əldə olunan gəliri ölkənin inkişafına və digər ehtiyaclarına yönəltməkdən ibarətdir. Bundan başqa, Azərbaycanın milli maraq çərçivəsinə həm də:

- Ermənistanın işğalının nəticələrinin aradan qaldırılması, öz yurdundan didərgin salınmış qaçqın və köçkünlərin geri qaytarılması və məskunlaşdırılması;
- İşğalın bir daha təkrarlanmaması üçün zəruri təhlükəsizlik tədbirlərinin görülməsi, o cümlədən milli ordunun lazımi hərbi hazırlıq vəziyyətinə gətirilməsi;

- Azərbaycan xalqının milli birliyinin və varlığının, bu xalqa məxsus əsrlər boyu formalaşmış adət-ənənələrin, milli-mənəvi dəyərlərin, dilin, dinin qorunması, yaşadılması və ümumbəşəri dəyərlər hesabına zənginləçdirilməsi;
- Ölkədə hüquq normaları və qanunçuluğun, şəxsiyyət azadlığı və hüquqlarının dönmədən təmin olunması, mövcud ictimai-siyasi sabitliyin, vətəndaş cəmiyyəti normalarının, tolerant etnik və dini mühitin qorunması və inkişafı, separatçılıq, siyasi, etnik və dini ekstremizmin aradan qaldırılması;
- Dünya azərbaycanlılarının birlik və həmrəyliyinin təmin edilməsi, onların vətənpərvərlik hisslərinin gücləndirilməsi, azərbaycançılıq ideyası ətrafında birləşdirilməsi, dünyada yaşayan soydaşlarımızın milli və vətəndaş hüquqlarının təmin edilməsi və s. problemlər də Azərbaycanın milli təhlükəsizliyini təhdid edən spesifik faktorlar hesab oluna bilər.

Məkan əlamətlərinə görə Azərbaycanın milli maraq çərçivəsi:

1. Ölkənin öz ərazisi daxilində təzahür edən;
2. Regional münasibətlərdə, yaxud beynəlxalq məkanda, qonşu ölkələrlə təmasda, hər hansı hökumətlərarası təşkilatlar çərçivəsində və s. şəklində təmsil olunan maraqlar kimi qruplaşdırmaq olar.

Milli maraqlar əsas və yaxud ikinci dərəcəli, daimi, yaxud əvəzlənən, uzunmüddətli, yaxud qısamüddətli maraqlara ayrılır. Əsas və daimi milli maraqlar bir çox mühüm geosiyasi parametrlərinə - dövlətin beynəlxalq münasibətlər sistemindəki yerinə və roluna, nüfuzuna və hərbi gücünə, özünün suverenliyini qoruyub saxlamaq və vətəndaşlarının təhlükəsizliyini təmin etmək qabiliyyətinə və s. görə müəyyənləşir.

## AZƏRBAYCANDA DAĞ-MƏDƏN SƏNAYESİNİN İNKİŞAFINDA ALMAN KAPİTALI

***Musayev E.A.***

*Gəncə Dövlət Universiteti*

Azərbaycanda dağ-mədən sənayesinin kifayət qədər zəngin tarixi vardır. Əvvəla qeyd etmək lazımdır ki, Azərbaycanda dağ – mədən sənayesinin formalaşması üçün zəngin potensial mövcuddur. Qədim zamanlardan Azərbaycanın faydalı qazıntılarının olması yerli insanlara məlum olub. E.ə.VI-IV minilliklərdə Gədəbəy bölgəsində və eləcə də Kiçik Qafqazın dağlıq ərazilərində bu bölgənin köklü sakinləri mislə tanış olmuşdular. Eneolit dövrü daş dövründən sonra başlamışdır. Cəmiyyətin tarixi inkişafının ən mühüm mərhələlərindən birində - Eneolit dövründə insanlar mis külçəsinin döyülmə xassəsini icad edərək ondan əşyalar hazırlamağa başladılar. Mis-daş dövrü daşdan tunca keçid mərhələsi idi. Bəzi ölkələrdə bu mərhələ nisbətən tez, digərlərində isə gec başlanmışdır. Birinci dəfə mis əşyalar Qədim Şərq ölkələrində meydana gəlir.

Azərbaycan və bütün Cənubi Qafqaz misişləmə peşəsinə çox erkən yiyələnmiş ölkələr sırasına daxildir. Azərbaycanda Eneolit dövrü eramızdan əvvəl VI minillikdən başlanır və IV minilliyin ortalarına qədər davam edir. Eneolit dövründə iqtisadiyyat və mədəniyyətdə ümumi yüksəliş müşahidə olunur, əkinçilik və maldarlıq təsərrüfatın əsas sahələri olur,

əhalinin sayı xeyli artır, əkinçi-maldar qəbilələri geniş ərazilərdə yayılır, qəbilələrarası əlaqələr güclənir. Bu dövrdə Qədim Şərqin bəzi rayonlarında siniflərin və dövlətin meydana gəlməsi üçün zəmin yaranır.

Misdən müxtəlif əmək alətləri və məişət alətləri hazırlamışdılar. Tədricən metal emalına başlayan yerli sakinlər ilk tanış olduqları metal olan misin xassəsini öyrənmiş və onun möhkəmlənməsi üçün tərkibinə müxtəlif elementlər qatmaqla onu daha da bərkidərək tunc əldə etmişlər. Bu onu göstərir ki, Azərbaycanda yerli əhali metal işləmə sənətini öyrənməklə bu sahəni inkişaf etdirmişdilər. Tədricən böyük təcrübələr əsasında və zəngin faydalı qazıntılar hesabına Azərbaycanda dağ – mədən sənayesi formalaşmış və inkişaf etmişdir. Mis emalının inkişafı nəticəsində xüsusi sənətkarlıq sahəsi olan misgərlik sənəti yaranıb inkişaf etmişdir. Bir sənət kimi onun təşəkkülü artıq orta əsrlərdə böyük şəhərlərin misgərlik mərkəzinə çevrilməsinə gətirib çıxarıb. Azərbaycanda misgərliyin hələ erkən dövrlərdən yüksək inkişaf etdiyini bir sıra Avropa ölkələrində, o cümlədən Rusiya muzeylərində saxlanan mis eksponatlar da sübut edir.

Şimali Azərbaycanda misgərlik sənətinin mərkəzlərinin Gəncə, Naxçıvan, Şamaxı, Bakı, Lahıc (İsmayıllı) və s. olduğu söylənilir. XIX əsrdən başlayaraq Lahıc misgərliyin əsas mərkəzinə çevrilib. Lahıc ustalarının misdən hazırladıqları, mürəkkəb və incə naxışlarla bəzədikləri dolça, satıl, sərnic, sərpuc, güyüm, teşt, məcməi, sini, dolça, aşsüzən, kəfkir, kasa, cam, qazan, çıraq və s. məmulatlar Orta Asiya, Dağıstan, Gürcüstan, İran, Türkiyə və Avropa ölkələrində tanınıb.

Azərbaycanda dağ – mədən sənayesinin inkişafı XIX əsrin ortalarından başlayır. Bu sahənin inkişafı əsasən xarici kapital axını nəticəsində, xüsusilə də alman iş adamlarının bu sahəyə marağının artması ilə başlamışdır.

Hələ XIX əsrin 50-ci illərində Gədəbəy-Daşkəsən zonasında mis-mədən sənayesi inkişaf etmişdir. 1855-ci ildə Gədəbəydə Kıryakov və Mexov kiçik bir zavodu işə salmaqla burada mis isthesal etmişlər. Elə həmin illərdə Daşkəsəndə ikinci bir mis əritmə zavodu işə salınmışdı. Bu zavod da kiçik bir müəssisə olmuşdur. Ancaq Simens qardaşlarının Azərbaycana gəlməsi ilə bu sahədə ciddi irəliləyişlərə nail olundu. 1864-cü ildə Simens qardaşları Gədəbəy zavodunu alaraq, köhnə zavodun əvəzinə yenisini tikirlər və bu işə o dövr üçün kifayət qədər böyük vəsait xərcləyirlər. Simens qardaşlarının zavodu o dövrün ən müasir texnikası əsasında tikilmişdi və Çar Rusiyasının misə olan tələbatının ödənilməsində əhəmiyyətli rol oynayırdı. Azərbaycanın qərb hissəsində yerləşən misəritmə sənayesi təkcə Zaqafqaziyada deyil, Rusiyanın əlvan metallurgiya sənayesində mühüm rol oynayırdı. Hələ XIX əsrin 60-cı illərində təsis edilmiş "Simens qardaşları və $K^0$" pay şirkətinə məxsus Gədəbəy misəritmə zavodu 80-90-cı illərdə yüksək inkişaf mərhələsinə çatmış və ən iri kapitalist müəssisəsinə çevrilmişdir. 80-ci illərin əvvəllərində inşa edilmiş ikinci zavod-Qalakənd misərtmə –missaflaşdırma zavodu 20 ildən çox fəaliyyyət göstərmişdir.

Gədəbəy mis istehsalı müəssisələri heç də sırf alman kapitalı ilə yaradılmamışdır. Bu kapitalın az bir hissəsi biləvasitə alman təbəəsinin

kapitalı olmuşdur. Əsas hissəsi isə rus təbəəsi Karl Simensə məxsus kapital təşkil etmişdir.

Azərbaycanın qərbində iri dağ-mədən sənayesi ocağı qarışıq kapital əsasında meydana gəlmiş, tədqiq olunan dövrdə isə bəzi yeni istehsal sahələri baxımından xeyli şaxələnmişdir.

XX əsrin əvvəllərində Azərbaycanın əlvan metallurgiyi sənayesi Zaqafqaziyada istehsal olunan məhsulun yarıdan çoxunu və ya da yarısnı verirdi. 1902-ci ildən məhsulun birdən-birə 30 min puda qədər azalması biləvasitə Qalakənd zavodunun məhsul istehsalının az qala dayandırılması ilə bağlı idi. Bu zavod ildən-ilə mis istehsalını azaldaraq, nəhayət 1906-cı ildə tamamilə dayanda. Əsərdə qeyd olunur ki, 1907-ci il də dadil olmaqla Azərbaycanda mis isthesalı gah inkişaf etmiş, gah da geriləmişdir.

Tarixə qısa ekskursiya etməkdə məqsədim, Azərbaycanda bu sahənin bazasının olmasını qeyd etməkdir.

Onu da qeyd etmək lazımdır ki, bu gün dağ – mədən sənayesində xarici capital mühüm yer tutur.Azərbaycan müstəqillik əldə etdikdən sonar xarici capital axını sürətləndi. Xüsusilə də bu sahəyə sərmayə qoyan ölkə kimi Almaniya yenidən ön sıralarakeçdi. 1993-2005-ci illər arasında bir sıra alman şirkətləri Azərbaycanın dağ – mədən sənayesinə böyük həcmdə investisiyalar qoydular. Çünki, Almaniyanın Azərbaycanla əlaqələrinin dərin tarixi kökləri vardır. Məhz bu baxımdan da Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi 1993-2003-cü illərdə Almaniyanın bir çox şirkətləri Azərbaycana gəldi və böyük həcmdə sərmayələr qoydular.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra iki ölkə arasında münasibətlər müəyyən mərhələyə qədər rəvan inkişaf edib. 1992-ci ildə Almaniya ilə Azərbaycan arasında diplomatik münasibətlər qurulub, səfirliklər açılıb. Həmin dövrdə siyasi dəstəyə və sərmayələrə böyük ehtiyacı olan rəsmi Bakı Avropanın ən güclü iqtisadiyyatı ilə yaxın əlaqələr yaratmaqda maraqlı olduğu kimi, yenicə birləşmiş Almaniya da öz təsir dairəsini genişləndirmək, mühüm strateji bölgədə yerləşən, zəngin təbii ehtiyatlara və güclü inkişaf potensialına malik Azərbaycanla təmaslarını gücləndirmək perspektivindən imtina edə bilməzdi. 1995-ci ilin dekabrında Almaniyanın o zamankı xarici işlər naziri Klaus Kinkelin Azərbaycana, 1996-cı ilin iyulunda isə Azərbaycanın Prezidenti Heydər Əliyevin Almaniyaya səfərləri iki ölkə arasında əlaqələri yeni səviyyəyə yüksəltdi. Sonrakı illərdə ölkələr arasında iqtisadiyyat və bütün sahələrdə uğurlu əməkdaşlıq inkişaf etdirildi. Siyasi əlaqələrin möhkəmlənməsi, əlverişli investisiya mühiti alman şirkətlərinin Azərbaycana gəlməsi və uğurlu fəaliyyətinin başlıca səbəbləri kimi xarakterizə oluna bilər. "Simens", "Ferrosstal", "İnterselekt", "Mersedes Bens" kimi iri şirkətlər də daxil olmaqla Almaniyanın 150-yə yaxın biznes subyekti Azərbaycanda aktiv fəaliyyət göstərməyə başlamışlar.

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANÇILIQ İDEALOGİYASINDA GƏNCLƏR SİYASƏTİ

***Musayev E.A.***
*Gəncə Dövlət Universiteti*

Azərbaycanda gənclərə, onların cəmiyyətdəki mövqelərinə münasibət birmənalı olmayıb. Bu məsələyə qiymət müxtəlif vaxtlarda müəyyən qruplar tərəfindən birqütblü qiymətləndirilib.

Çar Rusiyasının vaxtında gənclərdən yalnız öz maraqları naminə istifadə olunub. Belə münasibət elə sovet totalitar rejimi dövründə də olub. Lakin gənclərə münasibət respublikamız müstəqillik əldə etdikdən sonra tamamilə kökündən dəyişdi. Belə ki, gənclərə, onların ictimai mövqelərinə, siyasi hərəkat və təşkilatlarda təmsil olunmalarına görə hansı dərəcədə əhəmiyyətli olduğunu həmin dövrün siyasi hakimiyyəti müəyyən edirdi.

Bu gün dünyada gedən ictimai–siyasi proseslər Azərbaycanda da gənclərlə bağlı ümumi strategiyanın və ideologiyanın formalaşmasına çox böyük təsir göstərir.

XX əsrin əvvəllərində olduğu kimi, həmin əsrin sonlarında da gənclər müxtəlif təşkilatlarda təmsil olunurdular. Onlarda milli şüurun təşəkkül tapması və inkişaf etməsində həmin dərnəklərin rolu böyük oldu. Gənclər müxtəlif dövrlərdə mövcud dövrün problemləri ilə maraqlanır, həmin problemlərin aradan qaldırılması yollarını birgə müzakirə edirdilər. Bu da xalqın maariflənməsində və mətbuatın inkişafında müstəsna rola malik olub, tərəqqisinə təkan verdi. Bütün bunlar Azərbaycanın gənc ziyalılarında azadlıq uğrunda mübarizəni sistemləşdirdi.

Elə bunları nəzərə alan Heydər Əliyev gəncləri ölkənin ictimai-siyasi həyatında daha da fəal iştirak etməyə, ölkənin taleyinə biganə qalmamağa çağırmışdı.

Ümummilli lider Heydər Əliyev gənclərlə iş sahəsində dövlət siyasətini həyata keçirmək məqsədilə 1994-cü ilin iyulun 26-da yeni dövlət qurumunun - Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzaladı.

Gənc nəslin vətənpərvərlik tərbiyəsində Heydər Əliyevin gənclər siyasətindəki mühüm amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Gənclərin mənəvi tərbiyəsində fəal həyat mövqeyinin formalaşdırılması

2.Gənclərin fəal həyat mövqeyinə yiyələnməsi və vətəndaşlıq mövqeyinin qiymətləndirilməsi

3.İctimai mənafe ilə şəxsi mənafe arasında vəhdət yaratmaq.

4.Əməkdə, təhsildə, ailə-məişət münasibətlərində nümunəvilik göstərmək.

5. Asudə vaxtdan səmərəli istifadə etmək

6. Əqidəsində möhkəmlik yaratmaq, ideya-mənəvi keyfiyyətlərində iradə zənginliyi yaratmaq

7. Yeni-yeni məsələləri həll etməkdə təşəbbüskarlıq göstərməklə nailiyyətlər qazanmaq

8.Çətin məsələlərin həllində qətiyyətli hərəkət etmək

9.Gənclərin mənəvi tərbiyəsində azərbaycançılıq ideyalarının bərqərar edilməsi

10.Azərbaycançılıq ideyaları timsalında gənclərə sərbəst düşüncə, nümunəvi əxlaq, bir-birinə inam, etibar, sədaqət, vətənpərvərlik hissləri təlqin etmək

11. İctimai həyatın bütün sahələrində iqtisadiyyatda, mədəniyyətdə, elm və təhsildə, təsərrüfatda, ictimai şüurda sərbəstlik, azadlıq və müstəqillik ideyalarının formalaşdırılmasına xidmət etmək, bu ideyaların həyata keçməsi Azərbaycanın bir müstəqil dövlət kimi formalaşmasının ideya bazasını təmin etmək

12. İctimai şüurun sosial həyatla vəhdəti bazasında azərbaycançılıq ideyalarının mənimsənilməsi 14.Vətənpərvərlik tərbiyəsində gənclərə, gəncliyə yaradıcı və aparıcı bir qüvvə kimi yanaşılması, müstəqıl, azad, demokratık dövlətin bünövrəsinin yaradılmasında gəncliyin rolunun qiymətləndirilməsi

15.Demokratik cəmiyyətin qurulmasında yalnız vasitə kimi nəzərə alınmır, həm də onlar bu cəmiyyətin varisləri, davamçıları kimi qiymətləndirilir. Gənclər gələcəyin aparıcı qüvvəsi hesab edilirlər.

Dövlət gənclər siyasətinin mühüm tərkib hissəsi gənclərin vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsidir. Məhz bu məqsədlə aidiyyatı dövlət orqanlarının (təhsil, müdafiə nazirliklərinin) iştirakı ilə müxtəlif tədbirlər həyata keçirilmiş və keçirilməkdədir. 1998-ci ilin martında «Gənclərin vətənpərvərlik tərbiyəsinin daha da yaxşılaşdırılması yolları» mövzusunda respublika elmi-praktik konfransı keçirilmiş, müvafiq mövzuda 1999-cu ildə xüsusi proqram qəbul edilmişdir. Böyüməkdə olan gənc nəslin ordu sıralarında xidmətə hazırlanması məqsədi ilə orta məktəblərin IX-XI sinif şagirdləri arasında «Şahin», «Cəsurlar», «Marş irəli!», «Vətənin müdafiəsinə hazıram!» hərbi idman oyunlarının keçirilməsi ənənə halını almışdır.

Yeniyetmə və gənclərin sosial problemlərinin həlli də gənclər siyasətinin mühüm istiqamətini təşkil edir. Gənclərlə aparılan işin əsas istiqamətlərindən biri də hüquq pozuntularının, cinayətkarlığının və narkomanlığın qarşısının alınmasıdır.

Azərbaycan dövlətinin apardığı gənclər siyasətinin tərkib hissəsini bədii yaradıcılığa, ədəbiyyata, incəsənətə meyil göstərən gənclərin üzə çıxarılması, onlar üçün əlverişli yaradıcılıq mühitinin formalaşdırılmasıdır. Gənclərlə iş sahəsində beynəlxalq əlaqələrin qurulması da əsas fəaliyyət istiqamətlərindən biridir. Heydər Əliyevin Prezidentliyi dövründə gənclərin hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şərait va təşkilatların yaradılmasını sürətləndirmiş, onların ictimai-siyasi fəallığının artmasına kömək etmişdir.

Məhz Heydər Əliyevin azərbaycançılıq ideologiyasının formalaşmasında gənclərin də müstəsna fəaliyyəti olmuşdur. Dövlət quruculuğu işlərində gənclərin potensialından istifadə olunması bu siyasətin bariz nümunəsidir.

## AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFI HEYDƏR ƏLİYEVİN ADI İLƏ BAĞLIDIR

***Musayeva M.A.***

*Sumqayıt Dövlət Universiteti*

Ölkəmizə 30 ildən çox rəhbərlik etmiş Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyev nəinki ictimai, siyasi, həm də iqtisadi sahədə kifayət qədər həlledici addımlar atmışdır. Heydər Əliyev Azərbaycan iqtisadiyyatının inkişafında böyük və müstəsna rolu olan əvəzsiz şəxsiyyətdir.

Heydər Əliyevin rəhbərliyi ilə iqtisadi islahatların mühüm istiqaməti olan özəlləşdirmə prosesi uğurla həyata keçirildi, 1996-cı ildən ümumi daxili məhsul istehsalı ilbəil artmağa başladı, respublikada görülən təxirəsalınmaz tədbirlər nəticəsində iqtisadiyyatda tənəzzülün qarşısı alındı və beləliklə, 1994-1995-ci illərdə bugünkü nailiyyətlərin əldə olunmasının təməli qoyuldu. Hazırda həmin tarixi dövrü təhlil etdikdə onu sabitləşmə dövrü kimi səciyyələndirmək olar. Məhz həmin illərdə geriləmənin qarşısı alındı və 1996-cı ildən etibarən dirçəliş dövrü başladı.

1991-1994-cü illərdə inflyasiyanın böyük sürətlə, hətta dördrəqəmli faizə qədər artması müşahidə olunduğu halda, aparılan iqtisadi islahatlar nəticəsində 1995-ci ildən başlayaraq sabitləşmə prosesi getmiş, inflyasiyanın birrəqəmli həddə saxlanılmasına nail olunmuşdur. İqtisadiyyatda aparılan islahatlar ölkənin maliyyə vəziyyətinin yaxşılaşmasını, dövlət büdcəsinin gəlirlərinin ildən-ilə artmasını təmin etmişdir. 2002-ci ildə dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1993-cü ilə nisbətən 85 dəfə, xərcləri isə 72 dəfə artmışdır.

Ulu öndər tərəfindən həyata keçirilən qətiyyətli iqtisadi islahatlar az bir zamanda geniş beynəlxalq dəstək aldı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı tərəfindən Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırlanıldı və ölkəmizə maliyyə yardımının göstərilməsinə başlanıldı. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilən strateji kurs Azərbaycanı zirvələrə doğru gedən ölkələr qrupunda öncül mövqeyə çıxarmışdır. Ölkənin inkişaf səviyyəsində ciddi kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş və verməkdə davam edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan beynəlxalq təcriddən çıxdı. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutur, beynəlxalq təşkilatların üzvüdür, onlarda fəal iştirak edir. Bütün dövlətlər tərəfindən tanınır. Azərbaycanın böyük hörməti var. Artıq demək olar ki, regional məsələlərdə Azərbaycanın sözü həlledici sözdür. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə keçirilə bilməz. Beləliklə, Azərbaycan region üçün mərkəzə çevrilibdir. Bizim nüfuzumuz artır, gücümüz artır. Bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək. Bütün bunlar Heydər Əliyevin xidmətləridir".

Azərbaycan Respublikasının iqtisadi siyasətinin öncül istiqamətlərindən biri müstəqil dövlətin neft strategiyasının hazırlanması olmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev olan bu strategiyanın həyata keçirilməsinə 1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın aparıcı ölkələrinin (ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistan) ən məşhur neft şirkətləri (Amoko, BP, MakDermott, Yunokal, LUKoyl, Statoyl, Ekson, Türkiyə petrolları, Penzoyl, İtoçu, Remko, Delta) arasında Xəzər dənizinin Azərbaycan bölməsindəki "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının

pay bölgüsü haqqında fəaliyyət müddəti 30 il olan müqavilənin imzalanması ilə başlanmışdır. Azərbaycan üçün həyati əhəmiyyəti olan bu müqavilə həm respublikanın daxilində sabitliyin bərqərar olunması, həm də xarici siyasətdə uğurların əldə edilməsində müstəsna rol oynadı. Heydər Əliyevin özünün də vurğuladığı kimi, “Əsrin müqaviləsi”nin imzalanması ilə Azərbaycan Xəzər dənizi və onun enerji ehtiyatlarını bütün dünyanın üzünə açdı və bu hadisənin ölkənin gələcəyi üçün nə dərəcədə əhəmiyyətli olduğunu tarixçilər yazacaqlar”. Heydər Əliyev Azərbaycan neft kəmərinin çoxvariantlılığı ideyası ilə çıxış edərək Bakı-Supsa kəməri işə salınmasına, eyni zamanda "Əsrin müqaviləsi" çərçivəsində hasil olunacaq əsas neftin nəqli üçün "Bakı-Tbilisi-Ceyhan" neft kəmərinin inşa edilməsi üzrə danışıqlar intensivləşdirilməsinə nail olur. 1999-cu ilin noyabrında Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri ABŞ-ın dövlət başçısının iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin inşa edilməsinə dair hökumətlərarası saziş imzalanmış, bu kəmərin çəkilməsi yolunda yaradılan çoxsaylı əngəllərə baxmayaraq Ulu öndərimizin siyasi iradəsi və uzaqgörənliyi sayəsində maneələrin hamısı dəf edilərək bu layihənin gerçəkləşməsi reallığa çevrilmiş, 2003-cü ildə kəmərin tikintisinə başlanılmışdır. Çox çətinliklərə baxmayaraq Heydər Əliyevin seçdiyi yol uğurlu olmuş, Azərbaycan neftinin dünya bazarına çıxarılması reallığa çevrilmişdir. Bununla yanaşı, ölkəmizin iqtisadi həyatında Heydər Əliyev həm də, Azərbaycan qazının dünya bazarlarına çıxarılması üçün nəzərdə tutulan və regionun kifayət qədər əhəmiyyətli layihəsi hesab olunan Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin də təməlini qoymuşdur. Heydər Əliyev neft gəlirlərinin şəffaf xərclənməsi və gələcək nəsillərə saxlanılması məqsədi ilə Dövlət Neft Fondunun yaradılması kimi xidmətləri ilə də yadda qalmışdır. 1999-cu il dekabrın 29-da “Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında” Fərman imzalamışdır. Beləliklə, tam əminliklə demək olar ki, 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatı böhran və tənəzzül məngənəsindən çıxaraq, iqtisadi inkişaf və yüksəliş yoluna qədəm qoymuşdur. Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən təməli qoyulmuş və Prezident İlham Əliyevin başçılığı altında uğurla davam etdirilən sosial-iqtisadi inkişaf strategiyası nəticəsində əldə olunan nailiyyətlər Azərbaycanın bu sahədə gələcəkdə də daha böyük uğurlar qazanacağına zəmin yaradır.

## HEYDƏR ƏLİYEV DÖVLƏT-VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARININ MÜASİR MODELİNİN YARADICISI KİMİ

***Nəbiyeva Y.İ.***
*Sumqayıt Dövlət Universiteti*

Dünya siyasət tarixində fenomenal şəxsiyyətlərdən olan Heydər Əliyevin xalqımızın inkişafı, Azərbaycanın tərəqqisi və qabaqcıl dünya ölkələri sırasına çıxması üçün misilsiz xidmətləri olmuşdur. O, müasir dövrdə müstəqil Azərbaycanın yaradılmasının, sabitliyinin müəllifidir. Azərbaycanın ən önəmli və əhəmiyyətli tarixləri məhz onun adı və fəaliyyəti ilə bağlıdır.

Ulu öndərin dövlətçilik fəlsəfəsində təkcə dövlət strukturlarının gücünə deyil, həm də ictimai təşkilatların fəaliyyətinə geniş meydan verilmişdir. Bu iki prinsip vəhdət halında

Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasında həlledici amillərdən olmuşdur. Vətəndaş cəmiyyətinin formalaşması isə hər şeydən əvvəl, ölkədə davamlı sabitlik, vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, sosial ədalət prinsipinin bərpası, demokratik dəyərlərə hörmət, hüququqn aliliyinin təmin olunması deməkdir. Ümumilli lider böyük dövlətçi, siyasi xadim və dahi şəxsiyyət olaraq dağılmış, talan edilmiş, viran qoyulmuş, yalnız adı müstəqil respublika olan Azərbaycanı ayağa qaldırdı. O nəinki ölkənin müstəqilliyini qoruyub saxlaya bildi, həm də ona dönməz xarakter verdi, Azərbaycanı dünyaya tanıtdı. Böyük liderin hakimiyyətə qayıdışı ilə həyatın bütün sahələrində köklü dəyişikliklərə, islahatlara start verildi. H.Əliyev müharibəni səngərlərdən diplomatiya müstəvisinə keçirməklə, həm də ölkədə möhkəm ictimai-siyasi sabitliyi bərpa etmək istiqamətində çox ciddi tədbirlər həyata keçirdi.

Dövlət müstəqilliyinin ilk illərində yaranmış müxtəlifsəpkili ictimai birliklər, assosiasiyalar, cəmiyyətlər müstəqillik ideyasının güclənməsinə, qaçqın və məcburi köçkün probleminin həllinə, ölkəmizin informasiya blokadasından çıxmasına, demokratik proseslərin dərinləşməsinə, vətəndaş cəmiyyəti quruculuğuna kömək etməyə çalışırdılar. Lakin bütün bu cəhdlər ictimai sektorun formalaşması üçün kifayət deyildi və bu sahənin inkişafı üçün dövlətin ciddi müdaxiləsinə ehtiyac vardı.

Azərbaycanda qeyri-hökumət təşkilatlarının təşəkkülü bir neçə mərhələdən keçib. İlkin mərhələ qeyri-hökumət təşkilatlarının yaranmasında sistemliliyin olmaması və pərakəndəliklə xarakterizə edilir. Həmin dövrdə dövlət tərəfindən qeyri-hökumət sektoruna münasibətdə ümumi yanaşma və prioritetlərin müəyyənləşməsi prosesi gedirdi. Həyatın müxtəlif sahələrini əhatə edən yüzlərlə qeyri-hökumət təşkilatlarının yaranması və cəmiyyətimizdəki demokratik proseslərə qoşulması onların fəaliyyətinin müəyyən koordinasiyasını, dövlət orqanları və beynəlxalq qurumlarla daha səmərəli əlaqələrin qurulmasını zəruri edirdi. 1999-cu ildə Milli Qeyri-Hökumət Təşkilatları Forumunun təsis olunması bu boşluğu xeyli dərəcədə aradan qaldırdı. QHT-lərlə İş üzrə Resurs və Təlim Mərkəzinin təşkilati və texniki dəstəyi ilə 11 iyul 1999-cu ildə Milli QHT Forumu 95 təşkilat tərəfindən təsis edildi. Bununla da ölkə QHT-lərini öz ətrafında toplayan Milli QHT Forumunun üzərinə böyük vəzifə düşdü. Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş qüvvələrin mövcudluğu şəraitində birbaşa dövlətçilik maraqlarını müdafiə etməli olan Milli QHT Forumu həm müstəqil fəaliyyət göstərməli, həm cəmiyyətin bütün təbəqələrini əhatə etməli, həm də dövlət quruculuğunda fəal iştirak etməli idi.

İqtisadi cəhətdən güclənmə Azərbaycanda QHT sektoru, Milli QHT Forumu üçün beynəlxalq əlaqələrin yaranması, qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi, habelə beynəlxalq təcrübədən istifadə üçün geniş imkanlar yaratdı. Ən böyük layihələrdən biri olaraq 2002-ci ildə Bakı-Tbilisi-Ceyhan neft-boru kəmərinə QHT-lərin münasibəti mövzusunda keçirilən "dəyirmi masa" öz bəhrəsini verdi. Bu tədbir zamanı QHT-lərin Beynəlxalq Koalisiyası yarandı.

Milli QHT Forumu fəaliyyətə başladığı gündən müvafiq dövlət orqanları ilə sıx əməkdaşlıq edərək ictimai təşkilatların fəaliyyətinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi, onların inkişafı üçün əlverişli mühitin yaradılması istiqamətində ardıcıl işlər aparmağa başladı. Həmçinin forum QHT sektorunun fəaliyyətini tənzimləyən qanun

layihələrinin hazırlanmasında yaxından iştirak etdi. Bunları həyata keçirmək üçün isə ümummilli lider öz fəaliyyəti, yürütdüyü daxili və xarici siyasətlə Milli QHT Forumuna öz strategiyasını müəyyənləşdirməkdə sanballı yol göstərirdi. Həmin strategiyanın həyata keçirilməsinin nəticəsi idi ki, 1997-ci ildə BMT-nin İnkişaf Proqramı ilə Azərbaycan hökuməti arasında "Azərbaycan qeyri-hökumət təşkilatlarının institusional inkişafı və vətəndaş cəmiyyəti quruculuğuna kömək" adlı birgə layihə haqqında saziş imzalandı. Layihənin icrası üçün 1998-ci ildə QHT-lərin Resurs və Təlim Mərkəzinin yaradılması QHT sektorunun sonrakı inkişafında ciddi faktora çevrildi. Bunun ardınca 1998-ci ildə "Qrant haqqında" qanunun qəbul edilməsi qeyri-hökumət təşkilatlarının əsas maliyyə mənbəyinin qanun çərçivəsində tənzimlənməsi baxımından müstəsna əhəmiyyətə malik oldu. Ən nəhayət, 2000-ci ildə "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” yeni qanun qəbul edildi.

Müasir dövrdə ölkəmizin qarşısında duran vəzifələrin həll edilməsində qeyri-hökumət təşkilatlarının rolunu, dövlət orqanları ilə qeyri-hökumət sektorunun bərabərhüquqlu tərəfdaşlığı və əməkdaşlığının zəriruliyini lazımınca qiymətləndirən Azərbaycan dövləti onların potensialının artırılmasını və fəaliyyətinin gücləndirilməsini, əsaslandırılmış təklif və təşəbbüslərini dəstəkləyir. "Azərbaycan Respublikasının Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyası" buna sübutdur. 2007-ci il iyulun 27-də Prezident İlham Əliyev "Qeyri-Hökumət Təşkilatlarina Dövlət Dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncam imzaladı. Həmin ilin dekabrında isə ölkə başçısının konsepsiyada nəzərdə tutulan müddəaların icrasını təmin etmək məqsədilə imzaladığı fərmanla Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradıldı. Bununla, qeyri-hökumət təşkilatlarına dövlət dəstəyinin institusional mexanizminin yaradılması işi uğurla başa çatdı və QHT sektorunun tarixində yeni bir mərhələnin əsası qoyuldu. Güclü vətəndaş cəmiyyəti qurmaqda qərarlı olan Prezident İlham Əliyev qeyri-hökumət təşkilatlarının dövlət quruculuğundakı rolunu belə qiymətləndirir: "Vətəndaş cəmiyyətinin yaradılması və möhkəmləndirilməsi, demokratikləşmə prosesinin möhkəmlənməsi, hüquqi dövlətin qurulması sadəcə olaraq bir şüar, yaxud da bir niyyət deyil, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir". Bununla da, ölkə başçısı qeyri-hökumət təşkilatlarının müasir dövrdə vətəndaş cəmiyyəti quruculuğu və ölkənin demokratikləşməsi prosesində vacib institutlarından biri olduğunu vurğulayır.

## AZƏRBAYCANDA ORDU QURUCULUĞU VƏ ZABİT HEYƏTİNİN TƏKMİLLƏŞMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN LİDERLİK XÜSUSİYYƏTLƏRİNİN TƏSİRİ

***Niftaliyev T.Ə.***
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Azərbaycanın müasir tarixində əvəssiz rol oynamış Heydər Əliyev tam haqlı olaraq Milli Ordunun banisi sayılır. Onun milli-dövlət quruculuğunda həyata keçirdiyi çoxsaylı layihələr sırasında müasir Silahlı Qüvvələrinin qurulması layihəsi xüsusi yer tutur. H.Əliyevin quruculuq fəaliyyətini araşdırmaq üçün bir çox müasir yanaşmaların tətbiq edilməsinə zərurət vardır, çünki müasir dildə desək bu, çoxölçülü fəaliyyətə təkcə tarixçi,

bioqraf, psixoloq, iqtisadçı və hüquqşunas kimi deyil, həm də sosiologiya baxımından yanaşmanın, fikrimizcə, geniş elmi evristik potensialı vardır.

Bu ideyanın iki metodoloji əsasına diqqət yetirək. Birincisi, müasir sosiologiya elmi, son nəzəri böhran dövrünü aşaraq çoxparadiqmalı elmə çevrilmişdir. Bu baxımdan onun sistemlilik və inteqrativ funksiyaları daha da güclənmişdir. Hər hansı görkəmli bir tarixi hadisənin və ya prosesin araşdırılmasında bu elmin tədqiqat metodları və vasitələrinin çeşidi genişlənmişdir.

İkinci məqam bir başa Heydər Əliyev fenomeni ilə bağlıdır. Tarixi şəxsiyyət və lider keyfiyyətləri müasir zamanın ziddiyyətli bir durumunda da öz quruculuq potensialını geniş icitimai rezonans və sanballı nəticələri ilə təsdiq etmişdir. Heydər Əliyev təkcə müəssisə, infrastruktur, binalar, yollar, müxtəlif obyektlərin baş konstruktoru kimi çıxış etmir. O təkcə iqtisadiyatın, idarəçilik və sosial-mədəni sahənin, dövlətlərarası münasibətlərin  qurucusu kimi çıxış etmir.  O bir strateq kimi, sosiologiya dilində desək, üzdə olan iqtisadi və sosial dəyişiklərlə yanaşı, sosietal dəyişiklikləri planlaşdırır və həyata keçirir. Yəni onun yaratdığı təkcə maddi obyektlər deyil, onun yaratdığı  sosial institutlar, sosial normalar və dəyərlər, elə sosial mexanizmlərdir ki, insanların yeni münasibətlərini stabil olaraq təkrar sosial istehsal mexanizm ilə təmin edir. Onun fəaliyyəti yeni sosial zümrələrin formalaşmasına gətirib çıxarır. Ordu quruculuğunda milli zabitlər zümrəsinin formalaşdırılması buna bariz nümunədir.

Əsl mənada Heydər Əliyev strategiya banisi və elə onun da təntənəsini təmin edən sərkərdər kimi çıxış edir. Heydər Əliyevin hələ sovetlər dövründən yaxşı məlum olan təşkilatçılıq, iqtisadi və siyasi səriştəsi, müstəqillik illərində onun əsil hərbi strateq, gələcək qələbələrin layihələndiricisi, uzaqgörən lider kimi təsdiqini tapmışdır.

Məhz sovet dövründə yaranmış kiçik bir imkandan istifadə etməklə o, ilk olaraq gələcək milli ordunun kadr bazasını formalaşdıran Naxçıvanski adına hərbi məktəbin təsis edilməsinə nail olmuşdu. Sonralar da H.Əliyev bu məktəbin fəaliyyətini daima diqqət və qayğı mərkəzində saxlamışdı.

Məhz buna görə də ordu quruculuğu dövlətin başlıca strateji məqsədidir. Azərbaycanın güclü orduya malik olmasını Ulu öndərimiz Heydər Əliyev milli mənafedə görürdü.

Ordu quruculuğunda başlıca cəhət aşağıdakıları əhatə edir:

- Milli müdafiə haqqında elmi konsepsiyanın hazırlanması;
- Milli Ordu haqqında qanunun qəbul edilməsi;
- Ordunun yüksək döyüş hazırlığına və nizam-intizama malik olması;
- Ordunun müasir texniki vasitələrlə təmin olunması;
- Ordunun hərtərəfli təminatının təşkil olunması;
- Hərbi kadrların hazırlanması və təkmilləşdirilməsi;
- Müasir silah növləri ilə təchiz olunması;
- Ordunun maarifləndirilməsi, hərbi vətənpərvərlik tərbiyəsi;

Müstəqilliyini elan edən hər bir suveren dövlət beynəlxalq hüquqi normalar və milli mənafe əsasında xarici siyasət strategiyasını müəyyən edir.

Ordu quruculuğu dövlətin xarici siyasəti ilə qarşılıqlı həyata keçirilən siyasətdir. Azərbaycanın xarici siyasəti sülh siyasətidir.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN SƏNAYESİNİN İNKİŞAFI

***Niftəliyev N.F.***
*Mingəçevir Dövlət Universiteti*

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin siyasi və iqtisadi əsaslarını yaradan tarixi şəxsiyyət, nüfuzlu rəhbər kimi çağdaş tariximizdə əbədiyaşarlıq qazanmışdır.

1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə respublikamızın iqtisadi, sosial və mənəvi həyatında tarixi bir mərhələ başlandı. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri aparıldı, sənayenin bütün sahələrində inkişafa nail olundu, yeni sənaye sahələri yaradıldı, istehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin inkişafına diqqət artırıldı, mütərəqqi texnologiyaların istehsalata tətbiqi əsasında Azərbaycan sənayesi SSRİ-də qabaqcıl mövqeyə yiyələndi.

Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyi dövründə 250-dən çox zavod, fabrik, istehsal sahələri istifadəyə verildi. Bu dövrdə Azərbaycanda elektron maşınqayırması, radiosənaye, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıq istehsalı və digər mütərəqqi istehsal sahələri yaradıldı. Elmi-texniki tərəqqinin nailiyyətlərinin geniş tətbiqi nəticəsində 1971-1985-ci illərdə 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradıldı. 1971-ci ildə respublikada kimya sənayesinin qarşısında duran vacib məsələləri diqqətlə araşdıran Heydər Əliyev bu sahənin inkişaf konsepsiyasının əsasını qoydu. Bu illərdə Azərbaycanın neftmaşınqayırma zavodlarında da əsas sahələr yenidən quruldu, yeni istehsal sahələri işə salındı. 70-ci illərdə Cənubi Qafqazda ən iri poladtökmə zavodu, "Ulduz" elektrik cihazqayırma, "Ozon" zavodu, məişət kondisionerləri zavodu tikildi, Dərin Dəniz özülləri zavodu və istifadəyə verildi.

Əgər XIX əsrin ortalarından 1969-cu ilədək Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, 1969-1982-ci illərdə onların sayı 1048-ə çatdırıldı. Bu illərdə sənaye məhsulunun orta illik artımı 7,9%-ə yüksəldi. Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycanda 11 elektrik stansiyası tikilib istifadəyə verildi. Bununla da, elektrik enerjisi istehsalı iki dəfəyə qədər artdı və Azərbaycanın enerji müstəqilliyi təmin olundu.

1991-ci ildə müstəqilliyini yenidən bərpa edən Azərbaycanda yaranmış siyasi böhran, yeni dövrün tələblərinə uyğun iqtisadiyyatın qurulmaması, ölkənin iqtisadi blokadaya alınması digər sahələrdə olduğu kimi, sənaye sahəsində də geriləməyə səbəb oldu.

1970-1980-ci illərdə Azərbaycanda sənaye potensialının yaradıcısı olmuş Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəldikdən sonra ölkə iqtisadiyyatının lokomotivi olan neft-qaz sənayesinin dirçəldilməsi ilə bağlı tədbirlər həyata keçirməyə başladı. 1994-cü il sentyabrın 20-də dünyanın 8 ölkəsini təmsil edən 11 transmilli neft şirkəti ilə "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və ölkənin enerji təhlükəsizliyinin təməli qoyuldu. Azərbaycan neftinin dünya bazarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə Bakı-Supsa

ixrac neft kəmərlərinin istismara verilməsinə və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası ilə bağlı sazişin imzalanmasına nail olundu. Bununla yanaşı, Azərbaycan qazının qərb bazarına ixracının təmin olunması üçün Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşasına başlanıldı.

Eyni zamanda, elektroenergetika, elektrotexnika, maşınqayırma, avtomobilqayırma sahələrinin inkişafı üçün də mühüm tədbirlər həyata keçirilmişdir. Elektroenergetika sənayesinin inkişafını təmin etmək məqsədilə bu sahəyə investisiyaların cəlb edilməsinə xüsusi diqqət yetirilmiş, bunun sayəsində Şimal DRES və Yenikənd su elektrik stansiyaları tikilib istifadəyə verilmişdir.

Azərbaycanın bütün sənaye sahələrinin dinamik, kompleks inkişafı məqsədilə özünün geniş proqramını həyata keçirən Heydər Əliyev ölkə sənayesinin sürətli tərəqqisinə, onun potensialının güclənməsinə nail olmaq üçün məqsədyönlü tədbirlər həyata keçirmişdir. Bu gün Azərbaycanda sənayenin elə bir sahəsi yoxdur ki, həmin sahənin inkişafı dahi korifeyin adı ilə bağlı olmasın. Azərbaycan sənayesinin formalaşmasında Ulu Öndərin xidmətləri misilsizdir.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ TƏŞƏKKÜL TARİXİNDƏ YENİ DÖVR

***Nuriyeva İ.T.***

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

Ümummilli Lider Heydər Əliyev azərbaycançılıq ideologiyasını dövlət siyasəti səviyyəsinə qaldırmış və ölkəmizdə rəsmi dövlət ideologiyasına çevirmişdir. Azərbaycançılıq - vətənpərvərlik, torpaq sevgisi, siyasi dövlət millətçiliyi, Azərbaycanın maraqlarının hər şeydən üstün olması, güclü Azərbaycan dövlətinin yaradılması, inkişaf etdirilməsi, dünyanın hər bir yerində yaşayan azərbaycanlıların maraqlarının qorunması və digər amillər deməkdir. Azərbaycançılıq xalqın birləşmək, azadlıq və müstəqillik uğrunda mübarizə ideyası deməkdir.

Azərbaycançılıq - milli istiqlal ideologiyasıdır. Azərbaycançılığın tərkib hissəsi olan müstəqillik - vətənin sərhədləri daxilində, ərazi bütövlüyü və toxunulmazlığı şəraitində öz müstəqil suveren dövlətini qurmaq, yaşatmaq və inkişaf etdirməkdir. Məhz bu səbəbdən milli müstəqillik uğrunda mübarizə azərbaycançılıq ideologiyasının əsas prinsiplərindən biridir.

Azərbaycançılıq birləşdirici, vəhdətyaradıcı bir amala xidmət edən ideologiyadır. Azərbaycançılıq əhalinin sinfi, milli, irqi, dini, cinsi bərabərliyini özündə əks etdirən demokratik cəmiyyətin təməl prinsiplərindəndir.

Azərbaycan xalqı öz dini-mənəvi dəyərlərini qoruyub saxlamaqla yanaşı dünyanın bütün humanist dini dəyərlərinə hörmətlə yanaşır. Milli və dini azlıqlara münasibətdə tolerantlıq dövlətin milli siyasətinin əsas strategiyasıdır.

Azərbaycançılıq həm də qardaşlıq rəmzidir, yəni oğuz mənşəli türklərin "tarixi kökləri, dil qaynaqları, düşüncə və davranış tərzi, adət-ənənələri, sənət, gözəllik, əxlaq anlayışları bir olan türk xalqları"nın qardaşlığı nəzərdə tutulur. Çünki "azərbaycançılıq - türkəsilli

Azərbaycan xalqının milli ideologiyasıdır". Azərbaycançılıq mühüm milli birlik rəmzi, dövlətçiliyin, müstəqilliyin əsası kimi bu günümüzün ədəbi, fəlsəfi, ictimai və hətta siyasi faktına çevrilmişdir.

Azərbaycançılığın ən yeni mərhələsinin bütün parametrlərinin - azərbaycançılıq ideyasının yenidən gündəmə gəlməsi, bu sahədə klassik və müasir düşüncəyə qiymət, azərbaycançılığın köklərinin, mənbələrinin elmi araşdırmalara cəlb edilməsi birbaşa ulu öndər Heydər Əliyevin irəli sürdüyü müdrik fikirlərlə, tale yüklü təşəbbüslərlə bağlıdır.

Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq ideologiyasının inkişafında, yeni tarixi şəraitə uyğun interpretasiya edilməsində - modern səviyyədə təfsirində və həmin ideologiyanın tarixdə ilk dəfə olaraq həyata keçirilməsində mənsub olduğu millətlə birlikdə apardığı mübarizə (göstərdiyi qəhrəmanlıq), ən nihilist "dostlarımızın" belə inkar edə bilməyəcəyi bir hadisədir. Mənsub olduğu xalqın tarixini və milli tarixi ideallarını dərindən bilən siyasi mütəfəkkir kimi Heydər Əliyevin milli lider mövqeyinə yüksəlməsi ilə azərbaycançılıq ideologiyasının təşəkkülü tarixində yeni dövr başlandı. Ümummilli lider Heydər Əliyev azərbaycançılığın yeni dövrdə dayaq nöqtəsi oldu.

Azərbaycançılıq - Heydər Əliyevin genişmiqyaslı fəaliyyətinin tərkib hissələrindən biri kimi həmin fəaliyyətin (əslində, mübarizənin!) əsası, başqa sözlə, mahiyyətidir. Ulu öndər Heydər Əliyev bütün həyatını doğma Azərbaycana, onun mədəniyyətinin, adət-ənənələrinin, dilinin inkişafına həsr edən böyük vətəndaş, böyük azərbaycançı olmuşdur. Heydər Əliyev respublikanın iqtisadi - təsərrüfat həyatının canlandırılması, elmin, təhsilin inkişafı, ana dilinin, ədəbiyyatın, incəsənətin mövqeyinin yüksəldilməsi, - milli hərbi kadrların yetişdirilməsi, Azərbaycanın beynəlxalq miqyasda tanıdılması və s. kimi əhəmiyyətli tədbirlər görmüşdür.

Ötən əsrin 90-cı illərində ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideyasını yenidən canlandıraraq və milli dövlət ideologiyası səviyyəsinə qaldıraraq, onun birləşdirici rolundan məharətlə istifadə etməklə ölkənin dağılmasının, ərazisinin etnik əlamətlərə görə parçalanması təhlükəsinin qarşısını aldı.

Dövlətimizin, xalqımızın müstəqilliyi azərbaycançılıqdan, milli birlikdən keçir. Bunun üçün xalq özünün bütün potensial imkanlarından istifadə etməlidir. Ölkənin zəngin iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyi buna lazımi şərait yaradır. Bu amil bu gün Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində və dövlətçilik mənafeyinin qorunmasında mühüm əhəmiyyətə malikdir. Azərbaycanın milli maraqlarının qorunması uğrunda mübarizə indi daha ciddi və tarixi əsaslarla aparılmalıdır.

Heydər Əliyevdən sonra azərbaycançılıq ideologiyasını onun davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlətimizi iqtisadi, ictimai və mədəni inkişafına görə dünyanın nüfuzlu ölkələri səviyyəsinə qaldırmaqla, vətənpərvərlik hisslərini gücləndirməklə xalqın tarixi ideallarının tam miqyasda həyata keçirilməsi üçün mənəvi potensiya hazırlamaqla, öndə gedən, qalib bir ideologoya kimi böyük əzmlə davam etdirir.

# DÖVLƏT İDARƏÇİLİYİNDƏ HEYDƏR ƏLİYEV FENOMENİ

***Ramazanov M.K.***
*DTX-nin Heydər Əliyev adına Akademiyası*

Hər bir xalqın milli azadlığa və dövlət müstəqilliyinə qovuşması üçün üç mühüm şərt: tarixi şans, milli iradə və liderə malik olmasıdır. Liderlik funksiyasını öz şəxsi nüfuzu, yüksək təşkilatçılığı və təşəbbüskarlığı ilə fərqlənən, xüsusi idarəçilik və xarizmatik keyfiyyətlərinə malik olan, xalqın böyük hörmət və sevgisini qazanan dahi insanlar yerinə yetirirlər.

Bu baxımdan XX əsrdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət, dünyanın görkəmli dövlət xadimlərindən biri, əbədiyaşar lider və fenomenal şəxsiyyət Heydər Əliyevdir. Ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında yalnız insanlarımızın istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini məhz ötən əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru müstəqil Azərbaycan dövləti kimi əzəmətli bir reallığa qovuşdurmuş, memarı olduğu bu dövlətin sarsılmazlığını, müstəqilliyini və dinamik inkişafını təmin etmişdir.

Azərbaycan dövlətçiliyinin müasir tarixinə adı əbədi həkk olunmuş fenomenal siyasi xadimin ölkəmizə rəhbərlik etdiyi illər intibah, milli tərəqqi, milli oyanış, nəhayət, müstəqil dövlət quruculuğu dövrü kimi qəbul edilir.

Ötən əsrin 70-80-ci illərindən respublikamızda milli müstəqilliyə sosial-iqtisadi, hüquqi və mənəvi intellektual zəmin formalaşdıran Ulu öndər Heydər Əliyev xalqımızın məhz bu möhkəm bünövrə üzərində azadlıq, istiqlaliyyət və müstəqillik ideallarına qovuşmasını təmin etmişdir. Azərbaycan xalqı dahi liderinin rəhbərliyi altında yüksək iradə sərgiləməklə, milli yaddaşını, mənəvi, əxlaqi dəyərlərini, tarixi dövlətçilik ənənələrini qorumaq əzmini toparlaya bilmiş, dövlət müstəqilliyi üçün zəruri potensial formalaşdırmışdır. Keçmiş imperiya daxilində hansı qlobal proseslərin getdiyini daha dərindən müşahidə etmək imkanına malik olan Heydər Əliyev Azərbaycanın nə vaxtsa müstəqillik əldə edəcəyini öncədən gördüyündən bu prosesi sürətləndirən tarixi əhəmiyyətli addımlar atmışdır.

Qeyd etmək lazımdır ki, Heydər Əliyevi rəhbər kimi başqalarından fərqləndirən mühüm bir keyfiyyət ondan ibarətdir ki, onun dövlətçilik və siyasi fəaliyyəti bir-birinə zidd olan iki müxtəlif ictimai-siyasi sistemin qovuşuğundan keçmiş və bunların imkanlarından bacarıqla istifadə edib hər bir dövrün ictimai-siyasi tələblərinə uyğun olaraq, özünün bütün varlığını Azərbaycan Respublikasının yüksəlişinə, xalqın mənəvi-mədəni və maddi rifah halının inkişafına həsr etmişdir.

1991-1993-cü illərdə ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, eyni zamanda ölkənin müstəqilliyi üçün real təhdidlərin meydana çıxması, vətəndaş qarşıdurması meyillərinin güclənməsi, xaos və anarxiya mühitinin dərinləşməsi göstərdi ki, ölkəni yaranmış acınacaqlı vəziyyətdən yalnız Heydər Əliyev kimi müdrik və uzaqgörən dövlət xadimi xilas edə bilər. Ümummilli lider 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə

gəlmiş, ölkədə ictimai-siyasi sabitliyi və qanunçuluğu bərpa etmiş, eyni zamanda dövlət idarəçiliyi istiqamətində fundamental islahatların müəllifi olmuşdur. Ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyinin, prinsipiallığının və siyasi iradə nümayişinin məntiqi nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin əfsanədən reallığa çevrilməsi ölkənin bütün strateji əhəmiyyətli sahələrinin inkişafına təkan verməklə, Azərbaycanda hüquqi və iqtisadi islahatların yeni mərhələdə aparılmasına da geniş imkanlar açmışdır.

Heydər Əliyevin hakimiyyətə qayıtması ilə bütün sahələrdə olduğu kimi, ölkəmizin iqtisadi həyatında da taleyüklü dəyişikliklərin əsası qoyuldu. İqtisadi sahədə islahatların ardıcıl və sistemli şəkildə həyata keçirilməsi məqsədilə Ulu öndər beynəlxalq tələblərə uyğun qanunvericilik bazasının yaradılmasını təmin etdi. Ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə 1995-ci ildən başlayaraq iqtisadiyyatın bazar münasibətləri əsasında qurulması, aqrar islahatların həyata keçirilməsi, dövlətə məxsus torpaqların və əmlakın kəndlilərə paylanması, qiymətlərin sərbəstləşdirilməsi və s. tədbirlər aqrar bölmənin inkişafına təkan vermiş, nəticədə, kənd təsərrüfatında məzmunca yeni iqtisadi münasibətlər formalaşmışdır. Bu proses Azərbaycanda keçmiş sovet respublikaları ilə müqayisədə birinci və uğurla başa çatdırılmışdır.

Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında tarixi xidmətlərindən biri dövlət quruculuğunun hüquqi bazasının yaradılması oldu. Belə ki, Ulu öndərin bilavasitə rəhbərliyi altında hazırlanaraq 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Konstitusiyada hakimiyyət bölgüsü prinsipləri dəqiq əksini tapmış, zamanın tələbilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə fundamental hüquqi zəmin yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Komissiyasının yaradılması və əfvetmə institutunun bərpası da ulu öndər Heydər Əliyevin dövlət idarəçiliyində ən böyük xidmətlərindən biridir. Bu humanizmin nəticəsidir ki, respublikamızda əfv fərmanlarının imzalanması, məhkumların bağışlanması müsbət ənənəyə çevrilmişdir. Heydər Əliyevin 1993-cü ildən tətbiqinə qadağa qoyduğu ölüm hökmü 1998-ci ildə tamamilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk ölkə olmuşdur. Müqayisə üçün bildirək ki, o vaxt hətta Avropa Şurasının üzvü olan bir sıra dövlətlər analoji addımı hələ atmamışdılar. Yüksək humanizmin və insanpərvərlik örnəyinin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş, 2001-ci ildə müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmişdir.

Ümummilli Lider Heydər Əliyevin dövlət idarəçiliyinin formalaşdırılması və inkişafı baxımından ən böyük xidmətlərindən biri məhkəmə orqanlarının müstəqilliyinin təmin edilməsi, hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsidir. Bu istiqamətdə Ulu öndərin 1998-ci ildə imzaladığı "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsi barədə fərmanı respublikamızda yeni məhkəmə sisteminin formalaşmasına mühüm töhfə olmuşdur.

Ulu Öndər Heydər Əliyev demokratik dövlət quruculuğuna xidmət edən mütərəqqi siyasi, hüquqi və iqtisadi islahatları davam etdirməklə yanaşı, həm də milli maraqlara xidmət edən çevik xarici siyasət xətti yürütmüş, ölkənin milli maraq və mənafelərini daim uca tutmuşdur. Nəticədə, Azərbaycan sivil dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirmiş, qlobal məkanda cərəyan edən proseslərin istiqamətverici subyektinə çevrilməyə nail olmuş, müstəqil Azərbaycan Cənubi Qafqazın lokomotiv dövlətinə çevrilmiş, ölkəmizin regionda gerçəkləşdirilən bütün transmilli layihələrdə iştirakı təmin olunmuşdur.

Dövlət idarəçiliyi sahəsində Heydər Əliyevin tarixi xidmətlərindən biri milli kadrların yetişdirilməsi olmuşdur. Tarixə nəzər salsaq, görərik ki, 1960-cı illərin sonlarına qədər Azərbaycanda milli kadrlar heç nəyi həll etmirdilər. Belə ki, Sovet Azərbaycanında əksər dövlət orqanlarında əsas söz sahibləri qeyri-millətin nümayəndələrindən ibarət idi. 1970-ci illərə kimi Cənubi Qafqaz respublikaları arasında azərbaycanlılara SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almalarına süni maneələr yaradılır, hətta müəyyən limit qoyulurdu. Lakin 1970-ci illərdən başlayaraq, Heydər Əliyevin təşəbbüsü ilə bu sahədə də ciddi dönüş yaradıldı. Həmin dövrdən başlayaraq, hər il yüzlərlə azərbaycanlı ittifaqın ən nüfuzlu ali məktəblərinin iqtisadiyyat, hüquq, dövlət idarəçiliyi, beynəlxalq münasibətlər və texniki elmlər kimi mühüm elm sahələrinə təhsil almağa göndərilirdi. 1970-80-ci illərdə Azərbaycandan kənarda vətənimiz üçün 15 mindən çox yüksək ixtisaslı mütəxəssis yetişdirilmişdir. Bu siyasət Heydər Əliyev tərəfindən Azərbaycan dövlətçiliyinin intellektual bazasının yaradılmasına yönələn cəsarətli addımlar idi. Bu günün prizmasından yanaşdıqda bu addımların sonralar müstəqil dövlət quruculuğundakı əvəzsiz rolu daha aydın, daha qabarıq görünür. Azərbaycandan kənarda yüksəkixtisaslı kadrların hazırlanması istiqamətində ümummili lider Heydər Əliyev tərəfindən həyata keçirilmiş siyasət bu gün gənclərimizin dünyanın ən qabaqcıl ali təhsil və elm müəssisələrinə göndərilməsi ilə davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 16 aprel 2007-ci il tarixli Sərəncamı ilə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Ölkə başçısı bu proqramı təsdiq etməklə "qara qızılın insan kapitalına çevrilməsi" siyasətini ortaya qoymuşdur. Qeyd edilən Dövlət Proqramı üzrə 2008-2015-ci illərdə 3302 gənc xarici ölkələrin aparıcı ali məktəblərində təhsil almağa göndərilmiş, onlardan artıq 1631 nəfər gənc təhsilini uğurla başa vuraraq vətənə dönmüş, müxtəlif dövlət və özəl strukturlarda işlə təmin olunmuşlar. Dövlət proqramın həyata keçirilməsi məqsədi ilə 205,4 milyon manat vəsait xərcləmişdir.

Bununla yanası, dövlət idarəçilik sistemində kompleks islahatların aparılması görkəmli dövlət xadimi Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Belə ki, müstəqil Azərbaycan dövlətində cəmiyyətin demokratikləşdirilməsi və bazar münasibətlərinin daha da inkişaf etdirilməsi üçün dövlət idarəetməsində köklü islahatların aparılması prinsipial əhəmiyyət kəsb etdiyi üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1998-ci il dekabrın 29-da "Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında" fərman imzalamışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi "Müstəqil Azərbaycan Respublikasında müasir dövlət qulluğu sisteminin formalaşdırılması

və inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun ali siyasi hakimiyyətə qayıdışından sonra ölkədə xaos və anarxiyanın qarşısı alındı, sabit dövlət idarəçiliyi bərpa edildi, demokratik hüquqi dövlət quruculuğu prosesi başlandı. Onun rəhbərliyi altında həyata keçirilən idarəçilik fəaliyyəti insanlarda dövlətçilik şüurunu möhkəmləndirdi, hakimiyyət və idarəetmə orqanlarının işinə inamı artırdı."

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın demokratik tərəqqisi üçün zəruri inkişaf kursunu irəli sürərək bu kursun alternativsizliyini real addımlar, əməli nəticələrlə sübuta yetirməklə bərabər, banisi olduğu dövlətçilik irsinin əbədiliyini təmin edəcək qüdrətli varis və lider yetişdirmişdir. Prezident İlham Əliyevin ictimai rəydəki statusunun möhkəmlənməsinə təsir göstərən ən başlıca məqamlardan biri də dövlət rəhbərimizin kifayət qədər təkmil siyasi təlimə Ulu öndər Heydər Əliyevin milli dövlət idarəçilik fəlsəfəsinə istinad etməsidir.

Dövlət başçısı makroiqtisadi inkişafı təmin etməklə yanaşı, yüksək siyasi qətiyyət nümayiş etdirərək Azərbaycan üçün bir sıra taleyüklü məsələlərin həll olunmasına nail olmuşdur. Ümummilli liderin neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara verilmiş, vaxtilə çoxlarına əfsanə kimi görünən bu layihələr reallığa çevrilərək Xəzərin karbohidrogen ehtiyatlarını dünya bazarlarına daşınmasını təmin etməkdədir. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən üç layihə: Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars layihələri region dövlətlərinin çoxşaxəli münasibətlərini inkişaf etdirməklə bərabər, bu dövlətlərdə sabitliyin qorunmasında və iqtisadi inkişafın daha sürətlə getməsində mühüm əhəmiyyətə malikdir. Eyni zamanda Azərbaycanın iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək Yolunun bərpası, TRASEKA-nəqliyyat dəhlizlərinin reallaşması və yaxın perspektiv Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) boru kəmərlərinin çəkilişi layihəsində iştirakı da davamlı iqtisadi inkişafımızın nəticəsidir.

## HEYDƏR ƏLİYEV VƏ PREZİDENTLİK İNSTİTUTUNUN TƏŞƏKKÜLÜ

***Rzaquliyeva S.D.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycanda dövlət sisteminin özəyinə çevrilmiş prezidentlik institutunun təşəkkülü və möhkəmlənməsi Prezident Heydər Əliyevin şəxsiyyəti ilə əlaqələndirilir. "Seçkili milli liderin şəxsində güclü və sabit dövlət hakimiyyətinin bərqərar olması zərurəti iqtisadi, siyasi və sosial sahədə dəyişikliklərin ilk illərindən özünü göstərmişdir. Azərbaycan xalqı müstəqilliyə nail olduqdan sonrakı ilk illərdə dövlətçiliyin və onun əsaslarının yaradılması, ölkənin idarə edilməsi gündəmdəki ən kəskin məsələ idi". Hələ tam dərk edilməmiş, çox vaxt idarə edilməyən demokratiya dalğasında bu məsələnin həlli üçün konkret proqram, strategiya və taktika yox idi. Deməli, inkişaf oriyentirləri və gələcək haqda aydın siyasi təsəvvür də yox idi. Bu şəraitdə Heydər Əliyev növbəti dəfə öz qüdrətli naturasına xas olan dəqiqlik və konkretlik nümayiş etdirərək, amorf, demaqoq manipulyasiyaları qətiyyətlə rədd edərək, bunun əvəzinə milli müstəqilliyin əsası kimi dövlətçiliyin inkişafı və möhkəmlənməsi kursunu təklif etdi. Heydər Əliyevin təşəbbüsləri sayəsində Azərbaycan

cəmiyyətinin həyatının bütün sahələrində islahatlar başlandı. Yeni iqtisadi münasibətlərin, pul-kredit, büdcə və gömrük sistemlərinin formalaşması idarəçilik, mənəvi-mədəni, elm-təhsil siyasətinin kökündən dəyişdirilməsini tələb edirdi. Yaranmış vəziyyət çevik və qeyri-ordinar qərarlar qəbul edilməsini sürətləndirirdi. Dövlət başçısının fərmanları ilə elə qanunlar qəbul edildi ki, bunlarsız ölkənin və cəmiyyətin modernləşdirilməsi sadəcə mümkün olmazdı. Milli modernləşmə yolunu müəyyən etmiş Prezident Heydər Əliyevin siyasi iradəsi və qətiyyəti məhz həmin dövrdə üzə çıxdı. Bir sıra nüfuzlu xarici ekspertlərin vurğuladığı kimi, sözün hərfi mənasında iki il müddətində gələcək dinamik inkişaf üçün baza hazırlanmaqla iqtisadiyyatda bir sıra struktur məsələləri həll edildi. Məhz o vaxt - ötən əsrin 90-cı illərində neft-qaz layihələri əsasında vəziyyəti yaxşılığa doğru kökündən dəyişmək, boru kəmərlərinin çəkilişinin strateji yollarını prinsipial baxımdan müəyyən etmək mümkün oldu. Azərbaycan xalqının və Azərbaycan dövlətinin vəhdətini təcəssüm etdirməli olan prezidentlik institutunun modernləşmə xarakteri Azərbaycanda islahatların gedişində daha aşkar görünürdü. Tranzit dövrü şəraitində tələb edilən prezident idarəçilik forması ən qısa müddətdə güclü və konsolidə edilmiş hakimiyyət sistemi yaradılması, sosial iqtisadi şəraitin sabitləşdirilməsi üçün güclü siyasi baza rolu oynamışdır. Prezident idarəçilik forması hakimiyyətin qanunvericilik və icraçılıq şaxələrinin sinergiyasını, onların çəkindirmə və tarazlama sisteminə, səmərəli qarşılıqlı təsirinə əsaslanan vahid işlək mexanizm şəklində inteqrasiyasını təmin etmişdir. Azərbaycanda prezidentlik institutu dünya miqyaslı görkəmli lider Heydər Əliyevin şəxsiyyəti ilə birlikdə ölkənin davamlı inkişafı, onun dünya birliyinə daxil olması, bütün mənfi amillərə və təhdidlərə uğurla müqavimət göstərməsi üçün zəruri şərt idi. Bu nəticə həyatın gedişi ilə təsdiqlənmişdir. Onun arxasında Heydər Əliyevin həqiqətən titanik əməyi və görkəmli istedadı durur. Qanunauyğun haldır ki, 1990-cı illərin axırlarında beynəlxalq siyasət elmində "Əliyev fenomeni" termini yaranmışdır. Dinamizm, islahatlara meyil, praqmatizm və yüksək səmərəliliyə malik idarəçiliyin nadir şəkildə birləşməsini ifadə edən "Əliyev fenomeni" sabit inkişaf, sosial həmrəylik, milli birlik, fəaliyyətdə olan azərbaycançılıqdır. Mütərəqqi ideya olan azərbaycançılıq modernləşmə tranzitinin optimal şəkildə həyata keçməsini və milli inkişaf məsələlərinin həllini təmin edir. Digər tərəfdən həmrəy şüura və siyasi iradəyə malik olmayan xalqları eroziyalı diffuziya, identikliyin yox olması təhlükəsi gözlədiyi bir dövrdə azərbaycançılıq milli özünəməxsusluğu qoruyub saxlamağın rəhbərinə çevrilmişdir. Heydər Əliyev göstərirdi ki, "azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən – inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir". Qərbdə hələ bir neçə il bundan əvvəl çox səylə təbliğ edilən, lakin yaxın vaxtlarda Qərb siyasətçilərinin özlərinin gərəksiz hesab etdiyi multikulturalizm ideyaları iflasa uğradığı şəraitdə azərbaycançılıq ideologemi bu gün xüsusi aktuallıq kəsb edir. Gələcəyə yönəlmiş mütərəqqi ideya kimi çıxış edən azərbaycançılıq modernləşmə tranzitinin optimal axınını və milli inkişaf məsələlərinin həllini təmin etmişdir. Azərbaycançılığın baza dəyərlərinə bağlılıq bizim sosiumun birləşdirici amilinə çevrilməklə ictimai sabitliyi və firavanlığı, islahatların uğurunu, qlobal siyasətdə milli mənafelərin həyata keçirilməsini təmin edir. Heydər Əliyevin siyasi missiyasının daha bir fenomeni

ondan ibarətdir ki, dövlət idarəçiliyinin Avropa standartlarına çox ciddi diqqət yetirməklə möhkəm administrativ sistem yaradır. Vaxtilə Heydər Əliyevin başladığı strateji məsələ – Azərbaycan administrativ idarəçilik kompleksini Avropa normalarına maksimal dərəcədə uyğunlaşdırmaq məsələsi bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.Siyasi tarixdə “ictimai usanma”, yəni cəmiyyətin liderdən “usanması” faktları məlumdur. Özü də bu, ləyaqətli, öz fəaliyyətində bir sıra parlaq qələbələr qazanmış liderə də aid ola bilər. Bu mənada, “ictimai usanma” ənənələrini Miltiad, Femistopl, Perikl kimi antik siyasətçilərdən başlamış, praktiki müasirlərimiz sayılan Çörçill və de Qolla qədər izləmək olar. Xalq bu siyasətçilərin xidmətlərini inkar etməsə də, ölkənin gələcək idarəçiliyində onlardan qətiyyətlə imtina etmişdir. Müxtəlif ölkələrdə, müxtəlif tarixi dövrlərdə müxtəlif liderlərin siyasi liderliyinin xarakterinin eyni olacağını gözləməyə dəyməz. Lakin tam əminliklə deyə bilərik ki, fərqli cəhətlərə baxmayaraq, siyasi liderlik hakimiyyətin ən yüksək və geniş, əhatəli formalarından biridir. Heydər Əliyevə xas olan idarəçilik qabiliyyəti heç də təsadüfi olmayan Tanrı payı idi. Lakin bu fitri qabiliyyətin Azərbaycan dövlətinin hüquqi əsaslarında öz harmonik əksini tapması məhz onun şəxsiyyəti sayəsində mümkün olmuşdur.

Ölkəmiz üçün inkişaf modelini, yaxın və uzaq perspektiv üçün onun siyasi və iqtisadi gələcəyini məhz bu qeyri-adi insan müəyyən etmişdir. “Azərbaycan yolu”nun bütün dünyada qəbul edilməsinin bilavasitə nəticəsi kimi, indi ölkəmiz beynəlxalq aləmdə yüksək nüfuz qazanmışdır. U.Çörçill öz həyat yoluna yekun vuraraq yazırdı: “Gərək sən öz ölkən uğrunda ölməyə hazır olasan, lakin bundan daha vacibi odur ki, sən öz ölkən naminə yaşamağa hazır olasan”. Heydər Əliyev öz ölkəsi naminə yaşadı və yaratdı. Heydər Əliyevi müəyyən mənada kommunikativ mühəndis qurğusunun müəllifi hesab etmək olar. Azərbaycan xalqının ümummilli lideri bu və ya digər mövqeləri insanlara zorla qəbul etdirməyə çalışmırdı, o, müvafiq ideyanın məqsədlərini insanlara izah edir, nəticədə insanlar onun müttəfiqlərinə çevrilirdi. Bizim cəmiyyətin dəyər oriyentasiyaları sistemində azərbaycançılıq intensionallığı məhz bununla müəyyən edilir.

Milli inkişafın ümummilli lider tərəfindən işlənib hazırlanmış siyasi kursu həm dövlət idarəçiliyi texnologiyalarının məqsəd funksiyalarını, həm də dövlətçilik fəaliyyətinin bu növünün dəyər-normativ məzmununu əhatə edir. Hər bir dövlətin tarixi nadirdir. Azərbaycan dövlətçiliyinin nadirliyi Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev bizim hamımızın nəzərində Vətəni fədakarcasına sevmək nümunəsi olmuş, onun birləşdirici azərbaycançılıq ideyası Azərbaycan vətəndaşları üçün, bizim hər birimiz üçün mənəvi kateqoriyaya çevrilmişdir. Buna görə də Azərbaycan xalqı Heydər Əliyevin həyata keçirdiyi siyasi missiyanı bütünlüklə dərk edir, anlayır ki, bu insan olmasaydı, respublika sadəcə məhv olardı.

# HEYDƏR ƏLİYEVİN 1990-1993-cü İLLƏRDƏ NAXÇIVANDA HƏYATA KEÇİRDİYİ MÜHÜM TƏDBİRLƏR

**_Seyidov A.Q._**
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Ümummilli Lider Heydər Əliyevin 1990-cı il iyul ayının 22-də Naxçıvana olan tarixi səfəri əsrlər boyu şüurlarda yaşayacaq, vətənimizin, xalqımızın ictimai-siyasi həyatına qızıl hərflərlə yazılan bu "səfər" və bununla başlayan milli dövlətçiliyimizin, müstəqilliyimizin əsasının qoyulması daima xatırlanacaqdır. Bu səfərdən sonra hadisələr tam başqa axarda cərəyan etməyə başladı. O çətin günlərdə ümummilli lider doğulduğu Naxçıvan şəhərində xalq ilə birlikdə yaşadı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin söylədiyi kimi: "...Naxçıvanın çox böyük siyasi və strateji əhəmiyyəti vardır. Azərbaycanın müstəqilliyinin əldə edilməsində Naxçıvanın və naxçıvanlıların çox böyük əməyi olmuşdur. Ulu öndər Heydər Əliyevin vətəni, bizim hamımızın doğma diyarı olan Naxçıvan möhkəmlənməli, güclənməlidir. Bu, bizim borcumuzdur, vəzifəmizdir... ".

Heydər Əliyevin Naxçıvana gəldiyi gün şəhərin Azadlıq meydanında 80 min nəfərdən çox adamın iştirakı ilə keçirilən mitinqdə ümummilli lider çıxış etdi. Bu, sadə bir çıxış deyildi. Heydər Əliyevin hər bir cümləsi Azərbaycanı müstəqilliyə doğru aparan çox çətin, lakin şərəfli bir yolun qısa, mükəmməl tezisləri idi.

Heydər Əliyev 1990-cı il sentyabrın 30-da Azərbaycan SSR-in və Naxçıvan MSSR-in xalq deputatı seçildi. Onun sədrliyi ilə keçirilən muxtar respublika Ali Sovetinin 17 noyabr tarixli ilk sessiyasında qəbul edilən qərarlar təkcə Azərbaycanın ayrılmaz guşəsi olan Naxçıvanın yox, bütövlükdə Azərbaycanın ictimai-siyasi həyatında tarixi dönüş yaradan bir hadisə oldu. İclasda "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında", "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" tarixi qərarlar qəbul edildi. Naxçıvan MSSR adından "Sovet Sosialist" sözləri çıxarıldı, Ali Sovetin adı dəyişdirilərək "Naxçıvan Muxtar Respublikasının Ali Məclisi" adlandırıldı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan MR-in dövlət bayrağı kimi qəbul edildi və bu bayrağın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qanunvericilik təşəbbüsü ilə çıxış edildi. Bütün bunlar Azərbaycanın müstəqilliyinin məhz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvandan başlamasının göstəriciləridir.

Heydər Əliyev 02 sentyabr 1991-ci il tarixdə Naxçıvan MR Ali Məclisinin sədri seçildikdən sonra demokratik dəyişikliklər, milli dövlətçiliklə bağlı mühüm qərarlar və daha böyük tədbirlər həyata keçirilməyə başladı. Söylənildiyi kimi: "...bu ağır vəziyyətdə bizə elə bir rəhbər lazımdır ki, o, öz müdrikliyi, nüfuzu, yüksək təşkilatçılıq qabiliyyəti ilə xalqı birləşdirə bilsin, muxtar respublikaya bacarıqla, səriştəli rəhbərlik etsin. Belə bir adam Azərbaycan xalqının yaxşı tanıdığı, sevdiyi, təkcə ölkəmizdə deyil, bütün dünyada böyük nüfuza malik olan Heydər Əlirza oğlu Əliyevdir".

Baxmayaraq ki, Naxçıvan blokada şəraitində yaşayırdı, sərhəd kəndləri erməni separatçılarının hərbi təcavüzünə qarşı təkbaşına döyüşürdü, bölgədə demokratik proseslər

genişlənməkdə idi. Heydər Əliyevin rəhbərliyi ilə yuxarıda göstərilənlərdən başqa, Naxçıvan MR Ali Məclisi tərəfindən "Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən silahlı qüvvələrin statusu haqqında", "Naxçıvan MR-in müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında", "Keçid dövründə SSR İttifaqının dövlət hakimiyyət və idarəetmə orqanları haqqında SSRİ Qanunu barədə" qərarlar qəbul edildi. 07 sentyabr 1991-ci il tarixli qərarla Naxçıvan MR Dövlət Milli Müdafiə Komitəsi yaradıldı. Sovet qoşun hissələrinin Naxçıvan ərazisindən çıxarılmasına başlanıldı ki, sonuncu rus əsgəri 29 sentyabr 1992-ci ildə ərazini tərk etdi. Elə həmin ilin 28 mayında Naxçıvanla Türkiyə arasında Araz çayı üzərində tikilən "Ümid körpüsü" açıldı. Heydər Əliyevin 22-26 avqust tarixlərində İran İslam Respublikasına səfəri və orada imzalanan sənədlər qonşu dövlətlə gələcək münasibətlərin inkişafında böyük rol oynadı. Dekabrın 3-də İran İR ilə Naxçıvan MR arasında Araz çayı üzərində Şahtaxtı-Poldəşt üzən körpüsü istifadəyə verildi.

Hələ bir qədər əvvəl-1989-cu ilin noyabr ayından genişlənməyə başlayan "Sərhəd hərəkatı" həmin ilin dekabr ayının 31-də 137 km uzunluğu olan Sovet-İran sərhədinin tikanlı məftillərinin dağıdılması ilə başa çatmışdı. 1991-ci il dekabr ayının 16-da keçirilən Ali Məclisinin sessiyasında "Sərhəd hərəkatı"na Heydər Əliyev tərəfindən siyasi və tarixi qiymət verildi. Elə həmin gün 31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik günü elan edilməklə, hər il bayram edilməsi və həmin günün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməməsi haqqında tarixi qərar qəbul edildi.

1992-ci ilin noyabrın 21-də Naxçıvanda keçirilən YAP-ın təsis Konfransında partiyanın yaranması haqqında qərar qəbul edildi və Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi.

1993-cü ilin iyununda Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan bugünkü hərtərəfli inkişafının əsası qoyuldu.

## SUMQAYIT KİMYA SƏNAYESİNİN VƏZİYYƏTİ ( 1994-cü il)

***Səmədov F.F.***
*Sumqayıt Dövlət Universiteti*

Sumqayıt şəhər sənayesinin neft kimya kompleksində buraxılan mühüm məhsul növləri üzrə istehsalın həcmi aşağı düşmüşdür.1993-cü ildə 5767 ton sintetik kaucuk, 11319 ton lateks, 34790 ton kaustik soda, 38805 ton sulfanol, 3225 ton epoksid qatranı, 50772 ton fosfat gübrəsi, 12705 ton sulfat turşusu tədarük edilməmişdir. Buraxılan məhsulların satışında yaranmış çətinliklərlə əlaqədar "Azərkimya" Dövlət şirkəti müəssisələrinin anbarlarında 630 ton sintetik kaucuk, 365 ton lateks,2119 ton propilen, 33913 ton sulfat turşusu, 4979 ton fosfat gübrəsi, 1442 ton sulfanol və.s. məhsullar qalmışdır.

Xammal və enerji ehtiyatlarının olmamasına görə uzun müddət idi ki, "Sintez – kaucuk" istehsalat birliyindəki etilen-propilen zavodu öz fəaliyyətini dayandırmışdır. Boş dayanma halları isə təkcə Sumqayıtın deyil bütövlükdə respublikamızın iqtisadiyyatına külli miqdarda ziyan vurmuşdur. 1994-cü il martın 9-da zavodun sexləri yenidən işə salınmış, ilk məhsul qonşu "Üzvi sintaz" istehsalat birliyinə nəql ilunmuşdur. Nəticədə boşdayanmalar

və catışmamazlıqlar aradan qaldırılmış, avadanlıqlar saz hala gətirilmişdir. Xammal və materiallarla təchizat məsələləri həll olunmuşdur.

Azərbaycan Respublikasının iqtisadiyyatının əsas istiqamətlərindən birini təşkil edən kimya və neft kimya kompleksinin rəhbər orqanı kimi "Azərkimya" dövlət şirkəti cox cətin və mürəkkəb bir dövrdə yaranmışdır. Dünyanın ən qüdrətli ölkələrinin iqtisadiyyatının inkişaf istiqamətlərinə nəzər salsaq görərik ki, özünəməxsus bir sıra üstünlüklərə, ən başlıcası tükənməz imkan və ehtiyat mənbələrinə görə kimya sənayesi başqa sahələrdən cox fərqlənir. Cünki xalq təsərrüfatının güzgüsü hesab olunan kimya sənayesi eyni bir adda təbii xammaldan yüzlərlə növ müxtəlif məhsullar almaq imkanına malikdir. Respublikamızın təbii imkanları nəzərə alınmaqla 50-ci illərdən cox sürətlə inkişaf etməyə başlayan 250 adda məhsul istehsal etməyə imkan verən 1,2 milyard ABŞ dolları həcmində əsaslı fonda malik olan mövcud kimya və neft kimya kompleksinin cox geniş potensiala malik olduğunu nəzərə almalıonu müasir texnoloji tələblər baxımından dünya standartları səviyyəsinə catdırmalıyıq. Sumqayıt cəmi 40 il ərzində nəhəng sənaye mərkəzinə cevrilib. Burada onlarla kimya və neft-kimya istehsalatı istifadəyə verilib. Dövlət şirkətinin yaradılması, kimya kompleksinin vahid bir təşkilata tabe edilməsi özünü doğrultmuşdur. Müstəqil Azərbaycanın kimiya sənayesinin gələcəyi naminə prespektivli, məqsədyönlü tədbirlər həyata keçirilir. Ulu öndər Heydər Əliyevin xarici ölkələrə səfərləri və xarici ölkələrlə qarşılıqlı əlaqələr kimya və neft- kimya müssisələrinin aydın strukturunun müəyyənləşdirilməsinə onun xammal bazası əsasında inkişaf etdirilməsinə imkan vermişdir.

Neft -kimya sahəsində dünyanın qabaqcıl ölkələrinin təcrübəsindən istifadə etmək və yeni texnologiyanın tətbiqi nəticəsində məhsul istehsalının həcmini və keyfiyyətini artırmağa nail ola bilərik. Bunun ücün ilk növbədə ABŞ, Türkiyə, İngilltərə, Koreya və İspaniya kimi ölkələrlə əlaqələr qurmalı və təcrübə mübadiləsi aparmalıyıq.

Sumqayıt şəhərinin ümumi sənayesinin təqribən 60 faizini kimya sənayesi təşkil edir. Buna görə də "Azərkimya" dövlət şirkəti Sumqayıtda yerlışir. Sumqayıt kimya müəssisələrinin böyük əksəriyyəti Sovet İttifaqı zamanında tikilibair. Ona görə də yerli xammal ehtiyatları və başqa amillər nəzərə alınmayıb. Sumqayıt kimya müəssisələrinin tam və normal işləməsi ücün kənarda 250 addan cox xammmal və material gətirilməli idi. Istehsal etdiyimiz məhsulların isə cəmi 20-25 faizi Respublikamıza lazım idi. "EP-300" zavodu tikilərkən onun xammal bazası kimitərkibində daha cox parafin olan Sibir nefti əsas götürülmüşdür. Iindi isə nafteni daha cox olan Azərbaycan neftinin benzinindən istifadə olunur ki, bu da məhsuldarlığı tam təmin etmir. Bütün bunların nəticəsi olaraq qeyd etməliyik ki, Sovet ideologiyasına əsasən SSRİ-yə daxil olan respublikaları həm mərkəzdən həm də bir-birindən iqtisadi cəhətdən asılı vəziyyətdə saxlamaq məqsədilə xammal bir Respublikanın emal isə digər Respublikanın ərazisində olurdu. Əsas məqsəd Respublikaların müstəqil fəaliyyətinin qarşısını almaqdan ibarət idi. Sovet İttifaqı dağılan zaman bu özünü daha qabarıq şəkildə göstərdi.

1994-cü ildə Alkilbenzol istehsalatının kimyacıları bu nəhəng kimya qurğusunda ilk məhsulun alınmasına nail olmuşlar. Ümummilli lider Heydər Əliyevin kimya sənayesinin inkişaf etdirilməsi məqsədilə xarici ölkələrlə əlaqələrin qurulmasının nəticəsi olaraq İtaliya firmalarının avadanlıqları və cihazları əsasında tikilmiş alkolbenzol istehsalatı Respublika

iqtisadiyyatında mühüm əhəmiyyət kəsb edən istehsal sahələrindən biri idi. Burada hazırlanan 100 faizli alkolbenzol yuyucu tozlar əsas xammal hesab olunurdu. Alkolbenzol kecmiş İttifaqda yeganə istehsal qurğusu idi ki, Azərbaycanda tikilib istifadəyə verilmişdir. Bu kecmiş İttifaqda yuyucu tozlara yaranan təlabatdan irəli gəlirdi. Istehsal olunan məhsulun istehlakcıları Novomoskovski ”Məişət kimyası” istehsalat birliyi və Engels şəhərindəki oxşar müəssisələrin texnologiyası bilavasitə 100 faizli alkolbenzol məhsuluna uyğun qurulmuşdur. Bununla yanaşı Ukrayna, Baltiyanı Respublikalar və İran İslam Respublikası ilə əlaqələrin qurulması planlaşdırılırdı. Əsas xammal növləri Rusiyadan alındığı ücün onunla da əməkdaşlıq ediməsi nəzərdə tutulmuşdur. Sumqayıtda sulfanol hazırlanması ücün bir qayda olaraq 25-30 faizli alkilbenzol buraxılırdı. Məhsulun tərkibində parafin və başqa kimyəvi qarışıqlar olurdu. Bu qarışıqlar yalnız proses zamanı aradan götürülürdü. Yüz faizli alkibenzolda isə aralıq məhsulları və onların izləri demək olar ki, qalmırdı. Yüz faizli alkilbenzoldan Sumqayıtda polialkilbenzol alınması texnonlogiyasının da mənimsənilməsi nəzərdə tutulmuşdu. Son məhsuldan sürtgü yağları hazırlanmalı idi, bu da yüksək səmərə və əlavə gəlir demək idi.

İlk günlər istehsal olunan 400 ton hazır məhsul Novomoskovski və Engels şəhərlərinə göndərilmişdir ki bunun da hesabına müəyyən qədər xammal ehtiyatı yaratmaq nəzərdə tutulmuşdur.

Sovet İttifaqının dağlımasından sonra Sumqayıt kimya sənayesində yaranmış böhranlı vəziyyət tədricən görülən ilkin tədbirlər nəticəsində tədricən aradan qaldırılırdı.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ İNKİŞAFI

***Şamilova A.M.***

*Sumqayıt Dövlət Universiteti*

Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu illər, Azərbaycanın quruculuq səlnaməsində ən dolğun səhifələr yazmışdır. Bütün sahələrdə canlanma baş vermiş və qısa müddət ərzində ölkə əsrə bərabər inkişaf yolu keçmişdir. Məhz həmin illərdə Ulu Öndər milli-mənəvi dəyərlərin, milli ruhun qorunması, kadrların milliləşdirilməsi və azərbaycançılıq ideologiyasının sistem halına salınması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirmişdir. Bu görülən işlərin nəticəsi idi ki, bu gün dünyada müstəqil Azərbaycan kimi bir dövlət mövcuddur.

Azərbaycan xalqı özünün milli inkişaf yolunun və ideologiyasının formalaşmasında məhz Ulu Öndər Heydər Əliyevə borcludur. Bütün varlığı ilə özünü azərbaycanlı sayan Ümummilli lider azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi üçün mümkün olan addımları ataraq ümumxalq birliyi yaratdı. Azərbaycançılığın tarixən formalaşmış ayrı-ayrı tərkib hissələrini birləşdirərək vahid hala gətirdi və onun səyi ilə azərbaycançılıq mahiyyətcə reallaşıb uğurlar qazandı. Nəticədə azərbaycançılıq ideologiyası Azərbaycanı qoruyub saxlamaq üçün mühüm bir vasitə oldu. Azərbaycançılıq ideologiyası Respublikada vətəndaş birliyinin təməli olduğundan: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir… Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam… Müstəqil Azərbaycan dövlətinin əsas ideyası

azərbaycançılıqdır… Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq…" - deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və mənəvi birliyinə nail olmuşdur.

Azərbaycançılıq ideologiyasının əsas istiqamətlərindən biri də xaricdə yaşayan soydaşlarımızın vahid ideya ətrafında birləşdirmək və onların hüquq və azadlıqlarını qorumaq olmuşdur. Bu da Ulu Öndərin əsas quruculuq işlərindən biri olmuşdur. O, dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideyalar ətrafında səfərbər etdi, mədəni mühitlərdə formalaşmış Azərbaycan diaspor təşkilatını yaratdı. Xarici səfərlərdə olarkən ulu öndər qeyd edirdi ki, "Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan." Heydər Əliyev Azərbaycanın milli dəyərlərini unutmamağı tövsiyyə edirdi. Ulu Öndər azərbaycançılığın gücünü dövlət siyasəti ilə birləşdirmək və qoruyub saxlamaq üçün azərbaycançılığın mühüm amili olan milli ənənələri ön plana çəkir, xalqın milli varlığını ifadə edən rəmzlərə, ana dilimizə məhəbbətlə yanaşırdı.

Azərbaycan xalqının istəyi ilə hakimiyyətə qayıdış dövründə vətəndaş həmrəyliyinin möhkəmləndirilməsi siyasətini davam edərək özünün uzaqgörənliyi və müdrikliyi ilə Respublikanın xarici siyasətində mühüm strateji hədəfləri düzgün müəyyən edərək Azərbaycanı dünyaya tanıtdırmaq üçün Azərbaycan diasporuna və lobbisinə dövlət dəstəyini verdi. Bu sahədə qarşıya qoyulan vəzifələri icra etmək məqsədilə 2002-ci ildə "Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin Yaradılması Barədə" fərman imzalamışdır. Bu siysətin davamı olaraq 9 - 10 noyabr 2001-ci ildə Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Əsas məqsədlərdən biri həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsinə, milli birliyin və həmrəyliyin təmin edilməsinə şərait yaratmaq olmuşdur. Qurultay Azərbaycan diasporundan lobbiyə doğru inkişafının istiqamətlərini müəyyən etdi və onlar üçün yeni şəraitlər yaratdı.

Həmin qurultaydan sonra Azərbaycan diaspor hərəkatı tamamilə yeni mərhələyə qədəm qoydu. Ümummilli lider Heydər Əliyev Komitənin yaradılması ilə xaricdəki Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən koordinasiyasına, habelə onların dövlət qayğısı ilə əhatə olunmasına geniş imkanlar yaratmışdır. Dövlət Komitəsinin yaradılması dünya azərbaycanlılarının konsolidasiyasında, diaspordan lobbiyə doğru inkişafında yeni bir mərhələnin başlanğıcını qoydu və komitə qısa müddətdə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası və Azərbaycan dövləti ətrafında birləşməsi istiqamətində xeyli iş görməyə müvəffəq olmuşdur.

Bu gün diaspor və lobbi quruculuğu ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin müxtəlif ölkələrə səfərləri çərçivəsində soydaşlarımızla keçirdiyi görüşlərdə bu sahəyə xüsusi diqqət yetirərək böyük uğurlar qazanılmışdır.

Ölkə Prezidenti cənab İlham Əliyevin 8 fevral 2006-cı il tarixli sərəncamı ilə 2006-cı il martın 16-da Bakı şəhərində keçirilən Dünya Azərbaycanlılarının II Qurultayı

Respublikanın tarixində mümhüm yer tutaraq bu sahədə görülmüş işlər dəyərləndirildi, xalqımıza qarşı törədilmiş terror və soyqırım aktları ilə əlaqədar çoxsaylı faktların dünya ictimaiyyətinə çatdırılması, digər xalqların diaspor təşkilatları ilə əlaqələrin gücləndirilməsi məsələləri xüsusilə ön plana çəkildi.

Digər diasporlardan fərqli olaraq azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq çalışırlar ki, millətimizi xaricdə layiqincə təmsil etsinlər. Onlar Azərbaycanı dünyaya daha yaxından tanıtdırmaq üçün müxtəlif səpkidə tədbirlər həyata keçirirlər.

Əsası ulu öndər tərəfindən qoyulan və ölkə başçısı İlham Əliyevin bu sahədə apardığı məqsədyönlü və prinsipial siyasətin nəticəsi bir daha onu göstərir ki, bundan sonra da Azərbaycan diasporu daha da güclənəcək və respublikamızın daxili və xarici siyasət sahəsində yaxından iştirak edəcəkdir.

## HEYDƏR ƏLİYEV AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ MEMARIDIR

***Şeydayeva A.B.***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Quba Filialı)*

Ömür yolu vətənə sədaqət nümunəsi olan, xalqın müstəqillik mübarizəsində kükrəyib – coşan, dünya şöhrətli siyasi xadim, Ümummilli lider Heydər Əlirza oğlu Əliyev , onun sarsılmaz iradəsi və bənzərsiz fəaliyyəti haqqında fikir bildirmək, sözün həqiqi mənasında bütün azərbaycanlılar üçün böyük fəxrdir.

Ulu Öndərin bir qiymətli kəlamı onun bütün ömür və fəaliyyət yolunu, düşüncələrini , vətəninə, xalqına, dövlətinə münasibətini özündə tam mənasıyla açıqlayır: “ Azərbaycanlı kimi dünyaya gəldiyimə, Azərbaycan dilində danışdığıma, Azərbaycan kimi Vətənim olduğuna, Azərbaycanı təmsil etdiyimə görə özümü həmişə xoşbəxt sanmışam. Mən fəxr edirəm ki, azərbaycanlıyam! ”

Bizim hamımızın bir Vətəni var: Azərbaycan! Biz hamımız – bütün Azərbaycan övladları canımızla, fəaliyyətimizlə Vətən tarixinə bir sətir yazmağa çalışırıq. Lakin ümumilikdə Müasir Azərbaycan tarixini Ulu öndərimiz Heydər Əliyevin həyat və fəaliyyətindən ayrı təsəvvür etmək mümkün deyil. Çünki Azərbaycan xalqı çox gözəl bilir ki, Ulu öndər bütün mənalı ömrünü yalnız insanlığa xidmət göstərməyə sərf etmiş, həyatı boyu Azərbaycan xalqının təhlükəsiz yaşaması, azadlıq haqqını tapması uğrunda mübarizə aparmışdır. Ulu Öndər xalqın enerjisinin, milli müstəqillik hissinin üzə çıxarılmasına çalışmış, doğma xalqını dünyanın inkişaf etmiş xalqlarının səviyyəsinə çatdırmışdır. Və bütün bunları böyük bir cəsarətlə, inamla, möhkəm iradə ilə etmişdir. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin bu uzaqgörən siyasəti nəticəsində daxili siyasi sabitliyin təmin edilməsi, geniş quruculuq işlərinə başlanması bütün dünyanın diqqətini Azərbaycana yönəltmişdir. Bu diqqətin əsas səbəbləri möhkəm sosial təsisatlar, qüdrətlənən ordu, regionda lider mövqe, beynəlxalq aləmdə nüfuz, Ümummilli liderin qısa müddətdə respublika iqtisadiyyatında ciddi keyfiyyət dəyişikliklərinə nail olması, Azərbaycanı xammal istehsalçısından müasir texnologiyalarla təchiz olunmuş sənaye bazasına çevirməsi və xalqımızın, dövlətçiliyimizin inkişafına yönəldilmiş bir sıra digər qətiyyətli addımların təminatı idi. Məhz Ulu öndərin uzaqgörən siyasəti, zəngin siyasi

təcrübəsinin və humanitar dünyagörüşünün genişliyi nəticəsində Azərbaycanda sabitlik, tolerantlıq, mədəniyyət, maarifçilik ideyaları daha da güclənmişdir. Azərbaycanın müstəqil dövlətə çevrilməsi də Heydər Əliyevin adı ilə bağlıdır. O, dünya azərbaycanlılarının birliyini yaradaraq azərbaycançılığı dövlətçiliyə tətbiq etmiş, bu məfkurəyə əsaslanan milli dövlət yaratmış, xalqda dövlətçilik hissini formalaşdırmışdır.

Ümummilli Lider özünün deyilməmiş, yazılmamış bütöv fəlsəfi sistemi sayəsində Azərbaycan ədəbiyyatının, mədəniyyətinin tarixi və bugünü ilə, problemləri ilə daima maraqlanır, mütəxəssisləri səfərbər edirdi. Heydər Əliyevin çox müxtəlif sahələrə dair söylədiyi fikirlər, əslində, dərin qatlardakı vahid konsepsiyanın ayrı-ayrı təzahürləridir.

Heydər Əliyev xarezmatik lider idi. Buna görə də xalqımız Heydər Əliyev dühasında xarezmatik liderə xas olan bütün yüksək məziyyətləri görməklə, ona Azərbaycanın ÜMUMMİLLİ LİDERİ adını vermişdir. O, həm qədim , həm də müasir tarixmizi əzbər bilirdi.

Bu səbəbdən də Azərbaycan xalqının tarixində və taleyində Azərbaycanın Ümummilli liderinin rolunu tam dolğunluğu ilə ifadə edəcək tərif tapmaq qeyri –mümkündür.

Ümummilli Lider Heydər Əliyevin siyasi dühası bu keyfiyyətlərin hamısını özündə cəm etməklə yanaşı, böyük dövlət xadiminə, mübarizə qəhrəmanına, dahi filosofa, dünyagörmüş müdrikə xas olan bir sıra nadir xüsusiyyətlərə də malik idi ki, bu da onun qabiliyyətli zəfər yolunu daim nurlandırmışdır. Fenomenal yaddaş, dərin zəka, yüksək savad, böyük intellekt, təkrarolunmaz natiqlik qabiliyyəti ümummilli lider Heydər Əliyevin siyasi portretinin bənzərsiz ifadələridir.

Ümummilli Lider Heydər Əliyev yuxarıda sadaladığımız keyfiyyətlərin hamısını özündə cəm etməklə yanaşı, böyük dövlət xadiminə, mübariz qəhrəmanına, dahi filosofa, dünyagörmüş müdrikə xas olan bir sıra nadir xüsusiyyətlərə də malik idi ki, bu da onun qabilliyətli zəfər yolunu daim nurlandırmışdır. Fenomenal yaddaş, dərin zəka, yüksək savad Ümummilli lider Heydər Əliyevin siyasi portretinin bənzərsiz ifadələridir.

O siyasi lider xoşbəxdir ki, onun ideyaları siyasi varis tərəfindən davam etdirilir, daim fəaliyyətdə saxlanılır, nəzəri – ideoloji irsi öyrənilir. Ümummilli liderimiz bu baxımdan da mükəmməldir və əbədiyaşardır. Çünki yüksək təfəkkür, zəngin dövlətçilik və idarəçilik təcrübəsi qazanmış, Heydər Əliyev ideyalarını özündə əks etdirən, müasir düşüncəli lider cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan intibah dövrünü yaşayır və inamla irəliləyir.

Xalqımızın taleyində misilsiz rolu olan, Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin xilaskarı, qurucusu, ölkəmizi davamlı inkişaf yoluna çıxarmış möhtəşəm fəaliyyəti ilə "Dünyanın ən böyük azərbaycanlısı" adını qazanmış ümummilli liderimizə olan vətəndaşlıq borcumuz, dövlətə müstəqillik, xalqa isə azadlıq bəxş edən rəhbərə bəslənən sonsuz ehtiramımız bu gün biz gənclərdə vətənpərvərlik hisslərini daha da gücləndirir.

# YENİ AZƏRBAYCAN PARTİYASININ DÖVLƏT İDARƏÇİLİYİNDƏ YERİ VƏ ROLU

***Şükürova G.B.***
*Sumqayıt Dövlət Universiteti*

1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini əldə etsə də, həmin dövrdə hakimiyyətdə olan səriştəsiz qüvvələr ölkənin keyfiyyətcə yeni mərhələdə üzləşdiyi problemlərin öhdəsindən gələ bilməmişdilər. Nəticədə ölkədə iqtisadi tənəzzül prosesi dərinləşmiş, qanunçuluğun, hüquq qaydalarının təminatında ciddi problemlər yaranmışdı. Xüsusən də 1992–ci ilin mayında silahlı yolla hakimiyyətə gələn AXC-Müsavat rəhbərliyinin siyasi səriştəsizliyi, qətiyyətsizliyi bütövlükdə Azərbaycan dövlətçiliyinə ciddi təhlükəyə çevrilən neqativ meyillərin baş qaldırmasına-siyasi mübarizədə qanunsuz silahlı birləşmələrdən istifadəyə, etnik separatizmə, vətəndaş itaətsizliyinə gətirib çıxarmışdı. Nizami ordunun olmaması, xalqın düşmənə qarşı lazımi səviyyədə səfərbər edilməməsi son nəticədə Azərbaycanı cəbhə bölgəsində ciddi uğursuzluqlarla üzləşdirmişdi.

Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə ziyalıların təşəbbüsü və fəal iştirakı ilə siyasi səhnəyə çıxdı. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının imzaladığı müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan sizin sözünüzü və qəti qərarınızı gözləyir". 1992-ci il noyabrın 21-də Naxçıvanda Ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyasının yarandığı elan olundu. Tarixi zərurətdən yaranan YAP Azərbaycanın siyasi həyatında özünəməxsus rola malik olan bir təşkilat kimi qəbul edildi.Bunun da səbəbi o di ki, partiyanın başında dahi siyasətçi Heydər Əliyev kimi Azərbaycan xalqının böyük hörmət və inam bəslədiyi şəxsiyyət dayanırdı.

Ümummilli liderimizin nüfuzu, Azərbaycan xalqının ona göstərdiyi yüksək etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, 1999-cu ildə keçirilmiş qurultaydan sonra Yeni Azərbaycan Partiyasının inkişafında mühüm bir səhifə açıldı. Ulu öndər Heydər Əliyev YAP üzvlərinin yeni mərhələdə əsas vəzifələrini və istiqmətlərini müəyyənləşdirdi. YAP və ICAPP əlaqələri (əməkdaşlığı) Yeni Azərbaycan Partiyasının 1999-cu ildə keçirilmiş 1-ci Qurultayında qəbul edilmiş proqramda aydın şəkildə yazılmışdır ki, xarici Yeni Azərbaycan Partiyası siyasət sahəsində beynəlxalq aləmdə sülh, sosial tərəqqi və xoşməramlı əməkdaşlıq uğrunda mübarizə aparan mütərəqqi qüvvələrlə sıx əlaqələr qurulmasını, bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı münasibətlər yaradılmasını, Azərbaycan xalqının möhkəm sülh və əmin-amanlıq şəraitində yaşamaq, dinc quruculuqla məşğul olmaq imkanının təmin edilməsini zəruri hesab edir. Qeyd etmək vacibdir ki, Yeni Azərbaycan Partiyasının irəli sürdüyü təkliflərin İCAPP üzvləri tərəfindən dəstəklənməsi məhz iqtidar

partiyasının Asiyanın siyasi partiyaları ilə qurduğu işgüzar əlaqələr çərçivəsində həyata keçirdiyi təbliğat-təşviqat işləri sayəsində mümkün olmuşdu. Azərbaycan barədə çox müsbət təəssüratlarla ayrılıblar.YAP-ın, həmçinin, AXP gəncləri ilə əməkdaşlığının qurulması prosesi gedir. YAP gəncləri AXP-nin tərkibində olan Avropa Tədqiqatları Mərkəzinin iclaslarında dəfələrlə iştirak edib və birgə layihələrin həyata keçirilməsi nəzərdə tutulub. AXP keçirdiyi bütün toplantılara YAP-ın nümayəndələrini dəvət edir. Qurumun cari ilin martında İrlandiyanın paytaxtı Dublində keçirilən sonuncu konqresində də YAP öz nümayəndələri ilə təmsil olunub. Asiya qitəsinə gəlincə, bölgənin nüfuzlu siyasi qurumu olan Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransına (İCAPP) rəhbərlik edən 23 siyasi partiyadan ibarət Daimi Komitədə YAP da yer alır. Daimi Komitə təşkilata daxil olan 350-yə yaxın iqtidar və müxalifətyönlü siyasi partiyaya rəhbərlik edir. Bu cəhətdən İCAPP unikal bir təşkilatdır. Hazırda qitənin 300 –dən artıq siyasi partiyası qurumun fəaliyyətində bu və ya digər formada iştirak edir. Əməkdaşlıq münasibətlərinin qurulduğu dövrdən etibarən, Yeni Azərbaycan Partiyasının nümayəndələri Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının keçirdiyi tədbirlərdə yaxından və fəal iştirak edir, qurumun iclaslarında səmərəli müzakirələr apararaq, təklif və layihələr irəli sürürlər. Qeyd edək ki, İCAPP-ın təsis toplantısı 2000-ci ilin sentyabr ayında, Filippinin paytaxtı Manila şəhərində keçirilib. Təşkilatın məqsədi regionun müxtəlif siyasi partiyaları arasında əməkdaşlığa və təcrübə mübadiləsinə nail olmaq və birgə səylərlə Asiya qitəsinin iqtisadi–ictimai inkişafına töhfələr verməkdir. Missiyanın üzvləri YAP və YAP-ın təşəbbüsü ilə İCAPP-ın iki daimi komitə və bir Baş Assambleya toplantısı Bakıda keçirilib. Bunlar İCAPP Daimi Komitəsinin 2012-ci il 21-24 iyun tarixli 17-ci iclası, 21-24 noyabr 2012-ci ildə VII Baş Assambleyası və 4-6 aprel 2013-cü ildə keçirilən Qadın Qolunun 1-ci iclasıdır. Təkcə Baş Assambleyaya 200-dən artıq qonaq gəlmişdi. Təşkilatın Qadın Qolunun yaradılmasında isə YAP-ın təşəbbüsü xüsusi rol oynayıb. Bu da YAP-ın beynəlxalq səviyyədə nüfuzlu bir siyasi partiyaya çevrildiyini təsdiq edir. Bundan əlavə, İCAPP BMT-də müşahidəçi statusu almaq üçün quruma müraciət edib. 2012-ci ildə İCAPP-ın altı rəhbər şəxsdən ibarət nümayəndə heyəti Nyu Yorkda BMT-nin baş katibi Pan Gi Munla görüş keçirib. YAP da həmin görüşdə öz nümayəndəsi ilə təmsil olunmuşdu. İCAPP həm də Azərbaycanda keçirilən 2013-cü il 9 oktyabr prezident seçkilərində müşahidəçi qismində böyük bir nümayəndə heyəti ilə iştirak edib. YAP-ın, eyni zamanda, Avroatlantik məkanda baş verən siyasi proseslərə təsir imkanları da genişlənib. Həm Asiya, həm də Avropa ölkələrinin siyasi partiyaları ilə əməkdaşlıq edən, hər iki qitədə fəal olan YAP-ın beynəlxalq aləmdə nüfuzlu bir siyasi partiyaya çevrilməsi danılmaz həqiqətdir.

Yeni Azərbaycan Partiyasının əldə etdiyi nailiyyətlər silsilə xarakter daşıyır və bugünkü uğurların ciddi tarixi və siyasi əsasları mövcuddur.Sirr deyil ki, YAP Heydər Əliyev yolu ilə irəliləyərək çox böyük və şərəfli yol keçib.Əminliklə söyləyə bilərik ki, cəmiyyətin avanqard siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası dövlətimizin qarşısında duran vəzifələrin yerinə yetiriliməsinə özünün layiqli töhfəsini verib və bu siyasəti bu gün də uğurla davam etdirilir.

Cənubi Qafqazın ən böyük və mütəşəkkil siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələri də yüksələn xətt üzrə inkişaf edir, əməkdaşlığın coğrafiyası və məzmunu genişlənərək keyfiyyətcə yeni mərhələyə qədəm qoyur.

Bir sözlə, Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrinin coğrafiyası getdikcə genişlənir.Bu əlaqələr, eyni zamanda, müstəqil Azərbaycan Respublikasının siyasi partiyalar səviyyəsində beynəlxalq təşkilatlarda təmsilçiliyinin yüksək nümunəsidir.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ İNKİŞAFI

***Tahirova Ş.Ş.***

*Azərbaycan Dillər Universiteti*

Ötən əsrin 60-cı illərinin sonundan başlanan və yaşadığımız XXI əsrə adlayan tarixinin otuz dörd illik bir müddəti Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. O, ömrünün gənclik çağlarından başlayaraq bütün həyatını Azərbaycanın inkişafına, tərəqqisinə həsr edir, bütün taleyini Azərbaycan xalqının taleyi ilə bağlayır, Azərbaycana həsr edir.

Azərbaycanda dövlətçilik ənənələrinin formalaşması, Azərbaycanda məskunlaşan bütün xalqların vahid milli maraqları elə bir ideyanın yaranmasına zəmin yaratmalı idi ki, bu ideya Azərbaycanın ümumi inkişafına, tərəqqisinə xidmət etsin, Azərbaycanı bütün dünyaya tanıtsın. Belə bir ideya Azərbaycançılıq, bu ideyanı irəli sürən isə Ümummilli liderimiz Heydər Əliyev oldu. Ulu öndər həmçinin həmin ideyanın əsasında milli ideologiyanı formalaşdırdı. Milli ideologiya dedikdə nə başa düşülür?

Pedaqoq alim N.Kazımov "Azərbaycan milli izahlı ensiklopedik pedaqoji lüğəti"ndə qeyd edir ki, ideologiya mənşəcə yunan sözü olub, ictimai şüurun müxtəlif formalarında təcəssümünü tapan fəlsəfi, hüquqi, əxlaqi-estetik, dini və sair baxışların sistemidir. Məhz ictimai şüurun qeyd olunan bütün formalarında: fəlsəfi, siyasi, hüquqi, əxlaqi, estetik, iqtisadi, dini və s. Ulu öndərin kifayət qədər məqsədyönlü, uzaqgörən yanaşmaları olmuşdur. Ulu öndər gəncliyə böyük inam bəsləyirdi, gəncliyi Azərbaycanın gələcəyi hesab edirdi. O, 2 fevral 1996-cı ildə "Müstəqil Azərbaycan Respublikası Gənclərin Birinci Forumu"ndakı nitqində demişdir ki, gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Onun üçün də Ulu öndərin ideologiyasında gənclərin təhsili, tərbiyəsi mühüm yer tuturdu. O, hesab edirdi ki, hər bir gəncdə azərbaycançılıq məfkurəsinin formalaşdırılması tərbiyə konsepsiyasının başlıca ideyalarından biri olmalıdır. Ulu öndərin Azərbaycançılıq ideologiyasında gənc nəslə təhsil verib onu gələcəyə hazırlamaq, həmçinin Azərbaycanın inkişaf etmiş ölkələrin təhsil sistemlərinə inteqrasiya olunması üçün münasib şəraitin yaradılması mühüm yer tuturdu. O həmçinin tövsiyə edirdi ki, təhsilimizin dünya sisteminə inteqrasiya olunmasına baxmayaraq, təhsilin əsas məqsədi milli maraqlar və mənafelər üzərində qurulmalıdır. Ulu öndər azərbaycançılıq ideyasına fərqli mövqeydən yanaşaraq təhsilimizin milli zəmin üzərində qurulmasını Azərbaycanda yaşayan hər bir vətəndaşın vətəndaşlıq borcu hesab edirdi. O, hesab edirdi ki, yaşadığı dövlətdən asılı

olmayaraq, harada azərbaycanlı varsa, onda azərbaycançılıq məfkurəsi, Azərbaycana sevgi özünü göstərməlidir.

Ulu öndərin bütün həyat və fəaliyyətinə nəzər saldıqda bir daha bizə aydın olur ki, onun həyatı və siyasi fəaliyyəti nəsillərə əsl nümunədir. Ulu öndər azərbaycanlı olduğu üçün daim fəxr edirdi. Onun "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam" müdrik kəlamı da dediklərimizin əyani sübutudur. Ulu öndərin məqsədyönlü və uzaqgörən siyasətinin nəticəsidir ki, onun şah əsəri olan müstəqil Azərbaycanın adı bu gün dünyanın inkişaf etmiş ölkələri ilə eyni sırada çəkilir.

Qloballaşma dövründə ictimai həyatımızın bütün sahələrində dəyişikliklər müşahidə olunur. Hər şey inkişafa, tərəqqiyə doğru istiqamət alır. Bu gün bütün dünya görür ki, Azərbaycan necə inkişaf edir, dəyişir. Bu dəyişiklik, bu inkişaf birbaşa insanların ruhuna, mənəviyyatına təsir edir.

Bu gün onun qurduğu müstəqil Azərbaycan bütün dünyada tanınır. Azərbaycanın müstəqil olması və müstəqilliyinin dünyada tanınması üçün, ümummili lider Azərbaycanın ictimai, siyasi, sosial və iqtisadi həyatında əsaslı dəyişikliklər apardı, Azərbaycanın böyük bir siyasi sistemini yaratdı. Ulu öndərin apardığı uğurlu siyasətin nəticəsidir ki, Azərbaycanın bugünkü inkişafı onun gələcəyinin etibarlılığına zəmanət verir.

Yekun olaraq Ulu öndərin azərbaycançılıq ideyasını aşağıdakı kimi, qruplaşdırmağı məqsədəuyğun hesab edirik.

- Azərbaycanın müstəqilliyinin daimiliyinin qorunub saxlanılması;
- Azərbaycanda və Azərbaycandan kənarda yaşayan bütün azərbaycanlıların həmrəliyinin, vahid bir məqsəd ətrafında birləşməyini təmin edilməsi;
- Azərbaycanda və onun hüdudlarından kənarda yaşayan bütün azərbaycanlılarda Azərbaycanın daim güclü bir dövlət olacağına inam və əqidənin formalaşdırılması;
- Azərbaycanda dövlətçiliyin, ölkədə yaşayan bütün xalqların, etnik qrupların bərabərliyini, qarşılıqlı əlaqə və əqidə birliyinin təmin olunması;
- Azərbaycanda multikultral dəyərlərin və tolerantlığın dövlət siyasəti və həyat tərzi kimi qəbul olunması;
- Azərbaycanda demokratiyanın və vətəndaş cəmiyyətinin formalaşmasına və inkişaf etməsinə daim diqqət yetirilməsi;
- Gənclərin vətənpərvər ruhda böyümələrinə lazımi şəraitin yaradılması;
- Gənclərin Azərbaycan Respublikasının dövlət atributlarına hörmət etmək ruhunda tərbiyə edilməsi;
- Azərbaycan dilinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərin, adət-ənənələrin nəsildən-nəslə ötürülməsinin məsuliyyətlə dərk olunması;
- Azərbaycan gənclərinin yüksək mənəviyyat ruhunda tərbiyə edilməsi;

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ İNKİŞAFI

***Veysəlova V.R.***
*Gəncə Dövlət Universiteti*

Hər bir xalq öz tarixinin yeni səhifələrini məhz yetişdirdiyi dahi övladlarının ağlı, zəkası, qətiyyəti, qəhrəmanlığı sayəsində yazmağa nail olur. Azərbaycanın XX əsr tarixinin böyük bir hissəsini, heç şübhəsiz tam əsasla Ulu öndərimiz Heydər Əliyev tarixi adlandıra bilərik. Ötən yüz illiyin təxminən 30 ili ərzində ölkəmizdəki inkişaf, qazanılmış nailiyyətlər, yaradılmış dəyərlər və sərvətlər Ulu öndərin adı və fəaliyyəti ilə bağlıdır. Fikrimcə, hər bir insan və hər bir millət hər şeydən əvvəl öz xalqının mənəvi sərvətinə sahib çıxmalı, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və milli- mənəvi dəyərlərini qorumalıdır. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz adət-ənənələrimizlə fəxr edirik. Bilirik ki, hər hansı bir xalqın mədəniyyətinin inkişafında, milli şüurunun formalaşmasında tarixən yaranmış milli-mənəvi dəyərlərini şərtləndirən dil, din və adət-ənənə onun mənəvi aləminin formalaşmasına həlledici təsir göstərən amillərdəndir.

Milli-mənəvi dəyərlərə dövlətçilik mövqeyindən qiymət verilməsi ölkəmizdə azərbaycançılığın qorunub saxlanılması və inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Ulu öndərimiz Heydər Əliyev azərbaycançılığın bütün tərkib hissələrini, milli ideologiyamızın strukturlarına daxil etməklə, mədəniyyət və dövlətçiliyin sintezindən çıxış edirdi. Ona görə azərbaycançılığın əsas komponentlərindən biri milli dövlətçilik, digəri isə milli-mənəvi dəyərlərdir. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz. Hər bir xalqın əlverişli tarixi şəraitdə milli-etnik soykökünə qayıdışı, əsrlər boyu əxz etdiyi milli-mənəvi dəyərlər və düşüncə sisteminə söykənərək özünüməxsusluğunu qorumaq fürsəti əldə etməsi tarixi şəxsiyyət fenomeninin fövqəladə missiyası ilə şərtlənir.

XX əsrdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət olan Heydər Əliyev də Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında, azərbaycanlıların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurmuşdur. Ümummilli Lider məhz həmin illərdə milli-mənəvi dəyərlərin, milli ruhun qorunması, kadrların milliləşdirilməsi, azərbaycançılıq ideologiyasının sistem halına salınması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirmişdir. Əgər Ulu öndər Heydər Əliyevin hələ respublikamıza birinci rəhbərliyi dövründə Azərbaycanın sosial-iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı istiqamətində istər açıq, istərsə də gizli şəraitdə görülən işlər olmasaydı, bu gün Azərbaycanın müstəqil xəttə malik suveren dövlət kimi mövcudluğundan danışmaq çətin olardı. Ötən əsrin sonlarına doğru çoxəsrlik tarixi mücadilənin yekunu kimi dövlətçiliyini bərpa edən, azadlığa qovuşan Azərbaycan xalqının milli inkişaf yolunun və ideologiyasının formalaşması da məhz Ulu öndər Heydər Əliyevin müstəqil respublikamıza rəhbərliyi dövrünə təsadüf edir. Bütün ruhu, qanı, canı ilə özünü azərbaycanlı sayan ümummilli lider cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlər görərək ümumxalq

birliyinin dərin politoloji və nəzəri əsaslarını irəli sürdü. Böyük strateq azərbaycançılığın tarixən formalaşmış ayrı-ayrı komponentlərini vahid sistem və konsepsiya halına gətirərək onu dövlət idarəçiliyinin elmi-nəzəri əsasına çevirdi. Məhz Heydər Əliyev dühasının səyi ilə azərbaycançılıq mahiyyətcə real məzmun daşıyaraq təcrübədə realizə imkanları qazandı. Ulu öndər daim vurğulayırdı ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Heydər Əliyevin fəlsəfi baxışlarına görə, azərbaycançılıq milli mənsubiyyəti, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı: Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq", - deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur. O, azərbaycançılığı dövlətçiliyə tətbiq etdi, bu məfkurəyə əsaslanan milli dövlət yaratdı, xalqda dövlətçilik hissini formalaşdırdı. Bu ideologiya Azərbaycan dövlətinə qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik əlamətlər əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər olmuşdur. Bunu onun Dünya Azərbaycanlılarının Qurultayındakı nitqi (10 noyabr, 2001-ci il) də sübut edir. Heydər Əliyevin qurultaydakı çıxışı azərbaycançılığın tarixi proqram sənədi hesab edilir. Heydər Əliyev qurultaydakı çıxışında demişdir: «Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı: Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq».

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MÜSTƏQİLLİK KONSEPSİYASI

***Vəliyev A.C.***
*Sumqayıt Dövlət Universiteti*

Heydər Əliyev Yaxın tarixi təcrübəmiz real şəkildə sübut etdi ki, əgər müstəqillik həqiqi mənada xalqa xidmət edirsə, millətə öz milli həyatını sərbəst, özünəməxsus şəkildə qurmaq imkanı verirsə, yalnız bu halda o, milli inkişafın ən müqəddəm şərti hesab oluna bilər. Ümummilli lider Heydər Əliyevin vaxtilə söylədiyi "Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm" deyimini bu gün də həyəcansız xatırlamaq mümkün deyil. Ona görə ki, xalqımızın əsrlər boyu uğrunda mübarizə apardığı, lakin əsl milli dəyər mahiyyətini bugünkü uğurlarımızda daha real dərk etdiyi müstəqillik idealında cəmiyyətimizin qarşılaşdığı məşəqqətli, faciəli anlar, ağrılı günlər öz izini qoymuşdur. Ulu öndərin bu həyat manifesti bizdə ölçüyəgəlməz qürur hissi

doğurur, çünki bu optimizmdə onun rəhbərliyi ilə milli varlığımızın taleyüklü problemlərinin həlli yolunda atılan uğurlu addımları, milli tərəqqiyə mane olan neqativ əyintiləri vaxtında təmkin və qətiyyətlə aradan qaldırmaq əzmi və bacarığı, elin qüdrətindən mayalanan milli təfəkkürün yaradıcı potensial təcəssümünü tapmışdır. Məhz buna görə Heydər Əliyevin müstəqillik konsepsiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlar fonunda xüsusi aktuallıqla səslənir. Doğrudur, ümummilli lider milli müstəqillik probleminə həsr edilmiş xüsusi elmi əsərlər yazmamışdır. Lakin özünün bütün siyasi karyerası boyu xalqımızın müstəqilliyə yetmək istəyini dərindən duymuş və müdafiə etmiş, bu taleyüklü milli problemin məzmun və mahiyyətinə dərindən nüfuz etmiş, bu amalı özünün fəaliyyət kredosuna çevirmişdir. O, istər dərin məzmunlu çıxışlarında, istərsə də xalqla keçirdiyi görüşlərdə səsləndirdiyi ideyalarla müstəqillik konsepsiyasının nəzəri-praktiki əsaslarını yaratmışdır. Bu konsepsiyada milli dövlətçilik ideyaları ilə həmin ideyaları həyata keçirən müdrik siyasətin obrazının dialektik vəhdətini görürük.

Sxolastik düşüncə tərzini kəskin tənqid edən Heydər Əliyevin müstəqillik konsepsiyası mühüm nəzəripraktik model kimi milli reallıqlarımızın və bu reallıqların xarici faktorlarla şərtlənməsinin analitik, yaradıcı dərkinin məhsuludur. Odur ki, biz Heydər Əliyevin müstəqillik konsepsiyasının formalaşmasının ilkin şərtləri olan xarici və daxili faktorlara toxunmaq istərdik. Kontinental imperiya olmuş Sovetlər İttifaqının dağılmasından sonra "soyuq müharibə", "qorxunun tarazlığı", "nüvə qışı" kimi düşüncələri narahat edən metaforik ifadələrin qlobal siyasi şüurdan hələ tam psixoloji mənada sıxışdırılmadığı bir beynəlxalq şəraitdə Azərbaycan Respublikasının dünya inteqrasiya proseslərinə qoşulması hakimiyyətə qayıdışının ilk günlərindən ulu öndərin başlıca və ardıcıl dövlətçilik idealı olmuşdur. Konsepsiyanın beynəlxalq dəyərindən söhbət salarkən belə bir tarixi paraleli xüsusi göstərmək lazımdır ki, Heydər Əliyev milli varlığımızın təminatı olan müstəqillik konsepsiyasını işləyərkən sabiq Fransa prezidenti F.Mitteranın Avropa konfederasiyası, ABŞ prezidenti C.Buşun (ata) bütöv demokratik Avropa, Almaniyanın xarici işlər naziri Q.Qenşerin Avropada yeni dünya nizamı haqqında konseptual mülahizələri irəli sürülürdü. Deməli, Azərbaycan üçün o dövrdə öz müstəqilliyini təsdiq etdirmək dünya birliyinə tədricən inteqrasiya etmək zərurəti idi. Bu mənada müstəqillik konsepsiyasını zamanın konkret sosial-siyasi vəziyyət məcrasında nəzərdən keçirmək lazımdır. Məsələ burasındadır ki, konsepsiyanın işlənildiyi ziddiyyətli dövrdə, yəni Azərbaycanda 80- ci illərin sonu və 90-cı illərin əvvəlində fərdi, ictimai və milli şüur haçalanmışdı.

Kütləvi şüurda qarşıdurmaya və başdan-başa dağıdıcılığa olan meyil sosial həyatın təşkilinin pozitiv prinsiplərini üstələyirdi. Sovet rejiminin struktur böhranının tələblərini analitik təhlil edən Heydər Əliyev görürdü ki, 1989-cu ildən başlayaraq yenidənqurmanın əsas problemlərinin həllinin uğursuzluğa düçar olması nəticəsində ölkə uçurum qarşısındadır. Yeniliklərlə ayaqlaşan idarəçilik konsepsiyasının olmaması və rəhbərliyin açıq-aşkar zəifliyi və acizliyi ucbatından yenidənqurmanın "sosializmi yeniləşdirmək" kimi ritorik nəzəriyyəçiliyə aludə olmuş Moskva "memarları" tarixi məqamı ötürmüş, mərkəzin yeni orqanları isə səriştəli qərar qəbul etmək qabiliyyətini itirmişlər. Belə halda, onların fikrincə, kontinental imperiyanın iflası daha geniş miqyas, qlobal xarakter alacaq və bu,

yeni demokratiyaların müstəqillik uğrunda mübarizəsinə qlobal təsir göstərəcəkdir., Özünün müstəqillik konsepsiyasını işləyərkən ulu öndər konkret və real cəmiyyətin iqtisadi, siyasi, sosial və mənəvi-əxlaqi sahələrinin bütün kompleks problem və qayğıları ib real Azərbaycan gerçəkliyindən çıxış edirdi. Lakin o, həmişə "qlobal düşünüb lokal hərəkət etmək lazımdır" prinsipinə riayət edərək Azərbaycan xalqının müstəqilliyinin qorunmasını dünya hadisələri məcrasında həll etməyə çalışmışdır. Təcrübəli dövlət başçısı diplomatiyanın belə bir ümdə prinsipindən çıxış etmişdir ki, daxildə aparılan nadan və səriştəsiz siyasət ölkənin nəinki dünya birliyinə daxil olmasına mane olur, daha çox, məsələn, Azərbaycanın nümunəsində götürsək, xaricdə onun başına gələn müsibətlərə laqeyd münasibət yaradır. Xalqımız cəbhəçilərin hakimiyyətdə olduğu dövrdə ölkəmizdə baş verənlərin timsalında bunun şahidi olmuşdur. Dünya proseslərindən kənarda qalmağın xalqın tarixi şüuruna, onun milli identifikasiyasına vurduğu mənəvi ziyanı başa düşmək çətin deyildir. Daxildə isə bu, xalqın etimad hissini öldürmək, onun dövlətçiliyinə olan inamını şərəfsizcəsinə qırmaq deməkdir. Bu mənada Heydər Əliyevin əqidəsincə, milli müstəqillik millətin mədəniyyətini, iqtisadiyyatını, elmini, incəsənətini inkişaf etdirməklə özünü-realizə və özünütəsdiq üçün şərait yaratmaq və bununla başqa dövlətlərdən asılılığı minimuma endirmək deməkdir, çünki, prinsipcə, bütün dünya dövlətləri inteqrasiya şəraitində bir-birilərindən asılıdır.

## HEYDƏR ƏLİYEV İRSİNDƏ MİLLİ-İDEOLOJİ DƏYƏRLƏRİN İNKİŞAFI

***Yusifova T.V.***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şamaxı filialı)*

Xalqımızın Ümumilli Lideri Heydər Əliyev, hər şeydən əvvəl müasir Azərbaycan dövlətinin banisidir. Onun siyasi, ideoloji və idarəçilik irsi elə bir zəngin xəsinədir ki, bu xəzinə Azərbaycan xalqının milli sərvəti olaraq, zaman-zaman öyrənilmiş və gələcək inkişafımız üçün də mühüm əsas olacaq və öyrəniləcəkdir. Heydər Əliyev irsi alimlər, mədəniyyət xadimləri, siyasətçilər, idarəçilər tərəfindən müxtəlif mövqelərdən öyrənilsə də, onun gələcəkdə daha dərindən və məzmunlu öyrənilməsinə və təbliğ olunmasına hələ bundan sonra çox ehtiyac olacaqdır. Tərəddüt etmədən demək lazımdır ki, Heydər Əliyevin çoxşaxəli dövlətçilik, ictimai-siyasi fəaliyyətinin əsasında duran, onun müasir dövrdə XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərində yaratmış olduğu milli mənəvi dəyərlərdir. Məhz bu dəyərlər həyatımızın müxtəlif sahələri üçün zəruri olan metodoloji bazanı təmin edir və gələcək inkişafımızı düzgün istiqamətə yönəldir. Heydər Əliyevin müstəsna fitri isdedadı, dahiyanə uzaqgörənliyi və bacarığı, böyük və mükəmməl həyat təcrübəsi ona xüsusilə, 90-cı illərdən sonra, eləcə də əvvəlki illərdə də çıxışlarında, yazılarında, göstərişlərində elə fikirlər söyləməyə imkan vermişdir ki, bu fikirlərin məcmusu qısa bir müddətdə yeni dövr üçün milli ideologiyamızın formalaşmasına imkan yaratmışdır. Bu ideologiyanın düzgünlüyünü həyatın özü və Azərbaycanın sonrakı inkişafı iqtisadi və siyasi uğurları nəticə olaraq bir daha sübut etmişdir. Heydər Əliyevin yaratdığı milli ideologiya ölkə həyatının müxtəlif istiqamətlərdə inkişafını möhkəmləndirdi və hər bir yeni situasiya üçün düzgün çıxış yolu göstərdi. Heydər Əliyev tərəfindən yaradılan milli ideologiya elə bir əsas oldu ki,

o ölkə başçısı İlham Əliyev tərəfindən daha da uğurla davam etdirilərək yeni dövr üçün zənginləşdirildi və inkişaf etdirildi.

Xalqın sevimlisi Heydər Əliyevin qətiyyəti və dərin təfəkkürü sayəsində formalaşan milli ideologiyamızın ana xəttini milli birlik ideyası təşkil edir. Bu birlik xalqın vahid məqsəd və milli dövlətçilik zəminində birliyini özündə təcəssüm etdirir. Bu mənada Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının leytmotivinə çevrilən "Mən hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm" fikri onun Heydər Əliyev ideologiyasına sadiqliyinin bariz ifadəsidir.

Dünya Azərbaycanlılarının I qurultayında Heydər Əliyev milli dövlətçiliyimizin ideya təməlini "Müstəqil Azərbaycan dövlətinin əsas ideası azərbaycançılıqdır" kimi ifadə etməklə, azərbaycançılıq məfkurəsini dünya aəzrbaycanlılarının milli ideologiyasının təməl prinsipinə çevirdi. Bu gün hamı dərk edir ki, azərbaycançılıq coğrafi anlayış olmayıb daha çox milli məfkurədir. Azərbaycançılıq məfkurəsi qüdrətli dövlət ideologiyası olmaqla yanaşı həm də həyatımızın bu məfkurəyə dair digər istiqamətləri üçün də çox önəmlidir.

Heydər Əliyevin mədəni irsi özünün möhtəşəm gücü, inandırıcı qüdrəti ilə dövlətçiliymizin qorunmasına, xalqımızın həmrəyliyinə xidmət edir və yeni uğurlar qazanmaqda olan təhsil sistemimiz vasitəsi ilə gəncliyə və bütün azərbaycanlıların qəlbinə hakim olmaqdadır. Azərbaycançılıq ideologiyası özünün möhtəşəm gücü, inandırıcı qüdrəti ilə dövlətçiliymizin qorunmasına, xalqımızın birliyini gücləndirməklə vətənimizin müstəqilliyinin əbədiləşmsinə xidmət edir. Ümummilli Liderin yaratdığı milli ideologiya öz nuru ilə yalnız bu günü deyil, Müstəqil Respublikanın gələcəyini də işıqlandırır, ona müasir dünyanın sayılıb seçilən dövlətləri mövqeyinə qalxmaq və orada bərqərar olmağın yollarını işıqlandırır.

Müasir həyat özü sübut edir ki, ideologiyasız dayanıqlı və çiçəklənən dövlət mümkün deyil. Qloballaşma şəraitində məhz ideoloji təməlin möhkəmliyi digər atributiv əsaslarla birgə güclü iqtisadiyyata, elm, təhsil və mədəniyyət daxil olmaqla dövlət və cəmiyyəti mondializasiya prosesinin passiv obyektinə çevrilməsindən xilas edir. Bu baxımdan banisi Böyük Heydər Əliyev olan "milli ideologiyasını" son dərəcə yüksək qiymətləndirilməlidir.

Heydər Əliyev deyirdi: **"Bizim vətəndaşlıq borcumuz milli-ideoloji dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan ibarətdir"**

Milli-ideoloji dəyərlərin müasir dövrdə inkişafını ümumbəşəri dəyərlərdən tədric olunmuş vəziyyətdə təsəvvür etmək qeyri mümkündür. Ona görə də Heydər Əliyev mənəvi tərbiyə sistemində milli və ümumbəşəri dəyərlərdən bəhrələnmə məsələsinə böyük əhəmiyyət verirdi. Onun fikrincə milli-ideoloji dəyərlər milliliyini özündə saxlayaraq məzmununu ümumbəşəri dəyərlərlə zənginləşdirməli, ümumdünya mədəniyyətinin nailiyyətlərindən bəhrələnib inkişaf etməlidir.

Respublikamızın həyatında gedən müsbət dəyişikliklər, iqtisadi islahatların dərinləşməsi, cəmiyyətin idarə olunmasında, xalqın rifahına və gələcəyinə yönələn demokratik dəyərlərin əsas tutulması beynəlxalq aləmdə ökənin nüfuzunun artması, təhsildə qazanılan uğurlar bütövlükdə Azərbaycanın milli inkişaf konsepsiyası olan Heydər Əliyev ideologiyasının təntənəsi deməkdir. Ölkəmiz tərəqqi etdikcə Ümumilli liderin tükənməz

xəzinə olan irsinin tədqiqinə və təbliğinə ehtiyac daha da artır. Onun böyük idarəçilik irsi həqiqətən də tükənməz bir xəzinədir. Dahi şəxsiyyət Heydər Əliyev dühasından yaranan bu xəzinə o qədər zəngindir ki, onu öyrəndikcə daim yeni qatlar üzə çıxır.

Ümumillilider Heydər Əliyev milli ideologiyamızı azadlıq, sərbəstlik, müstəqillik atributları ilə canlandıraraq müstəqil dövlətçiliyin bünövrəsini yaratmağa nail oldu.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ İNKİŞAFI

***Zülqədərova L.İ.***

*Gəncə Dôvlət Universiteti*

Ötən əsrin sonlarına doğru çoxəsrlik tarixi mücadilənin yekunu kimi dövlətçiliyini bərpa edən, azadlığa qovuşan Azərbaycan xalqının milli inkişaf yolunun və ideologiyasının formalaşması da məhz ulu öndər Heydər Əliyevin müstəqil respublikamıza rəhbərliyi dövrünə təsadüf edir. Bütün ruhu, qanı, canı ilə özünü azərbaycanlı sayan ümummilli lider cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlər görərək ümumxalq birliyinin dərin politoloji və nəzəri əsaslarını irəli sürdü. Böyük strateq azərbaycançılığın tarixən formalaşmış ayrı-ayrı komponentlərini vahid sistem və konsepsiya halına gətirərək onu dövlət idarəçiliyinin elmi-nəzəri əsasına çevirdi. Məhz Heydər Əliyev dühasının səyi ilə azərbaycançılıq mahiyyətcə real məzmun daşıyaraq praktikada realizə imkanları qazandı.

Ulu öndər daim vurğulayırdı ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Heydər Əliyevin fəlsəfi baxışlarına görə, azərbaycançılıq milli mənsubiyyəti, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Xalqımızın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi və vahid sosium üçün uğurlu təməldir. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq", - deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur.

Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində dövlətin qarşısında duran vəzifələri, onların Azərbaycana münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, habelə azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiyadır. Bu ideologiyanın pozitiv xarakteri həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur. Milli-mənəvi, islami-əxlaqi, dünyəvi-humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və

avropaçılıq meyillərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi, ünsiyyət birliyini ahəngdar şəkildə ehtiva edən azərbaycançılıq ideologiyası məhz buna görə də müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış diasporumuz üçün cəlbedicidir.

Azərbaycan dövləti dünya azərbaycanlılarının potensial imkanlarını cəmləmək, müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həllinə yönəltmək, daha sıx əlaqələr yaratmaq, milli birliyə nail olmaq istiqamətində ardıcıl və sistemli iş aparmışdır. 2001-ci ilin ən yaddaqalan və milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvələrindən biri noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi olmuşdur. Ümummilli lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı sərəncama əsasən, keçirilmiş bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi üçün şərait yaratmışdır. Deməli, azərbaycançılıq ideologiyası həm də xalqın tarixən tapındığı mütərəqqi ənənələri gələcək nəsillərə ötürən mənəvi körpüdür. Azərbaycançılığın gücü, eyni zamanda fərdi maraq və meyilləri dövlət siyasəti ilə birləşdirmək, xalqın milli-mədəni eyniyyətini qoruyub saxlamaq imkanları ilə ölçülür.

Ulu öndərin layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev də diaspor və lobbi quruculuğuna mühüm məsələlərdən biri kimi yanaşır. Ötən 8 ildə bu yöndə ardıcıl və sistemli tədbirlərin həyata keçirilməsini təmin edən Prezident İlham Əliyev müxtəlif ölkələrə səfərləri çərçivəsində soydaşlarımızla keçirdiyi görüşlərdə milli diaspor təşkilatlarının vahid, mütəşəkkil qüvvə kimi təşkilatlanması zərurətini önə çəkmiş, bunun ideoloji-siyasi konturlarını müəyyənləşdirmişdir. Azərbaycan diasporunun nümayəndələri harada yaşamalarından asılı olmayaraq, özlərini azərbaycanlı hiss edir, millətimizi xaricdə layiqincə təmsil etməyə çalışırlar. Müstəqil Azərbaycanın daxili və xarici siyasət sahəsində əldə etdiyi uğurlar onların milli şüurunu, özünüdərkini, torpağa bağlılığını gündən-günə möhkəmləndirir. Prezident İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması deməyə əsas verir ki, yaxın illərdə Azərbaycan diasporu daha da güclənəcək, doğma Vətənin taleyüklü problemlərinin həllində daha yaxından iştirak edəçəkdir.

## ВЕЛИКИЙ РЕФОРМАТОР

***Мамедов Р.Ю.***

*Сумгаитский государственный университет*

Общенациональный лидер Г.Алиев как историческая личность создал политические и экономические основы современной азербайджанской государственности. Глубокие реформы, осуществленные благодаря его железной воле сыграли историческую роль в том, что Азербайджан идущая сегодня по пути нового устойчивого развития занимает достойное место в глобальном масштабе. Развитие всех сфер социально-экономической и общественно-культурной жизни республики

связаны с именем великого лидера. Именно благодаря титаническим усилиям, решительности, политической воле деятеля мирового масштаба было создано современное Азербайджанское государство.

В 1969 г с приходом Г.Алиева к руководству был дан старт процессу, направленному на создание основ экономического развития страны, повышение благосостояния народа. В результате целенаправленных мер, принятых гениальным руководителем, в экономике страны были проведены важные структурные преобразования, созданы новые сферы промышленности, повышено внимание к развитию научно-исследовательских сфер, непосредственно связанных с производством.

Азербайджан занял ведущее место в СССР в области внедрения в производство прогрессивных технологий, улучшено качество производимой продукции.

Возвративший к власти 15 июня 1993 г  Г.Алиев спас Азербайджанское государство и экономику страны от неминуемой катастрофы, хаоса, начал принимать неотложные меры для экономического подъема страны. За короткий срок была создана база для формирования в стране рыночной экономики, приняты целевые государственные программы, предприняты соответствующие шаги для осуществления коренных преобразований в имущественных отношениях.

В стратегии глубоких экономических реформ Г.Алиева особое место занимает искусное использование нефтяного фактора для всестороннего развития экономики страны. Несмотря на внутреннее и внешнее давление подписание с международным консорциумом  в 1994 г «Контракта века» разработке нефтяных месторождений «Азери-«Чыраг»-«Гюнешли» стало торжеством высокой политической воли и решительности великого лидера.

Именно благодаря продуманной экономической политике была достигнута макроэкономическая стабильность, заложена основа устойчивого экономического роста, завоеваны серьезные достижения в сфере улучшения жизни населения. Одним из важных направлений экономической политики Г.Алиева было развитие инфраструктуры. С этой точки рения в центре политики развития транспорта находились развитие международных и транзитных коридоров и дорог на территории страны, а также стремительное интегрирование в мировое коммуникационное пространство нашей транспортной системы. В этих целях началась реализация трасса, транспортного коридора Север-Юг.

Создание экономики на основе рыночных отношений, проведение аграрной реформы, раздача крестьянам колхозных и совхозных земель, стада и имущества, либерализация цен придали стимул развитию аграрного сектора, были осуществлены серьезные структурные преобразования в сельском хозяйстве. Успешное проведение земельной реформы, архитектором которой был великий лидер, спасли сельское хозяйство от кризиса 90-х годов, заложило основу будущего развития.

Принятые государственные программы сыграли особую роль в развитии малого и среднего предпринимательства. Была создана законодательная база приватизации государственной собственности, утверждены государственные программы в этой

области. Успехи, достигнутые благодаря управленческим способностям основателя современного Азербайджана заложили прочную основу для устойчивого и динамичного развития экономики страны в последующие годы.

В результате постоянно совершенствующейся с учетом веления времени, гибкой и дальновидной экономической политике президента И.Алиева достигнутые успехи были закреплены, наша страна успешно завершила переходный период в экономической сфере, был обеспечен ее переход к либеральной рыночной экономике.

Под руководством И.Алиева экономические реформы были продолжены, экономика Азербайджана превратилась в одну из наиболее динамично растущих экономик мира. В короткий срок Азербайджан стал страной с высоким средним доходом, полностью была обновлена социально-экономическая инфраструктура, он занял 37-е место по глобальной конкурентоспособности. В эти годы экономика страны увеличилась в 6 раз, национальный доход на душу населения в 5 раз, сохранена стабильность цен, в результате значительного роста доходов в иностранной валюте сформировались крупные стратегические валютные резервы. Достигнутые Азербайджаном успехи находят отражение и в оценке ведущих рейтинговых агентств. Так, по подсчетам, в 2009 г наша страна получила оценку как «самая реформаторская страна» среди стран мира. Согласно последнему отсчету Всемирного экономического форума Азербайджан вошел в группу 50 самых конкурентоспособных экономик мира и сохранил первенство среди стран СНГ. А согласно отчету о человеческом развитии ООН, Азербайджан по «Индексу человеческого развития» вошел в группу с высоким уровнем человеческого развития.

# II BÖLMƏ

# AZƏRBAYCANIN MƏDƏNİ İNKİŞAFI

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İRSİNDƏN TƏLİM PROSESİNDƏ İSTİFADƏ

**_Abbasova G.O._**
*Azərbaycan Dillər Universiteti*

Xalqın tarixində xüsusi xidmətləri olmuş insanlar, onların fəaliyyəti, yaradıcılığı barədə gənc nəsillərə məlumat vermək vacibdir. Belə məlumatlar insanda müəyyən əxlaqi keyfiyyətlərin yaranmasına kömək edir, tarixi  şəxsiyyətlərdən nümunə  götürməyə imkan yaradır. Müəllim olmağa hazırlaşan gənclərdən söhbət gedəndə məsələnin əhəmiyyəti bir qədər də artır: müəllimə tələbəlik illərində öyrəndiyi biliklərdən, əldə etdiyi bacarıq və vərdişlərdən istifadəyə əlverişli şərait yaradır. Bu işin səmərəli yerinə yetirilməsi ümumbəşəri məqsədə xitmət etdiyindəndir ki, həm də təlim prosesində ona diqqət ayrılması tələb olunur. Tədris olunan fəndən, onun məzmunundan asılı olmayaraq, təlim zamanı psixoloji qüvvələrin inkişafına da yer ayrılmalıdır. Əks halda,  bilikli, amma bu biliyindən cəmiyyətin faydasına istifadənin zəruriliyini dərk etməyən insanlar yetişdirmiş olarıq.

Ali məktəbdə çalışmaq təcrübəm mənə belə bir qənaətə gəlməyə əsas verir ki, təlimin əsas təşkili forması olan dərsdə yeri gəldikcə tarixi şəxsiyyətlərin həyatına, yaradıcılığına müraciət etmək, onlardan nümunələr gətirmək tələbələrin diqqətini müzakirə olunan məsələyə yönəltmək baxımımndan olduqca faydalıdır. Belə nümunələr, misallar həm də tələbələri psixoloji cəhətdən inkişaf etdirir, əxlaqlarını saflaşdırır, təhlil, tərkib qabiliyyətlərini, nitqlərini yaxşılaşdırır, dünyaya münasibətlərini nizama salır. Diqqətin yönəldilməsi baxımından yanaşanda aydın olur ki, hətta diqqəti yayınmış tələbələr də tarixi şəxsiyyətlərlə bağlı məqamlara laqeyd qalmır, fikirlərini konkret mövzuya yönəltməyə çalışırlar. Diqqət iradə ilə sıx bağlı xüsusiyyət olduğundan nəticəyə  gəlmək olur ki, təlimin belə təşkili həm də tələbələrin iradələrinin formalaşmasına təsir göstərir.

Bunları nəzərə alaraq, təlim prosesində tarixi şəxsiyyətlərin həyatından, yaradıcılığından yeri gəldikcə misallar gətirir, nümunələr verirəm. Təcrübə göstərir ki, tələbələr Ümummilli Lider Heydər Əliyevlə bağlı faktları daha maraqla dinləyir, yeni mövzunun şərhi zamanı (qiymətləndirmə mərhələsində) özləri də əlavə misallar gətirməklə, daha yaxşı bilik nümayiş etdirirlər.

Təcrübə  sübut edir ki,Psixologiyanın, o cümlədən, Psixologiya ilə bağlı olan digər fənlərin tədrisində Ümummilli Lider H.Əliyevlə bağlı nümunələr, misallar gətirmək üçün geniş imkanlar vardır. Bu imkanlar həm konkret mövzularla, həm də elmin inkişafı ilə, ona münasibətlə bağlıdır.

Heydər Əliyevdən gətirilən misallar auditoriyanı canlandırır, elmə, insanlığa münasibəti yaxşılaşdırır,  sabahın müəllimində bu sahədə iş aparmaq üçün imkanlar yaradır. Konkret mövzularla bağlı imkanlar və onlardan istifadəyə dair misallara qısa şəkildə nəzər

salaq: məsələn, konkret olaraq tələbələrlə İradə, Iradənin inkişaf etdirilməsi üzrə iş aparılarkən müəllim imkandan istifadə edərək H.Əliyevin dəmir iradəsi barədə konkret şəkildə məlumat verə bilər. Müəllimin Ümummilli liderin şəxsiyyət kimi, ictimai-siyasi xadim, dövlət başçısı kimi hörmət qazanmasında onun iradi keyfiyyətlərinin böyük rolunun olmasını qeyd etməsi tələbə-gənclərə olduqca güclü təsir edir. Belə məlumatlara malik olan tələbələr adətən, söhbətlərində H.Əliyevin iradi nümunəsi ilə bağlı faktların onları (tələbələri) özlərinin iradi keyfiyyətlərinin inkişafı üzrə iş aparmağa istiqamətləndirdiyini söyləyirlər.

Azərbaycan tarixinə, mədəniyyətinə, incəsənətinə Ümummilli liderin münasibəti ilə bağlı təlim prosesində gətirilən hər hansı nümunə də tələbələr güclü təsir göstərir. H.Əliyevin yazıçılarla, teatr xadimləri ilə, rəssamlarla və b. görüşlərdə etdiyi çıxışlar bu sahələri onun nə dərəcədə mükəmməl bilməsi ilə bağlı söhbətlər, gətirilən faktlar da tələbələrdə öyrənməyə, dünyagörüşlərini inkişaf etdirməyə ciddi maraq oyadır.

Elm xadimlərimizə münasibət, onlara H.Əliyev qayğısı bütövlükdə elmə maraq yaratmaqda, elm sahəsində özünü tapmaqda təşəbbüs göstərməyə yaxşı imkanlar açır. Pedaqoji psixologiyanın tədrisində, xüsusilə tərbiyə və özünütərbiyə, müəllim şəxsiyyətinin psixologiyası kimi məsələlərin tədrisi də H.Əliyev nümunəsi ilə bağlı iş aparmağa geniş imkanlar açır. Tələbə bu faktlar əsasında qənaətə gəlir ki, xalqa faydalı olmaq, sevilmək, tarixdə əbədi qalmaq üçün ilk növbədə hər bir kəs özünütərbiyənin imkanlarından istifadə etməli, gördüyü işlərlə bağlı hesabat verməli, şəxsiyyət kimi formalaşmaq üçün dünyagörüşünü daimi şəkildə genişləndirməlidir.

Nəticə olaraq qeyd edək ki, Ümummilli Lider Heydər Əliyevin həyat və yaradıcılığından təlim prosesində istifadə olunmalı, tələbələrə müntəzəm şəkildə məlumatlar verilməlidir. Bu iş təkcə təlim prosesində deyil, həm də auditoriyadan, təlimdənkənar tədbirlərdə yerinə yetirilə bilər.

## HEYDƏR ƏLİYEV AZƏRBAYCAN DİLİNİN MEMARI VƏ QURUCUSUDUR

***Abbasova S.H., Hüseynova D.Ə.***
*Azərbaycan Texnologiya Universiteti*

Bu il Ümummilli Lider Heydər Əliyevin 95 yaşı tamam olur. Ulu öndərin bu illərdə keçdiyi yola bir nəzər saldıqda aydın bir həqiqətin şahidi oluruq: Heydər Əliyev Azərbaycana qayıdanda ölkə çox ağır bir durumda idi. O günləri cənab Prezident belə xatırlayır: "Eşidəndə ki, mənim doğma vətənim, mənim doğma torpağım dağılır, uzun müddət bu vətənin, ölkənin inkişafına xidmət etmiş bir adam kimi mən bilirəm ki, biz burada nələr etmişik və bu, dağılır, şübhəsiz ki, özümü qurban verməli oldum və gəldim, məsuliyyəti öz üzərimə götürdüm”.

1993-cü il iyunun 15-i isə Müstəqil Azərbaycanın Qurtuluş günüdür. Əgər cənab Heydər Əliyev xalqın təkidi ilə Naxçıvandan Bakıya gəlməsəydi və ikinci dəfə Azərbaycana rəhbərlik etməyi öz üzərinə götürməsəydi, bu gün dünyanın siyasi xəritəsində Azərbaycan Respublikası adlı dövlətin mövcudluğu mümkün olmayacaqdır.

Siyasi hakimiyyət böhranının məngənəsində sıxılan Azərbaycana rəhbərlik etmək məsuliyyətini yalnız Heydər Əliyev öz üzərinə götürdü. Bu tarixi məsuliyyət isə Milli Məclisin Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri Ali Sovetin Sədri Heydər Əliyevə keçməsi haqqında 24 iyun 1993-cü il tarixli qərarı Azərbaycanın düşdüyü bəlalardan xilas olması yolundan mühüm tarixi əhəmiyyət daşıyırdı. Bu dövrdə dünyanın diqqət mərkəzi Azərbaycana yönəlmişdi. Bir-birinin ardınca baş verən ağır siyasi proseslər Azərbaycanın dövlətçiliyini sarsıtmış, onun müstəqilliyini və azadlığını təhlükə altına almışdı. Belə çıxılmaz siyasi vəziyyətdə bütün bu çətinlikləri yaşadıqdan sonra millət birmənalı şəkildə dərk etdi ki, hər yetəndən "lider" ola bilməz. Onun özünə layiq rəhbəri olmadan bu fəlakətlərdən xilas ola bilməz.

Heydər Əliyev Respublikaya rəhbərlik etdiyi illərdə minlərlə tədris ocağı, gənclik mərkəzləri açılmışdır. Heydər Əliyev prezidentliyə başladığı ilk gündən etibarən Azərbaycanda müstəqillik, iqtisadi yüksəliş, azadlıq, elmi tərəqqi dövrü başlamışdır.

2001-ci il Dünya Azərbaycanlıların I Qurultayında isə Heydər Əliyevin söylədiyi sözlər kiçikdən tutmuş böyüyə qədər daima hər bir kəsin yaddaşındadır: "Mən həmişə fəxr etmişəm və indi də fəxr edirəm ki, mən Azərbaycanlıyam".

Ümummilli Liderimiz Heydər Əliyev dilimizin saflığını, mənəvi zənginliyini qorumağın vacibliyini hər zaman vurğulayır, dövlət idarəçiliyində bu zəruri şərtə əməl etməyin vacibliyini önə çəkirdi. Bununla yanaşı, qeyd edirdi ki, Azərbaycan dili dünyanın inkişaf etmiş dillərindən olduğundan müasir dövrün ən müxtəlif ictimai-siyasi, elmi-mədəni, fəlsəfi-intellektual məzmun və hadisələri, informativ mənzərəsi bu dildə çevik şəkildə səlistliklə əksini tapa bilir.

Ümummilli Liderimiz Heydər Əliyev dil məsələsinə dövlət siyasətinin tərkib hissəsi kimi yanaşırdı. Ona görə də qeyd edirdi ki, xalqın, millətin, insanın öz ana dilindən əziz bir şeyi ola bilməz. Məhz dilə dövlət səviyyəsində belə yanaşmanın nəticəsidir ki, "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli prezident fərmanı ilə xalqımızın əlamətdar bayramları sırasına biri də əlavə olunmuşdur.

Heydər Əliyev tərəfindən verilmiş "Azərbaycan əlifbası və Azərbaycan dili gününün qeyd edilməsi haqqında" fərmanı dilimizin tətbiqi işinə stimul vermiş, yaddaşımıza və milli-mənəvi dəyərlərimizə, ədəbi-mədəni irsimizə ehtiramı rəsmiləşdirmişdir. Eyni zamanda, əlifbamızın beynəlxalq aləmə daha yaxın olan latın qrafikalı Azərbaycan əlifbasına keçid prosesini sürətləndirmişdir.

Ulu öndərin ana dilinin taleyi barədə təməl düşüncələrini şərtləndirən dil quruculuğundakı ideya istiqaməti bu gün də müasir siyasi baxışlara uyğun səviyyədə aparılmaqdadır. Bu istiqamətdə atılmış vacib addımlardan biri də Ulu öndərin 2002-ci ildə imzaladığı "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Republikasının qanunudur. Bu qanunda Azərbaycan dili müstəqil dövlətçiliyin əsaslarından biri olaraq qəbul edilmiş, onun digər dillər arasında yaşaması və təkmilləşdirilməsi sahəsində konseptual ideyalar irəli sürülmüşdür.

Belə bir qanunun qəbulu ölkə Prezidenti kimi Heydər Əliyev tərəfindən dövlətin milli dil, milli kimlik siyasətinin uğurla aparılmasının nəticəsi olaraq ictimai xarakter daşıyır və bununla yanaşı, həm də ana dilinə dövlət dili statusu qazandırmışdır. Ölkə həyatında dilin

tarixi, müasir vəziyyəti və onun hüquqlarının müdafiə olunması, hüdudlarının genişlənməsi məsələləri daim gündəmdə qalmaqla, böyük dövlət əhəmiyyəti daşıyır.

Ümummilli Lider Heydər Əliyev müstəqillik illərində Azərbaycan dilinin qorunub saxlanılması, onun zənginləşdirilməsi istiqamətində də böyük işlər gördü. Azərbaycan dilinin milli-mənəvi, siyasi-hüquqi haqqının bərpa olunması istiqamətində atılmış vacib addımlardan biri 18 iyun 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanın imzalanması olmuşdur. Fərmanda Azərbaycan dilinin tarixi inkişaf yolları, habelə müstəqil dövlətçilik atributu kimi rolu və funksiyası göstərilmiş, əvvəlki on il ərzində tətbiqi vəziyyəti hərtərəfli nəzərdən keçirilmişdir.

Azərbaycan xalqı xoşbəxtdir ki, ona Heydər Əliyev kimi müdrik siyasi xadim rəhbərlik edib. O, bütün həyatını doğma xalqına sərf edən, milli dövlətçiliyin əsasını qoyan dahi lider idi.

## HEYDƏR ƏLİYEVİN MİLLİ TƏHSİL STRATEGİYASI VƏ AZƏRBAYCAN GƏNCLİYİİ

***Abdullayev N.M.***
*Sumqayıt Dövlət Universiteti*

Heydər Əliyevin hakimiyyətə gəlməsi Azərbaycan dövlətçiliyini parçalanmadan, vətəndaş müharibəsindən xilas etməklə yanaşı, müstəqilliyimizi gözü götürməyən qüvvələri də fəallaşdırmışdı. Belə bir şəraitdə xarici emissarların yedəyində gedən 5-ci koloniya dövlətçiliyimizə qarşı çıxmaqdan, hətta çevriliş cəhdi etməkdən belə çəkinmirdi. Bununla onlar Azərbaycanı çıxılmaz vəziyyətə salmağa, imperiya maraqlarını təmin etməyə, ümumiyyətlə ölkəmizi sivil dünyadan təcrid vəziyyətində saxlamağa cəhd edirdilər. Bütün bunlara baxmayaraq Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində onların bu məkrli niyyətlərinin qarşısını almaq mümkün oldu. Nəticədə, dünyanın ən nəhəng dövlətləri Azərbaycanla hesablaşmalı oldular ki, bu da ictimai-siyasi, sosial-iqtisadi nailiyyətlərimizin əldə olunmasına təkan verdi. Göründüyü kimi, milli suverenliyimizin təminatı, məhz Heydər Əliyevin bu siyasətinin təzahür forması olmuşdur. Bu siyasət Azərbaycanı Avropa Şurasına, bütün dünyaya təsir etmək gücünə malik "Əsrin müqaviləsi"nə aparmışdır. Təsadüfi deyil ki, Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi ilə əlaqədar Strasburqda keçirilən təntənəli mərasimdə Heydər Əliyevin tarixi çıxışı, həmin mərasimdə dövlət müstəqilliyimizin müqəddəs rəmzi olan üçrəngli bayrağımızın Avropa Şurasının sarayı qarşısında qaldırılması milli tariximizin yaddaqalan, şanlı səhifələrindən biri kimi tarixə düşmüşdür.

XX əsr dövlətçilik tariximizə istər "İkinci Respublika" adı ilə daxil olmuş mərhələdə, istərsə də – üçüncü Respublika – Müstəqil Azərbaycanda bütün sahələrdə olduğu kimi milli təhsil quruculuğu sahəsində də böyük nailiyyətlər qazanılmış, Azərbaycanın zəngin intellektual potensialı yaranmış, güclü təhsil sistemi formalaşmışdı. Bu dövrdə Heydər Əliyevin milli təhsil strategiyasında iki mühüm cəhət diqqəti cəlb edir: 1) milli tərbiyə və təhsilə dair nəzəri fikirlər; 2) milli təhsil quruculuğu yolunda həyata keçirdiyi əməli işlər.

Heydər Əliyevin milli tərbiyə haqqında fikirlərində Vətən sevgisi, azərbaycançılıq hissi, xalq, millət sevgisi, dil sevgisi, milli mədəniyyət sevgisi xüsusi yer tutur. Təsadüfi deyil ki, xalqa müraciətində gənclərimizin tərbiyəsindən danışarkən Ulu Öndər qeyd edirdi ki, "Gərək hər bir insan, xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. O, azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin,elminin nə olduğunu dərindən bilməlidir. Bu gün bizim təhsilimizdə, mədəniyyətimizdə məhz Azərbaycanın dövlət müstəqilliyinə xidmət edərək, əsl vətəndaş tərbiyə olunması prosesinə cəlb edilibdir". Heydər Əliyev bu müraciəti ilə ilk dəfə olaraq milli tərbiyənin məzmununa gənc nəslin milli vətənpərvərlik tərbiyəsi anlayışını daxil etmiş və onun mahiyyətini müəyyənləşdirmişdir.

Heydər Əliyevin nəzəri fikirləri içərisində mühüm yer tutan ideyalardan birini də təhsilin məzmununun müstəqil Azərbaycanın dövlətçiliyi prinsipləri əsasında qurulması məsələsi təşkil edir. Belə ki, təhsilin dövlət və cəmiyyət həyatının mühüm sahəsi olduğunu dərindən bilən Ulu Öndər hakimiyyətinin ilk illərindən etibarən təhsilin yüksələn xəttlə inkişafına nail olmaq üçün bütün mümkün imkanlardan istifadə olunması haqqında göstəriş vermişdi ki, bununla da əlaqədar olaraq, XX əsrin 70-80-ci illərində 350 mindən çox şagird yeri olan 680 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmiş, məktəbəqədər tərbiyə müəssisələrinin sayı 1600-dən 1875-ə çatdırılmış, ali təhsil müəssisələrinin sayı 1969-cu illə müqayisədə 12-dən 17-yə, təhsil alanların sayı isə 70 mindən 100 minə yüksəlmişdi.

XX əsrin 70-ci illərinə qədər Azərbaycanın müxtəlif dövlət strukturlarında təmsil olunan rəhbər işçilərin xeyli hissəsinin qeyri-millətlərin nümayəndələrindən və qeyri-peşəkarlardan ibarət olduğunu nəzərə alan və bu baxımdan da milli kadrların hazırlanmasını günün ən aktual məsələlərindən biri hesab edən Heydər Əliyev Azərbaycan xalqının növbəti dəfə müstəqilliyini əldə edəcəyinə inam hissi ilə hələ ötən əsrin 70-ci illərində xaricdə təhsil strategiyasına start vermişdir. Bununla əlaqədar olaraq, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəbində Respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına şərait yaradılmışdır. Ulu öndər tərəfindən "Azərbaycanın milli sərvəti" kimi qiymətləndirilmiş bu gənclər təhsillərini başa vurduqdan sonra Azərbaycana dönmüş, Respublikamızın ictimai-siyasi və mədəni həyatında yaxından iştirak etmiş və yüksək nəzəri biliklərini praktikada peşəkarlıqla hələ də tətbiq etməkdədirlər.

Heydər Əliyevin təhsil siyasətində nəzərdə tutduğu ən mühüm prinsiplərdən biri də milli hərbi kadrların yetişdirilməsi məsələsi olmuşdur ki, bununla da əlaqədar olaraq 1972-ci ildən etibarən hər il 300-400, sonralar isə 800-900 nəfər gənc SSRİ-nin məşhur ali hərbi məktəblərinə oxumağa göndərilmişdi. Təsadüfi deyil ki, bu gün müstəqil Azərbaycanın Milli Ordusuna rəhbərlik edən zabitlərin böyük əksəriyyəti məhz Heydər Əliyevin o illərdə təhsil almağa göndərdiyi məzunlardır.

Heydər Əliyevin hakimiyyətə xilaskar missiyalı qayıdışı nəticəsində Azərbaycanın təlim-tərbiyə müəssisələrinin ahəngdar işi bərpa olundu, təhsil sisteminin müstəqil dövlətçilik prinsipləri əsasında qurulmasına tarixi şərait yarandı. Belə ki, 1998-ci ilin

martında prezidentin imzaladığı sərəncamla təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası yaradıldı. Bu komissiya tərəfindən qısa müddətdə "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlandı və 1999-cu ilin 15 iyununda təsdiq olundu. Proqramda XXI əsr Azərbaycan təhsilinin strategiyası işlənib hazırlanmışdır.

Bütün bunların müqabilində qeyd etmək lazımdır ki, Heydər Əliyevdən müasir təhsilimizə miras olaraq qalmış milli təhsil strategiyası bütün zamanlarda aktual olaraq qalacaqdır. Politoloq Fremen yazır ki, tarix keçmiş siyasət, siyasət isə hazırki tarixdir. Bu baxımdan Heydər Əliyev həm müasir siyasətimiz, həm də hazırki tariximizdir.

## TƏHSİLİMİZİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

***Abdullayeva G.M.***
*Azərbaycan Dillər Universiteti*

*"Təhsil həyatımızın ən gərəkli, ən mühüm sahəsidir, o milli məqsədlər, mənafelər əsasında qurulmalıdır".*

*Heydər Əliyev*

Ölkəmizdə təhsilin məzmunca yaxşılaşdırılması, gənc nəslin dünyagörüşünün formalaşdırılması, onların təlim və tərbiyəsinin düzgün şəkildə təşkil edilməsi cəmiyyətin qarşısında duran əsas vəzifələrindən biridir. Bu mühüm vəzifələr Azərbaycan müstəqillik qazandıqdan sonra məhz Heydər Əliyevin sayəsində gerçəkləşdi. **Özünün bütün həyatını xalqına həsr edən Heydər Əliyev** ölkəmizə rəhbərlik etdiyi 30 il ərzində Azərbaycan xalqının tarixinin tədqiqinə, onun ictimai-sosial fikrinin öyrənilməsinə, xalqın mədəni, mənəvi irsinin qorunmasına və gənc nəsillərin bədii təfəkkürünün formalaşması məsələlərinə xüsusi diqqət və qayğı göstərmişdir. Görkəmli dövlət xadiminin doğma xalqına həsr etmiş ömür yolu bu günün və gələcəyin gəncləri üçün parlaq nümunə, tərbiyə məktəbidir. Ulu öndərin təlimində təhsillə tərbiyənin, mükəmməl biliklə yüksək mənəviyyatın vəhdəti son dərəcə mühüm prinsip kimi əsaslandırılmış, Azərbaycan təhsilinin inkişafında əvəzsiz xidmətləri olmuşdur.

Təhsil ocaqlarının tərbiyəedici funksiyasına xüsusi diqqət yetirən ümummilli liderin aşağıdakı sözləri də bu ali həqiqətin ifadəsidir: **"Təhsil mürəkkəb bir sahədir. Təhsil sahəsi nə sənayedir, nə də kənd təsərrüfatı, nə də ticarətdir. Bu cəmiyyətin xüsusi, intellektual sahəsini əks etdirən sahədir".** Dahi şəxsiyyətin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində təlim-tərbiyə ilə əlaqədar nəzəri fikirləri sırasında təhsilin məzmununu müstəqil Azərbaycanın dövlətçilik prinsipləri əsasında qurmaq ideyasının əsaslandırılması xüsusi yer tuturdu. O, müasir dövrü, müasir təhsil sistemini əks etdirən kitablardan istifadənin vacibliyini vurğulayır, inkişaf edən cəmiyyətin tələblərinə cavab vermək üçün dünyanın hər yerində inkişaf etmiş iqtisadiyyatı, texnologiyanı, texnikanı respublikamızda tətbiq etmək, ölkəmizin iqtisadiyyatını, mədəniyyətini, təhsilini yüksək səviyyəyə çatdırmaq üçün bizim gənclərimizin daha səylə çalışmasını vacib sayırdı.

Ulu Öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün lazımi şərait yaradılmışdı**.** İstər müasir tələbata uyğun elmi kadrların hazırlanmasında, istər Azərbaycan

Respublikasının beynəlxalq aləmə və qlobal iqtisadi mühitə sürətlə inteqrasiya etməsində, istərsə də ölkənin sosial-iqtisadi istiqamətlərdə ciddi uğurlar qazanmasında ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə reallaşan tədbir və islahatların rolu danılmazdır. Şagird və tələbələrin müasir tələblər səviyyəsində formalaşması üçün təlimin keyfiyyəti, yüksək savad, dərin bilik verilməsi yeganə şərt deyil. Bu məsələyə də diqqət yetirən müdrik rəhbər Heydər Əliyev digər mühüm faktoru da təhsil alanların mənəvi kamilliyində, əqidə saflığında görürdü. Yuxarıda qeyd edilənlərdən aydın olduğu kimi, Heydər Əliyev bütün həyatı boyu öz xeyirxah əməlləri və ədalətli mövqeyi ilə xalqımızın güvənc yerinə çevrilmişdir. Ümumilli lider ölkənin və xalqın taleyində, hərtərəfli inkişafında, nailiyyətlər qazanmasında təhsilin xüsusi əhəmiyyətini hər zaman nəzərə alıb, yüksək qiymətləndirib: "Hər bir dövlət, əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır". Ulu öndər həm təhsilin məzmunu, mahiyyəti, məqsədləri, səmərəli təşkili, müəllim əməyinin ləyaqəti, şagirdlərin və tələbələrin vəzifələri barədə qiymətli fikirlər söyləyib, həm də Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalıb, illərlə bu sahədə sistemli tədbirlər həyata keçirib. Məhz bu yanaşmanın nəticəsidir ki, sosial-iqtisadi və siyasi istiqamətlərdə qazanılmış müvəffəqiyyətlər biri-birinə təkan verməklə, vahid bir prosesə çevrilir. Eyni zamanda, əsas uğurlardan biri də ondan ibarətdir ki, həyata keçirilən islahatlar içərisində elmin inkişafı prioritet kimi qəbul edilir və həyata keçirilən bütün islahatlar elmi cəhətdən əsaslandırılır. Yeni təhsil müəssisələrinin yaradılması, məktəblərin müasir tədris vasitələri ilə təmin edilməsi, şagirdlərin dövlət hesabına pulsuz dərsliklərlə təmin olunması, müəllim əməyinin yüksək qiymətləndirilməsi, istedadlı gənclərə böyük dövlət qayğısının göstərilməsi, onların xaricdə təhsil almağa göndərilməsi və sair sahələrdə də ümummilli liderimizin misilsiz xidmətlərindəndir.

Azərbaycanda elə bir sahə təsəvvür etmək mümkün deyil ki, orada Ulu Öndərin imzası, yaxud onun təməlində Heydər Əliyevin xidmətləri olmasın.

Beləliklə, bu gün ölkədə təhsilin bütün pillələrinin əsaslı yüksəlişi məhz müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin adı ilə bağlıdır. Nə xoş bizə ki,dünya ictimaiyyəti Azərbaycanı və onun liderini minnətdarlıqla xatırlayır, ünvanına xoş sözlər söyləyir. Bu özü xalqımız üçün böyük şərəfdir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin dünyasını dəyişməsindən 15 il vaxt keçməsinə baxmayaraq o, hər zaman Azərbaycan xalqının qəlbində əbədi olaraq yaşayacaqdır. Biz fəxr edirik ki, xalqımızın dünyada bu səviyyədə sevilən, hörmət bəslənilən ümummilli lideri olmuşdur. Liderimizin əsası qoyduğu təhsil siyasəti iqtisadi plan və proqramları, elmə, təhsilə göstərdiyi qayğı, diqqət bu gün Heydər Əliyev məktəbinin layiqli yetirməsi, möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN SİYASİ KURSUNDA AZƏRBAYCAN DİLİNƏ MÜNASİBƏTİN ÖYRƏDİCİ VƏ TƏRBİYƏLƏNDİRİCİ MƏSƏLƏLƏRİ

***Adıgözəlova Ş.Ə.***
*Sumqayıt Dövlət Universiteti*

Ulu Öndər Heydər Əliyev siyasi kursunda Azərbaycan dilinə olan münasibət, sevgi xalqımızın öz ana dilini qoruması və dəyərləndirməsi baxımından xüsusi öyrədici və tərbiyələndirici əhəmiyyət kəsb edir.

Çünki, hər bir xalqın milli mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Dil hər bir xalqın varlığının ən əsas təminatçısıdır. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Ana dilimiz xalqımızın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamışdır..

Azərbaycan dilinin ölkənin dövlət dili elan edilməsində xalqımızın ümummilli lideri Heydər Əliyevin çox böyük xidmətləri olmuşdur.

Bəlli olduğu kimi, dövlət dili sahəsindəki fəaliyyətə Heydər Əliyev Azərbaycanda rəhbərliyə gəldiyi ilk günlərdən başlamışdır.

.1970-ci illərin ortalarından başlayaraq SSRİ-yə daxil olan respublikaların ictimai-siyasi həyatında dil məsələsi yenidən gündəmə gətirildi. SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndirilmişdir. Rus dilinin hüquqlarının genişləndirilməsi ilə əlaqədar "vahid dil" siyasəti daha geniş şəkildə təbliğ olunurdu. Belə bir şəraitdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq çox riskli və qorxulu idi. Dil məsələsini qabardanlar Sibirə sürgün olunurdu. Hətta milli respublikaların rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdə aciz idilər. Çünki bu, onlardan ötrü tale məsələsi ola bilərdi. Bütün bunlara baxmayaraq, o vaxt Azərbaycan Respublikasının rəhbəri olan Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirmişdi. Böyük tarixi şəxsiyyət SSRİ Konstitusiyası haqqında danışarkən öz nitqində xüsusi olaraq vurğulamışdır ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Bu, əslində ana dilinin dövlət dili statusunu qorumaq məqsədi güdürdü.

1970-ci illərdə Heydər Əliyev ana dilinin dövlət dili olması uğrunda mübarizəsini davam etdirirdi. De-fakto dövlət dili uğrunda ardıcıl mübarizə aparan respublika rəhbəri həmin dilin Konstitusiyada qeyd olunmamasına dözə bilməzdi. Respublikanın rəhbəri ziyalıları, bütün xalqı ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə cəlb edərək bütün qüvvəsi ilə mübarizə aparmış, bütün çətinliklərə və maneələrə böyük hünərlə sinə gərmişdi.

1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanununun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir."

1978-ci il Konstitusiyası həqiqətən Heydər Əliyevin öz xalqı, öz vətəni qarşısında göstərdiyi böyük xidmət idi. Nəticədə Azərbaycan Konstitusiyası böyük tarixi şəxsiyyət Heydər Əliyevin təklif etdiyi şəkildə qəbul olundu və Azərbaycan dili dövlət dili statusu

aldı. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi ümummilli lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir. Ulu öndər bununla gələcək müstəqil dövlətçiliyin milli atributlarından birini məharətlə qorumuşdur. Bundan sonra isə ana dilimizin inkişafı və qorunması sahəsində mühüm əhəmiyyətli tədbirlərin həyata keçirilməsinə nail olmuşdur.

Geniş müzakirələrdən sonra 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapmışdır.

Ana dilinə həmişə xüsusi diqqətlə yanaşan, dilimizin dərin bilicisi ulu öndər Heydər Əliyev dövlət dilinin yeni inkişaf dönəmində yaranmış vəziyyəti nəzərə alaraq 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalamışdır.

Müstəqilliyimizin ilk ilində - 1991-ci ildə latın qrafikalı Azərbaycan əlifbası qəbul olunsa da, bu qərar kağız üzərində qalmışdı. Yalnız ümummilli liderimiz Heydər Əliyevin müvafiq Fərmanından sonra ana dilimizin tətbiqi işinin daha mükəmməl səviyyədə həyata keçirilməsinə başlanmışdır. Məhz bundan sonra respublikada bütün yazılı sənədləşmə işləri latın qrafikası ilə aparılmışdır.

Bu gün Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirilir.

Ulu öndərin "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm" müdrik kəlamı ana dilimizə olan məhəbbət və hər bir soydaşımız üçün örnəkdir.

## MÜSTƏQİL AZƏRBAYCANDA ELMİN İNKİŞAFINA DAİR (1993-2003-cü illər)

***Ağasiyev İ.K.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan elmi 1980-ci illərin sonundan 1993-cü ilin iyununadək yeni ciddi çətinliklərlə üzləşdi. Bu dövrdə ölkə rəhbərliyində olanların səriştəsizliyi ucbatından Azərbaycan elminə də ciddi zərbələr vurulmuşdur. Bütün sahələrdə olduğu kimi, elm sahəsində də durğunluq hökm sürürdü.

1993-cü ilin iyununda Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizin həyatının bütün sahələrində, o cümlədən elm siyasəti sahəsində də mütərəqqi islahatların təməli qoyuldu. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra elmə göstərilən diqqət və qayğı elə ilk günlərdən bir daha özünü göstərdi. Heydər Əliyev hələ Azərbaycan prezidenti seçilməzdən əvvəl ziyalılarla ilk görüşlərindən birini 1993-cü il sentyabrın 21-də Azərbaycan Respublikası Elmlər Akademiyasında keçirmişdir ki, bunu da yalnız ölkə rəhbərimizin alimlərə bəslədiyi böyük ehtiram, Azərbaycan elminin gələcəyinə göstərilən hədsiz qayğı və diqqətlə izah etmək olardı. Bu, həm də ölkəni 1993-cü ilin iyununadək idarə etmiş səriştəsiz insanların

respublikada elm adamlarına münasibətdə yol verdikləri ədalətsizliklərdən irəli gələn narahatlıqlarla bağlı idi.

1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı Heydər Əliyevi alternativ əsasla səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçdi. Məhz Heydər Əliyevin hakimiyyətə qayıdışı ziyalıya, alimə və elmə hörməti də geri qaytardı. Elmə dövlət qayğısı artdı. 1997-ci ildə "Elmin strateji inkişafı və Azərbaycan Milli Elmlər Akademiyasında islahatların konsepsiyası" hazırlandı.

Elmlər Akademiyasının Azərbaycan elm və mədəniyyətinin inkişafında rolu yüksəlməyə başladı. 1990-cı illərin ortalarında təkcə Elmlər Akademiyası sistemində 35 elmi-tədqiqat institutu fəaliyyət göstərirdi. Ulu Öndər Heydər Əliyevin 2001-ci il 15 may tarixli Fərmanına əsasən Azərbaycan Elmlər Akademiyasına "Azərbaycan Milli Elmlər Akademiyası" statusu verildi.

Milli Elmlər Akademiyasına elm və texnikanın inkişafı, elmi-tədqiqat işlərinin əlaqələndirilməsi, beynəlxalq elmi əməkdaşlığın təmin olunması sahəsində elmi-təşkilati status verildi. 2002-ci ilin əvvəllərində Azərbaycan MEA-da 60 akademik, 175 müxbir üzv, 3899 elmi işçi, 451 elmlər doktoru və 1924 elmlər namizədi çalışırdı. Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsi üçün daha əlverişli şərait yaratmaq məqsədilə Prezident Heydər Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsi haqqında" 7 avqust 2002-ci il tarixli sərəncamına əsasən 500 əməkdaşı olan Azərbaycan MEA-nın Naxçıvan Bölməsi yaradıldı.

Elmi və elmi-pedaqoji kadrlar hazırlanması işini nizama salmaq üçün 1994-cü ildə Azərbaycan Prezidenti yanında Azərbaycan Ali Attestasiya Komissiyası yenidən təşkil edildi. Respublikada ictimai elmi birliklər, müxtəlif elmi fondlar, mərkəzlər, klublar təşkil olundu. Onlar müstəqil elmi-tədqiqat işləri aparır, elmi konfranslar keçirir, xarici ölkə alimləri ilə əlaqələr yaradır, elmin təbliğində fəal rol oynayırdılar.Elmin əsas sahələri üzrə tədqiqatlar davam etdirildi. Bu illərdə Azərbaycan elmi bir sıra mühüm uğurlar qazandı. Riyaziyyat, fizika, neft kimyası, geologiya və biologiyanın müasir sahələri üzrə yaradılmış elmi məktəblər daha da inkişaf etdirilmişdi.

Azərbaycanın neft sənayesinə geniş xarici investisiyalar cəlb olunması, neft, neft-kimya, neft-qaz quyularının qazılması və istismarı sahələrində elmi tədqiqatların inkişafına imkanlar açdı. Neftçi alimlərin bu sahədəki tədqiqatları böyük elmi və əməli əhəmiyyətə malikdir. Azərbaycan alimləri informatika, riyaziyyat, fizika, geologiya kimya, coğrafiya, biologiya, genetika elmləri sahəsində də mühüm nailiyyətlər əldə etdilər.İctimai və humanitar elmlər "sovet dövrünün hakim" ideologiyası təzyiqindən xilas olaraq azad yaradıcılıq dövrünə başladı.Bazar iqtisadiyyatı problemləri və Azərbaycanda onların xüsusiyyətləri iqtisadçı alimlərin tədqiqat obyektinə çevrildi. Bu sahədə iqtisadçı alimlərin yaradıcılığı mühüm elmi və əməli əhəmiyyət kəsb edir.

Bu dövrdə Azərbaycan tarixinin ən mürəkkəb və mübahisəli problemlərinə həsr olunan, tarix sahəsində elmi fikri daha da zənginləşdirən əsərlər yazıldı. Prezident Heydər Əliyev tarixçi-alimlər qarşısında fundamental "Azərbaycan tarixi"nin yaradılması kimi mühüm vəzifə qoydu, Azərbaycanın siyasi, iqtisadi və mədəni tarixində çox mühüm dövr olan XIX və XX əsrlərin tarixinin əhatəli tədqiqi və nəşri üçün xüsusi qrant ayırdı.

Respublikanın ən görkəmli tarixçi alimləri bu işə cəlb olundu və onların səyi nəticəsində 1998-2003-cü illər ərzində Azərbaycan tarixinin 7 clddən ibarət akademik nəşri reallaşdı.Şərqdə ilk demokratik respublika olmuş Azərbaycan Xalq Cümhuriyyətinin tarixi geniş şəkildə öyrənilməyə başlandı.

Tarixi mənbələrin toplanması və araşdırılmasına diqqət artırıldı. Respublikada 7 respublika dövlət arxivi, onların 15 filialı, Naxçıvan MR və 56 rayon dövlət arxivi fəaliyyət göstərirdi. 1999-cu ilin iyun ayında "Milli arxiv fondu haqqında" Qanun qəbul edildi. Baş Arxiv İdarəsinin bazasında Azərbaycan Respublikası Milli Arxiv İdarəsi yaradıldı.Arxivlərin maddi-texniki bazası möhkəmləndirildi və arxiv işçilərinin sosial vəziyyəti yaxşılaşdırıldı.Ümummilli Lider Heydər Əliyevin prezidentliyi dövründə (1993-2003) elm sahəsində qazanılan nailiyyətlər sonrakı illərdə respublikada iqtisadiyyatın, mədəniyyətin inkişafını və mənəvi həyatın zənginləşməsini sürətləndirdi.

Ulu Öndər Heydər Əliyevin müdrikliklə müəyyən etdiyi və həyata keçirdiyi elm siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla və yaradıcılıqla davam etdirilir. Elmin inkişafına göstərilən yüksək diqqət eyni zamanda Azərbaycanın güclənməsinə, inkişafına, dünya miqyasında tanınmasına və layiqli yerinin təmin olunmasına xidmət edir.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN GƏLƏCƏYİNİ MÜƏYYƏN EDƏN PERSPEKTİVLƏRİN HƏYATA KEÇİRİLMƏSİ

***Ağayev T.D.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycanın müstəqillik dövründə keçdiyi yola diqqət yetirəndə Ümummilli Lider Heydər Əliyevin xidmətlərinin miqyası, gələcəyimizi müəyyən edən perspektivlərin inkişaf strategiyasının əsl mahiyyəti daha aydın görünür. Ümummilli Lider Heydər Əliyevin gərgin əməyi və səyi nəticəsində 1994-cü ildə may ayının 12-də atəşkəs sazişinin imzalanması dövlətimizin hər sahədə uğurlu inkişafına geniş yol açdı. Bu Azərbaycanın yerləşdiyi coğrafi məkana və malik olduğu təbii sərvətlərə görə dünya ölkələrinin ölkəmizə marağını daha da artırdı. Bununla da müstəqilliyimizin ilk illərində ölkə iqtisadiyyatına sərmayə qoymaq marağında olan dövlətlərin, şirkətlərin tərəddütlərinə son qoyuldu. Həmin ilin sentyabr ayının 20-də Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft müqaviləsinin imzalandı. Bu müqavilə Azərbaycanın gələcəyinə olan inamı nümayiş etdirdi. Belə ki, bu gün ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi 200 milyard dollardan artıqdır. Azərbaycanın iqtisadiyyatının inkişafında Ümummilli Liderin neft amilinə böyük dəyər verməsi onun uzaqgörən siyasətindən irəli gəldi. O, qeyd edirdi ki, "Neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur". Ulu öndərin müvafiq fərmanı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması da Azərbaycanın gələcəyini müəyyn edən perspektivlərə hesablanmış mühüm addımlardandır. Hazırda aktivlərinin həcmi 30 milyard dollardan artıq olan fondun vəsaitləri hesabına mühüm sosial-iqtisadi layihələr həyata keçirilir. Bu

da ölkənin hərtərəfli inkişafına xidmət edir. "Əsrin müqaviləsi" ölkənin iqtisadi imkanlarının genişlənməsi ilə yanaşı, həm də Azərbaycanın dünyada siyasi mövqeyinin möhkəmlənməsində böyük əhəmiyyət kəsb etdi. "Əsrin müqaviləsi" sazişindən sonra onlarla müqavilələrə, anlaşma memorandumları imza atıldı. Müstəqillik dövründə Azərbaycan təkcə neft deyil, təbii qaz ölkəsi kimi də mövqeyini möhkəmləndirdi. Ümumilikdə Ulu Öndər müəllifi olduğu neft strategiyası ölkəmizə davamlı uğurlar qazandırır, dünyada etibarlı tərəfdaş kimi nüfuzunu artırır. Neft strategiyasının həyata keçirilməsində böyük rolu olan Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin beynəlxalq nüfuzunun artmasında da iqtisadi imkanlarımıza söykənərək reallaşdırdığı investisiya layihələri başlıca rol oynayır.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsinin ölkəmizdə istehsal edilən neftin dünya bazarlarına çıxarılmasında rolu əvəzsizdir. Bu kəmərin təməlinin qoyulması mərasimində ulu öndər Heydər Əliyev demişdir: “Bakı-Tbilisi- Ceyhan çox böyük iqtisadi xarakter daşıyır. Ancaq təkcə iqtisadi deyil, hesab edirik ki, siyasi xarakter daşıyır. Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əmin-amanlığın, təhlükəsizliyin təminatçısı ola bilər”.

Möhtərəm Prezidentimiz İlham Əliyev 2006-cı ildə Azərbaycan neftinin Ceyhan terminalına çatması münasibətilə xalqa təbrikində qeyd etmişdi ki, "Əsrin müqaviləsi" imzalanmasaydı, bu gün Azərbaycanın iqtisadi inkişafını və beynəlxalq münasibətlər sistemində yeri və rolunu təsəvvür etmək çətin deyildi. O, eyni zamanda, bildirir: "SOCAR beynəlxalq enerji şirkətinə çevrilib. İlk növbədə ona görə ki, Azərbaycanda belə genişmiqyaslı böyük layihələr icra edilmişdir."

Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin həyata keçirilməsi nəticəsində Azərbaycan hazırda nəinki özünün, eləcə də dünyanın enerji təhlükəsizliyi məsələlərinə öz layiqli töhfəsini verir. Dünyanın bir çox ölkələri, xüsusən də Qərb enerji təhlükəsizliyi kimi ciddi problemin həllində bizim respublika ilə sıx əməkdaşlıq qurmaqda öz maraqlarını bildirirlər.

## KOMPÜTER SİSTEMLƏRİNDƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ

***Bağırova G.N.***
*Lənkəran Dövlət Universiteti*

Azərbaycan Respublikasında informasiya təhlükəsizliyinin idarə edilməsi sisteminin mövcud “dayaqları” Ümimmilli Lider Heydər Əliyevin şəxsi iştirakı və rəhbərliyi ilə 1971-ci ildən həyata keçirilən informatika sahəsində elm-təhsil-istehsalat üçlüyünün yaradılması strategiyasının çərçivəsində yaradılmışdır. O cümlədən, 1971-ci ildə AMEA Kibernetika İnstitutunda Avtomatlaşdırılımış İdarəetmə Sistemləri şöbəsi təşkil edilmiş (2002-ci ildən AMEA İnformasiya Texnologiyaları İnstitutu), Azərbaycan Dövlət Universitetində tətbiqi riyaziyyat fakültəsi (hazırda Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat və kibernetika fakültəsi) yaradılmışdı.

İnformasiya telekommunikasiya texnologiyalarının sürətli inkişafı, praktiki olaraq insan fəaliyyətinin bütün sahələrinə nüfuz etməsi dövlətin, təşkilatların və vətəndaşların informasiya təhlükəsizliyinin təmin olunmasında kriptoqrafiyanın istifadəsinə yol açır.

Kriptoloqiya kompüter sistemlərində informasiya mühafizəsinin ən effektli vasitələrindən biri hesab olunur və uzun xətli rabitə kanalları üzrə informasiyanın ötürülməsində isə icazə verilməmiş daxil olmanın qabağını ala bilən yeganə real vasitə hesab olunur. Şifrləmə üsulları etibarlıq və böyük əmək sərfini tələb edən göstəricilərlə xarakterizə olunur.

Kvant sisteminin vəziyyəti əsasən fiziki kəmiyyətlərlə qiymətləndirilir: enerjisi (atomun); polyarlaşma (fotonun) və fazası (yüksəkkeçiriciliyin).

Kvant sistemi müəyyən fiziki kəmiyyətlərlə xarakterizə olunur, onlar kəsilməz və ya diskret qiymətlərdə ola bilər. Kvant-mexaniki sistem üçün müəyyən zaman müddətində t onun fiziki kəmiyyətlərinin $\varepsilon = (\varepsilon_1, \ldots, \varepsilon_\mu)$ dəqiq qiymətlərini vermək mümkün deyil, bu onların ehtimallıq xüsusiyyəti ilə izah edilir. Lakin onların ölçü qiymətlərinin nəticələrini müəyyən ehtimallıqla göstərmək olar.

Fiziki kəmiyyətlərin ölçü nəticələri kvant-mexaniki sistemin sıxlıq vəziyyətini xarakterizə edir və dalğavari funksiya ilə yazılır (Şredinger tənliyi). Əgər kvant sistemində vəziyyət enerjisi müəyyən qiymətə malikdirsə, onda sistem stasionar adlanır. Stasionar vəziyyətin dalğavari funksiyası zamandan asılı olaraq harmonik qanunla dəyişir və rəqslərin tezliyi vəziyyət enerjisi E ilə təyin edilir.

$$\varphi(\varepsilon, t) = \varphi(\varepsilon) \cdot e^{-j\frac{2\pi}{h} \cdot E \cdot t}$$

burada $j = \sqrt{-1}$ -xəyali vahid, h- Plank sabitidir.

Kvant-mexaniki sistemin fiziki kəmiyyətlərinin $\varepsilon = (\varepsilon_1, \ldots, \varepsilon_\mu)$ sıxlığının paylanma qiymətləri müəyyən vəziyyətdə dalğavari funksiyanın $\varphi(\varepsilon, t)$ kvadrat modulu ilə təyin edilir.

$$\varphi(\varepsilon, t) = /\varphi(\varepsilon, t)/2$$

Burada dalğavari funksiyanın kvadrat modulu sistemin axtarılan sıxlıq ehtimalıdır. Dalğavari funksiyanın qiyməti μ- ölçülü fəzanın verilmiş nöqtəsinin sıxlığının ehtimalı kimi təyin edilir. Stasionar vəziyyət üçün sıxlıq zamandan asılı olmur.

Hal-hazırda kvant informasiyasının bir neçə kilometr məsafəyə ötürülməsinin texniki realzə olunması polyarlaşmış fotonların köməyi ilə həyata keçirilir. Müəyyən kod məlumatının şifrələnməsi üçün kod simvollarının optik diapazonda elektromaqnit dalğanın polyarlaşma müstəvisinin maillik bucağından istifadə edilir. 0 kodunun polyarlaşması ($0^0$-si _ simvolla və $45^0$ –si ( / ) simvolla), 1 kodunun polyarlaşması ( $90^0$ –si ( | ) simvolla, və $135^0$ –si ( \ ) simvolla göstərilir. _ və \ simvollari xətti, / və \ simvollarını dioqnal polyarlaşma hesab etsək, uyğun olaraq, onları + və * işarələri ilə göstərmək olar.

Şifrələnmiş informasiyanıiki A və B iştirakçıları arasında ötürülməsi üçün kvant rabitə kanalının istifadəsi prinsipi aşağıdakı kimi göstərilir. İlk əvvəliştrakçılar polyarizasiya vəziyyəti ilə ikili simvollu kodlaşmanın yerinə yetirilməsini qəraqlaşdırırlar. A iştrakçı ötürülən məlumatı ikilik kodda formallaşdırır, məsələn 100100110. Bunun əsasında ötürücü

təsadüfü olaraq ötürülən kodun fotonlarının polyarizasiyasını dəyişir və B iştrakçısına ötürür.

1 0 0 1 0 0 1 1 0

| / _ \ _ _ \ \ /

B iştrakçısı məlumatın alınması prosesində aşağıdakı kod vəziyyətini qəbul edir.

1 0 0 1 0 0 1 1 0

| / _ \ _ _ \ \ /

+ + * * + * * + *

| | / \ _ / / | /

Açıq kanalla B iştrakçısı qəbul etdiyi məlumatın vəziyyətinin ayrı-ayrı fotonlarının vəziyyətinin ölşğçülərini A iştrakçısına çatdırır. Bu halda A işrtakçısı B iştrakçısının düzgün ölçmənin qaydalarını formallaşdırır, bizim halda düzgün ölçmələr (v) olacaqdır.

1 0 0 1 0 0 1 1 0

| / _ \ _ _ \ \ /

+ + * * + * * + *

| | / \ _ / / | /

v v v v v

Nəticədə hər bir iştrakçı düzgün ölçmə nəticələrinə görə ardıcıl elementlərdən gizli açar yaradır.

1 0 0 1 0 0 1 1 0

| / _ \ _ _ \ \ /

+ + * * + * * + *

| | / \ _ / / | /

v v v v v

Gizli açar 1 1 0 1 0

Bu halda sistemin kvant vəziyyətinin hər hansı dəyişməsi onun fotonlarının polyarlaşma vəziyyətinin dağılmasına səbəb olacaq. Bu da kvant kanalı ilə ötürülən məlumatın təhlükəsizliyini təmin edəcəkdir.

## AZƏRBAYCANDA BİRGƏYAŞAYIŞIN VƏ MULTİKULTURALİZMİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANÇILIQ İDEYALOGİYASININ ROLU

***Bayramov M.C.***

*Lənkəran Dövlət Universiteti*

Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin çoxillik ictimai-siyasi fəaliyyəti vətənə, xalqa şərəfli xidmətin heyrətamiz nümunəsi olduğu kimi, onun mükəmməl təlimi, müdrik ideyaları da son dərəcə qiymətlidir.

Müstəqilliyimizin ilk illərində separatçılıq, milli-etnik ixtilaf, bölücülük tendensiyalarının geniş vüsət aldığı dövrdə hakimiyyətə gələn Ulu öndər yeni geosiyasi şəraitdə Azərbaycançılıq ideologiyası ilə Azərbaycanda multikulturalizmin, birgəyaşayışın uğurlu inkişafın təmin edilməsinin əsasını qoydu.

Ulu öndər etnik millətçiliyə alternativ kimi bütövlükdə Azərbaycan xalqının və cəmiyyətinin, eyni zamanda Azərbaycan dövlətçiliyinin yüksəlişini şərtləndirən və multikulturalizmin əsas mənəvi bazası olan azərbaycançılıq dövlət təlimini milli ideologiya kimi irəli sürdü.

Bu ideologiya milli münasibətlərin inkişafı, müxtəlif dini konfessiyaların eyni məkanda yanaşı mövcud olması, etnik mənsubiyyətindən asılı olmayaraq ölkə vətəndaşları arasında milli həmrəyliyin möhkəmlənməsi, onların müstəqil dövlət quruculuğu proseslərində fəal iştirakı üçün hərtərəfli və əlverişli imkanlar yaratdı. «Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da — bütünlükdə hamısı azərbaycanlıdır» deyən Heydər Əliyevin irəli sürdüyü, əsas tərkib hissəsinin Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş azərbaycançılıq konsepsiyası ölkədə çoxmillətli, çoxkonfessiyalı, çoxmədəniyyətli mühiti təmin etməklə Azərbaycanda multikulturalizmin və birgəyaşayışın inkişafında həlledici rol oynadı.

Dahi rəhbər Azərbaycanın etnik əlvanlığını dövlətimizin tarixi-siyasi nailiyyəti hesab edir, bu nailiyyətin qorunub-saxlanılmasına xüsusi diqqət və qayğıyla yanaşır, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın burada yaşayan hər kəsin doğma ata-baba yurdu, vətəni olduğunu dönə-dönə vurğulayırdı.

Vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlarının ümumiliyi, demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri Ulu öndərin azərbaycançılıq ideologiyasında öz real təcəssümünü tapmışdır. Uzaqgörən siyasətçi Azərbaycançılıq ideyalogiyası ilə dilindən, millətindən, irqindən, sosial mənsubiyyətindən asılı olmayaraq bütün ölkə vətəndaşlarını ümumi vətən naminə həmrəyliyinə nail olmuşdur.

Azərbaycanda multikultural ənənələrin dövlət tərəfindən qorunması ən vacib olanı Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə məsələnin hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmasıdır. Heydər Əliyev Azərbaycançılıq ideologiyası ilə Azərbaycanda multikulturalizmi dövlət siyasəti səviyyəsinə qaldırdı.

Beləliklə azərbaycançılıq ideologiyası Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu. Azərbaycançılıq bizim keçmişimizdən gələn dəyər olaraq Heydər Əliyevin dövlətçilik dühası, onun siyasi müdrikliyi və uzaqgörənliyi nəticəsində vahid Azərbaycanın ideya əsası çevrildi.

Ümummilli lider Heydər Əliyevdən sonra bu ideyalogiya onun layiqli davamçısı Prezident İlham Əliyev siyasətində XXI əsrdə təşəkküldən təkamülə, formalaşmadan inkişafa yüksəldi, nəinki regionda, həm də qlobal səviyyədə tanıdılmağa başladı.

İlham Əliyevin uğurlu və davamlı siyasi fəaliyyəti nəticəsində Azərbaycanda multikulturalizm öz yüksək inkişaf zirvəsinə ucaldı, cəmiyyətin sosial həyat tərzinə və azərbaycançılıq ideologiyasının tərkib hissəsinə çevrildi. Multikulturalizmi Azərbaycan Respublikasının dövlət siyasəti, xalqımızın həyat tərzi kimi dəyərləndirən prezident İlham Əliyev bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN MƏTBUATI

***Bədəlov S.B.***
*Sumqayıt Dövlət Universiteti*

143 il öncə "Əkinçi" qəzeti ilə Azərbaycanın milli mətbuatının əsası qoyuldu. Bu estafet sonradan "Ziya", "Ziyayi-Qafqaziyyə", "Kəşkül", Məmməd Ağa Şahtaxtinskinin Tiflisdə nəşr etdirdiyi "Şərqi Rus", "Həyat", Əhməd bəy Ağaoğlunun yaradıcısı olduğu "İrşad", "Füyuzat" kimi mübariz mətbu orqanlarla davam etdirildi.

1918-ci ildə Azərbaycanın müstəqillik əldə etməsi milli mətbuatımızın inkişafında yeni mərhələnin əsasını qoydu. O dövrün görkəmli ziyalılarından Şəfi bəy Rüstəmbəylinin, Cəmo bəy Hacinskinin, Üzeyir bəy və Ceyhun bəy Hacıbəylilərin, Cəfər Cabbarlının mətbuatın inkişafında göstərdikləri xidmət həddindən artıq böyük idi. Həmin illərdə ilk dövlət qəzetimiz işıq üzü gördü. Təəssüf ki, Demokratik Cümhuriyyətin ömrü qısa oldu və ölkədə qurulan Sovet rejimi bütün sahələrdə olduğu kimi milli mətbuatın da boğulmasına gətirib çıxardı.

1969-cu ilin 14 iyulunda Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi mətbuatın inkişafında əsaslı dönüş yaratdı. Məhz Ulu öndərimizin şəxsi səyi nəticəsində dilimizə olan ögey münasibətdə dəyişiklik baş verdi. Ümummilli liderimiz Heydər Əliyev hər zaman ana dilinə böyük qiymət verdiyini nümayiş etdirirdi. 1978-ci ildə qəbul olunan Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyasında dövlət dilinin Azərbaycan dili kimi təsbit olunması, demək olar ki, bütün qaranlıqlara işıq saçdı.

Məhz həmin dövrdə istər ədəbi, istərsə də mətbu sahədə yüksək irəliləyiş nəzərə çarpırdı. Azərbaycan dilində qəzetlərin sayı artırıldı, televiziyada verilişlərin Azərbaycan dilində yayımı genişləndirildi. Ulu öndər Heydər Əliyev Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində ixtisaslı kadrların hazırlanması istiqamətində əhəmiyyətli addımlar atdı. Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə o zaman Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakültəsinin əlaçı tələbələri Moskva Dövlət Universitetinə oxumağa göndərildilər. Sovet İttifaqının dağılması ilə müstəqillik əldə edən Azərbaycanın mətbuatı da bir çox sahələr kimi böyük çətinliklərlə üzləşdi.

Ümummilli Liderimiz Heydər Əliyevin 1993-cü ildə xalqın təkidi və tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtması bütün sahələrdə olduğu kimi, mətbuatın da inkişafında mühüm dəyişikliklərə səbəb oldu. Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılması, vətəndaşların təhlükəsizliyinin təmini, sosial-iqtisadi problemlərin həlli söz, fikir azadlığının qorunması sahəsində əsaslı irəliləyişlərə şərait yaratdı. Mətbuat orqanlarının azad fəaliyyətinə yaradılan şərait, qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər ölkədə fikir plüralizminin genişləndirilməsinə yol açdı. Müstəqil kütləvi informasiya vasitələrinin təsis edilməsi milli mətbuat ənənəsinin davam etdirilməsinə yol açdı.

1998-ci ildə imzalanan "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, onların cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm

addım oldu. Məhz bu Fərmanla Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edildi, hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərman və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli Sərəncam qüvvədən düşdü. 1999-cu ilin sonunda qəbul olunan "Kütləvi informasiya vasitələri haqqında" yeni qanun mətbuatda demokratik prinsiplərin daha da möhkəmləndirilməsinə xidmət etdi. Bu sənəd Azərbaycanda mətbuatın inkişafına mane olan bir sıra bürokratik əngəllərin aradan qaldırılmasına yol açdı. Dövlət qeydiyyatı ləğv olundu və yeni mətbuat orqanlarının təsis olunması proseduraşı asanlaşdırıldı.

2000-ci ilin martında verilən 2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqamı adlı Sərəncamla Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi, Milli Mətbuat, Teleradio və İnternet Şurası yaradıldı.

Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan jurnalistikasının inkişafında hər zaman xüsusi yeri olan şəxsiyyətlərdəndir. Ulu Öndər Heydər Əliyev bir sıra qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarını dondurmaqla və sonradan bu borcları ləğv etməklə iqtisadi böhranın girdabında boğulan mətbu vasitələri xilas etdi. Bundan başqa, Ulu öndərimiz cəmiyyətdə jurnalistlərə münasibətin formalaşmasında mühüm rol oynadı. Şəxsi təşəbbüsləri ilə jurnalistlərlə, qəzetlərin baş redaktorları ilə keçirdiyi görüşlər ümummilli liderimiz Heydər Əliyevi mətbuatın problemləri ilə daha yaxından tanış etdi. Bütün ölkə jurnalistləri Ulu öndəri ölkə başçısı kimi olmaqla yanaşı, həm də bir dost, onların zəhmətinə qiymət verən yaxın sirdaş kimi qəbul edirdi. Bunun nəticəsi idi ki, 2003-cü ildə Ümummilli Liderimiz Heydər Əliyev Çingiz Mustafayev Fondu tərəfindən "Jurnalistlərin dostu" adına layiq görüldü.

Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan mətbuatın inkişafına dövlət qayğısı siyasəti bu gün də Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycan jurnalistikasında söz, fikir azadlığının yaradılmasını, demokratiyanın inkişafını özündə əks etdirən bu siyasət nəticəsində Azərbaycan dünyada sözə, insan hüquqlarına hörmət edən ölkə kimi tanınıb.

## HEYDƏR ƏLİYEVİN DİL SİYASƏTİ

***Bədəlova N.S.***

*Sumqayıt Dövlət Universiteti*

Müasir Azərbaycanın bugünkü sosial-iqtisadi inkişafının əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndərimiz ötən əsrin 70-80-ci illərində sovet dövlətinin iqtisadi potensialından Azərbaycanda iqtisadiyyatın və mədəniyyətin inkişafı üçün bacarıqla istifadə etmişdir. Beləliklə, Azərbaycan xalqının rifahının yüksəldilməsi təmin olunmuş və bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmişdir. Görkəmli dövlət xadimi ittifaq tərkibində Azərbaycanın iqtisadi müstəqilliyini və respublika əhalisinin məşğulluğunu təmin etmək üçün yeni müəssisənin yaradılmasını əsas məqsəd kimi qarşıya qoymuşdur. Azərbaycan Respublikasının ümummilli lideri

Heydər Əliyev ölkənin xarici siyasət strategiyasını gücləndirmək yolunda fəaliyyəti bütün istiqamətlərdə müsbət dəyişikliklərər təkan vermişdir.

Bəzi mənbələrdə göstərilir ki, respublika rəhbəri o vaxt rus dilinin vüsət aldığı bir dövrdə heç kəsə demədi ki, nə üçün başqa dildə cıxış edirsən, demədi ki, niyə Azərbaycan dilini bilmirsən, demədi ki, dilimizi sevməli və inkişaf etdirməliyik. Lakin öz praktik fəaliyyəti ilə, müttəfiq respublikalarda rus dilinin geniş vüsət aldığı bir dövrdə bunların hamısını həyata keçirirdi. Ana dilinin respublikanın dövlət dilinin təbliği işinə məhz universitetdən, elmi pedaqoji mühitdən başlaması təbii olduğu qədər də strateji, gələcəyə hesablanmış bir təşəbbüs idi.

Tarix göstərir ki, Azərbaycan dili müxtəlif dövrlərdə rəsmən dövlət dili kimi elan edildikdən sonra bir müddət fəaliyyət göstərsə də onun dövlət dili statusu uzun sürə bilməmişdir. Yalnız xalqımızın ümummilli lideri Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra milli dilimizin xilaskarı kimi tarixə öz əbədi imzasını qoydu. Tam qətiyyətlə demək olar ki, Ulu öndər Heydər Əliyevin kecən əsrin 70-80-ci illərində yeritdiyi fəal və ardıcıl dil siyasəti Azərbaycanda milli özünəqayıdış milli özünüdərk və milli azadlıq ruhunu yuksəltdi.

Heydər Əliyevin səyi ilə 1974-cü ildə "Müasir Azərbaycan dili" dərsliyinin müəllifləri Ə.Dəmirçizadə, S.Səfərov, M.Hüseynzadə, Y.Seyidov və A.Həsənova Dövlət mükafatı verilməsi, dövlətcilik qayğısı, milli lider ehtiramı idi ki, sovet dövründə bunu həyata keçirmək o qədər də asan məsələ deyildi. Dövlət mükafatına təqdim olunmuş dilçilərdən biri olan prof. Y.Seyidov sonralar yazırdı ki, bu, yəni "Müasir Azərbaycan dili" dərsliyinin yüksək səviyyədə qiymətləndirilməsi "rus şovinizminə" meydan oxumaq idi.

Ölkə rəhbərinin fəal iştirakı və bilavasitə təşəbbüsü ilə 1995-ci il oktyabrın 31-də Konstitusiyanın dövlət dili haqqinda maddəsi ilə bağlı keçirilən gərgin və tam demokratik müzakirələr nəticəsində Azərbaycan dilinin qanuni haqqı özünə qaytarıldı. Həmin il noyabrın 12-də qəbul olunan Konstitutsiyada Azərbaycan dili Azərbaycan Respublikasının Dövlət dili kimi (21-ci maddə) təsbit olundu .

Xalqımızın ana dili olan Azərbaycan dilinin inkişafında, onun dünya dilləri icərisində öz layiqli yerini tutmasında dilimizin böyük qayğıkeşi və bilicisi Heydər Əliyevin misilsiz xidməti olmuşdur. Son zamanlar Azərbaycanda dilçilik elmi xeyli inkişaf etmiş, dilçilər Azərbaycan dilinin daxili strukturunu araşdırmaq məqsədi daşıyan nəzəri əsərlər yazmağa doğru yönəldilmişdir. Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan dilçiliyində dilin nəzəri məsələlərinin araşdırılması meyli yaradılmışdır. Azərbaycan dilçiləri Azərbaycan dilini sosioloji baxımdan, Azərbaycan dilinin Azərbaycan cəmiyyəti, Azərbaycan xalqı ilə əlaqəsi baxımından araşdırmağa başlamışlar.

Son otuz iki illik zaman müddətində ana dilimizin dövlət dili kimi bənzərsiz inkişafı, şəksiz–şübhəsiz, onun dil quruculuğu sahəsində apardığı siyasətlə bağlıdır. Azərbaycan milli, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, tarixi ən qədim çağlarından bu diyarda bütün azərbaycanlıların- Azərbaycan türkləri, talışlar, kürdlər, ləzgilər, tatlar, avarlar, gürcülər, ingiloylar, dağ yəhudiləri və digər xalqların vətənidir, onların hamısı üçün müqəddəsdir. Ümumi Vətən tarixinin sınaqları, nəsillərdən- nəsillərə keçən ənənələr, bütün Azərbaycan üçün ünsiyyət vasitəsi olan Azərbaycan dili bu xalqların qohumlaşmasına,

doğmalaşmasına səbəb olmuşdur. Onlar öz mənşələrini saxlamaqla Azərbaycan dövləti ilə və azərbaycanlı olmaları ilə fəxr etmiş və etməkdədirlər. Ümumi vətən və vahid millət olaraq qaynayıb-qarışan bu xalqlar arasında heç zaman ayrıseçkilik salınmamışdır.

Dili iqtisadi nailiyyətlərdən də üstün tutan ölkə rəhbəri deyirdi: "İndi biz dilimizdə sərbəst danışırıq və hər bir mürəkkəb fikri ifadə etməyə qadirik, bu böyük nailiyyətdir. Bu iqtisadi və başqa nailiyyətlərin hamısından üstün bir nailiyyətdir ki, bizim bir millət kimi özünəməxsus dilimiz var və o da o qədər zəngindir ki, dünyanın hər bir hadisəsini biz öz dilimizlə ifadə edə bilirik".

Respulikamızın coxminli təhsil işçiləri "Azərbaycan Respublikasının dövlət dili haqqında" qanuna, eləcə də ümummilli liderimiz Heydər Əliyevin dil siyasəti ilə bağlı imzaladığı silsilə fərmanlardan irəli gələn vəzifələrin yerinə yetirilməsində, ulu öndərin dövlət dili ilə əlaqədar verdiyi müdrik göstərişlərin, ideyaların gercəkləşməsində yaxından iştirak edirlər. Ölkəmizdə hər il "Ana dili" günü təntənəli sürətdə qeyd edilir.

## HEYDƏR ƏLİYEVİN TƏHSİL SİYASƏTİ

***Cəbiyeva G.Ə.***
*Sumqayıt Dövlət Universiteti*

Tarixi təcrübə sübut edir, savadlı və uzaqgörən xalqların qurduğu dövlət uzunömürlü, güclü, ədalətli olur. Bu həqiqəti dərindən başa düşən Heydər Əliyev Azərbaycan xalqının maariflənməsinə, məktəbə, kadr hazırlığına, bütövlükdə təhsilə xüsusi diqqət yetirmişdir. Təhsil sahəsində yeritdiyi siyasət onun böyük maarifçi və milli kadrların hazırlanması sahəsində böyük strateq olduğunu göstərir.

Ümummilli lider təhsilin inkişafına böyük diqqət yetirmiş, Azərbaycan təhsilinin beynəlxalq əlaqələrinin qurulmasına və respublikanın xarici ölkələr, xüsusən müsəlman şərqi ölkələri üçün mütəxəssis hazırlayan mərkəzlərdən birinə çevrilməsinə hələ sovetlər dövründə nail olmuşdur.

Heydər Əliyevin Azərbaycan maarifini inkişaf etdirmək sahəsində fəaliyyətinin başlıca istiqamətlərindən biri yeni məktəb binalarının tikilməsi və məktəbyaşlı şagirdlərin təhsilə cəlb edilməsi olmuşdur. 1969-cu il sentyabrın 1-də respublikada 120 orta məktəb açıldı. 1982-ci ilədək yeni məktəb binalarının tikintisi və uşaqların məktəbə cəlb edilməsi geniş vüsət almışdır. Beləliklə, Heydər Əliyev hakimiyyətə gələn kimi Azərbaycanda orta məktəblərin ümumi sayı xeyli artmışdır. 1970-ci ildə respublikada 1300 orta məktəb öz qapılarını şagirdlərin üzünə açdı. 1970-ci ildə yeni 170 orta məktəb aşıldı. 1971-ci ildə məktəblərdə 1 milyon 390 min şagird təhsil alırdı. Respublikada 1905 səkkizillik, 1303 orta məktəb var idi. Göstərilən qayğının nəticəsi idi ki, qısa müddətdə məktəb şəbəkəsinin təxminən 75%-i kəndlərdə yerləşmişdi.

Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə də təhsil sahəsində islahatlar aparmışdır. Azərbaycan dövlətinin bu istiqamətindəki siyasətinin demokratik prinsipləri əsasında bütün sahələrdə, o cümlədən də təhsil sahəsində islahatlara hazırlıq mərhələsi məhz 1995-1998-ci illərə təsadüf edir. 1998-ci ildə Prezident H.Əliyevin sərəncamı və təhsil sahəsində islahat Proqramının hazırlanması üçün Dövlət Komissiyası yaradıldı. Başqa sözlə,

artıq təhsil sahəsində konkret strateji proqram üzrə islahatların başlanması bəyan edildi. Dövlət Komissiyası tərəfindən şox qısa bir müddətdə “Azərbaycan Respublikasıın təhsil sahəsində islahat proqramı” hazırlandı, ətraflı müzakirələrdən sonra 1999- cu ilin iyunun 15-də Milli Qurtuluş günündə dövlət başçısı tərəfindən təsdiq olundu. Bununla da, Azərbaycan təhsilinin gələcək inkişaf konsepsiyası və strategiyası müəyyənləşdirildi, təhsilin ayrı-ayrı pillələri üzrə əməli fəaliyyətə başlanıldı. Azərbaycan təhsilinin dünya təhsil sisteminə sürətlə inteqrasiyası, inkişaf etmiş ölkələrlə təhsil sahəsində əməkdaşlığın intensif şəkildə genişləndirilməsi, əslində, H.Əliyev şəxsiyyətinin beynəlxalq aləmdə böyük nüfuzu ilə sıx bağlıdır. İftixar hissi ilə qeyd edilməlidir ki, H.Əliyev respublikamızda ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra xaricdə təhsillə bağlı ötən əsrin 70 –ci illərində əsası qoyulmuş mütərəqqi ənənələr bərpa edildi və hazırda gənclərimiz nəinki Rusiyada, ABŞ və Böyük Britaniya, Fransa, Yaponiya, Türkiyə , İran, Çin, Çexiya, Slovakiya, Polşa, Misirin ali məktəblərində də uğurla təhsil alırlar. Eyni zamanda deməliyik ki, təqribən 50 xarici ölkədən Azərbaycanın müxtəlif ali məktəblərində 2000-dən şox tələbə, magistrant, doktorant elmi biliklərə yiyələnirlər.

Dünya Bankının Beynəlxalq inkişaf Assosiyasiyasından alınan Öyrənmə və İnnovasiya krediti ilə 1999-cu ilin sentyabrından Azərbaycanda Təhsil İslahatı Layihəsinin həyata keçirilməsinə başlanılmışdır. Artıq Təhsil Nazirliyi Dünya Bankı ilə birgə 2003-2013-cü illərdə Azərbaycanda təhsilin inkişafı üzrə strateji istiqamətləri müəyyənləşdirilmiş və yeni saziş üçün fəaliyyət proqramı hazırlamış və proses uğurla başa çatmışdır. Son dövrlərdə müxtəlif xarici təşkilatlar tərəfindən ölkəmizin 10 rayonunda 8936 yerlik 28 məktəb binası tikilmiş, 15 rayonda 29045 yerlik 70 məktəb binası əsaslı təmir olunmuşdur. Ümumiyyətlə, təkcə 1998-2002-ci illər ərzində respublikamızda 116 yeni məktəb binası tikilmişdir. Tədris müəssisələri şəbəkəsinin təkmilləşdirilməsi, 6 ali məktəbə muxtariyyat hüququ,bir çox institutlara isə universitet statusunun verilməsi, 6 yeni Akademiyanın, Milli Konservatoriyasının, təsis edilməsi, 15 özəl ali məktəbin fəaliyyətinin rəsmi şəkildə qanuniləşdirilməsi, qaçqın soydaşlarımızın təhsilinə xüsusi qayğının göstərilməsi, elə ümummilli liderimiz H.Əliyevin təhsil sisteminə göstərdiyi atalıq qayğısı nəticəsində mümkün olmuşdur.Təkcə onu qeyd etmək lazımdır ki, ölkə əhalisinin təxminən 20%-ni təşkil edən ümumtəhsil məktəb şagirdlərinin dərsliklərə dövlət təminatına mərhələlərlə keçirilməsi haqqında xüsusi qərar 1994-cü ildə məhz ümummili lider H.Əliyevin şəxsi təşəbbüsü ilə qəbul edilmişdir.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən 17 fevral 2003-cü il tarixdə xüsusi sərəncamla 5 illik inkişaf proqramı təsdiq edilmişdir. Həmin proqrama əsasən 2003-2007-ci illərdə 44698 şagird yerlik 149 yeni məktəbin tikintisi, 26560 şagird yerlik 175 məktəbdə 1328 əlavə sinif otaqlarının inşası, 164690 şagird yerlik 408 məktəbin əsaslı təmiri planlaşdırılmışdır ki, bu da Azərbaycan məktəbinin son dərəcə qısa bir müddətdə dinamik inkişafının təminatı üçün real zəmin yaratmışdır.

# AZƏRBAYCANDA SİYASİ MƏDƏNİYYƏTİN MULTİKULTURAL ƏNƏNƏLƏRİ

***Cəlalova X.K.***
*Sumqayıt Dövlət Universiteti*

Multikulturalizm siyasəti dialoq üzərində qurulmuş mədəni mövcudluq fəlsəfəsidir. Multikuturalizm bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan hümanist dünyagörüşlü siyasətdir. Multikultural siyasət və termin anlayışı 1960-cı illərin sonunda Kanadada meydana gəlmişdir. Termin kimi isə 1970-ci ildə elmi ədəbiyyatda işlədilmişdir. Dövlət təsisatları tərəfindən 1971-ci ildən tanınmışdır.

Müasir dövrdə mədəniyyətlərin müxtəlifliyini qəbul etməyən, digər din və mədəniyyətlərin nümayəndələrinin adət-ənənələrinə, həyat tərzinə, əqidə və düşüncəsinə hörmətlə yanaşılmayan cəmiyyətlərdə davamlı sabitliyə və inkişafa nail olmağın qeyri-mümkün olduğunu göstərən hadisələr baş verir. Bu səpkidə qarşıdurma və münaqişələrin baş verməməsi üçün insanlarda digər mədəniyyətlərə qarşı dözümlülük və hörmət xüsusiyyətləri gücləndirilməlidir. Azərbaycan xalqının tarix boyu digər mədəniyyətlərə dözümlü münasibəti onun təbiətindən, insanpərvərliyindən irəli gəlir. Azərbaycanda tarixən müxtəlif xalqların nümayəndələri bir-birinə çox yaxın qonşuluq şəraitində yaşamışdır. Azərbaycan qədim zamanlardan müxtəlif dinlərin yayıldığı, qovuşduğu, qarşılığlı anlaşma şəraitində yaşadığı və əməkdaşlıq etdiyi bir məkandır. Multikulturalizm fərqli mədəniyyətlərin yaşayış tərzidir və azsaylı xalqların öz etnik-mədəni ənənələrini qorumaq üçün azadlıq verməklə, cəmiyyətin bütün sahələrində fəal iştirak etmələri üçün hər cür şəraitin yaradılmasıdır.

Azərbaycanın müstəqilliyi bərpa edildikdən sonra milli mədəniyyətimizin inkişafında da yeni dövr başladı. Müstəqillik illərində Azərbaycan mədəniyyəti dünyaya inteqrasiya yoluna qədəm basdı. Azərbaycan Respublikasının yeni mədəniyyət siyasətinin düzgün və daha effektiv, milli maraqlarımıza uyğun təşkili əsas istiqamətə çevrildi. Xalqın tərəqqisində milli-mədəni köklərə bağlılıq, qarşılıqlı anlaşma, milli birlik, yaradıcı münasibət, müasirlik yaradıldı. Multikulturalizmin Azərbaycanda banisi Heydər Əliyev mədəniyyəti xalqın böyük sərvəti hesab edirdi. Onun hakimiyyəti illərində mədəniyyətə, milli-mənəvi dəyərlərə münasibət köklü şəkildə dəyişdi və ölkəmizdə, mədəniyyətimizin inkişafında yeni dövr başladı. Müstəqillik illərində Azərbaycan mədəniyyəti dünyada daha geniş şəkildə tanınmağa başladı. Bu gün Azərbaycanda müxtəlif xalqların nümayəndələrini birləşdirən vahid dövlətçilik ideyası olmuşdur. 1995-ci ildə Azərbaycan Respublikasnın Konsitutsiyasının 25-ci maddəsində mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarına hörmət olunmalıdır. Bununla yanaşı, qəbul edilən bir çox qanunlarda Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verildi. "Mədəniyyət haqqında qanunun" 11-ci maddəsi ilə Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə önəm verildi. Eləcə də " Təhsil haqqında" qanunda hər kəsin öz dilində təhsil almaq hüququ və ayrı-seçkiliyə yol verilməməsi məsələsi öz əksini tapdı. Bu məqsədlə milli azlıqların məskunlaşdığı rayonlarda təhsil müəssisələri açıldı, ölkənin radio və televiziya kanallarında milli azlıqların verilişlər yayımlanması ənənəsi qoyuldu. Milli azlıqların dilində qəzet və jurnallar nəşr

olunmağa başladı. Dövlətimiz milli azlıqların müdafiəsi ilə bağlı 50-dən çox beynəlxalq konvensiyaya qoşulmuşdur. Milli azlıqların məsələləri ilə məşğul olan 50 qeyri-hökümət təşkilatı, mədəniyyət mərkəzləri, xeyriyyə cəmiyyətləri və digər ictimai birliklər fəaliyyət göstərir.

Respublikamızda 380-dən artıq dini icmanın mövcud olması və onlara eyni münasibətin göstərilməsi Azərbaycanı dünya miqyasında tolerant ölkə kimi bir daha təstiqləyir. Hazırda ölkəmizdə müsəlmanlarla yanaşı pravoslav, Roma-katolik konfessiyaları, protestanlığın müxtəlif cərəyanları olan Yevangel-lüteranlar, Yevangel xristian baptistləri, Molokan ruhani xristianları, Alban-udi xiristian dini icmaları, dağ yəhudiləri olan sefartlar, gürcü yahudiləri, ənənəvi olmayan din qruplardan olan krişnaçılar, bəhailər və sair dinlərin mənsubları birlikdə yaşayır və öz dini etiqadlarını rahatlıqla yerinə yetirirlər.

YUNESKO-nun 2005-ci ildə qəbul etdiyi "Mədəni özünüifadə müxtəlifliyinin qorunması haqqında konvensiya"ya uyğun olaraq ölkəmizdə yaşayan milli azlıq və etnik qrupların mədəniyyəti Azərbaycan mədəniyyətinin tərkib hissəsi kimi qorunur və inkişaf edir. Bu etnosların milli mədəniyyətinin, incəsənətinin, adət-ənənələrinin, dilinin qorunub saxlanması üçün işlər aparılır. Əsrlər boyu Azərbaycanda 80-dən çox etnosun nümayəndəsi yerli etnos olan azəri türkləri ilə yanaşı yaşayır. Bu tarixi təcrübə azsaylı etnosların və etnik qrupların yoxa çıxması təhlükəsinin aradan qaldırılmasına səbəb olmuşdur. Azərbaycanda bir dəfə də olsun dini və etnik ədavət, sayından asılı olmayaraq, etnik azlıqlarla münasibətdə ayrıseçkilik faktları qeydə alınmayıb. Çünki qanunla onların hər birinə eyni dərəcədə qayğı göstərilir. Onların maddi və bədii mədəniyyət nümunələri, milli məişəti dünya birliyinə çatdırılır. Etnik azlıq və qrupların mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi məqsədi ilə mütəmadi olaraq azsaylı xalqların incəsənəti festivalı keçirilir. Azsaylı xalqların adət-ənənəsini, mətbəxini, folklorunu əhatə edən filmlər və verilişlər tamaşaçılara təqdim edilir. Milli azlıqlar öz milli mərkəzlərini, assosiasiyalarını və digər qurumlarını yaratmaq hüququndan tam istifadə edirlər. Milli azlıqların sıx yerləşdiyi ərazilərdə milli və dövlət teatrları, həvəskar maraq qrupları fəaliyyət göstərir. Dövlət Radio stansiyası tərəfindən mütəmadi olaraq rus, tatar, kürd, ləzgi, talış, gürcü dillərində verilişlər hazırlanır. Bakıda rus, kürd, talış və ləzgi dillərində qəzetlər nəşr olunur. Milli azlıqların sıx yaşadığı beş bölgədə öz dillərində olan məktəb və təlim mərkəzləri fəaliyyət göstərir.

Müasir bəşəriyyətdə baş verən mədəni universallaşma və unifikasiya proseslərinə əks olaraq mədəni müxtəliflik göstəricisi olan fenomenlərin, əsasən də (dil, irq, din, adət-ənənə və s) qorunması dünya mədəniyyətində balanslaşdırılmanın özülü kimi qəbul edilir. Bu baxımdan laqeydlik, biganəlik, getdikcə yerli-lokal, immiqrant mədəniyyətlərinə münasibətdə beynəlxalq miqyasda diqqət yönəlməsinə səbəb olub.

Azərbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması işində Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü önəmli yer tutur. Ulu öndər multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. Belə bir siyasi kontekstdə Prezident İlham Əliyev 28 fevral 2014-cü sərəncamı ilə Azərbaycan Respublikasının Millətlərarası multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri xidmətini yaratdı. Dövlət başçısının növbəti əhəmiyyətli addımı Bakı Beynəlxalq

Multikulturalizm Mərkəzinin yaradılmasına dair 15 may 2014-cü il tarixində imzaladığı fərman oldu. Bu mərkəzin yaradılmasının əsas məqsədi Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modellərini tədqiq etməkdir. Dünya miqyasında real elmi, mədəni, sosial multikultural ənənələrin qorunub saxlanması və təbliği ilə bağlı Heydər Əliyev fondunun keçirdiyi möhtəşəm layihələrin əhəmiyyəti böyükdür. Fondun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri, Vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi", "Qloballaşma şəraitində mədəniyyətlərin rolu", "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşama", "Azərbaycan–tolerantlıq məkanı" layihələrini xüsusi qeyd etmək olar. Tərəqqipərvər dünya ictimaiyyəti, görkəmli şəxsiyyətlər və sıradan insanlar bu qəbildən olan tədbirlərin keçirilməsini, orada mədəniyyətlərarası dialoqun inkişafına həsr olunmuş məsələlərin müzakirə olunmasını və ən əsası, gerçəkləşdirilməsini böyük rəğbətlə qarşılayır.

Azərbaycanda multikuturalizm dövlət siyasətinin əsasını təşkil etdiyindən, ölkəmizdə mədəni mühitin və multikulturalizmin inkişafında böyük xidmətləri olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı ili ölkəmizdə "Multikulturalizm ili" elan etmişdir.

## DÜNYA LİDERLƏRİNİN ULU ÖNDƏR HEYDƏR ƏLİYEV HAQQINDA FİKİRLƏRİ

***Cəlalzadə B.M.***

*Sumqayıt Dövlət Universiteti*

Heydər Əliyev, doğrudan da, dünya miqyasında böyüklüyü etiraf edilən və qəbul olunan şəxsiyyət idi. XX əsrin 90-cı illərində - Azərbaycanın beynəlxalq arenaya müstəqil dövlət kimi çıxdığı ilk vaxtlarda ölkəmizi Heydər Əliyevə görə tanıyırdılar. Onun parlaq dühası və iti zəkası sərhəd tanımır, Azərbaycanın hüdudlarını aşırdı. Çoxları bizə qibtə edirdi ki, Heydər Əliyev kimi liderimiz var. Azərbaycan dünya miqyasında layiq olduğu mərtəbəyə məhz Ulu öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilib. Xatırlatmaq yerinə düşər ki, o, Sovet İttifaqı kimi nəhəng bir dövlətdə yüksək vəzifədə - SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləmişdi. Heydər Əliyev haqqında müasiri olan dünya liderləri, tanınmış dövlət adamları və siyasi xadimlər, məşhur yazıçılar fikirlər söyləmişlər. Onların dediklərinə nəzər salarkən qəlbimizdə bir daha qürur və iftixar hissləri baş qaldırır, Heydər Əliyev şəxsiyyətinin nəhəngliyi yenidən göz önündə canlanır. Azərbaycan xalqının Ulu öndərinə verilən bu yüksək qiymətin əsasında təkcə öz Vətəni və xalqı üçün gördüyü işlər deyil, zəmanəsinin çağırışlarına çevik reaksiyası, bəşəri idealları, dünyada dostluğa, sülh və tərəqqiyə verdiyi töhfələr dayanır. "Dünya liderlərinin Ulu öndər Heydər Əliyev haqqında fikirləri" adlı tezisdə Ulu öndərin anadan olmasının 95-ci ildönümündə onun haqqında deyilən fikirlər bir daha diqqətə çatdırılmalıdır:

**Türkiyənin IX Prezidenti Süleyman Dəmirəl:** "Mənim Heydər Əliyevə böyük sevgim, hörmətim və ehtiramım vardır. Bunun kökündə onun insani xüsusiyyətləri, Azərbaycan millətinə, xalqına xidmətləri, Azərbaycan dövləti, müstəqilliyi naminə gördüyü

işlər durur. Mənim tanıdığım Heydər Əliyev Azərbaycan vətənpərvəridir, bir o qədər də türk vətənpərvəridir. Azərbaycanda nə varsa, hamısı Heydər Əliyevin xidməti sayəsində yaradılmışdır".

**ABŞ-ın sabiq Prezidenti Corc Buş:** "Dünyada tanınmış görkəmli dövlət xadimi Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm".

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan:** "Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən lider idi. Türkiyə-Azərbaycan dostluğunu çox gözəl ifadə edən "Bir millət, iki dövlət" ifadəsi də ona məxsusdur. Biz çalışmalıyıq ki, bu hikmətanə deyimin ifadə etdiyi amal bundan sonra da davam etsin. Böyük Heydər Əliyevin ruhu şad olsun deyə, biz türk dünyasının birliyini və qardaşlıq münasibətlərini qoruyub möhkəmləndirməyə çalışmalıyıq".

**Rusiya Prezidenti Vladimir Putin:** "Heydər Əliyev, həqiqətən, Rusiyanın böyük dostu idi, biz bunu hiss edirdik və çox qiymətləndiririk. Azərbaycan bütün bu illər ərzində MDB-nin az-az ölkələrindən biri idi ki, orada rusdilli məktəblər bağlanmamış, rusdilli nəşrlərin sayı nəinki azalmamış, hətta Sovet İttifaqı dövründəkindən də çox olmuşdur. O, böyük dövlət xadimi idi. Mübaliğəsiz demək olar ki, siyasi nəhəng idi. Mən ona sadəcə böyük hörmətlə yanaşmırdım, mən ona məhəbbət bəsləyirdim".

**ABŞ-ın sabiq Prezidenti Bill Klinton:** "Demokratiya və bazar iqtisadiyyatı yolu ilə gedən müstəqil dövlət kimi Azərbaycanın son illər möhkəmlənməsində, iqtisadi islahatların aparılmasında və bu işdə böyük uğurlar əldə edilməsində Prezident Heydər Əliyevin xidmətlərini yüksək qiymətləndirirəm. Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan müstəqillik yolunda qarşılaşdığı çətinliklərin dəf edilməsində böyük müvəffəqiyyətə nail olmuşdur".

**Fransanın sabiq Prezidenti Jak Şirak:** "Bu qeyri-adi şəxsiyyət Azərbaycanı tərəqqi yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən münaqişənin sülh yolu ilə həllində onun göstərdiyi cəsarəti, müdrikliyi və qətiyyəti yüksək qiymətləndirdim. Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə Prezident Heydər Əliyev kimi böyük siyasi iradəyə, zəngin dövlətçilik təcrübəsinə malik, müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir".

**İranın sabiq Prezidenti Seyid Məhəmməd Xatəmi:** "Heydər Əliyev yenicə ayağa qalxan Azərbaycan Respublikasının sabitlik və tərəqqiyə qovuşmasında təsirli rol oynamış, gözəl Azərbaycan xalqının rifahı, asayişi naminə səy göstərmiş təcrübəli və məşhur siyasət xadimi olmuşdur. Cənab Heydər Əliyevin regional sülh və dostluğa nail olması, iki dost, qardaş ölkə olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin dərinləşdirilməsi yolunda xidmətləri heç vaxt xatirələrdən silinməyəcəkdir".

**Qazaxıstan Prezidenti Nursultan Nazarbayev:** "Heydər Əliyev mənim yaxın dostum və ən çox hörmət etdiyim bir siyasətçi idi. Heydər Əliyev həm MDB ölkələri, həm də öz xalqı üçün çox işlər görmüşdür. Onun öz xalqı qarşısında xidmətlərinin əsl qiymətini gələcək nəsillər verəcəkdir. Əziz və unudulmaz dostum haqqında keçmiş zamanda danışmaq mənim üçün çox ağrılı olsa da, deməliyəm ki, Heydər Əliyev son nəfəsinə qədər öz xalqının rifahı üçün çalışmışdır".

**Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadze:** "Qafqazın müstəqilliyi və azadlığı işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcək".

Dünya liderlərinin Ulu öndər Heydər Əliyev haqqında söylədikləri fikirləri bir tezis mətninə yerləşdirmək mümkün deyil, ancaq bununla belə, yuxarıda qeyd edilən yüksək fikirlər Ulu öndərin dünya şöhrətli siyasətçi, nadir dövlət xadimlərindən biri olduğunu əyani şəkildə təsdiqləyir. Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi Ulu öndəri, dünyanın hörmətlə yanaşdığı və qəbul etdiyi lideri olub. Azərbaycan xalqı bundan qürur duyur, öz böyük oğlunun parlaq xatirəsini qəlbində əbədi yaşadır.

## ÜMUMMİLLİ LİDER VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR RUHUNDA TƏRBİYƏ

***Dadaşzadə Ə.İ.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan xalqı dünya mədəniyyətində öz dəsti-xətti ilə seçilən xalqlardandır. Onun əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiyyat nümunələri həyat eşqi, azadlıq və müstəqillik duyğuları bu xalqın zəngin, bitib tükənməyən mənəvi dəyərlərə sahib olduğundan xəbər verir.

Ümummilli Liderimiz H.Ə.Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsil islahatı həyata keçirilməyə başlandı. 1999-cu ildə "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı" qəbul edildi. 2001-ci ildə "2000-2005-ci illərdə Azərbaycan Respublikası təhsil sistemində tərbiyə işinin proqramı" işlənib hazırlandı.

H.Ə.Əliyev bütün nitq və çıxışlarında böyüyən nəsildə yüksək mənəvi keyfiyyətlərin tərbiyə edilməsinə çalışırdı. "Gəncləri paklıq, halallıq, yüksək əxlaq, yüksək mənəviyyat ruhunda tərbiyə etməliyik" deyirdi. H.Ə.Əliyev xalqımızın mənəviyyatına yüksək qiymət verir və göstərirdi ki, "Azərbaycan xalqının yüksək mənəviyyatı hər şeydən ucadır... Bu həm xalq üçün, millət üçün, hər bir vətəndaş üçündür . Onun fikrincə "Hər bir gənc vətənpərvər olmalıdır. Azərbaycan müstəqil dövlət kimi yaşadığı zamanda vətənpərvərlik hər insanın, gəncin ən ümdə borcu, vəzifəsidir... Vətənpərvərlik gərək insanın qəlbində olsun... Vətənpərvərlik hissinin hər bir gəncin qəlbində olması üçün lazımi tədbirlər görmək lazımdır". Vətənpərvərlik milli dövlətçilik ideologiyasının tərkib hissəsidir.

H.Ə.Əliyev uşaqların milli-mənəvi dəyərlər, milli adət və ənənələrimiz ruhunda tərbiyə olunmasında valideynlərin və məktəbin üzərinə düşən vəzifələrə də aydınlıq gətirmişdir. O, valideynlərə müraciətlə deyirdi: "Hər bir ailənin və hər bir valideynin qayğısı öz uşaqlarını Azərbaycanın sağlam, yüksək mənəviyyatlı, bilikli vətəndaşları kimi böyütməkdir"

Ümummilli Liderimiz H.Ə.Əliyevin dövlətçilik ənənələrinə sadiq qalan və onun siyasi kursunu inamla, ləqayətlə davam etdirən ölkə prezidenti cənab İ.H.Əliyev də Azərbaycan təhsilinin dünyanın ən qabaqcıl dövlətlərinin təhsili səviyyəsinə qaldırılmasına, gənclərimizin milli və ümumbəşəri dəyərlərə, yüksək mədəniyyətə sahib olmalarına nail olmağı məqsədə müvafiq hesab edir.

Xalq öz tərbiyə sistemini yaradarkən nəsildən-nəslə ötürülən mənəvi dəyər və keyfiyyətlər ruhunda özünün bütöv tərbiyə məktəbini yaratmalıdır. O cümlədən Azərbaycan xalqı özünə məxsus tərbiyə sistemini sərbəst inkişaf etdirməlidir. Təhsil-tərbiyə işi milli ruhda qurulmalıdır.

## MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN HİMAYƏDARI

***Əhmədov Y.P., Əmirova S.S.***
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

Müasir dünyamızda hər bir dövlətin inkişaf yolu həmin ərazidə yaşayan xalqların öz qarşısına qoyduğu vəzifələrlə üzvi surətdə bağlıdır. Bu gün dünyada təqribən 200-ə yaxın irili-xırdalı dövlət olsa da, amma bu dövlətlərin inkişaf səviyyələri heç də eyni deyildir. Xüsusən iqtisadi, siyasi və demokratik inkişaf baxımından onlar bir-birlərindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Yüksək inkişaf səviyyəsinə çatmış ölkələrlə yoxsulluq içərisində olan dövlətlər arasında fərqin nə qədər böyük olduğunu sosial-iqtisadi rəqəmlərdə, ictimai-siyasi sabitlikdə və s. amillərdən görmək olur. İnkişaf etmiş ölkələr bütövlükdə hər bir sahə üzrə digər ölkələrdən irəli gedirlər. İnkişafdakı bu fərqlərin səbəbləri haqqında son illərdə xeyli tədqiqat işləri, araşdırmalar aparılıb və müxtəlif nəzəriyyələr yaranıb. Əlbəttə, bu nəzəriyyələri təhlil etməyə, yenidən onlara qayıtmağa ehtiyac yoxdur. Əsas məsələ odur ki, yüksək inkişaf edən dövlətlərin tarixinə nəzər saldıqda görürük ki, orada cəmiyyət vahid bir məqsəd ətrafında sıx birləşmişdir.

Azərbaycanın milli ideologiyasının və dövlətçiliyinin təməl prinsiplərinin müəyyən edilməsi məsələsi ölkəmiz 1991-ci il oktyabr ayının 18-də özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra çox ciddi diskussiya mövzusu olmuşdur. Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyini təmin etdi, eyni zamanda millətimizin və dövlətimizin ideoloji xəttini, söykənəcəyi təməl prinsipləri irs olaraq müəyyənləşdirdi. Heydər Əliyev göstərdi ki, bəli, Azərbaycan xalqını birləşdirən müəyyən prinsiplərə, ideoloji xəttə ehtiyac var. Xalqımız bu ideoloji prinsiplərə söykənməlidir. Heydər Əliyevin xalqımıza bəxş etdiyi əvəzsiz mənəvi-siyasi xəzinə həmin dövrdə Azərbaycan xalqının qarşısında duran əsas missiyalardan birinin - milli ideyanın müəyyənləşdirilməsi baxımından olduqca əhəmiyyətli rol oynadı. Heydər Əliyev Şərqlə Qərbin, böyük sivilizasiyaların qovşağında yerləşən Azərbaycanın Şərqin dəyərlərini, zəngin mədəniyyətini müasir dövrümüzdə yüksək inkişafa nail olmuş Qərbin texnologiyası, ümumbəşəri demokratik dəyərləri ilə uzlaşdırmaqla, bu dəyərlərdən qidalanmaqla inkişafımızın mümkünlüyünü qeyd edirdi. Həqiqətən də Azərbaycan müxtəlif mədəniyyətlərin qovşağında olduğuna görə xalqımız öz yolunu seçərkən Şərqlə Qərbin qarşılıqlı münasibətlərini nəzərə almalıdır. Tarixən keçdiyimiz yol və coğrafi vəziyyətimiz bunu zəruri edir. Ümummilli Lider Heydər Əliyevin məşhur “Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir” kəlamı həmişə xalqımız üçün örnəkdir. Xalqımız əsrlər boyu həsrətində olduğu müstəqilliyə nail olduqdan sonra həmin müstəqilliyi qoruyub saxlamaq, əbədiliyini dönməz etmək, möhkəmləndirmək, Azərbaycanı dünyanın müxtəlif ölkələrində məskunlaşmış 50 milyon azərbaycanlı üçün bir mayaka çevirmək vacib bir vəzifə idi. Bu vəzifəni həyata keçirərkən, təbii ki, millətin vahid

ideya ətrafında birləşdirilməsi zərurəti yaranmışdı. Ümummilli lider Heydər Əliyev milli ideyanın yaranması, xalqa çatdırılması istiqamətində xalqımıza çox böyük, əhəmiyyətli elmi-nəzəri bir irs ərməğan etdi. Həmin irs üzərində bu gün müstəqil Azərbaycan dövləti sürətlə inkişaf etməkdədir. Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, müstəqilliyi əldə etmək qədər də onu qoruyub saxlamaq, əbədiliyini dönməz etmək çətindir. Bu baxımdan dövlətçiliyimizə, dövlətçiliyimizin möhkəmləndirilməsinə Heydər Əliyevin verdiyi töhfələr əvəzsizdir. Heydər Əliyev Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi üçün çox ciddi sosial-iqtisadi, siyasi islahatlar həyata keçirmiş, əhəmiyyətli addımlar atmışdır. Ən əsası dövlət və xalq arasında möhkəm birlik yaradıldı. Dövlətin möhkəmliyi üçün qanunun aliliyi olmalıdır. Heydər Əliyev irəli sürdüyü dövlətin təməl prinsiplərindən biri sayılan qanunun aliliyinin ölkəmizdə təmininə nail oldu. Dövlət varsa, qanun olmalıdır. Əgər qanun yoxdursa, dövlət mövcud olmayacaq. Dövlət qanuna söykənməlidir. Qanunçuluq prinsipi bir tərəfdən qanunun aliliyidir, digər tərəfdən isə zamanın tələbinə və reallığa uyğun olaraq yeni qanunların yaradılması və onların işlək olmasına ictimai nəzarətin gücləndirilməsidir. Dövlətin söykəndiyi qanun onun idarə edilməsinin əsas xətlərini və prinsiplərini müəyyən edir. Bu qanunlar olmasa, idarəçilik olmayacaq. İdarəsizlik isə dövlətin gələcəyini təhlükə altına salar.

Heydər Əliyevin irəli sürdüyü digər bir prinsip azərbaycançılıqdır. Azərbaycançılıq, Azərbaycan xalqını birləşdirən ən mühüm ideya, vətənə sevgi, məhəbbətdir. Azərbaycançılıq eyni zamanda Azərbaycanda yaşayan bütün xalqların vahid bir ideya ətrafında birləşməsi deməkdir. Azərbaycançılıq dövlətin möhkəmləndirilməsinə çalışmaq, Azərbaycanın inkişafı naminə harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının fəaliyyət göstərməsi, bu yöndə öz töhfəsini verməsi deməkdir. Heydər Əliyev azərbaycançılıq dedikdə, Azərbaycan xalqının öz milli dəyərlərinə söykənməklə bərabər, ümumbəşəri dəyərləri də qəbul etməsi və onlardan yararlanmasını nəzərdə tuturdu. Heydər Əliyev azərbaycançılıq ideologiyasının nəzəri cəhətdən elan edilməsi ilə məsələni bitmiş hesab etməmiş və azərbaycançılığın dünyada olan bütün azərbaycanlılar üçün birləşdirici bir ideologiyaya çevrilməsi üçün xeyli tədbirlər həyata keçirmişdir. Bu baxımdan dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi və burada həmin ideyanın bütün dünyada yaşayan azərbaycanlılara çatdırılması olduqca əhəmiyyətli rol oynamışdır. Azərbaycan dövlətinin təməl prinsiplərindən biri də varislik, yaradıcı təkamül prinsipidir. Bu prinsip Azərbaycan xalqının söykənəcəyi mühüm prinsip kimi qeyd olunur və göstərilir ki, bizim yeni cəmiyyət quruculuğunda əsas vəzifələrimizdən biri keçmişimizdən ibrət dərsi almaqla cəmiyyətimizi irəli aparmaqdır. Varislik Azərbaycan xalqının əvvəlki tarixi dövrlərdə əldə etdiyi nailiyyətləri öyrənmək, prinsipial olaraq əldə edilənləri gələcək nəsillərə ötürməkdir. Bu, hakimiyyətin ideoloji, siyasi, iqtisadi baxımdan gələcək nəsillərə ötürülməsidir.

Azərbaycan dövlətinin digər bir təməl prinsipi sosial ədalətdir. Cəmiyyətdə ədalətə nail olmadan ölkəni inkişaf yoluna çıxarmaq mümkün deyil. Ədalət Azərbaycan cəmiyyətinin, Azərbaycan xalqının təbiətinə, ruhuna uyğundur - qədimdən Azərbaycan xalqı ədalətə tərəfdar olub, ədaləti müdafiə edib. Ədalətlilik prinsipi bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətdə də özünü göstərir. Ədalətlilik ölkənin sosial- iqtisadi inkişafından ədalətli şəkildə xalqa pay düşməsi, Azərbaycan dövlətinin milli sərvətlərdən

əldə olunan gəlirlərin insanlarımıza ədalətli şəkildə çatdırılmasıdır. Ədalətlilik, eyni zamanda cəmiyyətdə bazar iqtisadiyyatının yaratdığı ziddiyyətlərin hansısa bir zümrəyə ziyan vurmasının qarşısının alınması deməkdir. Bu, Azərbaycan cəmiyyəti üçün olduqca əhəmiyyətli bir prinsipdir. Cəmiyyətdə ədalət olmasa, qarşıdurma qaçılmazdır. Bütün cəmiyyətlərin tarixi göstərir ki, ədalət prinsipi pozulduqda qarşıdurma meyilləri güclənir. Bu isə xaosa və anarxiyaya gətirib çıxara bilər. Ədalət prinsipinin təmin olunması islahatlardan keçir. Daimi islahatlar, inkişaf yolu ilə, həmçinin cəmiyyətdə insanların təbəqələşməsi fonunda müxtəlif siyasi və iqtisadi vasitələrlə sosial ədalətin təmin olunması bu gün ölkəmizdə uğurla gerçəkləşir. Sosial ədalət dedikdə hər bir ailənin, hər bir vətəndaşın rifahının yaxşılaşdırılması, cəmiyyətin idarəçiliyində hər kəsin iştirakının təmin edilməsi, azad iqtisadi münasibətlərin təminatı və bu kimi digər məsələlər nəzərdə tutulur.

Ulu öndərimizin irəli sürdüyü əsas prinsiplər sırasında demokratiya da önəmli yerlərdən birini tutur. Demokratik dəyərlərə sədaqət Azərbaycan cəmiyyəti üçün əsas prinsiplərdən biridir. Ümummilli Lider Heydər Əliyev Azərbaycanın demokratik dəyərlərə söykəndiyini və demokratiyaya daim sadiq olduğunu həmişə xüsusi olaraq vurğulayırdı. O həmişə qeyd edirdi ki, dövlətin inkişafı milli sərvətlərlə ölçülmür. Dövlət zəngin sərvətlərə malik ola bilər. Lakin dövlət əgər həmin sərvətlərə malik olub demokratik dəyərlərə söykənməsə, onun inkişafı müvəqqəti xarakter daşıyacaq. Dövlət o zaman inkişaf edə bilir ki, demokratik dəyərlərə söykənir.

## AZƏRBAYCAN SÖZ SƏNƏTKARLARININ ƏSƏRLƏRİNDƏ HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİNİN TƏRƏNNÜMÜ

***Əhmədova E.H.***
*Sumqayıt Dövlət Universiteti*

“Kitabları həyat hadisələrinin əksi hesab edənlər yanılmırlar”. Yazıçılar, şairlər bədii əsərlər yaradarkən öz real qəhrəmanlarını dövrün humanist, yüksək insani keyfiyyətləri ilə fərqlənən insanları arasından seçirlər. Xalqa yaxın olan, onun qayğısını çəkən, dərdinə-sərinə şərik olan belə qəhrəmanları tanındıqca oxucu qəlbində onlara qarşı yaranan rəğbət və sevgi hisslərindən əbədilik taxtı qurulur. Tarix boyu bir çox şairlər, yazıçılar əsərlərində bütün dünyada ad qazanmış ədalətli, xeyirxah padşah, rəhbər, sərkərdə obrazı yaratmaqla, öz mütərəqqi ideyalarını təqdim etməyə çalışmışlar. Məsələn: Böyük İgəndərin tarixi obrazını yaratmış dahi Nizami Gəncəvi “İsgəndərnamə” poemasında bu qəhrəmanı seçməsinin səbəbini onun *“düha sahibi olması, səxavətli, adamsifətli mələk, ağıllı, sakit, zehinli, zəhmətsevən, sözü öz yerində danışan, ağır təbiətli, birinə cəza verməyə tələsməyən, Allahı və xalqı özündən razı salan, hamı tərəfindən yalnız yaxşılıqda yad edilən, heç kimin qəmi müqabilində şad olmayan, sözü əqllə ölçüb-danışan, hər şeyi hikmətlə ölçüb-biçən, yalan sözü eşitmək istəməyən, verdiyi sözə laqeyd olmayan, hər bir yerdə işə rövnəq verən, filosoflarla söhbət edən, qocaların tədbiri ilə iş görən, hər vaxt Allaha pənah aparan”* kimi müsbət cəhətlərə malik olması ilə əlaqələndirir. Bu sətirləri oxuduqca bir an düşünürsən ki, əslində, şair İsgəndərin yox, bəsirət gözüylə əsrlərlər sonrasına baxaraq ulu babalarımızın təbiricə desək,  “Tanrının yer üzündəki kölgəsini”, Onun bizə bəxş etdiyi qoruyucu mələyi,

iki əsrin dühası, dünya azərbaycanlılarının ümummilli lideri Ulu öndər Heydər Əliyevin fenomenal şəxsiyyətinin obrazını yaratmışdır. Əsl qəhrəmanları tarix özü yaradır və yalnız böyük şəxsiyyətlərin böyük əməlləri sayəsində yadda qalır. “Dahi yaradılmır, dahi doğulur”. XX yüzillikdə də xalqın daha bir dahisi yetişdi. O,dünyanın nadir simaları arasında layiqli yer tutaraq dünya tarixinin azərbaycanlı dahisi oldu. Varlığı bütöv bir xalqın sevgisini, yoxluğu ilə ölümsüzlüyü qazandı. Sevildiyi üçün seçildi və bir çox romanların, şeirlərin əbədiyaşar qəhrəmanına çevirdi.

Tənqidçi, ədəbiyyatşünas alim Timurçin Əfəndiyev “Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz” adlı kitabında yazır: “Tarix uzaqlaşdıqca biz Heydər Əliyev dühasının əzəmətini, onun şəxsiyyətinin böyüklüyünü daha aydın dərk edirik. Əslində, bu qeyri-adi şəxsiyyət hər zaman bizim əhatəmizdədir. Onun irsi bizim milli sərvətimizdir, müstəqil Azərbaycanın milli və dövlət ideologiyasının əsas mərkəzləri, bədii-fəlsəfi mənbələridir”.

Ulu öndərin hakimiyyətdə olduğu dövrün ilk mərhələsindən−70-ci illərdən sonra yaşadıqları ölkənin tərəqqisini öz gözləri ilə görüb ilhama gələn ustad sənətkarların görkəmli dövlət xadiminə həsr etdikləri şeirlər, romanlar bu gün – üstündən illər keçdikdən sonra da, maraqlı və təzə-tər göründüyü kimi, zamanla da həmahəng səslənir. Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü, bütövlüyünü duyub dərk edən Dədə Şəmşir ölkədə apardığı quruculuq işlərini, Onun xalqa, xalqın da Ona olan məhəbbətini öz şeirlərində şair fəhmi ilə tərənnüm edir:

*Möhürlə yazılıb xalqın qəlbinə,*
*Silinməz tarixdən adı Heydərin.*
*Qəhrəman ellərdən alıb dərsini,*
*Belə böyük var ustadı Heydərin,* yaxud

*Ömrün uzun olsun,igid Heydərim,*
*Şöhrətin tarixin varağındadı.*
*Cənnətə dönübdü şoranlı çöllər,*
*Qüdrətin Vətənin çırağındadı.*

“Qızıl qələm” media mükafatı laureatı, şair-publisist Elşad Barat da Ulu öndərə həsr etdiyi “Heydər baba” adlı şeirində bu mövzuya toxunmuş, doğma Azərbaycanımızda gedən vüsətli inkişafı elin dərdi ilə ağlayıb, sevinci ilə gülən dahi şəxsiyyətin böyük zəhmətinin bəhrəsi kimi qiymətləndirir:

*Bu torpağı, bu milləti canından da çox sevirdin,*
*Ayağını basan yerdə-daş üstündə gül bitirdin,*
*Özün getdin, öz xalqına özün kimi oğul verdin,*
*Allah səni öz nurundan yaratmışdı Heydər baba.*
*Yer topunun sir boxçası rəngsiz, donsuz göylərdədir,*
*Xeyir-duan üstümüzdə, ruhun sonsuz göylərdədir,*
*Göydən gəldin, göyə döndün, yerin onsuz göylərdədir,*
*Allah səni öz nurundan yaratmışdı, Heydər baba.*

Azərbaycan ədəbiyyatında ümummilli lider Heydər Əliyevin keçdiyi şərəfli həyat və fəaliyyət yolunu faktlar əsasında tam, dolğun, bütün incəliklərinə qədər əks etdirən ən

qiymətli ədəbi nümunələrdən biri Millət vəkili, Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü Elmira Axundovanın qələmə aldığı "Şəxsiyyət və zaman" romanıdır. Romanda Ulu öndərin uşaqlıq, yeniyetmə və gənclik illəri, təhsil həyatı, məşğuliyyətləri, mənəvi dünyası, bacarıq və istedadı, hakimiyyətdə olduğu dövrlərdəki siyasi fəaliyyəti, yaradıcılığa meyilləri həm faktiki materiallar, həm də bədii lövhələrlə təsvir edilmişdir. Əsəri oxuduqca oxucu sevdiyi qəhrəmanının və Onun həyatının görünməyən, bilinməyən tərəflərinə də yaxından bələd olur. Müəllif gənc Heydəri belə təsvir edir: "*O, uşaqlıqdan çox işgüzar və əməksevər oğlan idi... Heydərin yaşına uyğun olmayan qeyri-adi ciddiliyini, təmkinliliyini, vaxtının çoxunu kitab oxumaqla keçirdiyini qeyd edirlər. Ancaq onun kitablarla yanaşı, başqa məşğuliyyəti də vardı. Axı o həmdə dəcəl, cəsarətli, diribaş bir oğlan idi. ...o, ən qabiliyyətli idi. Həqiqətən də, Allah ondan heç nə əsirgəməmişdi: xarici görkəm də, boy-buxun da, ağıl da, dərrakə də vermişdi... Heydər ədəbiyyatı çox sevir, onu həm oxuyur, həm də yaxşı qavrayırdı. ...çox mütaliə edirdi, o vaxtlar əldə edilə bilən bütün ədəbiyyatı oxumuşdu. ...Heydər əliyev Azərbaycan bölməsində oxuyurdu. Lakin rusdilli yaşıdları ilə daimi ünsiyyət və rus dilində mütaliə nəticəsində o, artıq bir neçə ildən sonra öz fikrini rusca sərbəst ifadə edə bilirdi. ...idmanla bütün ömrü boyu məşğul olmuşdu: pyada gəzir, qaçır, üzgüçülüklə məşğul olurdu.... O, ağac əkməyi çox sevirdi... Heydər dərnəklərin hamısında iştirak etməyə can atırdı. ...gözəl nitq qabiliyyəti vardı. Yaşıdları arasında, şübhısiz, göz qabağında olan üstünlüyünə baxmayaraq, Heydər Əliyev heç vaxt onların qarşısında özünü öymür, burnunu dik tutmurdu. Əksinə, ...o, çox həlimxasiyyət və xeyirxah idi. ... öz ailəsinin o qədər də imkanlı olmamasına baxmayaraq, yenə də fürsət düşdükcə yaşıdlarına kömək edirdi. Heydərin çox gözəl səsi vardı, o, uşaqlıqdan oxumağı xoşlayırdı, xüsusilə də "Dəli ceyran" və "Uca dağlar" mahnılarını. ...o həm də ...böyük ümidlər verən rəssam və aktyor idi. Tələbə yoldaşları və müəllimləri onun çəkdiyi Möminəxatun türbəsi, Əlincə qalası, İlanlı dağ silsilələri, günəşli kənd mənzərələri kimi rəsmləri bugünədək xatırlayırlar. Anasına qarşı çox qayğıkeş və mehriban idi, bir sözünü iki eləməzdi, onun dünyagörüşü və həyat tərzindəki xüsusiyyətlərə hörmətlə yanaşırdı".* Əsərin müxtəlif hissələrindən verilmiş bu nümunələrdən Ulu öndərin böyük siyasətçi, dövlət xadimi olması ilə yanaşı, saysız-hesabsız müsbət keyfiyyətlərə, məziyyətlərə malik olduğunun da şahidi oluruq.

Xalq şairi Zəlimxan Yaqub da Ulu öndərin xatirəsinə "Böyük ömrün davamı" adlı poema həsr etmişdir. Şair Azərbaycan ədəbiyyatına bir töhfə olan bu poema haqqında danışarkən duyğu və düşüncələrini belə ifadə edir: "Məndən soruşsalar ki, məhəbbətə, cəsarətə, sədaqətə, sənətə, təfəkkürə, fəlsəfəyə, poeziyaya, heykəl qoymaq istəyirik, kimin heykəlini qoyaq, deyərəm, Heydər Əliyevin. İstər xarici səfərlərdə, istər Azərbaycanda, istərsə də şəxsi görüşlərimizdə ona olan ulu sevgim, güclü rəğbətim, böyük məhəbbətim məni rahat buraxmırdı. Xəyalən yenidən Çin səddinə qalxdım, "Manas" dastanının 1000 illiyində türk ruhunun qəhrəmanlıq dünyasına baş vurdum, Kəbədə Qara daşın yanında onun elədiyi dualarını xatırladım. Gördüm ki, bu insan tarixdə tarix yaratmağa qadir olan son min ilin yetirdiyi ən böyük Vətən oğlu, milli qəhrəmanı, xalq fədaisidir". Şair poemada ümummilli liderin bu xüsusiyyətlərini xalq yaradıcılığına xas sadə ifadə tərzində və böyük s əmimiyyətlə əks etdirmişdir. Eyni zamanda Heydər Əliyevin insanlara istedadına, bacarığın

a görə qayğı göstərməsi, elm və sənət xadimlərindən tutmuş, sadə zəhmət adamlarına qədər hamının əməyini layiqincə qiymətləndirməsi kimi yüksək keyfiyyətləri, xalqa, Vətənə xəyanət
yolu tutanlara qarşı barışmaz mübarizə aparması şairin diqqətindən kənarda qalmamışdır:

*Eşqə qadağa yox, sevgiyə sərhəd,*
*Xatirən canlıdır, şöhrətin diri.*
*Ömrünün mənası xalqına xidmət,*
*Adının mənası "Allahın şiri".*

Müəllif qəhrəmanının həyat və fəaliyyətini bütöv təsvir etməsinə baxmayaraq, əsərin "Qara xəbərin acısı" adlı hissəsində Ulu öndərin bu dünyanı tərk etməsinə münasibətini, özünün və bütövlükdə xalqın hislərini dərin hüzn və kədərlə oxucuya təqdim edir:

*Aşıq, ağlat məni, dolum, boşalım,*
*Əridim, bağrımın yağımı qaldı?*
*Yaşıl bostanımın, yaşıl bağımın*
*Kökdən üzülməmiş bağımı qaldı?*
*Oxu asta-asta, de sərin-sərin,*
*Dərdimiz ağırdır, yaramız dərin,*
*Karvanı köçdüsə Dədə Heydərin,*
*Daha deyib-gülmək çağımı qaldı?*

Nə qədər şeirlər, poemalar, romanlar, cild-cild kitablar yazılsa da, Ulu öndərin – bu nadir insanın və siyasət korifeyinin şəxsiyyətini sözlərlə ifadə etmək mümkün deyildir.Çünki bu adın ucalığı bütün ifadələri kölgədə qoyur. Dünyada əbədi qalan yalnız saf əməllərdir. Ulu öndər nəsillərin qəlbində öz əməlləri, ölməz ideyaları ilə yaşayacaqdır. Əsrlər, qərinələr keçəcək, Azərbaycan xalqı yaşadıqca O, daim yaşayacaq, heç vaxt unudulmayacaqdır.

## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN FOLKLORUNUN İNKİŞAFINDA ROLU

***Ələsgərov B.İ., Əliyev A.B., Əliyeva H.N.***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ağcabədi filialı)*

Azərbaycan ədəbiyyatının qaynağında, milli-mənəvi varlığımızın daşınmasında, xalqımıza məxsus tarixi-mental keyfiyyətlərin, əxlaqi dəyərlər sisteminin ana qaynağında zəngin və dərin məzmunlu folklor durur.

Azərbaycan folklorunun ilk örnəkləri yazılı şəkildə qədim Yunan tarixçisi Herodotun "Tarix" əsərində (e.ə.V) bizə gəlib çatmışdır. Yazılı halda bizə gəlib çatmış Azərbyacan folklorunun ən qədim və ən böyük abidəsi "Kitabi-Dədə Qorqud" eposudur. Bu eposun müxtəlif obraz və motivləri sonrakı Azərbaycan folkloruna və klassik ədəbiyyatına təzyiq göstərsədə, bütövlükdə şifahi ənənədə qorunub saxlanmamışdır. Buna görə də, "Kitabi-Dədə Qorqud" dastanı yazılı ədəbiyyat örnəyi kimi də tədqiqata cəlb edilir. Xalqımızın əsrlər boyu yaradıb yaşatdığı zəngin milli-mənəvi sərvətlərin qorunub saxlanılması və dəyərləndirilməsi istiqamətində müxtəlif zamanlarda çeşidli tədbirlər həyata keçirilsədə, bu

sahədə sistemli və irimiqyaslı fəaliyyətə iyirminci yüzillikdə daha çox diqqət yetirməyə başlanılmışdır. Sovet hakimiyyətinin ilk onilliklərində sadə, zəhmətkeş xalqa məxsus mənəvi mədəniyyətin əsas göstəricisi kimi şifahi xalq ədəbiyyatının toplanması, nəşri işinə xüsusi əhəmiyyət verilsədə, bu sahədə daha çox mövcud ideoloji sistemə xidmət məqsədi daşımışdır. Türk-İslam dəyərini, xalqın gerçək milli tarixi yaddaşını əks etdirən folklor örnəkləri üzərinə isə yasaq qoyulmuşdur.

1969-cu ildə baş verən tarixi dəyişiklik - Heydər Əliyevin Azərbaycan Respublikasının siyasi rəhbəri vəzifəsinə gəlməsi bir çox başqa sahələrlə yanaşı, mənəvi-hümanitar istiqamətin, o cümlədən də elmi və mədəni-təşkilatı fəaliyyətin canlanmasına səbəb olur. Memarlıq, xalq musiqisi, folklor və müxtəlif istiqamətləri cəmləşdirən milli-mənəvi dəyərlər kompleksi xatırlanan mərhələdən etibarən əlahiddə bir qayğı və diqqətlə əhatələnməyə başladı. Folklor qaynaqlarına göstərilən qayğı və diqqət bütün Azərbaycan miqyasında özünütanıma, özünüdərk proseslərini hərəkətə gətirdi. Əvvəlki onilliklər üçün yasaq olan "Dədə- Qorqud", "Oğuz" "Ozan", "Türk mədəniyyəti" anlayışları respublikada yaranmış münbit zəmində toplantılarda, kitablarda, mətbuatda, radio-televiziya verilişlərində boy göstərdi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dönəmində (1969-1982) folklorun təbliği, nəşri və tədqiqi istiqamətində həyata keçirilən iri miqyaslı tədbirlər bir qayda olaraq onun şəxsi təşəbbüsü, bir başa sərəncamı və qayğısı sahəsində mümkün olmuşdur. Həyata keçirilən bu tədbirlərin əksəriyyətində Heydər Əliyev vaxt taparaq şəxsən özü iştirak etmiş, milli-mənəvi dəyərləri yüksək qiymətləndirən ürək sözlərini söyləmiş, xeyir-duasını vermişdir. Azərbaycan Respublikasının ədəbi-mənəvi həyatındakı bu canlanma Cənubi Azərbaycanın mənəvi həyatında öz müsbət təsirini göstərdi. M.Şəhriyar, A.Səhhət, Savalan və başqa istedadlı qələm sahiblərinin yaradıcılığında folklor ön plana çıxdı. 1979-cu ildə doktor Cavad Heyyətin naşirliyi ilə Cənubi Azərbaycanda işıq üzü görən "Varlıq dərgisinin" səhifələrində də "Dədə Qorqud" mövzusu elecədə Azərbaycan folklor mədəniyyəti məsələləri qabarıq yer aldı. Müstəqilliyin ilk illərindən başlayaraq Azərbaycan dövlətçiliyi bu möhtəşəm milli-mənəvi abidəni diqqət önündə saxlandı. Bütün bunların nəticəsi olaraq 1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanının 1300-illik yubileyinin qeyd olunması barədə tarixi fərman imzaladı. "Kitabi-Dədə Qorqud" dastanının 1300-illik yubileyinin YUNESKO tərəfindən dünya miqyasında keçirilməsi təşəbbüsünü də Heydər Əliyev qaldırdı və az sonra YUNESKO yubileylə bağlı təklifi qəbul etdi. "Dədə Qoqud" komissiyasının sədri Heydər Əliyevin rəhbərliyi ilə 1300-illik yubileyi yüksək səviyyədə keçirilməsi üçün mütəmadi şəkildə sistemli və ardıcıl iş aparıldı. Heydər Əliyevin Azərbaycan folkloruna xüsusi diqqət göstərməsinin parlaq təzahürü onun milli-mənəvi dəyərlərimizin unikal daşıyıcı yaşadıcıları olan el sənətkarına - aşıqlara, el şairlərinə, istedadlı folklor ifaçılarına qayğıkeş münasibətində də ifadəsini tapırdı. Tarixi keçmişimizə, əsrlərin baş sınağından keçib gələn saz-söz qaynaqlarımıza, xalqımızın tarixin müxtəlif mərhələlərində yetişdirdiyi ustad sənətkarlara qədirbilənliklə yanaşıldığındandı ki, onun təşəbbüsü və sərəncamı ilə böyük xalq ozanlarımız aşıq Ələsgər 150-illik (1972-ci il) aşıq Alının 180-illik (1981-ci il) yubileyləri təntənə ilə qeyd olunmuşdur. Heydər Əliyevin 70-80-cı illərdə milli-mənəvi

sərvətlərimizə verdiyi qiymət, göstərdiyi qayğı və diqqət onun 90-cı illərindəki fəaliyyətinin də ayrılmaz tərkib hissəsi olaraq qalır. Azərbaycanda folklor işinin yüksək səviyyəli təşkilinin həyata keçirmək üçün 1994-cü ildə Milli Elmlər Akademiyasında xüsusi elmi statusa malik Folklor Elmi-Mədəni Mərkəzinin yaradılması həmin dövr üçün çox mühüm bir addım idi. 1998-cü ildə Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyyəti qərarı ilə folklor işinin xüsusi tələblər səviyyəsində qurulması ilə bağlı qarşıda duran perspektiv vəzifələr müəyyənləşdirilmiş və onların gerçəkləşdirilməsi üçün uzun müddətli tədbirlər planı hazırlanmışdır. 2002-ci il Azərbaycan Respublikasının Milli Məclisində "Folklor haqqında qanun"un qəbul edilməsi Prezident Heydər Əliyev tərəfindən təsdiqlənməsi faktı da müstəqil Azərbaycan dövlətçiliyinin mənəvi humanitar həyatında folklor mədəniyyətinə diqqət və qayğının əyani təzahürü idi.

## AZƏRBAYCAN TƏHSİL SİSTEMİ MÜASİR DÖVRDƏ: UĞURLAR, PERSPEKTİVLƏR

***Ələsgərov B.İ., Səmədov Y.A., Cəfərov F.T.***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ağcabədi filialı)*

Təhsil, təlim-tərbiyə hər bir dövlətin strateji əhəmiyyətə malik fəaliyyət sahəsidir, onun köməyi ilə siyasi-iqtisadi, sosial və mədəni inkişafı müəyyən etmək, yeni qurulmuş cəmiyyətin mənəvi dəyərlərini formalaşdırmaq mümkündür. Məhz bu baxımdan, hər bir suveren dövlət təhsilin inkişafına xüsusi diqqət yetirir.

Müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikasında da yeni cəmiyyət quruculuğunda sivilizasiyalı, demokratik modellərin axtarışı istiqamətində, əsasən də, təhsil sisteminin yeniləşməsi prosesində dünya təcrübəsinə inteqrasiya böyuk miqyas almışdır.

Təkzibolunmaz həqiqətdir ki, ən zəruri faktor olan müasir təhsil sistemi yeni formalaşan cəmiyyətin ayrılmaz bir sahəsidir. Bu sivil sferanın inkişafı təhsil sisteminin irəli getməsinə, həm də onunla bağlı ölkədə fəaliyyətdə olan bütün sahələrdəki uğurların sayının artırılmasına səbəb olur. Çünki təhsil faktoru hər bir fərdə təsir etmək gücünə malikdir, eyni zamanda onun təsiri ilə sivil cəmiyyətin bütün inkişaf mərhələlərini görmək, duymaq və anlamaq mümkündür. Deylənləri nəzərə alıb yeqinliklə müəyyən etmək olar ki, təhsil:

- xalqın gələcəyə baxışlarını formalaşdırır;
- yoxsulluğu aradan qaldırır və xalqın rihaf halını yaxşılaşdırır;
- hüquqi cəmiyyətin qurulmasında əvəzsiz rol oynayır;
- fərdin və ya kollektivin ümumi inkişafını təmin edir;
- milli-mənəvi dəyərləri qoruyur və tənzimləyir;
- insan kapitalını formalaşdırır və sair.

Qeyd etmək lazımdır ki, ölkənin bütün sahələrində olduğu kimi, təhsil sahəsində də inkişaf prosesi ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra müşahidə olunmağa başladı. Ümummilli liderin: "Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır" məntiqi fikri təhsil sahəsinin inkişafında

mühüm rol oynadı. Təhsilin strateji sahə kimi tərəqqisi hər il büdcədən ayrılan vəsaitlərin artımında özünü göstərdi. Məsələn,1993-cü ildən 2003-cü ilə qədər bu sahədə ciddi irəliləyişlər baş verdi.

Təhsil sahəsinə dövlət büdcəsindən ayrılmalar 2 milyard manata qədər artırıldı, bu sahəyə qoyulan investisiyaların həcmi 300 milyon manata çatdırıldı. Həmçinin təhsil sisteminin inkişaf etdirilməsi üçün respublika Prezidenti tərəfindən müxtəlif dövlət proqramları və sərəncamlar imzalandı. Eyni zamanda 2003-cü ildən başlayaraq, ümumiyyətlə Azərbaycanda başlanmış modernləşmə siyasəti təhsil sektorunun da inkişafına əlavə təkan verdi.

Prezident İlham Əliyev M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının yeni tədris kompleksinin açılış mərasimindəki çıxışında demişdir: "...Təhsil prosesi lazımi səviyyədə təşkil edilməmişdirsə, tədrisin səviyyəsi axsayırsa, tələbələr bilik qazanmağa nə qədər can atsalar da, nəticə əldə etmək çətin olacaqdır". Əlbəttə, müasir təhsil sisteminin səviyyəsini daha da yüksəltmək üçün ilk növbədə infrastruktur işləri tamamilə tənzimlənməli və yekunlaşdırılmalı, müasir texniki vasitələrlə təmin olunmuş təhsil ocaqları yaradılmalı, nəhayət, güclü elmi-pedaqoji kadrlar formalaşdırılmalıdır.

## MÜSTƏQİL AZƏRBAYCANIN TƏHSİL SAHƏSİNDƏ HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ VƏ ROLU

***Ələsgərov B.İ., Süleymanov S.E.***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ağcabədi filialı)*

Ulu Öndər Heydər Əliyevin ömür yolu vətənə və millətə təmənnasız xidmətin parlaq nümunəsidir. Azərbaycanın dövlətçilik tarixinin 30 ildən artıq bir dövrü bilavasitə xalqın bu böyük oğlunun adı ilə bağlıdır. Heydər Əliyev misilsiz idarəetmə istedadına malik olan bir şəxsiyyət idi. Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə quruculuğun, sosial-iqtisadi inkişafın, ictimai-siyasi sabitliyin, dövlətçiliyin təminatçısı olmuş, müstəqilliyin bərpasının ən ağır vaxtlarında Azərbaycanın mənafeyi naminə xilaskarlıq missiyasını yerinə yetirmişdir.

Ümummilli liderin öz xalqı qarşısında xidmətlərinin ən mühümlərindən biri ondan ibarətidi ki, O, 90-cı illərin əvvəllərində Azərbaycanı yaranmış xaos vəziyyətindən qurtardı və baş verə biləcək vətəndaş müharibəsinin qarşısını aldı, ölkədə bütün sahələrdə sabitlik, quruculuq eyni zamanda inkişaf mühiti yaratdı.

Ulu öndər Azərbaycanın müstəqilliyinin daimi, dönməz və əbədi olduğunu yüksək tribunalardan qətiyyət və inamla elan etdi. O, həyatının son gününədək bütün gücünü Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasına sərf etdi. Bir sözlə, öz xalqının, vəteninin vurğunu olan Heydər Əliyev Azərbaycanın həqiqi lideri və xilaskarı kimi öz missiyasını şərəflə yerinə yetirmişdir.

Ölkəmizin müasir inkişaf modelini, onun siyasi və iqtisadi perspektivlərini məhz bu dahi şəxsiyyət müəyyən etmişdir. 1969-1982-ci illərdə Heydər Əliyev özünün böyük təşkilatçılıq məharətindən və şəxsi nüfuzundan xalqın mənafeyi naminə müdrikcəsinə istifadə edərək qısa müddətdə keçmiş ittifaq rəhbərliyinin diqqətini Azərbaycana yönəltdi.

Mərkəzi ittifaq büdcəsindən respublikamıza xeyli vəsait ayrılmasına səbəb oldu. 1970-ci ildən başlayaraq qısa müddət ərzində Azərbaycanın sənayesi və kənd təsərrüfatı orta ittifaq göstəricilərini qabaqladı və sürətlə inkişaf etməyə başladı.

1993-cü ildə xalqın istəyi və təkidi ilə Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldi və Azərbaycanın yeni dövrü üçün də özünün zəngin bilik və təcrübəsi əsasında strateji inkişaf perspektivlərini müəyyənləşdirdi və Azərbaycanda bütün sahələrdə islahatların həyata keçirilməsinə başlanıldı. Azərbaycanın təbii sərvətlərinə, iqtisadi potensialına dünyanın bir çox inkişaf etmiş dövlətləri, maraq göstərdi. Heydər Əliyev həmin dövlətləri, nüfuzlu beynəlxalq maliyyə və iqtisadi şirkətləri Azərbaycana dəvət etdi və iş birliyi yaratmaq üçün təkliflər irəli sürdü.

1994-cü il sentyabrın 20-də dünyanın aparıcı ölkələri iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi " nəticəsində Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz ixrac boru kəmərləri layihələri reallaşdı və buda əlbəttə ki, ölkəmizin dünya bazarına çıxmasında, Avropanın enerji təhlükəsizliyində etibarlı vətəndaş olmasında həlledici rol oynadı. Bütün bunlar Azərbaycanın hərtərəfli inkişafına, dövlət müstəqilliyinin möhkəmləndirilməsinə səbəb oldu. Heydər Əliyev siyasi uzaq görənliyinin nəticəsidir ki, Azərbaycan dünyanın aparıcı dövlətlərinin iqtisadi maraq meydanına çevrildi.

Ulu Öndər Heydər Əliyev Azərbaycanda güclü iqtisadiyyatın yaradılması ilə bərabər, cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvəsi hesab olunan təhsilin inkişafına da böyük diqqət və qayğı göstərirdi. O deyirdi: "Təhsil hər bir dövlətin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir xassədir."

Cəmiyyət təhsilsiz inkişaf edə bilməz. Ölkəmizdə təhsil sahəsində islahatların başlanması, öz həllini gözləyən problemlərin aradan qaldırılmasına yönəlmiş bir sıra dövlət proqramlarının qəbulu birmənalı şəkildə Ümummili Lider Heydər Əliyevin təşəbbüsü sayəsində mümkün olmuşdur.

Heydər Əliyev uzaqgörən siyasətçi və dövlət xadimi idi. O hələ SSRİ dövründə, 1969-cu ildən hakimiyyətə gəldiyi ilk dövrdən başlayaraq Azərbaycanda ciddi ehtiyac duyulan ixtisaslar üzrə ali təhsilli kadrların hazırlanmasına xüsusi diqqət yetirmiş və hər il yüzlərlə gəncin başqa respublikaların ali məktəblərinə oxumağa göndərilməsini təmin etmişdir.

Heydər Əliyevin əzəmətli şəxsiyyəti, onun Azərbaycana, doğma xalqına həsr edilmiş şərəfli ömür yolu və zəngin fəaliyyəti bu günün və gələcəyin gəncləri üçün parlaq nümunə, ibrətamiz vətənpərvərlik tərbiyəsi məktəbidir.

Yəqin çoxunun yadındadır ki, 2000-ci ilin iyun ayında Azərbaycan Respublikasında təhsilin inkişaf etdirilməsinin təkmilləşdirilməsi haqqında respublika Prezidenti fərman imzalamışdı. Həmin fərmanın müddəalarından biri Azərbaycan Kooperasiya İnstitutunu, Əmtəəşünaslıq İnstitutunu və Bakı Kooperativ Texnikumunu Azərbaycan Dövlət İqtisad Universitetinin tərkibinə verilməsi idi.

"Azərittifaq" İdarə Heyətinin sədri Eldar Quliyevin əvəzsiz səyi nəticəsində Azərbaycan Kooperasiya İnstitutu və Bakı Kooperativ Texnikumunun pedaqoji ictimaiyyətinin və əməkdaşlarının çox saylı müraciətlərini və mülkiyyət hüquq münasibətlərini əsas tutaraq ölkə Prezidenti ümummilli lider Heydər Əliyev özünün 30 avqust 2000-ci il tarixli Fərmanı ilə 2000-ci il iyun tarixli fərmanına düzəliş imzaladı.

Heydər Əliyevin imzaladığı fərmanlara sonradan bu cür düzəliş etməsi onun fəaliyyəti dövründə bəlkə də birinci dəfə idi. Bununla Ulu öndər özünün dahi şəxsiyyət, demokratik lider, qayğıkeş rəhbər olduğunu bir daha subut etdi. Belə ki, həmin fərmanın 7-ci bəndində uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabineti və Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə razılaşdırılmaqla profili genişləndirilən Azərbaycan Kooperasiya İnstitutunun bazasında Azərbaycan Kooperasiya Universiteti, Bakı Kooperativ Texnikumunun bazasında isə Bakı Biznes və Kooperasiya Kolleci yaradıldı. Sonrakı müddət ərzində "Azərittifaq"ın İdarə Heyəti tərəfindən Azərbaycan Kooperasiya Universitetində və Bakı Biznes və Kooperasiya Kollecində maddi-texniki baza möhkəmləndirildi, ixtisasların siyahısı daha da genişləndirildi, pedaqoji işçilərin elmi potensialının yüksəldilməsi sahəsində əsaslı işlər görüldü.

Müəllimlərin sosial vəziyyətlərinin yaxşılaşdırılmasında da Heydər Əliyevin müstəsna rolu olmuşdur. Hazırda təhsil sahəsində siyasət Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İldən-ilə təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi, inkişafına ayrılan dövlət vəsaitinin artırılması bunun əyani sübutudur. Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev Bakı Dövlət Universitetinin 90 illik yubleyinə həsr edilmiş təntənəli mərasimdə çıxışında qeyd etmişdir ki, xüsusilə indiki şəraitdə hər şey təhsilin səviyyəsi ilə ölçülür. Dövlət başçısı demişdir: "Biz iqtisadi potensialımızı intellekt kapitalına çevirməliyik, qara qızıldan, maddi dəyərlərdən əldə edilən kapitalı ölkədə insan kapitalının inkişafına yönəltməliyik. Bütün gücümüzü, imkanlarımızı tələbə gənclərin təhsil almalarına səfərbər etməliyik ".

Azərbaycanın tarixi keçmişi, müasir dövrün gələcəyi ilə yaşamağı, yaratmağı bizə öyrədən,vəsiyyət edən xalqımızın ən böyük vətənpərvər oğlu Heydər Əliyev mənən bizimlədir və onun həmişəyaşar ideyaları əbədi olaraq xalqımızladır, hər birimizin əqidə və əməlinin istiqamətvericisidir.

Memarı və qurucusu Heydər Əliyev olan müstəqil Azərbaycan Respublikası bizim hamımız üçün canını fəda etməli olduğumuz vətəndir, uğrunda yorulmadan çalışmalı, işləməli daim inkişaf etdirməli olduğumuz bir məmləkətdir, müstəqilliyini və ərazi bütövlüyünü bütün varlığımız ilə qorumalı olduğumuz bir dövlətdir, atalarımızın və övladlarımızın yurdudur. Bu gün Ulu öndər Heydər Əliyev siyasi varisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə günbəgün çiçəklənən vətənimizin hər bir guşəsində Ulu öndərin izi görünür, əməlləri yaşayır, bundan sonra da yaşayacaq, xalqımızı xoşbəxt gələcəyə aparacaqdır.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA KİTABXANA QURUCULUĞU

***Əliyeva X.Q.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan mədəniyyətinin inkişafına və milli-mənəvi dəyərlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılmasına böyük diqqət və qayğı ilə yanaşan ümummilli liderimiz H.Əliyev kitaba və kitabxanaya böyük dəyər vermişdir. Kitabı mənəvi zənginliyin və elmlərə yiyələnməyin mühüm açarı hesab edən dahi liderimiz gənclərə və ətrafdakı

insanlara daim mütaliə etməyi, kitabla həmsöhbət olmağı məsləhət görmüş, həyatda kamil insan kimi yetişməyin, biliklərə yiyələnməyin yeganə yolunun mütaliədən keçdiyini söyləmişdir. "Kitabxana xalq, millət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir." Ümummilli liderimiz tariximizə , dilimizə , ədəbiyyatımıza, milli ideologiyamıza, soykökümüzə həsr edilmiş dərin məzmunlu əsərləri bütün elm sahələrindəki elmi araşdırmaların metodoloji əsasıdır. Kitab və kitabxanaya böyük qiymət verən ulu öndərimiz özü də dünya dövlət başçılarının çoxuna müyəssər olmayan qiymətli çoxcildli kitabların müəllifi kimi tanınmışdır. Dövlətin kitabxana işi sahəsində apardığı islahatlar nəticəsində kitabxanaların sayı artmış, yeni kitabxanalar yaradılmışdır. Müstəqilliyin ilk illərində ümummilli liderin bilavasitə rəhbərliyi və qayğısı nəticəsində mədəniyyətimizin ayrılmaz hissəsi olan kitabxana işi sahəsində əsaslı islahatlar aparmaq, kitabxanaları qoruyub saxlamaq və inkişaf etdirmək mümkün oldu. 90-cı illərin axırlarında çətinliklə olsa da ayrı-ayrı nazirliklərin, elmi müəssisələrin böyük kitabxanaları informasiya texnologiyası ilə təmin olunmağa, kompüterləşdirilməyə vəinternetə qovuşmağa başladı. Kitabxana işində demokratik prinsiplər geniş yer alır,müstəqil,suveren, dünyəvi, demokratik,hüquqi Azərbaycan dövlətinin kitabxana işi sahəsində siyasəti formalaşırdı. Bu siyasətin əsasında Ulu öndər H.Əliyevin mədəniyyət, təhsil, elm, kitab və kitabxana işi haqqında ideyaları və baxışları dururdu. Müstəqillik illərində respublikamızda yeni dövlət statusuna malik kitabxanalar yaradılmış və bir sıra kitabxanalara ali statuslar verilmişdir. Ölkəmizdə xalq təsərrüfatının, mədəniyyətin bütün sahələri ilə yanaşı mədəniyyətin mühüm tərkib hissələrindən biri olan kitabxana işi sahəsində öz məqsədyönlü mütərəqqi tədbirlər görüldü. Kitabxanalarımızın fondunda kiril əlifbası ilə çap edilmiş milyonlarla kitab saxlanılırdı. Bütün dünya ədəbiyyatı, klassiklərimizin, alimlərin əsərləri kiril əlifbası ilə çap edilmişdi.

"Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında " 2007-ci il 20 apreldə verilmiş sərəncam bir daha sübut edir. Ulu öndər Heydər Əliyevin bütün sahələrdə olduğu kimi, kitabxan işi sahəsində də apardığı siyasətin layiqli davamçısıdır. Müstəqillik illərində respublikamızın digər kitabxana şəbəkələri fəaliyyət göstərirdilər.ASN-nin, KTN-nin, İN-in, AMEA-nın kitabxana şəbəkələri də qarşıya çıxan bütün çətinlikləri müvəffəqiyyətlə dəf edərək oxuculara kitabxana xidmətini davam etdirmiş və daha da təkmilləşdirmişlər. Müstəqillik illərində respublikamızda keçid dövrünün çətinliklərinə baxmayaraq Ulu öndər Heydər Əliyevin böyük dövlətçilik siyasəti nəticəsində MDB ölkələrindən fərqli olaraq bir dənə də olsun dövlət kitabxanası bağlanmadı. Kitabxanalar dövlətçiliyimizin, milli ideologiyamızın, xalqımızın ümummilli lideri Heydər Əliyevin irsini təbliğ etməkdə mühüm işlər görür.

"Kitabxana işi haqqında"Azərbaycan Respublikasının Qanununda deyildiyi kimi, kitabxana elm, informasiya, mədəniyyət, təhsil müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistematik ifadəsini təşkil edən cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur. Azərbaycanın müstəqilliyi dövründə yaradılan böyük vətəndaş şair M.Ə.Sabirin adını daşıyan kitabxana özünün bütün fəaliyyətini bilavasitə milli Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə, xalqımızın milli şüurunun oyanmasına həsr etmişdir. Kitabxanaların

qarşısında duran məqsədlər əsasən bir-biri ilə bağlı olan üç vəzifənin yerinə yetirilməsini tələb edirdi. Bu üç vəzifəni yerinə yetirmədən kitabxananı bəşəriyyətin inkişafına xidmət edən müəssisəyə çevirmək, elmi biliklərin toplandığı mərkəz və tərbiyyə məktəbi səviyyəsinə yüksəltmək mümkün olmazdı. Bunlar aşağıdakılardır:

1. İnformasiya daşıyıcılarını əldə etmək.
2. Kitabxana fondlarını yaratmaq və qaydaya salmaq.
3. Kitabxanada toplanmış informasiya daşıyıcılarından istifadəni təşkil etmək.

Cəmiyyət tarixinin xüsusilə də mədəniyyət tarixinin tərkib hissəsi olan kitabxana işinin tarixi lap qədim dövrlərdən başlayaraq zəmanəmizə qədər kitabxanaların tarixini, kitabxanaların keçdiyi mürəkkəb ziddiyətli və çətin inkişaf yolunu tədqiq edib öyrənmiş, tarixi inkişaf prosesinin müxtəlif dövrlərində onun cəmiyyətdə tutduğu mövqeyi, xalqın təhsilində, maarifində, ideoloji tərbiyyəsində rolunu göstərmişdir. "Kitabxana işinin tarixi kursu"nun predmeti və tədqiqat obyekti kitabxanalardır. Müstəqillik illərindən sonra Bakıda və eləcədə rayonlarda dağılmış kitabxana binaları, yeni-yeni tikilmiş kitabxana binaları ilə əvəz olunurdu. Eyni zamanda kitabxanalar avadanlıqla təhciz edilmiş, kitabxana fondu yaradılmışdır.

Kitabxana işinin inkişafında Heydər Əliyev mərhələsi öz xarakterinə və mahiyyətinə görə keçmiş mərhələlərdən öz demokratizminə, məqsədyönlülüyünə, hümanizminə, kitabxana xidmətinin xalqa yaxınlaşmasına, oxucu-kitabxana münasibətlərinin daha da təkmilləşməsinə kitabxana işinə senzura nəzarətinin yumşalmasına, milli dəyərlər sistemində kitabxana işinə diqqətin yeniləşməsinə və nəhayət, kitabxanalara dövlət qayğısının artmasına görə fərqlənirdi. Bütün bunlar ulu öndərin kitab və kitabxananı milli dəyərlərimizin qorunub saxlanmasında və təbliğində mühüm vasitə kimi qiymətləndirilməsindən irəli gəlirdi. H.Əliyev böyük təşkilatçılıq, nəhəng quruculuq işləri ilə yanaşı zəngin elmi-nəzəri və mənəvi bir irs yaratmışdır. Bu irs qiymətli mənəvi sərvətimiz kimi elmimizin və mədəniyyətimizin qızıl fonduna daxil edilmişdir. Kitabxanalarımız ulu öndərin əsərlərinin toplanıb saxlanılması və təbliği sahəsində böyük təcrübə qazanmışlar. Bütün bunlar bir daha təsdiq edir ki, yüksək mənəviyyata, geniş mütaliə dairəsinə malik olan H.Əliyev böyük kitab həvəskarı olmuş, onu sevmiş, mütaliəni insan biliyinin əsas amili hesab etmişdir. Kitabı təhsilin, elmin, insanın həyat fəaliyyətinin əsas vasitəsi kimi qiymətləndirən ümummilli liderimiz yazırdı: "Hər birimiz ancaq kitab vasitəsilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. "

Prezidentimiz İlham Əliyev deyir: "H.Əliyevin ideyaları, onun fəlsəfi ideyaları yaşayır və onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır və onun yolu ilə inkişaf edir."

# HEYDƏR ƏLİYEV İRSİ AZƏRBAYCAN XALQININ MİLLİ-MƏNƏVİ XƏZİNƏSİ, MİLLİ İDEOLOGİYAMIZIN ƏSASIDIR

***Əzizova Z.M.***
*Mingəçevir Dövlət Universiteti*

Hər bir xalqın əsrlər boyu zənginləşən dövlətçilik ənənələrinin vahid sistem halına gəlməsi uzunmüddətli təkamül prosesinin nəticəsidir. Hər bir millət, hər bir dövlət bu təkamül prosesində, yaşam tarixində torpağını, xalqını sevən, onu mübarizə meydanında qələbəyə, çətin anlarda işığa doğru aparan rəhbərə, şəxsiyyətə ehtiyac duyur. Tanrı belə şəxsiyyətlərə həm də xilaskarlıq missiyası verir. Zamanın ən sərt sınaqlarından çıxmış bu insanlar müəyyən mərhələdə məsuliyyəti öz üzərilərinə götürərək bütöv bir millətin tarixən yaşatdığı azadlıq, müstəqillik ideyalarını gerçək həyatda reallaşdırmağa nail olurlar. Belə şəxsiyyətlərdən biri də ümummilli liderimiz Heydər Əliyevdir. Məhz buna görə də Heydər Əliyev irsinin öyrənilməsi bütün zamanlar üçün əhəmiyyətlidir.

Azərbaycanın milli ideologiyasının və dövlətçiliyinin təməl prinsiplərinin müəyyən edilməsi məsələsi ölkəmiz 1991-ci il oktyabr ayının 18-də özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra çox ciddi diskussiya mövzusu olmuşdur. Müstəqilliyinə yenicə qovuşmuş dövlətimizin və xalqımızın gələcək inkişafı ilə əlaqədar müxtəlif təkliflər səsləndirilirdi. Düzdür, ölkəmiz dövlət müstəqilliyinə qovuşarkən XX əsrin əvvəllərində mövcud olmuş Xalq Cümhuriyyətinin müəyyən ənənələri var idi. Amma Xalq Cümhuriyyətinin az müddətdə mövcud olması və müəyyən prinsipləri ortaya qoya bilməməsi XX əsrin 90-cı illərinin əvvəllərində milli ideya axtarışı baxımından Azərbaycanda bir boşluğun olduğunu büruzə verdi. Türkçülüyə istinad etmək, dinə söykənmək və digər prinsipləri qəbul etmək təklifi ilə çıxış edənlər var idi. Amma bu təkliflərin hər biri yarımçıq idi, nə isə çatışmırdı. Bu prinsipləri tamamlamaq, inkişaf etdirmək, möhkəmləndirmək və qətiləşdirmək lazım idi. Məhz ümummilli lider Heydər Əliyev bunu qətiləşdirdi. O nəinki Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyini təmin etdi, eyni zamanda millətimizin və dövlətimizin ideoloji xəttini, söykənəcəyi təməl prinsiplərini bir irs olaraq müəyyənləşdirdi.

Keçən əsrin 70-ci illərinə nəzər salsaq, görərik ki, həmin illərdə məhz Heydər Əliyev fiziki və mənəvi terrora məruz qalan Azərbaycan milli məfkurəsini qoruyub saxlaya bildi. Belə ki, Heydər Əliyevin sovetlərin siyasi iyerarxiyasında rəhbərliyə gəlməsi ilə milli özünüdərk hissi gücləndi və bütün ideoloji maneələri dəf edərək müstəqil düşüncəyə yol açdı. Bu, əslində, xalqın milli dövlət yaratmaq arzusunun yeni işartıları idi. Ulu öndər Azərbaycana birinci rəhbərliyi dövründə böyük təzyiqlərlə, təqiblərlə, ciddi nəzarətlə üzləşsə də, riskdən çəkinməyərək əzmkar fəaliyyəti ilə xalqda tarixi keçmişi, milli kimliyi, dili, mədəniyyəti, milli adət-ənənələri və düşüncə sistemi barədə dolğun təsəvvürlər formalaşdıra bildi. Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi də məhz milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsinin real siyasi amilə çevrilməsi oldu. Heydər Əliyev dühasının Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri də

azərbaycançılq ideologiyasını inkişaf etdirməsi oldu. "Azərbaycançılıq" ideologiyası "azərbaycançılq" ideyalarından törəmişdir ki, bu ideyaların da ilk rüşeymləri Heydər Əliyev tərəfindən məhz onun Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə qoyulmuşdur. Azərbaycan təkrar öz müstəqilliyinə qovuşduqdan sonra, Heydər Əliyevin Prezidentliyi dövründə "azərbaycançılıq" dövlətin əsas ideologiyasına çevrildi. Azərbaycançılığa yüksək milli-mənəvi sərvət kimi yanaşan Heydər Əliyev çıxışlarının birində deyirdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideologiyası azərbaycançılqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir. Biz azərbaycançılığı, yəni Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq, daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olmalıdırlar. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır".

## ULU ÖNDƏR HEYDƏR ƏLIYEVİN DİL SİYASƏTİ

***Əzizova Z.M., Abbaszadə G.T.***

*Mingəçevir Dövlət Universiteti, AMEA, Dilçilik İnstitutu*

Azərbaycan xalqının ümummilli lideri, çağdaş dövrün ən böyük dövlət və siyasi xadimləri sırasında adı çəkilən Heydər Əliyevin XXI əsrdə Azərbaycan xalqına yadigar qoyduğu əvəzsiz ideyalar çoxdur. Bu mənada onun dil siyasəti dövlətimizin həyata keçirtdiyi siyasi, iqtisadi, mədəni sahədə dövlətlərarası əlaqələrin inkişafına hədəflənmiş məsələlərin tərkib hissəsi kimi diqqəti çəkir.

Heydər Əliyevin dil siyasətinin mahiyyəti, elmi xarakteristikası barədə yazılan tədqiqatlara müraciət etdikdə görürük ki, onun kökündə, ilk növbədə, doğma Azərbaycan dili, sonra isə zaman və məkan fərqindən asılı olaraq, digər xarici dillərə münasibət durur.

Heydər Əliyevin 60-cı illərin sonu 70-ci illərin əvvəllərindən başlayaraq bu günə kimi Azərbaycan dilinin dövlət dili olması, xalqımızın mənəvi mövcudluğunun əsas amillərindən olan dilimizin inkişafı və yüksəlişi uğrunda mübarizə, gördüyü böyük işlər indiyə qədər aktual olaraq qalır.

Məlumdur ki, dil siyasəti arenaya insanların ünsiyyət aktı ilə bağlı daxil olmuşdur və eyni zamanda siyasi təsisat və təşkilatların daxili həyatı da dil vasitəsi ilə təşkil olunur və nizama salınır. Heydər Əliyevin uzaqgörənliklə müəyyənləşdirdiyi xarici siyasətin kökündə, ilk növbədə insanlara, xüsusilə yetişən gənc nəslə əcnəbi dillərin öyrədilməsi dururdu.

Ümummilli lider Heydər Əliyev Azərbaycan gəncliyini milli inkişafımızın tükənməz mənbəyi hesab etdiyindən onların xarici dilləri, daha doğrusu ixtisaslaşmış xarici dilləri kamil bilmələrini istəyirdi. O, birmənalı şəkildə xarici dillərdə sərbəst danışan sahə mütəxəssislərinin yetişdirilməsini təqdir edir və vurğulayırdı ki, müasir dünyada məhz gənc nəslin yaradıcı gücündən və novatorluğundan səmərəli istifadə etməyi bacaran dövlətlər strateji üstünlüyə malik olacaqdır.

Ulu öndərin uzaqgörənliyinin nəticəsidir ki, bu gün onun yetişdirmələri ölkə həyatının bütün sahələrində dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, xüsusilə xarici siyasət

sahəsində böyük uğurlara imza atır, Azərbaycanı beynəlxalq səviyyədə ləyaqətlə təmsil edirlər.

Heydər Əliyev xarici dil siyasətinə həm də ölkə sərhədlərindən kənarda dünya dövlətləri tərəfindən həyata keçirilən və onların ümumi siyasətinin tərkib hissəsi olan məqsədləri özündə ehtiva edən proseslərə təsirli tədbirlər sistemi kimi baxırdı.

Tarixi zərurət nəticəsində Sovet dövləti dağıldıqdan sonra vahid dil siyasətinin formalaşma prinsipləri çərçivəsində yeni dil situasiyası, yeni dil planlaşdırılması siyasəti prioritet istiqamətə çevrildi. Yeni kontekstdə milli və xarici dil siyasəti milli dövlət siyasətinin tərkib hissəsi kimi ön plana keçdi.

Beləliklə, XXI yüzilliyinin əvvəllərində "dil siyasəti", xarici dillərə münasibət, eləcə də "dil situasiyası" terminlərinin mahiyyəti dəyişdi və yeni keyfiyyətlər qazandı. Belə bir zamanda dövlətimizin xarici və daxili dil siyasəti formalaşmağa başladı. Bu müstəvidə Azərbaycanın Heydər Əliyev əsrinin əsas səciyyəvi xüsusiyyətləri üç sferada təzahür etməyə başladı: mədəniyyət, ideologiya və kommersiya. Bu sferalar Azərbaycanda unikal dil situasiyasının təşəkkülünə səbəb oldu. Məlum olduğu kimi, ideologiya özü dil, mədəniyyət və kommersiya üzərində foremalaşdığından Azərbaycan yeni dövrdən dil planlaşdırılmasının çoxkomponentli modellərinə üstünlük verməyə başladı.

Heydər Əliyevin yaxından iştirakı ilə zamanın gerçəkliklərini nəzərə almaqla yeni dövrdə Azərbaycan dili də daxil olmaqla, xarici dillərin nəzəri və praktik məsələlərini özündə əks etdirən məqsəd və vəzifələr müəyyən edildi.

İlk növbədə, dövlətin xarici dil siyasəti və planlaşdırılmasının mahiyyəti və tipologiyası təsbit olundu. İkincisi, xarici dil siyasəti və dil planlaşdırılmasının gerçəkləşmə vasitələri və effektiv tədbirlər müəyyənləşdirildi.

Bu, əsasən iki istiqamətdə həyata keçirildi:

1. Ölkə ali məktəblərində xarici dillərin tədrisi keyfiyyətinin yüksəldilməsi;
2. Gənclərin dövlət hesabına xarici ölkələrdə təhsilinin təşkili.

Bir sözlə, Azərbaycan Respublikasında yeni dil siyasəti Azərbaycan Respublikasının Konstitusiyasında, Dövlətin, Ölkə Prezidentinin dil haqqında verdiyi sərəncamlarda və digər sənədlərdə əksini tapmış və indi də uğurla həyata keçirilir.

## AZƏRBAYCAN DİLİNİN İNKIİŞAF ETDİRİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

***Fərzəliyeva M.Ç., Allahverdiyev V.S.***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ağcabədi filialı)*

Müstəqil dövlətin və bu dövlətin mənsub olduğu xalqın varlığını özündə ehtiva edən dil siyasəti Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin diqqət yetirdiyi əsas sahə olmuşdur. Cümhuriyyət Hökuməti 1918-ci il 27 iyun tarixli qərarı ilə o zaman türk dili adlanan Azərbaycan dilini dövlət dili elan etmişdir. Müstəqil dövlətin əsas atributlarından olan Azərbaycan dili xalqımızın mənəvi sərvəti, milləti öz keçmişinə bağlayan, gələcəyə səsləyən əbədi varlıqdır. Kökümüz, milli mədəniyyətimiz, ən nəhayət, əxlaqımızdır. Hələ neçə yüz illər bundan öncə bu dilin varlığı və saflığı uğrunda mübarizə aparmış I Şah İsmayıl Səfəvinin Azərbaycan dövlətçiliyində bu sahədəki rolunu yüksət dəyərləndirən

ümummilli lider Heydər Əliyev demişdir: "Şah İsmayıl görkəmli dövlət xadimi, siyasi şəxsiyyət, Azərbaycanı birləşdirən insandır. Azərbaycanın qədim dövlətçiliyi Şah İsmayılın adı ilə bağlıdır". Böyük rus şairi M.Y.Lermontov Qafqazda olarkən dostu S.A.Rayevskiyə yazırdı ki, Avropada fransız dilini bilmək nə qədər vacibdirsə, Qafqazda da Azərbaycan dilini bilmək o qədər zəruridir. Çar Rusiyasının müstəmləkə buxovundan qurtulan ölkəmizdə - yenicə müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 27 iyun 1918-ci il tarixli qərarı ilə o zaman türk dili adlanan Azərbaycan dilini dövlət dili elan etmişdir.

Dünya xalqlarının qədim dövrdən bu tarixinə nəzər salsaq görərik ki,hər bir xalqın milli mənəvi dəyərlərini yaşadan,onun milli varlığını qoruyub saxlayan,daha da inkişaf etdirən onun milli dilidir. Qədim dövlətçilik tarixi olan Azərbaycanda Ana dilimiz xalqımızın keçdiyi bütün tarixi mərhələlərdə bəzi çətinliklərə baxmayaraq qorunub saxlanılmış və yaşadılmışdır. Ana dilimiz Azərbaycan xalqının ən böyük milli və mənəvi sərvətidir. Ana dilimiz digər dövlət atributları qədər əziz və müqəddəsdir. Dövlət dili sahəsindəki fəaliyyətə Heydər Əliyev Azərbaycanda rəhbərliyə gəldiyi ilk günlərdən başlamışdır.

Azərbaycan ədəbi və xalq danışıq dilini dərindən bilən, Heydər Əliyevsovet ideologiyasının qoyduğu qadağalara baxmayaraq yüksək səviyyəli yığıncaqlarda, dövlət səviyyəsində aparılan başqa müşavirələrdə ana dilində parlaq çıxışlar edərək, özünə böyük hörmət və məhəbbət qazanmışdır.

1970-ci illərin ortalarından başlayaraq SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi başlanmışdır. O zaman SSRİ məkanında Rus dilinin timsalında "vahid dil" siyasəti daha geniş şəkildə təbliğ və tətbiq olunurdu. Belə bir şəraitdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq çox riskli və qorxulu idi. Ancaq buna baxmayaraq, o vaxt Azərbaycan Respublikasının rəhbəri olan Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə bildirmişdi.

1977-ci ildə təsdiq edilən SSRİ-nin yeni Konstitusiyasına əsasən bütün respublikalarda hazırlanan yeni konstitusiyalar üçün baza rolunu oynamalı idi. Həmin Konstitusiyada isə elə əvvəldən dövlət dili haqqında maddə yox idi.

1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanununun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir."

Nəticədə Azərbaycan Konstitusiyası böyük tarixi şəxsiyyət Heydər Əliyevin təklif etdiyi şəkildə qəbul olundu və Azərbaycan dili dövlət dili statusu aldı. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi ümummilli lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir.

1993-cü ildə yenidən siyasi hakimiyyətə gələn Heydər Əliyev digər sahələrdə olduğu kimi, milli mənəvi dəyərlərimizin qorunması, adət-ənələrimizin, milliliyimizin inkişafı məsələsini diqqətdə saxlamışdır. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər irəli sürülmüşdür.

Geniş müzakirələrdən sonra 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapmışdır. Bundan sonra ana dilimizin inkişafı və qorunması işi daha da gücləndirilmişdir. Ulu öndər Heydər Əliyev 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalamışdır.Tarixi əhəmiyyət kəsb edən bu sənəd dilimizin inkişafı və tətbiqi sahəsində meydana çıxan problemlərin həllində mühüm rol oynamışdır. Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti Respublikamızın Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

## HEYDƏR ƏLİYEVİN ELM VƏ TƏHSİL SİYASƏTİ

***Fətullayeva S.A.***
*Sumqayıt Dövlət Universiteti*

Müasir sivil dünya gerçəklikləri ilə çulğaşan fəal maarifçilik kursunun həyata keçirilməsi, mütərəqqi yeniliklərin tətbiq olunması yolu ilə milli təhsil sisteminin müasirləşdirilməsi, dövlət idarəçiliyi üçün yüksək mənəvi-əxlaqi keyfiyyətləri, intellekti, savadı ilə fərqlənən ixtisaslı kadrların yetişdirilməsi məsələləri ulu öndər Heydər Əliyevin fəaliyyətinin bütün mərhələlərində prioritet məsələlərdən olmuşdur. Ümummilli lider hələ Azərbaycana birinci rəhbərliyi dövründə böyük uzaqgörənliklə həyata keçirdiyi elm, təhsil və mədəniyyət siyasəti müstəqillik illərində milli ziyalı elitasının intellektual potensialının yüksəkliyində özünü göstərməklə, aparılan islahatların praktik nəticələr verməsini təmin etmişdir

Heydər Əliyev peşəkar strateq olaraq daim qeyd etmişdir ki, intellektual baza istənilən ölkədə dövlət müstəqilliyinin əsasını təşkil edən mühüm amillərdən biridir. Ulu öndərin yeritdiyi siyasətin uzaq hədəflərə hesablanması da məhz onun dərin elmi prinsiplər üzərində qurulması, zəngin intellektual potensiala söykənməsi ilə şərtlənir. Cəmiyyətin tərəqqisinin, elm, mədəniyyət və mənəviyyatın inkişafının ən qüdrətli vasitəsi rolunu oynayan elm və təhsilə qayğının artırılması, bu işə dövlət siyasətinin üstün istiqaməti kimi yanaşılması Heydər Əliyevin rəhbər və vətəndaş epoxasının ümdə qayəsini ifadə edən önəmli cəhət kimi bu gün də böyük rəğbətlə xatırlanır.

Ümumilli Lider Heydər Əliyev istər Sovet rejimi dövründə Azərbaycana rəhbərlik etdiyi zamanda olduğu kimi, müstəqillik əldə etdikdən sonra da Azərbaycanda elmin və təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərmişdir. Heydər Əliyev haqlı olaraq hakimiyyəti dövründə hesab edirdi ki, hər bir millətin yaşaması, inkişafı və dünya xalqları sırasında layiqli yer tutması üçün ən önəmli məsələ onun elmi və təhsilidir. Dünya təcrübəsində inkişaf etmiş ölkələrin təməlində elm və təhsil dayanır. Əgər bir milləti məhv etmək istəyirsənsə onun elmini, təhsilini məhv etmək kifayətdir.

Heydər Əliyev siyasi fəaliyyəti dövründə elm və təhsili inkişaf etdirməklə Azərbaycan xalqını məhv olmaqdan xilas etməyə nail ola bildi. Azərbaycana rəhbərliyin ilk illərində Heydər Əliyev Sovet rejiminin törətdiyi maneələrə baxmayaraq ölkədə təhsil islahatları aparılmasının zəruriliyini ön plana çəkərək, hər bir inkişafın elm və təhsildən asılı olduğunu qeyd edirdi. Ulu öndərin hakimiyyəti dövründə elm və təhsil sahəsində həyata keçirilən

islahatlar proqramına əsasən fəaliyyətin prioritet istiqamətlərini araşdıran zaman, Heydər Əliyevin təhsil strategiyasının nə qədər fundamental bir konsepsiya olduğu aydınlaşır. Tarixən sübut olunmuşdur ki, milli intibahın təminatında başlıca vasitə sayılan elm və təhsil cəmiyyətdə bir çox problemlərin həllində əsaslı rol oynayır.

Dünyəvi təhsil standartlarına inteqrasiya etmək yolunu tutan Azərbaycanda müstəqilliyin bərpasından sonra bu strateji sahəyə milli təhlükəsizliyin mühüm amillərindən biri kimi xüsusi diqqətin yetirilməsi bu nəticəyə gəlməyə əsas verir ki, ölkədə elm və təhsil problemləri ümumi inkişaf və dövlət siyasəti ilə vəhdət təşkil edir. Müasir beynəlxalq münasibətlərdə ğüclü mövqe tutmaq, uğurlar qazanmaq üçün dünyanın sivil dövlətləri ilə diplomatik əlaqələrin yaradılması, sosial-iqtisadi, mədəni, elm-təhsil və digər sahələrdə beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın yüksək səviyyədə qurulması zəruridir. Bunun üçün də təhsil sistemində köklü islahatlar aparılması Ulu öndər tərəfindən əsas məqsədə çevrilmişdir. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda elm və təhsillə bağlı həyata keşirilmiiş siyasət artıq real şəkildə özünün müsbət təzahürünü göstərməkdədir.

Bütün bunları nəzərə alan Heydər Əliyev hələ kecən əsrin 70-80-ci illərindən təhsil məsələni daim diqqət mərkəzində saxlamış və bu sistemdə ciddi islahatlar həyata keçirilmişdir. Nəticədə hətta Azərbaycanın ucqar yaşayış məskənlərində yüzlərlə orta ümumtəhsil məktəbləri açılmış, minlərlə azyaşlı uşaqlar təhsilə cəlb edilmişdir. Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə ali təhsilin inkişafını həmişə diqqət mərkəzində saxlamışdır. O zaman Azərbaycanda 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı qısa bir zamanda 70 min nəfərdən 100 min nəfərə qədər artmışdır.

Məhz Heydər Əliyevin təşəbbüsü nəticəsində 1970-ci ildən başlayaraq hər il yüzlərlə azərbaycanlı gənc kecmiş SSRİ-nin ayrı-ayrı ali məktəblərində müxtəlif ixtisaslar üzrə (xüsusilə də o zaman Azərbaycanda olmayan ixtisaslar üzrə) təhsil almağa göndərilmişdir. Heydər Əliyev bu siyasəti davam etdirərək müstəqillik illərində hakimiyyəti dövründə də elm və təhsilin inkişafına həmişə diqqət və qayğı göstərmişdir.

Müstəqillik dövründə Heydər Əliyevin "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təhsil sisteminin inkişafında mühüm rol oynamışdır. Bu zaman "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və təhsilin səviyyəsinin inkişaf etdirilməsi istiqamətində müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə elm ilə təhsilin müasir dünya standartlarına uyğun olaraq inteqrasiyası istiqamətində də çox önəmli işlər görülmüşdür. Aparılan təcrübə göstərir ki, elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür. İnkişaf etmiş ölkələrin inkişafı da göstərir ki, ciddi təhsil sistemi olmayan ölkələrdə yüksək keyfiyyətə malik elmi tədqiqatlar haqqında danışmaq yersizdir.

Heydər Əliyevin təhsil siyasəti konsepsiyasının nəticəsidir ki, ali məktəblərimizdə təhsil alan gənclərin son dövrlər elmə, elmi tədqiqatlara olan marağı daha da artmaqdadır.

Artıq müstəqillik əldə etdikdən sonra Azərbaycanın elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin minlərlə əməkdaşı ABŞ, Böyük Britaniya, Polşa, Rusiya, Türkiyə, Almaniya, Yunanıstan və başqa ölkələrdə Azərbaycan elmini yüksək səviyyədə təmsil edirlər. Keyfiyyətli orta təhsili olmayan, insanların ciddi elmi araşdırmalar aparması qeyri-mümkündür. Elm və təhsilə göstərilən diqqətin nəticəsidir ki, ümummilli lider Heydər Əliyev özünün milli dövlət quruculuğu strategiyasında təhsil siyasətinə dövlətçiliyin əsas prinsiplərindən biri kimi yanaşmış, bu sahənin inkişafına həmişə diqqətlə yanaşmışdır.

Azərbaycan elminin və təhsilinin dünya standartına uyğun inkişafı istiqamətində Ümummilli Lider Heydər Əliyevin həyata kecirdiyi siyasət və əldə olunmuş naliyyətlər bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən inkişaf və davam etdirilir.

## HEYDƏR ƏLİYEV VƏ İSLAMİ DƏYƏRLƏRİN QORUNUB SAXLANMASI

***Hacıyev N.M.***
*Gəncə Dövlət Universiteti*

İslam dəyərlərinin qorunub saxlanması, dini bayraq altında xalqın və dövlətin əleyhinə fəaliyyət göstərən qüvvələrə qarşı ruhanilərin mübarizə aparması üçün 1997-ci ildə Qafqaz Müsəlmanları İdarəsində tanınmış elm və din xadimlərinin «Elmi-dini Məsləhət Şurası» yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin milli mənəvi dəyərlərin inkişaf etdirilməsi və möhkəmləndirilməsi istiqamətində imzaladığı mühüm sənədlərdən biri də 21 iyun 2001-ci il tarixli 512 saylı fərmanı olmuşdur. Bu fərmanın məğzini Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin yaradılması haqqında problemlərin həlli təşkil edir. Bu fərmanda Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin prinsip və müddəaları rəhbər götürülmüşdür.

Heydər Əliyevin milli mənəvi dəyərlərə, o cümlədən onun bir hissəsi olan milli ədəbiyyat və incəsənətə olan diqqət və qayğısı bu sahələrin düşünüldüyündən də tez bir müddətdə dirçəlişinə səbəb oldu. Belə ki, onun göstərişi ilə ədəbiyyat və incəsənətimizin qorunması və inkişafı naminə Azərbaycanın istər klassik, istərsə də müasir görkəmli ədiblərinin, bəstəkarlarının, rəssam və heykəltəraşlarının təntənəli sürətdə yübileyləri keçirilir və sənətləri yüksək qiymətləndirilirdi. Misal olaraq 1994-cü il martın 17-də Füzulinin 500 illik, «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik, Cəlil Məmmədquluzadənin 125 illik, 1996-cı il avqustun 30-da Əliağa Vahidin anadan olmasının 100 illik, 1997-ci il martın 7-də Səməd Vurğunun anadan olmasının 90 illiyi münasibətilə yubileylərin dövlət səviyyəsində qeyd olunmasını göstərmək olar. Beləliklə, Heydər Əliyevin musiqi, teatr, xoreoqrafiya, rəssamlıq, heykəltəraşlıq sahələrinin inkişafı istiqamətində gördüyü işlər, imzaladığı fərmanların tarixi əhəmiyyəti, ədəbiyyat və incəsənət xadimlərinin daimi dövlət qayğısı ilə əhatə olunduğunu göstərmək olar.

Heydər Əliyevin milli mənəvi dəyərlərin qorunması və inkişafı üçün müəyyənləşdirdiyi uğurlu siyasi kursun layiqli varisi və peşəkar siyasətçi prezident İlham Əliyev tərəfindən inamla davam və inkişaf etdirilməsi Azərbaycan xalqının arzu və iradəsini

əks etdirir. Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyev keçirdiyi görüşlərdə və çıxışlarda dəfələrlə bildirmişdir ki, ümummilli liderimiz Heydər Əliyevin siyasi kursuna sadiq qalacaq, milli mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsində səylərini əsirgəməyəcəkdir.

## HEYDƏR ƏLİYEV-MUZEYLƏRİMİZİN QURUCUSU

***Heydərova Ç.A.***

*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*

Heydər Əliyev-ağlı kamalı, həssas ürəyi, məsləki, amalı ilə seçilən, adını Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazmış dahi şəxsiyyət, dünya şöhrətli siyasətçi, xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu. Bütün həyat və fəaliyyətini Azərbaycan xalqının və ölkəmizin hərtərəfli inkişafına və çiçəklənməsinə, dövlət quruculuğuna, müstəqil dövlətçiliyin möhkəmlənməsinə və yüksəlməsinə, Azərbaycan mədəniyyətinin və incəsənətinin bütün dünyada tanınmasına həsr etmişdir. Bu dahi insanı, ümummilli liderimizi yad edərkən, onun xidmətlərini xalqımıza verdiyi töhfələri, bütün sahələrə göstərdiyi qayğını qeyd etmək hər birimizin borcudur.Ulu öndərimizin hakimiyyəti dövründə Azərbaycanda bütün sahələrdə dinamik inkişaf baş verdiyi kimi, milli mədəniyyətimiz də yüksək inkişaf pilləsinə qalxmışdır. Heydər Əliyev mədəniyyəti xalqın böyük sərvəti hesab edirdi. O deyirdi ki, "xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir". Ona görə də mədəni-mənəvi dəyərlərimizin qorunması, təbliğinə xüsusi diqqət göstərirdi. Mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, Heydər Əliyevin qayğısından yan keçsin. Mən də bir muzeyşünas olaraq bu dahi şəxsiyyətin mədəniyyət və və incəsənətimizin əsas sahələrindən biri olan maddi-mənəvi incəsənət nümunələrimizin qorunub saxlanıldığı muzeylərimizə, muzey işinə və muzeyğünaslıq elminin inkişafına göstərdiyi qayğıdan bəhs etmək istərdim.Artıq hər bir sözü bizim üçün bir kəlama çevrilmiş öndərimizin bir fikrini xatırlamaq istərdim: "Öz mədəni irsini qoruyub saxlaya bilməyən xalq nəyə qadir olduğunu heç vaxt sübut edə bilməz.Bunun üçün **milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır".Bununla o xalqımızı və dünyaya gələcək yeni nəsillərimizin milli-mədəni sərvətlərimizə qayğıyla yanaşmağı və onu göz bəbəyimiz kimi qoruyub saxlamğa səsləyirdi.**

Azərbaycana rəhbərliyinin I mərhələsində (70-80-ci illər) Heydər Əliyevin göstərdiyi qayğı nəticəsində muzeylərimiz inkişaf etmiş, onların sayı artmış, maddi-texniki bazası genişlənmişdir.Həmin dövrlərdə Azərbaycanın görkəmli şəxslərinin Bakıda xalq şairi S.Vurğunun, yazıçı ictimai xadim N.Nərimanovun, C.Cabbarlının , Azərbaycanın vokal sənətinin banisi,dünya şöhrətli müğənni Bülbülün (həmçinin Şuşada), Naxçıvanda drammaturq H.Cavidin,M.S.Ordubadinin,akademik Y.Məmmədəliyevin ev muzeyi yaradıldı. 80-ci ildə muzey işinə dair qəbul etdiyi qərardan sonra bu iş daha da sürətlənmişdir. Muzeylərə rəhbərlik işinin təkmilləşdirilmək,metodiki və praktiki köməyinin

səmərəsini artırmaq, fond işi və ekspozisiyaların estetik səviyyəsini yüksəltmək və muzey sərvətlərinin uzun ömürlülüyünü artırılmasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyində Muzeylər İdarəsi,Muzey üzrə Respublika Elmi-Metodiki Mərkəz,Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi bərpa Mərkəzi,Muzeylərin Bədii Tərtibatı Müəssisəsi yaradıldı. Azərbaycanın bir çox rayonlarında tarix diyarşünaslıq muzeyləri fəaliyyətə başladı.Bununla yanaşı diyarşünslıq muzeyləri ilk dəfə olaraq ekspozisiya bölmələrindən əlavə fond bölmələri, kitabxana arxiv yardımçı kabinələr və emalatxanalarla təmin olundu. Bu uğurlu addımların nəticəsi olaraq muzeylərimizin sayı o dövrdə 38-dən 128-ə çatdırılmışdır. Hətta SSR dövlətləri içərisində bu sahədə ölkəmiz öndə gedirdi.

1991-ci ildə yenidən öz müstəqilliyinə qovuşan Azərbaycan Respublikası muzey işi sahəsində də siyasət yeritməyə başladı. Bu sahədə yeni qanunlar, əsasnamələr, təlimatlar, tövsiyələr və normativ-hüquqi sənədlər hazırlandı.Yeni muzeylər yaradıldı, muzeylərimizin yeni tələblərə uyğunlaşdırılması mövcud ekspozisiyaların müasir tələblər baxımından təkmilləşdirilməsi üzrə işlər aparılmağa başladı. Artıq muzeylərimizin ekspozisiyası Sovet hakimiyyətinin tələblərinə uyğun deyil, azərbaycançılıq məfkurəsinə uyğun qurulmağa başlanıldı. Oğurlanaraq ölkədən kənara çıxarılmış, dünyanın bir çox muzeylərində nümayiş olunan eksponatların bəzilərinin geri qaytarılması üçün addımlar atıldı.1992-ci ildə Beynəlxalq Muzeylər Şurasının ( İCOM ) Azərbaycan Milli Komitəsi təsis edildi.

1993-cü ildə Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra o dövrdə ağır iqtisadi çətinliklərə baxmayaraq muzeylərimizdən də diqqət və qayğısını əsirgəmədi.1994-cü ildə muzey işçilərinin müşavirəsinin tövsiyyələrini nəzərə almaqla "Respublikada muzey işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etdi. Bu qərar Azərbaycanda muzey inkişafı üçün zəmin yaratdı.1998-ci ildə “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Konstitusiyasının və “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” qanunun, 2000-ci ilin mart ayında isə respublikamızda ilk dəfə olaraq "Muzeylər haqqında" qanunu qəbul edilməsi bu inkişafı daha da sürətləndirdi. Bunun nəticəsi idi ki, 2003-cü ildə muzeyllərimizin sayı 160 çatdırılmışdır.

Hazırda respublikamızın muzey işinin inkişaf etdirilməsi istiqamətində lazimi işlər görülür. Ulu Öndər Heydər Əliyevin qoyduğu bu ənənə onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilir.Prezidentimizin milli-mənəvi sərvətlərimizin qorunub saxlanılmasına göstərdiyi qayğının bariz nümunəsi bu sahəyə dair qəbul etdiyi sərəncam və qanunlardır .

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ MƏDƏNİ İRSİMİZ

***Həmzəyeva N.Q.***
*Gəncə Dövlət Universiteti*

Azərbaycan bəşər mədəniyyətinin yaranmasında və tərəqqisində öz yeri və öz payı olan sonsuz gözəlliklərə, ecazkar və təkrarsız təbiətə, iqtisadi potensiala malik bir ölkədir. Hazırda respublikamız dünyanın ən böyük enerji layihələrinin həyata keçirildiyi bir ölkə kimi nəinki özünün, eyni zamanda daxil olduğu Qafqaz və Xəzər regionun dünya birliyinə inteqrasiyasında mühüm rol oynayır. Azərbaycanın qədim, rəngarəng mənəvi dəyərləri,

mədəni irsi hazırda xalqın fəxri və dünya mədəniyyətinə töhfəsi qismində çıxış edir. Bu sahəyə dövlət qayğısının gündən-günə artması və beynəlxalq təcrübənin tətbiqi istiqamətində görülən işlər qeyri-maddi mədəni irsin gələcəyinə nikbin baxmağa ümidləri artırır. Azərbaycan xalqı azad və suveren dövlət quraraq mədəni iqtisadi islahatlar aparmaqla öz milli-əxlaqi dəyərlərinə, tarixinə qayıdır, demokratik ölkələrin təcrübələrindən istifadə edir. Mədəni irsimizin qorunub saxlanılmasında, inkişaf etdirilməsində, təbliğində, dünya miqyasında tanınmasında ümummilli lider Heydər Əliyevin müstəsna tarixi xidmətləri vardır.Bir qərinəlik bu dövr Azərbaycan tarixinə Heydər Əliyev dövrü kimi əbədi həkk olunmuşdur. Bu illərdə Heydər Əliyevin dəst-xətti ilə Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələri yazılmışdı. Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, dövlət müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin misilsiz fəaliyyəti sayəsində mümkün olmuşdur. Heydər Əliyev müdrik rəhbərliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi kimi tanınımış, Azərbaycan xalqının ümummilli liderinə çevrilmişdir. Bütün həyatı boyu öz xalqına sədaqətlə xidmət etmiş Heydər Əliyevin ömür yolu hər bir azərbaycanlı üçün örnəkdir.

"Bizim hamımızın bir vətəni var – bu, Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır. Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında, tərbiyələndirmək mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır.Yalnız milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın bitkin inkişaf proqramı ola bilər". Heydər Əliyev nəinki bu proqramı yaratdı, həm də onu qəbul etdirdi. "Mən fəxr edirəm ki, azərbaycanlıyam"–deyən ulu öndər bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu. Hələ sovetlər dönəmində tariximizin qədimliyi və zənginliyinin mühüm göstəricisi olan tarixi abidə və eksponatların qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi məqsədilə Azərbaycanın bütün bölgələrində tarix – diyarşünaslıq muzeylərinin yaradılması haqqında sərancam imzaladı. Azərbaycan folklorunun daha dərindən araşdırlması, aşıq sənətinin inkişafı, milli mərasimlərimizin təbliği istiqamətində ciddi tədbirlər həyata keçirdi. İti fəhmi ilə gələcək müstəqilliyi duyub – hiss edən Heydər Əliyev o illərdə milli-mənəvi intibah üçün zəmin hazırlayırdı.Azərbaycan müstəqillik qazandıqdan sonra bir müddət mədəniyyətimiz böyük çətinliklər qarşısında qalsa da, Ulu öndər Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı sanki Azərbaycanın mədəniyyətnini tərəqqisinə yeni təkan verdi. Sosial problemlər ucbatından xarici ölkələrə üz tutan sənət adamları Vətənə döndülər. Onlara xüsusi qayğı göstərilməyə başlandı. Bağlanmış teatrlar, kitabxanalar, muzeylər öz qapılarını yenidən tamaşıçıların üzünə açdı. Ulu öndərin hakimiyyəti illərində muzey və kitabxana işi, rəssamlıq, heykəltəraşlıq və memarlıq sənəti sürətlə inkişaf etmişdir.Azərbaycan xalqının milli ədəbiyyatında özünün əlamətdar yerini tutmuş "Kitabi-Dədə Qorqud" dastanının 1997-ci ildə 1300 illik yubileyinin keçirilməsi Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qədim və zəngin köklərə məxsus olmasını nümayiş etdirən ən böyük hadisələrdən biri olmuşdur. Bu

yubileyin keçirilməsi ideyasının müəllifi və təşkilatçısı olan Heydər Əliyev bu haqda qeyd etmişdir: "Biz öz tariximizlə, mədəniyyətimizlə, ədəbiyyatımızla fəxr edirik və fəxr etməyə haqqımız vardır. Çünki "Kitabi-Dədə Qorqud" dastanı kimi bir elm, mədəniyyət və ədəbiyyat abidəsi olan xalq öz tarixi ilə fəxr edə bilər".

Azərbaycan mədəniyyətinin ən böyük nailiyyətləri görkəmli ictimai-siyasi xadimi, mütəfəkkir, maarifçi, sözün əsl mənasında böyük ziyalı Heydər Əliyevin adı ilə bağlıdır. Məhz buna görə də Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrü mədəniyyətimizin tarixində yeni intibah dövrü adlandırmaq olar. Heydər Əliyev görkəmli mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərinin fəaliyyəti ilə həmişə maraqlanmış, onlara qayğı göstərmiş və hər cür şərait yaratmağa çalışmışdır. Eyni zamanda onların dünya mədəniyyəti səviyyəsinə yüksələn yaradıcılığı səhifəsini ön plana çəkməklə Azərbaycan mədəniyyətinin son dərəcə zəngin olduğunu sübut etməyə əsas diqqət verməyi tələb etmişdir: "Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq". Azərbaycan təhsilinin, bütövlükdə mədəni irsimizin, milli-mənəviyyatımızın inkişaf etdirilməsində, təhsil sisteminin, elmin inkişafının genişləndirilməsində, milli kadr potensialının yetişdirilməsində, onun dünya miqyasında tanıdılmasında, təhsil, elm, şəbəkəsinin ilbəil genişləndirilməsində milli təhsil quruculuğunun, əvəzsiz himayəçisi və ideoloqu, görkəmli maarifçi, böyük ziyalı ümummilli lider Heydər Əliyevin müstəsna xidməti vardır və o, elmimizin, təhsilimizin, mədəniyyətimizin inkişaf mərhələsinə öz əbədi imzasını qoymuş tarixi şəxsiyyətdir.

Müstəqil Azərbaycan Respublikası zəngin mədəni irsini, ənənələrini davam etdirərək dünyanın mədəni cəhətdən inkişaf etmiş qabaqcıl ölkələrindən birinə çevrilmişdir. İftixarla demək lazımdır ki, bütün bu müvəffəqiyyətlər məhz ümummilli lider Heydər Əliyevin daxili və və xarici siyasətinin uğurla həyata keçirilməsinin, xalqın mədəni irsinin, intellektual potensialının, bütövlükdə mədəni quruculuq sahəsində fədakar əməyinin və təşkilatçılıq bacarığının nəticəsidir.

## V.QRİQORYEVİN "NAXÇIVAN ƏYALƏTİNİN TƏSVİRİ ƏSƏRİ" NAXÇIVAN ŞƏHƏRİNİN TARİXİNİN ÖYRƏNİLMƏSİ MƏNBƏYİ KİMİ

***Həsənov C.H.***

*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

1997-ci ildə Ulu Öndər H.Ə.Əliyev Respublika Elmlər Akademiyasının aparıcı alimləri ilə məşhur görüşündə Azərbaycanımızın XIX-XX əsrlər tarixinin mötəbər qaynaqlar əsasında obyektiv surətdə araşdırılmasını vətən tarixşünaslığının qarşısında mühüm vəzifələrdən biri kimi qoymuşdur.

Məlumdur ki, hər hansı bir xalqın sosial-iqtisadi, ictimai-siyasi, və mədəni-mənəvi həyatında şəhərlər xüsusi rol oynamışdır və oynamaqdadır. Vətənimizin və dünyanın ən qədim tarixə malik olan şəhərlərindən biri olan Naxçıvanımızın tarixinin obyektiv şəkildə, sistemli olaraq öyrənilməsi baxımından böyük elmi əhəmiyyətə malik olan mötəbər qaynaqlardan biri də XIX əsrə aid olan rusdilli statistik nəşrlərdir. Bunların sırasında XIX

əsrin 30-cu illərində işıq üzü görmüş müxtəlif təsvirlər, “Qafqaz təqvimləri”, çoxsaylı kameral siyahıyaalmalar, İ.Şopenin məlum “Tarixi yaddaş”ı, 1886-cı il ailə siyahıyaalması, 1897-ci ilin yanvarında Rusiya imperiyasında keçirilmiş ümumi əhali soyqırımının materialları və b. göstərmək olar. Yuxarıda adları sadalanan nəşrlər içərisində imperator I Nikolayın (1825-1855) şəxsi icazəsi ilə 1833-cü ildə Rusiya imperiyasının paytaxtı Sankt-Peterburq şəhərində Xarici Ticarət Departamentinin mətbəəsində çap olunmuş “Naxçıvan əyalətinin V.Qriqoryev tərəfindən tərtib olunmuş təsviri əsəri” Naxçıvan şəhərinin XIX əsr tarixinin öyrənilməsi üçün çox böyük əhəmiyyətə malik qaynaqdır.

Kitabın ilk səhifəsində çar senzoru N.Butırskinin 19 fevral 1833-cü il tarixli belə bir qeydi məxsusi şəkildə çap olunub: “Bu şərtlə çapına icazə verilib ki, çap edildikdə sonra üç nüsxə senzura komitəsinə təqdim olunsun”. 264 səhifədən ibarət olan bu kitab “Naxçıvan əyalətinin vəziyyəti, sərhədləri, sahəsi və bölgüsü” adlı giriş yarımfəsli ilə başlayır. Qalan mətn iki şöbəyə bölünmüşdür:

1-ci şöbə: Naxçıvan dairəsinin təsviri

2-ci şöbə: Ordubad dairəsinin təsviri

Əsərin 1-ci şöbəsində Naxçıvan dairəsinin, o cümlədən də eyniadlı şəhərin ərazisi, coğrafi mövqeyi, iqlimi, əhalisi, əhalinin etnik, sosial, dini və dil tərkibi, ayrı-ayrı xalqların xarakteristikası, dairənin inzibati-ərazi bölgüsü, idarəçiliyi (o cümlədən xanlıq dövründəki mülki və polis idarəçiliyi), iqtisadi və maliyyə durumu, tarixi abidələri, vergi sistemi və s. haqqında çox qiymətli və maraqlı məlumatlar verilir.

Əsərin 30-cu səhifəsində Naxçıvan şəhərinin coğrafi hüdudları və mövqeyi belə təsvir olunur: “Arazın sol sahilindən 6 verst məsafədə yerləşir. Sərhədləri: Şaxtamuş Əliabad, Qaraçuq, Bulqan, Tumbul, Qoşadizə və Naxçıvançay çayı.” Elə buradaca şəhərdə 386 müsəlman ailəsinin (həyətin) yaşadığı, bunlardan 234 ailənin kəndlilərə məxsus olması, qısa müddətdə buraya intensiv köçürmələr nəticəsində 416 erməni ailəsinin gətirildiyi, burada köçürmələrədək daha 120 erməni ailəsinin yaşadığı haqqında məlumatlar verilib. Həmin materiallar cəmi 922 ailənin (həyətin) qeydə alındığı Naxçıvan şəhərində torpaq sahibləri olan xanların və b. (Ehsan xan, İsa sultan, Novruz ağa, Cəfərqulu bəy, Əliməmməd ağa, Məmmədəli bəy, Rəhim bəy və b.) adları, habelə Qacarların yanına qaçmış Zaman xan və Məmməd bəyin torpaqlarının çar xəzinəsinin ixtiyarına keçməsi haqqında məlumatlar öz əksini tapıb.

Əsərin 82-84-cü səhifələri buraya köçürülmüş ermənilər haqqında məlumatlardan ibarətdir. Burada bildirilir ki, Türkmənçay müqaviləsinə əsasən Naxçıvan şəhərinə 416, eyni adlı dairənin kəndlərinə 1869, Ordubad dairəsinə isə 266 erməni ailəsi köçürülüb yerləşdirilmişdir.

Bütövlükdə götürüldükdə V.Qriqoryevin bu qiymətli əsəri Naxçıvan şəhəri və Naxçıvan əyaləti haqqında XIX əsrdə tərtib olunmuş ilk sanballı, sistematik və ətraflı bir statistik qaynaq olub bu bölgənin obyektiv tarixinin yazılmasında böyük rol oynaya bilər.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ƏDƏBİYYAT SİYASƏTİ VƏ BÖLÜNMÜŞ VƏTƏN MÖVZUSU

***Hüseynova A.H.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev özünün ədəbiyyat siyasətində bölünmüş vətən mövzusuna xüsusi diqqət yetirmişdir. Dahi şəxsiyyətin ədəbiyyat siyasəti iki mühüm problemi əhatə edir.

1. Bölünmüş vətən mövzusunda yazan Şimali Azərbaycan yazarlarına və Cənubi Azərbaycan mühacirləri olan yaradıcı şəxsiyyətlərə qayğı;
2. Yazıçı və şairlərin bölünmüş vətən mövzusunda yazmaları üçün şəraitin yaradılması.

Böyük qəlbində daim bölünmüş vətən dərdi gəzdirən Heydər Əliyev öz siyasətilə milli-mənəvi bütövlük və vəhdət ideyaları təlqin edirdi.

Rusiya imperiyası və İran şahənşahlığının bir xalqı iki yerə parçalaması, bölünmüş vətənin rəmzi olan Arazın sərhəd rolu oynaması xalqı daim qəzəbləndirir, Azərbaycanı bölənlərə nifrət yaradırdı:

Araz, Araz, xan Araz!
Dağlardan axan Araz
Qardaşdan ayrı saldın,
Evimi yıxan Araz.

Arazı ayırdılar,
Qan ilə doyurdular.
Mən Sizdən ayrılmazdım,
Zor ilə ayırdılar.

Beynində, şüurunda Araz haqqındakı bu əfsanələr, bayatılar H.Əliyev kimi vətənpərvər bir şəxsiyyətdə bütöv, vahid Azərbaycan ideyası yaratmışdı. H.Əliyev şimallı və cənublu azərbaycanlıları vəhdətdə görürdü və deyirdi ki, fərqi yoxdur bizim aramızda bir Araz var. Aramızı Araz kəsmədi, bizi parçaladılar.Ulu Öndər hər iki tayda yaşayanların hamısı azərbaycanlı olduğuna görə birləşməyi, bir olmağı tövsiyə edirdi.Buna görə də onun ədəbiyyat siyasətində bölünmüş vətən mövzusunda yazmış B. Vahabzadə, S.Vurğun, M.İbrahimov, S.Rüstəm, M.S.Ordubadi, İ. Əfrəndiyev, Ə.Məmmədxanlı, Cəfər Xəndan kimi sənətkarların yaradıcılığına daim diqqət əsas yer tutur. Ulu Öndər Heydər Əliyev onların şəraitinin yaxşılaşdırmaq üçün ciddi tədbirlər görürdü.

Heydər Əliyev bölünmüş vətən mövzusunu ana mövzu hesab edərək mühacir yazıçı və şairlərə - B.Azəroğluya, Söhrab Tahirə, A.Makuluya yüksək qiymət verərək onları mükafatlandırdı, kitablarını nəşr etdirirdi.

Ulu Öndər eyni zamanda Cənubi Azərbaycanda yaşayan, yaradan sənətkarları-Məhəmməd Şəhriyarı, Səhəngi dəyərləndirir, Şimali və Cənubi Azərbaycan arasında ədəbi əlaqələri möhkəmləndirdi. Ulu Öndər Heydər Əliyev Azərbaycan və İranın ortaq mədəni irsindən danışanda Cənubi Azərbaycanda Təbrizdə yaşayıb-yaratmış məşhur şairimiz

Şəhriyar haqqında dəyərli sözlər demiş və anlatmışdır ki, Cənubdakı ədəbi irs Bütöv Azərbaycanın ümumi mənəvi sərvətidir.

H.Əliyev ərazisi, ədəbiyyatı, mədəniyyəti, iqtisadiyyatı, dövlətçiliyi ikiyə bölünən doğma xalqını vəhdətdə görmək istəyirdi.

Heydər Əliyev Azərbaycan ədəbiyyatını birlikdə götürərək hər iki tərəfin ədəbi-bədii prosesin qarşılıqlı əlaqəsini gücləndirdi, bölünmüş vətən mövzusuna, xalqın, millətin, vətənin taleyi ilə bağlı olan milli-mədəni hərəkat mövzusuna ana mövzu kimi yanaşdı, xalqın həsrət motivlərinə, birlik arzularına, ideallarına, cənubi azərbaycanlıların azadlığına yüksək önəm verdi, onun hər iki Azərbaycanda ədəbiyyatın səmərəli inkişafına təsir göstərməsini yüksək qiymətləndirdi. Heydər Əliyevin tövsiyəsindən sonra Şimali Azərbaycan mətbuatında bölünmüş vətən mövzusunda yazıların sayı artdı. Bölünmüş vətən mövzusu teatr səhnələrinə, KİV-nə gətirilirdi.

Ulu Öndər Heydər Əliyev bədii ədəbiyyata da, siyasətə də bölünmüş vətən və vahid Azərbaycan ideyasını gətirdi . XX əsrin sonlarında o, Azərbaycanın ikinci dəfə müstəqilliyi dövründə bölünmüş vətən mövzusuna ədəbi-bədii təfəkkürdə də, siyasi müstəvidə dəyişikliklər yaratdı. Bütün ideoliji-siyasi sistemlərdə H.Əliyev Cənubi Azərbaycana, bölünmüş vətən mövzusuna diqqət yetirir, xalqın milli şüurunu, Bütöv Azərbaycan idealını gücləndirirdi.

Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi zamanı Şimali və Cənubi Azərbaycan arasında mədəni, ədəbi əlaqələr genişləndi. Heydər Əliyev millilik, tarixilik, müasirlik prinsiplərinə əsaslanaraq ədəbiyyat siyasəti həyata keçirir, ədəbiyyat vasitəsilə milli-mənəvi bütövlüyü möhkəmləndirirdi. Bu dahi şəxsiyyət Azərbaycanı ədəbiyyat siyasətilə bütün dünyada şöhrətləndirdi. O, ədəbiyyat siyasətində tarixilik prinsiplərinə söykənərək Azərbaycan xalqına öz soykökünü, milli tarixi keçmişini və mənəvi dəyərlərini dərindən dərk etdirmiş, xalqımızın milli ləyaqət və qurur hisslərini yüksək zirvələrə çatdırmışdır.

Anadan olmasının 95 illiyini böyük təntənə ilə keçirdiyimiz Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətlərindən danışarkən onun bölünmüş vətən mövzusunda yazan şair və yazıçılara xüsusi diqqətini bir daha görürük.

## HEYDƏR ƏLİYEVİN VƏTƏN SEVGİSİ BİZ GƏNCLƏR ÜÇÜN ÖRNƏKDİR

***Hüseynova L.İ.***
*Sumqayıt Dövlət Universiteti*

Bütün ruhu, varlığı ilə öz xalqına, elinə-obasına bağlı olan ümummilli lider bir-birinə zidd olan siyasi quruluşlarda fəaliyyət göstərsə də, həmişə xalqını fikirləşmiş, onun gələcək müstəqilliyi naminə çalışmışdır. "Azərbaycanın dövlət müstəqilliyi sarsılmaz və dönməz olacaqdır" deyən ulu öndər Heydər Əliyev bütün həyat və fəaliyyətini ölkəmizin müstəqilliyinə, xalqımızın rifahına həsr etmişdir.

Müasir Azərbaycan bu gün demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunda inamla irəliləyir. Artıq çətin günlərimiz arxada qalmışdır. Ulu öndərin Azərbaycanın bu günü, sabahı üçün gördüyü işlər həyatımıza o qədər nüfuz edib ki, bu gün Azərbaycan

deyəndə ümummilli liderimiz, Heydər Əliyev deyəndə isə Azərbaycan başa düşülür. Həyatımızın hər anı üçün müstəqil Azərbaycanın qurucusu və memarı Heydər Əliyevə borcluyuq.

"Biz müstəqil Azərbaycan kimi əzəmətli bir abidənin təməlini qoyuruq, onu qururuq, yaradırıq. Onu indiki nəsillər üçün yaradırıq, gələcək nəsillər üçün yaradırıq. Bizim üzərimizə şərəfli vəzifə düşübdür və bunu layiqincə yerinə yetirməliyik" deyən ulu öndərimizin izləri onun şah əsəri olan müstəqil, qüdrətli Azərbaycanın hər yerində görünür.Bu gün Azərbaycanda əldə olunan nailiyyətlərin bir səbəbi var-o da ölkədə Heydər Əliyev yolunun uğurla davam etdirilməsidir. Həmişə azərbaycanlı olması ilə fəxr edən ulu öndər Heydər Əliyevin həyat yolu, Vətən sevgisi biz gənclər üçün örnəkdir.

İqtisadiyyatımızın inkişafı, abadlıq və quruculuq işləri, şəhər və kəndlərimizin simasının dəyişməsi sübüt edir ki, Prezident İlham Əliyev Heydər Əliyevin yolunu çox böyük uğurla davam etdirir.

Ümummilli liderimiz xalqın birliyi yolunda titanik fəaliyyəti hər bir soydaşımız üçün örnək olmalıdır. Biz Azərbaycanı sevməyi Heydər Əliyevdən öyrənmişik."Azərbaycan mənim ürəyimdir, nəfəsimdir" –deyən böyük öndərimiz millətimizin və dövlətimizin əbədiyaşarlığı üçün əvəzsiz bir siyasi xətt, ideoloji baza miras qoydu. Heydər Əliyevin həyat və fəaliyyəti böyük bir məktəbdir və daim öyrənilməlidir. Şükürlər olsun ki, ulu Tanrı xalqımıza Heydər Əliyev dühası kimi böyük şəxsiyyət qismət edib. Bu böyük şəxsiyyət həmişə xalqa arxalanır və deyirdi: "Xalq mənim dayağım, gücüm və inamımdır". Xalq yolunda canını fəda etmiş, bütün həyatı boyu Vətənini və millətini düşünmüş ümummilli liderimizin ideyaları daim yaşayacaq. Azrəbaycan xalqı, bütün türk dünyası onu heç vaxt unutmayacaq.

## HEYDƏR ƏLİYEV VƏ MÜASİR AZƏRBAYCAN TƏHSİLİ

***Xəlilova S.İ.***
*Sumqayıt Dövlət Universiteti*

Böyük şəxsiyyətlər hər hansı bir xalqın taleyində və inkişafında çox önəmli rol oynayırlar.

Buna ən böyük nümunə ulu öndərimiz Heydər Əlirza oglu və onun Azərbaycan xalqının bu günü və gələcəyi naminə həyata keçirdiyi taleyüklü işlərdir. Böyük şəxsiyyət Heydər Əliyev sözün əsl mənasinda xalqın milli təəssübkeşi idi. Hər zaman ən mötəbər kürsülərdə "Hər bir insanın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" deyən Heydər Əliyev ən böyük azərbaycanlı idi.

Ümummilli liderimiz millətin inkişafında elm və təhsilin inkişafını xüsusilə diqqət mərkəzində saxlayirdi. Azərbaycan təhsilinin yüksək sürətlə inkişafı ulu öndər Heydər Əliyevin adı ilə baglıdır. Azərbaycan xalqını çətin vəziyyətlədən xilas edən müdrik rəhbərimiz ölkədə bütün sahələrə oldugu kimi təhsil sahəsinə də xüsusi diqqət və qaygı ilə yanaşmışdı. Təhsil millətin gələcəyidir fikrinin bazasını da məhz onun təhsilimizə gösterdiyi qaygı dayanır.

XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin, təhsilin sürətlə inkişaf etməsidir.Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra elm və təhsilə göstərilən diqqət və qayğı elə ilk günlərdən bir daha özünü göstərib. Heydər Əliyevin tarixi qayıdışından sonra ölkədə hazırlanan və həyata keçirilən strateji xətt təhsil müəssisələrini normal fəaliyyət halına gətirməklə, təhsilin milli tərəqqimizin həqiqi, güclü amilinə çevrilməsi üçün bu sahədə geniş islahatlar proqramının işlənib hazırlanması və həyata keçirilməsi vəzifəsini irəli sürüb. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonrakı illərdə, bütün sahələrdə olduğu kimi, milli təhsil sahəsində də bir sıra uğurlar əldə edilib. Bu uğurların ilhamverici qüvvəsi və qarantı məhz Heydər Əliyev idi. Onun müdrik daxili və xarici siyasəti, yaratdığı sabitlik təhsilin inkişafına əlveişli zəmin yaradıb. Heydər Əliyev müstəqil Azərbaycanda milli təhsil quruculuğu sahəsində də islahatın memarı və qurucusu idi. Onun hakimiyyətə xilaskar missiyalı qayıdışı Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni həyatının bütün sahələrində olduğu kimi, təhsil sahəsində tənəzzülün, depresiyanın qarşısını almağa imkan verdi, təlim-tərbiyə müəssisələrinin ahəngdar işi bərpa olundu, təhsil sisteminin müstəqil dövlətçilik prinsipləri əsasında qurulmasına tarixi şərait yaranıb.Bu gün iftixarla demək olar ki, xalqımızı müstəqil inkişaf yoluna hazırlayan bütün sahələrdə olduğu kimi, milli təhsil sahəsində qazanılan böyük nailiyyətlərdə də ümummilli lider missiyasını, aradakı kiçik fasilə istisna edilməklə, XX əsrin 30 ildən artıq bir dövrünü öz qüdrətli çiyinlərində uğurla üçüncü minilliyə daşımış böyük şəxsiyyət Heydər Əliyevin müstəsna xidmətləri var. Müstəqillik illərində təhsil sahəsində beynəlxalq əlaqələr genişlənib və hazırda dünya təcrübəsi də öyrənilməklə Azərbaycanda təhsil sisteminin inkişafı üçün məqsədyönlü işlər görülür. Müasir Azərbaycan təhsili özünün zəngin tərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq milli təhsil quruculuğu sahəsində başladığı lazımi islahatları başa çatdıraraq, təhsil islahatlarının memarı və qurucusu Heydər Əliyevin layiqli davamçısı Azərbaycan prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha əzmlə həyata keçirir.

“Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur.Ancaq bundan da yüksək ad müəllimlikdir” deyən ümummilli lider Heydər Əliyev müəllimin ve təhsilin nüfuzunu qaldırmaq istiqamətində əvəzsiz xidmətlər göstərmişdir. Ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc keçmiş Sovet İttifaqının nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır. 1999-cu ilədək təhsil sahəsində müxtəlif qərarlar qəbul edilsə də, təhsilin milli tərəqqimizin güclü amilinə çevrilməsi üçün dövlət təminatı olmalı idi. Odur ki, 1998-ci ilin martında "Təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" sərəncam imzalandı və bunun ardınca "Təhsil sahəsində islahatlar Proqramı" qəbul edildi. Komissiyanın yekun iclasında çıxış edən Heydər Əliyev demişdir: "Təhsil sistemi elə bir

sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz.Ümumiyyətlə,bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri daşıyır".

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ GƏNC NƏSLİN TƏHSİLİ MƏSƏLƏLƏRİ

***Xiyalova N.B.***
*Azərbaycan Dillər Universiteti*

1969-cu ilin 14 iyulunda Azərbaycana rəhbər seçiləndən dərhal sonra Heydər Əliyev ilk növbədə gənclərin təhsili məsələləri ilə məşğul olmağa başlamış, həyatının sonuna kimi bu işi davam etdirmişdir.O, "Təhsil haqqında Qanun"a və "Təhsil islahatları Proqramı"na böyük həssaslıqla yanaşırdı. İslahatlar üzrə Dövlət Komissiyasının iclasında yekun nitqində söylədiyi fikirlər hər iki mühüm sənədin leytmotivi kimi səslənmişdi: "Azərbaycanda təhsil sistemində indiyə qədər əldə edilmiş müsbət təcrübə və özünü doğrultmuş, müsbət nəticələr vermiş sistem saxlanmalı, inkişaf etdirilməli və müasirləşdirilməlidir".

Nöqsanlar, yaxud mənfi təcrübə aradan götürülməlidir. Dünya təcrübəsindəki Azərbaycanın milli xüsusiyyətlərinə uyğun olan prinsiplər, qaydalar təhsil sistemimizə tətbiq edilməlidir.

Biz dünyanın bütün ölkələrində - Qərbdə də, Şərqdə də əldə olunmuş nailiyyətləri dərindən öyrənməli və onlardan Azərbaycan üçün müsbət xarakter daşıyan cəhətləri ölkəmizin təhsil sistemində tətbiq etməliyik"

Ümummilli lider müstəqilliyini bərpa etmiş Azərbaycanda, başqa sahələrdəki kimi, təhsil sahəsində də islahatlar aparılmasının vacibliyini qeyd edərək, "yeni təhsil sisteminin yaradılması üçün köklü islahatların həyata keçirilməsinin zəruriliyini və təxirəsalınmazlığını" təkidlə vurğulamışdır. O, əmin olduğunu bildirmişdir ki, "Azərbaycanda məktəbin, təhsil işinin təkmilləşməsi mövcud olan nöqsanların aradan qaldırılması, Azərbaycan xalqının təhsilinin daha da yüksəklərə qaldırılması üşün çox əhəmiyyətli və faydalı" olacaqdır.

Heydər Əliyev vurğulayırdı ki, hər bir dövlət, əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o, mütləq hər şeydən çox, təhsilə fikir verməlidir, təhsil üçün bütün imkanları yaratmalıdı.

H.Əliyev orta və ali məktəblərimizdə uşaqların, gənclərin formalaşması prosesini diqqət mərkəzində saxlamağı, bu yolda ədalətsizliyə yol verməməyi tövsiyə edirdi. Göstərirdi:: "Azərbaycanın gələcək vətəndaşı:

-Gərək mənəviyyatca saf olsun, ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün.

-Gərək o, vətənpərvərlik hissi ilə yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun.

-O gərək Azərbaycan dövlətinə, millətinə, Azərbaycanın gələcəyinə sadiq vətəndaş olsun" Məhz bu məqsədlə Heydər Əliyevin inadlı səyi nəticəsində 1970-ci ildən başlayaraq, hər il 600-ə yaxın tələbə böyük çətinliklə Rusiya, Ukrayna, Belorusiya, Baltikyanı respublikalar və Orta Asiya respublikalarının ali məktəblərinə göndərilirdi.

Ulu öndər 1997-ci il avqustun 29-da respublikamızın və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş tələbələrin bir qrupu ilə görüşərkən həmin illərdə gənclərin Azərbaycandan kənarda oxumaları üçün görülən işlərin, göstərilən səylərin, sərf edilən əməyin necə əhəmiyyətli olduğunu bir daha xatırlayaraq, demişdir: "...Biz 1970-ci ildən başlayaraq, Azərbaycandan gənclərin keçmiş Sovetlər İttifaqının ən böyük universitetlərinə, ali məktəblərinə göndərilməsinə nail olduq. Onların sayı hər il artırılırdı. Mənim xatirimdədir. 70-ci illərin sonunda ildə 700-900 nəfər və 80-ci illərin əvvəlində ildə 1000-1400 nəfərə qədər gəncimiz respublikamızdan kənardakı ali məktəblərə göndərilirdi. Bunun böyük əhəmiyyəti var idi. İndi biz bunun müsbət nəticələrini görürük. Mən bunu dəfələrlə demişəm. Biz respublikamızdan kənarda yeni bir ali məktəb miqyasında mütəxəssislər hazırlanmasına nail olduq. Çünki hər bir ali məktəbə orta hesabla ildə 700-800 nəfər qəbul olunurdu. Əgər biz respublikamızdan kənarda ildə 800-1000 və bundan da çox tələbə qəbul etdirirdiksə və onların ali təhsil almasına nail ola bilirdiksə, hesab etmək olardı ki, ölkəmizdəki ali məktəblərdən başqa, daha bir böyük ali məktəbimiz var idi və bu da Azərbaycan üçün böyük töhfə idi"

Ümumiyyətlə, 70-ci illərdə respublikamızın rəhbəri Heydər Əliyevin təşəbbüsü ilə on minə qədər azərbaycanlı gənc Rusiyada təhsil almağa göndərilmişdi. Bu gənclər Vətənə qayıdaraq coşğun və faydalı əməkləri ilə respublikamızın inkişafı uğrunda aparılan geniş miqyaslı işlərə qoşulmuşdular. Mütəxəssislər bu işdən alınan gəlirin 50 mlrd. dollar dəyərində olduğunu müəyyən etmişlər.

Görkəmli dövlət xadimi, uzaqgörən rəhbər bu işin əhəmiyyətini izah edərək, göstərirdi ki, təhsil almayan gənc, şübhəsiz, həyatda lazımi yer tuta bilməz. İndi dünya mədəniyyət dünyasıdır, intellektual dünyadır, elmi-texniki tərəqqi dünyasıdır. Azərbaycanı elmi-texniki tərəqqi səviyyəsində inkişaf etdirmək üçün, şübhəsiz ki, yüksək təhsilə, elmə nail olmalıyıq.

Müstəqillik yolu ilə irəliləyən Azərbaycan Respublikasında təhsil sistemi qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanı dünyanın ən inkişaf etmiş, demokratik dövlətlərindən birinə çevirməyə qadir olan insan tərbiyə etməkdir.

## ULU ÖNDƏR AZƏRBAYCAN MULTİKULTURALİZMİNİN SİYASİ BANİSİDR

***İbrahimova A.A.***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

"Kitabi-Dədə Qorqud" dastanından, şifahi və yazılı ədəbiyyatımızdan keçən bariz nümunələr uzaq keçmişdən bugünümüzədək multikultural ənənələrin mövcudluğunu aşkar şəkildə sübut edir. Bunun fonunda müasir dövrdə həllini tapası yalnız bir əsas məsələ qalırdı: hüquqi və siyasi müstəvidə multikulturalizmin yerini müəyyən etmək. Və bunu ulu öndər Heydər Əliyev etdi. O, Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşmış çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Bu mərhələ siyasi mərhələ idi. Əslində, ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisi oldu. Ulu öndər Heydər Əliyev bununla ilk növbədə multikulturalizm siyasi

modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduğunu bütün dünyaya nümayiş etdirdi. "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətəndiririk və qoruyub saxlayacağıq" deyən ulu öndər bütün sonrakı siyası fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltdi. Azərbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması işində ən vacib olanı ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmasıdır. Belə ki, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq (dözümlülük) prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilmişdir. Bununla bağlı "Bərabərlik hüququ" (maddə 25, bənd 3), "Milli mənsubiyyət hüququ" (maddə 44, bəndlər 1, 2), "Ana dilindən istifadə hüququ" (maddə 45, bəndlər 1, 2) və başqa maddələri göstərmək mümkündür.

Ulu öndər haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu öndərin rəhbərliyi ilə, nəhayət ki, dönüşü olmayan demokratik inkişaf yoluna çıxmış Azərbaycan Respublikası, onun qeyd etdiyi kimi, "dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik" olmalarını təmin etməli idi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasi istiqamət yeni mərhələdə onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Multikulturalizmi Azərbaycan Respublikasının dövlət siyasəti, xalqımızın həyat tərzi kimi dəyərləndirən Prezident İlham Əliyev bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verir. O, daima ölkəmizin bu təşkilatlar tərəfindən qəbul edilən milli azlıqların hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı konvensiyalara qoşulmasının vacibliyini qeyd edir. Məhz bu siyasi xəttin nəticəsi kimi Azərbaycan Prezidentinin göstərişi ilə ölkəmizin 26 noyabr 2009-cu il tarixli qanunla "Mədəni özünüifadə formalarının müxtəlifliyinin qorunması və təşviqinə dair" UNESCO Konvensiyasına qoşulmasını göstərmək olar.

Azərbaycanın mənəvi-siyasi yüksəlişində son dərəcə vacib məqamlardan biri isə Prezident İlham Əliyevin təşəbbüsü və iştirakı ilə 2011-ci ildən bəri mütəmadi olaraq Bakıda Beynəlxalq Humanitar Forumun keçirilməsidir. Artıq ənənəyə çevrilmiş bu forumun son açılışı zamanı etdiyi çıxışında Prezident İlham Əliyev multikulturalizmi "alternativi olmayan, gələcək inkişaf üçün ən məqbul variant" kimi dəyərləndirməklə təkcə Azərbaycanda deyil, müasir dünyada multikulturalizm meyillərinin gücləndirilməsinin vacibliyini xüsusi olaraq qeyd etmişdir.

Belə bir siyasi kontekstdə Prezident İlham Əliyev 28 fevral 2014-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşavirinin xidmətini yaratdı. Bu gün bu xidmət ölkənin ideoloji həyatının

önəmli istiqamətlərini əlaqəli şəkildə öyrənən, obyektiv səbəbdən özünü göstərən müəyyən boşluqların doldurulmasını təmin edən vacib bir orqan kimi fəaliyyətini qurmaqdadır.

Prezident İlham Əliyevin multikulturalizm siyasətinin növbəti əhəmiyyətli addımı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasına dair 15 may 2014-cü il tarixində imzaladığı fərman oldu. Bu mərkəzin yaradılmasının əsas məqsədi ölkəmizdə əsrlər boyu formalaşmış tolerantlığın, etnik-mədəni, dini müxtəlifliyin qorunmasını və çiçəklənməsini təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modellərini tədqiq və təşviq etməkdir. Dünyanın multikulturalizm sahəsində aparıcı mütəxəssislərinin, görkəmli ictimai və siyasi xadimlərinin Bakıda beynəlxalq səviyyədə belə bir mərkəzin açılmasını son dərəcə təbii və işgüzar şəkildə qəbul etmələri məhz Azərbaycanın bu gün dünya multikulturalizminin mərkəzinə çevrilməsi reallığını aydın şəkildə nümayiş etdirir. Prezident İlham Əliyevin multikulturalizmə, tolerantlığa verdiyi siyasi dəyərin dünya miqyasında real elmi, mədəni, sosial müstəvilərə köçürülməsi işində Heydər Əliyev Fondunun böyük xidmətləri danılmazdır. Bu gün Azərbaycan multikultural ənənələrinin qorunub saxlanması, təbliği ilə bağlı Heydər Əliyev Fondu olduqca əhəmiyyətli, möhtəşəm layihələr həyata keçirir. Bu layihələr Azərbaycan multikulturalizminin bir ölkə çərçivəsində qapalı inkişafını deyil, dünya çərçivəsində dinlərin və mədəniyyətlərin müxtəliflikləri rejimində fəaliyyət göstərməsini reallaşdırır. Qətiyyətlə demək olar ki, Azərbaycan multikulturalizmi ölkəmizin siyasi simasının əsas cizgilərindən birinə çevrilmişdir. Azərbaycan multikulturalizminin banisi Heydər Əliyevin arzularından biri də elə bu idi.

## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN ELMİNİN İNKİŞAFINDA ROLU

***İbrahimova N.N.***

*Gəncə Dövlət Universiteti*

Elm sahəsi, dini diyirlərə münasibət və ədəbiyyat, incəsənətin inkişafında Heydər Əliyevin müstəsna rolu lmuşdur. Azərbaycan elminin inkişafı milli mənəvi dəyərlərin ümumbəşəri dəyərlərə inteqrasiya olunmasının ən mühüm və real istiqamətlərindən biridir. Heydər Əliyev Azərbaycan elminin, təhsilinin inkişafına, çiçəklənməsinə, bu mənəvi irsin qorunub saxlanılmasına və gənc nəslin milli mənəvi ideyalarla tərbiyə olunmasına daim böyük diqqət və qayğı ilə yanaşmışdır.

1969-cu ildə olduğu kimi yenə də elm, təhsil sahəsində yaranmış xoşagəlməz vəziyyətdə xilaskarlıq missiyasını Heydər Əliyev oynamış oldu.

Ölkədə siyasi hakimiyyətə ikinci dəfə gələn Heydər Əliyev sözün həqiqi mənasında bütün sahələrədə olduğu kimi elm və təhsil sahəsinə də həyat verdi.

O, deyirdi: «Elm və təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək elmə, biliyə, savada, ixtisasa malik insanlar var və onlar cəmiyyətimizin çox böyük hissəsini təşkil edirlər. Əgər bu insanlar olmasaydı, bu gün Azərbaycanın iqtisadiyyatını, mədəniyyətini, sosial rifahını belə güclü inkişaf etdirmək olmazdı. Əgər bu insanlar olmasaydı, bu gün Azərbaycanda elm, təhsil bu potensiala malik olmazdı. Əgər bu insanlar olmasaydı, biz Azərbaycanı müstəqil dövlət kimi

idarə edə bilməz və dünya miqiyasında tanıda bilməzdik. Onları qiymətləndirməli və onillərlə əldə etdiyimiz nailiyyətləri unutmamalıyıq».

1997-ci il yanvarın 31-də Heydər Əliyevin Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, həqiqi, müxbir üzvləri, institut rektorları və aparıcı alimlər ilə görüşü elm və təhsil sahəsinin inkişafında çox mühüm rol oynamışdı. Akademiyada yaranan böhranlı vəziyyət Heydər Əliyevi çox narahat edirdi.

Heydər Əliyevin diqqətini çəkən bir problem də elmi işçilərin əmək haqqının və Akademiyaya ayrılan vəsaitin azlığı idi. Buna görə də 1997-ci ildə Akademiya üçün dövlət büdcəsindən ayrılan vəsait təxminən 50 faiz artırılmış oldu. Azərbaycan Elmlər Akademiyasında Bakı qovşağı adlı beynəlxalq kompüter mərkəzi yaradıldı və bununla da Azərbaycan alimləri Transavropa tədqiqat və yaradıcılıq şəbəkəsi ilə əlaqə yarada bildi. 1996-cı ildə Bakıda amerikalı messenat Corc Sorosun yaratdığı "Soros" fondunun informasiya mərkəzi fəaliyyətə başladı. "Soros" fondu Elmlər Akademiyasının dünyada ən nəhəng informasiya-texniki sistemi olan Internet ilə əlaqə yaratmasına köməklik göstərdi. Ümumilikdə "Soros" fondu Elmlər Akademiyasının inkişafı üçün 93 qrant ayırmışdı. 2001-ci il mayın 15-də Heydər Əliyevin fərmanı ilə Elmlər Akademiyası yeni məzmun daşımaqla Azərbaycan Milli Elmlər Akademiyası adlandırıldı. 2001-ci ilin iyun ayında Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvlərinin seçkiləri keçirildi. Bu hadisə akademiyanın tarixində xüsusi yer tutmuş oldu.

Azərbaycan elminə töhfələr verən, bilik və dünyagörüşü ilə fərqlənən alimlər Akademiyanın tərkibinə seçildilər. Heydər Əliyev seçki ərəfəsində Akademiya üzvlərinin ümumi sayının 200 nəfərə qədər müəyyən edilməsi haqqında xüsusi sərəncam imzaladı.

Azərbaycan Respublikasında təhsil sahəsində islahat proqramına uyğun olaraq Heydər Əliyev tərəfindən imzalanmış 13 iyun 2000-ci il tarixli «Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» sərəncamla ali təhsil müəssisələrinin strukturlarında saslı dəişikliklər həyata keçirildi. Sumqayıt Dövllət Universiteti də həmin sərəncama əsasən yaradıldı. Heydər Əliyevin şəxsi təşəbbüsü və göstərişi ilə 1994-cü ilin dekabrında Bakı Dövlət Universitetinin 75 illik, 1997-ci ildə Naxçıvan Dövlət Universitetinin 30 illik, 22 dekabr 1999-cu ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin 80 illik, 2000-ci ilin dekabrında Azərbaycan Dövlət Neft Akademiyasının 80 illik, 13 iyun 2002-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin 70 illik yubileyləri təntənəli şəkildə qeyd edilmiş və bu ali tədris müəssisələrində çalışan bir sıra alimlər orden və medallarla təltif edilmişdilər. Bundan başqa, öz qayğısını orta ixtisas təhsili məktəblərindən əsirgəməyən Heydər Əliyev 1999-cu ilin oktyabr ayında Tovuz şəhər Puşkin adına orta məktəbin 100 illik, 2002-ci ilin sentyabr ayında Ağdaş şəhər 3 saylı orta məktəbin 120 illik və başqa bu kimi bir sıra təhsil ocaqlarının yubileylərinin keçirilməsi barədə göstərişlər vermişdi.

# SSRİ-də İDEOLOJİ İNHİSARÇILIQ ŞƏRAİTİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN DİRÇƏLDİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

***İlyasova X.İ.***
*Gəncə Dövlət Universiteti*

1969-cu ilin avqust ayında Azərbaycan Respublikasının rəhbərliyində baş vermiş mühüm dəyişiklik nəticəsində Azərbaycan KP MK-nın I katibi vəzifəsinə seçilmiş Heydər Əlirza oğlu Əliyev bütün varlığı ilə milli soykökə, doğma xalqına bağlı olan və daim onun taleyüklü problemləri, keçmiş və gələcəyi barədə düşünərək ilk öncə DTK-nın azərbaycanlılara düşmən qüvvələrdən, xüsusilə ermənilərdən təmizlənməsi, milli kadrların təhlükəsizlik sisteminə cəlb olunması üçün var qüvvəsini əsirgəmədi. Hələ Heydər Əliyev DTK-da işlədiyi dövrdə Azərbaycanın milli mənəvi dəyərlərini öz yaradıcılığında əks etdirən görkəmli ziyalılardan Z. Bunyadov, B. Vahabzadə, X. Rza, R.Əliyev, S. Əhmədov, T. Quliyev, S. Bəhlulzadə V. Mustafazədə və başqalarını dəfələrlə amansız repressiya təhlükəsindən xilas etmişdir

O illərdə Azərbaycanın milli mənəvi dəyərlərinin bir hissəsini təşkil edən milli musiqi sənəti də böyük dirçəliş və inkişaf yoluna qədəm qoyur. Respublikaya başçılıq edən Heydər Əliyev incəsənətin bu sahəsinin inkişafında misilsiz rolu olan görkəmli bəstəkarlara da öz diqqətini əsirgəməmiş, onların gələcək fəaliyyəti üçün həmişə əlverişli şərait yaratmışdır. 1974-cü ildə isə böyük sənətkar Fikrət Əmirov SSR Bəstəkarlar İttifaqının katibi vəzifəsinə seçilmişdir.

Azərbaycan musiqi sənətinin korifeylərindən sayılan maestro Niyazi (Niyazi Tağızadə) 1972-ci ildə Azərbaycan Lenin Komsomolu, 1974-cı ildə Beynəlxalq Nehru mükafatları laureatı adlarını almışdır. «Leyli və Məcnun» simfonik poemasının, «Yeddi gözəl», «İldırımlı yollarla» baletlərinin, aşıq və muğam sənəti xüsusiyyətləri ilə zəngin olan simli kvartet musiqilərinin müəllifi Qara Qarayev 1978-ci ildə Sosialist Əməyi Qəhrəmanı adına, «Torpaqın səsi», «Vətən və Füzuli» kimi simfonik əsərlər yaradan Arif Məlikov isə 1978-ci ildə Azərbaycan SSR-in xalq artisti adına layiq görülmüşlər. Pianoçu Fərhad Bədəlbəyli 1972-ci ildə Azərbaycan SSR-in əməkdar artisti adına, 1974-ci ildə isə Lenin Komsomolu mükafatı laureatı adına layiq görülmüşdür. Habil Əliyevə 1978-ci ildə Azərbaycan SSR-in xalq artisti adı verilmişdir. Həmin vaxt respublika rəhbərliyi tərəfindən yaradılan şəraitin sayəsində milli muğamların inteqrasiyası məqsədi ilə o, Belçika, Suriya, Əlcəzair, Türkiyə, ADR, BXR, MXR, Böyük Britaniya kimi mötəbər ölkələrdə çıxışlar etmişdir. Müslüm Maqomayev 1973-cü ildə SSRİ-in xalq artisti adına layiq ğörülmüş, respublika rəhbərliyi tərəfindən göstərilən qayğı nəticəsində 1975-ci ildə Azərbaycan Dövlət Estrada Simfonik Orkestrini təşkil etmiş, özü də bədii rəhbər təyin olunmuşdur.

Heydər Əliyevin Azərbaycan xalqının milli- mənəvi dəyərlərinə olan sevgisi, diqqət və sədaqəti həmin illərdə muğam sənətinin yeni dirçəliş və inkişaf mərhələsinə qədəm qoyması ilə bir daha özünü qabarıq şəkildə göstərir. Respublika televiziyasında vaxtaşırı olaraq muğam axşamı, muğam sənətinə, onun tədqiqi məsələlərinə

yaradıcılıq təşəbbüsünün artırılması məqsədi ilə elmi verilişlər efirə çıxır. Azərbaycan musiqişünaslığında muğamda kanon, normativlik, improvizasiya məsələləri, onun bədii və sosial-tarixi funksiyası, kompozisiya xüsusiyyətləri, formalarının yaranması, ideya-bədii konsepsiyası yüksək səviyyədə tədqiq olunur. Bu illərdə Heydər Əliyevin respublika kinomotoqrafiyasına ayırdığı diqqətin məntiqi nəticəsi kimi 1969-ci ildə Azərbaycan xalqının milli mənəvi dəyərlərini ən kamil və bitkin səviyyədə özündə əks etdirən «Dəli Kür», 1970-ci ildə «Bizim Cəbiş müəllim», «Yeddi ogul istərəm», 1971-ci ildə «Axırıncı aşırım», 1973-cü ildə «Nəsimi», 1975-ci ildə «Dədə Qorqud», 1979-ci ildə «Babək» və başqa bu kimi filmlər çəkilmişdir.

Bundan başqa, klassik və muasir ədib və dramaturqların yüzlərlə səhnə əsərləri tamaşaya qoyulmuşdur.

1981-ci ildə Heydər Əliyevin göstərişi ilə Nizami Gəncəvinin anadan olmasının 840 illik yubileyi geniş şəkildə qeyd olunmuşdur. Daşkənddə Nizami adına pedaqoji institut yaradılmış, Merkuri planetindəki kraterlərdən birinə onun adı verilmişdir. Şanxayda Nizaminin heykəli, MDU qalereyalarından birində onun büstü qoyulmuşdur.

1948-ci ildən fəaliyyət göstərən Teatr, Pedaqoji, Xarici Dillər, 1950-ci ildən fəaliyyət göstərən Politexnik, 1952-ci ildən fəaliyyət göstərən Rus Dili və Ədəbiyyatı İnstitututlarının zəif olan maddi bazasının gücləndirilməsi ilə kifayətlənməyən Heydər Əliyev respublikada bir sıra yeni mühüm ali məktəb ocaqları yaratmağa nail oldu. 1972-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun filialları əsasında Naxçıvan Muxtar Respublikasında, 1973-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətində pedaqoji institutlar, 1976-cı ildə İnşaat Mühəndisləri İnstitutu, 1981-ci ildə isə Gəncədə Azərbaycan Texnologiya İnstitutu fəaliyyətə başladı. Əgər 1960-cı illərin sonunda respublikada 12 ali məktəb, bunlarda 105 fakültə, 450 kafedra mövcud idisə və 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 17 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Aşağı təbəqənin maariflənməsi məqsədi ilə 1969-cu ildən ali məktəblərin nəzdində kolxozçu, fəhlə və ordudan tərxis olunanlar üçün hazırlıq şöbələri açıldı. 1970-ci ildən əsası qoyulan və gücləndirilən respublika ali təhsil ocaqlarının yüksək səviyyədə hazırladığı mütəxəssislərlə kifayətlənməyən Heydər Əliyev bu sahədə apardığı mətin siyasətin nəticəsində Moskvanın, eləcə də keçmiş SSRİ–nin digər şəhərlərinin 170 aparıcı ali elm-təhsil ocaqlarına 3500 azərbaycanlı oğlan və qız göndərmiş oldu.

## ESTETİK TƏRBİYƏNİN TƏDQİQİNİN ELMƏ VERDİYİ TÖHFƏLƏR

***İsazadə N.Ə.***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

60-70-ci illərdə cəmiyyətin sosial-iqtisadi inkişafı ilə bağlı olaraq estetik tərbiyə nəzəriyyəsi sahəsində də tədqiqatlar genişləndi, namizədlik dissertasiyaları müdafiə olundu, metodoloji problemlərə geniş yer verilməyə başlandı. Böyüyən nəslin estetik tərbiyəsinin metodoloji və ideya-nəzəri əsasları qoyuldu. Tədqiqatların əhatə dairəsi genişləndi və mürəkkəbləşdi. Şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafında, onlarda estetik zövqün,

mühakimələrin və idealların, elmi dünyagörüşün formalaşmasında estetik tərbiyənin rolu diqqət mərkəzində durdu. Estetik tərbiyənin mahiyyəti, prinsipləri (estetik tərbiyənin hərtərəfli olması və universal xarakter daşıması, estetik tərbiyədə rasional və emosional cəhətlərin vəhdəti, təsirlilik və s.), vasitələri (insanın təbiətlə praktik əlaqəsi, ictimai həyat, əmək və s.), metodları, əməyin, təbiətin, ətraf aləmin, məişətin estetik təsiri və kompleks estetik tərbiyənin sistemi məsələləri üzrə tədqiqat işləri ciddi xarakter aldı.

Respublikamızda estetik tərbiyə nəzəriyyəsinin inkişafında, təkmilləşdirilməsində və praktik həllində 1977-ci ildə Azərb. ETPEİ- də yaradılmış estetik tərbiyə bölməsinin fəaliyyəti xüsusi qeyd olunmalıdır. Şöbənin əməkdaşları ilk növbədə musiqi, təsviri incəsənət fənləri üzrə təlim işinin məzmununun müəyyənləşdirilməsinə, proqram materialının düzgün elmi-metodik əsaslarda planlaşdırılmasına, yeni proqram və dərsliklərin təkmilləşdirilməsinə ciddi fikir verirdilər, məktəblərimizin həmin sahədəki ehtiyacının ödənilməsində xüsusi fəallıq göstərdilər. O.Rəcəbov V.Xəlilovla birlikdə «Musiqi» dərsliyini (1976), H.Ələkbərov H.Hüseynovla birlikdə III sinif üçün «Təsviri incəsənət» dərsliyini (1980) yazdılar.

Tədqiqatlarda musiqi və təsviri incəsənət vasitəsi və şagirdlərin təlim-tərbiyəsi, ən başlıcası isə estetik tərbiyəsi probleminin tədqiqi genişləndi. V. Xəlilov musiqi, H.Ələkbərov, S.Əliyev təsviri incəsənət vasitəsilə ibtidai sinif şagirdlərinin təlimini, tərbiyəsini tədqiq etdilər. M.Mustafayev, E.Məmmədov, A.Bəkirova və b. tədqiqatlarında isə Azərbaycan ədəbiyyatının bədii təsviri və estetik imkanları, təlim prosesində onlara istinad edilməsi məsələləri araşdırıldı.

80-ci illərdə şəxsiyyətin formalaşmasında estetik tərbiyənin mahiyyəti, məqsədi, vəzifələri, prinsipləri, vasitələri, metodları, təlim prosesində şagirdlərin estetik tərbiyəsi, estetik tərbiyənin sistemi, burjua məktəblərində estetik tərbiyə məsələlərinin araşdırılmasına B.Əhmədov, A.Rzayev tərəfindən diqqət yetirildi. Onlar estetik tərbiyənin qeyd olunan problemlərini tədqiqata cəlb etməklə, məktəblilərin hərtərəfli ahəngdar inkişafının sürətlənməsinə şərait yaratdılar.

Müəlliflər estetik tərbiyə müəllimlərin rəhbərliyi altında şagirdlərin həyata estetik münasibətlərinin formalaşması prosesidir. Bu prosesdə məktəblilər gözəlliyin mahiyyətini dərk edir, ona qiymət verməyi öyrənir, gözəlliyin yaradılmasında mühafizəsində iştirak etməyə hazırlanır, özlərinin estetik keyfiyyətlərini inkişaf etdirir, müvafiq bilik, bacarıq və vərdişlərə yiyələnirlər.

Təlim prosesində şagirdlərin estetik tərbiyənin zənginləşməsi baxımından bütün təlim fənləri imkanları vardır. Ancaq onların bir hissəsi bilavasitə estetik tərbiyə ilə olmasına baxmayaraq, digər hissə bilavasitə (musiqi, rəsm, nəğmə və s.) şagirdlərin estetik tərbiyəsinə xidmət etdiyini şərh etmişlər.

Sinifdənkənar tədbirlər prosesində estetik tərbiyənin mühüm vasitələrindən biri təbiətdir. Təbiətə ekskursiyalar, bədii yaradıcılıq, rəqs, xor, bədii tikiş, bədii yaradıcılıq kimi dərnəklə estetik tərbiyənin formalaşdırılmasına güclü təsiri reallıqdır.

Estetik tərbiyənin sistemi "Məktəblilərin tərbiyə edilməsinin təxmini məzmunu" proqramında öz əksini tapmışdır. Şagirdlərin birinci sinifdən yeddinci sinifləri daxil olmaqla şagirdləri bədii ədəbiyyat üzərində işləyir, əsərə estetik qiymət verməyi bacarır, öz

fikirlərini müdafiə etməyə səy göstərirlər. Onlar təbiətə aid bədii təsəvvürlər yaradır, rayon üzrə ekskursiyalarda iştirak edir, incəsənətə aid nəzəri fikirləri əks etdirən ədəbiyyatla tanış olur, incəsənətin tarixi ilə maraqlanır, fakültativ məşğələlərdə iştirak etdiklərini açıqlamışlar.

90-cı illərdə Y.Talıbov, Ə.Ağayev, İ.İsayev, A.Eminov "Estetik tərbiyənin mahiyyəti, vəzifələri və sistemini şərh etmişlər". Onlar mənəvi və maddi mədəniyyət sərvətlərinə kütlələrin daha əhatəli və dərindən yiyələnməsinə, onların bədii yaradıcılığa fəal cəlb olunmasına böyük əhəmiyyət verilir. Təbiət və cəmiyyət gözəlliklərinin müxtəlif təzahür formalarında duymaq, qavramaq, sevmək, qiymətləndirmək, həyata gözəllik qanunları əsasında qurmaq prosesi estetik tərbiyə adlanır.

Estetik tərbiyənin sistemi: dərs, ictimai-faydalı məhsuldar əmək, sinifdənkənar məşğələlər böyük rol oynayır.

Şagirdlərin estetik tərbiyəsində sinifdənkənar işlər: söhbətlər, disputlar, görüşlər, səyahətlər, ekskursiyalar, müxtəlif dərnəklər. fakültativlər mühüm rol oynayır. Buna görə də məktəbdə belə tədbirlərin təşkilinə xüsusi əhəmiyyət verilir.

## HEYDƏR ƏLİYEVİN MULTİKULTURALİZM KONTEKSTİNDƏ AZƏRBAYCANÇILIQ SİYASƏTİ

***İslamova G.N.***
*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

Dilimizin lügət tərkibinə alınma söz kimi daxil olan və son vaxtlar tez-tez səslənən multikulturalizm çoxmillətlilik mənasını verərək, müxtəlif fərqli mədənıyyətlərin bir arada yaşadıgı cəmiyyəti ifadə edən termindir.

Multikulturalizm hər hansı bir ölkədə,bütün dünyada yaşayan müxtəlif millət və məzhəbə mənsub insanların mədəniyyətinin qorunması,inkişafı və harmoniyası amillərindən biri olaraq azsaylı xalqların yaşadıgı dövlətlərin milli mədəniyyəti ilə həmahənglik istiqamətidir.

Multikulturalizm ifadəsi 1970-ci ildə Avstraliya miqrasiya naziri olan Al Kresbi tərəfindən siyasi leksikona daxil edilib. Nazir anqlo-saksonlarla yerli əhali arasındakı münaqişənin aradan qaldırılması istiqamətində calışıb. Bu məqsədlə 1979-cu ildə hökumət tərəfindən Mədəni Müxtəlifliliyin problemləri üzrə Avstraliya İnstitutu, 1987-ci ildə Multikulturalizm Problemləri Komitəsi yaradılmışdır. Amma Kanadada multikultural proses 1960-cl ildən etibarən başlamışdır.

Beynəlxalq təcrübələr sübut edib ki, dünyada ölkələrin əksəriyyəti coxmillətlidir, yəni monoetnik dövlət yox dərəcəsindədir. Bu baxımdan Azərbaycan da istisna deyil. Tarixi mənbələr təstiq edir ki, Sah İsmayıl Xətainin hakimiyyəti dövründə dövlət idarəciliyində talış və kürdlərdən ibarət milli azlıqlar hökmdarın yaxın dairəsində olub.

Digər xalqlar və etnik qruplardan fərqli olaraq türk tayfaları Azərbaycanın həm şimalında, həm də cənubunda böyük üstünlük təşkil edirdilər. Bu səbəbdən də Azərbaycanda yaşayan etnik qruplar və azsaylı xalqlar arasında əsas ünsiyət vasitəsi türk

dili idi. Bu da o zaman monoteist din olmadıgindan vahid xalqin təşəkkül tapmasında başlıca amil idi.

Azərbaycan xalqı içərisində milliözünüdərketmə və türkçülük ideyalarının yayılmasında müstəsna rolu olan Avropa təhsilli Əhməd bəy Ağaoğlu hələ 1905-ci ildə yazırdı: "Bütün bu toplum (azərbaycanlılar nəzərdə tutulur- Q.İ) yalnız dini toplum olmayib, eyni zamanda etnik bir varlıqdir. Çünki bütün Rusiya müsəlmanları, kicik bir istisna ilə böyük türk-tatar mənsubudurlar. Bir tək ümumi dildə danışır və eyni inançları paylaşırlar".

Azərbaycanın və azərbaycançılıgın da qudrəti, əzəməti bu diyarı məhz özlərinə Vətən secən, onu müqəddəs tutan, onun adi ilə adlanmaqla fəxr edən insanların gücündə, birliyindədir. Ulu öndər Heydər Əliyevin sözləri ilə desək: "Biz Azərbaycan deyəndə onun sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bütün bunlarla yanaşı, respublikamızın ən başlıca sərvətini əsirlərdən bəri torpaqlarda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqat edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, o qədər də zəngin olar".

Azərbaycancılıq ideologiyasının multikultural dəyərlərin formalaşmasında rolu inkaredilməz faktdır. Təsadüfi deyil ki, Azərbaycanı dərin böhrandan, bu dövləti parcalanmadan xilas edən Ümummilli lider Heydər Əliyevin həyata kecirdiyi siyasətin binövrəsi azərbaycanciliq ideyası üzərində quruldu. O zaman Azərbaycanın düşdüyü böhranın adi təkcə Ermənistan və Qarabağ müharibəsi deyildi. Artıq Azərbaycanda milli-etnik igtişaşlar, parcalanma tendensiyası açıq-aşkar özünü göstərməkdə idi. Ulu öndərin yeritdiyi siyasət bu torpaqlarda yaşayan bütün xalqların nümayəndələrini öz ətrafında birləşdirdi.

Çağdaş dünyamızda multikulturalizm siyasəti ilə bağlı iki qütbün formalaşdığı göz qabağındadır. Birinci qütbü bədbin, ikinci qütbü nikbin adlandırmaq olar. Birinci qütbü 2011-ci ildə Böyuk Britaniyanın sabiq baş naziri Devid Kemeron formalaşdırdı. Buna səbəb olaraq müxtəlif mədəniyyətlərin bir-biri ilə inteqrasiya olmaqdan imtina etdiyi və bu üzdən Avropada multikulturalizm siyasətinin iflasa uğradığını göstərdi. Həqiqətdə bu bədbinliyin sonu qarşıdurmalar, fəlakətlər, kataklizmlərlə nəticələndi.

Nikbin adlanan ikinci qütbün təntənəsini görmək üçün Azərbaycana baxmaq yetərlidir. Ulu öndər Heydər Əliyevin ənənəsinin, siyasətinin yekdil davamcısı olan ölkə başçısı İlham Əliyevi qətiyyətlə beynəlxalq aləmdə nikbin qütbin lideri adlandırmaq olar.

Coxmillətli Azərbaycan slavyancılıq, avrasiyacılıq, türkcülük, islam, avropa dəyərləri və s. siyasi baxışlarına görə müxtəlif mədəniyyətlərə sahib olan xalqların yekdil dialoq mərkəzi kimi dünyanın gözü önündədir. Uzaq kecmişdən soraq verən bərabərlik, həmrəylik kimi dəyərlərə sadiq qalan Azərbaycan yeni geosiyasi dönəmdə unikal bir dövlətə çevrilmişdir.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL SİYASƏTİ

***İsmayılov Ş.M.***
*Sumqayıt Dövlət Universiteti*

Xalqın intellektual potensialının formalaşması və cəmiyyətin tərəqqisi təhsil sistemi ilə sıx bağlıdır. Müstəqillik yolu ilə irəliləyən Azərbaycan, cəmiyyətin bütün sahələrində olduğu kimi, təhsil sahəsində də bir sıra mühüm vəzifələri yerinə yetirmək zərurəti ilə qarşılaşmışdı. Ölkəmizdə aparılan islahatlar çərçivəsində təhsil sahəsində də ciddi dəyişiklik və yeniliklər həyata keçirildi.

1969-cu ildə respublika rəhbərliyinə irəli çəkilən Ulu Öndər H.Əliyev mövcud rejimin sərt qanunları çərçivəsində Azərbaycanın tərəqqisi, elm, təhsil və mədəniyyətin yüksəldilməsi üçün düşünülmüş strateji xətt müəyyən etdi. 1988-ci ildən etibarən isə Azərbaycanda bütün sahələrdə olduğu kimi, təhsildə də mənfi tendensiyalar özünü göstərdi. 90-cı illərin başlanğıcında Sovet İttifaqının süqut etməsi ilə Azərbaycan öz müstəqilliyini təsbit edən konstitusiya aktını qəbul etdi.

Müstəqillik dövründə təhsil sistemində islahatların keçirilməsi zərurəti yarandı. Bu işdə cəmiyyətin bütün təbəqələri iştirak edirdi. Təhsil islahatlarında köklü yeniləşmənin həyata keçirilməsi nəzərdə tutulurdu. Aparılacaq islahatlar nəticə etibarilə təhsil sisteminin müasir tələblərə cavab verən iqtisadi-təşkilati və idarəetmə mexanizminin yaradılmasını təmin etməli idi.

Müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikası 90-cı illərin əvvəllərində yaranmış çətinliklərlə üzləşməsinə baxmayaraq, ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi sayəsində gənc respublikanın beynəlxalq nüfuzunu möhkəmləndirmək, Azərbaycanı dünyaya tanıtmaq, dövlətlərarası əməkdaşlığı genişləndirmək yolunda bir sıra uğurlu addımlar atıldı. Beynəlxalq əməkdaşlığın yeni formaları işlənib hazırlandı. Azərbaycan təhsilinin Avropa təhsilinə inteqrasiyası prosesi başlandı. Təhsil sahəsində Avropa dəyərlərinə nail olmaq inteqrasiyanın başlıca məqsədi idi. Müstəqillik illərində Azərbaycan Respublikasında ali təhsil istiqamətində beynəlxalq təcrübənin öyrənilməsi üçün geniş imkanlar açıldı. Onu da qeyd etmək lazımdır ki, sovet məkanında Azərbaycanın beynəlxalq aləmə birbaşa çıxışı mümkün olmamışdır. Azərbaycanda xarici siyasətlə bağlı fəaliyyət göstərən qurumlar isə formal xarakter daşımışdır.

Ümummilli lider H.Əliyev - Azərbaycan vətəndaşlarının təhsil hüququnu tam təmin etmək milli təhsil konsepsiyasının müddəalarını gerçəkləşdirmək, təhsil sistemində aparılan islahatları sürətləndirmək, idarəetmənin mexanizmini təkmilləşdirmək, təhsildə maddi texniki bazanın səmərəliliyini artırmaq məqsədilə qarşımızda bir çox vəzifələr durduğunu qeyd etmişdir. Müstəqil Azərbaycan Respublikasında təhsil sahəsində geniş miqyaslı islahatlar həyata keçirilirdi. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 iyun tarixli sərəncamı ilə təsdiq edilmiş islahat proqramından irəli gələn məsələlərin həlli, o cümlədən təhsilin idarə olunmasında yeni prinsiplərin bərqərar olması, təhsilin dünya standartlarına uyğunlaşdırılması, onun məzmununda köklü keyfiyyət dəyişikliklərinin aparılması təhsil sisteminin təkmilləşdirilməsini bir vəzifə olaraq qarşıya qoyurdu.

Ulu öndər Heydər Əliyev xaricdə təhsil alan gənclərimizi daim diqqət mərkəzində saxlayırdı. Gənclərimizi xaricdə təhsil almağa yola salarkən də öz tövsiyələrini və məsləhətlərini verirdi. Ulu öndər 1994-cü ildə Türkiyədə təhsil alacaq tələbələrlə görüşündə də onlara öz tövsiyyə və məsləhətlərini verərək bildirmişdir: "Türkiyə Universitetlərinə qəbul olunmuş tələbələr sizə tövsiyəm bundan ibarətdir ki, Türkiyə Universitetlərinin bütün intellektual imkanlarından səmərəli istifadə edəsiniz və gələcəkdə xalqımıza, millətimizə sədaqətlə xidmət edəsiniz".

Azərbaycanda formalaşmaqda olan Avropa ali təhsil məkanı, 1999-cu ildə Boloniya prosesinin başlanmasından sonra daha məqsədyönlü və konkret istiqamət almağa başladı. Nəhayət, 2005-ci ildə Azərbaycanın rəsmi olaraq Boloniya prosesinə qoşulması və bu sahədə öz üzərinə konkret vəzifələr və öhdəliklər götürməsi onun məqsədlərinin dönməz olduğunu qəti olaraq sübut etdi. Azərbaycanın ali təhsil sistemi qarşısında duran problemlərdən biri təhsilin keyfiyyətinin, təhsilini başa vuran mütəxəssislərin hazırlıq səviyyəsinin ümumavropa səviyyəsinə yüksəldilməsi məsələsidir. Azərbaycan Respublikasının Boloniya prosesinə qoşulması tarixi inkişafın tələblərindən irəli gələn bir zərurət idi. Azərbaycan ali təhsilinin müstəqilləşməsi və inkişaf etməsi məqamında qabaqcıl Avropaya meyl etməsi ona inteqrasiya, Avropa vahid ali təhsil məkanına daxil olaraq öz işini onun standartları əsasında qurması uğurlu gələcəyə aparır.

Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olduğu sovet dövründə (1969-1982-ci illər) respublika üçün yüksək ixtisaslı mütəxəssis hazırlığı məsələsini daim diqqət mərkəzində saxlayırdı. Kadr yetişdirilməsinə xüsusi əhəmiyyət verən Ümummilli lider Heydər Əliyev Azərbaycan gənclərinin SSRİ-nin böyük şəhərlərində təhsil almaları üçün səylər göstərirdi. Heydər Əliyevin Respublikaya rəhbərliyi dövründə on mindən çox Azərbaycanlı tələbə ittifaqın ali məktəblərini bitirmişdi. Bu dövrdə dünyanın 70-dən çox ölkəsindən iki mindən çox əcnəbi tələbə Azərbaycanın ali məktəblərində təhsil almışdı.

Beləliklə, ən yeni dövrdə - XX əsrin 70-90-cı illərində Azərbaycan təhsilinin inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA POÇT RABİTƏSİNİN INKİŞAFI (1969-1982-ci illər)

***Kərimli S.S.***

*Sumqayıt Dövlət Universiteti*

Heydər Əliyev 1969-cu ildə Azərbaycanda rəhbərliyə gələnə qədər bir çox sahələrdə olduğu kimi, rabitədə də problemlər var idi. Dövlətin rəhbər işçiləri və Rabitə Nazirliyinin mütəxəssisləri bu vəziyyətlə razılaşır və heç bir çıxış yolu axtarmırdılar. Nəhayət, Heydər Əliyevin respublikaya rəhbər vəzifəyə gəlməsi ilə rabitədə inkişaf mərhələsinin əsası qoyuldu.

Heydər Əliyevin rəhbərliyi illərində poçt sahəsi də inkişaf yoluna qədəm qoydu. Bakı şəhərində mövcud olan Bakı poçtdaşıma şöbəsi istehsalat sahələrinin darısqallığı və şəraitsizliyi, bütün proseslərin əl əməyi ilə fasiləsiz həyata keçirilməsi tələb olunan qədər

məktubların, qəzet və jurnalların, bağlamaların vaxtında çeşidlənib göndərilməsinə imkan vermirdi.

Bütün bunları aradan qaldırmaq məqsədilə respublika rəhbəri Heydər Əliyevin dəstəyi sayəsində Bakı şəhər Dəmiryoluyanı Poçtamt binasının tikintisinə qərar verildi. Avtomatlaşdırmanın geniş tədbiqi nəticəsində əl əməyi 80% yüngülləşdirildi. Bu da respublikaya daxil olan və və buradan gedən poçt göndərişlərinin vaxtında çeşidlənib ünvanlarına çatdırılmasına şərait yaratdı. Nəticədə, 1982-ci ildə burada 193 mln. məktub, 731 mln. nüsxə qəzet və jurnal, 2.12mln bağlama çeşidlənib göndərilirdi.

Respublikada dövrü mətbuatın digər respublikalara nisbətən tez çapdan çıxması və oxuculara vaxtında çatdırılması məsələsində də geriləmələr vardı. Bu məsələ də Heydər Əliyevin göstərişi ilə Mərkəzi Komitənin Bürosunda müzakirə edildi, vəziyyəti normallaşdırmaq üçün ciddi tədbirlər görüldü. 1970-ci illərin əvvəllərində “Kommunist” mətbəəsinin 1-ci, 2-ci, 3-cü mərtəbələri mətbuat yaymı üçün layihələşdirildi.

Mətbuatın vaxtında çıxması barədə Rabitə Nazirliyinin cədvəl layihəsi nəzərə alındı, nəşriyyatın texniki bazasını möhkəmləndirmək üçün xeyli məbləğdə vəsait ayrıldı, Almanyadan yeni keyfiyyətli müasir poliqrafiya maşınları gətirildi və qısa müddətdə nəşriyyatın işində ciddi dönüş yaradıldı.

Nəticədə, qəzetlər əvvəlkindən 3-4 saat tez çap edilməyə başladı və dövri mətbuatı oxuculara vaxtında çatdırılması üçün rabitəçilərin qarşısında geniş imkanlar yarandı.

1970-1980-ci illərdə poçt rabitəsində bir sıra tədbirlər planı həyata keçirildikdən sonra poçtun maddi-texniki bazası xeyli yaxşılaşdı. Rabitə Nazirliyinin Hava-Nəqliyyat İdarəsi ilə birlikdə keçirdiyi tədbirlər nəticəsində respublikanın rayonlarında yeni aeroportlar açıldı, istifadədə olan aeroportlar isə xeyli genişləndirildi, beləliklə, dövri mətbuatın və poçt göndərişlərinin yerlərə çatdırılması işi xeyli sürətləndirildi, nəticədə qəzetlərin 80 faizinin çapdan çıxan gün oxuculara çatdırılması təmin edildi, habelə ən ucqar kəndlərə də poçtun çatdırılması yaxşılaşdırıldı.

Belə ki, 1970-ci ildə çatdırılan məktubların sayı 74 mln-dan 1980-ci ildə 112 mln-a qalxdı.

Qeyd edilən müddətdə ölkə rəhbəri Heydər Əliyevin göstərişləri ilə teleqraf şəbəkəsi də nəzərəçarpacaq dərəcədə inkişaf etdirildi. Bakı teleqrafında teleqraf şəbəkəsi üzrə teleqramların avtomatik ötürülməsini təmin etmək üçün PS (birbaşa birləşmə) sistemilə işləyən 280/120 tutumlu dekad-addımlı APS-Ş tipli stansiya istifadəyə verildi. Respublikanın son teleqraf məntəqələri (rayon rabitə qovşaqları və şəhər rabitə şöbələri) APS-Ş stansiyasına qoşuldu.

Bakı Teleqrafının yeni binasında 1982-ci il yanvar ayının 23-də saat 00.00-da 2000/1817 tutumlu “Nikola-Tesla” (Yuqoslaviya istehsalı) koordinat tipli kommutasiya kanallı teleqraf stansiyası istismara verildi. “Nikola-Tesla” stansiyasında Teleks rabitəsi üçün şəbəkənin təmini keçmiş ittifaq respublikaları arasında ilk dəfə Azərbaycanda tədbiq edildi.

Böyük tutumlu bu stansiya yüksək texniki göstəricilərə və etibarlılığa malikdi. Respublikanın bütün son teleqraf məntəqələrinin, abunəçi teleqraf-(AT) və Teleks şəbəkəsi üzrə abunəçilərin, həmçinin magistral istiqamətdə böyük şəhərlərin “Nikola-Tesla” stansiyasına qoşulma işləri uğurla həyata keçirilməyə başlandı.

# AZƏRBAYCAN DİLİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN DİL SİYASƏTİNİN ƏVƏZSİZ ROLU

***Kərimova D.A.***
*Sumqayıt Dövlət Universiteti*

Belə bir deyim var ki: "xalqın, millətin nəyini əlindən alırsansa al, o yaşayacaqdır. Dilini əlindən alsan, o, milli varlığını itirər, millət kimi yox olar." Bu, tarixin ortaya qoyduğu bir həqiqətdir. Dil millətin mənəviyyat bayrağı, milli mənlik və qürurudur. Dil yoxdursa, xalq da yoxdur.

Heydər Əliyev və Azərbaycan dili! Bu iki ad XX əsrin 60-cı iliərindən həmişə qoşa çəkilmişdir. Çünki Ulu Öndər Heydər ƏIiyev Azərbaycanda səlahiyyət sahibi olduğu andan 1969-cu ildən bu günə kimi Azərbaycan dilinə təkcə adi ünsiyyət vasitəsi kimi deyil, onu həmçinin dövlət siyasətinə çevirmiş, bir an da olsa, diqqətdən yayındırmamışdır. Dilimizin inkiaşafı, qorunması, fəaliyyət dairəsinin genişlənməsi kimi tarixi missiyanın yerinə yetirilməsində Ulu Öndər Heydər ƏIiyevin müstəsna rolu danılmaz faktdır və heç kim bunu inkar edə bilməz. XX əsrin II yarısında Azərbaycan dilinin hərtərəfli inkişafı, ümumişlək dilə, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın hegemon dövlətlərinin və ən yüksək beynəlxalq cəmiyyətlərin və təşkilatların kürsülərində səslənməsi bilavasitə qəlbimizdə həmişəyaşar liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bu iş Heydər Əliyevin həyat amalında, fəaliyyətində xüsusi yer tuturdu. Ana dilimizin əhəmiyyətini dəyərləndirərkən Ulu Öndərimiz deyirdi: "Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir". Dövlət dilinin qorunması və işləkliyinin təmin edilməsi ölkəmizdə müstəqil dövlət quruculuğunun prioritet istiqamətlərindəndir. Ümummilli liderimiz Heydər Əliyev hələ sovet dövründə mərkəzin ciddi müqavimətinə baxmayaraq, respublikamızda Azərbaycan dilinin dövlət dili statusunun 1978-ci il Konstitusiyasında əks olunmasına nail ola bilmişdi. Buna görə də Heydər Əliyevin prinsipiallığı nəticəsində 1978-ci il Konstitusiyasına məşhur "*Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan SSR-də rus dilinin bütün orqanlarda və idarələrdə hüquq bərabərliyi əsasında azad sürətdə işlədilməsi təmin edilir*." adlı 73-cü maddə daxil edildi. 1991-ci il dekabrın 25-də Azərbaycan Ali Soveti latın qrafikalı Azərbaycan əlifbasının bərpa olunması ilə bağlı qərar qəbul etdi. 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında (21-ci maddə) Azərbaycan dili dövlət dili kimi təsbit olundu. Bütün bunların həyata keçirilməsində Böyük öndərimiz Heydər Əliyevin apardığı dil siyasətinin çox mühüm önəmi, əhəmiyyəti vardır. Müstəqillik illərində də böyük öndər Heydər Əliyev Azərbaycan dilinə, ədəbiyyatına, mədəniyyətinə böyük qayğı göstərirdi. Türk dünyası yazıçılarının 1996-cı il noyabrın 6-da keçirilmiş III qurultayında: Ulu öndər Heydər Əliyev *söyləmişdir ki: "Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilirik."*

Heydər Əliyev 18 iyun 2001-ci il tarixdə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzaladı. Bu fərmanda deyilir: *"Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Müstəqil dövlətimizin rəsmi dili statusunu almış Azərbaycan dilinin geniş tətbiq edilməsi və sərbəst inkişafı üçün münbit zəmin yaranmışdır. Tarixin müxtəlif mərhələlərində dilimizə qarşı edilmiş haqsızlıqların, təzyiq və təhriflərin nəticələrinin aradan qaldırılması üçün hazırda ölkəmizdə çox əlverişli şərait mövcuddur. Dil öz daxili qanunları əsasında inkişaf edirsə də, onun tədqiq və tətbiq edilməsi üçün yaradılmış geniş imkanlar bu inkişafın daha sürətli və dolğun olmasına təkan verir.*

*Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmləndirmişdir. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur".*

Ulu Öndər Heydər Əliyev latın qrafikalı əlifbanın tətbiqinin Azərbaycanının siyasi həyatında, yazı mədəniyyətinin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq 2001-ci il avqust ayında "Azərbaycan dili Gününün təsis edilməsi haqqında" fərman imzaladı. Həmin fərmanla *1 avqust* - Azərbaycan əlifbası və Azərbaycan dili günü elan edildi. Həmin vaxtdan etibarən hər il avqust ayının 1-i Azərbaycan Respublikasında Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilir

Dilimizin inkişafında Heydər Əliyev qayğısının parlaq təzahürü olan fərman və sərəncamlar o cümlədən, "Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu" (30 sentyabr 2002-ci il), "Azərbaycan Respublikasının dövlət dili haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası prezidentinin fərmanı (02 yanvar 2003-cü il) və habelə dil və təhsil quruculuğu ilə əlaqədar olan normativ sənədlər, aktlar, təlimatlar və metodik göstərişlərdən irəli gələn tələblər ali məktəblərin fəaliyyətində və təcrübi işlərində də geniş şəkildə tətbiq edilir.

Ümummilli liderimiz Heydər Əliyevin qayğısı sayəsində ana dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırıldı, onun hüquqları qorundu, cəmiyyətdəki mövqeləri tam bərpa edildi.

Müstəqil Azərbaycan dövləti bütün sahələrdə olduğu kimi, dil siyasətində də ulu öndərin strateji kursuna sadiq qalaraq onun siyasi xəttini dönmədən və uğurla həyata keçirir.

# HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFINI TƏMİN ETDİ

***Qasımova F.M.***
*Azərbaycan Dövlət Pedoqoji Universiteti*

26 il də Azərbaycanın böyük inkişaf yolu keçməsi dünya miqyasında qəbul olunan reallıqdır. 26 ildə əzəmətli ölkəyə çevrilən, beynəlxalq hüquq məkanında öz mövqeyini qətiyyətli şəkildə ifadə edən Azərbaycan, hər bir azərbaycanlının qürur mənbəyinə çevrilib.

Müstəqil Azərbaycan təhsilinin ən səmərəli mərhələsi ulu öndər Heydər Əliyevin siyasi və dəvlətçilik fəaliyyəti ilə bağlıdır. Elə bu gün də həyata keçirilən həmin mərhələ təhsilin əsl tərəqqi və dövrü kimi Azərbaycan tarixinə daxil olub. Keçən əsrin 70-ci illərindən başlayaraq ölkəmizdə sürətlə inkişaf edən sosial-iqtisadi və mədəni quruculuq işləri başladı. Bu tarixi misiyanı 34 ildən artıq bir müddətdə uğurla davam etdirən ümummilli lider Heydər Əliyev elm, təhsil və mədəniyyət sahəsində həyata keçirdiyi tədbirlər bu gün ki, Azərbaycan təhsilinin uğurları üçün geniş zəmin yaradılmasını təmin etmişdir.

XX əsrin 60-cı illərinin sonundan başlayaraq -1987-ci ilədək respublikada elm və təhsilin inkişafı daim diqqət mərkəzində olmuş, Azərbaycanın intellektual səviyyəsinin artırılması naminə gənclərə xüsusi qayğı göstərilmişdir. Təhsildə islahatlar sistematik şəkil almış, yeni ali məktəblər və onların filialları yaradılmışdır. SSRİ-nin qabaqcıl ali məktəblərinə azərbaycanlı gənclərin göndərilməsi kütləvi hal almışdır. 1970-ci ilədək Azərbaycandan digər respublikalara ali təhsil almağa göndərilənlər içərisində azərbaycanlılar 40 faiz təşkil edirdisə, aparılan uğurlu təhsil siyasəti nəticəsində 1980-ci ildə 97,6 faizə yüksəlmişdir. Qısa müddətdə Azərbaycanın yeni tipli milli kadr bazası yaradılmışdır. Həmin illərdə ali məktəblərin həyatında da əsl dönüş baş vermişdir. Belə ki, 1980-cı ildə Azərbaycanda ali təhsil müəssələrinin sayı artmış, təhsilin səviyyəsi yüksəlmiş, tədris prosesi yaxşılaşmışdı. Artıq Azərbaycanda ali məktəblərin sayı 1969-cu ildəki 12-dən 17-yə çatmışdı. Ölkədə 75 orta ixtisas məktəbi fəaliyyət göstərirdi.

1987-ci ildə Heydər Əliyevin hakimiyyətdən kənarlaşdırılmasından sonra Azərbaycanda təhsilə, elmə, mədəniyyətə qayğı unuduldu. Təhsilimizdə başlanan tənəzzül XX əsrin 80-ci illərinin sonu-90-cı illərin əvvəllərində daha geniş xarakter almışdı. Müstəqillik haqqında tarixi qərarın qəbul olunmasından sonra milli təhsilimizin inkişafı naminə müəyyən təşəbbüslər göstərildi. 1992-ci ilin sonlarında "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu da qəbul edildi. Təhsilin məzmununun yeniləşdirilməsi və digər sahədə də təşəbbüslər edildi. Ancaq görülən bəzi tədbirlərə baxmayaraq 80-90-cı illərdə özünü göstərən geriləmə və tənəzzül 1991-1993-cü illərdə xüsusilə geniş miqyas aldı. Mənfur qonşularımız olan ermənilər Azərbaycana qarşı irəli sürdükləri əsassız torpaq iddialarına başladılar. Dağlıq Qarabağın, onun ətrafındakı rayonların düşmən tərəfindən işğalı nəticəsində təhsilimizə böyük maddi zərbə dəymiş, 220 körpələr evi-uşaq bağçası, 616 ümumtəhsil məktəbi, 35 məktəbdənkənar tərbiyə müəssisəsi, 11 peşə məktəbi, 4 orta ixtisas təhsil müəssisəsi, 1 ali məktəb filialı, darmadağın edilmişdi. Ulu öndərin 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıdışından sonra bütün sahələrdə

olduğu kim, elm və təhsil sahəsində də böhran və tənəzzülün qarşısı alındı. Milli təhsil sisteminin inkişaf etdirilməsi üçün əlverişli şərait yarandı. 1993-1994-cü tədris ilindən ali təhsildə iki pilləli sistemə keçirildi.

Müstəqilliyimizin ilk illərindən başlayaraq Azərbaycanda özəl təhsil müəssisələri fəaliy-yətə başladı. 1998-ci ildə Azərbaycanda artıq dövlət qeydiyyatından keçmiş 17 özəl ali məktəb fəaliyyət göstərirdi. Bununla birlikdə bu illərin ən mühüm yeniliklərindən biri də dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla tələbə qəbulunun tətbiqi idi. Ali təhsil pilləsində ödənişli təhsil barədə Heydər Əliyevin 1995-ci ildə imzaladığı tarixi sərancam bu pillənin sonrakı illırdə ardıcıl inkişafı üçün real zəmin yaratdı. Azərbaycan elminə və təhsilinə böyük qayğı ilə yanaşan Heydər Əliyev elə ilk günlərdən alimlər, ziyalılarla görüşlər keçirdi. Keçirilən görüşlərdən sonra Azərbaycanda elmin və təhsilin gələcək inkişaf yolarına dair islahatlar proqramının hazırlanmasına başlandı. Heydər Əliyevin 30 mart 1998-ci il tarixli sərəncamı ilə yaradılan Dövlət Komissiyası tərəfindən qısa müddətdə hazırlanmış “Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı” geniş müzakirə-lərdən sonra 1999-cu il iyunun 15-də ayrıca sərancamla təsdiqləndi. Müstəqilliyimizin ilk illə-rindən təhsilə xüsusi qayğı göstərildi. Büdcədən ayrılan vəsaiti ildən-ilə artırırdı. Əgər 1990-cı illərdə təhsilə büdcədən 113,2 milyard manat vəsait ayrılmışdısa, bu rəqəm 2003-cü ildə, 1990-cı ilə nisbətən 10 dəfədən çox artırılaraq 1216 milyard manata çatmışdı.

Müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi bu illərdə daim diqqət mərkəzində olmuşdu. 1993-2003-cü illərdə təhsil işçilərinin əmək haqqı 9 dəfə artırılmışdı. Xaricdə dövlət hesabına təhsil alan tələbələrin sosial vəziyyəti hər il diqqət mərkəzində olmuşdur. Azərbaycanda təhsil sisteminin təkmilləşdirilməsində, beynəlxalq standartlara uyğunlaşdırılmasında və dünya təhsilinə inteqrasiyası sahəsində əsaslı işlər görülmüşdür. Bu işə 2000-ci il 13 iyun tarixli “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” fərman əsas zəmin yaratmışdı. Bir sıra universitetlərə muxtariyyət verilmişdi.

Milli təhsil sisteminin inkişafında mühüm amil məktəb tikintisinin genişlənməsi və ümumtəhsil məktəblərinin maddi-texniki bazanın möhkəmləndirilməsidir. Bu sahədə 2002-ci il 4 oktyabrda və 17 fevral 2003-cü ildə verilmiş fərmanlar mühüm amil olmuşdur. Təhsilimizə göstərilən dövlət qayğısının nəticəsidir ki, son illər 2161 yeni məktəb binası tikilmiş, əsaslı təmir edilmiş və müasir avadanlıqlarla, təmin edilmişdir.

Ulu öndərin təməlini qoyduğu nəhəng quruculuq işləri, layiqli davamçısı, müasir təfəkkürlü siyasətçi cənab prezidentimiz İlham Əliyev tərəfindən böyük uğurla həyata keçirilir. Ölkəmizə rəhbərlik etdiyi 2003-cü ildən üzü bəri keçən illərdə təhsilə qayğı, onun inkişafına ayrılan xərclər ildən-ilə artmışdır. Belə ki, təhsilə ayrılan büdcə 2003-cü illə müqayisədə 6 dəfədən çox artaraq 2010-cu ildə 1,2 milyard manata çatmışdı.

Genişmiqyaslı təhsil islahatlarının başlanmasına start verən, Heydər Əliyevin imzaladığı “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat proqramının” qəbulundan keçən on iki il ərzində milli təhsilimizin yenidən qurulması və dünya standartlarına uyğunlaşdırılmasına yönəl-dilmiş daha 16 dövlət proqramı qəbul edilmişdir. Məktəblərin infrastrukturunun yeniləşdirilməsi istiqamətində Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2005-2010-cu illərdə 300-dən çox yeni məktəb və uşaq bağçası tikilib istifadəyə verilmişdi.

Gənclərin qayğısına qalan Prezident İlham Əliyev 2005-ci ilin aprelində “Aspirantların, ali, orta ixtisas, peşə litseylərinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında” sərəncam imzalamaqla Müstəqil Azərbaycan təhsilinin inkişafına rəvac vermişdi. Bütün universitetlərin maddi-texniki bazası əsaslı şəkildə yeniləşdirilib. Ən əsası isə 2009-cu ildə “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsidir. Müstəqillik illə-rində dövlət səviyyəsində təhsil işçilərinin fəaliyyətinin maddi və mənəvi stimullaşdırılması sahəsində əhəmiyyətli addımlar atılıb. İlk dəfə olaraq ölkə prezidenti tərəfindən “Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında” 4 sentyabr 2007-ci il tarixli sərəncam imzalanıb, 2008ci ildən baş-layaraq “Ən yaxşı müəllim” müsabiqələri keçirilir. Xidmətlərinə görə çox saylı təhsil işçiləri yüksək dövlət təltiflərinə, fəxri adlara və fərdi təqaüdlərə layiq görülmüşlər.

Heydər Əliyevin təhsili siyasətini uğurla davam etdirən ölkə Prezidenti İlham Əliye-vin 22 may 2009-cu ildə imzaladığı “2009-2013-cü illərdə Azərbaycan Respublikasında ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı” indiyə qədər qəbul olunmuş proqramları içərisində ilk sənəddir ki, ali təhsilin inkişafının nmüəyyənləşdirilməsinə həsr edilmişdir.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR

***Qasımova G.B.***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Azərbaycan xalqının əsrlər boyu formalaşmış yüksək mənəvi dəyərlərini pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya Ulu öndər Heydər Əliyevin üzərinə düşmüşdür. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Bu baxımdan Ulu Öndər gənclərimizin milli-mənəvi dəyərlər əsasında tərbiyələndirilməsindən bəhs edərək demişdir: “…Biz öz milli-mənəvi dəyərlərimizi, adət ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik”. Ulu öndər xalqda milli heysiyyatı gücləndirmək, onu öz şanlı keçmişinə, soy-kökünə qaytarmaq, habelə zəngin bədii irsini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün bir sıra tədbirlər həyata keçirmişdir.

Ulu öndərin ana dilindəki nitqləri tarixi məna kəsb edirdi. Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi ilə başlanan milliləşmə prosesi, mən deyərdim ki, bu nitqlərin təsiri ilə başladı. Həm də mühümü odur ki, onlar əyalətdə, xalq kütləsinin içində başladı. Sonralar Ulu öndər Bakıdakı tədbirlərdə də ana dilində danışmaq üçün fürsətlər tapdı. Yaradıcılıq ittifaqlarının, xüsusilə Yazıçılar Birliyinin məclislərində Azərbaycan türkcəsində parlaq çıxışlar etməyə başladı. Rəhbərin rəsmi partiya tədbirlərindəki çıxışları ana dilimizin heç vaxt işlənməmiş siyasi üslubunu yaratmışdı. Bunun özü də tarixi bir xidmət idi. Yad dildə

danışan dövlət milli ola bilməz.. Ümummilli liderin gözəl nitqi yazıçıları, ədəbiyyatçı alimləri, illərlə mühazirələr oxuyan professorları da heyran qoyurdu.. Heydər Əliyev bu dilin parlaq təcəssümü olan bir mühitdə, sadə azərbaycanlı ailəsində formalaşmışdı. Ümummilli liderin canlı ana dilini öz nitqi ilə zinətləndirməsi onun bu sahədəki xidmətlərinin bir tərəfi idi. Həmin irsin ikinci tərəfi ulu öndərin rəsmi yolla da ana dilimizin statusunu qaldırmaq üçün misilsiz xidmətləri idi. Bu, 1978-ci ildə Konstitusiya qəbul olunanda Azərbaycan dilinin dövlət dili kimi göstərilməsi idi. İnamla demək olar ki, Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlməsi ədəbiyyat və incəsənətimizdə milli cərəyanın yüksəlişinə səbəb oldu. Ulu öndər Bəxtiyar Vahabzadə, Xəlil Rza, Məmməd Araz, İsa Hüseynov, Anar, Əkrəm Əylisli kimi milli zəminə bağlı və istedadlı sənətkarları daim himayə edirdi. Belə sənətkarlar isə ədəbiyyatın milli varlığımız, dəyərlərimizlə bağlı mövzularını uğurla işləyib inkişaf etdirirdilər.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi rəhbərliyə gələn Heydər Əliyev həyata keçirdiyi dövlət quruculuğu prosesi ilə paralel surətdə mədəni-mənəvi quruculuq və milli-tarixi yaddaşın bərpası işlərinə başladı. Vaxtilə qadağalara məruz qalan, yasaq olunan milli və dini bayramlar, adət və mərasimlər xalqa qaytarıldı. Heydər Əliyev hər il qədim milli bayramımız olan Novruzda əhali ilə bayramlaşmağa çıxır, azad və müstəqil xalqımızın Novruz sevinclərindən xüsusi zövq alırdı. Heydər Əliyev bu tədbirləri təkcə Azərbaycan yox, bütün türk dünyası miqyasında həyata keçirirdi. Ortaq türk mədəniyyəti və mənəviyyatının öyrənilib təbliğ edilməsi, keçmişdən gələcəyə ötürülməsi yönündə müstəsna xidmətlər göstərirdi.

Qeyd edək ki, Novruz bayramının YUNESKO-nun qeyri-maddı irs siyahısına daxil edilməsində Türksoyun müəyyən rolu olmuşdur. Bununla əlaqədar olaraq Türksoy 2010-cu ildə Novruz bayramını Parisdə YUNESKO-nun mənzil-qərargahında qeyd etdi. Ümumiyyətlə, türkdilli ölkələrdə həyata keçirilən tədbirlər, o cümlədən "Türk dillərinin bədii tərcüməsinin problemləri və müasir vəziyyət" (İstanbul) və "Sivilizasiyaların dialoqunda türk dünyasının rolu" (Almatı) mövzularında simpoziumların, müxtəlif kino, teatr və musiqi festivallarının keçirilməsi həmin ölkələr arasında mədəni əməkdaşlığın genişləndirilməsində Türksoyun mühüm rol oynadığını göstərən faktlardır. Türkdilli xalqların mədəni əlaqələrinin inkişafında Türksoyun fəaliyyətinin ulu öndər Heydər Əliyev tərəfindən dəstəklənməsini türkdilli xalqların tarixən formalaşmış ortaq mənəvi dəyərlərinin qorunması sahəsində onun uzaqgörənliyi kimi dəyərləndirmək olar.

Ulu öndərimiz Heydər Əliyev türkdilli xalqların öz milli tarixlərini, doğma dillərini, ədəbiyyatlarını, mədəniyyət və incəsənətini, adət-ənənələrini qorumağı və onları zənginləşdirməyi həmişə dəstəkləmişdir. Bu baxımdan ümummilli lider Heydər Əliyev türkdilli ölkələrin mədəni əlaqələrini həyata keçirən Türksoy təşkilatının fəaliyyətinin genişlənməsinə və Azərbaycanın bu təşkilatın işində fəallıq göstərməsinə həmişə xüsusi diqqət yetirmişdir. Hazırda Azərbaycanın türkdilli ölkələrlə mədəni əlaqələrində Türksoy təşkilatı əsas rol oynamaqdadır. Türksoy təşkilatının əsası 1992-ci ilin yazında İstanbul şəhərində türkdilli dövlətlərin mədəniyyət nazirlərinin birinci görüşü zamanı qoyulmuşdur. Türksoyun idarəetmə orqanlarının strukturu və fəaliyyət mexanizmləri təşkilatın 1992-ci ilin dekabrında Bakıda keçirilən ikinci toplantısında formalaşdırılmışdır. Bundan sonra

"Türksoyun yaradılması və fəaliyyət prinsipləri haqqında Müqavilə" sənədi 12 iyul 1993-cü ildə Almatı şəhərində 6 təsisçi-dövlət və təşkilatın daimi üzvləri – Azərbaycan, Qazaxıstan, Türkiyə, Türkmənistan, Qırğızıstan və Özbəkistan respublikaları tərəfindən imzalanmışdır.

Milli dövlətçilik və milli-mənəvi dəyərlər sıx daxili vəhdətdədir. Yalnız milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın bitkin inkişaf konsepsiyası ola bilər. Ümummilli lider nəinki bu konsepsiyanı yaratdı, həm də çox böyük ustalıqla, səbr və təmkinlə həyata keçirtdi. "Mən fəxr edirəm ki, azərbaycanlıyam!"- deyən ulu öndər bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu.

Ulu öndərin milli-mənəvi dəyərlərin qorunması ilə bağlı 2001-ci il avqustun 13-də verdiyi "Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir"- bəyanatı problemə dövlət rəhbərinin münasibəti idi. "Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik", - deyən ümummilli liderin işıqlı ideyaları bu gün də yaşayır və həyata keçirilir.

Bütün yuxarıda göstərilənlər onu deməyə əsas verir ki, milli-mənəvi dəyərlər və Azərbaycançılıq – bu sözlər hər bir Azərbaycan vətəndaşı üçün doğma, əziz və müqəddəsdir. Bu, həm də milli ruhun, milli şüurun simvolu olaraq tarixi yaddaşın fundamental prinsiplər əsasında formalaşması deməkdir. Xalqımız, millətimiz keçmişin bütün buxovlarından azad olduqdan sonra əlindən zorla alınmış milli-mənəvi dəyərlərin, milli özünüdərkin formalaşmasına yeni zəmin yarandı. Müasir tariximizin səhifələrində yer almış milli oyanış dövründə millətin həmin dəyərlər uğrunda canından belə keçməyə hazır olması, xalqımızın milli dəyərlərə sadiqliyinin nümunəsidir.

## MULTİKULTURAL DƏYƏRLƏR AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ ƏSAS KONPONENTİ KİMİ

***Qasımova N.V***

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

Görkəmli dövlət xadimi, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev tərəfindən inkişaf etdirilən azərbaycançılıq məfkurəsi beynəlxalq arenada dövlətimizin mövqeyinin möhkəmlənməsinə xidmət edir. Azərbaycançılıq konsepsiyası Azərbaycanın müasir sivilizasiyalar sistemində özünütəsdiqi, milli mənliyin identikliyini qoruyub saxlayan ideoloji-fəlsəfi təlimdir. "Heydər Əliyev zamanəsinin böyük filosofu və mütəfəkkiri idi. Onun formalaşdırdığı azərbaycançılıq ideyası milli-siyasi şüurun təməl prinsipi kimi dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Ulu öndərin milli dirçəliş ideyası tezliklə əməli siyasət müstəvisinə keçərək strateji dövlət siyasətinə çevirmişdir**."**

Ulu öndərin ölkəmizi dağılmaq təhlükəsindən xilas edən azərbaycançılıq nəzəriyyəsi hər bir vətəndaşın marağını müdafiə edir. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu öndərin rəhbərliyi ilə, nəhayət ki, inkişaf yoluna çıxmış Azərbaycan Respublıikası,

onun qeyd etdiyi kimi, “dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik” olmalarını təmin etməli idi.

Bu nitqdə söylənən fikirlər tamamilə Azərbaycanda dövlət səviyyəsində aparılan tolerantlıq və multikulruralizm siyasətinin ideya prinsiplərinə uyğundur. Azərbaycanın multimədəni, multikonfessional ölkə olmasını nəzərə alaraq yürüdülən multikulturalizm siyasəti dövlətçiliyimizin, milli təhlükəsizliyimizin daha da möhkəmlənməsində strateji əhəmiyyət daşıyır. Qloballaşan dünyanın kataklizmlərindən sığortalanmaq üçün bu siyasət ən düzgün və alternativsiz yoldur. Multikulturalizm və tolerantlıq müasir azərbaycançılıqda mühüm istiqamətdir. Azərbaycan mədəniyyətlərin inteqrasiyası və tolerantlıq təcrübəsinə malik olan bir ölkədir. Müxtəlif xalqların, konfessiyaların nümayəndələrinin hər biri Azərbaycan vətəndaşı kimi ölkəmizə, dövlətimizə, dinlərə, xalqlar arasında sağlam mühitin əbədi olmasına xidmət edir.

Azərbaycançılıq, multikulturalizm və dini dözümlülük Azərbaycanın malik olduğu ideoloji zənginliklərdir. Müasir demokratik Azərbaycanda sosial hadisə olan multikulturalizm cəmiyyətin nümunəvi birgəyaşayış normasına çevrilmişdir. Beynəlxalq aləmdə Azərbaycanın siyasi nüfuz qazanmasında azərbaycançılıq və multikulturalizm siyasi doktrinaları tarixi əhəmiyyət daşımaqla bərabər mədəniyyətimizin dünyaya çatdırılmasında müstəsna rol oynayır. 2014-cü il mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı. Bu fərmanla mövcud tarixi mədəni müxtəliflik və milli özünəməxsusluq ənənələrinə rəsmi status verilmiş oldu. Mütəmadi olaraq Mərkəz tərəfindən tədbirlər həyata keçirilir. Respublikada aparılan multikulturalizm siyasəti fonunda azərbaycançılıq ideologiyasının inkişaf etdirilməsi dünya təcrübəsində qəbul olunmuş yenilikdir. Bu fakt dünya miqyasında ölkəmizə olan marağı daha da artırır.

Azərbaycanda çoxmədəniyyətlilik mühitinin formalaşmasında və onun qorunub saxlanmasında ölkəmizin UNESCO ilə əməkdaşlığı çox böyük əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının birinci xanımı, Azərbaycan Respublikası Prezidentinin I vitse-Prezidenti və Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti nəyicəsində Azərbaycan- UNESCO münasibətləri ən yüksək inkişaf səviyyəsinə yüksəlib. Bu əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikası mədəni müxəlifliyin qorunması üçün UNESCO-nun iki mühüm konvensiyasını ratifikasiya etdi. Bunlar “UNESCOnun Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqinə dair Konvensiya” və ”Dözümlülük Prinsipi Haqqında Bəyənnamə“dir. Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqinə dair Konvensiya 20 oktyabr 2005-ci ildə UNESCO-nun 33-cü sessiyasında qəbul olunmuş və 18 mart 2007-ci ildə qüvvəyə minmişdir. Azərbaycan Respublikası bu konvensiyaya 26 noyabr 2009-cu ildə qoşulmuşdur.

Bu sahədə aparılan uğurlu fəaliyyət beynəlxalq ictimaiyyətdə Azərbaycan xalqı haqqında müsbət fikirlər aşılamaqla bərabər dövlətimizin siyasi nüfuzunun yüksəldilməsinə xidmət edir. Müharibə şəraitində olan bir ölkə kimi büynəlxalq ictimai rəyi öz lehimizə istiqamətləndirmək, Azərbaycan-Ermənistan silahlı münaqişəsinin müsbət məcrada həllinə dəstək ola bilər. Bu mənada ölkədə yaradılmış multikultural mühit, sabitlik xarici

investorların ölkə iqtisadiyyatının inkişafına cəlb edilməsi maliyyə resurslarımızın artımına köməklik göstərir. İqtisadiyyatımızın dinamik inkişafının məntiqi nəticəsi kimi deyə bilərik ki, Azərbaycan reqionun aparıcı ölkəsidir və bu sahədə aktorluğu qorumağa çalışır. Respublikamız reqionda həyata keçirilməsi nəzərdə tutulan heç bir siyasi, iqtisadi, mədəni layihədən kənarda qalmır. Məhz ölkədə aparılan mütərəqqi, demokratik, düzgün siyasətin atributu kimi formalaşmış multikultural və tolerant vətəndaş cəmiyyətinin fəaliyyətnin nəticəsidir ki, XXI yüzillikdə qloballaşma və inteqrasiya fonunda Azərbaycan Respublikası dünyaya bir nümunədir. Ölkədə keçirilən iqtisadi, siyasi və mədəni tədbirlər beynəlxalq reytinqimizin artmasında böyük rol oynayır.

Gənc nəslin muktikulturalizm ruhunda tərbiyə olunması məqsədilə bütün ali təhsil ocaqlarında "Azərbaycan multikulturalizminə giriş" fənni mühazirələr formasında oxunulur. Multikulturalizmin Azərbaycan modelinə dünya dövlətləri tərəfindən xüsusi marağın nəticəsidir ki, hazırda bir çox Avropa və Asiya universitetlərində, o cümlədən, Rusiyanin qabaqcıl təhsil müəssisələrində "Azərbaycan multikulturalizmi" inteqrativ fənn olaraq tədris olunur.

Azəbaycan Respublikasının Prezidenti İlham Əliyevin çoxvektorlu siyasəti nəticəsində dövlətimiz müasir dünyada multikultural və tolerant ölkə imicini qazanmağa müvəffəq olmuşdur. Bu gün suveren və müstəqil Azərbaycan dünyada qəbul olunmuş multikulturalizm mərkəzlərindəndir.

## HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ HƏYATA KEÇİRİLƏN MƏDƏNİ TƏDBİRLƏR (1993-1998-ci illər)

***Qocayev S.M.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bütun sahələrdə olduğu kimi mədəni sahədə də inkişaf başladı. Bu inkişaf Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə II dəfə qayıdışından sonra daha da sürətləndi. 1993 - cü ildən başlayaraq Respublikada mədəni - maarif sahəsində bir sıra tədbirlər həyata keçirildi.

1993-cü idən ali məktəblərdə təhsil iki pilləli sistem olmaqla bakalavr və magistr pillələrinə keçildi. Özəl ali təhsil müəssisələri meydana gəldi. Minlərlə gənc xaricdə təhsil almaq imkanı qazandı. Bakıda Cəlil Məmmədquluzadənin, Niyazinin, Hüseyn Cavidin ev muzeyləri yaradıldı.

Xalqın mənəvi aləmini zənginləşdirmək, onu özünə və başqalarına daha yaxşı tanıtmaq üçün elm, təhsil, ədəbiyyat və incəsənətin bütün mümkün vasitələrindən istifadə edilirdi. 1997 - ci ilin noyabrında qəbul olunmuş "Mədəniyyət haqqında" qanun bu sahədə fəaliyyət istiqamətlərini müəyyənləşdirmişdir.

1996-cı ilin payızında Füzulinin 500 illik yubileyinə, dünyanın hər yerindən qonaqlar - ədəbiyyatşünas alimlər, yazıçılar gəlmişdi. Həmin il Əliağa Vahidin, bəstəkar Müslüm Maqomayevin , görkəmli alimlər Yusif Məmmədəliyevin, Sara Aşurbəylinin, alim və dövlət xadimi Vəli Axundovun, şairlər Bəxtiyar Vahabzadənin, Qabilin, rəssam Maral Rəhmanzadənin, 1997 - ci ildə ölməz şair Səməd Vurğunun, görkəmli alim, dövlət xadimi,

səhiyyə təşkilatçısı Əziz Əliyevin, akademik Həsən Əliyevin, görkəmli opera müğənniləri Şövkət Məmmədovanın, Bülbülün, dünya şöhrətli musiqiçi, Azərbaycanda böyüyüb boya - başa çatmış Mstislav Rastropoviçin, 1998 - ci ildə dahi bəstəkar Qara Qarayevin, böyük şair Məhəmmədhüseyn Şəhriyarın, Mikayıl Müşfiqin, Aşıq Ələsgərin, yazıçı Mir Cəlalın və başqalarının yubileyləri geniş qeyd olundu.

Azərbaycan Mədəniyyət Fondu yanında azsaylı xalqların mədəniyyətinin qorunması və inkişafı üzrə şura yaradıldı. Ləzgi, talış, udin, saxur, slavyan, yəhudi və başqa xalqların mədəniyyət mərkəzləri fəaliyyətini xeyli genişləndirdi.

Bu illərdə Azərbaycan elmi bir sıra mühüm nailiyyətlər əldə etmişdi. Azərbaycan alimləri mühüm əhəmiyyəti olan 100 - dən çox kəşflər etmişdilər.

Prezident Heydər Əliyevin tarixçi alimlər qarşısında " Azərbaycan tarixi"nin, xüsusən XIX və XX əsrlərin tarixinin əhatəli və obyektiv şəkildə öyrənilməsi vəzifəsini qoydu. Yeddi cildli " Azərbaycan tarxi " yazılıb nəşr olundu.

1997-ci ilin noyabrında Azərbaycan yazıçılarının X qurultayı keçirildi. Qurultay Azərbaycan ədəbiyyatının yeni perspektivlərini müəyyən etdi.

Teatrın inkişafında yeni mərhələ başladı. Dövlət teatrları ilə yanaşı ictimai, özəl, teatrlar da meydana gəldi. XX əsrin sonunda Respublikada 20 - dən çox dövlət teatrı fəaliyyət göstərirdi.

Bu illərdə Azərbaycan kinosu bütün maddi çətinliklərinə baxmayaraq, inkişaf dövrü keçirirdi. Müstəqil kinostudiyalar təşkil olunmuşdu.

"Yarasa " bədii filmi 1996-cı ildə Fransada Birinci plan Beynəlxalq kinofestivalında " Avropanın ən yaxşı tam metrajlı bədii filmi adına layiq görüldü. "

Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra respublikanın şəhər və qəsəbələrində meydanlar, parklar Leninin, Şaumyanın, Dzerjinskinin, Kirovun və digərərinin heykəl və abidələrindən təmizləndi. Dağüstü parkda " Şəhidlər Xiyabanı " salındı. 1998 - ci ilin oktyabrında Şəhidlər Xiyabanında azadlıq uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsini əbədiləşdirən 21 metr hündürlüyündə abidənin və əbədi məşəlin açılışı oldu.

Respublikanın idman həyatında da böyük canlanma baş vermişdi. 1997 - ci ildə İlham Əliyev Milli Olimpiya Komitəsinin sədri seçildikdən sonra onun işi daha da canlandı. Bunun məntiqi nəticəsi olaraq 2000 - cı ilin yay olimpya oyunlarında idmançılarımız 2 qızıl və 1 bürünc medal qazandı.

Beləliklə, Heydər Əliyevin 1993 - cü ildə prezident seçilməsi təhsil, elm, ədəbiyyat və incəsənət, idman sahələrinin inkişafında geniş imkanlar açdı.

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANIN TƏHSİL SİSTEMİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU

***Quliyeva N.M., Kərimov M.N***

*AMEA, Arxeologiya və Etnoqrafiya İnstitutu*

Müstəqillik illərində Azərbaycan Respublikasında milli təhsil konsepsiyası həyata keçirilməyə başlandı.1998-ci il martın 30-da Prezident Heydər Əliyevin sərəncamı ilə

Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası təşkil olundu. Dünya Bankı, milli və xarici ekspertlərin köməyi ilə Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramı hazırlandı və Prezident tərəfindən 1999-cu il iyunun 15-də təsdiq edildi. Proqramda Azərbaycan milli təhsil sisteminin strategiyası və konsepsiyası müəyyənləşdirilirdi. Burada təhsilin idarə edilməsində yeni prinsiplərin bərqərar olunması, təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması, dünya təhsil sisteminə inteqrasiyası və əsaslı şəkildə təkmilləşdirilməsi nəzərdə tutulurdu. Dünya Bankı bu proqramın həyata keçirilməsinə kömək üçün 35 ilə 5 milyon dollar həcmində kredit ayırdı. Uşaq və gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə edilməsinin vasitə və yollarını müəyyənləşdirən "2000-2005-ci illərdə Azərbaycan Respublikasının Təhsil Sistemində Tərbiyə Proqramı" hazırlandı və həyata keçirilməyə başlandı.

Prezident Heydər Əliyev 2000-ci il iyunun 13-də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləsdirilməsi haqqında" Fərman verdi.

2000-ci ildə respublika 111 min uşağı əhatə edən 1790 məktəbəqədər müəssisə fəaliyyət göstərirdi.

2000-2001-ci dərs ilində respublikada 4548 dövlət gündüz ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə 1 milyon 654 min şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 165 min müəllim məşğul olurdu. Ümumtəhsil məktəbləri sistemində də dəyişikliklər baş vermişdi. Liseylər, gimnaziyalar yaradılmışdı. Xüsusi istedada malik uşaqlar üçün təmayülləşdirilmiş 225 məktəb (onlardan 7 gimnaziya və 33-ü lisey) fəaliyyət göstərirdi. Bu məktəblərdə 84 min şagird təhsil alırdı.

1993-cü ildən respublikanın ali məktəblərində (incəsənət, mədəniyyət, tibb və idman ixtisasları üzrə məktəblərindən başqa) çoxpilləli ali təhsil – dördillik bakalavr və ikiillik magistratura sistemi tətbiq olunmağa başlandı.1997-ildə magistraturalara ilk qəbul keçirildi.

Prezident Heydər Əliyev 2001-ci ilin sentyabr ayında əlaçı məktəb tələbələrinə Prezident təqaüdü təsis etdi.

2002-2003-cü dərs ilində 10-dan artıq xarici ölkənin ali məktəblərində 882 nəfərdən çox azərbaycanlı tələbə təhsil alırdı. Respublikanın ali məktəblərində 2100 xarici tələbə oxuyurdu.

Ulu öndər Heydər Əliyev yazırdı ki, mən bunu millətin, xalqın, Azərbaycanın bu günü, gələcəyi üçün istəyirəm. Mən 1970-ci ildə xaricdə təhsil alan, tələbələrin sayını 50 nəfərə, 1975-ci ildə 600 sonralar isə 700, 800, 900 və s. çatdırdım.

Azərbaycanda gənc nəslin ümumi mədəni, siyasi səviyyəsinin yüksəldilməsinə diqqət artırılmışdı. Bu məqsədlə 1997-ci ildən başlayaraq ali və orta ixtisas məktəblərində təşkil olunan "Heydər Əliyev məktəbləri" xüsusi əhəmiyyət kəsb edirdi. Bu məktəblərdə gənclərə ölkədə müstəqilliyin, dövlətçiliyin, tərəqqinin təmin olunmasında Heydər Əliyev siyasət sənətinin incəlikləri, xarakterik cəhətləri öyrədilirdi.

Respublikada qaçqın və məcburi köçkünlərin təhsil alması üçün münasib imkanlar yaradılmışdı.

Ulu Öndərin təhsil siyasəti bu gün Müstəqil Azərbaycan gənclərin yetişdirilməsində əsaslı rol oynayır.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN SİYASİ KURSUNDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZƏ MÜNASİBƏTİN PSİXOLOJİ MƏSƏLƏLƏRİ

***Quliyeva Ş.M.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan xalqı tarix boyu yaşadığı çətinliklərə baxmayaraq öz milli-mənəvi dəyərlərini qoruyub saxlamış və nəsildən-nəsilə ötürmüşdür. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə xalqımızın milli-mənəvi dəyərlərinə münaisibəti aktual psixoloji bir məsələ kimi diqqət mərkəzində olmuşdur. Çünki Heydər Əliyev siyasi kursunun əsasında xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, milli mədəniyyətimizin inkişaf etdirilməsi dururdu.Etnik xüsusiyyətlərin mənimsənilməsi milli mədəniyyətlə bilavasitə baglıdır ki bu da böyüməkdə olan gənc nəslə müvafiq yollarla ötürülür. Ulu Öndər böyüməkdə olan gənc nəslin milli-mənəvi dəyərlər əsasında tərbiyə edilməsi və şəxsiyyətinin formlaşdırılmasını öz çıxışlarında xüsusilə tövsiyə edirdi. Sovet rejiminin sərt qanunlarına baxmayaraq Heydər Əliyev milli ənənələrimizin qorunmasina, milli ruhun, milli şüurun formalaşdırılması məsələlərinə xüsusi diqqət yetirirdi. Ulu Öndər milli-mənəvi dəyərlərlə bağlı qeyd edirdi ki, "Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıb və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir". Ümummilli lider müstəqil Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə (1993-2003-cü illər)xalqımızın milli-mənəvi dəyərlərinə xüsusi qiymət vermişdir. 2001-ci ilin avqust bəyanatında milli mentalitetlə bağlı demişdir: " Hər bir xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz indi dünyanın mütərəqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəslin daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik."

Heydər Əliyev milli-mənəvi dəyərlər sistemində üç tərkib hissəsini xüsusi ilə qeyd edirdi: dil, din, adət-ənənə . Qeyd edirdi ki, hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir. Biz azərbaycançılğı qorumaq üçün Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Ulu öndər hər zaman qeyd edirdi ki, hər bir insan və hər bir millət hər şeydən əvvəl, öz xalqının mənəvi sərvətlərinə sahib çıxmalı, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və milli-mənəvi dəyərlərini qorumalıdır.Çünki etnik-milli dəyərlər hər bir xalqın özünəməxsuslugudur və mövcudlugudur, etnos isə öz mövcudlugunu qorumaq üçün ilk olaraq milli-mənəvi dəyərlərinə sahib çıxmalıdır. Azərbaycan dövlət müstəqilliyinin bərpasından sonra Qurban Bayramının qeyd olunmasını rəsmləşdirən Ulu Öndər qeyd edirdi ki, dövlət müstəqilliyimizin bərpasından sonra bu günün rəsmi şəkildə qeyd olunması xalqımızın öz milli və dini ənənələrinə sadiqliyinin parlaq ifadəsidir.

Ümummilli lider Heydər Əliyev xalqımızın mənəvi psixoloji inkişafında, gənclərimizin əxlaqi inkişafında İslamın rolunun əvəzsiz olduğunu qeyd edirdi.

Heydər Əliyevin İslam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası tədbirləri onun xalqa mənəvi bağlılığını və İslam dəyərlərinə sadiqliyini əks elətdirir.

Azərbaycan dilinin dövlət dili kimi qəbul olunmasında Heydər Əliyevın xidmətləri olduqca böyükdür.Xalqların psixologiyasının xarakter və intellektinin formalaşmasına təsir edən amillərdən biri Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi milli-mənəvi dəyərlərimizin əsas tərkib hissəsi olan dildir.Çünki xalqın həm təfəkkür tərzinin, şüurunun həm də sosiomədəni xüsusiyyətlərinin inkişafı birbaşa dillə baglıdır. Heydər Əliyev siyasi kursuna diqqət yetirdikdə şahidi oluruq ki,həm dünyada gedən prosesləri, həm də Aərbaycan xalqının düşüncə, təfəkkür tərzinin sosiomədəni imkanlarını düzgün nəzərə alaraq müasir dövr üçün psixoloyi baxımından çox düzgün siyasət yeridirdi.Yəni Heydər Əliyev siyasi kursunda bir tərəfdən milli özünüdərkin inkişafı, milli mənliyimizin, milli mənəviyyatımızın qorunması durursa, digər tərəfdən isə yüksək inkişaf etmiş Qərbə inteqrasiya kursu əsas götürülür.Milli özünüdərklə baglı qeyd edirdi ki, özünü dərk edən millət, xalq ,onun dövləti hər zaman güclü qüdrətli olur.

Hal-hazırda bu siyasət möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi və respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir.

## ELİTA CƏMİYYƏTİN GƏLƏCƏYİNİ MÜƏYYƏNLƏŞDİRİR

***Quliyeva Z.Q.***
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

Cəmiyyətdə dövrün siyasi elitasının necə formalaşması və onu kimlərin təmsil etməsi barədə düzgün təsəvvür yaranmalıdır. Müstəqilliyə və azadlığa can atmaq bəşəriyyət üçün həmişə dünyanın mahiyyətini dərk etməyin yüksək və müqəddəs məqamı olmuşdur. Daim başqa dövlətlərin əsarəti altında və ya onlardan asılı vəziyyətdə yaşamağa razılaşan cəmiyyətləri təsəvvür etmək çətindir. Azadlıq və müstəqillik gec-tez millətlərin inkişafının təsirli amillərinə çevrilmiş, onlar buna doğru getmişlər. Lakin hər bir halda millətləri azadlığa və həqiqi müstəqilliyə ümumi kütlə arasında öz zəkası, istedadı və xarizması ilə fərqlənən insanlar qovuşdurmuşlar. J.J.Russonun təbirincə desək, siyasi orqanizm məhz insanların bu kateqoriyası sayəsində salamat qala və öz vətəndaşları naminə inkişaf edə bilir. Azərbaycanın müasir inkişafını müəyyən edən bir sıra məsələlərdə Azərbaycan cəmiyyətinin total transformasiyası nəzərə alınmaqla vaxtında təshihlər və dəyişikliklər edilməsinə ehtiyac var. Tamamilə aydındır ki, postmodern postsovet məkanındakı keçid cəmiyyətlərinin qapılarını getdikcə intensiv şəkildə döyür və bizim adət etdiyimiz davranış normalarını və stereotipləri tədricən dəyişir. Bu da tamamilə qanunauyğundur ki, həmin dəyişikliklər dövlətin və cəmiyyətin inkişafı prosesində müdafiə və amortizasiya xarakterli ovqat doğura bilər və doğuracaqdır. Bu, Tofflerin dalğalarının dəyişməsinin qarşılıqlı təsiri amilidir, bir dalğa digərinə transformasiya edir, yaxud ənənəvi cəmiyyətlər "Üçüncü dalğa"nın özü ilə gətirdiyi dəyişikliklərə məruz qalır. Cəmiyyət sosial və siyasi azadlıqların reallaşdırılmasına xeyli məhdudiyyətlər qoyan əvvəlki normaları artıq qəbul etmir. Müasir

Azərbaycan cəmiyyətində demokratiya təkcə inkişafın ən mühüm oriyentiri kimi deyil, həm də şəxsiyyətin azadlığı, sabitlik və perspektivli, dinamik transformasiya amili kimi qəbul olunur. Bizim hər birimiz dövlətin iqtisadi tərəqqi imkanlarını cəmiyyətin demokartik inkişafı ilə əlaqələndiririk, çünki hər bir vətəndaşın maddi və maliyyə firavanlığı demokratik transformasiyanın sürəti ilə sıx bağlıdır. Başqa sözlə desək, bu mühakiməni bir qədər bəsitləşdirsək, mədə boş olanda şüurun azadlığından, təfəkkürün rasionallığından danışmaq çətin olacaqdır. Ona görə də demokratik inkişafın iqtisadi tərəqqi ilə sıx bağlı olmasından danışarkən biz bunu əsas götürürük ki, azad vətəndaş ilk növbədə maddi və maliyyə baxımından azaddır, bu da ona siyasi azadlıq verir. Vəzifəsi inkişaf strategiyasını və dövlətin gələcəyini müəyyən etməkdən ibarət olan "seçilmişlər zümrəsi"nin formalaşmasında yalnız hər cəhətdən azad vətəndaş mühüm, həlledici amil ola bilər.

"Elita" dedikdə, ölkənin bütün hakim qruplarını, dövlət qərarları qəbul edən və onlara görə xalqın qarşısında şəxsi vətəndaş məsuliyyəti daşıyan insanları, habelə dövlət qulluqçuları olmayan, lakin öz hərəkətləri ilə ölkədəki sosial-siyasi, iqtisadi, mədəni və başqa proseslərə bu və ya digər şəkildə təsir göstərən insanları nəzərdə tutulur. Elita cəmiyyətin o hissəsidir ki, dövlətin inkişaf yolları və mexanizmlərinin aşkar edilməsində ona həlledici yer ayrılır. Dünya tarixində seqmentar və ya asefal ("başsız") cəmiyyətlər olması faktları məlumdur, ancaq hər halda, hətta həmin cəmiyyətlərdə böyük ailə, nəsil və ya tayfa mövcud olduqda da, elə qruplar vardı ki, orada bəzi fərdlərin mövqeyi və onların cinsi, yaşı və ailə vəziyyəti ilə müəyyən olunan nüfuzu həmin fərdlərin ictimai əhəmiyyətini və üstünlüyünü formalaşdırırdı. Tarixi baxımdan məhz həmin qruplar demokratiyanı inkişaf etdirməyə başlamışlar. Müasir Azərbaycanın xüsusiyyəti ondadır ki, milli tarixin dramatik məqamlarını xeyli dərəcədə elitaların (hakim qrupların) və ya onların opponentlərinin (əks-elitaların) maraqları və hərəkətləri müəyyən etmişdir. Demək lazımdır ki, hazırda ölkənin intensiv siyasi və iqtisadi inkişafı şəraitində bu prosesdə elitanın rolu və yeri məsələsi bizim tədqiqatçıların deyil, getdikcə daha çox bəzi kütləvi informasiya vasitələrinin diqqətini cəlb edir. Onlar isə, təəssüf ki, hələ də cəmiyyətin konsolidasiyasına kömək edən amilə çevrilməmişdir, məhdud qrup mövqelərindən və ya konyunktur mövqelərdən çıxış edirlər. Ona görə də əminəm ki, elita haqqında danışmazdan əvvəl, "elita" anlayışının özünə müraciət etməyə dəyər, çünki bu, aşağıda bəhs edəcəyimiz məsələnin mahiyyətini daha geniş şəkildə anlamağa kömək edəcəkdir. Sosial-fəlsəfi, sosioloji və politoloji konsepsiyalara görə elita dövlətin mədəni və sosial-iqtisadi siyasətini işləyib hazırlayan və həyata keçirən üstün ictimai qruplardır. Elita istənilən tipli sosiumun fəaliyyəti üçün zəruri və həyati əhəmiyyətli struktur elementidir. Oksford lüğətində "elita" termini yüksək əyanlar, "seçmə" insanlar kateqoriyalarının tərifi kimi işlədilmişdir. Elitanın klassik və müasir nəzəriyyələrinin ideya sələfləri Platon, T.Karleyl, F.Nitsşe, italyan mütəfəkkiri Valfredo Pareto, italyan sosioloqu Qaetano Moski, alman politoloqu Robert Mixels və başqaları olmuşdur. Onlar cəmiyyəti idarə edən təbəqənin siyasi prosesdə xüsusi rolu ilə bağlı məsələləri ayırmağa və sistemləşdirməyə cəhd göstərmiş, bu təbəqəni məxsusi tədqiqat obyektinə çevirmişdilər. Sovet elmində elitanın tədqiqinə müraciət edilməsi cəmiyyətin sosial strukturunun yeni konsepsiyasının bərqərar olması, formasiya prinsipindən, tarixin

marksizm-leninizm nəzəriyyəsinə xas olan təhlilindən imtina edilməsi ilə müşayiət olunurdu.

Ölkəmizdə humanitar elm bəzən dünya məkanında hərtərəfli tədqiq edilən elmi problemlərin öyrənilməsindən əhəmiyyətli dərəcədə geri qalır. Ona görə də tez-tez təəccüblənirsən ki, bəzi “elm xadimləri” çoxdan cavab verilmiş problemləri yalnız indi “tədqiq etməyə” başlayırlar - milli fəlsəfə məktəbinin potensialı çox zəifləmişdir və təəssüf ki, indi biz ictimaiyyətşünaslıq elmlərinin yeni parlaq nümayəndələrini görmürük. Son illərdə azərbaycançılıq ideologiyası barədə danışır, ona müraciət edirik. Belə hesab edirik ki, o, yeni şəxsiyyətin formalaşmasının əsaslarından biridir. Lakin biz bu anlayışın mahiyyəti və onun tərkib hissələri ilə əlaqədar fundamental elmi araşdırmaları görmürük, indiyə qədər onun strukturu elmi səviyyədə müəyyənləşdirilməmişdir.

Ölkə elitası yalnız milli birlik, həmrəylik, konsensus və razılıq mövqelərindən çıxış etməli, dövlətin səmərəli inkişafı üçün bazis yaratmalıdır. Siyasi, iqtisadi, intellektual və mədəni elitanın, habelə vətənpərvərliyi, Vətənə sevgini, cəmiyyətə xidmət etmək istəyini təcəssüm etdirənlərin rolu bundan ibarətdir. Bu baxımdan mən elitarizm nəzəriyyəsinin bəzi məsələlərinə toxunmaq istərdim və hesab edirəm ki, bu, mövcud tarixi təcrübəyə əsaslanmaqla, necə deyərlər, velosipedi yenidən icad etmədən müəyyən fikirlər söyləməyə imkan verəcəkdir. Cəmiyyətin elitası cəmiyyətdə elə mövqeyə və elə keyfiyyətlərə malik olan sosial təbəqədir ki, bu mövqe və keyfiyyətlər onun cəmiyyəti idarə etməsinə, yaxud idarəetmə prosesinə əhəmiyyətli dərəcədə təsir göstərməsinə, cəmiyyətdə dəyər oriyentasiyalarına və davranış stereotiplərinə (müsbət və ya mənfi) təsir etməsinə, nəticə etibarilə cəmiyyətin inkişaf meyillərinin yaradılmasında onun bütün başqa təbəqələrindən daha fəal, daha səmərəli iştirakına, eyni zamanda öz mövqeyini formalaşdırmaqda başqa qruplardan daha artıq müstəqil olmasına imkan verir. Beləliklə, elitanın mahiyyəti və vəzifəsi tarixin inkişafını seyr etməklə məhdudlaşmır. Elita özü bu transformasiyaların və dinamik dəyişikliklərin avanqardı kimi çıxış edir. Yalniz bu halda demək olar ki, elita cəmiyyətin onun qarşısında qoyduğu vəzifənin öhdəsindən gəlir. Hər bir ölkədə siyasi elitanın formalaşması tarixi şəraitə və ənənələrə uyğun olaraq, özünəməxsus tərzdə baş verir.

Heydər Əliyevlə tez-tez bu və ya digər kadr təyinatının mümkünlüyünü müzakirə edərkən onun kadr seçiminə nə qədər diqqətlə yanaşmasını, onların imkanlarını həvalə olunan məsuliyyətlə müqayisə etməsini dəfələrlə görmüşəm. İnsan materialı mürəkkəb substansiyadır və təəssüf ki, onu dərhal və bütünlüklə tanımaq asan deyildir. Bütün bunlara baxmayaraq, həyata keçirilən siyasətin mahiyyəti həm də Azərbaycan cəmiyyətinin inkişaf dinamikasına cavab verməyənləri aşkar etməkdən və onları yeni, daha səmərəli kadrlarla əvəz etməkdən ibarət idi. Heydər Əliyev üçün milli dövlətçilik dəyərlər yaradan təməl idi, milli dövlətçilik onun vətəndaşlıq, milli və vətənpərvərlik hislərinə, peşəkar siyasətçi amalına uyğun idi. Hər bir siyasi sistem həmişə, xüsusən müasir informasiya-reflektiv aləmdə “fikir liderlərinin”, bər-bəzəkli və kabinet rəhbərlərinin əqidəsiz sosial şəbəkələr oyunlarına deyil, yalnız həqiqi dəyərlərə əsaslanmağa məcburdur. Prezident İlham Əliyev Azərbaycanın gələcəyi üçün yeni siyasi, iqtisadi, mədəni, intellektual elitanın formalaşması üçün tədbirlər kompleksi hazırlayır. Dünya siyasətinin əsas oyunçuları sivilizasiyalar deyil,

milli dövlətlərdir və bu oyunçular milli maraqları və stimulları əsas götürürlər. Milli elitanı formalaşdıran və tam şəklə salan dəyərlər dili olmasa, siyasi təsisatların məzmunu yoxdur, mədəni yaddaş işləmir.

## ANA DİLİMİZİN İNKİŞAF YOLU VƏ HEYDƏR ƏLİYEVİN DİL SİYASƏTİ

***Məhərrəmova Ş.K.***
*Sumqayıt Dövlət Universiteti*

*Dilimiz çox zəngin və ahəgdar dildir, dərin tarixi köklərə malikdir,*
*şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm.*
*H.Əliyev*

Ana dili hər bir xalqın milli sərvətidir, qürur mənbəyidir. Dil millətin milli mənlik və qürurudur. Tarix boyu başı bəlalar çəkmiş Azərbaycan xalqı təzyiqlərə, repressiyalara məruz qalsa da, öz ana dilini qoruyub saxlaya bildi.

Azərbaycan dilinə nəzər salanda dilimizin nə qədər qədim bir dil olduğunu görürük. Lakin Azərbaycan dili də xalqımız kimi ciddi sınaqlarla üzləşmişdir. Belə ki, 1920-ci ildən bəri Sovet Rusiyasının ruslaşdırma siyasətindən sonra millətimizlə bərabər dilimizə də hücumlar başladı. "Sovet xalqı" formalaşdırmaq adı altında müxtəlif xalqların dilini, mədəniyyətini, milli kimliyini yox etməyə yönələn siyasət Azərbaycanda da özünü göstərirdi. Belə ki, ölkədə rəsmi dövlət dili rus dili idi. Rəsmi tədbirlərdə çıxışlar bir qayda olaraq rus dilində aparılırdı. Radio, televiziya və mətbuatda da oxşar vəziyyət idi. Rus dili sürətlə hegemon dilə çevrilirdi. Ölkədə elə psixoloji mühit yaranmışdı ki, adi insanlar arasında da Azərbaycan dilində danışmaq, rus dilini bilməmək qəbahət hesab olunurdu. Bu ürəkağrıdan da olsa, real mənzərə idi və həmin acı gerçəklik 1970-ci illərə qədər davam etmişdi. Heç kəsə gizli deyil ki, Azərbaycanda da onilliklər boyu bilinqvizm – ikidillilik mövcud idi. Dövlət idarələrində isə bu vəziyyət Azərbaycan dilinin xeyrinə deyildi – rus dilinin bütün sahələrdə geniş işlənməsi milli dillərin, eləcə də Azərbaycan dilinin dövlət dili kimi inkişaf edib zənginləşməsinin qarşısına sədd çəkirdi.

1969-82-ci illərdə Sovet Azərbaycanına rəhbərlik edən H.Əliyev Azərbaycan dilinə sevgisini, hörmətini öz əməli ilə sübut etdi. Belə ki, ulu öndər bir çox ziyalıların cəsarət etmədiyi halda, müxtəlif tədbirlərdə Azərbaycan dilində çıxışlar etməklə dilimizə olan sevgisini, hörmətini bir daha sübut etdi. H.Əliyev yaradıcı təşkilatların, xüsusən də Yazıçılar İttifaqının qurultaylarında, irimiqyaslı yubiley tədbirlərində Azərbaycan dilində sərrast və gözəl danışmaq nümunəsi göstərməklə yanaşı, həm də ziyalıların, geniş ictimaiyyətin diqqətini ana dilimizin inkişafına yönəldirdi. O, rusdilli məktəblərdə Azərbaycan dilində dərsliklərin istifadəsinə dair göstətişlər də vermişdir.

Məhz H.Əliyevin ana dili məsələsindəki prinsipiallığı və təkidi sayəsində, ziyalıları və geniş ictimaiyyəti dövlət dili ilə bağlı müzakirələrdə o, 1977-ci ildə qəbul olunan Azərbaycan Sovet Konstitutsiyasına Azərbaycan dilinin Azərbaycan Respublikasının Dövlət dili olduğunu təsbit edən məşhur 73-cü maddəni daxil etməyə nail oldu. Azərbaycan SSR-nin Konstitutsiyasına əsasən ilk dəfə olaraq rus dili ilə yanaşı Azərbaycan dili rəsmi dil

statusu əldə etdi. Əsas qanun səviyyəsində milli dilə Dövlət dili statusu verən yeganə türk-müsəlman respublikası idi.

Tarix üçün o qədər də böyük olmayan, təxminən onillik bir müddətdə görkəmli dövlət xadimi həqiqətən böyük tarixi olan aşağıdakı işləri görmüşdür:

-Birincisi, Azərbaycan dili dövlət dili olaraq Azərbaycan SSR-nin müvafiq qanunlarında, (xüsusilə Konstitutsiyasında) öz əksini tapıb, Moskvanın etirazlarına baxmayaraq respublikada rus dili ilə yanaşı, Azərbaycan dilinin də rəsmiliyi təmin edilib.

-İkincisi, Azərbaycan dilli məktəbin, maarifin inkişafına xüsusi qayğı göstərilib, Azərbaycanda ana dilində təhsilə üstünlük verilib.

-Üçüncüsü, Azərbaycan dilində mətbuatın, elmin tərəqqisi üçün əlindən gələni edib. Azərbaycanın böyük yazıçıları öz əsərlərini, demək olar ki, yalnız ana dilində yazıb. Azərbaycan Yazıçılar İttifaqının aparıcı mətbuat orqanları – “Azərbaycan”, “Ulduz” jurnalları, “Ədəbiyyat və incəsənət” qəzeti Azərbaycan dilində nəşr edilib.

-Dördüncüsü, Azərbaycan dilinin tarixi geniş araşdırılaraq, çoxcildlik “Müasir Azərbaycan dili” kitabları yazıldı. Həmin kitablardan biri ali məktəblər üçün “Müasir Azərbaycan dili” dərsliyi Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür. Beləliklə Azərbaycan dilinin tarixini araşdıran alimlərin əməyi yüksək qiymətləndirilərək ana dilinin nüfuzu bir daha təsdiq edildi.

Müstəqil Azərbaycan dövlətinə rəhbərlik etməyə başladığı dövrdən ulu öndər H.Əliyevin yorulmaz fəaliyyəti sayəsində Azərbaycan dili dövlətlərarası münasibətlərin dilinə, siyasi dialoqların, diplomatik danışıqların dilinə çevrilib, dünyanın onlarca ölkəsində səslənib, dövlət başçısının öz doğma dilinə məhəbbətini hər yerdə təcəssüm etdiribdir. Məhz H.Əliyevin yorulmaz əməyi nəticəsində tarixən vətəndaşlıq hüququ qazanmış və dünya miqyasında geniş yayılmış “Azərbaycan dili” anlayışının qanuni haqqı özünə qaytarıldı.

Beləliklə minilliklər boyu formalaşan və müxtəlif təzyiq və repressiyalara məruz qalaraq bu günümüzə qədər gəlib çatan Azərbaycan dili xalqımızın milli sərvəti, qürur mənbəyidir. Bu gün müstəqil dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır. Məhz Ulu öndər H.Əliyevin əsasını qoyduğu dil siyasəti bu sahədə əldə etdiyimiz uğurların əsasını təşkil edir. Xalqımız, millətimiz var olduqca bu milli sərvətimizin qədrini bilməli, qayğısına qalmalı və gələcək nəsillərə ötürməliyik.

## HEYDƏR ƏLİYEVİN XARİCİ DİL SİYASƏTİ

***Məhərrəmova V.E.***
*Mingəçevir Dövlət Universiteti*

Azərbaycan xalqının ümummilli lideri çağdaş dövrün ən böyük dövlət və siyasi xadimləri sırasında adı çəkilən Heydər Əliyevin XXI əsrdə Azərbaycan xalqına yadigar qoyduğu əvəzsiz ideyalar çoxdur. Bu mənada onun işləyib həyata keçirtdiyi dil siyasəti dövlətimizin həyata keçirtdiyi siyasi, iqtisadi mənada mədəni sahədə dövlətlərarası əlaqələrin inkişafına hədəflənmiş məsələlərin tərkib hissəsi kimi diqqəti çəkir.

Heydər Əliyevin dil siyasətinin mahiyyəti, elmi xarakteristikası barədə yazılan tədqiqatlara müraciət etdikdə görürük ki, onun kökündə ilk növbədə doğma Azərbaycan dili, sonra isə zaman və məkan fərqindən asılı olaraq digər xarici dillərə münasibət gəlir.

60-cı illərin sonu 70 – ci illərin əvvəllərindən başlayaraq bu günə kimi Azərbaycan dilinin dövlət dili olması, xalqımızın mənəvi mövcudluğunun əsas amillərindən olan dilimizin inkişafı və yüksəlişi uğrunda mübarizə, gördüyü böyük işlər indiyə qədər aktual olaraq qalır.

Məlumdur ki, dil siyasəti arenaya insanların ünsiyyət aktı ilə bağlı daxil olmuşdur və eyni zamanda siyasi təchizat və təşkilatların daxili həyatı da dil vasitəsi ilə təşkil olunur və nizama salınır. Heydər Əliyevin uzaqgörənliklə müəyyənləşdirdiyi xarici siyasətin kökündə ilk növbədə insanlara, xüsusilə yetişən gənc nəslə əcnəbi dillərin öyrədilməsi, onların dünya miqyasında siyasi, iqtisadi, mədəni fəaliyyətlərini şərtləndirən, həmçinin səriştəli, peşəkar mütəxəssislərin siyasi həyat meydanına atılmağın və orada müvəffəqiyyətli fəaliyyət göstərməyin ilkin zəruri şərtlərindən biri kimi çıxış edir.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan gəncliyini milli inkişafımızın tükənməz mənbəyi hesab etdiyimizdən onların xarici dilləri, daha doğrusu ixtisaslaşmış xarici dillərin kamil öyrənilməsini istəyirdi. O, bir mənalı şəkildə bir çox dillərdə sərbəst danışan sahə mütəxəssislərinin yetişdirilməsi təqdir edir və vurğulayırdı ki, müasir dünyada məhz gənc nəslin yaradıcı gücündən və novatorluğundan səmərəli istifadə etməyi bacaran dövlətlər strateji üstünlüyə malik olacaqlar.

Ulu öndərin uzaqgörənliyinin nəticəsidir ki, bu gün onun yetişdirmələri ölkə həyatının bütün sahələrində dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, xüsusilə xarici siyasət sahəsində böyük uğurlara imza atır, Azərbaycanı beynəlxalq səviyyədə ləyaqətlə təmsil edirlər.

Heydər Əliyev xarici dil siyasəti ilə həm də ölkə sərhədlərindən kənarda dünya dövlətləri tərəfindən həyata keçirilən və onların ümumi siyasətinin tərkib hissəsi olan məqsədləri özündə ehtiva edən şüurlu, təsirli tədbirləri sistemi kimi baxırdı.

Tarixi zərurət nəticəsində dağıldıqdan sonra vahid dil siyasətinin formalaşma prinsipləri çərçivəsində yeni dil situasiyası, yeni dil planlaşdırılması siyasəti prioritet istiqamətə çevrilmişdir. Yeni kontekstdə milli və xarici dil siyasəti milli dövlət siyasətinin tərkib hissəsi kimi çıxış edir.

Beləliklə, XXI yüzilliyinin əvvəllərində “dil siyasəti”, xarici dillərə münasibət, eləcə də “dil situasiyası” terminlərinin mahiyyəti dəyişdi və yeni keyfiyyətlər qazandı.

Belə bir zamanda dövlətimizin xarici və daxili dil siyasəti formalaşmağa başladı.

Bu müstəvidə Azərbaycanın Heydər Əliyev erasının əsas səciyyəvi xüsusiyyətlərinin üç sferada təzahür etməyə başladı: mədəniyyət, ideologiya və kommersiya. Bu sferalar Azərbaycanda unikal dil situasiyasının təşəkkülünə səbəb oldu. Məlum olduğu kimi ideologiya özü dil, mədəniyyət və kommersiya üzərində foremalaşdığından Azərbaycan yeni dövrdən dil planlaşdırılmasının çoxkomponentli modellərinə üstünlük verirdi.

Zamanın gerçəkliklərini nəzərə almaqla yeni dövrdə Azərbaycan dili də daxil olmaqla, xarici dillərin nəzəri və praktik məsələlərini özündə əks etdirən məqsəd və vəzifələr müəyyən edildi.

İlk növbədə dövlətin xarici dil siyasəti və planlaşdırılmasının mahiyyəti vı tipologiyası təsbit olundu.

İkincisi, xarici dil siyasəti və dil planlaşdırılmasının gerçəkləşmə vasitələri və effektiv tədbirlər müəyyənləşdirildi.

Bu, əsasən iki istiqamətdə həyata keçirildi:

3. Ölkə ali məktəblərində xarici dillərin tədrisi keyfiyyətinin yüksəldilməsi;
4. Gənclərin dövlət hesabına xarici ölkələrdə təhsilinin təşkili.

Bir sözlə, Azərbaycan Respublikasında yeni dil siyasəti Azərbaycan Respublikasının Konstitusiyasında, Dövlətin, Ölkə Prezidentinin dil haqqında verdiyi sərəncamlarda və digər sənədlərdə əksini tapmış və indi də gurla həyata keçirilir.

Mərhum akademik Ağamusa Axundovun qeyd etdiyi kimi, "dil (xarici dillərdə o cümlədən) və siyasət problemi bizim dövrümüzdə - milli azadlıq və müstəqillik uğrunda mübarizənin kəskinləşdiyi indiki zamanda, xüsusilə, diqqət mərkəzində olan problemlərdəndir. Müstəqil dövlətin dil siyasəti onun varlığı, inkişafı və gələcəyi məsələsidir. Təsadüfi deyil ki, yaşadığımız yüzillikdə, ... Azərbaycanda dil siyasətinə xüsusi diqqət yetirilmişdir. Bu yeni dil siyasəti ilk növbədə Heydər Əliyevin adı ilə bağlıdır."

Heydər Əliyevin dil siyasətində sərhəd məhdudiyyəti yoxdur. Həmin siyasəti bir köklü ağaca bənzətsək, onun ana sütunu Azərbaycan dili, budaqları isə dünya dilləridir.

Xarici dillərlə bağlı aparılmış işləri sistemləşdirsək belə bir mənzərənin şahidi oluruq:

1. – Rus dili (həm qonşuluq baxımından, həm də milyonlarla soydaşlarımızın yaşadığı məkan, MDB ölkələrinin əsas ünsiyyət dili kimi)
2. – Türk dilləri

Bu barədə o, özü deyirdi: "... Ölkəmiz arasında iqtisadi əməkdaşlığın, insani əlaqələrin inkişaf etdirilməsi vacib məsələdir. Ancaq bunların kökündə mədəniyyət, dil, bizim adət - ənənələrimiz durur. TÜRKSOY-un 6 fevral 2003 – cü il tarixində Bakı şəhərində keçirilən toplantısının iştirakçıları ilə görüşdə XXI əsrin çalxalandığı bir zamanda türk yanğısı ilə o, fikrini belə ifadə etmişdir: "... Mən sizin təşkilatın işindən çox razıyam... Bizim türk dünyasının türk xalqlarının böyüklüyü ondadır ki, bizim müştərək mədəniyyətimiz, dilimiz var. Ona görə də biz birlikdə daha güclü olarıq. Ona görə də dil, dil, bir də dil... Biz bir – birimizi başa düşmək üçün dillərimizi inkişaf etdirməliyik."

Millətlər buna necə hazırlaşsın?

Mənəvi körpüləri sağlam qurmaqla... Dil bir körpüdür, inam bir körpüdür, tarix bir körpüdür..."

Bununla da o, türk dünyasının inteqrasiyasının türk dillərinin yaxınlaşmasını, ümumi türk dili məsələsinin meydana çıxmasını Azərbaycanda dil siyasətinə təsirini nəzərdə tuturdu.

3. - Ərəb, fars dili

   İslam birliyinin möhkəmlənməsi, islam mədəniyyətinin təsiri ilə ölkələr arasında iqtisadi, siyasi, mədəni əməkdaşlığın möhkəmləndirilməsi.

4. – Avropa dilləri

Məlum olduğu kimi müstəqilliyin ilk illərində Azərbaycan dövlətinin xarici siyasəti o zaman müvəffəqiyyət qazana bilərdi ki, mövzu geosiyasi məkan, şərait, qüvvələr nisbəti və dövlətlərin mövcud məqamda təsir dairəsi tam aydınlaşdırılsın, zaman, məkan, şərait, tədbirlər proqramı hazırlansın və həyata keçirilsin. Xarici siyasətin uğurlu nəticələrinə nail olmaq üçün Avropa dillərində mükəmməl danışan mütəxəssislərin olması vacib şərtlərdən biri idi.

Bütün bunları nəzərə alaraq Heydər Əliyev deyirdi:

"... Mən demişəm və bu gün də deyirəm... Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillərini də yaxşı bilin."

Göründüyü kimi, onun nəzərində Xarici dillərin öyrədilməsi hər bir xalqın inkişafında, tərəqqisində əsas yerlərdən birini təşkil edir. Dil amili yaşam amilidir, mövcudluq amilidir. Odur ki, dahi rəhbərin dil doktirinasında dil amili (xarici dillər bilgisi) öz xalqının, millətinin varlığı üçün digər amillərdən, bəlkə də, üstün tutulmuş və yüksəkdə dayanmışdır.

Akademik Nizami Cəfərovun təbirincə desək: "Heydər Əliyevin dil siyasətinin əsas prinsipləri millilikdən, müasirlikdən, gerçəklikdən və ya praktikadan ibarətdir."

Qloballaşan dünyada xarici dillərin öyrənilməsi və ali məktəblərdə tədbirlərin xarici dillər üzrə daha mükəmməl hazırlanmasının vacibliyini xüsusi qeyd edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Heydər Əliyevin dil siyasətini uğurla inkişaf etdirir və haqlı olaraq qeyd edir ki, " ... Xarici dillər dünya mədəniyyətinə pəncərə kimi öz əhəmiyyətini saxlayır." Sirr deyil ki, dünya səviyyəsinə çıxmağa layiq, hərtərəfli inkişaf etmiş kadrları xarici dilsiz təsəvvür etmək mümkün deyil.

Cənab prezidentin dediyi kimi, ... Ölkəmiz müasirləşir, dünya birliyinə inteqrasiya edir, ölkənin iqtisadi potensialı artır. Biz çox istəyirik ki, gənc nəsil savadlı, bilikli olsun.

Bu sözlər bir daha təsdiq edir ki, dəyişən dünyamızın şərtləri və tələbləri nəzərə alınaraq xarici dillər üzrə mütəxəssislərin hazırlanması, onların peşəkarlığının artırılması, dövlətin dil siyasətinin əsasını təşkil edir.

Beləliklə, Heydər Əliyevin xarici dil siyasətinin əsas prinsipləri praktiklik, uzaqgörənlik, dillərə münasibətdə obyektivlik, dəqiqlik və s. ilə bağlıdır. Sözügedən siyasətin istiqamətləri isə dil siyasətinə və digər dillərə münasibətdə meydana çıxır.

Nəticə olaraq deyə bilərik ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin işləyib həyata keçirdiyi dil siyasəti, bir tərəfdən, Azərbaycan dili ilə bağlıdırsa, digər tərəfdən yeni vəziyyət və şərait nəzərə alınmaqla xarici dillərin tədrisi və öyrənilməsi məsəllərini gündəmə gətirmiş və yeni perspektivlər müəyyənləşdirilmişdir.

## HEYDƏR ƏLİYEV İRSİ –ƏHƏMİYYƏTİ, TƏDQİQİ VƏ TƏBLİĞİ

***Məmmədov A.A.***
*Sumqayıt Dövlət Universiteti*

Bəşər tarixində çox az xalq var ki, onların taleyində böyük şəxsiyyətlər, dahi insanlar aparıcı rol oynamış olsun, həm öz vətəndaşları üçün həm də bəşəriyyət üçün xoş məramlı, nəticələri gələcək nəsillər üçün olduqca əhəmiyyətli olan işlər görsün.

Azərbaycan xalqı dünyanın xoşbəxt xalqlarındandır ki , keçdiyi çox şərəfli tarixi yolda onu həmişə qeyrətli,millətini və xalqını sevən dahi şəxsiyyətləri olmuşdur. Xalqımızın XX əsr tarixində Azərbaycanı dirçəldən , onu dünya ölkələri sırasına qatan və XXI əsrdə inamla irəliləməsi üçün bütün ömrünü fəda etmiş dahi şəxsiyyət,xalqımızın ümummilli lideri –Heydər Əlirza oğlu Əliyevdir.

Heydər Əliyev həm siyasətçi,həm diplomat,həmdə dövlət xadimi olmaqla yanaşı ən əsası, ən başlıcası Heydər Əliyev əsl Azərbaycanlı idi və Azərbaycançılıq məfkurəsinə xidmət edirdi.Məhz bu səbəbdən ümummilli liderimizin siyasi fəaliyyəti ,tarixi və ideoloji fikirləri,rəsmi görüş və çıxışları hələ sağlığında tarixi tədqiqatların , tarixi araşdırmaların tədqiqat obyekti olmuş və bu möhtəşəm siyasət haqqında araşdırmalar əlbəttə ki indidə davam edir və Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycanın tarixi boyunca daim davam edəcəkdir.

Görkəmli siyasətçi və dövlət xadimi Heydər Əliyevin irsi Azərbaycanın XX əsr tarixinə dair zəngin mənbədir.Ən əsası isə tədiqatçıları,araşdırmaçıları şəxsiyyətinə böyük maraq və həvəslə sövq edən məhz Heydər Əliyevin qoyub getdiyi və qeyd şərtsiz milli dəyərlərimizdən olan irsidir.Bu irsin dərindən və hərtərəfli tədqiqi xüsusi əhəmiyyətə malikdir və onu tam araşdırmaq çox böyük bir məsuliyyət və zəhmət tələb edir.Onun əsərləri dünya və Azərbaycan tarixinin ,xüsusilə müasir tariximizin hər səhifəsinə aid dəqiq və ətraflı məlumatlarla zəngindir.Bu sənədlərdən Azərbaycanın beynəlxalq münasibətlər tarixi,diplomatik münasibətlərinin qurulması,milli və dövlət maraqlarının qorunması,daxili və xarici siyasət sahəsində aparılan islahatlar,nəzərdə tutulan perspektivlər və əldə olunan nailiyyətlər barəsində dəyərli informasiyalar əldə edirik. Heydər Əliyevin həyatı və böyük irsi müxtəlif elm sahələrinin tədqiqatçıları,xüsusilə də tarixçilər üçün tədqiqat obyekti və araşdırma mənbəyidir.Onun tarix elmi qarşısında müəyyən etdiyi konkret elmi istiqamətlər və tələblər tarixçilərin tədqiq edəcəyi aktual problemlər siyahısındadır. Xalqımızın dövlətçilik ,elm, mədəniyyət və digər sahələrdə əldə etdiyi nailiyyətlər, azərbaycanlılara qarşı törədilmiş soyqırımları və deportasiyalar, həmçinin bir çox digər aktual problemlərin yenidən tədqiq edilməsinin vacibliyi Azərbaycan xalqının Ümummilli lideri tərəfindən dəfələrlə vurğulanmışdır.

Azərbaycan xalqı öz dahiləri ilə fəxr edəcək xalqdır və bu dahilərin əvəzsiz xidmətlərini gələcək nəsillərə ötürən tarixçilərində rolu əvəzedilməzdir. Azərbaycanda Heydər Əliyev irsinin tədqiqində, tarixi mənbə kimi tədqiqata cəlb edilməsində və eyni zamanda təbliği istiqamətində görkəmli tarixçi alim akademik Yaqub Mahmudovun əsərləri ilk təşəbbüs hesab edilməlidir. Alim Heydər Əliyev irsinin araşdırılması barədə çoxsaylı tədqiqatların müəllifidir.

Həmin tədqiqatlarda alim həm Heydər Əliyev irsinin tarixini araşdırmış, həm də bu irsin ən önəmli tərəflərini üzə çıxarmaqla onun əhəmiyyətini bir daha diqqətə çatdırmışdır.Yaqub Mahmudov dahi şəxsiyyətin həyatının bütün mərhələlərini ayrı – ayrılıqda tədqiq etmişdir. SSRİ dövründə - Kremlin çox ağır nəzarəti şəraitində xalqının və ölkəsinin tarixi ənənələrini itirməməsi üçün yorulmadan çalışan Heydər Əliyevin fəaliyyəti bu tədqiqatlarda dərindən araşdırılmış və bütün incəlikləri ilə öz əksini tapmışdır.Həmçinin bu araşdırmalarda Heydər Əliyevin 20 Yanvar hadisələri ilə bağlı çox cəsarətli və

azərbaycanlıların tək olmadığını, üstəlik böyük dayağı olduğunu sübut edən tarixi bəynatlarının əhəmiyyəti göstərilmişdir.

Müstəqillik qazanmış Azərbaycan 1991-1992- ci illərdə çox ağır problemlərlə üzləşmişdi.Vətən övladı bu problemlərin həlli üçün böyük cəsarət göstərməli,vətəni ağır sınaqlardan çıxarmalı idi.Heydər Əliyevin böyük qayıdışı Azərbaycan dövlətçiliyinin xilası demək idi.

Heydər Əliyev siyasətinin tərkib hissəsi – Azərbaycanın iqtisadi inkişafını sürətləndirən, onu beynəlxalq iqtisadi məkana aparıcı dövlət kimi daxil edən tədbirləri idi ki, Yaqub Mahmudov məqalə və yazılarlnda bu məsələləri də tədqiq və təbliğ etmişdir.

## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA MİLLİ-MƏDƏNİ DİRÇƏLİŞ SİYASƏTİ VƏ ŞUŞA ŞƏHƏRİNİN MADDİ-MƏDƏNİYYƏTİNİN İNKİŞAF ETDİRİLMƏSİ

***Məmmədov N.R.***
*AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu*

1969-cu ildə Azərbaycanın müasir tarixində dönüş mərhələsinin təməli qoyuldu. Ağlı və işgüzarlığı sayəsində general-mayor rütbəsinədək yüksəlmiş görkəmli tarixi şəxsiyyət Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi seçildi. Həmin ilin avqustun 5-də Heydər Əliyev Azərbaycan KP MK Plenumunda çıxış edərək Respublikamızın iqtisadiyyatının dərin və hərtərəfli təhlilini vermiş, təsərrüfata rəhbərlikdə, mədəni quruculuqda, ideoloji işdə ciddi nöqsanlar olduğunu qeyd edərək onun aradan qaldırılması yollarını göstərmişdi.

1970-ci illərdə DQMV-nin iqtisadi və mədəni tərəqqisinə diqqət daha da artırılmışdır. Şuşa şəhərinin inkişafı ümummilli lider Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Belə ki, o çıxışlarından birində göstərmişdir ki, «Şuşa abidələri şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qayğı ilə qorumaq, buradakı qədim tikililəri bərpa etmək lazımdır». Gözəl memarlıq abidələri ilə zəngin olan Şuşa şəhərinin kompleks inkişafı üçün Azərbaycan hökuməti, dövlət başçısının təşəbbüsü ilə bir neçə xüsusi qərar qəbul etmişdir. Bunlardan biri, «Şuşa şəhərində kurort kompleksini daha da inkişaf etdirmək tədbirləri haqqında» Azərbaycan KP MK-nın və Respublika Nazirlər Sovetinin 4 noyabr 1976-cı il qərarı idi. Həmin qərara uyğun olaraq Azərdövlətlayihə İnstitutu tərəfindən şəhərin «Baş planı» layihələşdirildi. Lakin təəssüf hissi ilə bir məsələni xüsusi qeyd etməliyik ki, DQMV-nin erməni rəhbərliyi və Vilayət XDS-i öz səlahiyyətlərindən istifadə edərək türkçülüyü, müsəlmançılığı öz üzərində əks etdirən saray və imarətlər, məscid və hamamlar ticarət-sənaye mərkəzlərinin «Şuşa şəhərinin Kurort kompleksini inkişaf etdirmək» adı altında dağıtmağa başladılar. Bu acı həqiqətdən məlumat tutan dövlət başçısı Heydər Əliyev dərhal məsələyə öz münasibətini bildirmiş və 10 avqust 1977-ci ildə Azərbaycan KP MK-nın, Azərbaycan SSR Nazirlər Sovetinin 280 №-li qərarı ilə «Şuşa şəhəri Tarixi Arxitektura Qoruğu» elan edilmişdir.

Başdan-başa tarixi abidələrlə zəngin olan Şuşa şəhərində hər kvadrat kilometrə 327 tarixi abidə düşürdü. Şəhərin 190 hektar sahəsini əhatə edən 198 Respublika dərəcəli köhnə tarixi abidə 1977-ci ildən «Tarixi memarlıq qoruğu» elan edilmiş, Azərbaycan SSR

Mədəniyyət Nazirliyinin uçotuna alınmışdır. Azərbaycan SSR Nazirlər Sovetinin 1977-ci il yuxarıda adı gedən «Qərarın»dan sonra Şuşa şəhərinin qoruq zonasına daxil edilən 549 qədim bina, ümumi uzunluğu 1203 metr olan daş döşənmiş küçələr, 18 məhəllə bulağı, 15 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr, kilsə, qala divarları və bürcləri, 21 sovet dövründə tikilmiş tarixi abidə dövlət tərəfindən qorunmağa və bərpa edilməyə başlandı.

Doğrudan da, Heydər Əliyevin uzaqgörənliyi olmasaydı Şuşanın qədim abidələrindən, təkrarsız sənət incilərindən bir dənə də olsun əsər-əlamət qalmazdı. Bununla da, keçən əsrin 70-ci illərində Heydər Əliyev Şuşanın mədəniyyət abidələrinin erməni vandalları tərəfindən dağıdılmasının qarşısı böyük uzaqgörənliklə alındı və bölgədəki 236 tarixi memarlıq abidəsi qeydə alınaraq mühafizə olunmağa, şəhərin kurort kompleksi inkişaf etdirilməyə başlandı.

1976-1982-ci illərdə Şuşa şəhərində bir neçə tarixi abidə tamamilə bərpa olundu. Bunlardan biri öz gözəlliyi və möhtəşəmliyi ilə diqqəti cəlb edən «Gəncə qapısı»nın bərpasıdır.

Bəhs etdiyimiz illərdə Şuşada Şorbulaq, Meydan, Hamamqabağı məhəlləsinin bulaqları, Saatlı məhəlləsindəki məscid, keçmiş realnı məktəbinin binası, qala divarlarının bir hissəsi, «Şirin su» hamamı qazılıb üzə çıxarılaraq bərpa olunmuşdur. Təsadüfi deyildir ki, 12 yanvar 1979-cu ildə Ümummilli lider Heydər Əliyev Şuşaya gəlmiş, burada bərpa olunmuş bir sıra abidələrin açılışında iştirak etmiş və gələcək işlər üçün özünün dəyərli məsləhətlərini vermişdir. Qısa bir müddətdə Şuşanın gözəl memarlıq nümunələrinin, tarixi abidələrinin bərpasında ciddi irəliləmələr müşahidə edildi. Zöhrabbəyovun və Hacı Qulunun imarətləri, Aşağı məscid, Qala divarlarının bərpası, Vaqifin, Natəvanın, Nəvvabın və başqa tarixi şəxsiyyətlərin ev muzeylərinin açılışı 70-ci illərin sonları 80-ci illərin əvvəllərinə təsadüf edilmişdir. Bu dövrdə Ü.Hacıbəyovun ev muzeyində yenidənqurma və yeni tərtibat işləri aparılmış, Natəvanın evinin qarşısında şairin heykəli qoyulmuş, vaxtilə Şuşanı düşmənlərdən qoruyan qədim «Qala divarları» bərpa olunmuşdur.

Qədim tarixə malik Şuşa şəhəri həm də görkəmli ədiblər, şairlər, yazıçılar məskənidir. Təsadüfi deyildir ki, XIX əsrin sonlarında Şuşada 95 şairin olması qeydə alınmışdır. 1970-ci il məlumatına görə isə Qarabağdan 15 nəfər akademik, 16 nəfər bəstəkar, 32 nəfər yazıçı, 20 nəfər xalq artisti, 62 nəfər əməkdar incəsənət xadimi, 100 nəfər elmlər doktoru, 23 nəfər general çıxmışdır.

Beləliklə, 70-ci illərdə və 80-ci illərin birinci yarısında Ümummilli liderimiz Heydər Əliyevin çoxcəhətli dövlət idarəçiliyi sayəsində DQMV-nin iqtisadi və mədəni tərəqqisinə diqqət artırılmış, Şuşa şəhərinin inkişafı üçün bir neçə xüsusi qərar qəbul olunmuş, şəhərin tarixi abidələri bərpa olunmuş, yeni muzeylər yaradılmış, çoxmərtəbəli yaşayış və inzibati binalar tikilmiş, Şuşa şəhəri ümumittifaq səviyyəli kurort şəhərinə çevrilmişdir. Şəhərdə tikinti, abadlıq, bərpa işlərini şəxsən nəzarətə götürən Heydər Əliyev 12 yanvar 1979-cu ildə və 14 yanvar 1982-ci ildə bir qrup ədəbiyyat, incəsənət və elm xadimi ilə birgə Şuşada olmuş bir sıra abidələrin açılışında iştirak etmiş və muzeyləri gəzmişdir [30]. Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Şuşada M.P.Vaqifin məqbərəsi, Ü.Hacıbəyovun abidəsi, Bülbülün, X.Natəvanın büst abidələri yaradılmışdır. 1982-ci il iyulun 28-də ailə üzvləri ilə birlikdə Şuşaya gələn Heydər Əliyev Vaqifin dərs dediyi mədrəsəni Şəkil Qalereyasını, Ü.Hacıbəyovun ev muzeyini, X.B.Natəvanın büstünü, məscidləri və digər

obyektləri gəzmiş, bərpa işindən razı qaldığını bildirmişdir.

Çox təəssüflər olsun ki, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə bağlı qədim abidələr diyarı olan Şuşa 1992-ci il mayın 8-də erməni vandalları tərəfindən ələ keçirildi. Bu zaman Şuşanın 27 sənaye və tikinti müəssisəsi, 103 mədəni-maarif ocağı, 31 kənd və qəsəbəsi, 249 tarixi abidəsi və muzeyi erməni quldurlarının əlinə keçdi. Ümumilikdə isə Qarabağ savaşı zamanı Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 20 faizi işğal edildi. İşğal nəticəsində 900-dən artıq yaşayış məntəqəsi, 6000 istehsal obyekti, ümumi sahəsi 9 min kvadrat metr olan 180 min yaşayış binası, 1010 təlim-tərbiyə müəssisəsi, 4545 mədəni-maarif ocağı, 667 tibb müəssisəsi, 927 kitabxana, 464 tarixi abidə və muzey, 40 mindən artıq muzey eksponatı, 100-dən artıq arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası erməni vandalları tərəfindən dağıdıldı. Qarabağ savaşında 20 min Azərbaycan, vətəndaşı həlak olmuş, 100 min nəfər yaralanmışdır. 1 milyon 200 min Azərbaycan vətəndaşı öz doğma vətənində qaçqın və köçkünə çevrilmişdir. Bu zaman 4959 nəfər həmvətənimiz itkin düşmüş, 4 min nəfər girov götürülmüşdür.

Lakin XX yüzilliyin sonları, XXI yüzilliyin əvvəllərində Respublikamızın istər daxili və xarici siyasətdə, istərsə də iqtisadi, siyasi və mədəni həyatda əldə etdiyi uğurlar Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa olunacağından xəbər verir. Biz, Heydər Əliyev siyasətini uğurla davam etdirən, gənc və istedadlı Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşməklə Şuşanı və bütün Qarabağ torpaqlarını düşmən təcavüzündən azad edə bilərik və edəcəyik!!

## TƏHSİLİN İDARƏ EDİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN İDARƏÇİLİK TƏCRÜBƏSİNDƏN İSTİFADƏ

***Məmmədova M.Ə.***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Cəmiyyətin bütün sahələrində olduğu kimi, təhsilin idarə edilməsi sahəsində də yeniləşmə gedir.

Əlbəttə, təhsil sistemini yeniləşdirmə cəmiyyətin digər sahələrindən əsaslı şəkildə fərqlənir. Bunu təkcə qanunlar, qərarlar qəbul etməklə təşkil etmək mümkün deyildir. İndiyə qədər ölkədə mövcud olmuş təhsil sistemini dəyişdirmək, millibəşəri dəyərlərə cavab verən təhsil standartları hazırlamaq, bunlara müvafiq olaraq təhsilin strukturunu, məzmununu yaratmaq, onu dərsliklərlə, maddi-texniki vasitələrlə təmin etmək təkcə təhsil sahəsində çalışanların deyil, bütün ölkə vətəndaşlarının şərəfli və vacib vəzifəsidir.

Razılıq hissi ilə demək olar ki, ölkədə yaradılmış sağlam ictimai-siyasi, mənəvi şərait geniş fəaliyyət imkanları açır. Bu imkanlardan hansı vəzifədə çalışmalarından asılı olmayaraq bütün sahələrdə dərin və hərtərəfli biliyə, bacarığa, praktik hazırlığa, yüksək mədəniyyətə, məsuliyyət hissinə malik olan vətəndaş tərbiyə edilməsi üçün istifadə olunmalıdır.

Özünün milli dövlət müstəqilliyinə qovuşan Türkiyədə təhsil sistemi üçün əsrin əvvəllərində bundan vacib məsələ yox idi. Çağdaş türk dünyasında böyük şəxsiyyətlərdən biri olan ümummilli liderimiz Heydər Əliyev təhsil sahəsində çalışanlara müraciət edərək

demişdir: «Məktəblərimizdə Azərbaycanın dövlət müstəqilliyinin, azadlığının mənası, məzmunu çox geniş tədris olunmalıdır. Xalqımızı, millətimizi, gənclərimizi tariximizə, mədəniyyətimizə, ənənələrimizə uyğun tərbiyə etmək təhsilin əsas istiqaməti, məktəblərimizin, müəllimlərimizin borcudur».

Doğrudan da, əsrin sonunda öz dövlət müstəqilliyinə qovuşan Azərbaycanın təhsil sistemi üçün bundan şərəfli və vacib vəzifə yoxdur.

Təhsil sisteminin demokratik və humanist prinsiplər əsasında idarə edilməsi üçün bu sahədə çalışan hər bir şəxsin – Təhsil nazirindən başlamış sıravi pedaqoji işçiyə qədər hamının təhsil sahəsində dövlət siyasətinin mahiyyətini, onun milli-mənəvi tələblərini bilməsi vacibdir.

Müstəqil Azərbaycan dövlətinin tarixinə, həyatına, milli-mənəvi dəyərlərinə cavab verən dərsliklərin yazılması, məktəblərə çatdırılması, Azərbaycan vətəndaşlarının həmin dərsliklər əsasında tariximizi,mədəniyyətimizi, mənəviyyatımızı öyrənməsi çətin və uzun müddətli proses olsa da, biz buna nail olmalıyıq. Təlim və tərbiyənin məzmununu dövlətin müəyyənləşdirdiyi standartlara uyğun Şəkildə təmin etmək hər bir təhsil işçisinin, məktəb rəhbərinin, pedaqoji kollektivin başlıca vəzifələrindəndir.

Təhsildə gedən yeniləşmələr onun idarəetmə funksiyalarının ciddi şəkildə dərinləşdirilməsini tələb edir.

## NİTQ MƏDƏNİYYƏTİ VƏ DAHİ ŞƏXSİYYƏT ULU ÖNDƏR HEYDƏR ƏLİYEV

***Məmmədova R.M.***
*Mingəçevir Dövlət Universiteti*

*Fəxrlə deyə bilərik ki, Heydər Əliyev deyəndə, Azərbaycan düşünülür.*

*Azərbaycan deyəndə, göz önünə, ilk növbədə, Heydər Əliyev gəlir. Hər bir azərbycanlı üçün tükənməz qürur mənbəyi olan bu dahi insan özü ürəkdolusu bir coşqu ilə deyir: "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam..."*

Hər bir şəxsiyyətin öz xalqına olan məhəbbəti mənsub olduğu millətin tarixinə, dilinə, dininə və mədəniyyətinə münasibəti ilə ölçülür. Dövlət yaranan gündən bəri çox az siyasətçi tapılar ki, Heydər Əliyev qədər mənsub olduğu xalqın milli varlığını ifadə edən dil, din və mədəniyyətlə bağlı olsun. Ulu öndər yaxşı bilirdi ki, milli dövlətçilik dəyərlərinin əsasını sağlam düşüncəli mədəniyyət təşkil edir. Sağlam cəmiyyət quruculuğuna diqqət artırmaq, köklü mənəvi dəyərləri yeni nəslə dərindən və əzmlə aşılamaqdır. Bu baxımdan böyük şəxsiyyətin nitqləri unikal dəyərə malik milli sərvətimizdir. H.Əliyevin ana dilinə verdiyi qiymət, bu dilin inkişafı, yayılması, böyük siyasi-ictimai mövqeyə malik olması üçün gördüyü işlər, o, respublikada olmadığı illərdə də cəmiyyətdə, milli ictimai şüurda öz təsir gücünü tamamilə saxlayırdı.

Heydər Əliyev xalqın formalaşmasında, yaşamasında ana dilinin rolunu yüksək qiymətləndirmişdir. "Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm,

bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur". Ulu öndər gənclərimizə məhz ana dili əsasında dünyanı dərk etməyi məsləhət görürdü. Azərbaycan gənclərinə xarici dilləri öyrənməklə, ilk növbədə, öz ana dilini daha mükəmməl bilməyi tövsiyə edirdi. Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir. Sovet hakimiyyəti illərində Azərbaycan dili görünməmiş zirvələrə qalxmış, müasir poeziyanın və nəsrin, elm və texnikanın, kargüzarlığın və fəal ictimai-siyasi həyatın hərtərəfli inkişaf etmiş dilinə çevrilmişdir. Biz tam inamla deyə bilərik ki, çoxəsrlik tariximizdə Azərbaycan dili heç vaxt belə zəngin, nüfuzlu və hörmətli olmamışdır. Lakin mədəniyyət və elmin səviyyəsi yüksəldikcə, həyatın axarı sürətləndikcə dilin təkmilləşməsinə, inkişaf etməsinə və zənginləşməsinə, onun söz ehtiyatının genişlənməsinə daha çox qayğı göstərmək lazımdır. Bu da respublikanın bütün ədəbiyyatçılarının, Yazıçılar İttifaqının ən  Böyük tarixi şəxsiyyətlərin həyat və fəaliyyətinin öyrənilməsi, təbliği gənc nəslin tərbiyəsində böyük rol oynayır. Heydər Əliyevin şəxsi nümunəsi xalqına, elinə, vətəninə, dövlətinə əsl sədaqətlilik örnəyidir.  Dahi şəxsiyyət hər şeydən əvvəl dilinə, xalqına böyük məhəbbətlə böyümüş bir vətəndaş idi. Doğma ana dili olan Azərbaycan dilini mükəmməl bilirdi və istəyirdi ki, digərləri də öz dilini yaxşı bilsinlər, dilimizin incəlikləri ilə, zəriflikləri ilə tanış olsunlar. Düzdür, sözügedən ərəfədə bu sadalananlar asan olmasa da, o, heç bir çətinliyə baxmayaraq xarici və onların təsiri ilə daxili təqiblərə məhəl qoymadan bu yolda ancaq irəli doğru addımlayırdı. O deyirdi: biz dünyada öz dilimizlə tək yaşayırıq. Bizim birinci nailiyyətimiz o olmalıdır ki, öz dilimizi Azərbaycanda hakim dil etməliyik. Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır. Və bu dili sevməlidir. Bununla yanaşı, biz çalışmalıyıq ki, məktəblərimizdə, universitetlərimizdə gənclərimiz bir neçə dil öyrənsinlər. Mütləq öyrənməlidirlər. Biz artıq dünyaya qovuşmuşuqsa, Dünya Birliyinə daxil olmuşuqsa, gərək insanlarımız bir neçə dil bilsinlər – ingilis dilini də bilsinlər, rus dilini də bilsinlər, fransız dilini də bilsinlər. Bunu yasaq etmək olmaz, bunun qarşısını almaq lazım deyil. Amma birinci öz ana dilini bilməlidirlər.

Ümummilli lider ana dilini mükəmməl bilməklə yanaşı, həm də çox intellektual bir şəxs olmuşdur, ensiklopedik biliyə yiyələnmişdir. Bacardığı qədər dünyada cərəyan edən bütün hadisələri izləyir və özlüyündə qərarlar verirdi ki, mən olsa idim belə edərdim, ya onu düz etmədilər vəs.Heydər Əliyevin Azərbaycan dilinə olan münasibətini, onun dilimizi hər bir incəliklərinə qədər bildiyini, çox geniş biliyə malik olan bir insan olduğunu dedikdə artıq istər-istəməz yeni bir bacarığı da meydana çıxır ki, bu da onun natiqliyidir. O, bacarıqlı ölkə başçısı, ictimai-siyasi xadim, elm xadimi olduğu kimi, həm də çox güclü bir natiq idi. Elə bir natiq idi ki, indiyə qədər Azərbaycanda öz məntiqinin mükəmməlliyinə, nitqinin əzəmətinə, ümumən, natiqlik məharətinə görə onunla müqayisə olunacaq ikinci bir şəxs olmamışdır. Öz adını görkəmli bir natiq kimi silinməz izlərlə tarix səhifəsinə yazmışdır. Nə də düşünmürəm ki, nə vaxtsa kimsə onun qoyub getdiyi izləri silsin və ya yeniləsin. O yol Heydər Əliyev yoludur. Çox zəngin söz ehtiyatına malik olduğu üçün  istənilən mövzuda, istədiyi fikri dinləyiciyə aydın şəkildə izah edərdi. Elə onun natiqliyini səciyyələndirən əsas xüsusiyyətlərdən biri də məhz bu idi. Bəzi mənbələrdə onun çıxış zamanı heç vaxt bir sözü iki dəfə təkrar etmədiyi qeyd olunur. Xalqla xalq dilində danışır, öz çıxışını həmişə auditoriyanın səviyyəsinə uyğun olaraq tənzimləyirdi. Çünki o, əhali ilə yalnız

konfranslarda, müşavirələrdə görüşmürdü. Sadə insanlarla tez-tez bir araya gəlir, Azərbaycanı diyar-diyar, qarış-qarış gəzdikcə bölgələrin dialektləri ilə daha yaxından tanış olur və hətta xalq danışıq dilni öz nitqinə də gətirirdi. İndi dünyaca məşhur olan natiqlər sırasında məhz Heydər Əliyevin adı ilk yerlərdə çəkilir. Bu, xalqımız, dilimiz üçün böyük bir uğurdur.

Ulu öndərin qoyub getdiyi bu sənət yolu hər zaman gənc nəsil tərəfindən öyrənilməli və gələcək nəsillərə də ötürülməlidir. Artıq ali məktəblərdə də Heydər Əliyevin gördüyü işlər, həyatı, natiqliyi və bunlarla yanaşı bütün fəaliyyəti bir elm kimi tədris olunur. Onun haqqında yazılan hər bir misranı, cümləni oxuduqca insan mənən kamilləşir, özündə yeni ideya, yeni güc tapır.

Ümummilli Lider Heydər Əliyev təkcə öz vətənində deyil, həm də bütün dünyada ümumxalq məhəbbətini qazanmış, dövlət siyasətçiləri tərəfindən yüksək qiymətləndirilmişdir. O, əvəzsiz yeri görünən, müdrik şəxsiyyətdir. Biz bu gün sərbəst yaşayıb işləyə bildiyimizə görə, müstəqilliyimizə, əldə olunan sabitliyə görə, həyatımızdakı inkişafa və tərəqqiyə görə bu böyük, tarixi şəxsiyyətə borcluyuq. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş siyasi ənənə hazırda cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

## TƏHSİL SAHƏSİNDƏ GƏNCLƏRƏ GÖSTƏRİLƏN DÖVLƏT QAYĞISININ ƏSAS PERSPEKTİVLƏRİ

***Məmmədova Y.X.***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Heç kəsə sirr deyil ki, gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bu baxımdan ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynamışdır. Azərbaycanda XX əsrin əvvəllərində pedaqoji fikrin səciyyəvi cəhətlərindən biri klassik pedaqoji ideya və ənənələrin Avropa üslublu dünyəvi təhsil təcrübəsi ilə birləşməsi və təlimdə yeni üsulların tətbiqinin diqqəti daha çox cəlb etməsi idi.

Danılmaz həqiqətdir ki, qloballaşma şəraitində rəqabətin gücləndiyi, habelə zaman ötdükcə təbii resursların azaldığı və ekoloji problemlərin kəskinləşdiyi müasir dövrdə təhsil müstəsna əhəmiyyət kəsb edir. Bu mənada Birləşmiş Millətlər Təşkilatının “Təhsil əsri” elan etdiyi XXI əsrdə yüksək intellektə malik insan kapitalının formalaşması və davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu heç vaxt indiki qədər aktual olmamışdır. Təcrübə göstərir ki, hər hansı bir dövlətin inkişafını təbii sərvətlərin bolluğu deyil, bu sərvətlərin yüksək səviyyədə insan kapitalına çevrilməsi təmin edir. Möhtərəm Prezidentimiz İlham Əliyevin uzaq görənliklə söylədiyi “Biz maddi dəyərləmizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun

gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir" müddəasının əsasında məhz həmin tələb qarşıya qoyulur.

Belə bir məşhur fikir vardır ki, təhsil hələ həyatın özü deyil, yalnız həyata hazırlıq mərhələsidir. Bu baxımdan insan şəxsiyyətinin formalaşmasında, zəruri həyat bacarıqlara yiyələnməsində, cəmiyyətdə müstəqil fəaliyyətə hazırlanmasında *ümumi təhsil* müstəsna əhəmiyyətə malikdir. Bugün övaladını məktəbə böyük arzularla gətirən valideyn onun mükəmməl təhsil almasına, milli-mənəvi dəyərlərə malik insan kimi formalaşmasına böyük ümidlər bəsləyir. Ədalət naminə deyək ki, Azərbaycan dövlətinin, ən başlıcası, dövlət rəhbərinin ümumi təhsilin inkişafı naminə gördüyü işlər orta məktəb sisteminin uğurlu gələcəyinə, məktəblərimizin, sözün əsl mənasında, bilik-savad mərkəzlərinə çevriləcəyinə cəmiyyətdə böyük inam yaradır. Ən uğurlu və əhəmiyyətli nəticələr ölkədə məktəb tikintisinin geniş vüsət alması ilə bağlıdır. Müasir dövrün tələblərinə uyğun olaraq, ümumi təhsil sistemində "yaddaş" məktəbindən "təfəkkür" məktəbinə keçidin, təhsilin şəxsiyyətyönümlüyünün təmin edilməsi, ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi, mütərəqqi dünya təcrübəsinə əsaslanan kurikulumların hazırlanması və səmərəli tətbiqi, məktəb rəhbərlərinin, müəllimlərin peşəkarlı səviyyəsinin artırılması, gənc nəslin müstəqil həyata hazırlanması və vətəndaş tərbiyəsi, mövcud nöqsanların aradan qaldırılmasında prinsipial mövqe tutulması ümumi təhsil sisteminin qarşısında duran ən mühüm vəzifələrdəndir

Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda Azərbaycan Respublikasında, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə genişmiqyaslı tədbirləri nəzərdə tutur. *Birinci strateji istiqamət* səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir və təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla, bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir.*İkinci strateji istiqamət* təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir.*Üçüncü strateji istiqamət* təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi, təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir. *Dördüncü strateji istiqamət* müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına

uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılması kimi tədbirləri ehtiva edir. *Beşinci strateji istiqamət* Azərbaycan Respublikasında iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulmasıdır. Bu istiqamət, o cümlədən müxtəlif mənbələrdən istifadə olunmaqla təhsili maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsini, təhsil müəssisələrinin adambaşına maliyyələşdirilməsinə keçidi, ödənişli təhsil xidmətlərinin göstərilməsinin dəstəklənməsini, Təhsilin İnkişafı Fondunun yaradılmasını nəzərdə tutur. Strategiyanın məqsədi ölkədə səriştəli təhsilverənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaqdır.

"Azərbaycan Respublikasında təhsilin inkişafı ilə bağlı Dövlət Strategiyası"nın əsas prioritet məsələlərindən biri də beynəlxalq təcrübədən istifadə etməklə təhsil prosesində müasir informasiya texnologiyalarının sürətli tətbiqidir. Müasir həyatımızın bütün sahələrinin getdikcə informasiyalaşması, informasiya-kommunikasiya texnologiyalarının istinasız olaraq hər bir fəaliyyət sahəsinə nüfuz etməsi dünyanı nəhəng informasiya məkanına çevirmişdir. Hazırda elə bir vəziyyət yaranmışdır ki, informasiyaları yaradan deyil, bu informasiyalardan vaxtında və çevik istifadə edənlər daha çox inkişaf edirlər. Müasir dövrdə ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı məsələsi xüsusi əhəmiyyətə malikdir. Həyata keçirilən tədbirlər nəticəsində ölkənin ümumtəhsil məktəblərinin informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunmasında müsbət dinamikaya nail olunub və təhsil sisteminin İKT əsasında qurulmasına diqqət artırılıb.

Böyük zəhmət və gərgin əmək sayəsində əldə olunmuş uğurlar göz qabağındadır. Heç şübhəsiz, təhsil sistemimizin dinamik inkişafı, qazanılan nailiyyətlər, ilk növbədə, dövlətimizin başçısı möhtərəm İlham Əliyev təhsilə göstərdiyi müntəzəm diqqət və qayğı sayəsində mümkün olmuşdur.

## HEYDƏR ƏLİYEV TÜRK DÜNYASININ BÖYÜK TARİXİ ŞƏXSİYYƏTİDİR

***Məsimova S.S.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycanın son yüz ildə ən böyük tarixi şəxsiyyəti olan Heydər Əliyev irsi həm keçmişimizi öyrənmək, həm də gələcəyimizi daha uğurla müəyyən etmək baxımından əvəzolunmaz sərvətdir. Heydər Əliyevin cəmiyyət və dövlət haqqında siyasi görüşlərinə, onun dinə və dinlərarası münasibətlərə dair söylədiyi fikirlərə və təcrübədə reallaşdırdıqlarına nəzər saldıqda bu gün multikulturalizm bir baxışlar toplusu kimi dəyərləndirilməlidir. Münasibətlərdə dözümlülük, səbirlilik və səmimilik kimi xüsusiyyətlərin xalqımıza tarixən xas cəhətlər olduğunu bir daha təsdiqləmək üçün müdrik

siyasətçinin bizə və gələcək nəsillərə qoyduğu siyasi irs daha dərindən öyrənilməli, araşdırılmalı və geniş kütləyə çatdırılmalıdır. Ümummilli lider Heydər Əliyev, ümumiyyətlə, dünya dinlərinin və xüsusilə də islamın dəyərlərini yüksək qiymətləndirməklə yanaşı, Azərbaycanda dünyəvi dövlətin qurulması və möhkəmləndirilməsi üçün son dərəcə böyük işlər görmüş, 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin bəyan etdiyi əsas prinsiplərə sadiqliyini nümayiş etdirərək, özünün rəhbərliyi altında hazırlanmış yeni Azərbaycan Konstitusiyasında da dövlətin dindən ayrı olduğunu bir daha yenidən təsbit etmiş, xalqımızın kommunizm ideologiyasından uzaqlaşaraq islam dininin dəyərlər sisteminə qayıdışına münbit şərait yaratmış, ölkəmizdəki dini-tarixi abidələrin bərpasına, onların vətəndaşların istifadəsinə verilməsinə yardımçı olmuş, Azərbaycanda yaşayan müxtəlif dinlərə mənsub insanların öz dininə ibadət etməsi və ayinlərini yerinə yetirməsi üçün sərbəst mühit yaratmışdır. Heydər Əliyev bu məsələdə dəfələrlə türk dünyasının böyük tarixi şəxsiyyətlərindən və sərkərdələrindən olan Mustafa Kamal Atatürkün mövqeyinə diqqət və hörmətlə yanaşmış, qardaş Türkiyənin bugünkü uğurlarının məhz multikulturalizm ideyalarından qaynaqlandığını xüsusi qeyd etmişdir. Ulu öndər deyirdi: "Mustafa Kamal Atatürk bütün dünyaya sübut etmişdir ki, müsəlman ölkəsində, əsrlər boyu dinin təsiri altında dini dövlət kimi yaşayan bir ölkədə cümhuriyyət, layiq cümhuriyyət (dünyəvi dövlət - S.İ.) qurmaq, demokratik yolla getmək olar. O, dünyanın bəşəri dəyərlərindən istifadə edərək, xalqının mənəvi dəyərlərini bunlarla birləşdirərək öz xalqını daha da yüksəkliklərə qaldırmışdır". Ulu öndər dinindən, dilindən, milliyyətindən, irqindən asılı olmayaraq, hər bir insana, hər bir vətəndaşa eyni mövqedən yanaşmış, hüquqlarını tanımış və onları qorumaq üçün münbit şərait yaradılmasının, cəmiyyətdə tolerantlıq və dözümlülük prinsiplərinin bərqərar olmasının vacibliyini qeyd etmişdir. Ümumiyyətlə, nəzərə alınmalıdır ki, bəşər tarixinin yaranmasında, inkişafında, bütövlükdə həyatın, dünyanın dərk olunmasında, cəmiyyətin formalaşmasında, onun qanunauyğunluqlarının öyrənilməsində və proseslərin idarə olunmasında dinin müstəsna rolu vardır. Bu amil, bir qayda olaraq, ölkələrarası münasibətlərin tənzimlənməsində, sülhün bərqərar olunmasında böyük əhəmiyyət daşımış və daşımaqdadır. Ümummilli lider Heydər Əliyev hələ sovet dönəmində respublikaya rəhbərlik etdiyi illərdə Azərbaycanın mənəvi dəyərlərini və milli ruhunu yaşatmaq üçün mühüm işlər görmüş, bir çox məscidlərin tarixi-memarlıq abidəsi kimi bərpasına şərait yaratmış, onların dağıdılmasının qarşısını almışdır. Hətta Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə bu yaxınlarda bərpa edilən Gəncədəki "İmamzadə" dini ziyarətgah kompleksini məhvolma təhlükəsindən məhz Heydər Əliyev qurtarmış və sovet dönəmində yeganə müqəddəs ziyarətgah kimi dövlət qeydiyyatına alınması üçün o zamankı SSRİ rəhbərliyindən icazə ala bilmişdir. Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ölkədə hökm sürən gərginliyə baxmayaraq, yenə də islam abidələrinin bərpasına böyük əhəmiyyət vermişdir. 1993-cü il sentyabrın 5-də yenidən bərpa olunan Təzəpir məscidinin açılışındakı çıxışında Azərbaycanda tolerantlığın və dini dözümlülüyün qədim köklərə malik olduğunu xüsusilə vurğulamışdır: "Mən bu gün buradan bütün Azərbaycan vətəndaşlarına müraciət edirəm. Azərbaycan onun ərazisində yaşayan bütün xalqların doğma Vətənidir. Dinindən, dilindən, irqindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı Azərbaycanın ərazi bütövlüyünü,540

bizimlə bir olacaqdır. Biz hamımız birləşib bir yumruq kimi həm Azərbaycanın müstəqilliyini qoruyacağıq, həm də Azərbaycanın ərazi bütövlüyünü təmin edəcəyik". Doğrudan da, ulu öndərin dediyi kimi, Azərbaycanda yaşayan bütün millətlərin, dinlərin nümayəndələri tarix boyu müstəqilliyimiz uğrunda böyük fədakarlıq nümayiş etdirmiş, bu xalqların onlarca nümayəndəsi - ruslar, ləzgilər, avarlar, məshəti türkləri və başqaları göstərdikləri qəhrəmanlığa görə respublikanın ali mükafatlarına layiq görülmüşlər. Onların adlarını bu gün Azərbaycanda çox adam əzbər bilir. Ümummilli lider islam dininin həmişə tərəqqipərvər və dünyəvi əhəmiyyətini qoruyub saxlayacağını düşünürdü: "Heç şübhə yoxdur ki, islam dini indiyə qədər olan tarixində dünyaya nümayiş etdirdiyi əzəmətini, qüdrətini bundan sonra daha da gücləndirəcək və bütün islam dininə itaət edənlərin hamısını xoşbəxtliyə, səadətə gətirib çıxaracaqdır... biz islam dininin inkişafı üçün dövlət tərəfindən lazımi tədbirlərin hamısını görəcəyik. Çünki biz yaxşı bilirik ki, islam Azərbaycan xalqının, bütün islam aləminə mənsub olan insanların, məxluqun ən yüksək mənəviyyat mənbəyidir". Ulu öndər islam dininin işğalçılığa, qəsbkarlığa sövq etmədiyini, insanlara dostluq, qardaşlıq, sülh, barışıq aşıladığını demişdir. O, eyni zamanda, başqa dinlərə mənsub vətəndaşlara da sülh və firavan həyat vəd edirdi: "Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, azadlıq, hürriyyət imkanları verir.

## HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ TARİXİN XALQIMIZA ƏN BÖYÜK TÖHFƏSİ İDİ

***Musayeva Ş.X.***
*Azərbaycan Dövlət Aqrar Universiteti*

Azərbaycanı dünyaya tanıtmaq üçün onun xalqının dahi oğlu yetişməli idi. Bu dahi şəxsiyyət Azərbaycan xalqının müdrik atası və rəhbəri Heydər Əliyev oldu. O, doğma Azərbaycanı təkcə keçmiş SSRİ-də deyil, bütün dünyada tanıtdı. Heydər Əliyev öz böyük şəxsiyyəti, düşmənləri lərzəyə gətirən əzəməti və əyilməz vüqarı ilə mənsub olduğu Azərbaycan xalqının adına misilsiz şan-şöhrət gətirdi. O, öz böyüklüyünü xalqının böyüklüyü kimi təcəssüm etdirdi.

Ulu öndər Heydər Əliyev Azərbaycan tarixində ilk dəfə olaraq ölkəmizdə azərbaycançılıq ideyasını dövlətin siyasi ideologiyası səviyyəsinə qaldırmışdır. Azərbaycan və azərbaycançılıq anlayışları qədim tarixə malik olsa da, uzun əsrlər boyu yalnız coğrafi yer adı kimi işlədilmiş, son yüzillikdə həm də milli ideya olaraq formalaşmışdır. Azərbaycançılığın dövlət siyasətində milli ideologiyaya çevrilməsi ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı böyük tarixi xidmətlərindən biridir.

Azərbaycançılıq milli məndəricədən kənara çıxan, millilik və ümumbəşəriliyin vəhdətindən çıxış edən bir məfkurədir. Bu məfkurənin məzmunu Azərbaycanda ilk dəfə ümummilli lider Heydər Əliyev tərəfindən açılmış və bütün dünya azərbaycanlılarına ərməğan edilmişdir."...Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi

keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənələrini yaşatmalıyıq".

Dünyanın liderlik zirvəsində olanlar arasında Azərbaycana 30 ildən çox müddətdə rəhbərlik etmiş, onu yüksək inkişaf səviyyəsinə qaldırmış ümummilli liderimiz Heydər Əliyevin xüsusi yeri var. Onun lider kimi cəmiyyətə və dünyaya təsiri olduqca güclü idi. Heydər Əliyev xalqının, ölkəsinin, dünyanın tarixini çox gözəl bilirdi. O, bilirdi ki, hər bir xalq kimi Azərbaycan xalqı da öz tarixi keçmişini, mədəniyyətini çox sevir. Lakin artıq XX əsrin 60-cı illərində bu sahədə ciddi unutqanlıq, yaddaşdan silinmə var idi. Məhz bunu nəzərə alan Heydər Əliyev 1969-cu ildə respublikaya rəhbərliyə gələn kimi qədim milli dəyərlərimizi, mədəniyyətimizi, incəsənətimizi, tariximizi özümüzə qaytarmaq sahəsində ciddi addımlar atdı. Nizamini, Nəsimini, Xətaini özümüzə qaytardı, Dədə Qorqudumuzu layiq olduğu müdriklik zirvəsinə qaldırdı, dünya şöhrətli alimlərin, bəstəkarların, sənətkarların yetişməsi üçün əvvəllər olmayan şərait yaratdı. Bu, xalqın keçmişi ilə bağlı hisslərinin oyanmasına səbəb olan ən güclü təsir idi.

Azərbaycanın ən yeni tarixini yaradan Heydər Əliyev doğma xalqı ilə sıx vəhdət təşkil edən, azərbaycanlı olmasından daim qürur duyan nadir şəxsiyyətlərdən biridir. O, Azərbaycan xalqının yetirdiyi elə bir düha idi ki, öz əqli potensialı ilə dünyanı idarə etməyə qadir idi. Fəaliyyətinin birinci mərhələsində Heydər Əliyev vahid sovet ideologiyasının möhtəşəmliyini sındıra, geridə qalmış əyalət respublikasında milli özünüdərk hissi, azərbaycanlı şüuru formalaşdıra bildi. Azərbaycanın dahi insanlarının, dövrünün haqsızlıqları ilə üzləşmiş görkəmli mədəniyyət xadimlərinin əvəzsiz irsinin xalqa çatdırılması, keçmiş SSRİ məkanında təbliğ edilməsi məhz Heydər Əliyevin xidməti idi. Azərbaycanın zəngin mədəni sərvətinin sovet məkanına çıxarılması ilə bu böyük şəxsiyyət imperiyanın vahid dil, vahid millət siyasəti yeritmək istəyinə qarşı çıxır, onları ölkəmizin çoxəsrlik ənənələrini tanımağa məcbur edirdi. Heydər Əliyev bu dövrdə Azərbaycan xalqını totalitar düşüncə tərzindən kənarda saxlaya, imperiya siyasətinə müxalif mədəniyyət xadimlərimizi mühafizə edə və ölkəsini inkişaf etmiş respublika səviyyəsinə qaldıra bildi.

Biz 1993-cü ilin sonlarından etibarən milli ideologiyanın, azərbaycançılıq ideologiyasının müasir elmi-nəzəri standartlar sayəsində formalaşmasının şahidiyik. Azərbaycançılıq bu gün milli ənənələri, dini və praqmatik nəzəriyyələri, zamanın tələbinə uyğun iqdisadi proseslər, cəmiyyətin inkişafının bütün çalarlarını özündə birləşdirir. Bütün bunlar Ulu öndərimizin xalqı qarşısında tarixi xidmətləridir. Dahi rəhbərin hər kəlməsi, hər sözü xalqı qəflətdən oyadan zəng səsidir. Heydər Əliyev deyirdi: "Əgər bizim millətimizin keçmişini, tarixini, mədəniyyətini, onun mənliyini bizim alimlərimiz, ziyalılarımız tədqiq etməsələr, xalqımıza, dünyaya göstərməsələr, sübut etməsələr, bəs bunu kim edəcəkdir?". Əgər biz Heydər Əliyevin qurduğu Azərbaycan Respublikasını, Azərbaycan dövlətçiliyini qorumaq və möhkəmləndirmək istəyiriksə, dahi rəhbərin bu dərin kəlamlarına vicdanımız, qeyrətimizlə, hər birimiz öz əməli işimizlə cavab axtarmalıyıq, o kəlamlardan nəticə çıxarmalıyıq. Biz azərbaycançılığın kökünü Heydər Əliyevin nitqlərində, məruzə və çıxışlarında, onun ziyalılara müraciətlə dediyi sözlərdə, tarixi vəsiyyətlərində axtarmalıyıq.

Ölməzlik, həmişəyaşarlıq dahilərə, böyük şəxsiyyətlərə nəsib olan xoşbəxtlikdir. Xalqımızın böyük oğlu, ümummilli liderimiz Heydər Əliyev də məhz belə xoşbəxt tarixi simalardandır. Heydər Əliyev xalqımızın dünya tarixinə bəxş etdiyi elə qüdrətli dövlət xadimlərindəndir ki, insanlar, yeniləşən nəsillər zaman-zaman onun ömür yoluna müraciət edəcək, zəngin irsini araşdıracaq, öyrənəcək, liderlik məktəbindən dərs alacaqlar. Müstəqil, demokratik-hüquqi dövlət Heydər Əliyevin gələcək nəsillərə qoyub getdiyi ən böyük əmanətdir və bu əmanətin qorunub saxlanması bir vətəndaş olaraq hər birimizin üzərinə böyük məsuliyyət qoyur. Dünyada hər şey dəyişir, qalan isə saf əməllərdir. Ulu öndər nəsillərin qəlbində öz əməlləri, ölməz ideyaları ilə yaşayacaqdır. Əsrlər, qərinələr keçəcək, Azərbaycan xalqı var olduqca onun ümummilli lideri də daim yaşayacaq, heç vaxt unudulmayacaqdır.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA MİLLİ MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASI

***Mustafayeva G.M.***
*Gəncə Dövlət Universiteti*

Azərbaycan xalqı meydana gəldiyi gündən inam-inanc, etiqadla yaşamış, özünü yer üzünün əşrəfi məqamına yüksəltmiş, bu yüksəkliyin qədrini bilmiş, müqəddəsliyə tapınmış və onun qiymətini qorumuşdur. Beləcə qədirbilənliyi ilə tarixən təkmilləşmişdir. Müxtəlif bədii-estetik qənaətləri, dini-fəlsəfi görüşləri, ictimai-siyasi konsepsiyaları, ürfani-idraki axtarışları ilə özünün intellektual gücünü artırmağa çalışmışdır. Bu yolun zirvələrindən biri, heç şübhəsiz, onun milli mənəvi dəyərləri olmuşdur. Tarixən qədim, məzmun və mündəricə etibarı ilə zəngin və ecazkar olan Azərbaycan xalqınının milli mənəvi dəyərləri bu ümumbəşəri yolun əvəzsiz tapıntısıdır. Məhz xalqın milli mənəvi dəyərləri qədim dövrlərdən bəri onun inam-inanc mənziləsi olmuşdur. Ancaq bütün bunlara baxmayaraq 70 il müddətində kommunizm ideologiyasının əsirinə çevirilən Azərbaycan xalqının milli mənəvi dəyərləri məlum rejim tərəfindən buxovlanmaq təhlükəsi ilə üzləşmişdir. Sovet imperiyasının Azərbaycan xalqı əleyhinə apardığı siyasət nəticəsində Azərbaycan Respublikasında bütün sahələrdə olduğu kimi, mənəvi sahədə də böhran hökm sürmüş və 1960-cı illərdə bu böhran özünün kulminasiya nöqtəsinə çatmışdır.Ancaq tarix boyu olduğu kimi, həmin dövrdə də xalqı düşdüyü ağır vəziyyətdən qurtarmaq üçün mütləq bir xilaskarın gəlişi labüd idi.

1969-cu ildə hakimiyyət sükanı arxasına keçən ümummilli lider Heydər Əliyev qısa müddət ərzində respublikanın iqtisadi və inzibati həyatına dinamik inkişaf gətirməyə nail ola bildi. Heydər Əliyevin iqtisadi və sosial sahədə apardığı islahat və son nəticədə gətirdiyi inkişaf eyni zamanda Azərbaycan xalqının yarım əsr ərzində məhvə və təqiblərə məruz qalmış zəngin milli mənəvi dəyərlərinin də qorunması və inkişafına səbəb olmuşdur.

İstər ideoloji inhisarçılıq dövründə, istərsə də müstəqillik dövründə Azərbaycan xalqının milli mənəvi dəyərlərinin qorunması və inkişafı, şübhəsiz ki, Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində mümkün olmuşdur. Belə əzmkar fəaliyyətin məntiqi

nəticəsi olaraq Azərbaycan xalqı öz milli mənəvi dəyərlərini həyatının bütün sahələrində yaşadır və inkişaf etdirir. Heydər Əliyev milli mənəvi dəyərlərin qorunması istqamətində bir sıra tədbirlər həyata keçirmişdir.

Hazırda Azərbaycan xalqının həyatının bütün sahələrində mühüm əhəmiyyət daşıyan milli mənəvi dəyərlərin 1969-cu ildən başlayaraq Heydər Əliyevin istər daxildə, istərsə də xaricdə Sovet imperiyasının möhkəm dayaqları ilə apardığı mürəkkəb və qətiyyətli siyasi mübarizələrin nəticəsində qorunub saxlanması üçün gördüyü işlərin öyrənilməsi vacibdir.

Unutmaq olmaz ki, Sovet imperiyasının sahibi Rusiya dövləti olmasına baxmayaraq, Rusiyada İ.Brotski, B.Posternak, Soljenitsin və s. bunlar kimi onlarla düşünən ziyalı başlar təqibə məruz qaldığı halda imperiyanın kiçik bir hissəsini təşkil edən Azərbaycanda Heydər Əliyevin apardığı mərhələli milli siyasət strategiyası sayəsində ziyalı təbəqə tam təhlükəsizlik şəraitində yazıb-yarada bilmişdir. Bununla yanaşı Heydər Əliyev Azərbaycan xalqının milli mənəvi dəyərlərinin daşıyıcıları olan ziyalı təbəqənin ictimai və siyasi fəaliyyətini genişləndirmiş və onları cəmiyyətin ön sıralarına cəkmişdir.

Ümumilikdə götürsək, Rusiyadan başqa heç bir Sovet Respublikasında bu qədər mədəniyyət və incəsənət xadimi belə yüksək adlara, vəzifələrə layiq görülməmişdir. Müqayisə üçün deyək ki, o zaman böyük respublika olan Ukraynada sənət adamları arasında cəmi iki Sosialist Əməyi Qəhrəmanı olmuşdur. Şübhəsiz ki, milli mənəvi dəyərlərin daşıyıcıları olan incəsənət xadimlərinin əldə etdikləri o zamankı nailiyyətlər Azərbaycana rəhbərlik edən Heydər Əliyevin xidmətinin, hörmətinin, nüfuzunun, milli mənəvi dəyərlərə münasibətinin, ən başlıcası isə mətanətinin və cəsarətinin məntiqi nəticəsi idi.

Azərbaycanın görkəmli şair və yazıçılarına verilən qiymət və müstəqil şəkildə yazıb-yaratmaq üçün yaradılan şərait nəticəsində 1970-1980-ci illərdə Azərbaycan ədəbiyyatı əvvəlki illərdə olduğu kimi məddahlığa və ya sözün əsl mənasında desək, yaltaqlığa deyil, xalqın buxovlanmış mənəvi dəyərlərinin yenidən dirçəlişinə xidmət edirdi. 1970-1980-ci illərdə yaranan ədəbi əsərlərdə xalqın zəngin qaynaqları olan milli mənəvi aləmi öz poetik əksini böyük ustalıqla tapa bilmişdi. Əgər 1969-cu ilə qədər mövcud rejimdən çəkinərək yazıçı və şairlər ictimai-siyasi ədalətsizliklər barəsində əsərlərində eyhamlardan, rəmzlərdən, alleqoriyalardan, başqa xalqların və tarixi dövrlərin mövzularından geniş şəkildə istifadə edirdilərsə, 1969-cu ildən başlayaraq Heydər Əliyevin şəxsi qayğısı, diqqəti və möhkəm şəkildə təmin etdiyi təhlükəsizliyin sayəsində Azərbaycanın ən görkəmli ədibləri, mədəniyyət və incəsənət xadimləri xalqın mənəviyyatını zənginləşdirən mühüm mövzuları işləyə bilmişlər.

SSRI-nin süqutundan sonra Azərbaycanda hökm sürən ictimai-siyasi qeyri-sabitlik yenidən başqa sahələrdə olduğu kimi mənəvi dəyərlər sahəsində də böhranlı vəziyyət yaratmış oldu. Heç şübhəsiz, 1993-cü ildə Azərbaycan xalqının şiddətli təkidi ilə yenidən hakimiyyət sükanı arxasına keçən Heydər Əliyev bu dəfə də başqa mühüm sahələr kimi milli mənəvi dəyərlər sahəsinin dirçəlişi və inkişafı istiqamətində misilsiz tədbirlər həyata keçirmiş oldu. Qısa müddət ərzində Heydər Əliyevin sayəsində dini dəyərlər xalqın əxlaqının və mənəviyyatının kamilləşməsinə xidmət etməyə başladı, mədəniyyət və incəsənət

sahələrinin inkişafına isə dövlət tərəfindən böyük diqqət və qayğı göstərilməyə başlandı. Bütün bunlar isə Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin bariz nümunəsi kimi qiymətləndirildi. Məhz milli mənəvi dəyərlərin qorunması və dirçəlişində Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ GƏNC NƏSLİN TƏRBİYƏSİ MƏSƏLƏLƏRİ


***Mustafayeva J.Ə.***

*Azərbaycan Dillər Universiteti*


*"Biz çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələr əsasında tərbiyə edilsinlər".*

*Heydər Əliyev*

Ümummilli liderimiz gəncliyin tərbiyəsi məsələsini daim diqqət mərkəzində saxlayır və bu işlə məşğul olanlardan tələb edirdi: "Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır"

Ökəmizin, doğma Vətənimizin müharibə şəraitində yaşamasına, çətinliklərə düçar olmasına baxmayaraq, Ulu öndər qayğıkeş müəllim, uzaqgörən siyasətçi kimi yetişən nəslin tərbiyəsi ilə məşğul olanlara xatırladırdı ki, ölkəmizin, dövlətimizin, millətimizin gələcəyi gəncliyi nə cür tərbiyə edəcəyimizdən asılıdır: "Nə qədər var-dövlət olsa da, nə qədər pul olsa da, nə qədər zənginlik olsa da, mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Xalqımızın tarixinin əsasını təşkil edən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün örnək edən, bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır. Ona görə də bu gün mənəvi tərbiyə, bəlkə də, keçmiş illərdən daha çox lazımdır".

Heydər Əliyev cəmiyyətdə, gəncliyin tərbiyəsində baş verən neqativ halları çox həssaslıqla izləyir, onların aradan qaldırılması üçün düzgün yol göstərirdi: "Gənclərin… tərbiyəsi işində, onların mənəviyyatca formalaşmasında, həyat fəaliyyəti üçün hazırlanmasında buraxılan səhvlərə gərək daha yol verməyək, gənclər doğru yolla getsinlər, həyatda öz yerlərini tapa bilsinlər, həm özləri üçün, həm onları böyüdən, yetişdirən valideynləri üçün, həm də cəmiyyətləri, xalq üçün, dövlət üçün faydalı ola bilsinlər"

Gəncliyə həm millətin, həm də xalqın gələcəyi kimi baxan müdrik rəhbər 1993-cü ilin 22 sentyabrında respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşündə demişdir: "Əsas vəzifələrdən biri də gənclərimiz arasında vətənpərvərlik hissini geniş təbliğ etməkdir. Bu təkcə ona görə deyil ki, biz indi müharibə aparırıq. Hər bir vətəndaş vətənpərvər olmalıdır. Əgər öz Vətənini, torpağını, xalqını sevməsən, öz xalqının mənəvi dəyərlərinə sadiq olmasan, şübhəsiz ki, dünyada başqa şeyləri də qiymətləndirə bilməzsən" (1,65).

Milli liderimiz Azərbaycan gənclərini Vətəni odlu ürəklə sevməyə, ona sədaqətlə xidmət etməyə səsləyirdi: "Sizin ən ümdə vəzifəniz Vətənə, ölkəmizə, doğma torpağımıza daim sədaqətli olmaqdır. Hər bir gənc bunu heç vaxt unutmamalıdır. Nə olursa-olsun,

Vətənə, xalqına, ölkəsinə, dövlətinə sədaqət hər bir gənci daim yaşadacaq və ona cəmiyyətdə özünə layiq, özü istədiyi yeri tapmağa imkan verəcəkdir. İndi bizim müstəqil ölkəmiz, müstəqil dövlətimiz var, doğma Azərbaycanımız var. Bu, bizimdir, bu,sizindir, bu, daim Azərbaycan xalqınındır. Hər bir gənc, hər bir azərbaycanlı, Azərbaycanın hər bir vətəndaşı eyni zamanda öz doğma Azərbaycan torpağını, Azərbaycan Respublikasını qorumalı, gözbəbəyi kimi saxlamalıdır".

Milli lider hər bir azərbaycanlıya vaxtı çatanadək orduda xidmət üçün hazırlaşmağı tövsiyə edirdi. O hesab edirdi ki, "gənclərin orduda xidmət üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik"

H.Əliyev gəncliyin tərbiyəsində ana dilinin xüsusi rolunu dönə-dönə qeyd edirdi.

Ulu öndər özü misilsiz natiq idi. Azərbaycan dilinin bütün incəliklərini bilir, ana dilini sevir, bu dildə gözəl danışırdı. O həm də Azərbaycan dilinin müdafiəçisi, qoruyucusu idi. Hələ 1978-ci ildə SSRİ-nin tərkibində olduğumuz, rus dilinin hökmranlığı dövründə məhz Heydər Əliyevin təkidi, böyük cəsarəti sayəsində Azərbaycan dili Azərbaycan SSR Konstitusiyasında rəsmi dövlət dili kimi təsbit olunmuşdu.

Azərbaycan dilindən, onun öyrənilməsinin vacibliyindən bəhs edən H.Əliyev təkidlə vurğulayırdı:" Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var. Bəlkə də, biz bu dildə danışdığımıza görə öz dilimizin zənginliyini və gözəlliyini hələ tam dərk edə bilməmişik. Ancaq bilin ki, bu, həqiqətdir, ona görə də bunu heç bir şeyə dəyişmək olmaz.

…Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir.

…Öz dilinizi heç vaxt unutmayın və öz dilinizi heç bir başqa dilə dəyişməyin. Xalqın, millətin, insanın öz ana dilindən qiymətli heç bir şey ola bilməz".

Ulu öndər Vətəndən kənarda yaşayan azərbaycanlılara da tövsiyə edərək deyirdi: "Azərbaycanı heç vaxt unutmayın, Azərbaycan dilini unutmayın. Mükəmməl öyrənin. Amma Azərbaycan dilini nəinki unutmayın, müasir Azərbaycan dilini öyrənin. Bütün diasporlarda Azərbaycan dili hökm sürməlidir. Çünki dilini unudan adam, şübhəsiz ki, milli keyfiyyətlərini də xırda-xırda unudur. Buna yol vermək olmaz".

## AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Niftiyev F.Q.***

*AMEA, akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*

Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyev siyasi, ictimai həm də iqtisadiyyatın inkişafından böyük və müstəsna rol oynayan əvəzsiz şəxsdir. 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev apardığı ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmə proseslərin qarşısın alınması, və digər tədbirlərdən sonra iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı və bununlada Azərbaycanın iqtisadi inkişafına mahiyyətcə yeni mərhələnin təməli qoyuldu. Əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən genişmiqyaslı islahatların ilkin nəticələri aparılan

siyasətin düzgünlüynü və Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq edirdi.

İqtisadi islahatların mühüm istiqaməti olan özəlləşdirmə prosesi uğurla həyata keçirildi. 1996-cı ildən ümumi daxili məhsul ilbəil artmağa başladı, iqtisadiyyatda tənəzzülün qarşısı alındı və 1994-1995-ci illərdə bugünki naliyyətlərin əldə olunmasının təməli qoyuldu. 1997-ci ildən sənaye məhsullarının buraxılışında artım müşahidə edilmiş, bu sıradan neft emalı, metallurgiya, ağac emalı, şüşə və çini-saxsı məhsullar istehsalında artım daha da yüksək olmuşdur. Sənayenin inkişafı ilə yanaşı, kənd təsərrüfatın inkişaf etdirilməsinədə xüsusi diqqət yetirirdi. Respublikada 40-dan çox normativ-hüquqi akt qəbul edilmiş, kənd təsərrüfatı məhsullarının satışında qiymətlər tam sabitləşmiş, idxal-ixrac əməliyyatlarında bütün maneələr aradan qaldırılmışdır.

Azərbaycan Respublikasının iqtisadi siyasətinin öncül istiqamətlərindən biri dövlətin neft strategiyasının hazırlanması olmuşdur. Bu strategiyanın həyata keçirilməsinə 1994-cü il sentyabrın 20-də Azərbaycan respublikası Dövlət Neft Şirkəti ilə dünyanın aparıcı ölkələrinin (ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistan) ən məşhur neft şirkətləri arasında Xəzər dənizinin Azərbaycan bölməsindəki "Azəri", "Çiraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında fəaliyət müddəti 30 il olan "Əsrin müqaviləsi"nin imzalanması ilə başlamışdır.

Heydər Əliyev Azərbaycan neft kəmərinin çoxvariantlığı ideyası ilə çıxış edərək Bakı-Supsa kəməri işə salınmasına, eyni zamanda "Əsrin müqaviləsi" çərçivəsində hasil olunacaq əsas neftin nəqli üçün "Bakı-Tibilisi-Ceyhan" neft kəmərinin inşa edilməsi üzrə danışıqlar intensivləşdirilməsinə nail olur. 1999-cu ilin noyabrında Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri ABŞ-ın dövlət başçısının iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşa edilməsinə dair hökümətlərarası saziş imzalanmış, bu kəmərin çəkilməsi yolunda yaradılan çoxsaylı əngəllərə baxmayaraq Heydər Əliyev siyasi iradəsi və uzaqgörənliyi sayəsində maneələrin hamısı dəf edilərək bu layihənin gerçəkləşməsi reallığa çevrilmiş, 2003-cü ildə kəmərin tikintisinə başlanılmışdır. Ölkəmizin iqtisadi həyatında Heydər Əliyev həm də Azərbaycan qazının dünya bazarına çıxarılması üçün nəzərdə tutulan və regionun kifayət qədər əhəmiyyətli layihəsi hesab edilən Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin təməli qoyulmuşdur. Heydər Əliyev neft gəlirlərinin şəffaf xərclənməsi və gələcək nəsillərə saxlanılması məqsədilə 1999-cu il dekabr 29-da "Dövlət Neft Fondunun yaradılması haqqında" Fərman imzalamışdır.

Ulu öndərimiz təşəbbüsü və rəhbərliyi ilə ümumxalq müzakirələrindən sonra torpaq islahatı proqramı hazırlandı və bu proqram əsasında torpaq islahatlarının həyata keçirilməsini təmin edən hüquqi baza yaradıldı. «Torpaq islahatı haqqında» Azərbaycan Respublikasının 16 iyul 1996-cı il tarixli Qanunu, «Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında» Azərbaycan Respublikasının 22 dekabr 1998-ci il tarixli Qanunu, «Torpaq icarəsi haqqında» Azərbaycan Respublikasının 12 mart 1999-cu il tarixli Qanunu, Azərbaycan Respublikasının 25 iyun 1999-cu il tarixli Qanunu ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Torpaq Məcəlləsi», «Torpaq bazarı haqqında» Azərbaycan Respublikasının 7 may 1999-cu il tarixli Qanunu da daxil olmaqla qəbul edilmiş 52-dən çox fərman, qanun və digər hüquqi normativ aktlar respublikamızda torpaq

islahatlarını həyata keçirməyə əsaslı zəmin yaratdı. Beləliklə Heydər Əliyevin Naxçıvan MR–ə rəhbərlik etdiyi dövrdə Culfa rayonunun Şurut və Gal kəndlərində bünövrəsini qoyduğu torpaq islahatları bütün ölkəyə tətbiq edilməyə başlandı.

Heydər Əliyevin aqrar siyasəti olaraq həyata keçirilən və hazırda möhtərəm prezident tərəfindən davam etdirilən torpaq islahatlarının növbəti mərhələləri böyük dinamizimlə bu gün daha da dərinləşməkdədir.

Xalqımızın mütləq əksəriyyətinin səs çoxluğu ilə 2003-cü il Prezident seçkilərində Dövlət başçısı seçilən möhtərəm Prezidentimiz, cənab İlham Əliyev tərəfindən imzalanmış 24 noyabr 2003-cü il tarixli «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» fərman aqrar sahənin inkişafına da böyük təkan vermiş, bu bölmədə çalışan insanlara əlverişli şəraitin yaradılmasına səbəb olmuşdur.

## HEYDƏR ƏLİYEV SUMQAYITDA

***Sadıqov H.Ş.***
*Sumqayıt Dövlət Universiteti*

XX əsrin 1969-1982 və 1993-2003-cü illərində Azərbaycan dövlətinə rəhbərlik etmiş dahi siyasi lider Heydər Əliyev həm də Xəzər sahilində yenicə salınmış sənaye şəhəri Sumqayıta və onun iqtisadi, sosial, mədəni inkişafına xüsusi diqqət və qayğı göstərmişdi.

Rəsmi sənədlərdən və mətbuat səhifələrindən məlum olmuşdur ki, şəhər təsərrüfatının aktual problemlərinin həlli ilə əlaqədar olaraq Heydər Əliyev Sumqayıta 16 dəfə rəsmi səfər etmişdir.

Heydər Əliyevin dövlət başçısı kimi ilk dəfə Sumqayıta gəlişi 1969-cu ilin oktyabr ayında, yəni yüksək dövlət vəzifəsinə başçı seçildikdən cəmi üç ay sonra olmuşdur.

Dövlət rəhbərinin şəhərə gəlişi münasibəti ilə kimyaçıların Səməd Vurğun adına mədəniyyət sarayında fəallarla geniş yığıncaq olmuşdur. Heydər Əliyev yığıncaqda sumqayıtlıların mənzil-məişət şəraitində yaranmış ağır vəziyyət və onların tezliklə aradan qaldırılması barədə geniş tarixi nitq söyləmişdir: "Bakıdan sonra ikinci sənaye şəhəri olan Sumqayıtı SSRİ-nin qüdrətli energetika, ağır və əlvan sənaye, kimya sənayesinin güclü mərkəzinə çevirmək, onun əvvəlki nüfuz və şöhrətini qaytarmaq bizim əsas vəzifəmiz və borcumuzdur. Sumqayıtı həmdə mədəniyyət və elm mərkəzinə çevirmək lazımdır. Eləcə də şəhər əhalisinin sosial problemlərini ilk növbədə mənzil-məişət kommunikasiya, nəqliyyat və digər problemləri həll etmək zəruri məsələdir" (H.Alıyev. "Sumqayıt şəhərinin tarixi).

Heydər Əliyevin hər dəfə Sumqayıta növbəti gəlişi şəhərin iqtisadi, mədəni, mənzil, məişət, təhsil, səhiyyə və digər sahələrinin inkişafına güclü təsir göstərirdi. Onun şəhər fəalları qarşısında çıxışları, nitqləri, tövsiyyələri, tapşırıqları müəssisə idarə və təşkilat rəhbərləri üçün, bir növ, idarəçilik məktəbi olurdu.

Heydər Əliyev gənclər şəhərinə və onun dostluq və mehribançılıq şəraitində yaşayan çox millətli əhalisinin daha da mehriban yaşamalara üçün ciddi diqqət və qayğı göstərirdi.

Heydər Əliyevin sumqayıtlı gənclərə göstərdiyi ən yüksək qayğı və diqqət onun 13 iyun 2000-ci il tarixli fərmanı ilə şəhərdə yaradılmış Sumqayıt Dövlət Universiteti olmuşdur (Elm və təhsil" nəşriyyatı, Bakı, 2011, səh. 155).

Azərbaycan xalqının XX əsr dahi maarifçi filosofu Heydər Əliyevin Sumqayıt şəhərinə bəxş etdiyi təhsil, elm və mədəniyyət mərkəzinə çevrilmiş Universitet tarixən cavan olsa da bugün o respublikanın qabaqcıl universitetləri cərgəsində dayanır.

Hazırda SDU-da çoxsaylı Sumqayıt gəncləri ilə birgə respublikanın bütün rayon və şəhərlərindən gəlmiş gənclər də təhsil alır.

Mətbuat səhifələrindən məlumdur ki, dünyanın bir çox ölkələrinin dövlət başçıları məhşur mədəniyyət, incəsənət, elm, din xadimləri də Sumqayıtda olmuşlar, şəhər və şəhərlilər haqqında xoş  sözlər demişlər. Lakin Sumqayıt və onun sakinləri barədə çox dəqiq, məntiqli və dərin mənalı tarixi fikir söyləyən Heydər Əliyev olmuşdur.

Sumqayıt bütün Azərbaycanı təmsil edir. Azərbaycanın hər bir yerindən bu şəhərdə yaşayanlar var. Sumqayıt kiçik bir Azərbaycan kimidir. O, Azərbaycan xalqının birlik, həmrəylik şəhəridir, ölkəmizin dayağıdır, gözəl bir guşədir”.

Bu gün respublikamızın bütün rayon və şəhərlərində olduğu kimi, Sumqayıtda da dahi Heydər Əliyevin davamlı inkişaf siyasəti ölkə başçısı cənab İlham Əliyev tərəfindən böyük uğurla həyata keçirilir.

Cənab prezident İlham Əliyevin Sumqayıt şəhərinə və sumqayıtlılara göstərdiyi yüksək diqqət və qayğı nəticəsində şəhər özünün yeni intibah dövrünü keçirir, gündən-günə abadlaşır, gözəlləşir, sakinlərə isə mədəni əyləncə və xoş istirahət üçün geniş imkanlar yaradır.

Mətbuat səhifələrindən məlum olmuşdur ki, cənab prezident İlham Əliyev Sumqayıta 18 dəfə rəsmi səfər etmişdir. Onun hər dəfə şəhərə gəlişi şəhər təssərrüfatının bütün sahələri üçün dayaqlı təminat olmuşdur.

Məlum olduğu kimi cənab prezident İlham Əliyev 2017-ci ilin dekabr ayının 15-ində Sumqayıtda olmuş, şəhərdə son illərdə aparılan geniş miqyaslı abadlıq işləri ilə tanış olmuş və Sumqayıtı möcüzələr şəhəri adlandırmışdır.

## HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR

***Sadıxov A.F.***
*Azərbaycan Texniki Universiteti*

Müasir qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı real həyatda fantastik nailiyyətlərə, mütərəqqi dəyişikliklərə yol açsa da, bu prosesin tarixi-mədəni irsə, ənənələrə müəyyən təhlükə meyilləri də özünü qabarıq göstərir. Tarix isə göstərir ki, hər hansı milləti kölə vəziyyətinə salmaq üçün ona keçmişini, milli ənənələrini unutdurmaq və yaxud da kökündən uzaqlaşdırıb yaxın çağlara gətirmək yetərlidir. Xalqların qərinələr boyu formalaşmış yüksək əxlaqi-mənəvi meyarlarını pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya fenomenal şəxsiyyətlərin üzərinə düşür.

Azərbaycanda bu ağır və məsuliyyətli missiyanı Ulu öndərimiz Heydər Əliyev öz çiyinlərinə götürərək hakimiyyətdə olduğu bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin böyük himayədarı və daşıyıcısı qismində çıxış etmişdir. Ulu öndərimiz çıxışlarında hər

zaman xüsusi vurğulamışdır ki, müasir dünyada qloballaşma proseslərinin nəticəsi kimi ortaya çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunması məsələsini də çağdaş zamanın ən aktual məsələlərindən birinə çevirmişdir. Problemi aktuallaşdıran başlıca amil budur ki, total əxlaqın və çoxtərəfli inteqrasiyasının diqtələri bir çox hallarda əsrlərin mirasına – milli-mənəvi dəyərlərə qarşı yönəlir. Ümummilli liderimiz Heydər Əliyevin böyüklüyü məhz bu təhdidi düzgün qiymətləndirməsi, daim diqqət mərkəzində saxlaması və potensial təhlükə mənbəyinə çevrilməsinin qarşısını almasıdır. Ulu öndər Heydər Əliyevin öz Vətəninə, xalqına, milli irs və ənənələrinə bağlılığı bu təhdidlərin özündə əzəmətli sipərə çevrilmiş, bütövlükdə xalqın genetik yaddaşını qorumuşdur. Heydər Əliyev Azərbaycanın min illərin sınağından çıxmış mədəniyyətinə, tarixinə, ənənəsinə həddən artıq bağlı olmaqla yanaşı, onların olduğu kimi xalqa qaytarılması üçün əlindən gələni əsirgəməmişdir.

Heydər Əliyev fəlsəfəsində yeni mentalitetin və dəyərlərin formalaşmasında metodoloji yanaşmalardan biri kimi gəncləri vətənpərvərlik ruhunda tərbiyə etməyin yollarını göstərməsidir. Önəmli cəhət budur ki, ölkə prezidenti müasir gənclərdə, xüsusilə tələbələrdə vətənpərvərlik şüurunun tərbiyəsi məsələlərinin müasir vəziyyətini yaxşı bilir. Həqiqətən də, bugünkü Azərbaycanın ictimai inkişafının durumu elə vəziyyətdədir ki, hazırki dünyagörüşümüzü Vətən anlayışı, Vətənə sevgi və məhəbbət hissi olmadan təsəvvür etmək, sadəcə, mümkün deyildir. Sarsıntılı sınaqlar keçirən xalqımız milli dirçəlişə, siyasi həyatının dönüşlü mərhələsində, milli yetkinlik çağında labüd olaraq vətənpərvərlik şüurunun saflaşdırılmasına dərin ehtiyac duyur. Belə bir sosial tələbatın bu gün ön plana çəkilməsini təsadüfi hesab etmək düzgün olmazdı. Uzun illər boyu totalitar rejim şəraitində ideoloji təbliğatın aparıcı istiqaməti SSRİ-ni bu ərazidə yaşayan bütün xalqlar və millətlər üçün yeganə Vətən kimi təbliğ etmək olmuşdur. Hər bir millətin özünəməxsus xüsusiyyətləri tam nəzərə alınmır, beynəlmiləl dəyərlərə üstünlük verilmirdi. Bu ağır və ziddiyyətli irsin mahiyyəti bunda idi ki, xalqımız əsl vətənpərvərliyin formalaşması üçün ümdə şərtlər olan arzu ediləcək səviyyədə milli qürur hissi və ləyaqət, tarixi yaddaş, milli adət və ənənələri, lazımi hörmət kimi hissləri qoruyub saxlaya bilmirdi. Lakin hazırda xalqımızın tarixi taleyi lazımi imkanlar açdığından təcrübəli dövlət başçısı Heydər Əliyevin müdrik rəhbərliyi sayəsində tarixi-siyasi əhəmiyyət kəsb edən vəzifələri yerinə yetirir: ölkəni iqtisadi çətinliklərdən çıxarmaq, yoxsulluğu aradan qaldırmaq, müxənnət qonşularımızın zəbt etdikləri torpaqları geri almaq məhz bu qəbildən olan taleyüklü məsələlərdir. Məhz ümummilli lider Heydər Əliyevin ətrafında birləşməyin nəticəsidir ki, xalqımız bütün səylərin, intellektual potensialını səfərbər edərək vətənpərvərcəsinə Vətənin bütün sağlam, demokratik ovqatlı və əqidəli qüvvələri həmin taleyüklü vəzifələrin həllinə nail olmağa istiqamətləndirir.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİLİ

***Vəliyeva S.V.***
*Sumqayıt Dövlət Universiteti*

Hər bir xalqın milli mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Ana dilimiz xalqımızın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamışdır. Ana dilimiz dövlət rəmzlərimiz qədər müqəddəsdir. Azərbaycan dili qədim və zəngin tarixə, ənənəyə, rəngarəng dil faktlarına, inkişaf etmiş fonetik, leksik və qrammatik sistemə, çoxcəhətli və əhatəli üslublara malikdir.

Azərbaycan dilinin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük milli sərvəti kimi dəyərləndirilməsində Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır.

Heydər Əliyev və Azərbaycan dili! Bu iki ad hər zaman qoşa çəkilmişdir. Çünki Heydər Əliyev Azərbaycan dilini dövlət siyasətinə çevirmiş, bir an da olsa, diqqətdən yayındırmamışdır.

Heydər Əliyev Azərbaycan xalqının və onun dilinin mənşəyi, formalaşması, sabitləşməsi kimi məsələlərə çox ciddi yanaşmış, bütün bunları elmi faktlarla əsaslandırmışdır. Heydər Əliyevin Azərbaycan dili ilə bağlı dilçilik görüşləri çoxcəhətlidir.

Ümummilli lider Heydər Əliyev Azərbaycan dilinin inkişafı və zənginləşməsi istiqamətində müxtəlif vasitələrdən istifadə edirdi. Azərbaycanda dilçi alimlərə yüksək diqqət və qayğı göstərilməsi, milli dildə nəşr edilən kitabların tirajlarının artırılması və digər tədbirlər ana dilinin daha da inkişaf etdirilməsi məqsədi daşıyırdı.

Bu gün Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır.

Ulu öndərin "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm" müdrik kəlamı hər bir azərbaycanlı vətəndaşı üçün bir örnəkdir.

Heydər Əliyevin çıxışlarında yeri gəldikcə dil siyasəti, dil quruculuğu, dil mədəniyyəti, yazı və əlifba, üslublar və sair hər zaman yerli-yerində əsaslandırılmışdır.

Heydər Əliyevin səyi nəticəsində Azərbaycan dili Azərbaycan Konstitusiyasında təsbit olunmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət komissiya Azərbaycan Respublikasının Konstitusiyasının layihəsini hazırlayarkən layihəyə Azərbaycan dilinin dövlət dili olması ilə bağlı 21-ci maddəni daxil etmişdi. Konstitusiya layihəsi ümumxalq müzakirəsindən sonra 1995-ci il noyabrın 12-də keçirilən Azərbaycan Respublikası Referendumunda qəbul edilmiş və noyabrın 27-də qüvvəyə minmişdir. Beləliklə, "Azərbaycan dili" anlayışının qanuni haqqı özünə qaytarıldı. Ümumilli liderimiz Heydər Əliyev elə bir ciddi toplantı yoxdur ki, orada dilimiz, milli mənliyimiz, milli sərvətimiz, tariximiz, mədəniyyətimiz və s. haqqında söz açmasın. Xüsusilə gənclərlə görüşlərdə bu məsələlər ön plana çəkilir, çox dərin və məzmunlu mətləblər açılır, vətəndaş qayğıkeşliyi ilə bu fikirlər təbliğ olunur, insanların beyninə həkk edilir.

Onun işlətdiyi sözlər, ifadələr, cümlələr, söz və cümlələrin sıralanması, söz və ifadənin təkrarlanması, bir mətləbə təkrar-təkrar qayıtması, sözə və ifadəyə xüsusi məna verməsi, qarşıdakı insanların fikri qavramalarına əmin olması, ən çətin fikirləri və mənaları çox sadə, adi sözlərlə çatdırması Heydər Əliyev cənablarının başlıca silahıdır. Bu mənada o, ən məşhur natiqləri belə heyran qoyur.

Heydər Əliyev hər zaman gənclərə tövsiyə etmişdir ki, hər bir azərbaycanlı gənc öz ana dilimizi, Azərbaycan dilini mənimsəməli, bu dildə yaxşı danışmalı, bu dili ana dili kimi duymalı, bu dili sevməlidir. Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz.

Digər bir nitqində Heydər Əliyev söyləmişdir: «Mən arzu edirəm ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun.

Ulu öndərimizin ayrı-ayrı nitqində dil haqqında çox dəyərli ifadələr işlədilmişdir:

«Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsində qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyyəti nəticəsində mümkün olur».

«Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir».

«Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir»

«Öz ana dilini bilməyən adamlar şikəst adamlardır».

«Azərbaycan dili bizi keçmişdə də, indi də, gələcəkdə də birləşdirəcəkdir».

Heydər Əliyevin dil siyasəti, onun dilimizin inkişafı yönündə göstərdiyi tarixi xidmətlər əsl məktəbdir və bu məktəbin təcrübəsindən zaman-zaman istifadə olunacaqdır. Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu dil siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam edir.

## HEYDƏR ƏLİYEV MƏNƏVİ DƏYƏRLƏRİN QARANTIDIR

***Yusifova S.F.***

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

Müstəqil, milli dövlət formaları daxilində inkişaf edən xalqlar bəşər sivilizasiyasına öz töhfələrini verir, onu zənginləşdirir, daha rəngarəng və cəlbedici edirlər. Zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı əsrlər boyu müstəqillik arzuları ilə yaşamış və öz tarixinin ayrı-ayrı dövrlərində güclü, müstəqil dövlətlər qurmağa da müvəffəq olmuşdur. Bu dövlətlər xalqımızın maddi mədəniyyət abidələrinin, ədəbiyyatının, dilinin, mənəvi-əxlaqi dəyərlərinin inkişafında və qorunub saxlanmasında mühüm rol oynamışlar. Müstəqillik illərində keçdiyimiz yol Heydər Əliyev kimi yenilməz iradə sahibinin fəaliyyəti sayəsində anarxiyadan sabitliyə doğru inkişafın xüsusi mərhələsi kimi qiymətləndirilməlidir. Heydər Əliyev isə sübut etdi ki, vətənpərvər, təcrübəli insanlar üçün, müdrik strateqlərdən ötrü siyasi hakimiyyət demokratik dəyərlərə əsaslanan, insan və vətəndaş hüquqlarının təmin olunmasına hər cür şərait yaradan azad, müstəqil cəmiyyətin formalaşdırılması yolunda güclü və səmərəli bir vasitədir. Cəmiyyətdə baş verən hər hansı bir çaşqınlıq və xaosun ilkin səbəblərini insanların şüurlarında, onların yetkinliyində axtarmaq lazımdır. Yalnız

düşüncələrdəki ideyalara aydınlıq gəlməsindən sonra cəmiyyətdə müəyyənlik yaranır və onun daxili proseslərə nəzarət imkanı ilə üst-üstə düşməsi gerçəkləşir. Alman sosioloqu R.Dorendorf qeyd edirdi: "Daxili münaqişələri həll etməyi bacaran şəxsiyyət tarixin vəznini öz nəzarəti altına götürür, bunu bacarmayan isə tarixin vəzni qismində özünə düşmən qazanır". Taleyin iradəsi ilə Azərbaycan dövləti və xalqına tarixin ahəngini öz nəzarəti altına götürə biləcək, realist və praqmatik, cəmiyyətin bütün aparıcı qüvvələri tərəfindən qəbul olunan və onları öz arxasınca aparmağa qadir olan, təxəyyüllərdən uzaq daxili və xarici siyasət yeridə bilən şəxsiyyət nəsib oldu. Heydər Əliyevin yenidən respublika rəhbərliyinə, bu dəfə müstəqil Azərbaycanın rəhbərliyinə qayıdışı 15 iyun 1993-cü il tarixə Milli Qurtuluş Günü kimi daxil oldu. Bu, tarixi inkişafın, obyektiv ictimai-siyasi prosesin məntiqi nəticəsi olub, müasir Azərbaycanın müstəqillik yolu ilə irəliyə doğru hərəkəti üçün dönüş məqamı idi. Beləliklə, vətəndaşların köklü mənafelərinə, şəxsi maraqlarına, istək və arzularına zidd olan, məqsəd və məramı aydın olmayan, gənc, müstəqil dövlət üçün böyük təhlükə törədən, faktiki olaraq onu uçurum qarşısında qoyan siyasətin, daha doğrusu, siyasi hərc-mərcliyin qarşısı alındı. Heydər Əliyevin dövlət zəkası və uzaqgörənliyi sayəsində ölkəmizdə yaranmış sabitlik, siyasi mədəniyyət normaları və siyasi plüralizmin mövcudluğu, iqtisadiyyatın dirçəlişi Azərbaycan tarixinə siyasi təcrübənin və dövlət idarəçiliyinin klassik nümunəsi kimi daxil oldu. Bu dövr ərzində dövlət başçısının ətrafında sıx birləşmiş Azərbaycanın mütərəqqi və sağlam qüvvələrinin fəal iştirakı ilə ölkənin xarici və daxili problemlərini nizamlamaq imkanı əldə olundu.

Heydər Əliyev fenomeni! Bu, bizim seçimimiz idi, ya tarixin? Bəzən fərdlərin seçim imkanının məhdudluğu üzündən tarix onların köməyinə gəlir. Tarix zamanca vaxtına, məkanca yerinə düşmüş şəxsiyyəti onların köməyinə göndərir, çaşqınlıq içərisində yaşayan insanların həyatına müəyyənlik gətirir. Bu, tarixi şəxsiyyətlərin əbədi tarixi missiyasıdır. Bəşər tarixinin başlanğıcından bu günədək belə olub və bu cür şəxsiyyətlərin rolunu azaltmaq istəyənlərə tarix sübut edib ki, bu qanun zaman ölçüsündən ucadır. Azərbaycan vətəndaşının normal, dinc həyatını təmin etmək, onun siyasi, iqtisadi və sosial-mədəni sahədə yaradıcı fəaliyyətinə şərait yaratmaq, əsas hüquq və azadlıqlarını qorumaq ən mühüm vəzifələr kimi qarşıda dururdu. Aristotel demişdir: "Dövlətin əsas qayəsi yalnız vətəndaşları yaşatmaq deyil, dövlətin əsas məqsədi vətəndaşları xoşbəxt yaşatmaqdır". Anarxiya və hərbi çevrilişlər mərhələsi 1993-cü ilin iyun ayının ortalarında yeni siyasi quruluş dövrü ilə elmi əsaslara, məntiqə və siyasi təcrübəyə söykənən, beynəlxalq norma və prinsiplərə uyğun olan müstəqil dövlət quruculuğu dövrü ilə əvəz edildi. 1993-cü ilin ictimai-siyasi hadisələrini tədqiq edərkən onların Azərbaycan cəmiyyətinin şüurunda köklü dəyişikliklərə səbəb olduğunun şahidi oluruq. Bədxahların xaosa və kortəbiiliyə meyilli kütlə kimi qələmə verməyə çalışdıqları Azərbaycan cəmiyyəti rasional düşüncəyə malik, sosializmdən postindustrial cəmiyyətə keçidə, siyasətdə, iqtisadiyyatda və sosial sahədə modernləşməyə hazır olan və keçid dövrü yaşayan cəmiyyətə çevrilmə prosesinə başladı. Heydər Əliyev sübut etdi ki, özünü "milli demokratik" qüvvələr adlandıran pafoslu ifadə həvəskarlarından və meydan "qəhrəmanlarından" fərqli olaraq, sabitliyə söykənən və qanunun aliliyi əsasında dövlət qurulması prinsipini əsas götürən dövlət xadimi kimi məhz o, ölkənin milli mənafelərini də, müstəqilliyini və demokratik inkişafını da təmin etməyə

qadirdir. Heydər Əliyev ölkənin ali idarəçilik sükanı arxasına keçdikdən sonra dövlətçiliyimiz və müstəqilliyimiz naminə, həm də bu zaman çox cəsarətli və bir çox hallarda ilk baxışdan bəziləri üçün qeyri-populyar görünən qərarlar qəbul edilməsinə başlandı. Ölkənin hazırkı durumu, dövlət quruculuğu proseslərinin araşdırılması göstərir ki, Azərbaycanın müstəqilliyinin, ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməli qoyulmuşdur. Son illər ərzində həyatımızın bütün sahələrində köklü dəyişikliklər və dərin islahatlar həyata keçirilmiş, dövlətimiz dünya birliyinin ayrılmaz tərkib hissəsinə çevrilmiş və orada öz layiqli yerini tutmuş, dünya siyasət səhnəsinin fəal iştirakçısına və güclü regional amilə çevrilmişdir. Dövlətin, millətin gələcək strategiyasını, daxili və xarici problemləri həll etmək yollarını tarixi şəxsiyyətlər müəyyən edir, formalaşdırır. Uğurlara və uğursuzluqlara, qələbə və nailiyyətlərə görə də gələcək qarşısında məhz onlar məsuliyyət daşıyırlar. Əzəldən bəri belə olmuşdur, bundan sonra da belə olacaqdır. Qədimdən bu günədək dövlətlər yaranır, millətlər dirçəlir, bunu həyata keçirə bilməyənlər isə tale qarşısında öz acizliklərini sübut edirlər. İnkarolunmaz həqiqətdir ki, dünyanı ideyalar idarə edir. İdeyaları gerçəkləşdirən, tarixi proseslərə təsir gücünə malik, real qüvvəyə çevirən isə tarixi şəxsiyyətin əzmi, siyasi iradəsidir. Tarixdə hər şey şəxsiyyətlə və şəxsiyyət vasitəsi ilə həyata keçirilir. İdeya yalnız onda təcəssüm edir. Tarix sübut edir ki, gələcəyə şəxsiyyətlərin açdığı yol və gördükləri işlər gəlib çıxır. Azərbaycanın gələcəyi üçün yol isə 1993-cü ilin iyunun 15-də açıldı. Müstəqilliyə, azad, demokratik gələcəyə və vətəndaş cəmiyyətinə aparan yol nə qədər çətin və məşəqqətlidirsə, o qədər də müqəddəs və şərəflidir.

## МУЛЬТИКУЛЬТУРАЛЬНАЯ И ТОЛЕРАНТНАЯ СРЕДА В АЗЕРБАЙДЖАНЕ

***Асадова А.В.***
*Сумгаитский государственный университет*

Мультикультурализм - это политика, признающая культурные права представителей различных народов, живущих в одной стране. Мультикультуральные ценности – это традиции, опирающиеся на историческое прошлое азербайджанского общества. Еще в древности, со времен Кавказской Албании в Азербайджане совместно проживали народы, принадлежащие различным языкам, вероисповеданиям и традициям.

Мультикультуральные ценности в Азербайджане приобрели социальную форму еще в период Азербайджанской Демократической Республики (1918-1920). 19 ноября 1918 года Национальный Совет АДР принял решение о формировании Азербайджанского парламента. На заседании Совета было отмечено, что ввиду того, что в Азербайджане проживают разные народы, в его законодательных органах должны быть представители всех народов. С этой целью планировалось участие в парламенте Республики по одному представителю грузин, евреев, немцев, поляков, проживающих в Азербайджане.

7 сентября 1918 года был принят закон, позволяющий представителям национальных меньшинств получить образование на их родном языке. Кроме этого в законе было отмечено, что если в одной школе количество учащихся- представителей

национальных меньшинств достигнет 40 человек, то обучение будет проводиться на их родном языке. В период существования Азербайджанской Демократической Республики в Баку действовали культурно-просветительские сообщества национальных меньшинств, такие как «Союз населения», «Союз учащихся», «Союз мусульманских учащихся».

12 ноября 1995 года под руководством Гейдара Алиева была принята новая Конституция. Благодаря мультикультуральной политике, проводимой еще в 90-х годах, Г. Алиев внес достойный вклад в расширение и укрепление межкультурных и межрелигиозных связей в мире.

Глава Ватикана, духовный лидер католиков всего мира Иоанн Павел II, будучи с официальным визитом в Баку 22 мая 2002 года, назвал Азербайджан страной, осознающей и принимающей религиозную терпимость, как одну из главных ценностей каждой цивилизации.

Фонд Гейдара Алиева проводит ряд мероприятий, направленных на этнокультурное развитие народов, проживающих в Азербайджане. Эти мероприятия проводятся в рамках проекта «Адрес толерантности -Азербайджан».Благодаря проделанной работе в 2009 году город Баку был объявлен столицей исламской культуры.

В результате толерантной политики Азербайджана, в 2006 году Мехрибан ханум Алиева была удостоена почетного звания Посла доброй воли ЮНЕСКО и Исламской образовательной, научной и культурной организации.

Только в Баку функционируют свыше 20 сообществ и культурных центров курдов, русских, татов, татар, грузин, аварцев, талышей, горных евреев, немцев и др. народов. Это является реальным показателем отношения к мультикультуральным условиям в Азербайджане. Проведение в 2017 году Исламских игр солидарности в этом плане имеет большое значение.

С древних времен и по сей день идеология азербайджанства создавалась и формировалась, сохраняя в себе традиции, национально-нравственные ценности, особенности совместного проживания азербайджанского народа. Мультикультуральная политика экономически развивающегося Азербайджанского государства играет важную роль в воспитании молодого поколения.

## ВЕЛИКИЙ ЛИДЕР – СОЗДАТЕЛЬ НЕЗАВИСИМОГО ГОСУДАРСТВА

***Дадашева Х.К., Айдамирова Ф.Б.***

*Азербайджанская государственная академия физической культуры и спорта*

Современный независимый Азербайджан отмечает 95-летие со дня рождения своего архитектора и создателя великого Азербайджанца, общенационального лидера Гейдара Алиева. Период руководства великого лидера Азербайджана вписался в историческую память народа как эпоха Гейдара Алиева.

История знает не мало примеров, когда благодаря таланту личности преобразовывались государства, массовое сознание получало новый импульс,

трансформировались общества. Каждая из этих личностей, выполняя определенную судьбой историческую миссию, способствовала тому, что на географических картах сохранялись нации, укреплялись государства.

История независимого азербайджанского государства – это также судьба личности, которой мы обязаны сохранением нашей государственности. Такой личностью был оставивший непреходящий след в новейшей истории Азербайджана Гейдар Алиев-архитектор современного азербайджанского государства. Волевой, с сильным характером, умевший добиваться поставленных целей, сознавший свою ответственность за судьбу азербайджанского народа и государства, он был поставлен историей перед сложными задачами. Благодаря огромным усилиям, проявляя мужество и упорство, опираясь на поддержку народа он сумел создать сильное государство. Основным принципом своей экономической политики он провозгласил «обеспеченную жизнь для всех» и неуклонно придерживался этого принципа до конца жизни. Деятельность Гейдара Алиева как главы государства представляла глубокий смысл, так как его влияние на общество имело консолидирующее, государствообразующее значение. Десять лет истории независимой государственности неразрывно связаны с именем Гейдара Алиева. За этот период он сумел спасти страну от полного разрушения, остановив скатывание её к окончательному распаду по регионам. Такое положение в стране сложилось в результате политической недееспособности прежних руководителей Азербайджана. В отличие от них, Гейдар Алиев сумел объединить власть и общество с целью построить независимое государство в новых условиях. Задачей национальной идеи, начиная с середины 1993-года, являлось создание сильного суверенного государства, которое должно было решить большой круг проблем: стабилизацию внутриполитической ситуации, деэскалацию военного противостояния с Арменией и решение Нагорно-карабахской проблемы, проведение сбалансированного внешнеполитического курса, обеспечение людей необходимыми правами и свободами, мобилизация нации на решение социального-экономических и культурных задач. Основной задачей, которая стояла перед Гейдаром Алиевым – «отстоять государственность, национальное достоинство, историю, язык, традиции, культуру» - все то, что рушилось и могло практически исчезнуть. Целых десять лет было потрачено на то, чтобы построить сильное государство, вернуть стране утраченные позиции.

Благодаря целому ряду дарованных ему природой уникальных качеств, Гейдар Алиев, как дальновидная личность, мог предвидеть ход исторических событий, демонстрировал истинно патриотическую позицию при принятии решений, представляющих черезвычайно важное значение для национальной истории, умел предпринимать решительные действия. Присущая его личности решительность часто находила свое яркое отражение и в мыслях, высказанных экспромтом во время выступлений перед широкой аудиторией. Доклады и речи Гейдар Алиева, которые будучи постороены на железной логике, имели черезвычайно необыкновенную силу

воздействия, являлись ярким выражением глубины и широты его философского и политического мировоззрения.

Во всех областях Гейдар Алиев был уникальной личностью необъятных дарований, обладал принципиальностью, неравнодушием, самоотверженностью, умел ценить дружбу и преданность и сам был таковым – гуманным и справедливым. Политический деятель, блестящий оратор, умеющий чётко и твёрдо, шаг за шагом следовать к намеченной цели, динамичный, грандиозный, не похожий ни на кого. Такие редкостные качества, как глубокие, всесторонние знания, феноменальная память, дальновидность, быстрая и верная реакция на политические процессы, политический опыт и дипломатическая мудрость, снискали Гейдару Алиеву авторитет далеко за пределами Азербайджана. Ни одна сфера жизнедеятельности Азербайджана не оставалась вне его пристального внимания и заботы.

Под руководством великого лидера был достигнут прорыв экономической, транспортной и иноформационной блокады, открыты пути для зарубежных инвестиций, активно задействованы механизмы сотрудничества с международными и региональными организациями. Была осуществлена нефтяная стратегия.

Колоссольную роль Гейдара Алиева высоко оценивают не только в родном Азербайджане. С глубоким почтением о нем отзываются многие выдающиеся деятели современности. Так высказалась о нём Королева Англии Елизавета – «Есть люди, о которых без натяжки можно сказать, что они делают историю. Гейдар Алиевич Алиев был таким человеком.»

## ПРОСТЫЕ И СЛОЖНЫЕ СЛОВОСОЧЕТАНИЯ В СОВРЕМЕННОМ РУССКОМ ЯЗЫКЕ

***Мамедова Х.А.***

*Азербайджанский университет языков*

Общенациональный лидер Гейдар Алиев всегда уделял внимание вопросам языка. В советские времена существовала система, при которой без ведома первого секретаря, руководителя республики, никто никуда не мог выехать, не то что за рубеж, а даже и московские вояжи, и гастроли по стране – все согласовывалось с центральным комитетом, а значит и с ним самим. И он очень внимательно относился к деятелям культуры, особенно к молодым, понимая, что это будущее нашей страны. Когда в Советском Союзе появилось понятие «диссидентство», и стали обвинять некоторых молодых писателей, драматургов, деятелей культуры, в том числе и композиторов, тех, кто с точки зрения советского руководства не вписывались в идеологические рамки, в Азербайджане как бы не было диссидентов. Однажды Гейдара Алиева спросили в Москве, в ЦК: «А что, в Азербайджане все настолько спокойно, что у вас даже нет диссидентов?». Он ответил: «Вы знаете, мы их не ищем». Это очень емкая фраза. Потому что при желании весь цвет сегодняшней литературы можно было бы обвинить в диссидентстве, потому что они по тем временам писали достаточно острые рассказы, повести, романы. Всех можно было бы

приструнить, но Гейдар Алиев берег свою молодую интеллигенцию, которая впоследствии стала элитой современного Азербайджана.

В статье рассматриваются словосочетания с учётом их объёмной характеристики (простые и сложные словосочетания). В учении о структурных типах словосочетаний в современном русском языке в научной литературе наблюдаются различные точки зрения, некоторые расхождения, которые затрагивают разные стороны понимания этого вопроса, а именно: 1) учёт количества и характера подчинительной связи; и 2) учёт количества знаменательных слов в составе словосочетания. Более целесообразным считается критерий учёта количества компонентов словосочетания.

В соответствии с данным критерием, в зависимости от количества полнозначных слов-компонентов, входящих в состав словосочетания, выделяются простые и сложные словосочетания. К простым словосочетаниям относятся те словосочетания, которые состоят из двух полнозначных слов - главного и зависимого компонентов, например: решить задачу, говорить правду, поливать цветы. Компоненты простых словосочетаний могут выражаться аналитическими формами прилагательных, глаголов и наречий: самый правильный поступок, наиболее верное решение. Простыми являются и те словосочетания, в составе которых один из компонентов выражен синтаксически неделимыми сочетаниями слов или фразеологически устойчивыми сочетаниями, например: женщина с зелёными глазами, петь тихим голосом, торт домашней выпечки, юноша приятной наружности, мальчик шестнадцати лет, постоянно валять дурака, сидеть сложа руки, работать спустя рукава.

Сложные словосочетания состоят из трёх и более компонентов. Эти словосочетания могут образоваться как путём соподчинения компонентов, например: поливать цветы с утра, готовить ужин вечером, так и с помощью последовательного подчинения компонентов. Такие словосочетания также называют комбинированными. Например: читать новый роман, поливать полевые цветы, получить долгожданное письмо. В сложных словосочетаниях с соподчинением все зависимые компоненты выстраиваются в один ряд и зависят от одного главного слова. Комбинированные словосочетания представляют собой три уровня зависимости: первое зависимое слово относится к главному, второе зависимое слово подчиняется первому зависимому слову.

Отдельно можно рассматривать многокомпонентные (или смешанного характера) словосочетания, которые созданы с помощью соподчинения и последовательного подчинения компонентов: увлечённо читать новую пьесу.

# III BÖLMƏ

# AZƏRBAYCANIN XARİCİ SİYASƏT KURSUNUN FORMALAŞMASI

## AXC-nin ƏRAZI BÜTÖVLÜYÜ UĞRUNDA AZƏRBAYCAN ORDUSUNUN MÜBARIZƏSI

***Alıcanov M.***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şamaxı filialı)*

Azərbaycan Xalq Cümhuriyyəti xronoloji baxımdan qısa müddət fəaliyyət göstərsə də, dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət və digər sahələrdə olduğu kimi hərbi quruculuq sahəsində də gördüyü tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpasında və inkişafında müstəsna rol oynamışdır. Yeganə amalları və silahları xalqın gələcəyinə inamı olan cümhuriyyət qurucuları bütün mərhumiyyət və çətinliklərə sinə gərərək silahlı qüvvələrin formalaşmasında müstəsna rol oynadılar. Xalq Cümhuriyyəti yaranan zaman silahlı qüvvələrimizin tərkibində cəmi 600 nəfərdən ibarət əsgər və zabit var idi.[1] Belə bir mürəkkəb şəraitdə ölkəni hər tərəfdən gözləyən təhlükədən qorumaq mümkün deyildir. Bu dövrdə beynəlxalq vəziyyət və ölkə daxilindəki bütün çətinliklərə baxmayaraq AXC-nin qarşısında duran əsas və başlıca vəzifələrdən biri də ordu quruculuğunun həyata keçirilməsi və formalaşdırılması, respublikanın ərazi bütövlüyünün və onun sərhədlərinin təhlükəsizliyinin təmin olunması, erməni təcavüzünün qarşısının alınması, ordunun döyüş qabiliyyətinin yüksəldilməsi və müasir tələblərə cavab verən səviyyəyə gətirilməsi idi. Azərbaycan Xalq Cümhuriyyətinin və xalqının müstəqilliyinin qorunub saxlanılmasında qürür mənbəyimiz olan milli hərbi hissələrimiz əsas rol oynadı. Bu məsuliyyəti dərk edən AXC hələ tam formalaşmamış Müsəlman korpusunun vasitəsilə Gəncəyə doğru hərəkat edən Bakı Sovetinin bolşevik-daşnak birləşmələrinin, türk xalqlarının əbədi düşməni olan Andronikin quldur dəstələrinin hücumlarının qarşısının alınması qeyri-mümkün idi. Belə bir çətin və mürəkkəb şəraitdə Osmanlı dövlətinə müraciət olundu. Mart soyqırımı vaxtı Azərbaycan xalqının köməyinə gəlmiş türk hərbi hissələri ilə milli qoşun hissələrimiz əsasında Qafqaz İslam Ordusu yaradıldı. Bütün çətinliklərə baxmayaraq səfərbərlik-hərbi çağırış işləri yenidən quruldu. Gəncədəki erməni silahlı dəstələri tərksilah edildi. Bolşevik-daşnak , "Sentrokaspi diktaturası" nın qoşunları ilə Qaraməryəmdə, Kürdəmirdə, Salyanda, Ağsuda, Şamaxıda gedən ağır döyüşlərdə qələbə çalan Azərbaycan korpusu Bakıya yaxınlaşdı. Bakıda siyasi vəziyyətin həddindən artıq dərəcədə gərginləşdiyini başa düşən Bakı Xalq Komissarları öz səlahiyyətlərindən əl çəkərək hakimiyyəti Sentrokaspi Diktaturasına verdi və ingilis qoşunlarını Bakıya dəvət etdilər. Müəyyən hazırlıq işlərindən sonra qəti hücuma keçən Azərbaycan korpusu və yerli əhalidən təşkil olunmuş partizan dəstələrinin köməyi ilə Bakı şəhəri düşmənlərdən azad oldu və müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtına çevrildi.

I Dünya Müharibəsində Türkiyənin məğlubiyyəti və Mudros barışığının şərtlərinə görə Türk ordusunun Azərbaycandan çıxarılması hökümətin vəziyyətini olduqca ağırlaşdırdı. Əslində Mudros sülh müqaviləsi İngiltərənin Azərbaycanın daxili işlərinə qarışmağı və onun qoşunlarının Bakıya daxil olmasını çətinləşdirirdi. Bakıdakı İngilis qoşunlarının komandanı general Uilyam Tomsonun tələbi ilə Azərbayan hökümətinin hərbi hissələri Bakı şəhərinə çıxarıldı və Gəncə şəhərində yerləşdirildi. Bütün bunlar Azərbaycan ordusunun təşkilini və formalaşmasını ləngidirdi. Ölkənin müdafiəsini təşkil etməyin zəruriliyini başa düşən Nazirlər Şurası Hərbi Nazirliyin yaradılması haqqında qərar qəbul etdi. 1918-ci il dekabr ayının 25-də general-leytenant Səməd bəy Mehmandarov hərbi nazir, general-leytenant Əliağa Şıxlinski isə hərbi nazirin müavini təyin edildi. Hökümət və Hərbi Nazirliyin ölkənin müdafiəsinin təşkili və ordu quruculuğu istiqamətində ümumdövlət mənafelərini əks etdirən qarşılıqlı fəaliyyəti güclü hərbi qüvvələrin yaradılmasına yol açdı. Qısa müddətdə hərbi nazirliyin aparatı formalaşdırıldı, kifayət qədər hərbi biliyə və təcrübəyə malik yüksək rütbəli zabitlər ordu quruculuğuna cəlb olundu, bir sıra hərbi məktəblər yaradıldı.

Milli ordu hissələrinin qarşısında duran əsas vəzifələrdən biri də dövlət sərhədlərini xarici düşmənlərin hücumlarından qorumaq, ölkədaxilindəki seperatçı qüvvələrə, müstəqilliyimizə düşmən kəsilən qüvvələrə qarşı mübarizə aparmaqdan ibarət idi. Azərbaycan xalqının müstəqilliyinə qənim olan bir sıra qüvvələr Lənkəran-Muğan zonasında anti-azərbaycan mövqeyi tuturdular. Azərbaycanın müstəqilliyini heç bir vəchlə qəbul etmək istəməyən, onu Rusiyanın hələ də ayrılmaz tərkib hissəsi kimi hesab edən polkovnik İlyaşeviç və onun millətçi qoşun hissələri yerli rus əhalisinin yaxından köməkliyi ilə cənub bölgəsində hakimiyyəti öz əllərinə almışdılar. Azərbaycan ordusu Qarabağda erməni-daşnak təcazünə qarşı mübarizə apardığı üçün ölkənin cənubunda baş verən iğtişaşlara bu təcavüzə qarşı mübarizə aparmağa  kifayət qədər hərbi qüvvəsi yox idi. Lakin 1919-cu ilin avqustunda Qarabağda nisbi sabitliyin yaranmasından istifadə edən Hərbi nazirlik ölkənin ərazi bütövlüyünü təmin etmək məqsədilə Lənkəran əməliyyatı hazırladı və ölkənin cənub bölgəsinə qoşun çıxarmaq qərarına gəldi. 1919-cu ilin avqustunda general Həbib bəy Səlimovun rəhbərliyi altında Lənkəran dəstəsi ona həvalə olunmuş vəzifələri tamamilə yerinə yetirdi, bölgənin rus əhalisini, polkovnik İlyaşeviçin rəhbərliyi altında olmuş silahlı dəstələri tamamilə tərk-silah etdi və respublikanın cənubunda sabitlik təmin olundu. Şamaxı qəzasında malakan və xristian əhalisinin Azərbaycan hökümətinə qarşı çevrilmiş itaətsizliyi və qiyamları da hərbi hissələr tərəfindən yatırıldı. Azərbaycan ordusunun nəyə qadir olması Qarabağın dağlıq hissəsini Azərbaycandan qoparmaq məqsədilə həyata keçirilən erməni-daşnak təcavüzünü aradan qaldırılması üçün aparılan Qarabağ əməliyyatında özünü bir daha bariz nümayiş etdirdi. Erməni silahlı qüvvələri və daşnak dəstələri Novruz bayramı günlərində Şuşa, Xankəndi, Əsgəran, Tərtərdə yerləşən hərbi hissələrin üzərinə hücum etsələr də, öz məqsədlərinə nail ola bilmədilər. Qarabağ uğrunda gedən döyüşlərdə Əsgəran uğrunda gedən mübarizə xüsusilə kəskin olmuşdur. Əsgəranı tutmaqla ermənilərQarabağın dağlıq hissəsini Azərbaycandan ayırmaq və tarixi torpaqlarımızı Ermənistana birləşdirmək istəyirdilər. Lakin Əsgəran uğrunda döyüşlərdə general Həbib Səlimovun başçılığı ilə qızğın döyüşlərdə erməni silahlı qüvvələri

darmadağın edildi. Azərbaycan ordusunun döyüş əməliyyatları nəticəsində erməni-daşnak dəstələrinin və nizami ordu hissələrinin darmadağın edilməsi ilə Azərbaycan əsgərləri ölkənin ərazi bütövlüyünü təmin edərək əsil qəhrəmanlıq nümunələri göstərdilər. Dövlət və ordu arasında əlaqələrin düzgün qurulması ordu quruculuğuna dövlət rəhbərliyinin düzgün istiqamətləndirilməsi, dövlət rəhbərliyinin ordu quruculuğunun qayğılarını öz üzərinə götürməsi, Ordunun rəhbərliyinin dövlətin müəyyənləşdirdiyi vəzifələrə düzgün riayət edir, yalnız onların qarşısına qoyulan vəzifələrin icrası ilə məşğul olurdu.

Güclü daimi ordunun yaradılması və formalaşdırılması üçün hökümət fəal xarici siyasət həyata keçirməyə başladı. İlk növbədə Azərbaycanla-Gürcüstan arasında hərbi saziş imzalandı. Gürcüstanın paytaxtı Tiflisdə 3 il müddətinə bağlanmış müqaviləyə əsasən hər hansı bir xarici müdaxilə olarsa onlara qarşı bu ölkələrin birgə mübarizə aparmaq nəzərdə tutulurdu.

Milli ordunun hərbi sursatla təchiz edilməsi ilə əlaqədar hökümət xüsusi diqqət yetirən hökümətin İngiltərə, Fransa və Polşa ilə apardığı danışıqlar heç bir nəticə vermədi. Yalnız İtaliya hərbi geyim, silah, sursat satmağa razılıq versə də, göndərdiyi sursat və geyimlər gecikdiyi üçün Azərbaycanı işğal edən XI Qırmızı Ordunun əlinə keçdi.

Cümhuriyyət Azərbaycan Hərbi donanmasının yaradılması üçün də mühüm addımlar atmışdır. 1919-cu ilin avqustun 24-də Azərbaycan ərazisini tərk edən ingilislər şəhər limanının idarəçiliyini, hərbi hissələrin radio stansiyalarını, ordunun hərbi sursatını və hərbi gəmilərin bir hissəsini Azərbaycan hökümətinə təhvil verdikləri üçün onun əsasında Xəzər hərbi donanması yaradıldı. Xəzər dənizinin maddi-teniki bazasını möhkəmləndirmək üçün xaricdən 18 hərbi kater və 6 sualtı qayıq alınmışdır.

Qarabağdakı erməni silahlı qüvvələrinin təcavüzünə son qoyulsa da, şimaldan yaxınlaşan Azərbaycan torpaqları üzərinə hərbi müdaxilənin qarşısını almaq mümkün olmadı. Çünki Azərbaycan ordusunun şimal sərhədlərini qoruyan hərbi hissələrin Qarabağın müdafiəsinə cəlb edilməsi nəticəsində buranın müdafiə imkanları zəifləmişdi. Qarabağdakı hərbi qüvvələrin şimala gətirilməsi belə Azərbaycan milli ordusu ilə müqayisədə böyük üstünlüyə malik olan XI Qırmızı Ordunun hücumlarının qarşısını almaq qeyri-mümkün idi. Bakı neftini ələ keçirtmək məqsədilə Rusiyanın XI Qızıl Ordusu aprel ayının 27-sində Bakı şəhərinə daxil oldu, onun təzyiqi altında Azərbaycan parlamenti hakimiyyətin Azərbaycan-müsəlman kommunistlərinə verilməsi haqqında qərar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyətinin uğursuz taleyinə baxmayaraq xalqımızın tarixində mühüm rol oynadı. Dövlətimizin sərhədlərini müəyyənləşdirdi, dövlətin atributlarını qəbul etdi. Cümhuriyyətin yaranması ilə Azərbaycan Gülüstan və Türkmənistan müqavilələri əsasında itirdiyi dövlətçiliyini yenidən bərpa etdi. XX əsrin sonlarında Azərbaycan xalqı yenidən öz müstəqilliyinə qovuşdu və Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi dövlətçiliyini yenidən bərpa etdi. Bu gündə bizim milli ordumuz Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi altında ölkəmizin ərazisini müvəqqəti işğal edən ermən təcavüzkarlarına qarşı inamla mübarizə aparırlar. 2016-cı ilin aprel ayının əvvəllərində aparılan 4 günlük müharibə Azərbaycan Silahlı Qüvvələrinin düşmən üzərində tam qələbəsini təmin etdi, bir sıra yaşayış məntəqələrini və strateji cəhətdən mühüm əhəmiyyət kəsb edən yüksəklikləri düşmən işğalından azad etdi. Aprel

döyüşlərində Azərbaycan ordusunun şanlı qələbəsi və Cocuq-Mərcanlı kəndinə qayıdış torpaqlarımızın yaxın vaxtlarda azad olunacağına bariz nümunədir.

## MÜSTƏQİLLİYİMİZİN QORUNMASINDA HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KURSUNUN ƏHƏMİYYƏTİ

***Abbaszadə N.M.***
*Sumqayıt Dövlət Universiteti*

Heydər Əliyevin Azərbaycanda hakimiyyətə ikinci qayıdışından başlayaraq ölkəmizdə vətəndaş sülhünün və siyasi sabitliyin təmin olunmasına, hüquqi dövlət quruculuğu istiqamətində praktik addımların gerçəkləşdirilməsinə, geniş miqyaslı islahatların aparılmasına və beynəlxalq ictimaiyyətlə əlaqələrin qurulmasına inam yarandı. Həmin vaxtdan başlayaraq müstəqil dövlətimizdə ictimai-siyasi sabitliyin təmin olunması, qəbul edilən qanunların dünya standartlarına uyğunlaşdırılması, insan hüquq və azadlıqlarının qorunması istiqamətində qanunvericilik bazasının yaradılması Azərbaycanın mötəbər beynəlxalq təşkilatlara üzvlük məsələsində real addımlar atmasına imkan yaradırdı. Ulu öndər ölkəmizin gələcək xarici siyasəti barədə məlumat verərkən demişdir: “Xarici siyasətimiz sülhsevərdir. Azərbaycanın daha geniş tanınmasına xidmət edir. Xarici siyasət ilk növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Əsas vəzifəmiz dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı, faydalılıq əsasında əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir”.

SSRİ dağıldıqdan sonra yaranmış müstəqil dövlətlərdən biri olan Azərbaycan respublikası kimi gənc bir dövlətin müstəqil xarici siyasət kursunun müəyyən edilməsi ilk dövrlərdə çətin idi. Belə bir çətin vəziyyətdə Azərbaycanın müstəqil dövlət kimi yaxın gələcəkdə dünya miqyasında yeri, ölkənin müstəqil daxili və xarici siyasətinin müəyyən edilib, beynəlxalq münasibətlər sistemində yerini tapması kimi çətin və mürəkkəb məsələlərinin həlli qarşıda dururdu. Xarici siyasətdə bu münasibətlərin əsasını müstəqil şəkildə dövlətlərarası qarşılıqlı siyasi və diplomatik əlaqələr təşkil edirdi. Eyni zamanda, beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələr qurmaq, digər dövlətlərlə, ilk növbədə qonşularla çoxşaxəli siyasi, iqtisadi, elmi – mədəni və humanitar əməkdaşlığı daha səmərəli həyata keçirmək, Azərbaycan Respublikasında baş verən ictimai- - siyasi proseslər haqqında obyektiv fikrin formalaşdırılmasına əsaslı təsir göstərmək baxımından böyük əhəmiyyət kəsb edir. Bu baxımdan da dünya birliyinə tamhüquqlu üzv kimi daxil olmağa çalışan, müstəqilliyinin ilk illərindən başlayaraq Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycanın xarici siyasətində beynəlxalq münasibətlər sisteminə inteqrasiya qarşıda duran ən mühüm, ən vacib vəzufələrdən birini təşkil edirdi.

Ümummilli lider Heydər Əliyevin məqsədyönlü fəaliyyəti, uğurlu diplomatiyası və ordu quruculuğu sahəsində ardıcıl işləri nəticəsində düşmən və onun havadarları artıq

münaqişəni zorakı vasitələrlə həll etmək cəhdlərinin prespektivsizliyini dərk edirdilər. Bunun nəticəsində 1994-cü il mayın 12-də cəbhədə atəşkəsə nail olundu.

1993-cü il sentyabrın 24-də müstəqil Azərbaycan Respublikası postsovet ölkələrini birləşdirən MDB təşkilatına daxil oldu. Lakin bu təşkilat daxilində üzv dövlətlərin bərabərhüquqlu əməkdaşlığı lazımınca təmin edilməmiş, subyektlər arasında münaqişələrin aradan qaldırılması üçün təsirli tədbirlər həyata keçirmək mümkün olmamışdı. MDB üzv dövlətlərə Rusiya Federasiyasının ikili münasibəti bu birliyin effektivliyini əhəmiyyətli dərəcədə azaldır, birlik daxilində narazılıqlara səbəb olurdu ki, bu proses bu gün də davam edir. Hansı ki, qeyd olunan münasibəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi fonunda daha aydın görmək olar. Ümummilli lider MDB dövlət başçılarının, demək olar ki, bütün rəsmi və qeyri-rəsmi görüşlərində birlik daxilində belə qeyri-sağlam münasibətlər olmasının yolverilməzliyini, separatizmlə mübarizənin strateji bir hədəf olduğunu təkidlə diqqətə çatdırırdı.

Şimal-Qərb qonşumuz olan Gürcüstan Respublikası ilə əlaqələr çox önəmli idi. 1996-cı ilin mart ayında Heydər Əliyev Gürcüstana rəsmi səfər etdi. İki ölkə arasında dostluq və əməkdaşlıq haqqında sənəd imzalandı. Bu, qonşu ölkədə yaşayan azərbaycanlılara qarşı münasibətin xeyli yaxşılaşmasına səbəb oldu. İki ölkənin bütün sahələrdə strateji əməkdaşlığı başlandı.

1996-cı ilin aprelində Azərbaycan ilə Avropa Şurası (AŞ) və onun üzvü olan dövlətlər arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş imzalandı. Həmin ilin iyununda Azərbaycan Respublikası AŞ Parlament Assambleyasında "xüsusi dəvət olunmuş qonaq" statusu aldı. Heydər Əliyevin 1996-cı ilin iyunu və 1998-ci ilin yanvarında Azərbaycan Respublikası ilə AŞ arasında əməkdaşlığın dərinləşdirilməsi tədbirləri haqqında sərəncamları mövcud əlaqələri xeyli intensivləşdirdi. Aparılan böyük təşkilatçılıq işi, respublikada həyata keçirilən demokratik ruhlu siyasi və iqtisadi islahatların səmərəli nəticələri Azərbaycanı AŞ-la daha da yaxınlaşdırdı ki, bunun da nəticəsində 2001-ci il yanvarın 25-də Azərbaycan Respublikası Avropa Şurasına tam hüquqlu üzv qəbul edildi. Həmin dövrdə millət vəkili İlham Əliyevin başçılıq etdiyi Azərbaycan Parlamentinin AŞ-də nümayəndə heyəti bu təşkilatda səmərəli fəaliyyət göstərməyə başladı.

Heydər Əliyevin böyük dövlətlərin təzyiqinə, imperiya siyasətinə qarşı məharətlə apardığı müstəqillik, "açıq qapı" siyasəti sayəsində Azərbaycan bölgədə, beynəlxalq aləmdə nüfuzlu dövlətə çevrilirdi. O, öz mənafelərini dünyada nüfuz sahibi, Cənubi Qafqazda marağı olan dövlətlərin, xüsusən ABŞ və onun müttəfiqlərinin maraqları ilə uzlaşdırırdı. Heydər Əliyevin fəal xarici siyasəti nəticəsində ABŞ-Azərbaycan münasibətləri strateji partnyorluq mərhələsinə yüksəlmişdi. Azərbaycan-ABŞ əlaqələrinin inkişaf etməsinə Xəzər dənizinin enerji ehtiyatlarının mənimsənilməsi, neft, qaz hasilatı və nəqlində ABŞ şirkətlərinin geniş iştirakı əhəmiyyətli təkan verirdi. Azərbaycan ABŞ kimi fövqəldövlətin sabit və münaqişəsiz görmək istədiyi Qafqaz bölgəsində əsas siyasi-iqtisadi tərəfdaşı oldu. 1997-ci il iyulun 27-dən avqustun 7-dək Heydər Əliyev ABŞ Prezidenti Bill Klintonun dəvəti ilə ABŞ-da ilk rəsmi səfərdə oldu. Avqustun 1-də ağ evdə ABŞ ilə Azərbaycan arasındakı münasibətlərin əsas prinsip və istiqamətlərini müəyyən edən sənəd – "Amerika-Azərbaycan münasibətləri haqqında" birgə bəyanat imzalandı.

Azərbaycanın xarici siyasətində Böyük Britaniya, Çin, Yaponiya, Fransa, Almaniya, İtaliya kimi iri dövlətlərlə münasibətlər mühüm yer tutur ki, bu ölkələrlə də tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı əlaqələr yaradılmışdı. Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi, Azərbaycan diplomatiyasında Avropa istiqaməti mühüm yerlərdən birini (həm də ən əsas yeri) tutur. İngiltərə və Avropanın digər nüfuzlu dövlətləri ilə sabit bərabərhüquqlu əməkdaşlıq münasibətləri qurulmuşdu. Bu ölkələrlə həmin dövrdə 90-dan artıq imzalanmış sənəd qarşılıqlı münasibətlər üçün ən möhkəm hüquqi baza yaratmışdı. Ulu Öndər Heydər Əliyevin yürütdüyü fəal xarici siyasət sayəsində 1993-2003-cü illərdə Azərbaycan Respublikası artıq 137 ölkə ilə diplomatik əlaqələr yaratmışdı. Məhz Ulu Öndərin uzaqgörən xarici siyasətinin nəticəsidir ki, hazırda ölkəmiz dünyada sivil, demokratik, qanunun hakim olduğu inkişaf etmiş bir dövlət, azad cəmiyyət kimi qəbul edilir.

## MÜSTƏQİLLİYİMİZ HEYDƏR ƏLİYEVİN AMALI İDİ

***Ağamalıyeva V.Ş.***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Dövlətimiz milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürür bunlarsız millət yoxdur bunları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək və onu qorumaq əzmindədir. Çünki milli dövlətçilik və milli-mənəvi dəyərlər arasında sıx bir daxili əlaqə vardır. Milli müəyyənliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı olmur. Belə ki, milli dövlət, bir tərəfdən ərazinin və iqtisadi sərvətlərin qorunmasına xidmət edirsə, digər tərəfdən və daha artıq dərəcədə milli-mənəvi dəyərlərin qorunması və müstəqil inkişafın təmin olunması məqsədi daşıyır. Cəmiyyətdə yaranmış mənəvi-psixoloji mühitin araşdırılması, müstəqil dövlətçilik və Azərbaycan vətəndaşlığı prinsiplərinin mənəvi inkişafın əsas postulatlarına çevrilməsi hazırkı hakimiyyətin əsas fəaliyyət istiqamətlərindəndir. Heydər Əliyevin fəaliyyətində mənəvi problemlər, Azərbaycan mədəniyyətinin, elminin, incəsənətinin, musiqisinin, Azərbaycan dilinin inkişafı məsələləri həmişə prioritet əhəmiyyət və məna kəsb etmişdir. Xalqımızın mentalitetini, günümüzün reallıqlarını, tarixi keçmişimizi, ümummilli psixoloji yönümlərimizi, adət- ənənələrimizi və sivil beynəlxalq təcrübəni nəzərə alan azərbaycançılıq ideologiyasının yaranması və yayılması onun məqsədyönlü fəaliyyətinin nəticəsidir. Bu gün qarşıda duran və gələcəkdə meydana çıxa biləcək problemlərin uğurlu həlli üçün azərbaycançılıq ideologiyasının bütün elementlərinin möhkəm mənimsənilməsi zəruri şərt hesab edilməlidir. Bu ideologiyanın əsas qayəsini - müstəqillik, azərbaycançılıq, dövlətçilik, dünyəvi respublika, ədalətlilik, demokratiya, milli tərəqqi, bəşərilik kimi anlayışlar təşkil edir. Məhz ona görə də, Azərbaycan xalqına və dini mənsubiyyətindən asılı olmayaraq, ölkənin bütün vətəndaşları Azərbaycan xalqının tərkib hissəsi kimi qəbul edilməlidir. Daha geniş miqyasda isə Azərbaycanı bütün dünya azərbaycanlılarının vətəni hesab etməliyik. Heç də təsadüfi deyil ki, dünya azərbaycanlıları ilə əlaqələrin inkişaf etdirilməsi, onların Azərbaycan dövləti ətrafında sıx birləşdirilməsi Azərbaycan dövlətinin siyasətinin mühüm tərkib hissələrindəndir.

Dünya azərbaycanlıları arasında həmrəyliyin gücləndirilməsi tarixi zərurətdən, soydaşlarımızın ümummilli ideyalar ətrafında birləşdirilməsinin vacibliyindən irəli gəlir. Təcrübə göstərir ki, mütəşəkkil icmalar halında dünyanın müxtəlif ölkələrində yaşayan, məqsədyönlü fəaliyyət göstərən, özünəməxsus milli ideyalar ətrafında birləşən, mütərəqqi adət-ənənələrini qoruyub saxlayan soydaşlar öz ölkələrinə böyük kömək göstərir, yaşadıqları ölkələrlə tarixi vətən arasında qarşılıqlı faydalı əməkdaşlığın qurulmasında güclü amil kimi çıxış edirlər. Müstəqil Azərbaycan Respublikasının getdikcə güclənməsi, varlı və demokratik bir ölkəyə çevrilməsi, təbii ki, həm dünya azərbaycanlılarının milli birliyinə, Azərbaycan xalqına və dövlətinə mənsubluq hissinə mütəşəkkillik, yenilik və daimilik gətirəcək, həm də bütün dünyada onların vətəndaş və milli haqlarının daha dolğun təmin olunmasına, qorunmasına təkan verəcəkdir. Respublikamızda başqa ölkələr, xüsusən yeni müstəqillik qazanmış dövlətlər üçün nümunə ola biləcək ictimai-siyasi sabitlik, iqtisadi fəaliyyət mühiti yaradılmışdır. Sidney Olimpiadasında idmançılarımızın parlaq qələbəsi xalqımızın istedadını, müstəqil dövlətçiliyimizin əhəmiyyətinin bir daha göstərdi. Vətəndaşlarının dinc həyatının, əmin-amanlığının və təhlükəsizliyinin təmin edilməsi baxımından MDB-də Azərbaycanın analoqu yoxdur. Ölkəmiz Qafqazın iqtisadi, coğrafi-strateji mərkəzinə, mühüm regional güc amilinə çevrilmişdir. Bu gün Azərbaycanın iqtisadi, sosial, mənəvi və siyasi həyatının bütün sahələri dünya sivilizasiyasının nailiyyətlərinə tam cavab verən bir səviyyədədir. Azərbaycanın XX əsrdə yaratdığı qüdrətli iqtisadi potensial, böyük mütəxəssislər ordusu xalqımızın ümdə maraqlarının və arzularının həyata keçirilməsi üçün möhkəm baza, əlverişli zəmin rolunu oynayır. Azərbaycan Prezidentinin yeni əsr, yeni minillik münasibətilə Azərbaycan xalqına müraciətindən götürülmüş bu fikirlər xalqımızın tarixi, dövlətçiliyi, mədəniyyəti haqqında əsassız, səviyyəsiz və qərəzli mülahizələrlə çıxış edən bədxah “tədqiqatçılara”, "ideoloqlara" və "siyasətçilərə" layiqli cavab verməkdə alimlərimiz üçün təməl prinsiplər rolunu oynamalıdır. Azərbaycanın XX əsr tarixi, xüsusən dövlət müstəqilliyini əldə etdiyimiz son onilliyi vətəndaşlarımız tərəfindən dərindən və diqqətlə öyrənilməlidir. Bu məqsədlə tarixçilər, sosioloqlar, filosoflar, hüquqşünaslar, politoloqlar, kulturoloqlar, psixoloqlar və digər ixtisas sahibləri tərəfindən monoqrafiyalar, kitablar yazılmalı, ciddi elmi araşdırmalar aparılmalıdır. Bu qiymətli tarixi təcrübənin öyrənilməsi ilk növbədə ölkəmizin inkişaf strategiyasının daha düzgün və dəqiq müəyyən edilməsi, inkişaf planlarımızın və proqramlarımızın daha əsaslı işlənib hazırlanması üçün, müstəqilliyimizin və xalqımızın azad və firavan gələcəyinin daha etibarlı və inamlı bir şəkildə təmin edilməsi üçün zəruridir.

## HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN MÜSTƏQİL XARİCİ SİYASƏTİNİN BANİSİDİR

***Ağamirzəyeva E.H.***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

XX əsrin 90-cı illərində qlobal miqyasda çətin və mahiyyəti tam aydın olmayan geosiyasi proseslər baş verirdi. Müstəqilliyini yeni əldə etmiş resbuplikaların düzgün inkişaf yolu seçməsi böyük siyasi müdriklik, zəngin təcrübə və strateji təfəkkür tələb

edirdi. Həyat göstərdi ki, Heydər Əliyev həmin keyfiyyətlərə malik olan nadir şəxsiyyətdir.

Müstəqil dövlət quruculuğundan danışarkən ölkənin xarici siyasət kursuna nəzər salmamaq mümkün deyildi. Heydər Əliyev mürəkkəb, qlobal və regional vəziyyətin mövcudluğu, ölkə daxilində destruktiv qüvvələrin fəallaşdığı bir şəraitdə elmi olaraq əsaslandırılmış xarici siyasət kursu müəyyənləşdirə bildi. Ulu öndərin müəyyən etdiyi xarici siyasət hər şeydən əvvəl dünyanın bütün dövlətləri ilə bərabər hüquqlu faydalı əlaqələr qurmaq və inkişaf etdirmək məqsədi daşıyırdı. Eyni zamanda, bu əlaqələrdən iki aspektdə faydalanmaq lazım gəlir. Onlardan biri Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirməkdən ibarətdir. İkinci aspekt isə respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirməkdir. Buna görə Azərbaycanın xarici siyasəti sülhsevər mahiyyətlidir. O, ilk növbədə dövlət müstəqilliyinin möhkəmləndirilməsi işinə xidmət edir. Bütün bunları nəzərə alaraq, Heydər Əliyev Azərbaycan dövlətinin xarici siyasətinin başlıca prinsiplərini müəyyənləşdirdi. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

• beynəlxalq hüquq normaları ilə tənzimlənən dövlətlərarası münasibətlərə hörmət etmək;

• bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaq;

• bütün mübahisəli məsələləri sülh və danışıqlar yolu ilə həll etmək;

• qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq qurmaq;

• dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaq.

Yaxın qonşularımızdan Rusiya, İran və Mərkəzi Asiya respublikaları ilə gərginləşmiş münasibətlərin düzəldilməsi istiqamətində atılan ilk addımlardan biri kimi Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə (MDB) daxil olmasını göstərmək olar. Çünki uzun tarixi əlaqələri olan bir geosiyasi məkandan ölkənin qəfil qopması dövlətçiliyə ciddi zərbə vura bilərdi. Hətta cəmiyyətin parçalanması təhlükəsi mövcud idi. Gərgin fəaliyyət nəticəsində 1993-cü ilin sonuna qədər Mərkəzi Asiya respublikaları ilə əlaqələrin köklü surətdə yenidən qurulması üçün yeni forma və vasitələr tapıldı. MDB-yə üzv dövlətlərlə iqtisadi münasibətlər inkişaf etdirildi, Gürcüstan, Özbəkistan, Ukrayna və Moldova ilə ikitərəfli əməkdaşlıq əlaqələrinin yaradılması öz müsbət nəticələrini verdi.

1993-cü ilin yayına qədər lazımi səviyyə və məzmunda qurulmamış Azərbaycan Türkiyə münasibətləri Heydər Əliyevin ölkənin xarici siyasət kursunda ciddi dəyişiklikləri nəticəsində faktik olaraq keyfiyyətcə yeni bir mərhələyə qədəm qoydu. Azərbaycanın xarici siyasətində ABŞ, Avropa və Uzaq Şərq istiqamətləri xüsusi yer tutur. Amerika Birləşmiş Ştatları, Britaniya, Çin, Yaponiya, Fransa, Almaniya, İtaliya kimi iri dövlətlərlə münasibətlərin bərabərhüquqlu tərəfdaşlıq və qarşılıqlı hörmət əsasında qurulmasında ümummilli liderin müstəsna rolu olmuşdur. 1993-cü ilin sonundan başlayaraq həmin aspektdə ardıcıl və intensiv iş aparılmışdır. Enerji sahəsində əməkdaşlığın sağlam təməllər üzərində qurulması Azərbaycan-ABŞ əlaqələrinə xüsusi təkan vermişdir.

Azərbaycanın xarici siyasətində Avropa istiqamətinin xüsusi yeri vardır. Avropa İttifaqına üzv olan böyük və nüfuzlu dövlətlərlə qarşılıqlı əməkdaşlıq daim inkişaf etdirilir. Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, Belçika, Yunanıstan, Polşa, Rumıniya və digər Avropa ölkələri ilə müxtəlif sahələrə aid sazişlər imzalanmışdır. Bu prosesin əsasını ulu öndər Heydər Əliyev qoymuşdur. Onun Avropa ölkələrinə hər bir

səfəri zamanı çox mühüm sazişlər bağlanırdı. Heydər Əliyev hər bir sənəddə Azərbaycanın dövlət maraqlarının ciddi surətdə nəzərə alınmasına nail olurdu. Azərbaycan Avropa İttifaqının mühüm tərəfdaşı kimi qəbul olunur.

Heydər Əliyevin siyasətçi kimi uzaqgörənliyini keçən əsrin 90-cı illərində Uzaq Şərq ölkələri ilə sıx əlaqələr qurmaq üçün ciddi addımlar atması təsdiq edir. Onun Çin Xalq Respublikasına etdiyi səfər bu aspektdə tarixi əhəmiyyət daşıyır. Həmçinin Ümummilli Lider Yaponiya ilə qarşılıqlı faydalı əməkdaşlığa böyük diqqət yetirirdi. Həmin dövrdə vacib məqamları çox gözəl başa düşən Heydər Əliyev, bununla faktik olaraq, Azərbaycanın tarazlaşmış xarici siyasətinin özülünü qoyurdu. Bu gün qlobal miqyasda cərəyan edən geosiyasi hadisələr ulu öndərin hər şeyi öncədən gördüyünü tam sübut edir.

Hazırda Azərbaycanın dünyanın 176 dövləti ilə diplomatik münasibətləri vardır. Ölkəmizdə 81 diplomatik nümayəndəlik və konsulluq fəaliyyət göstərir. Öz növbəsində Azərbaycanın 62 ölkədə səfirliyi, 5 baş konsulluğu və 10 daimi nümayəndəlikləri mövcuddur.. Bütün bunlara görə Azərbaycan ulu öndər Heydər Əliyevə borcludur.

Ölkəmiz beynəlxalq enerji layihələrində fəal iştirak edir. Avropada, ABŞ-da və digər regionlarda milli mədəniyyətimizin təbliği istiqamətində geniş işlər görülür. Şübhəsiz, Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi xarici siyasətin ən böyük qələbələrindən biridir. Bu prosesdə ölkəmiz dünyanın ən qüdrətli dövlətləri ilə mübarizə aparmalı oldu və qalib gəldi. Tarixdə ilk dəfə olaraq Azərbaycanın dövlət başçısı BMT TŞ-nin iclasına sədrlik etdi. Təbii ki, burada ölkə rəhbərliyinin düşünülmüş xarici siyasət kursunu qətiyyətlə həyata keçirməsi əsas rol oynadı.

Ümummilli Lider Heydər Əliyevin "Azərbaycan dünyaya günəş kimi doğacaqdır” fikri tam reallaşacaq. Dünya birliyi müstəqil, qüdrətli və demokratik Azərbaycan dövlətini örnək göstərəcək. Ölkəmizin, dövlətçiliyimizin bünövrəsi möhkəm, gələcəyi isə etibarlı əllərdədir.

## HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCANIN QURUCUSUDUR

**_Aslanov A.H._**

_Sumqayıt Dövlət Universiteti_

Tarixin taleyüklü məqamlarında vətəni agır sınaqlardan cıxarmaq vəzifəsi böyük tarixi şəxsiyyətlərin üzərinə düşür. Bu tarixi şəxsiyyətlər bütün varlıqları ilə doğma vətənə bağlı olurlar. Belə tarixi şəxsiyyətlərdən biri də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevdir. Dünyanın ən qüdrətli simaları sırasına yüksələn ulu öndərimiz ən mürəkkəb, ən ağır, hətta çıxılmaz hesab olunan vəziyyətlərdən ən yaxşı çıxış yolu tapmaq bacarığına malik fenomenal şəxsiyyət kimi hər birimizin qəlbində yaşayır.

Ötən əsrin 90-cı illərinin əvvəllərində – dövlət müstəqilliyimizin itirilmək təhlükəsi qarşısında qaldığı bir vaxtda xalq ümid yeri kimi üzünü ulu öndərə tutdu və dahi şəxsiyyətin bilik və bacarığı, uzaqgörən siyasəti Vətənimizi xilas etdi. Ümummilli liderimiz olmasaydı, indi Azərbaycan adlı məmləkət də olmazdı. Xalqımızın böyük oğlu Azərbaycanın üzərinə düşən sönməz bir Günəşdir. Elə bir Günəş ki, onun şüaları bu torpağın hər qarışını işıqlandırıb isidərək torpağa səpilən azadlıq toxumlarını cücərtmişdir.

Ulu öndərimiz 1969-cu ildə respublika rəhbərliyinə gəlişi ilə ölkədəki tənəzzül prosesinin qarşısını almış, inkisafa nail olmuşdusa, 1993-cü ildə müstəqilliyini itirmək

təhlükəsi ilə üzləşən Azərbaycanı fəlakətlərdən xilas edərək demokratik, hüquqi və sürətli inkisaf edən dünyəvi dövlətə cevirmişdir. Ulu öndərimizin müdrikliyi, qətiyyəti, iradəsi sayəsində dövlət müstəqilliyimiz sarsılmaz və dönməz olmuşdur. Ümummilli liderimiz müstəqil dövlət qurmaqla yanaşı, eyni zamanda azərbaycanlıları birləşdirən milli təlimi – azərbaycançılıq ideologiyasını da yaratmışdır. Ulu öndərimizin uzaqgörən siyasəti nəticəsində ölkəmizin təbii sərvətlərindən səmərəli istifadə edilməsi, əsrin müqaviləsinin imzalanması, böyük layihələrin reallaşdırılması Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin inkisafına, yeni istehsal müəssisələrinin yaradılmasına, yüz minlərlə iş yerlərinin açılmasına, beləliklə, xalqımızın rifah halının yaxşılaşdırılmasına səbəb olmuşdur.

Bu gün hər bir azərbaycanlı fəxrlə deyir ki, ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur. Bütün ruhu, varlığı ilə öz xalqına, elinə-obasına bağlı olan umummilli lider bir-birinə zidd olan siyasi quruluşlarda fəaliyyət göstərsə də, həmişə xalqını fikirləşmiş, onun gələcək müstəqilliyi naminə çalısmışdır. "Azərbaycanın dövlət müstəqilliyi sarsılmaz və dönməz olacaqdır" - deyən ulu öndər Heydər Əliyev bütün həyat və fəaliyyətini ölkəmizin müstəqilliyinə, xalqımızın rifahına həsr etmişdir.

Müasir Azərbaycan bu gün demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunda inamla irəliləyir. Artıq çətin günlərimiz arxada qalmışdır. Ulu öndərin Azərbaycanın bugünü, sabahı ücün gördüyü islər həyatımıza o qədər nüfuz edib ki, bu gün Azərbaycan deyəndə ümummilli liderimiz, Heydər Əliyev deyəndə isə Azərbaycan başa düşülür. Həyatımızın hər anı üçün müstəqil Azərbaycanın qurucusu və memarı Heydər Əliyevə borcluyuq.

Ulu öndərimizin tövsiyələrinə sadiq qalaraq üzərinə düşən işi məsuliyyətli yerinə yetirməyə çalışırıq. Çünki ümummilli liderimiz Azərbaycanın gələcəyi olan bizlərə, biz gənclərə inanırdı və böyük ümidlər bəsləyirdi. Bu inamı, bu ümidi doğrultmaq, ulu öndərin qurub-yaratdıqlarını qorumaq, inkisaf etdirmək gənc nəslin ən ümdə vəzifəsi və borcudur.

"Biz mustəqil Azərbaycan kimi əzəmətli bir abidənin təməlini qoyuruq və onu qurub, yaradırıq. Onu indiki nəsillər üçün yaradırıq, gələcək nəsillər üçün yaradırıq. Bizim üzərimizə şərəfli vəzifə düşübdür və bunu layiqincə yerinə yetirməliyik" deyən ulu öndərimizin izləri onun şah əsəri olan müstəqil, qüdrətli Azərbaycanın hər yerində görünür. Bu gün Azərbaycanda əldə olunan nailiyyətlərin bir səbəbi var, o da ölkədə Heydər Əliyev yolunun uğurla davam etdirilməsidir. Həmişə azərbaycanlı olması ilə fəxr edən ulu öndər Heydər Əliyevin həyat yolu, Vətən sevgisi Azərbaycan gəncləri üçün örnəkdir.

## HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCANIN XARİCİ SİYASƏT KURSU STRATEGİYASININ YARADICISIDIR

***Baxşəliyev A.B.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Respublikasının beynəlxalq siyasi münasibətlər sisteminə fəal şəkildə qoşulmasında və nüfuzlu təşkilatlarla əməkdaşlığın genişləndirilməsində ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri vardır. Ölkəmizin beynəlxalq aləmdə mövqelərinin möhkəmləndirilməsinin, əməkdaşlığın genişləndirilməsinin və nüfuzunun getdikcə

artmasının möhkəm əsası məhz Heydər Əliyev tərəfindən qoyulub. Azərbaycanın müstəqillik tarixi dövründə unudulmaz siyasi hadisəyə çevrilmiş BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməyimiz də böyük siyasi xadim Heydər Əliyevin möhkəm təməllər üzərində qurduğu xarici siyasətin strategiyasının məntiqi davamıdır.

Respublikamızı beynəlxalq miqyasda tanıtmaq, milli-mənəvi dəyərlərimizin, mədəniyyətimizin, incəsənətimizin geniş miqyasda təbliği üçün Heydər Əliyev beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməyi vacib sayırdı. Həmin dövrdə Heydər Əliyevin hərtərəfli fəaliyyəti sayəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq günü-gündən genişlənir və möhkəmlənirdi. İslam Konfransı Təşkilatı, BMT, ATƏT, NATO və s. kimi təşkilatlarla qurulmuş əməkdaşlıq keyfiyyət etibarı ilə yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdu. Ümumiyyətlə, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra beynəlxalq təşkilatların rolundan yararlanaraq yaranmış münaqişənin sülh yolu ilə nizamlanması və dünyaya inteqrasiya prosesinə sıx cəlb olunmaq baxımından çox önəmli addımlar atmışdı. Azərbaycanın BMT, ATƏT, İslam Konfransı Təşkilatı ilə yanaşı, Türk Dövlətləri Birliyi, Müstəqil Dövlətlər Birliyi, Beynəlxalq Valyuta Fondu, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Parlamentlərarası İttifaq, NATO və digər nüfuzlu təşkilatlarla qarşılıqlı faydalı əlaqələri yarandı ki, bu da anadan olmasının bu günlərdə 95 illiyini çox yüksək səviyyədə keçirəcəyimiz Heydər Əliyevin adı ilə bağlıdır.

1996-1997-ci illərdə Azərbaycan-Gürcüstan və Azərbaycan-Ukaryna arasında strateji əməkdaşlıq haqqında sazişlər bağlandı. 1997-ci ilin oktyabrında Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova respublikalarının başçıları öz aralarında əməkdaşlıq haqqında kommünike imzaladılar. Noyabrın 25-də Bakıda “GUAM” blokunun təşkilini bəyan edən rəsmi protokol imzalandı. Bu ölkələrin NATO və ATƏT çərçivəsində, habelə öz aralarında siyasi, hərbi və iqtisadi sahələrdə mövqelərini əlaqələndirməyə imkan verən strateji partnyorluğa hüquqi əsas yarandı. 1999-cu il aprelin 4-də Vaşinqtonda GUAM təşkilatına üzv olan dövlətlərin prezidentlərinin görüşündə Özbəkistan Respublikası da bu təşkilata qəbul edildi. GUAM bundan sonra GUÖAM adlandırılmağa başlandı. Heydər Əliyev bu təşkilatın sədri seçildi. GUÖAM-ın icraçı katibliyinin yaradılması qərara alındı. Belə bir birliyin təşkili Rusiyanı olduqca narahat edirdi. Vəziyyəti 1999-cu ilin martında MDB dövlətləri başçılarının zirvə toplantısında Azərbaycan, Gürcüstan, Moldova və Özbəkistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi müddətinin uzadılmasına razılıq verməməsi daha da gərginləşdirdi. Rusiya bu dövlətlərə münasibətini xeyli yumşaltmağa istiqamətlənən addımlar atdı. Bununla əlaqədar sonralar 2001-ci il iyunun 6-7-də Yaltada GUÖAM təşkilatı başçılarının görüşündə qəbul olunmuş “Yalta Xartiyası”nda bu təşkilatın iqtisadi sahələrdə əməkdaşlığa da üstünlük verəcəyi elan edildi.

1994-cü ilin yanvar ayında Azərbaycan NATO-nun Avropa və dünyada sülhün, əmin-amanlığın bərqərar olunmasına xidmət edən “Sülh Naminə Tərəfdaşlıq” Proqramına qəbul edildi. Həmin il mayın 4-də Prezident Heydər Əliyev bu proqram Çərçivə sənədini imzaladı. NATO-nun və AATŞ-ın (Avropa-Atlantika Tərəfdaşlıq Şurası) üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1997-ci ilin iyul ayında keçirilən zirvə toplantısında Heydər Əliyev NATO-nun baş katibi ilə görüşdü və bu təşkilatla Azərbaycan arasında əməkdaşlığın genişlənməsi məsələləri müzakirə edildi. NATO-nun və Avropa –Atlantika Tərəfdaşlıq

Şurası üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1997-ci ilin iyul ayında keçirilən Madrid zirvə toplantısının qəbul etdiyi sənədlərdə NATO-nun tərəfdaş dövlətlərin müstəqilliyinin, süverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığına təminat verdiyi bildirildi. Bunlar Azərbaycanın haqq işinin müdafiəsi sahəsində böyük əhəmiyyətə malik idi. Azərbaycan dövləti hərbi inkişafının prespektevləri məsələlərində NATO ilə sıx əməkdaşlığa istiqamətləndi. Azərbaycanın hərbi qüvvələri Kosovoda və Əfqanıstanda sülhməramlı qüvvələrin keçirdiyi əməliyyatlarda iştirak etdi. AATŞ-ın 2002-ci il noyabrın 22-də Praqada keçirilmiş zirvə görüşündə Heydər Əliyev bu təşkilat və Azərbaycanın onda iştirakının əhəmiyyəti haqqında belə demişdi: "Dünya son dərəcə mürəkkəb bir dövr yaşayır. Beynəlxalq terrorizm bəzi dövlətlərin dəstəyindən istifadə edərək dünya nizamına qarşı hərəkət edir, ekstremizm, təcavüzkar, millətçilik və davakar separatizm ideologiyası əsasında yeni qarşıdurma xətləri yaratmağa çalışır, sərhədləri yenidən bölməyə, dəyişməyə cəhd göstərir. Beynəlxalq sistemin ümumi təhlükəyə qarşı səmərəli mübarizə aparmaq qabiliyyəti ciddi sınağa çəkilir. 11 sentyabr faciəsindən dərhal sonra Avroatlantika birliyi antiterror koalisiyası yaratdı və Azərbaycan ilk gündən bu koalasiyaya qoşuldu. Biz bu gün də başqa ölkələr və beynəlxalq təşkilatlarla birlikdə bu təhlükələrə qarşı əlimizdən gələni edirik".

Ölkənin xarici siyasət kursunda 1993-cü ilin yayından Türkiyə Respublikası ilə münasibətlərdə keyfiyyətcə ciddi dəyişikliklər edildi. Bu dost və qardaş ölkə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəf müqabili idi. Türkiyə Ermənistanı təcavüzkar bir dövlət kimi tanımış, Dağlıq Qarabağ məsələsi ədalətlə həll olunmayınca onunla heç bir əlaqə saxlamayacağını elan etmişdi. 25 ildən artıqdır ki, Türkiyə bu vədinə əməl edir. Azərbaycan-Türkiyə münasibətləri həm də dünyada və bölgədə sülhün, əmin-amanlığın bərqərar olması işinə xidmət edir. Azərbaycan və Türkiyə Respublikaları 1997-ci ilin may ayında strateji əməkdaşlığı daha da dərinləşdirmək haqqında müqavilə imzaladılar.

"Azərbaycan Respublikası ilə İran Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" müqavilə Heydər Əliyevin İran İslam Respublikasına 20 may 2002-ci ildə səfəri zamanı imzalanmış və hər iki dövlət arasında münasibətlərin nizamlanmasına və yeni bir səviyyəyə yüksəlməsinə xidmət edirdi.

2018-ci il martın 29-da İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin Azərbaycan Respublikasına rəsmi səfəri və Prezident İlham Əliyevlə yüksək səviyyədə görüşü İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında Heydər Əliyev tərəfindən vaxtı ilə yaradılmış böyük etimad mühitinin məntiqi davamı idi.

Ölkəmiz müstəqillik qazandıqdan sonra Heydər Əliyevin xarici siyasət kursunun əsas strategiyası olan müstəqilliyimizin qorunması, demokratiyanın inkişafı və Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində apardığı geniş miqyaslı işlər bu gün Preziden İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

# AZƏRBAYCANIN DÖVLƏTÇİLİK TARİXİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

**_Bayramova Ü.M._**
_Sumqayıt Dövlət Universiteti_

Azərbaycan respublikasının dövlətçilik tarixində Heydər Əliyevin əvəzolunmaz xidmətləri və olduqca zəngin irsi vardır. O, nadir şəxsiyyətdir ki, mükəmməl dövlət quruculuğu konsepsiyasını işləyib reallaşdıra bilmişdir. Heydər Əliyev respublikamızın dünya miqyasında layiqli yer tutması üçün uzun illər çalışmış və nəticədə müstəqil Azərbaycanın memarı və qurucusu kimi tarixdə öz yerini tutmuşdur. Heydər Əliyev XX əsr Azərbaycan siyasətinin ən parlaq siması və XXI əsr müstəqillik kursunun memarıdır. 1993-cü il iyun ayının 15-də Azərbaycan müstəqil dövlət kimi uçurumun kənarında dayanmışdır. Ölkəyə rəhbərlik edən səriştəsiz siyasi qurumlar çıxış yolu tapa bilmirdilər. Bu ağır zamanda xalq təkidlə Heydər Əliyevin siyasət səhnəsinə qayıdışına nail oldu və hər şey həmin tarixdən–iyunun 15-dən başladı. Bu tarix bir neçə anlamda Azərbaycanın qrtuluşunun başlanğıcı oldu. Dövlətçilik ideyası iflasdan qurtuldu. Xalq müsəqil dövlət qurmağın zəruriliyini tam olaraq Heydər Əliyevin liderliyi ilə qəbul etdi və qısa bir müddətdə cəmiyyət Ulu öndərin ətrafında birləşdi. Onun bir çağırışı ilə milyonlarla insan meydanlara axışmağa başladılar. Bu məqamda isə bütün dünya anladı ki, Azərbaycana təcrübəli, güclü, iradəli və uzaqgörən bir lider başçılıq edir. Heydər Əliyev Azərbaycan cəmiyətini siyasi təfəkkür məhdudluğundan qurtardı və paralel olaraq siyasi mühitdə ciddi islahatlar apardı. O, sosial-siyasi sabitlik yaradır, Dağlıq-Qarabağ münaqişəsini beynəlxalq aləmə çıxarır və neft strateqiyasını dövlət quruculuğuna təkan verən faktora çevirirdi. Heydər Əliyev böyük ustalıqla təcavüzkar Ermənistanın Azərbaycana qarşı olan çirkin niyyətlərini bütün dünyaya göstərdi. Onun bu münaqişə ilə bağlı BMT-dəki alovlu nitqləri ermənilərin əsl iç üzünü açdı və onların düşmən münasibətlərini dünya dövlətlərinin nəzərinə çatdırdı. Eyni zamanda o, beynəlxalq münasibətlər sistemində ciddi islahatların aparılmasına böyük ehtiyac olduğunu vurğuladı. Ulu öndər bütün dünya dövlətlərini barış, sülh və əməkdaşlığa dəvət edir, Azərbaycanın xarici siyasətində bu məqamların əsas yer tutduğunu qeyd edirdi. Bütün bunlarla yanaşı Heydər Əliyev cəmiyyətin əsas aparıcı qüvvələrindən biri olan-milli ideyanı konkret ideoloji konspektdə-azərbaycançılıqda ifadə edirdi. Burada vətənpərvərlik və milli dəyərlərin qorunması müasirlik və demokratik cəmiyyətin formalaşması prinsipləri ilə vəhdət təşkil edir. Heydər Əliyev milli ideyaya XXI əsrin tələblərinə uyğun dövlətçilik şüuru çalarları verməklə sözün həqiqi mənasında inqilabi yenilik edə bildi. Bundan başqa Ümummilli liderin xarici siyasət strateqiyasında uğurlu addımları öz nəticəsini verdi. Hər şeydən əvvəl ulu öndər ölkəmizin təbii-coğrafi, geosiyasi amilləri və yerləşdiyimiz ərazinin geostrateji əhəmiyyətini xarici siyasət kursunun əsas faktorları sırasına daxil etdi. Bu sahədə xalqımızın zəngin tarixi, mədəniyyəti və multikultural ənənələri lazımi səviyyədə diqqətə alındı. Heydər Əliyev bütün dövrlərdə Azərbaycan xalqının tarixi mədəni və multikultural ənənələrinə daimi diqqət və qayğı göstərib. Hələ sovet dönəmində yüksək vəzifələrdə çalışarkən bu məqama ayrıca önəm vermiş, Azərbaycanın böyük ədibləri, mədəniyyət xadimləri, milli bayramları, dili ilə bağlı çox əhəmiyyətli addımlar atmışdır. Məhz bu kimi faktorların sayəsində Azərbaycan öz

milli-mənəvi varlığını qoruya bildi. Müstəqillik mərhələsində isə həmin faktorlar tamamilə yeni məzmunda xarici siyasət kursunun prinsipləri sırasına daxil edildi. Heydər Əliyevin siyasət dahisi olmasının əsas göstəricisilərindən biri məhz bununla bağlıdır. Azərbaycanın Avropa dövlətlərinin təşkil etdiyi Avropa Şurasına, ATƏT-ə üzv seçilərək onlarla vahid ailə kimi əməkdaşlıq etməsi, xüsusi gücə, hərbi potensiala malik NATO hərbi bloku ilə əməkdaşlığı ən mühüm dövlətçilik strategiyasıdır ki, bunlar da Heydər Əliyevin siyasi fəaliyyətinin, nüfuzunun ən uğurlu bəhrələrindəndir. Onun Azərbaycana, regiona və dünyaya ciddi töhfələr verdiyi tanınan faktdır. Ümummilli liderin zəngin siyasi təcrübəsinin və humanist dünyagörüşünün genişliyi nəticəsində indi Azərbaycanda sabitlik, tolerantlıq hökm sürməkdədir. Bu əslində Heydər Əliyevin vətən sevgisindən, siyasi peşəkarlığından və milli dəyərlərə ciddi bağlılığından qaynaqlanır. Hal-hazırda Heydər Əliyevin dövlət quruculuğu kursunu prezident İlham Əliyev böyük uğurla davam etdirir. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycanın dövlətçilik tarixində Ulu öndərin xidmətləri əvəzolunmazdır.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ

***Cəfərov P.T.***
*Sumqayıt Dövlət Universiteti*

1988-ci ildən başlayaraq imperiya sütunlarının laxlaması milli azadlıq mübarizələrinin, etnik burulğanların da qabarmasına səbəb oldu. Belə qabarmalardan biri də Gürcüstandakı soydaşlarımızla bağlıdır.

SSRİ dağıldıqdan sonra tarixin səhnəsinə çıxmış gənc müstəqil dövlətlər təbii olaraq dünya birliyində öz yerlərini tutmağa başladılar. Hər bir yeni yaranmış dövlətin beynəlxalq aləmdə səsi, nüfuzu təkcə ölkənin geopolitik durumu, iqtisadi, hərbi potensialından deyil, habelə onun başında duran hakim dairələrin çevik siyasətindən asılıdır. Bu baxımdan bölgədə öncə qonşu dövlətlərlə düşünülmüş, tarazlı siyasət yeritmək çox böyük əhəmiyyət kəsb edir. Müstəqillik əldə etdikdən sonra Azərbaycan da bu zərurət qarşısında qaldı.

Amma eyforiya ilə hakimiyyətə gəlmiş ilk iqtidarlar qonşularla münasibətləri sivilizasiyalı normalara uyğun qurmaq əvəzinə çığır-bağır taktikasına əl atdılar. Bu hay-küyün içərisində ən çox zərər çəkən Azərbaycan-Gürcüstan münasibətləri, xüsusilə də bu ölkədə yaşayan yüz minlərlə gürcüstanlı soydaşımız oldu.

Hər iki dövlət tarixən qonşudur. Ümumən iki ölkə arasında elə bir dərin ziddiyyət olmamışdır, xalqları bir-birinə həmişə hörmət bəsləmişlər. Tarix boyu həmişə müstəqil olanda da, imperiyaların tərkibində yaşayanda da Azərbaycan və Gürcü xalqları həmrəy olmuşlar. XX əsrin sonunda hər iki xalq ikinci dəfə müstəqilliyə nail olanda avantürist siyasətçilərin ambisiyaları üzündən münasibətlər normal məcradan çıxdı.

Qamsaxurdia hakimiyyəti dövründə Qamsaxurdia-Koctava komandasının quraşdırdığı kütləvi diskriminasiya kompaniyası 1993-cü ildə də davam edirdi. Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrində qədim yaşayış məskənlərinin kütləvi şəkildə adlarının dəyişdirilməsi prosesi gedirdi.

Gürcüstanda yaşayan soydaşlarımızın acınacaqlı vəziyyəti dəfələrlə Milli Məclisdə müzakirə edilmiş və millət vəkilləri yaranmış vəziyyətin çox acınacaqlı olduğunu bildirmişdilər. Lakin bu vəziyyətin düzəldilməsi, Qafqazın iki aborigen xalqı arasında tarixən mövcud olmuş mehriban qonşuluq münasibətlərinin yenidən qaydaya düşməsi üçün siyasi iradə çatışmazlığı problemi mövcud idi.

1993-cü il iyunun 15-də Azərbaycanın ən ağır günlərində, ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra bütün digər sahələrdə olduğu kimi Gürcüstanda yaşayan soydaşlarımızın vəziyyəti ilə bağlı da mühüm addımlar atıldı. İki qonşu xalq arasında münasibətlərin tənzimlənməsində böyük siyasətçi Heydər Əliyevin Gürcüstan prezidenti Eduard Şevarnadze ilə olan şəxsi münasibətlərinin önəmli rolu olmuşdur.

Azərbaycan-Gürcüstan münasibətlərinin daha da inkişaf etdirilməsində və gələcək perspektivlərin müyyənləşdirilməsində Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 1996-cı ilin martında dost Gürcüstana etdiyi səfər müstəsna əhəmiyyətə malik idi. Belə ki, bu səfərin nəticəsində iki qonşu dövlət arasında, hüquqi müqavilə bazası yaradılmış, iki ölkə və region üçün mühüm əhəmiyyəti olan 14 yeni sənəd imzalanmışdır. Bu sənədlər arasında "Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında bəyannamə", "Gürcüstan hökuməti ilə xarici neft şirkətləri konsorsiumu arasında saziş", "Boru kəmərinin çəkilməsi və istismarı haqqında Gürcüstan neft korporasiyası ilə xarici neft şirkətləri konsorsiumu arasında saziş" xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan-Gürcüstan münasibətlərinin yeni mərhələsi başlandı. Öncə Borçalıdakı soydaşlarımız Gürcüstanın bərabər hüquqlu vətəndaşlarına çevrildilər. Ticarət dövriyyyəsi nizama salındı. Tranzit yollarda qayda-qanun yarandı. Hər iki dövlətin hüquq-mühafizə sistemləri qaçaqmalçılığa və narkotik maddələrin daşınmasına qarşı birgə səylərini genişləndirdilər.

Azərbaycan və gürcü xalqlarının mənəvi cəhətdən yaxşılaşması üçün Gürcüstanın iki bölgəsində Tbilisi və Acarıstanda Qafqaz Müsəlmanları idarəsinin nümayəndəliyi açıldı. Soydaşlarımızın yığcam yaşadığı Dmanisi, Bolnisi, Marneuli və Qardabani rayonlarında əhalinin məscidlərdə sərbəst şəkildə ibadət etməsinə hər cür şərait yaradıldı.

1996-cı ildə Gürcüstanda Azərbaycanın böyük ədibi Mirzə Fətəli Axundovun ev muzeyinin açılışı oldu. Eyni zamanda Tbilisi şəhərində görkəmli Azərbaycan yazıçısı və ictimai xadimi Cəlil Məmmədquluzadənin də ev muzeyinin açılışı olmuşdur. 1997-ci il aprelin 22-də Tbilisi şəhərinin Mirzə Şəfi Vazeh küçəsində Nəriman Nərimanovun vaxtilə yaşadığı evdə ev muzeyi açıldı.

Gürcüstanda ana dilimizdə çıxan "Gürcüstan" qəzetinin vəziyyəti ümummilli lider Heydər Əliyevin 1996-cı ilin mart ayında bu ölkəyə etdiyi tarixi səfərindən sonra xeyli yaxşılaşdı. Həmin dövrdə 500 nüsxə tirajla çap olunan qəzet qısa müddətdə 3000 nüsxə tirajla çap edilməyə başlandı. Tbilisidə uzun illər fəaliyyət göstərən Azərbaycan teatrı müəyyən səbəblər üzündən fəaliyyətini dayandırsa ümummilli lider Heydər Əliyevin tarixi mart səfərindən sonra yenidən məşqlərə başladı. Eyni zamanda Marneulidə Azərbaycan teatrı yenidən fəaliyyətə başladı.

1998-ci ildə Azərbaycanın Gürcüstanla sərhəd rayonlarında xüsusi peyk antenaları quraşdırılması nəticəsində bu ölkədə yaşayan soydaşlarımız Azərbaycan televiziyasının verilişlərinə daha rahat baxa bildilər.

Beləliklə, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş mehriban qonşuluq əlaqələri bu gün də onun siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir və ildən ilə nəzərə çarpacaq dərəcədə yüksəlir. Odur ki, bu gün Gürcüstanda yaşayan azərbaycanlılar və Azərbaycanda yaşayan gürcülər özlərini daha artıq dərəcədə təhlükəsiz hiss edirlər.

## HEYDƏR ƏLİYEV VƏ NEFT STRATEGİYASININ TƏMƏLİ

***Əhmədov R.V.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbər seçildikdən sonra sosial-iqtisadi həyatın bütün sahələrində olduğu kimi, neft emalı sənayesində də dərin keyfiyyət dəyişiklikləri baş vermişdir. 1969-cu ildən başlayaraq Azərbaycanın xalq təsərüffatının bütün sahələri kimi, neft və qaz sənayesinin inkişaf tarixində yeni mərhələ başlayır. Cənab Heydər Əliyevin təşəbbüsü və böyük səyi nəticəsində 70-80-ci illərdə Azərbaycanda neft sənayesinin inkişafına təkan verən 75 növdə, 400-dən çox ağır yük qaldıran kran gəmisi, boruçəkən gəmilər, seysmik, sərnişin və.s gəmi növləri gətirildi. Xəzərdə 2500 t gücündə Azərbaycan kranı, Xəzər tipli özüqalxan, sonralar isə dənizin 200m dərinliyindəki sahələrdə işləməyə imkan verən Şelf tipli yarımdalma üzən qazma qurğularının alınması nəticəsində dənizin daha dərin sahələrində zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yarandı. Məhz böyük siyasətçi Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ilk dəfə olaraq Azərbaycanda neft emalı üçün xüsusi proqram hazırlanmış və həyata keçirilməyə başlanmışdır. Həmin proqrama əsasən yeni texnika və texnologiyaya malik olan zavodlar yaradılmış, təzə qurğular inşa olunmuşdur. Eyni zamanda neftayırma zavodlarının yenidən qurulmasına başlandı. Azərbaycanda neftayırma sənayesinin yenidən qurulması planı mərhələlərlə icra olunduqca, bu sahədə başlanan keyfiyyət dəyişiklikləri də genişlənərək dərinləşirdi. Bu dövrdə dünyada analoqu olmayan Dərin Dəniz Özülləri zavodunun Azərbaycanda, Bakıda tikilməsi üçün o zaman Sovetlər məkanında 450 mln. ABŞ dollarının ayrılması, bunun üçün Moskvadan belə bir icazənin alınmasına nail olunması (bu zavodun Həştərxanda tikilməsi nəzərdə tutulmuşdu) cənab Heydər Əliyevin möhkəm iradəsinin və cəsarətinin nəticəsi idi

Azərbaycan müstəqillik əldə etdikdən sonra 90-cı illərin əvvəllərindən bir çox çətinliklərlə üzləşmişdir. SSRİ-nin keçmiş respublikalarları ilə Azərbaycan Respublikası arasında iqtisadi əlaqələrin qırılması, respublika ərazisində qeyri-sabitliyin mövcud olması, maliyyə və texniki təchizatın sıfıra enməsi, neft və qaz sənayesinin ağır böhran vəziyyətinə salmışdır. Bütün bu çətinliklər maliyyə, texniki və digər problemlər aşkar edilmiş Azəri, Çıraq, Günəşli kimi yataqların işlənməsinə imkan vermirdi. Belə vəziyyətdə xalqın tələbi ilə ikinci dəfə Azərbaycana rəhbərliyə qayıdan cənab Heydər Əliyev "neft Azərbaycanın milli sərvətidir" devizi ilə çıxış edərək respublikanın neft sənayesinin bərpası və inkişafı ilə

yaxından məşğul olmuşdur. Neft sənayesində yaranmış çətin vəziyyətdən çıxmaq və ölkəmizin karbohidrogen ehtiyatlarının mənimsənilməsi üçün iki variantdan birini seçmək lazım idi. Ya 15-20 il ölkəmizin maliyyə-iqtisadi vəziyyətinin əlverişli olmasını gözləmək, ya da xarici neft şirkətlərini dəvət etmək lazım idi.

Azərbaycan xalqının ümummilli lideri xarici iri neft şirkətlərini Azərbaycana dəvət etmək qərarına gəldi və Yeni neft strategiyası tez bir vaxtda işlənib hazlrlandı. Heydər Əliyevin yeni neft strategiyasının çox böyük uğurla reallaşması günümüzün də reallığına çevrilmişdir. Bu cəhətdən aşağıdakı nailiyyətləri qeyd etmək yerinə düşərdi:

1.Azərbaycanın neft-qaz layihələrinə beynəlxalq neft korporasiyalarının, bütövlükdə xarici işgüzar dairələrin, iri investisiyalarının cəlb edilməsi hesabına dünyanın enerji daşıyıcılarının bazarına sürətlə çıxışın təmin edilməsi;

2.Azərbaycan neftinin dünya bazarına sərbəst və sürətli çıxışını təmin etmək üçün ixrac boru kəmərləri sisteminin yaradılması;

3.Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu “Yeni neft strategiyası”nın həyata keçirilməsinin nailiyyətlərindən biri də Qərbin qabaqcıl texnika-texnologiyasının Azərbaycana gətirilməsidir”

“Xüsusilə tikintidə və yataqların işlənilməsində, qazımada və istismarda tətbiq olunan yeni texnika, texnologiya və avadanlıqlar neft sənayesinə pozitiv təsir göstərmişdir. Azərbaycanda ilk dəfə olaraq Mərkəzi Azəri yatağında 48 quyunun qazılmasına imkan verən nəhəng və əzəmətli dərin dəniz özülü tikilib qurtarmaq üzrədir. Texniki baxımdan dünya miqyasında ən iri terminallardan biri Səngəçal terminalıdır və burada genişləndirmə ilə əlaqədar çoxlu obyektlər tikilmişdir. Səngəçal terminalına Azəri yatağından gələn 186 km-lik 800 mm sualtı neft və 187km-lik 720 mm sualtı qaz kəmərləri tikilmişdir. Azərbaycanda yuxarıda adları çəkilən nəhəng tikililərin aparılmasında, onların başa çatdırılmasında “TEKFEN”, “AZFEN”, “MAKDERMOT” və. s müəssisələrin rolu böyükdür. Azərbaycanda neft-qaz sektorundakı fəaliyyət göstərən xarici şirkətlərdə, firmalarda 17 mindən artıq Azərbaycan vətəndaşı işləyir. Bunlardan Azəri-Çıraq-Günəşlidə bilavasitə çalışanların sayı 9500 nəfər təşkil edir. Yeni neft strategiyasının ən mühüm tərkibi hissələrindən biri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilişi ideyasının meydana qoyulması və onun reallığa çevrilməsidir. Heydər Əliyevin müəllifi olduğu neft strategiyası bugün müstəqil dövlət kimi Azərbaycanın öz milli sərvətinin sahibi olmasının, iqtisadiyyatımızın dünya iqtisadiyyatına qovuşmasının, ölkəmizin 90-cı illərin əvvəlində başlanmış siyasi, iqtisadi və sosial böhranlardan çıxaraq dirçəlməsinin və ən əsası XXI əsrin astanasında yüksək inkişaf etmiş, möhkəm, demokratik Azərbaycan dövlətinin yaranmasının rəmzidir.

# HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN QURUCUSUDUR

***Ələsgərov B.İ., Səmədov Y.A.***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ağcabədi filialı)*

Heydər Əliyev on dörd il Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə rəhbərlik edib. (Sovet dövründə bu Respublikanın rəhbəri idi.) Beş il SSRİ hökumətində ikinci şəxs və Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi bürosunun üzvü seçilmişdir.

Heydər Əliyev dövlətçilik və siyasi fəaliyyəti bir-birinə zidd olan iki müxtəlif ictimai-siyasi sistemin qovuşuğundan keçmiş və bunların hər ikisinin imkanlarından bacarıqla istifadə edib ölkəmizin tərəqqisinə nail olmuşdur.

1964-cü il iyulun 14-də siyasi rəhbərliyə gələn Heydər Əliyev keçmiş ittifaqın iqtisadiyyatı üçün xammal mənşəyinə çevrilmiş Respublikamızın yeni inkişaf strategiyasını hazırlayıb qısa müddətdə həyata keçirdi. Bunun nəticəsində əvvəllər bütün əsas göstəricilər üzrə ölkə miqyasından geri qalan Azərbaycan tezliklə ittifaqın ən inkişaf etmiş respublikalarıdan birinə çevrildi.

Heydər Əliyevin siyasəti nəticəsində o illərdə yaranmış güclü sosial, iqtisadi və intellektual potensial Azərbaycanın müstəqilliyi üçün mühüm zəmin oldu. Müasir Azərbaycan dövlətinin inkişafı məhz həmin illərdə yaradılmış bünövrə üzərində qurulub və bu gün də uğurla davam edir. 1993-cü il iyun ayında Azərbaycanda ictimai-siyasi böhran yaranmışdı, hakimiyyət iflic vəziyyətdə idi. Respublika idarə olunmurdu, parçalanma və məhv olma qarşısında idi. Belə bir vəziyyətdə Heydər Əliyevin hakimiyyətə qayıdışı bütün bu təhlükəli proseslərin qarşısını aldı.

Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətinin ikinci mərhələsi nə qədər təlatümlü, ziddiyyətli, ictimai-siyasi gərginliklərlə səciyyələnən dövrə təsadüf etsə də, ona xas uzaqgörənlik və siyasi müdriklik, iradə yenilməzliyi, ən əsası, doğma vətəni düçar olduğu bəlalardan xilas etmək bacarığı ölkəmizi sürətlə fəlakətə aparan təhlükəli proseslərin qarşısını almağa, xalqın müstəqilliyə və fıravan gələcəyə qaytarmasına imkan yaratdı.

Ulu öndər hakimiyyətə gəlişi ilə bütün qüvvələri öz yerinə qoydu: atəşkəsin əldə olunmasından istifadə edərək, respublikada ictimai-siyasi sabitliyin bərpasına, kriminogen vəziyyətin aradan qaldırılmasına, vahid komandanlıq altında nizami ordunun yaradılmasına, bütün sahələrdə islahatların həyata keçirilməsinə rəvac verdi.

Müstəqil Azərbaycan Respublikasının ilk Milli Konstitutsiyasının qəbul edilməsi, demokratik yolla prezident və parlament, habelə Azərbaycan tarixində ilk dəfə olaraq bələdiyyə seçkilərinin keçirilməsi, Şərqdə ilk dəfə olaraq ölüm cəzasının ləğvi, senzuranın aradan qaldırılması, siyasi plüralizm və çoxpartiyalı sistemin dəstəklənməsi, konstitutsiya məhkəməsinin fəaliyyətinin başlanması, üçpilləli məhkəmə sisteminin yaradılması, ölkənin iqtisadi böhrandan azad olması gündən-günə artan iqtisadi yüksəliş beynəlxalq terrorizmlə mübarizənin dəstəklənməsi, "Əsrin müqaviləsi"nin imzalanması Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin həyata vəsiqə qazanması, ipək yolunun bərpası Heydər Əliyevin adı ilə bağlıdır. Yürütdüyü xarici siyasətin milli maraqlara və bəşəri dəyərlərə söykənməsi, habelə terrorizmlə mübarizənin dəstəklənməsi

və bu işdə xüsusi fəallıq göstərməsi Azərbaycanın beynəlxalq nüfuzunu əhəmiyyətli dərəcədə yüksəldərək, onu sivil dövlətlər səviyyəsinə qaldırdı. Məqsədyönlü və uğurlu siyasət nəticəsində yeni əsrin başlanğıcı üçün xalqımız böyük uğurla imza atdı və Azərbaycan Avropa Şurasına üzv qəbul edildi. Dünya Azərbaycanlılarının Birinci Qurultayının da böyük müvəffəqiyyətlə Bakı şəhərində keçirilməsi, xalqımızın özünüdərk, azərbaycançılıq, milli dövlətçilik və milli-mənəvi dəyərlər ətrafında birləşməsinin xeyli güclənməsi, diaspor fəaliyyətimizin genişlənməsi və formalaşması istiqamətində mühüm addım oldu.

2003-cü il dekabrın 12.də əbədiyyətə qovuşan Heydər Əliyevin dəfn mərasimi Azərbaycan xalqının öz dahi rəhbərinə olan dərin ehtiramın, onun parlaq və unudulmaz xatirəsinin qədirbilən xalqımızın qəlbində həmişə yaşayacağını əyani şəkildə bütün dünyaya göstərdi.

Respublika Prezidenti cənab İlham Əliyev tərəfindən 10 mart 2004-cü il tarixində imzalanmış "Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" fərmanı da dahi rəhbərimizə ürəkdən gələn ümumxalq məhəbbətinin təzahürüdür.

Heydər Əliyev əbədiyaşardır, O, dünya durduqca Azərbaycan xalqının qəlbində yaşayacaq, bütün insanlar tərəfindən həmişə ən görkəmli ictimai-siyasi və dövlət xadimi kimi xatırlanacaqdır.

## H.ƏLİYEVİN HAKİMİYYƏTİNİN İLK İLLƏRİNDƏ AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN ƏSAS PRİORİTETLƏRİ

***Əsədova X.İ., Əliyeva F.B.***

*Azərbaycan Dövlət Aqrar Universiteti*

Heydər Əliyev dövründə xarici siyasətimizdə diqqəti cəlb edən müsbət dönüş Azərbaycanın xarici iqtisadi əlaqələri və daxildə həyata keçirilən iqtisadi islahatlar ölkənin mühüm xarici siyasət probləmlərinin həllinə yönəlmişdir. Azərbaycan Respublikası bu gün yeritdiyi xarici siyasətlə özünün min illər boyu davam etmiş olan bir tarixi ənənəsinə sədaqətini nümayiş etdirir: Dövlətimiz regionun bütün ölkələri ilə münasibətdə mehriban qonşuluq siyasəti yeridir.

Ulu öndərin Azərbaycan Prezidenti olduğu dövrdə özünün ölkəmiqyaslı qəbullarından tutmuş beynəlxalq miqyaslı görüşlərə, yüksək səviyyəli danışıqlarınadək hər yerdə, hər an Azərbaycan həqiqətlərini dünyaya yayır.

1993-cü ilin ikinci yarısında respublikanın ictimai-siyasi həyatında baş verən dəyişikliklər, sabitliyin bərqərar olması, siyasi və iqtisadi sahədə islahatların ardıcıl şəkildə aparılması üçün müvafiq addımların atılması xarici siyasətin də ölkənin strateji maraqları əsasında yenidən qurulmasına şərait yaratdı.Məhz bu dövrdən Azərbaycanın xarici siyasət fəaliyyətində mühüm pozitiv dəyişikliklər baş verir. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev Azərbaycanın dünya dövlətləri ilə iqtisadi inteqrasiyasının yaranması və genişlənməsini ölkənin beynəlxalq aləmdə tanınması və nüfuzunun artmasında, eyni zamanda daxili iqtisadi inkişafının yüksəlişində mühüm

amillərdən biri hesab edirdi.Heydər Əliyev bir çox təşkilatların - NATO-nun, MDB-yə daxil olan ölkələrin dövlət və hökumət başçılarının, İslam Konfransı Təşkilatının Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatı (EKO) çərçivəsində keçirilən zirvə görüşlərində mütəmadi olaraq iştirak edirdi. Bu görüşlərdəki çıxışlarda, dövlət başçıları ilə söhbətlərində Azərbaycanın siyasi və iqtisadi mənafelərinin qorunması, bu təşkilatlar və dövlətlərlə Azərbaycanın əməkdaşlığının və inkişaf probleminin həlli üçün səmərəli istifadə edilməsi üçün şərait yaradılmasına çalışırdı.

Həmin dövrdə Azərbaycan dövləti nəinki təkcə ATƏT in Minsk qrupu üzvləri ilə, həmçinin ATƏT üzvü olan dövlətlərlə fəal iş aparmış və öz mövqeyini müdafiə edə bilmişdir. Bu sahədə aparılan işin əsas mahiyyəti ondan ibarət olmuşdur ki, Respublikamızın haqq işi uğrunda apardığı mübarizədə, ərazi bütövlüyünün bərpa edilməsində onun dəstəkləyən dövlətlərin sayını artırsın, ermənilərin işğalçı fəaliyyətini ifşa etsin və Azərbaycanı Demokratik, müstəqil dövlət quran, sülhpərvər bir ölkə kimi tanıtsın. Odur ki, əsas fəaliyyət republikamızı dəstəkləyən dövlətlərin Ermənistana təzyiqini artırmağa , bu məslədə bitərəf qalan dövlətləri tərəfimizə çəkməyə, Ermənistanı müdafiə edənləri bitərəfləşdirməyə və nəhayət Dağlıq Qarabağ probleminin ədalətli və sülh yolu ilə həllinə nail olmağa yönəlmişdir. Ümumilli lider Dağlıq Qarabağ probleminin həlli ilə bağlı Beynəlxalq təşkilatların tribunalarından, onların bütün imkanlarından da maksimum istifadə etmişdir. Ümumilli lider Heydər Əliyev Ermənistan dövlətinin və millətçi Dağlıq Qarabağ ermənilərinin təhlükəli separatizmindən geniş söz açmış, dünya dövlətlərinin bu məslələrinin mahiyyəti və əsl həqiqətlərə aid lazımi məlumatlarla təmin etmiş, digər tərəfdən, ayrı-ayrı dövlətlərin , bir çox hallarda bütöv regional təşkilatların bu məsələnin həlli ilə bağlı Ermənistanın mövqeyini pisləyən qərarlarını, bəyanatlarının qəbul edilməsinə nail olunmuşdu.

Beləliklə, Heydər Əliyevin xarici siyasətini ilk illərindəki diplomatik fəaliyyətinin qısa təhlili göstərir ki, Azərbaycan dövləti Ermənistan-Azərbaycan münaqişəsinin və Dağlıq Qarabağ probleminin həlli ilə bağlı çox fəal iş aparmışdır. Ən əsası isə Dağlıq Qarabağ probleminin beynəlxalq prinsiplər və Azərbaycanın ərazi bütövlüyünü təmin etmək yolu ilə həll oluna bilməsi haqqında bütün Minsk qrupunun, ATƏT üzvü olan başqa-başqa ölkələrin rəyini almaq mümkün olmuşdur.Sammitdə yekun bəyannaməsi tərkibində heç kimin diqqətini cəlb etməyən kiçik 20 ci maddə, 53 dövlətin xüsussi imzaladığı, bütün dünyaya bəyan edilən və yenidən tərkibindən çıxarıldığı bəyanaməyə əlavə edilən bir sənədə çevrildi. Əslində bu Azərbaycan üçün yekun bəyanaməsi tərkibində gedən maddədən daha əhəmiyyətli, ermənistan üçün isə öldürücü sonluqla bitən zirvə oldu.

## HEYDƏR ƏLİYEV VƏ SƏRHƏD TƏHLÜKƏSİZLİYİ

***Əsgərov Q.A.***

*Azərbaycan Respublikasnın Prezidenti yanında Dövlət İdrəçilik Akademiyası*

Dövlət müstəqilliyini əldə etdikdən sonra tarix boyu itirdiyi dövlətçilik ənənələrinin bərpası Azərbaycan Respublikasının qarşısında dayanan əsas vəzifələrdən biri oldu. Bu

istiqamətdə görüləsi işlərdən birini də dövlətçiliyin əsas rəmzlərindən biri olan ölkə sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi idi. Ancaq bu yol gənc dövlət üçün heç də hamar olmadı. Bu dövrdə vahid ordunun və rəhbərliyin olmaması dövlətin gələcək taleyini daha çox şübhə altına aldı. Ermənistan tərəfindən yeni ərazi iddialarını yenidən irəli sürülməsi və bir-birinin ardınca qısa müddət ərzində ərazilərimizin 20%-ni işğal edilməsi mövcud vəziyyəti daha ağırlaşdırdı.

Ölkədəki diletantlıq, istər həmsərhəd qonşu dövlətlərlə danışıqlar aparılmasında, istərsə də beynəlxalq görüşlərdə peşəkar davranış səriştəsinin olmaması Azərbaycanın beynəlxalq münasibətlərin tamhüquqlu subyekti kimi tanınmasını ləngidirdi. Bu şəraitdə ilk növbədə ölkə daxilində sabitlik yaratmaq, dövlət sərhədlərinin mühafizəsini gücləndirmək və bununla da ölkəyə xarici təsirlərin qarşısını almaq olduqca zəruri idi.

Yalnız Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə gəlməsi nəticəsində Azərbaycanda dövlət və ordu quruculuğunda yeni bir mərhələnin təməli qoyuldu. Heydər Əliyevin ordu quruculuğu siyasətinin təməl prinsiplərindən biri və bəlkə də ən başlıcası xalqla ordunun vəhdəti, yekdilliyi prinsipidir. Hərbi işin incəliklərinə peşəkar yanaşma Ali Baş Komandana qısa vaxt ərzində ordu quruculuğu kimi mürəkkəb bir problemi uğurla həll etməyə, Azərbaycan ordusunu yenidən elmi–nəzəri əsaslar üzərində qurmağa imkan verdi.Tezliklə orduda vahid rəhbərlik prinsipi bərqərar edildi və hərbi intizam möhkəmləndirildi. Xalqın milli mənlik şüurunun oyanmasında və orduya itirilmiş inamın bərpa olunmasında ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur.

Milli dövlətçiliyin əsas rəmzlərindən biri olan sərhədlərin mühafizəsi Ümummilli Lider Heydər Əliyevin həssas yanaşdığı məsələlərdən biri idi. Bu dövrdə sərhədçi zabitlərin peşə və mənəvi-psixoloji hazırlıqlarının lazımı səviyyədə olmaması, son nəticədə dövlət sərhədinin etibarlı mühafizə edilməsi işinə mənfi əsir göstərirdi. Bu məqsədlə Heydər Əliyev peşəkar sərhədçilərin hazırlığı məsələsinə də xüsusi diqqət göstəridi. Sərhədçi zabit və gizirlərin, xüsusilə ehtiyatdan xidmətə qəbul olunanların bilik və peşə bacarığını artırmaq məqsədilə Sərhəd Qoşunlarının təkibində 1994-cü ilin avqustun 12-də Kadrların Hazırlanması və Təkmilləşdirilməsi Kursları yaradıldı.

Milli üçrəngli bayrağımızın Silahlı qüvvələrdə ilk dəfə 1992-ci ilin avqust ayının 22-də Naxçıvan Sərhəd Dəstəsində qaldırılmasından, şimal və şimal-qərb sərhədlərimizdə ilkin zəruri infrastrukturun yaradılmasından, MDB ölkələrinin sərhədlərini birgə qorumaq kimi milli maraqlara və müstəqilliyə zidd bir cəhdin qarşısının qətiyyətlə alınmasından tutmuş Dövlət Sərhəd Xidmətinin yaradılmasına qədər bütün proseslər Ulu Öndərin adı ilə bağlıdır.

Bu dövrdə Azərbaycanın sərhədləri yaxınlığında gedən mürəkkəb və ziddiyyətli proseslər milli təhlükəsizliyimiz üçün ciddi təhdidlərə çevrilmişdi. Rəqib xüsusi xidmət orqanlarının bu vəziyyətdən istifadə etmək cəhdləri ilə xarakterizə olunan əməliyyat şəraiti ölkəmizin sərhədlərinin daha mükəmməl şəkildə qorunmasını tələb edirdi. Digər tərəfdən İpək yolu və Şimal-Cənub kimi transkontinental nəqliyyat dəhlizlərinin,ölkəmizin ərazisindən keçməsi müxtəlif transmilli kriminal təşkilatları mövcud şəraitdən öz məqsədləri üçün istifadə etməyə həvəsləndirirdi. Ölkəmizin sərhədlərinin mühafizəsinin gücləndirilməsini vacib edən səbəblər arasında 11 sentyabr hadisələrindən sonra antiterror koalisiyasının üzvü olmağımızı, Xəzər dənizində karbohidrogen ehtiyatlarının hasilatının və

ixrac infrastrukturunun təhlükəsizliyinin yüksək səviyyədə təmin edilməsi zərurətinin mövcudluğunu xüsusi qeyd etmək olar.

Bütün bu göstərilən səbəbləri nəzərə alaraq dahi öndər Heydər Əliyev 2002-ci ilin iyul ayının 31-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin yaradılması barədə fərman imzaladı və bununla da, sözün həqiqi mənasında Azərbaycan sərhədlərinin etibarlı mühafizəsi işini yeni mərhələyə qaldırmış oldu.

Ümummilli lider sərhədçilərlə keçirdiyi görüşlərdə onların qarşısında konkret vəzifələr qoymaqla müvafiq dövlətlərlə sərhədlərin delimitasiyası, eləcə də dünyanın digər ölkələrinin sərhəd mühafizə qurumları ilə münasibətlərinin qurulması haqqında göstərişlər verirdi. Məhz bu dövrdən sonra sərhədyanı bölgələrdə əhalinin sosial-iqtisadi inkişafını təmin edən tədbirlər proqramı həyata keçirilməyə başlanıldı. Sərhədlərin təhlükəsizliyini daha etibarlı təmin etmək üçün icra hakimiyyəti orqanlarının, ictimai təşkilatların, vətəndaşların fəaliyyəti ilə sərhəd qoşunlarının fəaliyyəti əlaqələndirilməyə başlanıldı.

Çox sevindirici haldır ki, bu siyasətin layiqli davamçısı ölkə prezidenti cənab İlham Əliyev uğurla davam etdirir.

Cənab Prezidentin rəhbərliyi ilə ölkəmizin iqtisadi, sosial, siyasi, idarəetmə və digər sahələrdə əldə etdiyi ciddi müsbət nailiyyətlər ordunun, o cümlədən Dövlət Sərhəd Xidmətinin inkişafına da təsir etməkdədir. İndi hər bir azərbaycanlı özünü azad sərbəst və təhlükəsiz hiss edir. Bütün bu tədbirlərin nəticəsidir ki, artıq müstəqil respublikamızın təhlükəsizliyinə onun sərhədlərindən olan istənilən təhdidin qarşısı uğurla alınır və müstəqil Azərbaycan gələcəyə doğru inamla addımlayır. Fikirlərimizi Ümummilli Lider Heydər Əliyevin Sərhəd qoşunlarının 82-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda söylədiyi bir cümlə ilə yekunlaşdıraq. ”Mən bu gün böyük məmnuniyyət hissi ilə bəyan edirəm ki, artıq bizim formalaşmış Sərhəd Qoşunlarımız var”.

## HEYDƏR ƏLİYEV VƏ NEFT STRATEGİYASI

***Həsənova Ə.A.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Respublikası özünün zəngin təbii sərvətləri ilə məşhurdur. Bu sərvətlər içərisində neft əsas yer tutur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdriklik və uzaqgörənliklə, məqsədyönlü, ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı və çoxşaxəli iqtisadi siyasəti nəticəsində bu gün neft onun əsl sahibi olan Azərbaycan xalqına xidmət edərək ölkəmizin siyasi müstəqilliyinin, iqtisadi tərəqqisinin, insanlarımızın rifahının təmin edilməsinə yönəldilmişdir. Azərbaycan Respublikası 150 illik tarixi ərzində böyük inkişaf yolu keçmişdir. Lakin Azərbaycan xalqı yalnız XX əsrin sonlarında müstəqillik qazandıqdan sonra bu sərvətlərdən tam bəhrələnmək imkanı qazanmışdır. Bu imkanı reallığa çevirən isə Ulu öndərimiz Heydər Əliyev olmuşdur.

Bütün dünyada qədim neft ölkəsi kimi tanınmış Azərbaycanda neftin sənaye üsulu ilə hasilatı hələ XIX əsrin ortalarından başlanmışdır. Bakıda, Bibiheybət yatağında1848-cı ildə qazılmış quyudan vurmuş neft fontanı Azərbaycanda "qara qızılın" sənaye üsulu ilə

çıxarılmasının əsasını qoymuşdur. 1899-ci ildən başlayaraq Azərbaycan neft hasilatı və emalı üzrə dünyada birinci yerə çıxmışdır.

XIX əsrin 70-ci illərindən etibarən Azərbaycan neft sənayesinə artıq xarici kapitalın axını başlanmışdır. Neft sənayesinin inkişafı yerli sahibkarların böyük bir nəslini yetişdirmişdir. Bunlardan: Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev və başqalarını qeyd etmək lazımdır.

İkinci Dünya müharibəsi illərində SSRİ-də çıxarılan neftin 75 faizini verən Azərbaycan cəbhəni yanacaqla təmin edirdir. 1949-cu ildə açıq dənizdə, Bakı şəhərindən 100 kilometr rməsafədə Neft daşlarında vuran fontan dənizdə neft çıxarmanın yen mərhələsinin başlanğıcını qoymuşdur. Azərbaycan dünyada ilk dəfə olaraq açıq dənizdə neft çıxarmağa başlamışdır. XX əsrin 70-80-ci illəri Azərbaycan neft sənayesinin böyük nailiyyətləri ilə yadda qalmışdır. Həmin illərdə respublikamızın neft sənayesinin bütün uğurları Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin adı ilə bağlıdır. Məhz bu dövrdə neft sənayesi möhkəmlənmiş və onun geniş infrastrukturu yaranmışdır. Azərbaycanda dəniz yataqlarının işlənilməsi üçün xüsusi gəmilər, texnika və avadanlıq gətirilmişdir. Bununla yanaşı, neft emalı, neft-kimya sənayesinin və neft maşınqayırmasının inkişafında böyük sıçrayış olmuşdur.

70-ci illərin əvvəllərindən başlayaraq Xəzər dənizində planlı surətdə geoloji-kəşfiyyat işlərinin təşkili və həyata keçirilməsi də Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin bu illərdə respublikanın həyatının bütün sahələrində olduğu kimi, neft sənayesində də gördüyü işlər onun uzaqgörən planlarının - Azərbaycanı "Əsrin müqaviləsi"nə, xalqımızın müstəqilliyinə aparmaq niyyətlərinin əsasını təşkil edirdi.

Azərbaycan neftinə maraq göstərən xarici neft şirkətlərinin sayı artırdı. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında dəyişikliklərin başlanğıcını qoydu. Neft müqaviləsi üzrə müzakirələrə, danışıqlara başlandı, çətin danışıqlar prosesindən sonra Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtləri əldə edildi.1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında Qərbin neft şirkətləri ilə bağlanmış neft sazişi müstəqil Azərbaycan Respublikasının yeni tarixinin şanlı səhifəsini açdı. "Əsrin müqaviləsi" adlandırılan bu saziş müstəqil Azərbaycanın neft salnaməsinə əbədi həkk olundu.

"Əsrin müqaviləsi" adı ilə indi bütün dünyada tanınmış bu müqavilənin imzalanması müstəqil Azərbaycanın iqtisadi inkişafını təşkil edən və böyük siyasətçi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. "Əsrin müqaviləsi"ndən başlanan yolu haqqında Heydər Əliyev demişdir: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir".

Heydər Əliyevin iştirakı ilə Bakıda, həmçinin dünyanın ən böyük paytaxtları - Vaşinqton, Moskva, London, Parisin möhtəşəm saraylarında xarici ölkələrin neft şirkətləri ilə 21 neft sazişi imzalanmışdır. Heydər Əliyevin neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarına çıxarılmasıydı. Bu sahədə Azərbaycanın neftin

dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər həyata keçirilmiş, aparılan danışıqlar uğurla nəticələnmişdir. Heydər Əliyevin mütəmadi danışıqları nəticəsində Azərbaycan neftinin Türkiyəyə nəql olunması barədə mühüm hökumətlərarası sazişlər imzalanmışdır.

Heydər Əliyevin dərindən düşünülmüş neft strategiyası nəticəsində Azərbaycan Xəzər dənizinin enerji potensialını ilk mənimsəyən və regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında, İNOQEYT, TRASEKA və digər nəhəng layihələrin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan bir dövlətə, dünyanın neft mərkəzlərindən birinə çevrilmişdir.

## AZƏRBAYCAN VƏ İKİLİ STANDARTLAR SİYASƏTİNİN TƏNQİDİ

***Həşimov D.S.***
*AMEA, Fəlsəfə İnstitutu*

Müasir dövrdə ikili standartlar müəyyən bir hadisəyə dar, daha dəqiq desək, şəxsi maraqlar prizmasından yanaşmadır. Həmin yanaşmada müxtəlif prinsiplər, qaydalar fəaliyyət göstərir.

Qeyd etmək lazımdır ki, son zamanlar ikili standartlar beynəlxalq munasibətlərin sanki bir prinsipinə çevrilmişdir. Biz bunu bir sıra qüvvələrin Azərbaycana qarşı münasibətində də görürük.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünya siyasətində hökm sürən ikili standart prinsiplərinin təhlükəsizliyə, ümumi sabitliyə və inkişafa təhdid, münaqişələrin həll edilməsinə bir maneə kimi vurğulamışdır. Prezident dəfələrlə öz nitq və çıxışlarında qeyd etmişdir ki, ikili standartlar siyasətinin sonu yoxdur, o, ölkələri, cəmiyyəti, insanları uçurumlara, bədbəxtliklərə aparır. Avropa Şurası, eləcə də digər beynəlxalq əhəmiyyətli təşkilatlar da dövlətlərə öz milli maraqları aspektindən yanaşırlar. Əlbəttə ki, bu qəbuledilməz bir haldır. "Biz 15 ildir ki, Avropa Şurasında çalışırıq və orada da bizim mövqelərimiz gündən-günə möhkəmlənir. Biz hətta o təşkilatda da dönüş yarada bilmişik. Avropa Şurası Parlament Assambleyasındakı deputatların əksəriyyəti artıq görür ki, bizə qarşı ədalətsizliklər, ikili standartlar olub və bu gün vəziyyət tam normaldır. Ona görə əməkdaşlıqla bağlı bizim heç bir problemimiz yoxdur. Biz bu əməkdaşlığa meyilliyik.". Dövlət başçısı hər zaman Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ikili standartların yolverilməzliyini qeyd edib.

Akademik Ramiz Mehdiyev "İkili standartların dünya nizamı və müasir Azərbaycan" adlı konseptual məqaləsində ikili yanaşmaların fəlsəfi, siyasi, tarixi təhlilini verir. Akademik Mehdiyev Ramiz dünya miqyasında ABŞ-ın siyasətinə münasibətini bildirərək qeyd edir: "Amerika Administrasiyası onilliklər boyu siyasi realizmin, hələ bu məktəbin banisi Hans Morgentau tərəfindən ifadə edilmiş başlıca prinsiplərini pozur... Dünyada bütün ölkələrin ABŞ tərəfindən göstərilən qaydalar üzrə yaşayacağını gözləmək olmaz. Bu, apriori qeyri-mümkündür, çünki dünya özü eyni deyil, müxtəlifdir. Hətta eyni ailədə

doğulmuş və eyni tərbiyə almış uşaqlar da müxtəlifdir, nəinki Yer kürəsinin müxtəlif nöqtələrində yerləşən, tarixən formalaşmış sosial, iqtisadi, mənəvi və siyasi struktura, özlərinin milli mənafelərinə malik olan ölkələr. Müxtəlif dövlətlər arasında siyasi münasibətlərin məzmunu müxtəlif olduğu kimi, dünya da rəngarəngdir. Ağ Evin xarici siyasət strateqlərinin bunu başa düşməsinin vaxtıdır…ABŞ-ın və onun Qərbdəki müttəfiqlərinin xarici siyasət strategiyası öz hegemonluğunu nümayiş etdirərək hələ də bu və ya digər regional şəraitə uyğunlaşmaq istəmir. Belə hərəkətlər reallığa uyğun gəlmir, dünyanın müxtəlifliyi ilə ziddiyyət təşkil edir. ”

Göründüyü kimi, müasir dünyada ikili standartlar siyasəti vasitəsi bir sıra dövlətlərin siyasətinə çevrilmişdir. Bu isə dövlətlərarasında indiyədək bərqərar olmuş diplomatik, etik, beynəlxalq hüququn və digər qaydalarına uyğun gəlməyən fəaliyyətdir. Bu gün regionda bütün sahələrdə lider dövlətə çevrilən, dünya siyasətində və iqtisadiyyatında özünün mövqeyi və məqsədyönlü fəaliyyəti olan Azərbaycan Respublikası da təəssüf ki, bir çox hallarda ikili standartlar siyasətinin hədəfinə çevrilir.

## HEYDƏR ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ OLDUĞU DÖVRDƏ NAXÇIVAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ

**_Hüseynov X.A._**
_Naxçıvan Dövlət Universiteti_

Azərbaycan xalqı ikinci dəfə dövlət müstəqilliyini elan edərkən dövlətimizi ilk tanıyan və onunla diplomatik əlaqələr quran Türkiyə Cumhuriyyəti olmuşdur. Xüsusən tarixin ən çətin mərhələlərində Naxçıvana mənəvi, siyasi dayaq olmuş, onun doğma Azərbaycandan ayrılıb düşmən əlinə keçməsinin qarşısını alan, bölgənin muxtariyyətının beynəlxalq qarantı da məhz Türkiyə dövləti, türk xalqı olmuşdur.

Ölkəmiz müstəqillik əldə etdiyi dövrdə Naxçıvanda çox gərgin vəziyyət yaranmışdı. Qondarma Dağlıq Qarabağ problemi Naxçıvanın ictimai-siyasi, iqtisadi vəziyyətinə mənfi təsir göstərmişdi. Naxçıvanı Azərbaycanın digər əraziləri ilə birləşdirən dəmir yolunun Ermənistan ərazisindən keçən hissəsinin ermənilər tərəfindən bağlanılması, qaz, elektrik, kommunikasiya xətlərinin kəsilməsi bu vəziyyəti daha da ağırlaşdırmışdı.

Naxçıvanın üzləşdiyi ağır iqtisadi böhranın nəticələrini aradan qaldırmaq üçün böyük dövlət xadimi Heydər Əliyevin mühüm addımlar atmasına və yorulmaq bilmədən çalışmasına baxmayaraq muxtar respublikada vəziyyət mürəkkəb və gərgin olaraq qalırdı. Çünki yanacağı, ərzaq məhsullarının çox hissəsini, bəzi tikinti materiallarını Bakıdan alan Naxçıvan son dərəcə çətin bir vəziyyətdə qalmışdı. Ermənistan ərazisindən keçən dəmir yolunun işləməməsi nəticəsində həmin məhsulların Naxçıvana gətirilməsi qeyri-mümkün idi. Belə bir ağır vaxtda Bakı ilə əlaqə yalnız hava yolu vasitəsilə saxlanılırdı ki, hava yolu ilə də Naxçıvanın tələbatını ödəmək olmazdı. O zaman Naxçıvan MR Ali Məclisi vəziyyətdən çıxmaq üçün Naxçıvana gələn avtobusların, yük maşınlarının Xudafərindən İran ərazisinə keçib oradan Culfaya gəlmələri təklifi ilə çıxış etsə də, bu təklifin həyata keçirilməsi istər Azərbaycanda, istərsə də İranda bəzi qüvvələrin günahı, Naxçıvana ögey

münasibəti ucbatından mümkün olmadı. Belə bir zamanda Türkiyə dövləti ilə əlaqələrin yenidən qurulması üçün mühüm işlər görüldü.

Qeyd edək ki, bu əlaqələrin qurulması istiqamətində ilk addımlar hələ SSRİ-nin dağılması ərəfəsində atılmışdı. 1990-cı ildən başlayaraq Azərbaycanla Türkiyə arasında bir sra sahələr üzrə müqavilələr imzalanmışdı. Həmin ilin yanvarın 10-da Azərbaycan Respublikası ilə Türkiyə Cumhuriyyəti arasında sərhəd ticarətinə dair protokol, həmçinin iki ölkə arasında 1990-1992-ci illəri əhatə edərək mədəniyyət və elmi mübadilə proqramı haqqında sənəd imzalandı. Bu sənədlərlə Naxçıvan MR-nın qonşu ölkə ilə birbaşa əlaqələr qurması da öz əksini tapmışdır.

Türkiyə ilə Naxçıvanın yaxınlaşmasında Azərbaycan xalqının umummilli lideri Heydər Əliyevin xidmətləri əvəzsiz idi. Naxçıvan tədricən türk dünyasına qovuşurdu. Heydər Əliyev deyirdi: "Qədim türk diyarı Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir. Qarşılaşdıqları çətinliklərə dözə-dözə naxçıvanlılar Azərbaycanın bütövlüyü, müstəqilliyi uğrunda mübarizə aparırlar. Rusiyanın əsarətindən çıxdıqdan sonra Azərbaycan türk, islam aləminə yaxınlaşıb qovuşmalıdır. Bu mənada Naxçıvan türk islam dünyasına bir qapıdır".

Azərbaycanla Türkiyə Respublikası arasında 1991-ci il yanvarın 29-da Naxçıvanda əməkdaşlıq haqqında protokol imzalandı. Sazişdə sərhəd çayı Araz üzərində avtomobil və dəmir yolları tikmək, Sovet-Türkiyə sərhəddində buraxılış məntəqəsi açmaq nəzərdə tutulurdu.

1991-ci il iyunun 11-də Qars vilayətinin valisi Həsən Bəkir başda olmaqla Türkiyənin nümayəndə heyəti Sədərəyə gəldi. Nümayəndə heyətinin tərkibinə Türkiyə dəmir yolu idarəsinin rəisi Aslan Anadağ, şose yolları və körpü tikintisi idarəsinin rəisi İsmayıl Tuncər, Qars dəmir yolunun rəisi İsmayıl Yüksəl və yolun çəkilişinə məsul digər mütəxəssislər daxil idilər.

Azərbaycan Respublikası Nazirlər Kabinetində 1991-ci il iyulun 10-da keçirilmiş müşavirədə Azərbaycanla Türkiyə arasında iki tərəfli avtomobil yolu və dəmir yolu əlaqəsi ilə bağlı məsələlər müzakirə edildi. Müşavirədə Naxçıvan MR-in əlaqədar nazirlərinin, baş idarələrinin, partiya, sovet və təsərrüfat orqanlanmn rəhbərləri də iştirak etmişdir. Müşavirənin gedişində göstərilmişdir ki, sazişin imzalanmasından sonra müəyyən işlər görülmüşdür: Sədərək qəsəbəsindən Türkiyənin sərhəddinədək olan 6,7 km avtomobil yolunun 4 kilometri hazırlanmış, ona asfalt döşənməyə başlanmış, körpü salınması başa çatmaq üzrədir.

1991-ci il sentyabrın 30-da Naxçıvan MR Ali Məclisinin növbədənkənar sessiyasında Naxçıvanın blokadası və yaranmış vəziyyətdən çıxış yolları müzakirə edildi. Türkiyənin Qars vilayətinin nümayəndə heyəti ilə danışıqlar aparıldı və əməkdaşlıq haqqında protokol imzalandı. 1991-ci il oktyabrın 25-də Türkiyə Naxçıvana 1 milyard lirəlik ərzaq yardımı göndərmək qərarına gəldi.

Naxçıvan Muxtar Respublikasının Sədərək payonunda 1991-ci il oktyabrın 29-da Azərbaycan-Türkiyə arasında Araz çayı üzərində müvəqqəti körpünün açılışı oldu. Körpünün rəsmi aşılışı mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, Türkiyə hökumət dairələrinin nümayəndələri, Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri iştirak etmişdilər.

Müvəqqəti körpünün açılması ilə Türkiyənin Naxçıvana göndərdiyi humanitar yardımların həcmi artmağa başladı. 1991-ci ilin noyabrın 9-da Türkiyənin "Qızıl ay" cəmiyyətinin xətti ilə muxtar respublikaya 126 ton ərzaq gətirildi. Bununla əlaqədar Qars vilayəti valisinin vəkili İsmət Bahadırlar başda olmaqla nümayəndə heyəti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev tərəfindən qəbul edilmişdi. Noyabrın 29-da isə Türkiyənin İqdır şəhəri əhalisinin və valiliyin naxçıvanlı qardaşlarına göndərdikləri ərzaq məhsullarından ibarət 19 yük maşını muxtar respublikaya gətirilmişdir. Humanitar yardımı İqdır Bələdiyyə idarəsinin rəisi Əli Aqrı gətirmişdi.

1992-ci il yanvarın 8-də Naxçıvan MR Ali Məclisi muxtar respublikada iqtisadi və ictimai-siyasi vəziyyət haqqında məsələni Ali Məclisin sessiyasında müzakirəyə çıxardı və sessiyada təcili tədbirlərin həyata keçirilməsinin vacibliyi vurğulandı.

1992-ci ilin yanvarında Türkiyənin "Şahap qroup" daxili və xarici ticarət şirkəti idarə qurumunun başqanı Zəkan Savaşlar Naxçıvana gəldi. Ali Məclisin Sədri Heydər Əliyev türkiyəli qonağı qəbul etdi. Görüşdə "Şahap qroup" şirkətinin muxtar respublikanın bir neçə sənaye müəssisəsi ilə birgə istehsal fəaliyyəti, ticarət əlaqələrinin genişləndirilməsi məsələləri müzakirə edilərək, bir sıra razılaşmalar əldə olundu.

1992-ci il fevralın 6-da Ali Məclisin Sədri Heydər Əliyev Türkiyənin "Madcan" xarici ticarət şirkətinin prezidenti İbrahim Aydını qəbul etdi. Türkiyənin "Madcan" xarici ticarət şirkəti ilə bağlanmış müqaviləyə əsasən Naxçıvana Türkiyədən xeyli un və taxıl daxil olmuşdur.

Naxçıvan Muxtar Respublikasının xarici əlaqələrinin təşəkkül tapmasında Ali Məclisin Sədrinin 24 fevral 1992-ci il tarixdə verdiyi fərmanda yaradılan Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük komitəsi mühüm rol oynamağa başladı. O, Naxçıvanı blokadadan çıxarmaq üçün Naxçıvan - Türkiyə əlaqələrinin inkişafına xüsusi əhəmiyyət verirdi.

Ümummilli liderimiz Heydər Əliyev Türkiyə Respublikasının prezidenti Turqut Özalın və Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə 1992-ci il martın 22-dən 25-nə qədər Türkiyə Respublikasında rəsmi səfərdə olmuşdu. Görüşdə tərəflər Qarabağda vəziyyəti və münaqişənin aradan qaldırılmasının mümkün yollarını, Türkiyənin muxtar respublikaya texniki və iqtisadi yardımların artırılması məsələlərini müzakirə etdilər. Heydər Əliyevin martın 23-də Süleyman Dəmirəl ilə görüşündə muxtar respublikanın statusu məsələsindən də bəhs olunmuşdur. Martın 24-də Türkiyənin Baş naziri Süleyman Dəmirəl və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Ankarada 13 maddədən ibarət əməkdaşlıq haqqında protokol imzalamışdılar. Sənəddə Türkiyə və Naxçıvan arasında iqtisadiyyat, təhsil, nəqliyyat və rabitə sahəsində münasibətlərin inkişaf etdirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında 1992-ci il mayın 28-də açılmış "Sədərək-Dilucu" körpüsü mühüm mərhələ oldu. Həmin gün Azərbaycan tarixinə əlamətdar bir gün kimi daxil oldu. Körpünün rəsmi açılışında iştirak etmək üçün Türkiyənin Baş naziri Süleyman Dəmirəlin başçılığı ilə böyük nümayəndə heyəti Naxçıvana gəldi. Yeni körpünün uzunluğu 288 m, eni 12 m, ümumi smeta dəyəri 5 mln. manatdan çox idi. Körpünü Türkiyənin məşhur "Matsandış" Yol Tikinti Şirkəti Naxçıvan Təmir-Tikinti İdarəsi ilə

birlikdə inşa etmişdir. Bu körpü iki qardaş xalqın həsrətinə son qoymaqla yanaşı, iki respublika arasında iqtisadi, mədəni əlaqələrin genişlənməsi və inkişaf etməsi baxımından çox böyük əhəmiyyətə malik idi.

Körpünün açılışında Heydər Əliyev demişdir: "Bu körpü, həqiqətən, bizim ümüd və arzularımızın körpüsüdür. Bu körpü türk dünyasına pəncərə açmağa imkan verəcəkdir.

Süleyman Dəmirəl bu körpünün açılışını Azərbaycan və Türkiyə arasında əməkdaşlıqda yeni dövrün başlanğıcı adlandırmış və qeyd etmişdir ki, bu körpü təkcə Azərbaycanı və Türkiyəni birləşdirmir, bu Avropa və Asiya arasında körpüdür.

Naxçıvanlıların "Həsrət körpüsü", "Ümid körpüsü", türklərin "Könül körpüsü" adlandırdıqları bu körpünün tikilişindən təcavüzkar Ermənistan daha böyük narahatlıq keçirməyə başladı. Bu körpünün istifadəyə verilməsi Naxçıvanın həyatında yeni bir mərəhələnin başlanğıcı oldu. Həmin körpü ilə Türkiyədən Naxçıvana ərzaq malları, yanacaq və s. gətirilməyə başlandı. Kəskin ərzaq, yanacaq qıtlığının yaşandığı Naxçıvanda bu körpü sözün əsl mənasında "Ümid körpüsü" oldu.

Ümummilli liderimiz Heydər Əliyevin aparmış olduğu işlər sayəsində Naxçıvanın Türkiyə ilə əlaqələri həm hökumət səviyyəsində, həm də dost ölkənin muxtar respublikaya qonşu olan vilayətləri Qars, İqdır, Ağrı, Ərzurum ilə yaranmış iqtisadi və mədəni əlaqələr, Naxçıvanın çətin günündə həmin vilayətlərin icra strukturlarının və əhalinin muxtar respublikaya maddi və mənəvi köməyi, problemlərin həll edilməsində mühüm rol oynadı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1999-cu il oktyabrın 13-də Naxçıvanda Kazım Qarabəkir paşa məscidin təntənəli açılışında demişdir: "Biz bir millət, iki dövlətik". Bu, bizim dostluğumuzun, qardaşlığımızın mənasını, məzmununu təşkil edir. Bu dostluq, qardaşlıq türk xalqı, Anadolu türkləri ilə Azərbaycan xalqı, Azərbaycan türkləri arasında əsrlərdən əsrlərə gələn dostluq, qardaşlıqdır.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA GƏNCLƏR SİYASƏTİ

***Xaspoladova S.A.***
*Azərbaycan Dillər Universiteti*

Bəşər tarixində o kəslər əbədiyaşarlıq qazanırlar ki, onların nurlu ideyaları milyonlarla insanın yoluna işıq salır. Xalqını sevməyin, Vətəni qorumağın və yaşatmağın ən parlaq nümunəsi olan ümummilli liderimiz Heydər Əliyev də belə tarixi şəxsiyyətlərdəndir. Bütün həyatı millətin xoşbəxtliyinə, firavan gələcəyinə həsr edilmiş ulu öndərimizin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanı, sözün əsl mənasında, məhv olmaqdan qurtardı."Həyatının qalan hissəsini də xalqına bagışlayan"dahi insan özündən sonra da xalqının müstəqil, suveren Azərbaycanımızın parlaq gələcəyinə, nurlu sabahına inamı, özgüvəni təmin etdi.

Ulu öndər Heydər Əliyev gələcəyimiz olan gənc nəslin tərbiyəsini hər bir dövlətin, xalqın qarşısında duran ən önəmli vəzifələrdən olduğunu bütün varlığı ilə anlayan, dərk edən və hayatı boyunca onu gerçəkləşdirməyə səy edən dahidir, müdrik şəxsiyyətdir. Ümummilli liderimiz çıxışlarının birində bəyan edirdi:"Böyüməkdə olan nəslin... tərbiyəsi

mənəviyyatca zəngin, ideyaca mətn, yüksək əxlaqlı şəxsiyyətin formalaşdırılması bu gün cəmiyyətimiz qarşısında duran cox mühüm vəzifədir. Bu, kompleks problemdir və onun həllində... məktəb cox böyük rol oynayır. Məktəbdə insanın dünyagörüşünün bünövrəsi qoyulur... Məktəbin təsiri altında... adamın əqidəliyi, əməyə məhəbbət, yüksək mənəviyyat və humanizm, vətənpərvərlik və beynəlmiləlçilik kimi keyfiyyətləri tərbiyə edilir... Böyüməkdə olan nəslin cəmiyyətin rifahı naminə əməyə, yaradıcılıq fəaliyyətinə hazırlanması məktəbin tərbiyəvi işinin başlıca istiqamətlərindən biridir".

Ümummilli liderimiz ölkəyə rəhbərlik etdiyi ikinci dönəmdə - prezidentliyi dövründə təhsil sistemində köklü və kompleks islahatları məhz məktəbdən başladı.Onun tapşırıgı ilə Azərbaycan hökumətinin 26 aprel 1999-cu il tarixli qərarı ilə respublikamızda ümumi orta təhsilin dövlət standartı təsdiq edildi və bundan sonra görülən tədbirlərə uyğun olaraq, təhsil sistemində inkişafın, yeniləşmənin təməlini qoyuldu. "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" 30 mart 1998-ci tarixli Prezident sərəncamına uyğun olaraq, təhsilin bütün istiqamətlər üzrə inkişafını təmin edən islahatlar proqramı hazırlandı. Bundan bir qədər sonra - 1999-cu ilin 15 iyununda dövlət rəhbərinin müvafiq sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında təhsil sahəsində İslahatlar Proqramı" bu istiqamətdə kompleks yeniləşməyə və təhsil sahəsində təkamülə rəvac verən mükəmməl bir konsepsiyadır. Ölkə Prezidenti Heydər Əliyevin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" və "Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi tədbirləri haqqında" qəbul etdiyi tarixi qərarlar nəzərdə tutulan islahatların həyata keçirilməsi yolunda mühüm addımlar olmuşdur.

Ümumiyyətlə, dövlət rəhbərliyi səviyyəsində qəbul edilmiş qərarlar, müvafiq qanunvericilik aktları Azərbaycan Respublikasında təhsil sisteminin hərtərəfli inkişafını, o cümlədən maddi–texniki bazasının möhkəmlənməsini, müasir dünya standartlarına uyğunlaşdırılmasını nəzərdə tuturdu.

Müstəqil dövlətimizin gələcəyi olan bugünkü gənclik həm şərəfli, həm də çətin vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün mükəmməl biliklərə, hərtərəfli dünyagörüşə, sağlam mənəviyyata yiyələnməlidir. Xalqımızın dahi öndəri 1999-cu il martın 20-də kimsəsiz və şəhid ailələrindən olan uşaqlarla keçirdiyi görüşdə bununla bağlı gənclərin, eyni zamanda dövlətin, bütövlükdə cəmiyyətin qarşısında duran vəzifələrdən danışarkən demişdir: «Sizin qarşınızda təhsil almaq, həyatda öz yerinizi tutmaq üçün çalışmaq kimi böyük və çox məsuliyyətli yol durur. Sizin təhsilinizin daha da səmərəli olması üçün məktəblərdə, ali təhsil ocaqlarında tədrisin keyfiyyətini artırmaq üçün sizi- uşaqları, gəncləri gələcəyə hazırlayaraq müasir tələblər əsasında təhsil vermək üçün biz böyük tədbirlər görürük».

Bu gün Azərbaycan gəncliyinin qarşısında düran əsas vəzifələrdən biri də Ulu öndərimizin azərbaycançılıq ideyalarına dərindən yiyələnməkdən ibarətdir. Gənclər bunu da yaxşı bilməlidirlər ki, onun vətəndaşlıq borcu, ən önəmli və bütün həyatı boyu rəhbər tutacağı vəzifəsi ölkəsinin suverenliyini, müstəqilliyini qoruyub-saxlamaq, onun inkişafına, hətərəfli tərəqqisinə çalışmaq və sonda bu taleyüklü hədəfə nail olmaqdır. Ulu öndərimiz məhz bunları bizə tövsiyyə etmişdir.

Azərbaycanın böyüməkdə olan nəsli ümummilli liderimiz Heydər Əliyevin işıqlı ideallarına, xalqımızın milli-mənəvi dəyərlərinə sadiq qalaraq və bu gün də möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən yaradılan hərtərəfli şəraitdən, ali diqqət və qayğıdan yararlanaraq ona olan inamı, etimadı doğrultmağa borcludur. Əlbəttə, bu sahədə respublikamızın pedaqoji ictimayyətinin, fədakar pedaqoqlarımızın da üzərinə mühüm vəzifələr düşür.

## MÜSTƏQİL AZƏRBAYCANIN BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNƏ QATILMASINDA ULU ÖNDƏRİN ROLU

***İsayev Ə.İ.***
*Sumqayıt Dövlət Universiteti*

1993-cü il iyun ayının 15-dən siyasi hakimiyyətə gəldiyi gündən başlayaraq H.Əliyev siyasətin əsas məsələlərindən biri kimi dünyanın inkişaf etmiş dövlətləri və mötəbər beynəlxalq təşkilatlarla əməkdaşlıq etməyi bir vəzifə kimi qarşısına məqsəd qoydu.

Heydər Əliyev ölkəmizin gələcək xarici siyasətinin formalaşdırılması ilə əlaqədar qarşıda duran vəzifələr barədə məlumat verərkən demişdir: "Xarici siyasətimiz sülhsevərdir. Azərbaycanın daha geniş tanınmasına xidmət edir. Xarici siyasət ilk növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Əsas vəzifəmiz dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir".

Azərbaycanın beynəlxalq münasibətlər sisteminə qatılması əsas vəzifələrdən biri hesab olunurdu. Çünki bu münasibətlərin əsasını dövlətlərarası qarşılıqlı siyasi və diplomatik əlaqələr təşkil edirdi. Bununla yanaşı, beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələr qurmaq digər dövlətlərlə çoxşaxəli siyasi, iqtisadi, elmi-mədəni və humanitar əməkdaşlığın daha səmərəli həyata keçirilməsinə, ölkədə baş verən proseslər haqqında obyektiv beynəlxalq ictimai rəy formalaşdırılmasına əsaslı təsir göstərmək baxımından böyük əhəmiyyət kəsb edir. Məhz buna görə də dünya birliyinə tamhüquqlu üzv kimi daxil olmağa çalışan, müstəqilliyinin ilk illərindən Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycanın xarici siyasətində beynəlxalq münasibətlər sisteminə inteqrasiyası prioritet vəzifələrdən birini təşkil edirdi.

Ümummilli lider Heydər Əliyev Azərbaycanı dünya miqyasında tanıtmaq, ölkəmizin milli-mənəvi dəyərlərinin, mədəniyyətimizin, incəsənətimizin geniş miqyasda təbliği üçün beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməyi, mötəbər qurumlara üzv olmağı əsas vəzifə kimi qarşıya qoymuşdu. Ulu öndərin fəaliyyəti sayəsində bu əlaqələr getdikcə genişlənir və möhkəmlənirdi. BMT, ATƏT, NATO və 55 müsəlman dövlətini öz sıralarında birləşdirən İslam Konfransı Təşkilatı kimi qurumlarla əməkdaşlıq keyfiyyət etibarı ilə yeni mərhələyə qədəm qoymuşdu. Ümumiyyətlə, müstəqillik əldə etdikdən sonra Azərbaycan dövləti yaranmış münaqişənin sülh yolu ilə nizamlanması, bazar iqtisadiyyatı istiqamətində islahatların həyata keçirilməsi və dünyaya inteqrasiya prosesinə sıx cəlb

olunmaq üçün beynəlxalq təşkilatların rolundan yararlanmağa böyük üstünlük verirdi. Bu mənada BMT, ATƏT, İslam Konfransı Təşkilatı ilə yanaşı, Türk Dövlətləri Birliyi, Müstəqil Dövlətlər Birliyi, Beynəlxalq Valyuta Fondu, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Parlamentlərarası İttifaq, NATO və digər nüfuzlu təşkilatlarla qarşılıqlı faydalı əlaqələr yarandı.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" müstəqil Azərbaycan dövlətinin siyasi, iqtisadi və informasiya blokadası şəraitində olduğu bir vaxtda imzalandı. Bu da Heydər Əliyevin uzaqgörən siyasətinin, müdrikliyinin nəticəsi idi. Həmin dövrdə Azərbaycan haqqında dünyada bir o qədər də təsəvvür yox idi. Respublikamız haqqında yalnız mənfi rəy formalaşmışdı. Belə gərgin bir şəraitdə ulu öndər Heydər Əliyevin dünyanın inkişaf etmiş qüdrətli dövlətlərini təmsil edən 11 neft şirkəti ilə "Əsrin müqaviləsi"ni imzalamağa müvəffəq olması çox böyük siyasi hadisə idi. Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən bu müqavilə həm respublikanın daxilində ictimai - siyasi sabitliyin bərqərar olunması, həm də müstəqil dövlətimizin beynəlxalq aləmə inteqrasiya etməsində müstəsna rol oynadı. Heydər Əliyevin vurğuladığı kimi, "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan Xəzər dənizi və onun enerji ehtiyatlarını bütün dünyanın üzünə açdı və bu hadisənin ölkənin gələcəyi üçün nə dərəcədə əhəmiyyətli oldugunu tarixçilər hələ yazacaqlar.

Azərbaycanın beynəlxalq təşkilatlarla əlaqələri getdikcə genişlənmiş və möhkəmlənmişdir. 2001-ci il yanvarın 26-da Azərbaycan Respublikası Avropanın və bütövlükdə, dünyanın ən mötəbər təşkilatlarından biri olan Avropa Şurasına üzv qəbul edildi. Bununla da Azərbaycan dünyanın inkişaf etmiş aparıcı demokratik dövlətləri ailəsinin bərabərhüquqlu üzvü oldu. Bu, yalnız tarixi şəxsiyyət Heydər Əliyevin Azərbaycanda demokratiya və hüquqi dövlət quruculuğu və beynəlxalq münasibətlər sistemində ölkəmizin əlaqələrinin genişlənməsi istiqamətində atdığı addımların sayəsində mümkün oldu.

Məhz ulu öndərin müstəsna xidmətləri və Azərbaycana olan sonsuz məhəbbətinin nəticəsidir ki, hazırda ölkəmiz dünyada sivil, demokratik, qanunun hakim olduğu inkişaf etmiş bir dövlət, azad cəmiyyət kimi qəbul edilir. Ulu öndərin siyasi xəttinin möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi ölkəmizi dünyanın inkişaf etmiş dövlətləri sırasına çıxarmışdır. Azərbaycan tədricən dünyanın nüfuzlu təşkilatlarının tədbirlərinin keçirildiyi məkana çevrilir. Hazırda ölkəmiz kosmik ailənin üzvüdür. Beynəlxalq münasibətlər sistemindəki əməkdaşlığımız artıq yeni mərhələyə qədəm qoyub.

## XX ƏSRİN 90-cı İLLƏRİNDƏ AZƏRBAYCAN TÜRKİYƏ İQTİSADİ ƏLAQƏLƏRİ

***Karademir Hasan Sıddık***
*Bakı Slavyan Universiteti*

1993-cü ildə Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə ölkəmizin siyasi iqtisadi maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyevin

yenidən hakimiyyətə qayıdışı ikitərəfli əlaqələrdə yeni mərhələni açmış oldu və bu istiqamətdəki kursun yüksələn xətlə inkişafını təmin etdi.

Heydər Əliyevin 1993-cü ilin aprelin 19-dan 25-dək Türkiyə Respublikasına etdiyi səfəri iki ölkə arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində atılan növbəti uğurlu addımlardan biri kimi qiymətləndirmək olar. Səfər zamanı Türkiyə tərəfindən Naxçıvana ayrılmış kreditin 25 milyon dolları məbləğində hissəsinin istifadə olunması barədə qərar qəbul edilmişdir.

İqtisadi sahədə yalnız bir saziş 1993-cü il 9 mart tarixində boru xəttinin inşası barədə idi. İki ölkə arasında iqtisadi, ticarət və mədəni əlaqələrin səmərəliliyini artıqmaq məqsədi ilə 1994-cü ildə Bakıda Türk Sənaye və İş Adamları Beynəlxalq Cəmiyyəti adı ilə təşkilat qurulmuşdur. Təşkilatın əsas məqsədi, Azərbaycanda yeni iş yeri açmaq və buraya sərmaye qoymaq istəyən türk sənaye və iş adamları üçün müxtəlif imkanlar yaratmaq, fəaliyyəti dayanmış müəssisələrin rasional və optimal fəaliyyətini təmin etmək idi.

Ulu öndər özünün ilk rəsmi səfərini məhz Türkiyəyə etdi ki, bu da artıq hər şeydən xəbər verirdi. 1994-cu il fevralın 8-dən 11-ə dək davam edən bu rəsmi səfər ikitərəfli əlaqələrin, xüsusilə də iqtisadi əlaqələrin inkişafına yeni təkan verdi. Məhz Ankarada aparılan danışıqlardan sonra fevralın 9-da Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında: elmi, texniki, sosial, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq haqqında, ikiqat verginin aradan qaldırılması haqqında, investisiyaların qarşılqlı təşviqi və qorunması haqqında sazişlər, həmçinin iki ölkə arasında kənd təsərrüfatı sahəsində elmi, texniki və iqtisadi əməkdaşlıq haqqında, gömrük sənəd və icarələrinin qarşılıqlı tanınamsına dair, gömrük sahəsində əməkdaşlıq və qarşılqlı yardıma dair protokollar və digər mühüm sənədlər imzalanmışdır. Sazişdə iki ölkə arasında daha sıx iqtisadi əməkdaşlığı, xüsusi halda bir tərəfin ərazisinə qoyduğu sərmayəyə münasibətdə onu artıqmaq arzusu ilə bu investisiyaların tənzimlənməsi, bağlı rejim haqqında razılaşmanın sərmaye və texnologiya axınına və tərəflərin iqtisadi inkişafına şərait yaradacağını qəbul edərək, investisiya qoyuluşuna əlverişli şərait yaradılmasına kömək etmək haqqında fikirlər də öz əksini tapmışdır. Heydər Əliyev Türkiyənin bütün şirkətlərini Azəbaycana dəvət edərək onlar üçün hər cür şəraitin yaradılacağını bildirmişdir.

Azərbaycan tərəfinin elə həmin il təsdiq etdiyi bu sənədlər Türkiyə tərəfindən sırasıyla 1996-cı və 1997-ci illərdə təsdiq olunmuş və 1 yanvar 1998-ci il tarixdən qüvvəyə minmişdir.

Azəbaycan və Türkiyə respublikalarının enerji sisteminin əlaqələndirilməsi, Türkiyənin köməyi ilə Naxcıvan MR-in yanacaq və enerjiyə olan tələbatının tam ödəniliməsinin təmin edilməsi, respublikamızın neft-qaz yataqlarının istismarı və nəqli sahəsində əməkdaşlıq barəsində aparılan danışıqlar 1995-ci ilin avqustun 9-da Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyənin Energetika və təbii ehtiyatlar naziri B. Atasoyu qəbul edərkən söhbətin əsas mövzusu olmuşdur.

H.Əliyev qeyd etmişdir ki, aparılan danışıqların nəticəsi kimi energetika sahəsində Türkiyə Respublikası ilə imzalanması nəzərdə tutulan protokolun hazırda Ermənistan tərəfindən blokadada saxlanılan Naxcıvan Muxtar Respublikasının yanacağa və enerjiyə olan tələbatının ödənilməsinə müsbət təsirini görmək Azərbaycan tərəfinin arzusudur.

Respublikamızın neft-qaz yataqlarının istismarı və onların nəqli ilə bağlı məsələlərə toxunan Azərbaycan prezidenti bildirmişdir ki, Türkiyə ilə bu sahədə əməkdaşlıq xarici neft şirkətləri konsorsiumu ilə gedən danışıqlar cərcivəsində davam etdirilir.

1995-ci il dekabrın 7-9-da Türkiyə prezidenti S.Dəmirəlin Bakıya rəsmi səfəri zamanı iki ölkə arasında iqtisadi əməkdaşlıq haqqında memorandum imzalanmışdır. Rəsmi səfər zamanı Türkiyə-Azərbaycan ikitərəfli iqtisadi və ticarət əlaqələrini daha da genişləndirmək, qarşılıqlı sərmaye qoyuluşunu asanlaşdırmaq və artırmaq məqsədilə aşağıda göstərilənlər üzrə:

- Türkiyə və Azərbaycan arasında dövlətlər səviyyəsində yaradılması irəli sürülən İqtisadi Kommisiyanın çağırılması;
- İki ölkə arasında iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi məqsədilə Türkiyə iş adamlarının Azərbaycana vizasız ziyarət etmələri üçün Azərbaycan tərəfindən lazimi qeydiyyatların təcili həll edilməsi;
- Azərbaycan banklarında Türkiyə sərmayəçilərinin və ticarət şirkətlərinin problemlərini vaxt itirmədən həll etmək üçün Azərbaycan tərəfindən lazım olan bütün işlərin yerinə yetirilməsi və səmərəli tədbirləri görülməsi;
- Tərəflər Naxçıvan MR-nın Sədərək məntəqəsindəki dəmiryolu Türkiyəyə birləşdirilməsi üçün 1991-ci ilin martında imzalanmış müqaviləyə görə, inşaatına başlanmalı olan dəmir yolu körpüsünün tez bir zamanda tamamlanmasının və Türkiyə Dəmir yolları xətlərinin Azərbaycan ərazisindən Orta Asiya dəmiryol sisteminə birləşdirilməsi kimi vacib məsələlər müzakirə edilmişdir.

## MÜSTƏQİL AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ

***Kərimova S.Ə.***

*Sumqayıt Dövlət Universiteti*

1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Azərbaycan dövlətinin xarici siyasət kursunu böyük dövlətçilik təcrübəsi olan, dünyada baş verən siyasi hadisə və proseslərə dərindən bələd olan Heydər Əliyev işləyib hazırlaya bilərdi. Heydər Əliyevin qeyri-adi əzmkarlığı, iradəsi və zəkası sayəsində ölkənin daxilində baş verən vətəndaş müharibəsi və hakimiyyət çevrilişləri cəhdlərinin qarşısı alındı. Ölkənin daxilində davamlı sabitliyin və vətəndaş həmrəyliyinin əldə olunması kimi çətin və mürəkkəb vəzifələr də öz həllini tapmış oldu. Bütün bu hadisə və proseslərin düzgün istiqamətə yönəldilməsi Ermənistanın Azərbaycanın ərazisinə hərbi təcavüzü və təcavüzün qarşısının alınması fonunda baş verirdi. Həmin dövrdə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və işğalın nəticələrinin dünya ictimaiyyətinə çatdırılması və Azərbaycanın haqlı tələblərinin yerinə yetirilməsi ölkəmizin xarici siyasət kursunda əsas yerlərdən birini tutmuşdu.

Həmin dövrdə Heydər Əliyev beynəlxalq təşkilatların tribunalarından bacarıqla istifadə edərək, Ermənistanın Azərbaycana təcavüzünün nəticələri və ölkəmiz haqqında obyektiv məlumatları dünyaya çatdırmağa çalışırdı. Ulu öndər bütün xarici səfərlərində keçirdiyi görüşlər zamanı ölkəmizin tarixi, mədəniyyəti, təbii sərvətləri, geosiyasi mövqeyi haqqında ətraflı məlumatlar verməklə yanaşı əsas diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və həmin münaqişənin sülh yolu ilə tənzimlənməsi məsələlərinə yönəldirdi. BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, MDB, İƏT, ECO, QDİƏT, GUAM, NATO və başqa təşkilatlarla hərtərəfli münasibətlərin qurulmasına böyük diqqət yetirilirdi.

1993-cü ilin yayına qədər Azərbaycanın xarici siyasətində həqiqi yerini tutmamış başqa bir məsələ Türkiyə ilə münasibətlərin lazımi səviyyədə və məzmunda qurulmaması idi. Heydər Əliyev Türkiyəyə münasibətdə xarici siyasət kursunda ciddi dəyişikliklər etdi. Hazırda Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqidir. Eyni zamanda, qardaş ölkə bərabərhüquqlu iqtisadi tərəfdaşdır. Əminliklə demək olar ki, indi Azərbaycan-Türkiyə münasibətləri bölgədə və dünyada sülhün bərqərar olması, təhlükəsizliyin təmin edilməsi işinə öz töhfəsini verir.

Heydər Əliyev qonşu İranla mehriban qonşuluq prinsipləri əsasında ikitərəfli siyasi, iqtisadi, mədəni münasibətlər yaratmağa nail oldu. İki ölkə arasındakı əlaqələr qarşılıqlı faydalı əməkdaşlıq prinsipi üzrə inkişaf edir.

Azərbaycanın xarici siyasətində ABŞ, Avropa və Uzaq Şərq istiqamətləri xüsusi yer tutur. Amerika Birləşmiş Ştatları, Britaniya, Çin, Yaponiya, Fransa, Almaniya, İtaliya kimi iri dövlətlərlə münasibətlərin bərabərhüquqlu tərəfdaşlıq və qarşılıqlı hörmət əsasında qurulmasında ümummilli liderin müstəsna rolu olmuşdur.1993-cü ilin sonundan başlayaraq həmin aspektdə ardıcıl və intensiv iş aparılmışdır. Enerji sahəsində əməkdaşlığın sağlam təməllər üzərində qurulması Azərbaycan-ABŞ əlaqələrinə xüsusi təkan vermişdir. İki ölkə arasında münasibətlərin tənzimlənməsi ilə bağlı ayrıca sənəd imzalanıb.

Azərbaycanın xarici siyasətində Avropa istiqamətinin xüsusi yeri vardır. Avropa İttifaqına üzv olan böyük və nüfuzlu dövlətlərlə qarşılıqlı əməkdaşlıq daim inkişaf etdirilir. Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, Belçika, Yunanıstan, Polşa, Rumıniya və digər Avropa ölkələri ilə müxtəlif sahələrə aid sazişlər imzalanmışdır. Bu prosesin əsasını ulu öndər Heydər Əliyev qoymuşdur. Onun Avropa ölkələrinə hər bir səfəri zamanı çox mühüm sazişlər bağlanırdı. Heydər Əliyev hər bir sənəddə Azərbaycanın dövlət maraqlarının ciddi surətdə nəzərə alınmasına nail olurdu. Avropa İttifaqı ilə münasibətlərin sağlam təməl əsasında qurulmasının nəticəsidir ki, ölkə hazırda bu təşkilatın bir çox proqramlarında aktiv iştirak edir. Azərbaycan Avropa İttifaqının mühüm tərəfdaşı kimi qəbul olunur.

Heydər Əliyevin siyasətçi kimi uzaqgörənliyini keçən əsrin 90-cı illərində Uzaq Şərq ölkələri ilə sıx əlaqələr qurmaq üçün ciddi addımlar atması təsdiq edir. Ulu öndərin Çin Xalq Respublikasına etdiyi səfər bu aspektdə tarixi əhəmiyyət daşıyır. Həmçinin ümummilli lider Yaponiya ilə qarşılıqlı faydalı əməkdaşlığa böyük diqqət yetirirdi. Həmin dövrdə çoxlarının dərk edə bilmədiyi məqamları çox gözəl başa düşən Heydər Əliyev, bununla faktik olaraq, Azərbaycanın tarazlaşmış xarici siyasətinin özülünü

qoyurdu. Bu gün qlobal miqyasda cərəyan edən geosiyasi hadisələr ulu öndərin hər şeyi öncədən gördüyünü tam sübut edir.

Hazırda Azərbaycanın dünyanın 176 dövləti ilə diplomatik münasibətləri vardır. Ölkəmizdə 81 diplomatik nümayəndəlik və konsulluq fəaliyyət göstərir. Öz növbəsində Azərbaycanın 62 ölkədə səfirliyi, 5 baş konsulluğu və 10 daimi nümayəndəlikləri mövcuddur. Lakin bunlar son hədd deyil. Azərbaycan xarici dövlətlərlə diplomatik münasibətlərini genişləndirir, yeni səfirliklər açır. Heydər Əliyev ölkənin xarici siyasət kursunu son dərəcə çevik prinsiplər üzərində qurduğundan Azərbaycan diplomatiyası durmadan fəallığını artırır.

Bütün yuxarıda göstərilənlər önu deməyə əsas verir ki, bu gün Azərbaycanın xarici siyasət strategiyasının uğurla həyata keçirilməsi respublikamızın dünya miqyasında nüfuzunu xeyli artırmış, ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirmişdir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş xarici siyasət strategiyasının ölkə prezidenti İlham Əliyev tərəfindən uğurlu davamı müstəqil dövlətimizin dünya birliyində mövqelərinin yüksəlməsinə xidmət etməkdədir.

## AZƏRBAYCAN DÖVLƏTİNİN XARİCİ SİYASƏT KURSUNUN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Qasımov N.A.***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şamaxı filialı)*

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi əldə edən Azərbaycan qarşısında yeni müstəqil xarici siyasət kursunun formalaşdırılması və uğurla həyata keçirilməsi kimi mühüm məsələ dururdu.Bu xarici siyasət kursunun əsas prioritet istiqamətləri ölkənin ərazi bütövlüyünün bərpa edilməsi,hərbi təcavüzün aradan qaldırılması,milli təhlükəsizliyin təmin olunması, region və dünya dövlətləri ilə diplomatik əlaqələrin yüksək səviyyədə qurulması və inkişaf etdirilməsi, regionda və dünyada baş verən proseslərdə yaxından iştirak etmək, ölkənin haqq işini beynəlxalq təşkilatlarda müzakirəyə çıxartmaq, beynəlxalq qurumlara inteqrasiya etmək kimi məsələlər təşkil edirdi. Ümummilli Lider Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtmaqla nəinki vətəndaş müharibəsinin qarşısını aldı, eyni zamanda ölkənin xarici siyasət kursunda köklü və əməli dəyişikliklər etdi.Həyata keçirilən yeni xarici siyasət dünyanın aparıcı dövlətlərinin iqtisadi və siyasi maraqlar sisteminə daxil olan müstəqil Azərbaycan dövlətinə öz təhlükəsizliyi üçün etibarlı beynəlxalq təminat qazanmağa imkan verdi.

Uğurlu diplomatiyanın təntənəsi olaraq ölkəmiz nəinki beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxdı bununla bərabər Azərbaycanın erməni təcavüzünə məruz qalması, 20% torpaqlarımızın işğal olunması nəticəsində milyona yaxın soydaşımızın öz dədə-baba yurdlarından qaçqın düşməsi kimi həqiqətlər beynəlxalq aləmə qəbul etdirildi.Ölkəmizin müstəqillik yolunda uğurlu inkişafını təmin etmək üçün onu müharibə vəziyyətindən çıxarmaq lazım idi.1994-cü ilin may ayında Ermənistanla Azərbaycan Respublikası arasında atəşkəs əldə olundu.

Azərbaycan neftinin dünya bazarına çıxarılması ölkə üçün vacib məsələ idi.Bakıda 1994-cü ilin sentyabr ayında Azərbaycanla dünyanın müxtəlif neft şirkətləri arasında“ Əsrin müqaviləsi” adlanan neft kontraktı imzalandı.

Nəqliyyat əlaqələrinin yenidən qurulması ölkəmiz üçün həyati əhəmiyyətli idi . Ümummilli Lider uğurlu xarici siyasət həyata keçirməklə “Tarixi İpək yolunun” bərpası ideyası xəyallardan reallığa çevrildi. Müasir dövrün qlobal proqramı olan TRASEKA proqramının həyata keçirilməsi üzrə ən mühüm addım 1998-ci il sentyabrın 7-8-də Bakıda 9 ölkənin dövlət başçısı , 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndələrinin iştirakı ilə keçirilən konfransda “Avropa-Qfqaz-Asiya” nəqliyyat dəhlizinin inkişafı üzrə “Bakı bəyannaməsi” nin qəbul olunması oldu.

Ümummilli Lider Heydər Əliyev 1994-cü il mayın 4-də Brüsseldə,NATO-nun“Sülh naminə tərəfdaşlıq”proqramının çərçivə sənədini imzalamaqla xarici siyasətdə yeni prioriteti–Avroatlantik məkana inteqrasiya siyasətini müəyyənləşdirdi.Hər şeydən əvvəl işğala məruz qalan ölkəmizin ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə bu təşkilat öz töhvəsini verə bilərdi.Artıq növbəti illərdə belə mötəbər təşkilatın rəsmi sənədlərində Azərbaycan Respublikasının ərazi bütövlüyü öz təsdiqini tapır.

1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında imzalanmış”Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi” ticarət, sərmayə, qanunvericilik, iqtisadiyyat, mədəniyyət sahəsində əməkdaşlığı nəzərdə tutmaqla, ölkəmizin beynəlxalq sülhü və təhlükəsizliyi, insan hüquqlarını qorumaq və bu kimi digər sahələrdə səmərəli əməkdaşlığa nail olmaq üçün baza rolunu oynayır.Avropa Şurası Nazirlər Komitəsinin 2001-ci il yanvarın 17-də baş tutan iclasında ölkəmizin Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsi haqqında qərar qəbul olundu və bunun ardınca 25 yanvar 2001-ci ildə Strasburqda Avropa Şurasının binası önündə Azərbaycan Respublikasının dövlət bayrağı ucaldıldı.Bu beynəlxalq qurumun rəsmi sənədlərində ilk dəfə olaraq Dağlıq Qarabağın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması faktı öz əksini tapdı.

Ulu Öndər Heydər Əliyev xarici siyasətdə dünyanın hegemon dövləti olan Amerika Birləşmiş Ştatları ilə əməkdaşlığın inkişafına mühüm önəm verirdi.Onun 1997-ci il iyulun 31 tarixində etdiyi Vaşinqton səfəri iki ölkə arasında olan münasibətlərin inkişafına öz töhvəsini verdi.

Regionda siyasi sabitliyin bərqərar olması üçün yaxın qonşu dövlətlər olan Türkiyə,Rusiya,Gürcüstan,İran ilə münasibətlərin sıx əməkdaşlığa keçməsi üçün böyük işlər görülmüşdür.Gürcüstanla qarşılıqlı münasibətlərin yüksək səviyyədə qurulmasına xüsusi önəm verilirdi.Bu yalnız iqtisadi maraqlardan deyil,həmdə Gürcüstanda yaşayan yarım milyondan çox azərbaycanlının təhlükəsizliyinin təmin edilməsi məqsədi güdürdü. Bu məqsədlə 1996-cı ildə Qafqazda sülh və sabitlik haqqında Azərbaycan-Gürcüstan Bəyannaməsi imzalandı.

İran İslam Respublikası ilə münasibətləri normal məcraya yönəltmək də vacib məsələ idi.Burda əsas məqsəd sərhədlərimiz boyu mehriban qonşuluq zolağı yaratmaqla milli təhlükəsizliyimizi daha güclü təmin etmək idi.Təssüf ki, Ermənistanın işğalçılıq siyasətindən əl çəkməməsi bu siyasətin tam olaraq baş tutmasına imkan vermir.

Ümummilli Lider bütövlükdə türk dünyası ilə əlaqələrin təşəkkülü və inkişafı uğrunda sistemli fəaliyət göstərmişdir.Qardaş Türkiyə dövlətinə 1994-cü ilin fevralında 4 günlük səfəri zamanı dostluq və əməkdaşlıq, siyasi-iqtisadi münasibətlər sahəsində mühüm sənədlər imzalandı.

Xarici siyasət sahəsində aparılan işlərdən biri də başda Rusiya olmaqla MDB dövlətləri ilə münasibətləri yenidən qurmaq idi.Bu dövlətlərlə siyasi,iqtisadi,ticarət,mədəni sahədə əməkdaşlıq genişləndi.1993-cü il sentyabrın 6-da Heydər Əliyev Moskvada Rusiya prezidenti Boris Yeltsin və Rusiyanın başqa rəhbər şəxsləri ilə görüşüb iki ölkə arasında münasibətlərin yaxşılaşması məsələlərini müzakirə etdi, sentyabrın 24-də isə Azərbaycan MDB-yə daxil oldu.

Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün də möhtərəm prezident İlham Əliyev tərəfindən davam etdirilən xarici siyasət xətti ölkəmizin dünya birliyinə sıx inteqrasiya etməsinə, siyasi-iqtisadi yüksəlişinə xidmət edir.

## HEYDƏR ƏLİYEV QAFQAZDA SÜLH PROSESİNİN ALOVLU CARÇISIDIR

***Qasımova N.Z.***
*Sumqayıt Dövlət Universiteti*

Bəşər sivilizasiyasının ən qədim yaşayış məskənlərindən biri olan Qafqaz etnodemoqrafik, etnososial, etnodil və etnik baxımdan dünyanın ən unikal bölgələrindəndir. O, geosiyasi mövqeyinə görə də Şərqlə Qərb, Cənubla Şimal arasındakı mühüm strateji məkanda yerləşir. Müasir mərhələdə, yəni XXI əsrin başlanğıcında Qafqaz dünya siyasətində mühüm geostrateji mövqe tutmaqdadır. O, tarixən böyük imperiyaların, dövlətlərin maraq və mənafelərinin kəsişdiyi, toqquşduğu bölgələrdən biri olmuşdur. Zəmanəmizdə də Qafqaz regionu dünyanın aparıcı dövlətlərinin milli maraqlarının, dövlət mənafelərinin kəsişdiyi coğrafi məkanlar içərisində ən qabaqcıllardan sayılır. Çünki bu region Asiya ilə Avropanı mədəni və iqtisadi cəhətdən bir-birinə qovuşduran, inteqrasiyaya yardım edən körpü rolunu oynayır. Bu mənada Qərb və Şərq sivilizasiyalarının bir-birinə inteqrasiyasında, qoca Şərqin qədim və zəngin klassik mədəni irsinin Qərbin yeni, müasir texnologiyaları ilə daha da zənginləşməsində Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi müstəsna əhəmiyyətə malikdir. Digər tərəfdən Xəzər dənizindəki karbohidrogen ehtiyatlarının, Orta Asiya və Qazaxıstan xammalının, hazır məhsulların Qərbə nəqlində Qafqaz bölgəsi həlledici rol oynayır.

Bu da inkarolunmaz həqiqətdir ki, Qafqaz mürəkkəb etnik münaqişələrin çoxluğu və miqyası baxımından da unikal coğrafi məkanlardan biridir. Belə bir şəraitdə dünyanın ən qaynar nöqtələrindən birinə çevrilən Qafqazda sülh, təhlükəsizlik, sabitlik yaratmaq təkcə region ölkələri üçün deyil, bütövlükdə Asiya və Avropa ölkələri üçün də böyük əhəmiyyətə malikdir. Qafqazda sülhi və sabitliyi təmin etmədən Şərqlə Qərb, Cənubla Şimal arasında, həmçinin region ölkələrinin bir-biri ilə iqtisadi, siyasi və mədəni inteqrasiyasından söhbət belə gedə bilməz. Bütün bu tarixi, ictimai-siyasi, iqtisadi və mədəni amillər onu deməyə əsas verir ki, “Qafqazda sülh, bölgədə sülh!” modeli bu gün beynəlxalq aləmi düşündürən əsas amillərdən, dünyanı narahat edən qlobal problemlərdəndir.

Müasir dövrdə Qafqazda sülhün, əmin-amanlığın, siyasi sabitliyin, iqtisadi və mədəni inteqrasiyanın əsas təminatçısı və alovlu təbliğatçısı, "Qafqazda sülh!", "Ümumi Qafqaz evi" ideyasının və konsepsiyasının banisi, bu konsepsiyanı həyata keçirən əsas lider missiyasını Azərbaycan Respublikasının əbədiyaşar Prezidenti Heydər Əliyev yerinə yetirmişdir.

"Azərbaycanda, eləcə də bütün Qafqaz regionunda və bütün dünyada sülhün bərqərar olması bizim ən ümdə arzumuzdur", deyə öz xarici siyasət xəttini bütün dünyaya bəyan edən H.Əliyevin Qafqazda sülh ideyasının əsasında "Vətəndə sülh, bölgədə sülh, dünyada sülh!" konseptual modeli dururdu. Bu, tarixi həqiqətdir ki, H.Əliyev bütün Qafqaz bölgəsində sülhün yaradılması təşəbbüsü ilə çıxış etmiş, onun təklifi ilə imzalanmış "Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında" "Tbilisi Bəyannaməsi"ndə (1996-cı il), "Ümumi Qafqaz evi" ideyasını dəstəkləmiş ATƏT-in İstanbul zirvə görüşündə (1999-cu il), "Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq paktı"nın yaradılması təklifi ilə çıxış etmişdir. Öz növbəsində bu təklif bir çox region dövlətləri tərəfindən müdafiə olunmuşdur. "Ümumi Qafqaz evi" ideyasının əsas məzmunu regionun bütün dövlətləri arasında bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin, tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin yaradılmasından, insan hüquq və azadlıqlarına, dini və etnik mənsubiyyətindən asılı olmayaraq, milli azlıqlara hörmət əsasında münasibətlərin qurulması etnik-dini dözümlülüyün hər an gözlənilməsindən ibarətdir. Bütün bu geniş və perspektivli fəaliyyətinə görə də Qafqaz xalqları Heydər Əliyevi "Ümumqafqaz evinin ağsaqqalı" adlandırmışlar.

Qafqaz regionunda əsaslı iqtisadi islahatların aparılması, xarici sərmayələrin cəlb edilməsi, ən başlıcası isə Azərbaycanla yanaşı, bütün bölgələrin sivilizasiyalı, beynəlxalq birliyə iqtisadi inteqrasiyasının dərinləşməsi istiqamətində H.Əliyevin xidmətləri misilsizdir. 1994-cü il sentyabrın 20-də H.Əliyevin bilavasitə təşəbbüsü ilə Azərbaycanın paytaxtında ilk neft müqaviləsinin imzalanması, ölkənin neft sahəsinə fəal surətdə xarici sərmayələrin cəlb edilməsi ilə yanaşı, həm də Cənubi Qafqaz regionuna maraq oyada biləcək güclü bir stimula çevrildi. Bu hadisə Qafqaz və bütün Xəzəryanı regionda siyasi-coğrafi vəziyyəti kökündən dəyişərək beynəlxalq aləmdə Azərbaycan iqtisadiyyatının inkişafı, qeyri-neft sahələrinin canlanması, yerli sahibkarların yaranması ilə yanaşı, Qafqazda iqtisadi inteqrasiyanın da dərinləşməsinə güclü təkan verdi.

Heydər Əliyevin çoxsaylı fəaliyyət sahələrindən biri də qloballaşan dünyada Azərbaycanın mövqeyini müəyyənləşdirmək istiqamətində gördüyü işlərdir. "Əsrin müqaviləsi" kimi nəhəng layihə ilə yanaşı, Qafqazda iqtisadi inteqrasiyanın təmin edilməsi istiqamətində Böyük İpək Yolu üzərində yerləşən digər ölkələrin iqtisadi əməkdaşlığında yeni səhifə açılmış oldu. Bu böyük layihənin reallaşmasında isə əsas təşəbbüskarlardan biri Heydər Əliyev olmuşdur. O, bu amili regional təhlükəsizlik və sabitliyin əsas elementlərindən birinə çevirməyə nail oldu. Çünki o, Azərbaycan və Qafqazla bağlı bütün qlobal layihələrin Qafqazda, xüsusilə də Cənubi Qafqaz regionunda sülhə və regional təhlükəsizliyə istiqamətləndirilməsini təmin etmişdir.

Heydər Əliyev tolerantlıq, dünyəvilik istiqamətində milliliyi Qafqazda sülhü qoruyub saxlamaq üçün başlıca amil hesab edərək öz çıxışlarında belə deyirdi: "Biz zor işlədilməsinə

əsaslanan düşmənçilik dünyasından əməkdaşlıq və tərəqqi dövrünə aparan tunelin sonunda işıq görürük və bu yolla birgə, dünyanın bütün xalq və ölkələri ilə əl-ələ verib getməyə hazırıq".

Bu gün Azərbaycan iqtisadi inkişafın artım sürətinə görə Qafqazda liderdir. Azərbaycanın uğurları nəinki Qafqaz regionunda, eləcə də bütövlükdə Avropada sivil, demokratik cəmiyyət quruculuğunun əsl nümunəsi hesab edilir. Azərbaycanla hesablaşırlar, ona sülhsevər dövlət kimi baxırlar. Bütün bunlar Qafqazda sülh üçün möhkəm zəmin yaradır. Bunların təməli isə ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Heydər Əliyev sülhü, ədaləti, cəmiyyətdə barışığı tərəqqinin başlıca amillərindən hesab edirdi. İllər, onilliklər keçəcək, onun Qafqazda sülhün bərqərar olunması istiqamətində müəyyən etdiyi vəzifələr tam həyata keçiriləcəkdir. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması isə nəinki Qafqazda, eləcə də bütün dünyada ədalətin qələbə çalması kimi qiymətləndiriləcəkdir.

## HEYDƏR ƏLİYEV SİYASƏTİNDƏ İNSAN HÜQUQ VƏ AZADLIQLARI

***Qasımova T.M.***

*AMEA, Fəlsəfə İnstitutu*

İnsan hüquqları ideyası öz kökü etibarilə qədimlərə, antik dövrlərə gedib çıxsa da, bu ideyanın müasir fəlsəfi əsasları XVII-XVIII əsrlərdə böyük marariflçilik dövründə "təbii hüquq" nəzəriyyəsi kimi formalaşmışdır. Azərbaycan Respublikası 1991-ci il oktyabr ayının 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"yə və hamılıqla qəbul edilmiş başqa beynəlxalq hüquq sənədlərinə qoşulduğunu bəyan etmiş, onlarda nəzərdə tutulan bütün hüquq və azadlıqlara vətəndaşların cinsindən, irqindən və milli mənsubiyyətindən, dini etiqadından, sosial mənşəyindən, siyasi əqidəsindən və başqa hallardan asılı olmayaraq əməl edilməsini, bu hüquq və azadlıqların maneəsiz həyata keçirilməsinin təmin olunmasını öz öhdəsinə götürmüşdür.

1993-cü ildən etibarən götürülən siyasi xəttin əsas üstün cəhətlərindən olan demokratik, hüquqi dövlət quruculuğu yönümündə ardıcıl, məqsədyönlü tədbirlərin həyata keçirilməsi ölkəmizdə demokratiyanın, insan hüquq və azadlıqlarının fundamental prinsiplərinin qərar tutmasına zəmin yaratmışdır. 1995-ci ildə ölkənin bəşəri demokratik dəyərləri özündə əks etdirən Konstitusiyasının qəbul edilməsi, çoxpartiyalılıq əsasında demokratik parlament seçkilərinin keçirilməsi, ölkə tarixində ilk dəfə olaraq Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması, bir sıra digər mühüm qanunların qəbulu və əməli tədbirlərin həyata keçirilməsi Azərbaycanın demokratik dövlət quruculuğu yolunda atdığı önəmli addımlardandır.

İnsan hüquq və azadlıqlarının qorunması, humanizm, sosial ədalət prinsiplərinin möhkəmlənməsi həmişə Heydər Əliyev siyasətinin, hakimiyyətinin mahiyyətini təşkil edən dəyərlər kimi qəbul edilib, qavranılıb. Həyata keçirilmiş genişmiqyaslı hüquq islahatları, məhkəmə orqanları sisteminin təkmilləşdirilməsi həmin prinsiplərin hüquqi bazasını

yaratmışdır. Buna görə də 1993-cü ildən sonrakı dövrü ölkəmizdə insan hüquq və azadlıqlarının inkişafı tarixində dönüş mərhələsi kimi səciyyələndirməliyik.

Heydər Əliyevin təşəbbüsü və qətiyyətli addımı ilə ilk dəfə olaraq Şərqdə - Azərbaycanda ölüm cəzasının ləğv edilməsi ümummilli liderin insan hüquq və azadlıqlarına hörmət və ehtiramının parlaq təzahürü, həmçinin həyata keçirdiyi dövlət siyasətinin məntiqi nəticəsidir. İnsan hüquq və azadlıqlarının qorunması sahəsində həyata keçirilən tədbirlərin təməlində insana qayğı, insan ləyaqətinə hörmət dayanır. Heydər Əliyev ölkəmizin inkişafını bu yüksək ideyalar əsasında strateji yol kimi müəyyən etmişdir. Hər bir insanın həyatında və cəmiyyətdə insan hüquqlarının reallığa çevrilməsi amalı ilə yaşayan Azərbaycan dövləti insan hüquqları və azadlıqları sahəsində 125 beynəlxalq konvensiya və sazişə qoşulmuşdur. Azərbaycan Respublikası Prezidentinin “İnsan hüquq və azadlıqlarının təmin edilməsi” haqqında 1998-ci il 22 fevral tarixli Fərmanı ölkəmizin dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə və demokratiyanın inkişaf etdirilməsinə daha geniş imkanlar yaratmış, insan hüquqları sahəsində görüləcək işlərin istiqamətini və konsepsiyasını müəyyən edərək, onu dövlət siyasəti səviyyəsinə qaldırmışdır.

Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində 2001-ci ilin yanvarında Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmuşdur. Bununla da ölkəmizdə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi kimi bəşəri dəyərlərə dönmədən əməl olunması özünün layiqli qiymətini almışdır. Respublikamıza cinayət hüququ siyasətinin humanistləşdirilməsi sahəsində də bir sıra tədbirlər həyata keçirilmiş, 1995-ci ilin mayında əfvetmə institutu bərpa edilmiş, bir neçə amnistiya aktı qəbul olunmuşdur. Heydər Əliyev Azərbaycana demokratiya və demokratik seçkilər, bəşəri dəyərlər gətirmişdir. Onun bu istiqamətdə həyata keçirdiyi siyasət ölkənin hər bir vətəndaşının azad yaşamaq hüququnu təmin etmiş, hər kəsə öz rifahını yaxşılaşdırmaq imkanı yaratmışdır. Heydər Əliyev eyni zamanda gələcəyə aparan yolları da müəyyənləşdirmişdir. İnsan hüquqları və azadlıqlarının təsbit olunması, təmin edilməsi və həyata keçirilməsi üçün şərait və hüquqi mexanizm yaradılması ilə əlaqədar məsələlər ilk növbədə Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapır. Bu gün Azərbaycan Respublikasında insan hüquqları və azadlıqları hüquqi cəhətdən həm konstitusiya, həm də qanunvericilik aktları səviyyəsində təmin olunur. Azərbaycan Respublikasının Konstitusiyası beynəlxalq hüquq normalarında nəzərdə tutulanlardan daha çox insan hüquqları və azadlıqlarına təminat verir. İnsan hüquq və azadlıqlarının müdafiəsinin konstitusiya ilə nəzərdə tutulmuş digər mühüm vasitəsi insan hüquqları üzrə müvəkkildir. İnsan hüquqları üzrə müvəkkilin yeganə və əsas funksiyası Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquq və azadlıqlarının bərpa edilməsidir. Məhz bu Ombudsman İnstitutunun yaradıcısı və təminatçısı ümummilli lider Heydər Əliyev olmuşdur.

Bu gün də əminliklə qeyd etmək olar ki, aparılan dövlət siyasətinin əsasında insana hörmət, insan ləyaqətini qorumaq və müdafiə etmək dayanır. Bu Heydər Əliyev irsinin zənginliyinin bariz nümunəsidir.

# SOSİAL TƏRƏQQİ VƏ XARİCİ SİYASƏTDƏ UĞURLAR

***Mədədzadə K.M.***
*Sumqayıt Dövlət Universiteti*

Ümummilli Lider Heydər Əliyev cənablarının müdrik və uzaqgörən xarici siyasət xətti nəticəsində ölkəmiz və dünyanın inkişaf etmiş ölkələri arasında bərabərhüquqlu dostluq əməkdaşlıq münasibətləri yaranmışdır. Onun yüksək səviyyədə keçirdiyi görüşlər nəticəsində "Azərbaycanın xarici siyasətində mühüm addımlar atıldı və qardaş Türkiyə dövləti ilə hər tərəfli əməkdaşlıq  müstəqil Azərbaycanın xarici siyasətində əsas yer tutmuşdur.

Ümumiyyətlə, ümummilli lider H.Əliyev cənablarının 1994-ci ilin sentyabrında BMT-nin 49–cu və 2000-ci ildəki sessiyalarında tribunadan Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırmışdır.

1996-cı ilin dekabrında keçirilən ATƏT–in Lissabon sammitinin nəticələri Azərbaycan diplomatiyasının mühüm nailiyyəti olmuşdur. Həmin sammitdəki çıxışında Heydər Əliyev cənabları demişdir ki, Dağlıq Qarabağın müstəqilliyi barədə qanunsuz iddalar beynəlxalq hüququn hamı tərəfindən bəyənilmiş normaları ilə bir araya sığmır. Biz həmin iddialarla heç vaxt razılaşmayacağıq. Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik.

Qafqazda təhlükəsizlik və əməkdaşlıq faktının yaradılmasına aid təklifləri Cənubi Qafqazda  sülhün əmin-amanlığın bərqərar olmasına səbəb oldu.

Bu çıxışdan sonra ATƏT-in üzvü olan 54 ölkənin 53-ü Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul edilmiş Bəyanatda Azərbaycanın ərazi bütövlyünü dəstəkləmişdir. Ölkəmizin beynəlxalq münasibətlərin güclənməsində ATƏT-in 1999-cu ilin noyabrında İstanbulda keçirilmiş növbəti zirvə görüşünün mühüm rolu olmuşdur. Azərbaycan bir daha dünyada sülhün, təhlükəsizliyin tərəfdarı olduğunu göstərdi, çünki belə olmasaydı, "Əsrin müqaviləsi" olan neft müqavilələri də olmazdı, bu gün Bakı–Tbilisi–Ceyhan da olmazdı. İstanbulda keçirilən sammitdə Bakı–Ceyhan əsas ixrac neft kəməri haqqında sazişin imzalanması ölkəmizin gələcəyi üçün böyük əhəmiyyətə malik oldu. Bütün bunlar regionumuzun dünya bazarına çıxması, öz iqtisadi mövqelərini getdikcə möhkəmləndirməsi, xalqımızın firavan yaşaması üçün zəmin yaratdı. "Əsrin müqaviləsinə" əsasən XX yüzilliyin sonu üçün 14 ölkənin 30 neft şirkəti ilə 57 milyard sərmayə qoyuluşu nəzərdə tutulan 20 neft müqaviləsi imzalandı.

1998-ci ildə sentyabrın 8-də Bakıda İpək yolunun bərpası üzrə beynəlxalq konfrans keçirildi. "Avropa–Qafqaz–Asiya" dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli saziş və bəyannamə imzalandı. Bu konfransda yaradılan beynəlxalq təşkilatın mənzil qərargahı Bakıda yerləşdirildi. Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Qars dəmiryolu, Bakı-Tbilisi–Ərzurum qaz kəməri Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına səbəb oldu. 2017-ci ilin sentyabrında neft müqavilələrinin 2050–ci ilədək uzadılması ölkəmizin gələcək inkişafı üçün ən mühüm səbəb oldu.

Azərbaycanın TASİS və TRASEKA proqramları çərçivəsində Avropa İqtisadi Komissiyası ilə əməkdaşlığı nəticəsində respublikamızın nəqliyyat kommunikasiyalarından

istifadə edilməklə, Avropa–Asiya istiqamətində tranzit yüklərinin daşınmasının həcmi 100 dəfələrlə artırıldı.

Bütün bunlar dünya iqtisadiyyatının inkişafı üçün böyük imkanlar yaratdı. Heydər Əliyev cənablarının irimiqyaslı xarici siyasəti nəticəsində tarixi Böyük İpək Yolunun bərpası işinə başlandı.

Torpaqlarımızdan keçən tarixi İpək Yolunun bərpası Türkiyənin və Cənubi Qafqaz regionunun əhəmiyyətini daha da artırmışdır.

Azərbayca Prezidenti İlham Əliyev cənablarının rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlar bütün sahələrdə nəticələrin əlaqə olunmasına şərait yaratmış, respublikada makroiqtisadi sabitliyə, dinamik iqtisadiartıma nail olunmuş, sosial rifahının yüksəldilməsində ciddi uğurlar qazanılmışdır.

Siyasətdə neft amilindən istifadə olunması ölkəmizin neft strategiyasının tərkib hissəsidir. Bu siyasətin uğurlu keçirilməsi dövlətimizin həmin şirkətlərin mənsub olduqları ölkələrlə siyasi və mədəni əməkdaşlığını qiymətləndirməklə yanaşı, onlarda Azərbaycan dövlətinin siyasi və iqtisadi xəttinə olan etimadı artırır. Neft amili Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə kömək edir. Ümummilli liderimiz Heydər Əliyev cənablarının müdrik uzaqgörən iqtisadi siyasi kursunun davamcısı hörmətli Prezidentimiz İlham Əliyev Cənablarının iqtisadiyyatın neftdən asılılığının aradan qaldırılması məqsədilə qeyri-neft sektorunun inkişafı üzrə regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları və 2016–cı ilin 16 dekabrında "Strateji Yol Xəritəsi" sənədlərini təsdiq etmişdir. Ümumiyyətlə, bu gün dövlətimiz aparılan uğurlu siyasət nəticəsində öz sözünü mötəbər kürsülərdən deməyə qadir olan bir dövlət çevrilmişdir.

Azərbaycanda qlobal böhran şəraitində mühüm dövlət proqramlarının icrasının davam etdirilməsi ölkəmizdə aparılan uğurlu siyasətdən xəbər verir. Bütün bunlar deməyə əsas verir ki, dövlət başçısı İlham Əliyev cənabları uğurla yürütdüyü iqtisadi siyasət qarşıdakı illərdə də müsbət nəticələrini verəcək, respublikamız qısa zamanda inkişaf etmiş ölkələrin səviyyəsinə yüksələcəkdir.

## AZƏRBAYCAN RESPUBLİKASININ AVROPA ŞURASI İLƏ MÜNASİBƏTLƏRİ

***Məhərrəmova S.S.***
*Sumqayıt Dövlət Universiteti*

Qloballaşan dünyada Azərbaycan Respublikasının xarici siyasət prioritetlərindən biri də beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsidir. Belə təşkilatlardan biri də Avropa Şurasıdır. Hökumətlərarası və parlamentlərarası siyasi təşkilat olan Avropa Şurasına respublikamız hələ 1992-ci ildə qonaq statusu almaq üçün müraciət etsə də, bu məsələ öz müsbət həllini tapmamışdır. AŞ-nın xüsusi qonaq statusunu almaq üçün bir tərəfdən hüquqi dövlət və demokratiya prinsiplərinə riayət etmək lazım idisə, digər tərəfdən həmin dövrdə Avropa Şurası Cənubi Qafqaz regionuna qədər genişlənməyə hazır deyildi. Üstəlik bu təşkilatın respublikamıza qarşı münasibəti də birmənalı deyildir. 1992-ci ildə Avropa Şurasının qeyri-üzv ölkələr üzrə komitəsi Ermənistan-Azərbaycan, Dağlıq

Qarabağ münaqişəsi ilə bağlı respublikamızın əleyhinə bəyannamə qəbul etmişdir. Azərbaycanın Avropada və dünyada düzgün, obyektiv imicinin formalaşdırılması üçün Avropa Şurasına üzv qəbul olmaq olduqca vacib idi və bir milyondan çox azərbaycanlı qaçqının hüquqlarını pozan Ermənistanın təcavüzkar simasının ortaya çıxarılması üçün onun tribunası əvəzolunmaz idi.

Azərbaycanda aparılan demokratik, hüquqi islahatların, eləcə də insan haqlarının qorunması sahəsində qanunların beynəlxalq standartlara çatdırılmasının nəticəsi kimi, Avropa Şurası 1989-cu ildən təsis edilmiş "xüsusi dəvət olunmuş qonaq" statusunu 1996-ci il iyun ayından etibarən Azərbaycana da şamil etdi.

Bu əməkdaşlığın inkişaf etdirilməsində Azərbaycan Prezidenti Heydər Əliyevin 1998-ci il yanvarın 20-də imzaladığı "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında" Sərəncam böyük rol oynamışdır. Elə həmin ildə Azərbaycan Şərq aləmində ölüm hökmünü ləğv edən ilk ölkə idi.

Prezident Heydər Əliyev 1998-ci il martın 18-də Avropa Şurasının Parlament Assambleyasında "Demokratlar və islahatlar qrupu" liberal fraksiyası sədrinin müavini Ulrix İrmeri qəbul edərkən Azərbaycanda həyata keçirilən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğundan, bütün işlərin Qərbi Avropa standartlarına uyğun qurulduğunu, bunun Azərbaycanla AŞ arasındakı əlaqələri daha da möhkəmləndirəcəyini bildirmişdi.

1999-cu il mayın 14-də Prezident Heydər Əliyev "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında" sərəncam imzalamışdır. Sərəncamda Avropa ölkələrində hamılıqla qəbul olunmuş standartlara və normalara uyğunluq baxımından Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual, Mülki və Mülki-Prosessual Məcəllələrinin qəbulunun sürətləndirilməsi, Azərbaycan Respublikasının Avropa Şurasının bir sıra konvensiya və sazişlərinə qoşulması məsələsinin öyrənilməsi tövsiyə edilmişdir. Tövsiyələrə əsasən çox qısa zamanda hüquq-mühafizə orqanları ilə bağlı qanunların demək olar ki, hamısı Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmişdir.

2000-ci il iyunun 26-30-da AŞ Parlament Assambleyasının iclasında Azərbaycanın quruma tamhüquqlu üzv olması üçün, həyata keçirilən öhdəliklərin və demokratik islahatların vəziyyəti müzakirə edilmişdi.

AŞ PA Strasburqda keçirilən 28 iyun 2000-ci il tarixli iclasında Avropada sülhün, əmin-amanlığın, demokratiyanın inkişafında görkəmli rol oynayan Azərbaycanın AŞ ilə əməkdaşlığı yüksək qiymətləndirilmiş və onun tam hüquqlu üzvü olması qəbul edilmişdir. Beləliklə, uzun sürən gərgin diplomatik fəaliyyətin və həyata heçirilən hüquqi demokratikləşmə prosesinin məntiqi nəticəsi kimi, 17 yanvar 2001-ci il tarixində Azərbaycan Avropa Şurasına daxil oldu. Bundan sonra İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan daimi nümayəndə heyəti AŞPA-nın sesiyalarında iştirak etməyə başladı. Azərbaycan AŞPA-ya üzv qəbul olunduqdan sonra 2001-ci il aprel sesiyasında "Ermənistan tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilən soyqırımın tanınması", "Ermənistan və Dağlıq Qarabağda saxlanan müharibə əsirləri və girovları" adlı rəsmi sənədlər, eləcə də

2001-ci il sentyabr sesiyasında yuxarıdakı sənədlərə “Dağlıq Qarabağda zəbt olunan ərazilərdə mədəniyyət abidələrinin məhv edilməsi” və “Dağlıq Qarabağda ekoloji vəziyyət haqqında” adlı iki rəsmi sənəd qəbul edildi, 2004-cü il oktyabrında AŞ PA-da qəbul olunan 1398 saylı qətnamədə Ermənistan işğalçı dövlət adlandırıldı və 2005-ci il 25 yanvarında 1416 saylı qətnamədə Ermənistanın işğalçı olduğu bir daha qeyd edildi.

Hazırda Avropa Şurasının əsas məqsədlərindən biri mədəni əməkdaşlığın gücləndirilməsi, Avropada baş verən böyük ictimai problemlərin (korrupsiya, irqi ayrı-seçkilik kimi problemlərin - S.M.) həllini axtarmaqdır. Azərbaycan Avropa Şurasına bir məqsəd kimi deyil, Avropa dəyərlərindən bəhrələnmək istiqamətində bir vasitə kimi baxır. Ümummilli lider Heydər Əliyevin sözləri ilə desək, “Biz Ümumavropa dəyərləri xəzinəsinə öz töhfəmizi gətirməyə hazırıq. Bu töhfələr həm Avropada demokratik sabitliyin möhkəmlənməsinə, həm də avropalıların Şərq xalqlarının tarixi taleyini daha yaxşı və dərindən dərk etməsinə kömək edəcəkdir”. Prezident İlham Əliyev 29 aprel 2004-cü ildə AŞ PA-nın yaz sesiyasındakı nitqində: “Əlimizdən gələni edəcəyik ki, Azərbaycan Avropaya xas olan bütün standartlara, bütün ölçülərə cavab versin” - demişdi.

## AZƏRBAYCAN MÜSTƏQİLLİYİNİ ƏLDƏ ETDİKDƏN SONRAKI İLK İLLƏRDƏ İCTİMAİ - SİYASİ VƏZİYYƏT VƏ HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK UĞRUNDA MÜBARİZƏSİ

***Musayev E.A.***
*Gəncə Dövlət Universiteti*

Bir tərəfdən hakimiyyət iflasa uğrayırdı, digər tərəfdən isə müstəqilliyin və bütövlükdə dövlətçiliyin itirilməsi təhlükəsi baş verirdi. O dövrdə Azərbaycan Respublikasının üzləşdiyi bəlaların səbəblərini aşğıdakı kimi ümumiləşdirmək mümkündür.

1)Milli birlik, mütəşəkillik və həmrəylik yaradıla bilməmişdi.

2)Hakimiyyət başındakı şəxslər milli mənafelərə xidmət etmək əvəzinə öz şəxsi mənafelərinə üstünlük verirdilər.

3)Rəhbərlik edən şəxslərin dövlətçilik təcrübəsi yox idi.

4)Hakimiyyət siyasət aləmində heç bir nüfuz qazanmamış adamların əlinə keçmişdi.

5)Hakimiyyətdə olan şəxslərin heç biri ümummilli lider səviyyəsinə yüksələ bilməmişdi.

Bütün bu arqumentlər onu göstərirdi ki, o zamankı rəhbərlər hakimiyyəti idarə etmək qabiliyyətindən çox-çox uzaq idilər. Bu zaman xalq öz müdrikliyini göstərdi. Hakimiyyətdə olan rəhbərlər xalqı iflasa apardığı üçün xalq onların arxasınca getmədı. Xalq öz üzünü azadlıq, sərbəstlik və müstəqillik ideyasını qətrə-qətrə, damcı-damcı cəmiyyətin həyatına, ideologiyasına və mənəviyyatına hopdurmuş ümummilli lider Heydər Əliyevə çevirdi. Heydər Əliyev xalqı xilas etmək üçün çətin məqamda onun imdadına yetişdi. Heydər Əliyev ölkənin müstəqilliyini saxladı, xalqın həyatını qorudu, çətinliklərə qalib gəldi. Heydər Əliyevin qələbəsinin başlıca səbəbləri bunlardan ibarət idi:

1)Azərbaycan cəmiyyətində qədim kökləri olan müstəqil dövlətçilik ideyaları və eləcə də 1918-20-ci illərdə yaradılmış Azərbaycan Demokratik Respublikasının tarixi təcrübəsi Heydər Əliyev tərəfindən çox böyük yaradıcılıqla ümumiləşdirilmişdi.

2)Azərbaycan cəmiyyəti Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu 1969-82-ci illərdə müstəqil dövlətçilik mərhələsinə mənəvi və psixoloji cəhətdən hazırlanmışdı. İctimai şüurun formalaşdırılaraq milli şüura çevrilməsi mərhələsi başa çaldırılmışdı.

3)Müstəqil dövlətçiliyin yaradılması və mövcudluğu Heydər Əliyevin fəaliyyətinin tarixi nəticəsi, bəhrəsi və məhsulu idi.

4)Müstəqil Azərbaycan dövlətçiliyini qoruyub saxlamaq üçün Heydər Əliyev tərəfindən milli birlik, mütəşəkkillik və həmrəylik yaradıldı. Heydər Əliyev tərəfindən cəmiyyət üzvləri arasında əqidə birliyi yaradıldı və formalaşdırıldı.

5)Heydər Əliyev siyasətində xalqın mənafeyi başlıca yer tuturdu.

6)Azərbaycan cəmiyyəti Heyder Əliyevin timsalında özünün xilaskarını, himayəçisini və zəngin dövlətçilik təcrübəsinə malik olan ümummilli liderini qazanmışdı.

Heydər Əliyev bütün fəaliyyəti dövründə özünün ideyalarını və baxışlarını optimist və realist prinsiplər üzrə ictimai həyata tətbiq etmişdi. Heydər Əliyev ideyalarının ictimai həyata reallıqla tətbiq edilməsi bu böyük tarixi şəxsiyyətin bütün fəaliyyətində qələbələrin təməli idi.

Müstəqil Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması ilkin mərhələdə çox çətin problemlərin həll olunması zərurətini qarşıya qoymuşdu. Bu zaman ölkədə ictimai-siyasi şərait çox mürəkkəb idi.

Heydər Əliyevin xalqın tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdışından sonra respublikanın sosial-iqtisadi və siyasi həyatında çox böyük uğurlar əldə olundu:

1. Ölkədə sabit siyasi iqlim yarandı
2. Xarici kapital axını gücləndi
3. Beynəlxalq aləmdə müstəqilliyin qarantı olan böyük layihələr həyata keçirildi
4. Ordu quruculuğunda mühüm işlər görüldü
5. Ölkənin sosial-iqtisadi durumunda böyük sıçrayışlar oldu
6. Dünyanın aparıcı dövlətləri Azərbaycanla hesablaşmalı oldu
7. Dünya iqtisadiyyataına və siyasətinə inteqrasiya prosesləri sürətləndi
8. Ölkənin abadlıq və quruculuq işlərində çox böyük işlər görüldü və bu gün də davam etdirilir
9. Elm təhsil sahəsində beynəlxalq standartlar tətbiq edildi
10. Ölkənin istehsal sahələri iflicdən yaxa qurtardı
11. Azərbaycan diaspor və lobbiçilik sahəsində böyük işlər gördü
12. Azərbaycan Yaxın Şərqdə və Cənubi Qafqazda güclü dövlətlərdən birinə çevrildi

# HEYDƏR ƏLİYEV VƏ GUAM ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN–UKRAYNA ARASINDA REGİONAL ƏMƏKDAŞLIĞIN İNKİŞAFI

**_Musayev E.A._**
_Gəncə Dövlət Universiteti_

Ölkələrimiz arasında regional əməkdaşlığın yeni istiqamətlərindən biri kimi əsası 1997-ci il oktyabrın 11-də ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə qoyulmuş GUAM təşkilatını xüsusi qeyd edə bilərik. Ümumiyyətlə, GUAM coğrafi prinsiplərə əsaslanmaqla ona daxil olan ölkələrin iqtisadi əməkdaşlıq məqsədlərinə xidmət edən təşkilat kimi yaradılmışdır. Təşkilat bir çox layihələrin, o cümlədən humanitar sahədə-təhsil və mədəniyyət sahəsində beynəlxalq təşkilatlarla birgə iştiraka dair layihələrin həyata keçirilməsi istiqamətində fəaliyyət göstərməkdədir. GUAM, həmçinin Transqafqaz magistralı və Qərb-Şərq, Şərq-Qərb marşrutu üzrə səmərəli və uzunmüddətli iqtsadi fəaliyyət üçün əlverişli şərait yaradır.

Qeyd etmək lazımdır ki, yeni regional təşkilat kimi, GUAM-ın aktiv fəaliyyətinə bir çox yerli və beynəlxalq amillər təsir göstərmişdir. Belə ki, GUAM-ın üzvü olan ölkələr təşkilatın yaranmasından sonra ikitərəfli və çoxtərəfli müqavilələri və sazişlərə əsaslanaraq ticarət-iqtisadi münasibətlərin, həmçinin kooperasiya əlaqələrinin inkişaf etdirilməsi və dərinləşdirilməsi zərurətini nəzərə alaraq, nəqliyyat, rabitə, energetika, maşınqayırma, kənd təsərrüfatı kimi sahələrdə əməkdaşlığa kömək göstərmək, iqtisadiyyat, humanitar əməkdaşlıq, turizm və mədəniyyət sahəsində qarşılıqlı fəaliyyət göstərmək kimi nəticələrə gəlmişlər. Tərəflər, həmçinin əmin olduqlarını bildirmişlər ki, GUAM təşkilatı ölkələri arasında dostluq münasibətlərinin inkişafı və dərinləşdirilməsi, mehriban qonşuluq, qarşılıqlı-faydalı əməkdaşlıq və bir-birinin suverenliyinə hörmət prinsipləri əsasında daha yüksək səviyyədə əməkdaşlığa nail olmaq üçün yeni mərhələlər yarada bilər.

Azərbaycan və Ukrayna Respublikalarının başçıları müxtəlif səviyyələrdə keçirilən görüşlərdə GUAM təşkilatını regional münasibətlərin möhkəmləndirilməsində nadir mexanizmlərdən biri kimi qiymətləndirmişlər.

Qeyd etmək lazımdır ki, təşkilatın gərgin və uğurlu fəaliyyətinin nəticəsi kimi Strasburq rəsmi məlumatı, «Vaşinqton bəyannaməsi» və «Nyu-York memorandumu»nun imzalanması GUÖAM çərçivəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinə, regionda sülhün və təhlükəsizliyin qorunub-saxlanılmasına və BTM-nin norma və prinsiplərinin həyata keçirilməsinə təminat yaradır.

GUÖAM təşkilatının fəaliyyəti dövrün tələblərinə cavab verən, ikitərəfli və çoxtərəfli əməkdaşlığın yeni istiqaməti kimi qiymətləndirilmişdir.

GUÖAM-ın dinamik fəaliyyəti üzv ölkələrin əməkdaşlığını möhkəmləndirməklə, yeni-yeni əməkdaşlıq imkanlarının açılmasına da əlverişli şərait yaradır.

Azərbaycan və Ukrayna Respublikaları arasında regional əməkdaşlıq münasibətlərinin yeni istiqamətlərindən biri də Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əlaqələrin inkişaf etdirilməsidir.

QİƏT elm və texnologiya sahəsində əməkdaşlıq istiqamətində də ciddi addımlar atmışdır. Azərbaycan və Ukrayna Respublikaları regional çərçivədə əməkdaşlıq münasibətləri ilə yanaşı, çoxtərəfli beynəlxalq əməkdaşlıq əlaqələri də saxlamışdır.

## AZƏRBAYCAN DÖVLƏTİNİN XARİCİ SİYASƏTİNİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Ramazanova Q.Ə.***
*Gəncə Dövlət Universiteti*

Əsrlər boyu keşməkeşli tarix yaşayan Azərbaycan xalqı 1988-ci ildən millətlərarası etnik münaqişənin hökm sürdüyü ən qaynar ocaqlardan birinə çevrildi. Od tutub yanan Dağlıq və Aran Qarabağ, yenicə SSRİ-nin tərkibindən qopmuş Azərbaycanda iqtisadi vəziyyətin fəlakət həddinə çatması, xarici dövlətlərin aşkar və yüzlü müdaxilələri, daxildəki hökumət böhranı, gündən-günə reallaşan vətəndaş müharibəsi təhlükəsi- 70 illik fasilədən sonra yenidən müstəqilliyinə qovuşan Azərbaycan açıq-aşkar suverenliyini itirmək təhlükəsi ilə üz-üzə qoyuldu. Məhz bir xalqın taleyi üçün ən mürəkkəb situasiya kimi dəyərləndirilə biləcək tarixi dövrdə-1993-cü ilin iyununda Heydər Əliyev xalqın təkidi və tələbi ilə yenidən Azərbaycanda hakimiyyət başına gətirildi.

XX əsrdə dünyada baş verən bütün iqtisadi sosial prosesləri daimi olaraq izləyən, təhlil edərək düzgün qiymətləndirən Heydər Əliyev başa düşürdü ki, ölkədə vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldıqdan sonra onun fəaliyyətinin başlıca istiqamətlərindən biri də Azərbaycan dövlətinin balanslaşdırlmış milli maraqlara uyğun xarici siyasət xəttinin təşkil edilməsi olmalıdır. Ulu öndərin xarici siyasətinin başlıca prinsipləri bu əsaslar üzərində qurulmuşdur:

Yaxın ( Ermənistan müstəsna olmaqla ) və uzaq dövlətlərlə qarşılqlı etimadı; çoxtərəfli əməkdaşlığa nail olaraq; sülh və əmin-əmanlıq şəraitində yaşamaq arzusunu bəyan edərək bu istiqamətdə sistemli iş aparmaq; nüfuzlu beynəlxalq birliklərdə ləyaqətlə təmsil olunmaq. Dünya dövlətlərilə iqtisadi, siyasi- mədəni münasibətləri beynəlxalq hüququn normaları əsasında qurmaq.

Heydər Əliyev bütün dünyaya bəyan etdi ki, onun ölkəsi Ermənistan istisna olmaqla, dünyanın bütün ölkələrini özünə dost hesab edir.

Heydər Əliyev XX əsrin sonunda müstəqillik şansını yenidən qazanmış Azərbaycanın yeni prinsiplər əsasında qurucusu olduğu üçün daxili siyasətdə olduğu kimi, xarici siyasətdə də elmi prinsiplərə əsaslanan sistemli iş aparır. Müdrik siyasətçi tərəfindən həyata keçirilən xarici siyasət daxili siyasətin məntiqi davamı kimi reallaşır, başlıca mərama- Azərbaycan xalqının əmin- əmanlıq şəraitində firavan həyatının təmin edilməsinə xidmət edir.

Ulu öndərin uzaqgörən siyasəti nəticəsində son dərəcə mürəkkəb geosiyasi məkanda yerləşən Azərbaycanın xarici siyasət kursunun müəyyənləşməsindəki uğurlar son illərdə ölkəmizin regionun lider dövlətinə çevrilməsini, beynəlxalq arenada söz sahibi olmasını təmin etdi.

Heydər Əliyev tarixən Azərbaycana qonşu olan, sosial- iqtisadi, ictimai –siyasi sahələrdə dərin əlaqələrə malik Rusiya, İran kimi böyük və mürəkkəb xarici siyasət xətti

olan dövlətlərlə münasibətlər qurulmasının spesifik cəhətlərini nəzərə alaraq, bu dövlətlərə əlaqələri qarşılıqlı hörmət və beynəlxalq hüquq normalarına uyğun şəkildə qurulmasına nail oldu.

Heydər Əliyev Azərbaycan-Gürcüstan birliyini bütün Qafqazda sülhün, əmin-amanlığın, inkişafın qarantı kimi dəyərləndirirdi. Türkiyə-Azərbaycan dövlətinin əlaqələrinə son dərəcə böyük önəm verən ümummilli lider: "Biz Türkiyə ilə bir millət, iki dövlətik" – deyirdi və bildirirdi ki, Azərbaycan-Türkiyə dostluq , qardaşlıq əlaqələri əvəzsiz güc mənbəyidir və bütün dünya üçün ən yaxşı nümunədir.

Amerika Birləşmiş Ştatlarının dünyanın siyasi tənzimlənməsində müstəsna rolunu nəzərə alaraq, Heydər Əliyev bu ölkə ilə sosial-iqtisadi, ictimai siyasi əlaqələrin qurulmasına xüsusi əhəmiyyət verirdi.

Azərbaycanın Avropaya inteqrasiyasını xüsusilə vacib hesab edən Heydər Əliyev Avropa Şurası, Avropa İttifaqı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı arasında möhkəm qarşılıqlı əlaqələrin olmasına nail olmaq üçün bütün mümkün vasitələrdən istifadə etmişdir. Çin, Yaponiya, Asiya ölkələri, Hindistan və Ərəb dünyası ilə beynəlxalq hüquqa əsaslanan ikitərəfli və çoxtərfli dostluq əlaqələrinin əsasını qoymuşdur. Ərəb ölkələri ilə əlaqələrin yüksək səviyyəyə çatmasına xüsusi önəm verən Heydər Əliyev bu istiqamətdə fəaliyyətinə İslam Konfransı Təşkilatına, Ərəb Ölkələri liqasına daxil olmaqdan başladı.

Müdrik rəhbər dünya siyasətində zora, gücə əsaslanan təşəbbüsləri qətiyyətlə rədd edirdi və münasibət qurduğu dövlətlərə də bunu təbliğ etməyə çalışırdı. Məhz bu fəaliyyətin nəticəsidir ki, bu gün Azərbaycan dünyanın əksər ölkələrilə ikitərəfli və coxtərəfli yüksəkkeyfiyyətli əlaqələr qurmuş və bir çox beynəlxalq birliklərdə uğurla, ən fəal üzv kimi təmsil olunur.

## AZƏRBAYCAN RESPUBLİKASI NEFT SƏNAYESİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Səlimov Ş.D.***
*Sumqayıt Dövlət Universiteti*

Heydər Əliyevin ikinci dəfə hakimiyyət başına gəldiyi zaman siyasi vəziyyət son dərəcə gərginləşmiş, xarici ölkələrlə iqtisadi əlaqələr pozulmuş, neft sənayesi, iflic vəziyyətinə düşmüşdür. Gənc müstəqil Azərbaycanı müasir, güclü, davamlı iqtisadi inkişafa malik dövlətə çevirmək üçün ümummilli lider Heydər Əliyev gələcək siyasi-iqtisadi islahatların köklü transformasiyasının əsası olacaq neft strategiyasını müəyyənləşdirdi. Yeni neft strategiyası xarici sərmayədarların Azərbaycanın neft yataqlarının işlənməsinə cəlb edilməsini, xam neftin daşınma yollarının şaxələndirilməsini, neft gəlirlərinin səmərəli idarə edilməsini və Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoymasını təmin etdi. Bu zaman neft sənayesi sahəsindəki durğunluğa son qoymaq üçün "Günəşli", "Çıraq" və "Azəri" yataqlarının işlənilməsini təmin etmək zərurəti var idi. Lakin müstəqilliyi yenicə əldə ermiş Azərbaycanın kifayət qədər maliyyə vəsaiti olmadığı ücün bu problemi təkbaşına həll etməsi mümkün deyildi. Digər tərəfdən neft problemi təkcə iqtisadi deyil, iqtisadi olduğu qədər də siyasiləşmiş bir problemdir. Böyük dövlətlərin maraqlarının kəskin şəkildə

toqquşduğu məsələdir. Ona görə də böyük dövlətlərin Azərbaycan neft sənayesində maraqlarının tüğyan etdiyi bir mühitdə milli maraqların qorunub saxlanması çətin olduğu qədər də əhəmiyyətli bir məsələ idi. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Dövlət Neft Şirkəti Azərbaycanın milli marağına uyğun gələn və xarici sərmayədarların iştirakı ilə problemin həll edilməsi yolunu secdi. Lakin, Azərbaycanda bu mövqenin əleyhdarları da var idi və onlar belə hesab edirdilər ki, nəzərdə tutulan işlər Azərbaycanın daxili imkanları sayəsində həyata keçirilə bilər. Ancaq o zaman Azərbaycan belə bir böyük maliyyə vəsaiti tələb edən işlərin öhdəsindən gəlmək iqtidarında deyildi. Digər tərəfdən, böyük güc mərkəzlərinin maraqları mövcud idi. Heydər Əliyev hakimiyyəti dövründə neft sənayesinin inkişaf etdirilməsi dünyanın ən nüfuzlu neft şirkətlərinin bu prosesə qoşulması istiqamətində ciddi tədbirlər görməyə başladı. "Əsrin müqaviləsi" ilə bağlı danışıqların 1994-cü ilin yazında və yayındakı İstanbul və Hyustondakı son mərhələləri xüsusilə ağır keçdi. Bəzən böhran anları da olur, müəyyən şərtlərin qəbuledilməzliyi ucbatından danışıqlar dayandırılma məqamına çatırdı. Həmin anı İlham Əliyev belə xatırlayır: "Biz xarici şirkətlərə deyirdik, siz ayrı-ayrı şirkətlərin maraqlarını müdafiə edirsiniz, biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu, sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq, əgər biz səhv etsək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə xələl gətirəcəkdir. Başqa sözlə, biz heç cür heç bir səhvə yol verə bilmərik". Bütün bu çətinliklərə baxmayaraq, müqavilə Azərbaycanın milli mənafeyinə uyğun hazırlandı. 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında dəyəri 7,4 mlrd. dollar olan "məhsulun pay bölgüsü" tipli müqavilə imzalandı. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlanmış, təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmışdır. "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti -Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Exxon, Türkiyə Petrolları, Pennzoil, ITOCHU, Ramco, Delta- iştirak etmişdir. Bu müqavilədə Böyük Britaniyanın "British Petroleum" (qoyulacaq investisiyanın 17,12 faizi) və "Ramco" (2,08 faizi), ABŞ-ın "Amoco" (17,01 faiz), "UNOCAL" (11,2 faiz), "Penzzoil" (9,81 faiz), "McDermott" (2,45 faiz), Rusiyanın "Lukoil" (10,0 faiz), Norveçin "Statoil" (8,56 faiz), Türkiyənin "Türk petrolları şirkəti"nin (1,75 faiz) və Azərbaycan Neft Şirkətinin isə 20 faiz payı var idi. Bununla da "Yeni neft strategiyası" və doktrinası uğurla həyata keçirilməyə başlandı.

"Əsrin müqaviləsi" Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi. İlk dəfə hesablanmış çıxarıla bilən neft ehtiyatı 511 milyon ton olmuş, sonralar qiymətləndirici quyuların nəticələrinə görə bu ehtiyat 730 milyon tona çatmışdır və bununla əlaqədar yataqların işlənilməsinə tələb olunan sərmayə xərcləri 11,5 milyard ABŞ dolları qəbul edilmişdir; ümumi təmiz gəlirdən Azərbaycanın payına 80%, sərmayəçilərin payına 20% düşür."Əsrin müqaviləsi"nin ilk günlərindən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti yaradıldı və təsdiq olunmuş vahid proqram üzrə ARDNŞ ilə birgə işlərə başlandı. Bu saziş sonradan dünyanın 19 ölkəsinin 41

neft şirkəti ilə 30-dək sazişin imzalanması üçün yol açdı. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil olmuşdur. İmzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları qoyuluşunun 57,6 milyardı dəniz yataqlarının mənimsənilməsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərinin aparılmasına yönəldilmişdir.

"Əsrin müqaviləsi"nin imzalanması iqtisadi baxımdan çox böyük fayda verdi. Ilk növbədə, neft hasilatı 1997–ci ildəki 9 milyon tondan 2010–cu ildə 50,7 milyon tona çatdırıldı. Prosesin davamı olaraq bu saziş üzrə "Çıraq", "Azəri" və "Günəşli" sahələrində quraşdırılmış dəniz özüllərindən 10-larla istismar quyusu qazılmışdır. Bu quyulardan gündə orta hesabla 91 min tondan çox neft çıxarılır. 1999–cu ilədək neftin satışından əldə edilən gəlir sərmayə qoyuluşunun ödənilməsinə sərf edilirdisə, həmin ilin dekabrından sonra Azərbaycanın "mənfəət nefti" xarici bazarlara ixrac edilir. Mənfəət neftindən əldə edilən gəlirin xalqın xidmətinə verilməsi, onun rifahının yüksəldilməsinə yönəldilməsi üçün ümummilli liderimiz Heydər Əliyev Neft Fondu yaradılmasına qərar verdi. "Mənfəət nefti"nin satışından əldə edilən gəlir Neft Fondunda toplanır və Azərbaycanın qeyri– neft sektorunun inkişaf etdirilməsinə sərf edilir. Bir sıra böyük dövlətlərin ciddi maneələrinə baxmayaraq, Heydər Əliyevin apardığı danışıqların nəticəsi olaraq Bakı– Tbilisi–Ceyhan əsas ixrac neft kəməriin cəkilməsi Azərbaycan ücün həm iqtisadi həm də beynəlxalq mövqeyinin gücləndirilməsi baxımından mühüm rol oynadı. Beləliklə, uzunluğu 1730 kilometr, illik buraxıcılıq qabiliyyəti 50 milyon ton olan BTC–nin Azərbaycan üçün son dərəcə böyük əhəmiyyəti vardır. Bəzi cətinliklərə və təzyiqlərə baxmayaraq Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri 2005–ci il may ayının 28–də istismara verildi. Bakl-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri böyük tutumlu tankerlərin hərəkət etmək imkanı olmayan Bosfor və Dardanel boğazlarından keçmədən birbaşa Aralıq dənizinə çıxış imkanı yaratdı. Aralıq dənizindən neftin müxtəlif istiqamətlərə daşınması iqtisadi cəhətdən sərfəli olması bu kəmərin dəyərini daha da artırırdı. Ona görə də Aralıq dənizini əhatə edən dövlətlərin, ümumilikdə Avropanın neftə olan tələbatının ödənilməsi və Azərbaycan neftinin ixracı üçün geniş bazarın formalaşması maliyyə imkanlarımızın və beynəlxalq münasibətlərdəki mövqeyimizin daha da güclənməsinə gətirib çıxardı. Ulu öndər Heydər Əliyevin yeni neft strategiyasının, onun müəyyən etdiyi vəzifələrin həyata keçirilməsi istiqamətində böyük işlər Prezident İlham Əliyev tərəfindən daha da uğurla davam etdirilir. Artıq bu gün əminliklə deyə bilərik ki, Azərbaycan dünya enerji siyasətində söz sahibi olan ölkələr sırasından birini tutmaqdadır. Neft sənayesi sahəsində həyata keçirilən uğurlu tədbirlərin nəticəsidir ki, Azərbaycan müasir dünyada neft ölkəsi kimi şöhrət qazanmışdır.

# AZƏRBAYCAN RESPUBLİKASI NEFT STRATEGİYASININ FORMALAŞMASINDA HEYDƏR ƏLİYEV İMZASI

***Süleymanlı D.Q.***
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycanın neft sənayesi böyük tarixə malikdir. Respublikamızda ilk neft quyusu 1847-ci ildə Bibiheybətdə fantan vurmuş və bununla da neft sənayesi ilkin inkişaf yolunu tutmuşdur. Azərbaycanın neft sənayesi SSRİ dövründə sürətlə inkişaf etdirilmiş, lakin istehsal edilən neft uzun illər sovet ittifaqının ehtiyyaclarını təmin etmək üçün istifadə edilmişdir. XX əsrin 70-80-ci illəri Azərbaycan neft sənayesinin böyük nailiyyətləri ilə yadda qalaraq onun inkişafı, maddi-texniki bazasının möhkəmlənməsi illəri olmuşdur. Həmin illərdə respublikamızın neft sənayesinin bütün uğurları Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin adı ilə sıx bağlıdır. Azərbaycanda dəniz yataqlarının işlənilməsi üçün qazma qurğuları, dənizdə tikinti işlərini təmin etmək üçün xüsusi gəmilər, texnika və avadanlıq gətirilmiş, Bakı Dərin Dəniz Özülləri zavodu kimi nəhəng strateji istehsalat qurğusu tikilmişdir. 70-ci illərin əvvəllərindən etibarən Xəzərdə planlı surətdə geoloji-kəşfiyyat işlərinin təşkili və həyata keçirilməsi də Heydər Əliyevin misilsiz tarixi xidmətlərindəndir. Lakin Azərbaycan xalqı yalnız XX əsrin sonralarında müstəqillik qazandıqdan sonra bu sərvətlərdən tam bəhrələnmək imkanı qazanmışdır. Bu imkanı reallığa çevirən də Heydər Əliyev dühasıdır. Respublikamız dövlət müstəqilliyi əldə etdikdən sonra öz tarixinin yeni mərhələsinə qədəm qoymuşdur. Bununla da ölkədə dərin sosial dəyişikliklər baş vermiş, dünya təcrübəsində sınaqdan keçmiş bazar iqtisadiyyatına keçid yolunda mühüm addımlar atılmışdır. Müasir dövrdə də Azərbaycanın bütün iqtisadi potensialının hərəkətə gətirilməsində iqtisadiyyatında aparıcı yer tutan neft sənayesinin rolu mühümdür. Neft sənayesinin inkişafının sürətləndirilməsi üçün inkişaf etmiş ölkələrin təcrübəsindən və neft sənayesinə kapital qoyuluşunun bir sıra siyasi və iqtisadi cəhətlərinin aydınlaşdırılması baxımından tarixi təcrübənin öyrənilməsi mühüm əhəmiyyətə malikdir. Azərbaycan müstəqillik əldə etdikdən sonra bu istiqamətdə çox addımlar atılmışdır. 1994-cü il sentyabrın 20-də "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının bir hissəsinin birgə işlənməsi haqqında 5 ölkənin 10 ən iri neft şirkəti ilə imzalanan bu müqavilə neft sənaysinin inkişafında mühüm və əlamətdat hadisə olmuşdur. "Əsrin müqaviləsi" adı ilə indi bütün dünyada tanınmış bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və böyük siyasətçi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Müqavilə imzalanandan sonra Azərbaycana diqqət artmağa başladı. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsində, Azərbaycan beynəlxalq neft sənayesində ən böyük "oyunculardan" birinə çevrildi. Neft müqaviləsi Azərbaycan üçün böyük siyasi əhəmiyyət də kəsb edir. Qərbin neft şirkətləri ilə saziş Azərbaycanın bir sıra dövlətlər tərəfindən dəstəklənməsinə, onun həm iqtisadi, həm də siyasi mənafelərinə hörmətlə yanaşılmasına təminat verən güclü amil kimi qiymətləndirilməyə layiqdir. Neft strategiyasının həyata keçirilməsi əhalinin iş yeri ilə təmin edilməsində də mühüm rol oynayırdı. Hüquqi, dünyəvi dövlət yaratmaq, iqtisadi

islahatlar aparmaq, xalqın maddi və mənəvi cəhətdən təmin olunmasını fəaliyyətinin əsas istiqaməti seçən möhtərəm Heydər Əliyev iqtisadiyyatımızın dirçəldilməsi sahəsində böyük işlər gördü. Qısa bir zamanda neft emalı sahəsində də böyük müsbət dəyişikliklər əldə olundu. 1994-1995-ci illərdə "Azərneftyağ" İstehsalat Birliyində xarici şirkətlərin köməyi ilə ən müasir texnologiya və yüksək məhsuldarlığa malik iki yeni neft emal qurğusu inşa olunub istismara verilmişdir ki, bu da yüksək keyfiyyətli açıq rəngli neft məhsulları və yağlar üçün lazım olan qısa fraksiyalar alınmasına şərait yaratmışdır. Bakı-Novorossiysk neft kəmərində yenidənqurma işləri aparıldı və 1997-ci ilin oktyabr ayında bu neft kəməri istismara verildi. Azərbaycan neftinin dünya bazarlarına nəql edilməsindən respublikamızın əldə etdiyi valyuta və digər vəsaitlərin yığılması, səmərəli idarə və istifadə olunması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli fərmanına uyğun olaraq Dövlət Neft Fondu yaradılmışdır. Xəzərin Azərbaycan sektorundaki zəngin neft və qaz ehtiyyatlarından səmərəli və düzgün istifadə olunması neft sənayesi ilə yanaşı, digər sənaye sahələrinin də inkişafına gətirib çıxara bilər. Ulu öndər H. Əliyevin dediyi kimi: ”Neft bizim üçün məqsəd deyildir, məqsədə çatmaq üçün istifadə etdiyimiz vasitədir. Neft imkan verəcəkdir ki, ölkəmizin iqtisadi inkişafı daha da sürətləndirilsin, müstəqilliyimiz daha da möhkəmlənsin.”

## ВЛИЯНИЕ ГЕЙДАРА АЛИЕВА НА РАЗВИТИЕ РЕГИОНАЛЬНОЙ ПОЛИТИКИ

***Кулиева Т.А.***
*Сумгаитский государственный университет*

Завоевание независимости и формирование государственности каждого народа неизменно связаны с именами политических деятелей. Каждое государство на решающих этапах своего становления испытывает настоятельную потребность в мудрых, опытных, беззаветно преданных делу нации лидерах. Такими людьми были для Франции Шарль де Голль, для США – Джордж Вашингтон, для Турции – Мустафа Кемаль Ататюрк, для Великобритании – Уинстон Черчилль. Для Азербайджана таким лидером стал президент Гейдар Алиев.

Азербайджан, обладающий глубоким нравственным, культурным, научно-экономическим потенциалом, имеющий выгодное географическое и политическое положение, в то же время богат природными ресурсами. В ряду природных богатств, главное место занимает нефть. В результате глобальной, широкомасштабной и разносторонней экономической политики, мудро и дальновидно, с глубокой убежденностью и последовательно осуществленной общенациональным лидером азербайджанского народа Гейдаром Алиевым, сегодня нефть принадлежит истинному владельцу – азербайджанскому народу и служит укреплению политической независимости, экономическому прогрессу и благосостоянию населения.

Восстановление древнего Шелкового пути превратил морской транспорт между странами Европы и Азии  важное транспортное средства, обладающее транзитным

грузовым потоком. Основные цели развития великого исторического пути выражаются в следующем:

– развитие торгово-экономических отношений стран региона;

– развитие транспортных сообщений – международных перевозок грузов и пассажиров;

– создание благоприятных условий для транзитных перевозок;

– ускорение сроков доставки и сохранности перевозимых грузов;

– гармонизация транспортной политики;

– льготы на тарифы перевозок и налогообложения;

– координирование взаимоотношений между различными отраслями транспортов;

– согласованная политика в области международных и внутренних тарифов на грузовые и пассажирские перевозки;

–разработка программ согласованных действий по организации мультимодульных (комбинированных) перевозок.

В начале XXI века реальностью стало еще одно словосочетание: «энергетический коридор Восток-Запад». Все эти понятия отражают исторические перемены. Они открыли новую страницу в региональном сотрудничестве стран, находящихся на трассе Шелкового пути, они призваны содействовать экономической интеграции центральной Азии и Закавказья с Западом, а в конечном счете – способствовать экономическому возрождению, укреплению мира и стабильности новых независимых государств. Одним из основных инициаторов этих эпохальных событий, несомненно, являлся Гейдар Алиев. Он – отец нации.

Итак, чего удалось добиться Гейдару Алиеву?

1. Остановить кровопролитие, сохранить жизни тысяч соотечественников.
2. Предотвратить гуманитарную катастрофу, привлечь внимание мирового сообщества к проблеме азербайджанских беженцев из Армении и переселенцев из Нагорного Карабаха, подключить ведущие международные организации и страны Европейского союза к осуществлению программы социальной и экономической реабилитации этих слоев азербайджанского общества.
3. Заставить мировое сообщество признать и принять факт агрессии Армении против Азербайджана; добиться международно-правового оформления основополагающих принципов, на которых должно базироваться урегулирование Нагорно-Карабахского конфликта, прежде всего принципа территориальной целостности нашей страны.
4. И наконец, пожалуй, самое главное – восстановить и укрепить государственные институты власти, стабилизировать политическую ситуацию в стране, возродить национальную экономику, провести кардинальные рыночные реформы в самых различных сферах.
5. Сложный процесс экономического и духовного возрождения Азербайджанской республики начатый в XX веке Гейдаром Алиевым успешно продолжает в XXI веке его сын и последователь идей нынешний президент Ильхам Алиев.

# НАЦИОНАЛЬНАЯ ИДЕОЛОГИЯ АЗЕРБАЙДЖАНЦЕВ МИРА–АЗЕРБАЙДЖАНСТВО

***Мамедова N.X.***
*Азербайджанский университет языков, кафедра регионоведения*

*Для каждого человека национальная принадлежность является его гордостью. Я всегда гордился, и сегодня горжусь тем, что я азербайджанец. Главная идеология независимого азербайджанского государства - азербайджанство. Каждый азербайджанец должен гордиться своей национальной принадлежностью, и мы должны увековечить азербайджанство - азербайджанский язык, культуру, национально-нравственные ценности, обычаи и традиции. ( Гейдар Алиев)*

Идеология создается в обществе для сохранения национального единства и общенациональных отношений, для объяснения и утверждения позиции народа и государства. Это один из первых признаков национально-нравственного существования людей система мышления, обычаи и убеждения, отражающие личность народа. Язык, территория, религия и единство идеологии являются основными атрибутами исторического существования народа, нации и государства.

Азербайджанство, как идеология, богато важными функциональными элементами, а их суть состоит в том, чтобы защитить страну от попыток морально и физически ослабить ее. Эта идеология направлена на укрепление и развитие Азербайджана, как правового, демократического государства с точки зрения государственного управления и политической структуры, и как унитарного государства с точки зрения административно-территориальной структуры. Азербайджанство - это путь к привлечению независимого и неподражаемого Азербайджана в ряды цивилизованных стран. Эта идеология является теоретическим результатом исторического опыта национально-освободительных движений в Азербайджане. Она объясняет историческое значение социальных процессов, происходящих в мире и в нашей стране с точки зрения интересов азербайджанского народа.

Азербайджанство является идеологией азербайджанского народа, который преследуе стратегическую цель борьбы за полную историческую независимость суверенного Азербайджана, за цивилизованное демократическое государство со светскими принципами. На его основе лежит идея равенства национальных, этнических, религиозных и социальных прав всех народов, считающих Азербайджан своей родиной. Идеология азербайджанства отражает общие интересы единой полиэтнической нации по установлению азербайджанской государственности и цели по борьбе за развитие демократии, свободной экономики и социальных условий. Азербайджанство, как идеология, объединяет в себе социально-политические и этнические, геополитические аспекты философско-социальной доктрины независимого Азербайджана. Оно является важной основой для взаимной поддержки, сотрудничества и равенства.

Применение азербайджанства к современной государственности связано с именем Гейдара Алиева. Он укрепил чувство государственности у азербайджанского народа и сформировал чувство уважения к государству. В частности, после возвращения к власти в 1993 году он заложил основы концепции признания миром азербайджанского языка, истории и культуры в свете идеологии азербайджанства. Благодаря Г. Алиеву, азербайджанство заработало авторитет не только как национальная идеология, но и как мощная государственность. Благодаря его теории азербайджанства, азербайджанское государство стало центром международного внимания в современной мировой интеграции и было признанным цивилизованным государством как на Западе, так и на Востоке. Нефтяная стратегия Г.Алиева - контракт века, концепция экономического развития регионов, признание Азербайджана в Евросоюзе, необратимая борьба за территориальную целостность страны - все это было основано на идеологии азербайджанства, и послужило укреплению ее как теоретического, так и исторического арсенала внутренней и внешней политики.

Сам Г. Алиев был символом азербайджанства. В его выступлениях говорил весь Азербайджан в целом. И сегодня эти историко-теоретические традиции и методы работы хранятся в нашей государственности. На мой взгляд, II Съезд азербайджанцев мира стал началом подтверждения и торжества идеологии азербайджанства и нового этапа в ее истории. Этот форум продемонстрировал теоретико-исторические возможности азербайджанства в объединии 50 миллионов азербайджанцев, рассеянных по всему миру.

Азербайджанство является теоретическим результатом исторического опыта национально-освободительных движений в Азербайджане. Оно объясняет историческое значение социальных процессов, происходящих в мире и в нашей стране с точки зрения интересов азербайджанского народа. Азербайджанство является идеологией азербайджанского народа, который преследуют стратегическую цель борьбы за полную историческую независимость суверенного Азербайджана, за цивилизованное демократическое государство со светскими принципами. На его основе лежит идея равенства национальных, этнических, религиозных и социальных прав всех народов, считающих Азербайджан своей родиной.

# MÜNDƏRİCAT

## PLENAR BÖLMƏ

1. *Baxşəliyev A.B.* Heydər Əliyev Azərbaycan dövlətçiliyinin memarıdır .............. 3
2. *Seyidov A.Q.* Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda həyata keçirdiyi mühüm tədbirlər.......................................................................................... 6
3. *Qasımov Ə.Q.* Heydər Əliyev və Azərbaycan Respublikasında ordu quruculuğu........................................................................................................ 8

## I BÖLMƏ
## AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏ SİYASİ İNKİŞAFI

1. *Abbasov V.D.* Heydər Əliyev və azərbaycançılıq ideologiyasının milli ideologiyanın təməli kimi inkişafı.................................................................... 10
2. *Abbasova A.A.* Heydər Əliyev və azərbaycançılıq ideologiyası.......................... 11
3. *Abbasova O.A.* Ümummilli Lider Heydər Əliyevin dövlətçilik siyasətində milli dəyərlər........................................................................................................ 13
4. *Abdinov R.M.* İstehsal vasitələrinin səmərəli bölüşdürülməsi sisteminin formalaşdırılması.......................................................................................... 15
5. *Abdullayeva Z. H.* Müasir iqtisadiyyatımız uzaqgörən siyasətin və gərgin fəaliyyətin nəticəsidir......................................................................... 16
6. *Adıgözəlova G.R.* Azərbaycan Respublikasında yoxsulluq və işsizlik problemlərinin həlli istiqamətində Ümummilli Lider Heydər Əliyevin uğurlu sosial –iqtisadi siyasəti........................................................................... 19
7. *Alıyev R.A.* Sintetik-kauçuk zavodu XX əsrin 70-ci illərində............................ 21
8. *Alməmmədli M.G.* Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafında Heydər Əliyevin rolu.......................................................................................... 23
9. *Aslanlı G.M.* Gənclərdə hərbi bacarıq və vərdişlərin formalaşmasında hərbi-idman oyunlarının rolu.......................................................................... 24
10. *Babaşova Ə. A.* Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafında Heydər Əliyevin rolu.......................................................................................... 25
11. *Babayeva T.P.* Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri................................................................ 26
12. *Bayramova N.İ.* Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq ideologiyası əsasında Azərbaycan dünyada tolerantlığın təcəssümü kimi........... 28
13. *Behbudova T.G.* Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafında Heydər Əliyevin rolu.......................................................................................... 31
14. *Bəşirova G. H.* Çağdaş Sumqayıt şəhəri və miqrasiya proseslərinin tarixindən... 34
15. *Bünyadov Z.V.* Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti...... 36
16. *Cabbarlı Y.N.* Heydər Əliyevin milli hərbi kadrların hazırlanması sahəsində fəaliyyəti (XX əsrin 70-cı illəri)............................................................... 37
17. *Cəbrayılova G.Ə.* Cümhuriyyətdən müstəqilliyə gedən yol................................ 39

18. *Cəlilov A.M.* Azərbaycançılıq ideologiyasının yaranmasında Heydər Əliyevin xidmətləri........ 40
19. *Dadaşov X.H.* Heydər Əliyev və azərbaycançılıq ideyası........ 42
20. *Əhmədov A.P.* Azərbaycan Respublikasının milli təhlükəsizlik sistemində miqrasiya siyasətinin rolu........ 44
21. *Əhmədov A.P.* Dövlət müstəqilliyinin ilk illərində Azərbaycan Respublikasında miqrasiya siyasəti və Heydər Əliyev........ 45
22. *Əhmədov M.Ə.* Müstəqil Azərbaycan Respublikasının gömrük orqanlarının fəaliyyətinin təşkilində Ümummilli lider Heydər Əliyevin rolu........ 47
23. *Əhmədov Y.P.* Tarixi yaradan şəxsiyyətdir........ 48
24. *Əhmədov Y.P., Babayev Ş.B.* Heydər Əliyevin dövlətçilik ideologiyası........ 51
25. *Əhmədov Y.P., Qasımova N.V.* Heydər Əliyev şəxsiyyəti........ 53
26. *Əhmədova N. M.* Azərbaycanın sosial-iqtisadi inkişafında Heydər Əliyevin rolu........ 55
27. *Əhmədova Ş.M.* Heydər Əliyev və Azərbaycan dövlətçiliyi........ 57
28. *Əhmədova Y.M.* Ümummilli lider Heydər Əliyevin zəngin siyasi təcrübəsi gənclərimizin dünyagörüşünün formalaşmasında mühüm amildir........ 59
29. *Əliyeva D.V.* Heydər Əliyev dühası və azərbaycançılıq ideologiyası........ 60
30. *Əlləzova V.Z.* Heydər Əliyev və Azərbaycan Respublikasında hərbi təhsil sisteminin formalaşdırılması........ 62
31. *Əsədova A.V.* Heydər Əliyevin uğurlu iqtisadi inkişaf strategiyası........ 63
32. *Əsgərov H.M., Rzayev V.R.* Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu........ 65
33. *Əsgərova X.İ.* Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafında Heydər Əliyevin rolu........ 67
34. *Əzizova R.Y.* Siyasi sabitlik və milli dövlətçiliyi möhkəmləndirmək uğrunda mübarizə........ 68
35. *Fərhadova J.F.* Heydər Əliyev və dövlətçilik fəlsəfəsi........ 70
36. *Fərzəliyeva M.Ç., Süleymanov S.E., Cəfərov F.T.* Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı........ 71
37. *Hacıyev O.Y.* Ulu Öndər Heydər Əliyev tarixi Azərbaycan dövlətçiliyinin və müasir Azərbaycan dövlətinin xilaskarı kimi........ 73
38. *Hacıyeva M.C.* Heydər Əliyev və müstəqilliyə doğru böyük dönüş........ 74
39. *Həsənov R.R.* Milli dövlətçilik konsepsiyası........ 76
40. *Həsənov V.S.* Heydər Əliyevin Azərbaycan həmkarlar ittifaqlarının nüfuzunun yüksəldilməsində rolu........ 77
41. *Hüseynova L.Ə.* Heydər Əliyev irsində gənclərin hərbi vətənpərvərlik tərbiyəsi........ 79
42. *Xasayev N.N.* Azərbaycanda siyasi müstəqilliyin yenidən bərpasında Ümummilli Lider Heydər Əliyevin həlledici rolu........ 81
43. *Xəlilov E.Ş.* Heydər Əliyev daim xalqımızın qəlbindədir........ 82

44. *İbrahimov İ.A.* Heydər Əliyevin hüquqi dövlət qurmaq amalı............................ 85
45. *İmamova S.Q.* Demokratik dövlətimizin yaradıcısı............................................ 87
46. *İsayev Z.M.* Heydər Əliyev Azərbaycan dövlətçilik tarixində qurucu və yaradıcı bir şəxsiyyətdir............................................................................................. 89
47. *İsmayılzadə S.C.* Heydər Əliyev və azərbaycançılıq ideologiyasının inkişafı..... 90
48. *Kazımov B.Q.* Sovet imperiyasının süqutu dövründə Heydər Əliyevin xalq hərəkatına milli-mənəvi cəhətdən dayaq durması.............................................. 92
49. *Kərimli A.S., Əliyev Ş.T.* Azərbaycanda Kimya sənayesinin inkişafında Heydər Əliyevin tarixi rolu.................................................................................. 93
50. *Kərimli A.T.* Azərbaycançılıq ideologiyası və gənclərin vətənpərvərlik tərbiyəsi.................................................................................................... 95
51. *Kərimli T.M.* Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir............. 96
52. *Qasımova N.N.* Heydər Əliyev və Azərbaycançılıq ideologiyasının inkişafı....... 98
53. *Qasımov Ə.Q.* Heydər Əliyev və Azərbaycan Respublikasında ordu quruculuğu........................................................................................................ 99
54. *Quliyev Z.Q.* Kommersiya banklarının trast əməlliyyatları və onun iqtisadi xarakteristikası.......................................................................................... 101
55. *Quliyev İ. Ə.* Aqrar islahatlar, perspektivlər və nəticələr.................................. 102
56. *Qurbanov A.C.* Heydər Əliyev və azərbaycançılıq ideyasının yeni mərhələsi..... 103
57. *Qurbanova S.A.* Heydər Əliyevin milli təhlükəsizlik strategiyası: hərbi və xarici siyasi aspektlərin qarşılıqlı əlaqəsi........................................................... 105
58. *Mehdiyev E.M.* Müstəqil dövlətçilik zəminində Azərbaycançılıq ideologiyasının formalaşması........................................................................ 106
59. *Mehdiyeva G.F.* Azərbaycançılıq ideologiyasının inkişafında Heydər Əliyevin rolu............................................................................................................. 108
60. *Mehdizadə G.Z.* Azərbaycan Respublikasının qlobal iqtisadi layihələrdə iştirakının milli təhlükəsizliyimizin möhkəmləndirilməsinə rolu (XX əsrin 90-cı illəri)............................................................................................................ 109
61. *Mədətli E.Y.* Heydər Əliyevin siyasi irsində Azərbaycan Xalq Cümhuriyyətinə münasibət................................................................................................... 111
62. *Mədətzadə K.M.* Dövlət idarəçiliyi və onun uğurlu davamı.............................. 112
63. *Məhərrəmov S.Q.* Azərbaycan iqtisadiyyatının inkişafında Heydər Əliyevin rolu............................................................................................................. 114
64. *Məmiyev C.M.* Azərbaycançılıq ideologiyasının formalaşmasında Heydər Əliyevin rolu............................................................................................... 115
65. *Məmmədli B.İ.* Heydər Əliyevin siyasi sabitlik və iqtisadi inkişaf strategiyası.... 117
66. *Məmmədova K.N.* Müasir dövrdə liderlik missiyası............................................ 119
67. *Mərdanov İ. İ.* Dünya miqyaslı siyasətçi.............................................................. 121
68. *Mikayılov Ş.S.* Heydər Əliyev siyasətində dinamik inkişaf strategiyası.............. 123
69. *Muradova K.V.* Heydər Əliyevin Azərbaycan Respublikasının milli maraqlarının təmin olunmasında rolu................................................................. 124

70. *Musayev E.A.* Azərbaycanda dağ-mədən sənayesinin inkişafında alman kapitalı.......... 126
71. *Musayev E.A.* Heydər Əliyevin azərbaycançılıq ideologiyasında gənclər siyasəti.......... 129
72. *Musayeva M. A.* Azərbaycanın iqtisadi inkişafı Heydər Əliyevin adı ilə bağlıdır.......... 130
73. *Nəbiyeva Y.İ.* Heydər Əliyev dövlət-vətəndaş cəmiyyəti institutlarının müasir modelinin yaradıcısı kimi.......... 132
74. *Niftaliyev T.Ə.* Azərbaycanda ordu quruculuğu və zabit heyətinin təkmilləşməsində Heydər Əliyevin liderlik xüsusiyyətlərinin təsiri.......... 134
75. *Niftəliyev N.F.* Heydər Əliyev və Azərbaycan sənayesinin inkişafı.......... 136
76. *Nuriyeva İ.T.* Ulu öndər Heydər Əliyev və azərbaycançılıq ideologiyasının təşəkkül tarixində yeni dövr.......... 137
77. *Ramazanov M.K.* Dövlət idarəçiliyində Heydər Əliyev fenomeni.......... 139
78. *Rzaquliyeva S.D.* Heydər Əliyev və prezidentlik institutunun təşəkkülü.......... 142
79. *Seyidov A.Q.* Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda həyata keçirdiyi mühüm tədbirlər .......... 145
80. *Səmədov F.F.* Sumqayıt Kimya sənayesinin vəziyyəti (1994-cü il).......... 146
81. *Şamilova A.M.* Heydər Əliyev və Azərbaycançılıq ideologiyasının inkişafı.......... 148
82. *Şeydayeva A.B.* Heydər Əliyev azərbaycançılıq ideologiyasının memarıdır.......... 150
83. *Şükürova G.B.* Yeni Azərbaycan Partiyasının dövlət idarəçiliyində yeri və rolu.. 152
84. *Tahirova Ş.Ş.* Heydər Əliyev və azərbaycançılıq ideologiyasının inkişafı.......... 154
85. *Veysəlova V.R.* Heydər Əliyev və azərbaycançılıq ideologiyasının inkişafı.......... 156
86. *Vəliyev A. C.* Heydər Əliyev və Azərbaycanın müstəqillik konsepsiyası.......... 157
87. *Yusifova T.V.* Heydər Əliyev irsində milli-ideoloji dəyərlərin inkişafı.......... 159
88. *Zülqədərova L.İ.* Heydər Əliyev və azərbaycançılıq ideologiyasının inkişafı.......... 161
89. *Мамедов Р.Ю.* Великий реформатор.......... 162

## II BÖLMƏ
## AZƏRBAYCANIN MƏDƏNİ İNKİŞAFI

1. *Abbasova G.O.* Ümummili Lider Heydər Əliyevin irsindən təlim prosesində istifadə.......... 165
2. *Abbasova S.H., Hüseynova D.Ə.* Heydər Əliyev Azərbaycan dilinin də memarı və qurucusudur.......... 166
3. *Abdullayev N.M.* Heydər Əliyevin milli təhsil strategiyası və Azərbaycan gəncliyi.......... 168
4. *Abdullayeva G.M.* Təhsilimizin inkişafında Heydər Əliyevin xidmətləri.......... 170
5. *Adıgözəlova Ş.Ə.* Ulu Öndər Heydər Əliyevin siyasi kursunda Azərbaycan dilinə münasibətin öyrədici və tərbiyələndirici məsələləri.......... 172
6. *Ağasiyev İ.K.* Müstəqil Azərbaycanda elmin inkişafına dair (1993-2003-cü illər).......... 173

7. *Ağayev T. D.* Heydər Əliyev və Azərbaycanın gələcəyini müəyyən edən perspektivlərin həyata keçirilməsi........................................................................ 175
8. *Bağırova G.N.* Kompüter sistemlərində informasiya təhlükəsizliyi.................... 176
9. *Bayramov M.C.* Azərbaycanda birgə yaşayışın və multikulturalizmin inkişafında Heydər Əliyevin azərbaycançılıq ideologiyasının rolu...................... 178
10. *Bədəlov S.B.* Heydər Əliyev və Azərbaycan mətbuatı.......................................... 180
11. *Bədəlova N.S.* Heydər Əliyevin dil siyasəti........................................................ 181
12. *Cəbiyeva G.Ə.* Heydər Əliyevin təhsil siyasəti.................................................. 183
13. *Cəlalova X.K.* Azərbaycanda siyasi mədəniyyətin multikultural ənənələri.......... 185
14. *Cəlalzadə B.M.* Dünya liderlərinin Ulu Öndər Heydər Əliyev haqqında fikirləri.............................................................................................................. 187
15. *Dadaşzadə Ə.İ.* Ümummilli lider və milli-mənəvi dəyərlər ruhunda tərbiyə....... 189
16. *Əhmədov Y.P., Əmirova S.S.* Milli-mənəvi dəyərlərin himayədarı...................... 190
17. *Əhmədova E.H.* Azərbaycan söz sənətkarlarının əsərlərində Heydər Əliyev şəxsiyyətinin tərənnümü...................................................................................... 192
18. *Ələsgərov B.İ., Əliyev A.B., Əliyeva H.N.* Heydər Əliyevin Azərbaycan folklorunun inkişafında rolu............................................................................ 195
19. *Ələsgərov B.İ., Səmədov Y.A., Cəfərov F.T.* Azərbaycan təhsil sistemi müasir dövrdə: uğurlar, perspektivlər........................................................................ 197
20. *Ələsgərov B.İ., Süleymanov S.E.* Müstəqil Azərbaycanın təhsil sahəsində Heydər Əliyevin xidmətləri və rolu...................................................................... 198
21. *Əliyeva X.Q.* Heydər Əliyev və Azərbaycanda kitabxana quruculuğu................. 200
22. *Əzizova Z.M.* Heydər Əliyev irsi Azərbaycan xalqının milli-mənəvi xəzinəsi, milli ideologiyamızın əsasıdır............................................................................. 203
23. *Əzizova Z.M., Abbaszadə G.T.* Ulu Öndər Heydər Əliyevin dil siyasəti.............. 204
24. *Fərzəliyeva M.Ç., Allahverdiyev V.S.* Azərbaycan dilinin inkişaf etdirilməsində Heydər Əliyevin rolu......................................................................................... 205
25. *Fətullayeva S.A.* Heydər Əliyevin elm və təhsil siyasəti.................................... 207
26. *Hacıyev N.M.* Heydər Əliyev və islami dəyərlərin qorunub saxlanması.............. 209
27. *Heydərova Ç.A.* Heydər Əliyev-muzeylərimizin qurucusu................................. 210
28. *Həmzəyeva N.Q.* Ümummili Lider Heydər Əliyev və mədəni irsimiz................. 211
29. *Həsənov C.H.* V. Qriqoryevin “Naxçıvan əyalətinin təsviri” əsəri Naxçıvan şəhərinin tarixinin öyrənilməsi mənbəyi kimi.................................................... 213
30. *Hüseynova A.H.* Ulu Öndər Heydər Əliyevin ədəbiyyat siyasəti və bölünmüş vətən mövzusu.................................................................................................... 215
31. *Hüseynova L.İ.* Heydər Əliyevin vətən sevgisi biz gənclər üçün örnəkdir........... 216
32. *Xəlilova S.İ.* Heydər Əliyev və müasir Azərbaycan təhsili.................................. 217
33. *Xiyalova N.B.* Ümummili Lider Heydər Əliyev və gənc nəslin təhsili məsələləri........................................................................................................... 219
34. *İbrahimova A.A.* Ulu Öndər Azərbaycan multikulturalizminin siyasi banisidir.... 220
35. *Ibrahimova N.N.* Heydər Əliyevin Azərbaycan elminin inkişafında rolu........... 222
36. *Ilyasova X.I.* SSRİ-də ideoloji inhisarçılıq şəraitində milli-mənəvi dəyərlərin dirçəldilməsində Heydər Əliyevin rolu.............................................................. 224

37. *İsazadə N.Ə.* Estetik tərbiyənin tədqiqinin elmə verdiyi töhfələr........................ 225
38. *İslamova G.N.* Heydər Əliyevin multikulturalizm kontekstində azərbaycançılıq siyasəti........................................................................................................ 227
39. *İsmayılov Ş.M.* Heydər Əliyev və Azərbaycan Respublikasının təhsil siyasəti... 229
40. *Kərimli S. S.* Heydər Əliyev və Azərbaycanda poçt rabitəsinin inkişafı (1969-1982-ci illər)........................................................................................ 230
41. *Kərimova D.A.* Azərbaycan dilinin inkişafında Heydər Əliyevin dil siyasətinin əvəzsiz rolu........................................................................................ 232
42. *Qasımova F.M.* Heydər Əliyev müstəqil Azərbaycan təhsilinin inkişafını təmin etdi........................................................................................................ 234
43. *Qasımova G.F.* Heydər Əliyev və Azərbaycanda milli-mənəvi dəyərlər........... 236
44. *Qasımova N.V.* Multikultural dəyərlər azərbaycançılıq ideologiyasının əsas komponenti kimi........................................................................................ 238
45. *Qocayev S.M.* Heydər Əliyevin hakimiyyəti dövründə həyata keçirilən mədəni tədbirlər (1993-1998-ci illər)........................................................................ 240
46. *Quliyeva N.M., Kərimov M.N.* Müstəqillik illərində Azərbaycanın təhsil sistemində Ulu Öndər Heydər Əliyevin rolu.................................................... 241
47. *Quliyeva Ş.M.* Ulu Öndər Heydər Əliyevin siyasi kursunda milli-mənəvi dəyərlərimizə münasibətin psixoloji məsələləri................................................ 243
48. *Quliyeva Z.Q.* Elita cəmiyyətin gələcəyini müəyyənləşdirir.............................. 244
49. *Məhərrəmova Ş. K.* Ana dilimizin inkişaf yolu və Heydər Əliyevin dil siyasəti. 247
50. *Məhərrəmova V.E.* Heydər Əliyevin xarici dil siyasəti...................................... 248
51. *Məmmədov A.A.* Heydər Əliyev irsi: əhəmiyyəti, tədqiqi və təbliği.................. 251
52. *Məmmədov N.R.* Heydər Əliyevin Azərbaycanda milli-mədəni dirçəliş siyasəti və Şuşa şəhərinin maddi mədəniyyətinin inkişaf etdirilməsi.............................. 253
53. *Məmmədova M.Ə.* Təhsilin idarə edilməsində Heydər Əliyevin idarəçilik təcrübəsindən istifadə........................................................................................ 255
54. *Məmmədova R.M.* Nitq mədəniyyəti və dahi şəxsiyyət Ulu Öndər Heydər Əliyev........................................................................................................ 256
55. *Məmmədova Y.X.* Təhsil sahəsində gənclərə göstərilən dövlət qayğısının əsas perspektivləri........................................................................................ 258
56. *Məsimova S.S.* Heydər Əliyev türk dünyasının böyük tarixi şəxsiyyətidir.......... 260
57. *Musayeva Ş.X.* Heydər Əliyev şəxsiyyəti tarixin xalqımıza ən böyük töhfəsi idi........................................................................................................ 262
58. *Mustafayeva G.M.* Heydər Əliyev və Azərbaycanda milli mənəvi dəyərlərin qorunması........................................................................................ 264
59. *Mustafayeva J.Ə.* Ulu Öndər Heydər Əliyev və gənc nəslin tərbiyə məsələləri... 266
60. *Niftiyev F.Q.* Azərbaycanın sosial və mədəni inkişafında Heydər Əliyevin rolu. 267
61. *Sadıqov H.Ş.* Heydər Əliyev Sumqayıtda.......................................................... 269
62. *Sadıxov A.F.* Heydər Əliyev və milli-mənəvi dəyərlər........................................ 270
63. *Vəliyeva S.V.* Heydər Əliyev və Azərbaycan dili................................................ 272

64. *Yusifova S.F.* Heydər Əliyev mənəvi dəyərlərin qarantıdır................................. 273
65. *Асадова А.В.* Мультикультуральная и толерантная среда в Азербайджане.. 275
66. *Дадашева Х.К., Айдамирова Ф.Б.* Великий лидер - создатель независимого государства.......................................................................................... 276
67. *Мамедова Х. А.* Простые и сложные словосочетания в современном русском языке........................................................................................ 278


## III BÖLMƏ
## AZƏRBAYCANIN XARİCİ SİYASƏT KURSUNUN FORMALAŞMASI


1. *Alıcanov M.* AXC-nin ərazi bütövlüyü uğrunda Azərbaycan ordusunun mübarizəsi........................................................................................ 280
2. *Abbaszadə N.M.* Müstəqilliyimizin qorunmasında Heydər Əliyevin xarici siyasət kursunun əhəmiyyəti.......................................................................... 283
3. *Ağamalıyeva V.Ş.* Müstəqilliyimiz Heydər Əliyevin amalı idi.......................... 285
4. *Ağamirzəyeva E.H.* Heydər Əliyev Azərbaycanın müstəqil xarici siyasətinin banisidir........................................................................................ 286
5. *Aslanov A.H.* Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur.................... 288
6. *Baxşəliyev A.B.*Heydər Əliyev müstəqil Azərbaycanın xarici siyasət kursu strategiyasının yaradıcısıdır.......................................................................... 289
7. *Bayramova Ü.M.* Azərbaycanın dövlətçilik tarixində Heydər Əliyevin rolu....... 292
8. *Cəfərov P.*T. Heydər Əliyev və Azərbaycan - Gürcüstan münasibətləri............ 293
9. *Əhmədov R.V.* Heydər Əliyev və neft strategiyasının təməli............................. 295
10. *Ələsgərov B.İ., Səmədov Y.A.* Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusudur........................................................................................ 297
11. *Əsədova X.İ., Əliyeva F.B.* Heydər Əliyevin hakimiyyətinin ilk illərində Azərbaycanın xarici siyasətinin əsas prioritetləri............................................... 298
12. *Əsgərov Q.A.* Heydər Əliyev və sərhəd təhlükəsizliyi....................................... 299
13. *Həsənova Ə.A.* Heydər Əliyev və neft strategiyası........................................... 301
14. *Həşimov D.S.* Azərbaycan və ikili standartlar siyasətinin tənqidi....................... 303
15. *Hüseynov X. A.*Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olduğu dövrdə Naxçıvan-Türkiyə əlaqələri................................................ 304
16. *Xaspoladova S.A.* Ulu Öndər Heydər Əliyev və Azərbaycanda gənclər siyasəti. 307
17. *İsayev Ə.İ.* Müstəqil Azərbayanın beynəlxalq münasibətlər sisteminə qatılmasında Ulu Öndərin rolu.................................................................... 309
18. *Karademir H.S.* XX əsrin 90-cı illərində Azərbaycan-Türkiyə iqtisadi əlaqələri........................................................................................ 310
19. *Kərimova S.Ə.* Müstəqil Azərbaycanın xarici siyasətinin Heydər Əliyev dövrü.. 312
20. *Qasımov N.A.* Azərbaycan dövlətinin xarici siyasət kursunun formalaşmasında Heydər Əliyevin rolu.......................................................................... 314
21. *Qasımova N.Z.* Heydər Əliyev Qafqazda sülh prosesinin alovlu carçısıdır......... 316
22. *Qasımova T.M.* Heydər Əliyev siyasətində insan hüquq və azadlıqları............... 318

23. *Mədətzadə K.M.* Sosial tərəqqi və xarici siyasətdə uğurlar.................................. 320
24. *Məhərrəmova S.S.* Azərbaycan Respublikasının Avropa Şurası ilə münasibətləri........................................................................................................ 321
25. *Musayev E.A.* Azərbaycan müstəqilliyini əldə etdikdən sonrakı ilk illərdə ictimai-siyasi vəziyyət və Heydər Əliyevin dövlətçilik mübarizəsi..................... 323
26. *Musayev E.A.* Heydər Əliyev və GUAM çərçivəsində Azərbaycan - Ukrayna arasında regional əməkdaşlığın inkişafı............................................................ 325
27. *Ramazanova Q.Ə.* Azərbaycan dövlətinin xarici siyasətinin formalaşmasında Heydər Əliyevin rolu.......................................................................................... 326
28. *Səlimov Ş.D.* Azərbaycan neft sənayesinin inkişaf etdirilməsində Heydər Əliyevin rolu.......................................................................................................... 327
29. *Süleymanlı D.Q.* Azərbaycan Respublikası neft strategiyasının formalaşmasında Heydər Əliyev imzası............................................................ 330
30. *Кулиева Т.А.* Влияние Гейдара Алиева на развитие региональной политики.......................................................................................................... 331
31. *Маммедова Н.Х.* Национальная Идеология Азербайджанцев Мира–Азербайджанство.......................................................................................... 333

| | |
|---|---|
| Kompüter yığımı | *A.Bayramova* |
| | *A.Adilova* |
| | *İ.Qarayeva* |
| Texniki redaktor | *E.Həsrətova* |
| Dil dəstəyi | *Linqvistik mərkəz* |
| Məsul katib | *dos. S.Xəlilov* |

Çapa imzalanmışdır: 07.05.2018-ci il
Mətbəə kağızı, kağızın formatı: 70*108 ¼
Yüksək çap üsulu. Həcmi: 34,06 ş.ç.v.
Sifariş 39. Tiraj 250 nüsxə.

-------------------------------------------------------

Sumqayıt Dövlət Universiteti
Redaksiya və nəşr işləri şöbəsi

**Müxbir ünvan:**

Azərbaycan, 5008, Sumqayıt, 43-cü məhəllə
Tel: (0-12) 448-12-74
(0-18) 644-88-10
Faks: (0-18) 642-02-70

**Web: www.sdu.edu.az**